Nazir Əhmədli

NADANLIQ

BAKI-2018

Necəsən qanmayım, atan yansın?

Mirzə Cəlil.

“Haqq-nahaqq seçilər Haqq divanında” (2017) kitabını yazanda bu məsələnin müəyyən diskomfort doğuracağını irəlicədən gördüyümə görə, Aşıq Ələsgərin bir şeirindən götürdüyüm misranı həmin kitaba başlıq seçmişdim. Amma nəticə mən gözlədiyimdən də kəskin oldu.

Əvvəlcə onu deyim ki, respublikanın əksər ziyalıları bu kitabı böyük maraqla qarşılayıb məni təbrik etdilər. Məşhur aşıqlarımızın doğum tarixləri ilə bağlı üzə çıxartdığım həqiqətlər ölkədə əsil sensasiya doğurmuşdu. Hamı məni təbrik edirdi. Amma indiki kitabın mövzusu bu barədə deyil, onu qərəzlə, kinlə, süngü ilə qarşılayanlar haqqındadır.

Günlərin birində, televiziya kanalında Aşıq Alı haqqında getmiş verilişlə bağlı facebook səhifələrində verilişə dəvət olunanların düzgün seçilməməsindən narazı qalan ***Mürvət Yusifov*** adlı bir nəfər aparıcını kəskin şəkildə tənqid edirdi. Bu müzakirəyə mən də qoşuldum və Aşıq Alının indiyə qədər təqdim edildiyi kimi 1801-ci ildə deyil, xeyli gec doğulduğunu yazdım. Elə o vaxtdan da bu kinli və qərəzli adamla mübahisələrimizin təməli qoyulmuş oldu.

BAŞLANĞIC

23 aprel 2017

Facebook-da söhbət

Mürvət Yusifovun statusunda söhbət.

Nazir Əhmədli: Ələsgərlə Alının ikisi də türkdür. Ələsgər qarapapaq, Alı isə ayrımdır. Ağ Aşıq isə milli tayfasına mənsubdur. Doğum tarixləri: Ələsgər 1852-ci il; Alı 1835-ci il; Ağ Aşıq 1791-ci il.

24 apral 2017.

Murvet Yusifov: Nazir bəy, təvəllüdlər düz ola bilməz. Ələsgərin 100 ildən çox yaşaması haqda dəlillər çoxdu.

Nazir Ahmedli: Ələsgər düppədüz 74 il yaşayıb.

Murvet Yusifov: Ələsgərin 100 yaş ətrafında yaşaması inkar edilə bilməz [1] .Çünki bu barədə həm yaşlı adamların dedikləri, həm də övladlarının yaşı da siz göstərdiyiniz rəqəmi təsdiqləmir.

Fəridə Qədimova: Belə çıxır ki, Aşıq Ələsgərin oğlu Aşıq Talıb, nəvəsi rəhmətlik İslam Ələsgərov öz dədə-babasının doğum tarixini bilmirmişlər. Lap tutaq ki, dəqiq tarix bilinməsin, bəs bunun övladları arasında yaşadığı ömrə kim nə deyə bilər? Qəribədir, özümüz öz tariximizə şübhə yaradırıq..

Nazir Ahmedli: Fəridə xanım, onlar nəinki doğum tarixlərini düzgün bilməyib, hətta Alməmmədin qardaşı Allahverdini indiyə qədər onun atası kimi qələmə veriblər. Halbuki, Allahverdi onun böyük qardaşıdır. Atalarının adı isə Haxverdidir. Bu qədər bəsit. Aşıq Alı 1835-ci ildə Şişqaya kəndində doğulub və əgər 1911-ci ildə ölübsə, deməli 110 il deyil, 76 il yaşayıb.Aşıq Talıb da 102 il yaşamayıb.

Fəridə Qədimova: Nazir müəllim, yəni bu qədər də səhv etmək olarmı? Bu heç inanılası bir fakt deyil

Murvet Yusifov: Aşıq Ələsgərin 40 yaşında ailə qurması necə?

Nazir Ahmedli: Ediblər, Fəridə xanım. Kitabım 15 günə çıxacaq, orada hamısını sənədlərlə sübut edirəm. Ələsgərin 40 yaşında evlənməsi də düzgün deyil, 25 yaşında evlənib. 1876-cı ildə Alını bağlayıb, yəni 24 yaşında ondan ayrılıb və 1 ildən sonra

---

[1] Facebook yazışmalarında həddindən artıq imla və üslub səhvləri var. Onların hamısını düzəltmək mümkün olmadı. Gücüm çatan qədər düzəltdim, amma sonra fikirləşdim ki, qoy oxucular rəy yazanların ağıl səviyyəsini gördüyü kimi, Azərbaycan dilində hansı savada malik olduqlarını da görsünlər.

Həm də taleyin istehzasına bax ki, məni söyənlərin, təhqir edənlərin üstəlik yazdıqlarını da xeyli əziyyət çəkib düzəltməliyəmmiş! Ona görə də bu ağır və ədalətsiz işi sonadək görmədim.

evlənib. Bəşir də 1882-ci ildə doğulub. Ondan 10 yaş balaca olan Talıb isə 1892-ci ildə doğulub.

Murvet Yusifov: Gəlin bu veriliş haqqında, yəni status haqqında fikir bildirək.Bunlar bu cür veriliş hazırlamaqda haqlıdılarmı Nazir bəy!

Niftali Goyceli: Nazir Əhmədli, siz bu sözləri ya bilərəkdən, ya da nə isə, başqa məqsədlər üçün deyirsiz....

Nazir Ahmedli: Hansı sözləri, Niftalı Göyçəli?

Niftali Goyceli: Nə isə, davam edin, çox təəssüf və təəccüb edirəm...

Nazir Ahmedli: Nəyə təəccüb və nəyə təəssüf edirsiniz, Niftalı müəllim? Bəyəm mən kimisə təhqir etmişəm? Əgər böyük ustadlarımızın doğum tarixlərini düzəldirəmsə, bu onların miqyasını kiçiltmir ki. Əlimdəki sənədlər bunu göstərir. Arxiv sənədləridir. Siz Göyçənin hansı kəndində doğulmusunuz? Həmin kənd haqqında da Sizə məlumatlar verə bilərəm. Bütün Göyçə mahalı haqqında əlimdə sənədlər var. Niftalı müəllim, Ardanış kəndində oxuduğunuzu internetdən tapdım. Yəqin Tanrıverdi Paşayevi tanıyırsınız. Xahiş edirəm mənim özüm və məndəki sənədlər haqqında ondan soruşasınız.

Qabil Zimistanoğlu: Mən də Nazir bəyin bu versiyasına inanmıram. Bu tarixləri haradan götürüb, bilmirəm. Amma onunla razıyam ki, bəli Ələsgər də, Alı da türk olub. Ağ Aşığın Milli tayfası olması haradn çıxdı, bilmirəm. Bu faktları Nazir bəy haradn götürüb bilmirəm.

Nazir Ahmedli: İxtiyar sahibisən, Qabil müəllim, hər kəsin inanmaq və inanmamaq hüququ var. Amma mənim iddia etdiklərim sənədlərə əsaslanır.

Qabil Zimistanoglu: Hası sənədlərə, Nazir bəy?! Olarmı o sənədlərin surətinə mən də baxım!!! Aşıq Alının 110 yaş, Ələsgərin isə 105 yaş yaşadığı tarixi faktdır

Nazir Ahmedli: Sənədlər kitabımda veriləcək!!! Tarixi fakt odur ki, sənədlə sübut edilsin. Əlinizdə hansısa bir sənəd varmı?? Sənədin adı belədir: “Göyçə mahalının Kameral təsviri. 1831-ci və 1842-ci illər”.

Qabil Zimistanoglu: Aşıq Alının anadan olduğu kəndlə bizim kənd arasında dağla 4-5 km yol idi. Aşıq Alını görən yaşlı sakinlər var idi. Onların danışıqları ilə sənin dediklərin üst-üstə gəlmir. Oların doğum şəhadətnamələri varmı əlinizdə o zaman sənəd var idi ki?

Nazir Ahmedli: Sənədin adını yazdım, həmin tarixlərdə tərtib olunmuş dövlət sənədidir. Rus dilində tərtib olunub və dövlət arxivlərində saxlanılır. Mənsub olduğum Dərələyəz mahalının Kameral siyahısını (1831-ci və 1842-ci illər) dərc etmişəm. Aşıqlar haqqında yazdığım "Haqq-nahaqq seçilər haqq divanında" kitabından sonra Göyçə mahalının Kameral siyahılarını da nəşr etməyi planlaşdırıram.

Qabil Zimistanoglu: O ki, qaldı Mürvət bəyin "Ozan" verilişində Qorxmaz bəyin ayrı-seçkilik salmasına, görünən dağa bələdçi lazım deyil. Mən Mürvətin bəyin bu fikri ilə razıyam. Burada ayrı-seçkilik açıq-aydın hiss olunur. Bu isə böyük bir mahalın nümayəndələrinə hörmətsizlik deməkdir. Həmin dövrdə tərtib oluna bilər. Amma onların təvəllüd tarixlərinin həmin sənədlərdə doğru olub-olmadığına kim zəmanət verə bilər ki? O dövrdə savadlı insanlar az idi. Ruslara Aşıq Alı və ya Aşq Ələsgərin doğum tarixləri deyil, orada olan əhalinin sayı lazım idi ki, necə etsinlər oradakı türklərin sayını azaltsınlar Ruslar ağ günlərində türklərin yaşadığı ərazilərdə siyahıyaalınmanı keçirmirdilər

Nazir Ahmedli: O vaxt əhalini siyahıya alırdılar, yəni Qızılvənk, yaxud başqa kənd olsun, bütün sakinləri siyahıya alıblar, Alı Mirzə oğlu da 1842-ci ilin Kameral siyahısında Şişqaya kəndində, 7 yaşında qeyd edilib.

Taleh Əlioğlu Vəliyev: Nazir müəllim fikirləri oxuyuram, düzü heyrətə gəlirəm.Mənim nə babalarımdan nədə atamdan şəcərəmizi yaxşı bilən əmim Qəşəm müəllimdən nə də AŞIQ ALI babamla bağlı axtarışlardakı görüşdüyüm insanlardan nə indiyə tək sizə qədər hec kimdən eşidməmişəm ki, AŞIQ ALI Şişqayadandır. 1911 ci ildə 07 iyul günü AŞIQ ALI Qızılvəng qəbirstanlığında dəfin olunub. Babam Ələkbər Məmmədovun o

zaman 21 yaşı varmış, o dəfində şəxsən işdirak edib. Babam Alı babasının yanında böyüyüb.

Murvet Yusifov: Bu hesablamalarla Aşıq Alının təvəllüdünü hesablayanda gedib hara **çı**xır. Nazir bəyin istinad etdiyi sənədlərdə dolaşıqlıq var.

Taleh Əlioğlu Vəliyev: Mürvət müəllim AŞIQ ALI Qızılvəng kəndində 1801-ci ildə doğulub.

Qabil Zimistanoglu: Deməli, burada aydın görünür ki, siyahıyaalma başdansovdu keçirilib. Mirzə kişi Şişqayalı yox, Qızlvəngli olub. Bunu Göyçədə uşaqdan böyüyə hamı bilir

Nazir Ahmedli: Qabil müəllim, təkcə türkləri yazmayıblar, ermənilərin də siyahısı var. Göyçə mahalında 1831-ci ildə əhali yaşayan 59 kənd var idi. Hansı kənddə kimlər yaşayıb və neçə yaşı var, hamısı yazılıb. O vaxt Göyçədə 999 müsəlman ailəsi var idi, hamısı siyahıya alınıb. Mirzə kişi və qardaşı Nəbi 1850-ci illərdə Qızılvənkə köçüblər. Nəbi də 1850-ci ildə doğulan oğlunun adını Qərib qoyub.

Qabil Zimistanoglu: Ermənləri də o dövrdə Basarkeçərə ruslar yerləşdirib. Müxtəlif sənət sahibləri kimi. 1831-ci ildə Basarkeçərə 9 erməni ailəsi yerləşdirilib

Murvet Yusifov: Nazir müəllim siz həmin vaxt Göyçə mahalında 1.485 erməni ailəsi olduğunu da həmin sənədlər əsasında iddia edirsiniz.Bu ağ yalandı.

Nazir Ahmedli: 1831-ci ildə nə Ağkilsə, nə Qızılvənk, nə də Kərkibaş kəndlərində heç kim yaşamırdı, yaşayış yox idi.

Qabil Zimistanoglu: Mirzə kişininin Məşədi Salehdən bu yana olan babaları Qızılvənkdə dəfn olunubsa, o necə köçə bilər? Burada həqiqəti təhrif edirsiniz. Qızılvənk tarixi kənd olub. Orada alban kilsəsi olub. Teymurləng Naxçıvana oğlu Miranşaha köməyə gedəndə Qızlvəngdə olub. Onun qoşunu qarın yatalağı xəstəliyinə tutulub. ***Qiblə bulağının***[2] başında düşərgə salb. Məhz Qiblə bulağının suyundan istifadə etdikdən sonra Temurləngin qoşunu bu bəladan qurtarıb.

[2] Facebook-da yazılanlardakı kursiv mənimdir-N.Ə.

Qabil Zimistanoğlu burada vəcdə gələrək nə vaxtsa məşğul olduğu jurnalist fəaliyyətini unudub köhnə ampluasına-aşıqlığa qayıdır və fantastik şeylər uydurur![3]

Nazir Ahmedli: Ayıbdır, Mürvət müəllim. Həmin rəqəmlər İ.Şopenin 1852-ci ildə nəşr olunan kitabında var. Keçən dəfə də sizə dedim, Şopen çox vicdanlı adam idi. Yazıb ki, Göyçədə cəmi 15 yerli erməni ailəsi var. Qalan 1.485 ailənin də Türkiyənin Bəyazid Paşalığından gətirildiyini yazır. Ona görə də sonradan Göyçə mahalının adını dəyişib Novobəyazid qəzası ediblər.

Qabil Zimistanoglu: Şopen deyə bilər. Çünki 1852-ci ildə olub. Doğrudur. Onlar 1831-ci ildə yerləşdirilən ailələrdir

Nazir Ahmedli: Qabil müəllim, Şopenin kitabı 1852-ci ildə çıxıb, amma məlumatlar 1831-ci ilə aiddir

Qabil Zimistanoglu: Göyçə mahalının adı dəyişməyib. Sadəcə Kəvərin (o zaman ora Yeni Bəyazid deyirdilər) adını dəyişib, NovoBəyazid qoyub və qəza yaradıblar.

Qabil Zimistanoglu: Bundan sonra tarixi adların dəyişməsi mərhələsi başladı

Murvet Yusifov: 1834-cü ildə.Keçən dəfə də sizə bildirdim ki, burda ciddi səhv var.1960-cı illərə qədər Göyçə mahalının 80 faizi türklər olub.Rus tarixçiləri türk adı çəkməyə canları çıxıb həm də türk yox müsəlmanlar yazırdılar.

Qabil Zimistanoglu: bəli, dediyim kimi 1831-ci ildə Basarkeçərə 9 erməni ailəsi köçürülüb, rusların dəstəyi ilə. Doğrudur, Mürvət bəy, sənինlə tam razıyam. Fakt belə olub

Nazir Ahmedli: 1831-ci ildə tərtib edilən sənədin adı "Göyçə mahalının Kameral təsviri"dir. 1852-ci ilə aid sənəd isə "Novobəyazid qəzasının Kameral təsviri" adllanır.

[3] Təzə abzasdan qara kursivlə yazılanlar mənim şərhlərimdir.

Qabil Zimistanoglu: Siyahıyaalınma düzgün aparılmayıb. Ruslara necə sərf edib, elə yazıblar. Qızlvəngdə alban kilsəsinə Teymurləngin xəzinəsinin bir hissəsini qoyulduğu faktdır

Q.Zimistanoğlu dastan danışmağında davam edir: "Qızlvəngdə alban kilsəsinə Teymurləngin xəzinəsinin bir hissəsini qoyulduğu faktdır". Əmir Teymur xəzinəsinin bir hissəsini niyə orada qoymalı idi? Ən əsası isə, bu "fakt" harada qeyd olunub?

Qabil Zimistanoglu: Deyirsiniz Qızlvəngdə adam yaşamayıb

Nazir Ahmedli: Qızılvənk, Ağkilsə və Kərkibaş kəndləri ilk dəfə 1842-ci ilin Kameral siyahısında qeydə alınıb.

Qabil Zimistanoglu: Bu yanaşmanız doğru deyil, Nazir bəy! Qızlvənkgdən Çamırlıya gedən yolda Oğuz türklərinin qəbri olub, 1988-ci ilədək. Bunu oranı görən hər bir Göyçəli təsdiq edə bilər. Bu faktları hara atmaq olar? Siz üzr istəyirəm, onda ermənilərin dəyirmanına su tökmüş olarsınız. İlk dəfə qeydə alına bilər. Amma faktiki həmin kəndlər olub

Nazir Ahmedli: Kərkibaş kəndini 1831-ci ildə Daşkənd kəndində yaşayan 13 kərkibaş ailəsi yaradıb və kəndə də öz adlarını veriblər.

Qabil Zimistanoglu: Neçə kəndlər Rusların işğalından sonra Göyçədən silinib. Onlara da diqqət etmək lazımdır.

Nazir Ahmedli: 1831-ci ilin siyahısında Göyçə mahalının boş kəndlərinin siyahısı verilib, 70-ə yaxın kənddir, Ağkilsə və Qızılvənk onların arasındadır.

Nazir Ahmedli: Amma 1842-ci ildə onlar artıq məskunlaşdırılmışdı.

Murvet Yusifov: Qardaşlar statusun ətrafında fikrinizi bildirin.

Qabil Zimistanoglu: Teymurləng Qızlvəngdə "Qiblə" bulağının başında qoşunu ilə düşərgə salanda orada yaşayanlar olub. Qoşun bulağın suyu ilə sağaldığına görə, Qızlvəng vergidən

azad olunub. Əhali incidilməyib. Mən fikrimi bildirdim, Verilişdə ayrı-seçkilik hiss olunur. Əvvəl İsmayıl Ömərov bu şəraiti yaratmışdı, indi də yəqin indiki rəhbərlik. Aşıq Alı nahaq yerə Qiblə bulağını vəsf etmirdi.

Uydurma davam etdirilir.

Nazir Ahmedli: Və kənddə yaşayan bütün əhalinin siyahısı təqdim edilir, bunlar rəsmi sənədlərdir. Bu sənədlərin əsasında vergi yığırdılar. Heç bir səhv ola bilməz.

Qabil müəllim, sizinki hansı kənddir?

Qabil Zimistanoglu: Mənim yaşadığım kənd Subatandır. Qızlvənglə aramızda dağ yolu ilə 4-5 kilometr məsafə var idi. Mənim atamın əmisi Aşıq Alını görmüşdü. Qaçaqaçda 106 yaşında dünyasını dəyişdi. O, Aşıq Alını əzbərdən bilirdi, həmişə də Aşıq Alını Qızlvəngli Aşıq Alı kimi xatırlayırdı.

Nazir Əhmədli: Aşıq Alıya böyük hörmətim var, sənin kitabına da istinad vermişəm, Ə.Əmirovla Ş.Əsgərovun onu kürd çıxarmaq cəhdlərini düzgün olaraq tənqid etmisən. Amma mən onun türk olduğunu şifahi yox, sənədlə sübut etmişəm. Aşıq Alının qızılvənkli olmadığını demirəm, deyirəm ki, atası və əmisi 1850-ci illərdə oraya gəliblər.

Qabil Zimistanoglu: Nazir bəy, gəl belə danışaq, Aşıq Alı Şişqayada anadan olsaydı, Aşıq Alının özü də deyərdi ki, Şişqayalıyam. Çünki Şişqaya Göyçənin sayılıb-seçilən kəndlərindəndir. Day niyə deyirdi ki, "Mahalım Göyçədir, kəndim Qızlıvəng, Aşıq Alı təkdir, təkə tək gərək"

Nazir Ahmedli: Aşıq Alı 1856-cı ildə nişanlanıb, 1857-ci ildə evlənib, 1858-ci ildə böyük oğlu Abdulla doğulub.

Murvet Yusifov: Nişanlandığı, evləndiyi də Şopenin yazısındadımı Nazir bəy? Yəqin ki, yoxsa rusların iş-gücü qurtarmışdı, elə onlara Aşıq Alının nişanlandığı və ya evləndiyi tarix lazımıydı ki, qeyd etsinlər))) Nazir bəy, yəqin Daşkəndliləri Kərkibaşa aparmaqda deyəcəksiniz ki, Daşkəndli şair Məhəmmədhüseyn də Kərkibaşlı olub, elə deyilmi?

Nazir Ahmedli: Yox, Şopenin yazısında deyil. 1859-cu ilin Kameral siyahısında oğlu Abdullanın 1 yaşı, Alının 24 yaşı var. Buradan da Abdullanın 1858-ci ildə doğulduğu məlum olur. Onun 1858-ci ildə doğulması üçün Alı 1857-ci ildə evlənməlidir. Qabil Zimistanoğlunun təqdim etdiyi "Aşıq Alının Türkiyə səfəri" dastanından belə məlum olur ki, o nişanlanandan sonra başlığı toplamaq üçün Duraxan və Əsədlə Türkiyəyə gedib və 1 ildən sonra qayıdıb, söz verdiyi pulu gətirib. Buradan məlum olur ki, 1856-cı ildə nişanlanıb. Bəlkə mən səhv edirəm?

Qabil Zimistanoglu: Nazir bəy, tarix səhvdir. Aşıq Alı toy pulunu toplamaq üçün bir illiyə Türkiyəyə gedib, amma bir az gecikib, bir ildən bir az çox Türkiyədə qalıb.

Murvet Yusifov: Bu da tarixi müəyyənləşdirmək üçün dəqiq zəmin deyil. ***Bir də 74 yaş Göyçə mühiti üçün az ömürdü.*** Bəs niyə Alının 110, Ələsgərin 105 il ömür sürdüyünü demişdilər. 5-3 il fərqi anlamaq olar. ***Mən bu işlərlə yaxından tanış olmasam da məntiqi baxımdan fikir yürüdürəm***.

Qabil Zimistanoglu: Yəqin Daşkənd, Qızılvəng dağ kəndi olduğu üçün ruslar həmin dövrdə gedib ora çıxa bilməyiblər ki, siyahını da düzgün tərtib etsinlər

Murvet Yusifov: Mən İslam müəllimin[4] yazılarını yox, yaşlı əhalinin danışığını əsas götürürəm.

Qabil Zimistanoglu: Hər halda insanları canlı şəkildə danışdırıb yazırsa, əlbətdə ki, qəbul etməliyik. Onların tarixi elə də uzaq tarix seyil. Alını da, Ələsgəri də görən kişilər olub və onları görənləri də biz dinləmişik. Biz canlı şahidlərə inanaq, yoxsa rusların saxta versiyalarına.

Murvet Yusifov: Burda maraqlı nüans var. Şopenin yazdıqlarına indiyə qədər araşdırmaçılar niyə diqqət etməyib? Bir halda ki, bu qədər ciddi fərqlər var.

Nazir Ahmedli: Səhnəbanı haqqında yazılanlar da uydurmadır. 1873-cü ilin siyahısında Ələsgər 21 yaşında, Mustafa 15 yaşında göstərilib və hər ikisi də subaydır. Kərbəlayi Qurbanla

[4] Söhbət Aşıq Ələsgərin nəvəsi və tədqiqatçısı İslam Ələsgərovdan gedir.

Məhərrəm isə vəfat ediblər. Kərbəlayi Qurban da uydurulduğu kimi varissiz deyil, Həsən adında 8 yaşında oğlu var.

Qabil Zimistanoglu: Yadımdadır ki, Şair Məhəmməd-hüseyndən aşıqlara sifariş veriləndə onlara Daşkəndli Məhəmmədhüseyndən oxu, deyərdilər. Şair Məhəmmədhüseynin tədqiqatçısı Araz Yaquboğlu bəyin kitabında da başqa fakta rast gəlmədim. Ələsgərin Səhnabanı ilə eşq məsələsini görəsən kim uydurub, Nazir bəy?! Bu barədə sizdə hansısa bir fakt varmı?

Uzun illərdir aşıqlıq edən Q.Zimistanoğlu göründüyü kimi Şair Məmmədhüseynin adını təhrif edərək iki dəfə "Məhəmmədhüseyn" yazır.

Nazir Ahmedli: Məmmədhüseynin Daşkəndli olduğuna etiraz etmirəm, kitabıma da ondan 4 şeir salmışam, çox xoşuma gəldi. Qızılcıq kəndi dağılandan sonra, çox güman ki, başqaları kimi Hacı Muxana deyil, Daşkəndə gediblər. Ələsgərin Səhnəbanını sevməsini uydurma adlandırmadım, guya Pullu Məhərrəmin onu zorla oğlu Mustafaya alması uydurmadır. Çünki onlar hələ evlənməmişdən qabaq Məhərrəm ölmüşdü.

Murvet Yusifov: Göyçədə bir psixologiya da vardı.Əgər Alı Şişqayada doğulmuş olsaydı, nəinki Alya, onun oğluna da Şişqayalı deyərdilər.

Qabil Zimistanoglu: Nazir bəy, mən onun Qızılcıq kəndindən olduğu barədə birinci dəfədir sizdən eşidirəm. Həqiqətən, Şair Məhəmmədhüseyin ***(yenə Məhəmmədhüseyn!)*** savadlı, dərin elmə və dünyagörüşə malik bir şəxs olub. Hətta ağsaqqallar söhbət edirdi ki, şair dünyadan köçəcəyi günü əvvəlcədən bilib və deyib. Bəli, Mürvət bəy! dediyim kimi Şişqaya Göyçənin sayılıb seçilən kəndlərindən olub. Aşıq Alı oralı olsaydı, onu açıq şəkildə deyə bilərdi. Necə Şişqayalı Aydın deyirlər, onun kimi Aşıq Alının şəyirdlərindən biri də bizim kənddən olub. Aşıq İsə. Gəlib üç gün kənddə qalıb və Aşıq İsəni də özü ilə birgə şəyird kimi Qızılvəngə aparıb

Murvet Yusifov: Yadınızdadısa, deyirdilər flan kəndçi flan qarının nəvəsidi. Həmin qarı flan kənddən gəlin gəlibmiş

Qabil Zimistanoglu: Aşıq Talıbın oğlu Aşıq Haqverdi hazırda Daşkəsənin Bayanında yaşayır. Onun söhbətinin şahidiyəm. Bir dəfə məclislərin birində söhbət edirdi ki, rəhmətlik atası Talıb kişi deyirmiş ki, uşaq idim, dədəmlə çölə gedirdik. Yolda Səhnəbanı ilə rastlaşırlar. ... Dediyim odur ki, göyçəlilər Şişqaya kəndindən çıxan sənətkar kimi Aşıq Aydını tanıyırlar. Ona Şişqayalı Aydın deyə müraciət ediblər Bir söz deyim, Pullu Mustafanın [5] da, Aşıq Ələsgərin də törəmələri Gəncədədirlər. Onlar qohumluq əlaqələrini gücləndirmək üçün bir-birləinə qız verib, qız alıblar. Tək göyçəlilərin deyil, onların da danışığının şahidiyəm ki, Səhnəbanını Aşıq Ələsgərə verməyən Pullu Məhərrəm olub. Amma bir-birləri ilə qohumluq əlaqələrini gücləndiriblər ki, tayfalar arasında olan soyuqluq aradan qalxsın. Doğrusu, dəqiq bilmirəm, onu Şişqayalılardan öyrənib, yazaram Kameral siyahıda Subatan kəndinin adı düşübmü? Aydın sonralar yaşayıb. Amma Subatanın tarixi aşağısı XVII əsrə gedib çıxır. Qəbristanlıqda tapılan bir qəbir daşının üzərində 1739-ci il yazılmışdı. bu isə o deməkdir ki, demək həmin dövrdən əvvəl orada yaşayanlar olub Onu doğru deyirsiniz. O, kril əlifbasında yazılmamışdı. Hicri-qəməri ıılə yazılanı hesablayıb, həmin dövrə aid etdilər Ondan əlavə kənddən kənarda qəbristalıqlar da olub. "Sutökülən" deyilən ərazidə su oyuq yaratmışdı, oturaq vəzsiyyətdə insan skletinin tapıldığının çoxları şahidi olub. Ola bilər. Onun hicri-şəms, yada hicri-qəməri ilə yazıldığını dəqiq bilmirəm. Amma hesablayıb dedilər ki, 1739-cu ilə düşür Bəli, elə görünür, istilalar dövründə kənd xarabazarlığa çevrilir, sonra məskunlaşma prosesi gedir Hər halda Göyçənin məşhurları ilə bağlı yazacağınız fikirlər mübahisə predmeti olacaq. Amma özlüyündə siyahıyalmadan müsbət mənada yararlanmaqla xalqımızın xeyrinə çox şeylər yazmaq olar. Dərələyəzlə bağlı nəşr olunan kitabı haradan əldə etmək olar? Əli müəllimi yaxşı

[5] Məhərrəmin adını oğlu Mustafa ilə dəyişik salır

tanıyıram. Münasibətimiz də yaxşıdır. Kitabın ön sözünü və rəyi tanınmış alimlər yaza bilər. Buna sözüm yox. Çünki kitabınızda kameral sənədlərə istinad edirsiniz. Amma bu o demək deyil ki, tanınmış alimlərimiz Göyçəni yaxşı tanıyırlar. Göyçədən yazmaq üçün həm də Göyçəni yaxşı tanımaq lazımdır

Sonralar köçün tarixini dəqiqləşdirdim. Alının atası Mirzə Ovçu oğlu və Mirzənin qardaşı Nəbi öz ailələri ilə s 1856-cı ildə Şişqaya kəndindən Qızılvənk kəndinə köçüblə).

Murvet Yusifov: Nazir bəy, 1834-cü ildə 1.485 erməni ailəsi Göyçəyə yerləşdirilmişdisə bunlar necə oldu, kim bunları çıxartdı.Bir halda ki, onları ruslar yerləşdirmişdi və 1828-ci ildən o torpaqlarda ruslar hakim idi. Bir araşdırmaçı kimi bunun fərqində olmusunuzmu?

Murvet Yusifov: Şopenin sözünə görə 1834-ci ildə 999 türk ailəsi, yerləşdirilənlərlə birlikdə 1500 erməni ailəsi olub.Soruşuram ki, bu ermənilər Göyçədən kim qovdu? Axı artıq əraziyə ermənilərin böyük qardaşları nəzarət edirdi.Sovet arxivlərində də Göyçə mahalında türklərin sayı ermənilərdən çox olub.Araşdırmaçı kimi siz Şopenin yazılarına niyə bu qədər inanırsınız?

Burada M.Yusifovu narahat edən həmin məsələni izah etməyə ehtiyac var. Məsələ burasındadır ki, M.Yusifovun özü də, özündən razı olan digərləri də Göyçə gölünün cənub sahillərini Göyçə mahalının ərazisi hesab etmirdilər, daha doğrusu, bunu bilmirdilər. Hətta Toxluca, Ardanış və bir sıra kəndləri də Göyçə mahalına aid etmirdilər. Yalnız Basarkeçər rayonunun ərazisini Göyçə sayırdılar. Həmin ərazi isə Göyçə gölünün şərq və şimal-şərq hissəsindəki ərazilərdir. Ermənilərin Göyçə gölünün cənubuna köçürüldüyü ərazilər sovet hakimiyyətinin vaxtında Martuni və Kamo rayonlarını əhatə edirdi və göyçəlilər oranı "Quzey" adlandırırdı. İqlimi çox sərt idi.

Eldar Ismayil: Məni düşündürən odur ki, Hörmətli Nazir Əhmədlini Göyçədən yazmağa bu torpağa olan sevgisimi bu əziyyəti çəkməyə səsləyir, yoxsa, Milli məsələsini gündəmə gətirməkmi? Xahiş eləyirəm Şopeni gözə soxmayın. Onları biz də bilirik. Şopen 1831-ci ildən sonranı yazır. Orda da yanlışlıqlar həddindən çoxdur, Şopenə inansaq Dədə Qorqudun adı da onun yazısında yoxdur.

Bu məsələyə çox ciddi şəkildə qayıtmaq lazım olacaq. Mən xahiş edirəm Nazir Əhmədli Aşıq Alıdan, Aşıq Ələsgərdən və Göyçədən yazmaq əvəzinə, öz doğulduğu eldən-obadan, onun sənətkarlarından yazsın. Çünki Göyçə haqda, onun sənətkarları haqda görkəmli Azərbaycan alimləri, məhşur folklorşünaslar yetərincə söz demişlər.

Dədə Ələsgər dediyi kimi:

"Köhnə dağarcığı tumaş yerinə,

Aşıq Ələsgərə satma, hayıfsan!"

Hörmətlə Eldar İSMAYIL.

Eldar İsmayıl münasibət bildirdiyi elə ilk yorumda çox yuxarıdan gedir, təhqiramiz ifadələr işlədir, Aşıq Ələsgərdən gətirdiyi sitatla məni pisikdirmək, aşağılamaq istəyir.

Amiranə tərzdə "bu məsələyə çox ciddi şəkildə qayıtmaq lazım olacaq",-deyə ultimatum verir, məsləhət görür ki, "Nazir Əhmədli Aşıq Alıdan, Aşıq Ələsgərdən və Göyçədən yazmaq əvəzinə, öz doğulduğu eldən-obadan, onun sənətkarlarından yazsın", "Çünki Göyçə haqda, onun sənətkarları haqda görkəmli Azərbaycan alimləri, məhşur folklorşünaslar yetərincə söz demişlər".

Mürvət Yusifov burada mənim yorumumu silib. Mən yazmışdım ki, hörmətli Eldar müəllim, mən doğulub boya-başa çatdığım Gabud kəndi və Dərələyəz mahalı haqqında da kitablar yazmışam. İkincisi də mən bilmirdim ki, Göyçədən yazmaq üçün Sizdən icazə almalıyam.

Murvet Yusifov: Nazir bəy, Eldar İsmayıl Qərbi Azərbaycanın tarixi ilə bağlı misilsiz xidmətləri olan, hər birimizin ağsaqqalıdı. Eldar İsmayılın yazdıqları isə yerli əhalinin yaddaşına, tarixi dəlillərə əsaslanır.İnanıram ki, bunu bilməmiş deyilsiniz.

Eldar İsmayıl: Nazir bəy, mənim kəndim haqda olan fikirlər də yanlışdır. Tamamilə yanlışdır. Mənim kəndim Şah Abbas zamanında İrana və başqa yerlərə köşürülüb. Sonra qayıdan qayıdıb, qayıtmayanlar da hardasa məskunlaşıb. Mənim kəndimin 80 faizi Sulduz mahalından gəlib.

Eldar Ismayıl yazır ki, mənim kəndim Şah Abbas zamanında İrana və başqa yerlərə köçürülüb, sonra qayıdan qayıdıb, qayıtmayanlar da başqa yerlərdə məskunlaşıb. Mənim kəndimin 80 faizi Sulduz mahalından gəlib.

Bunu mən də deyirəm, həm də əlavə edirəm ki, Göyçə 1735-ci ildə Nadir Əfşar oranı osmanlılardan geri alanda da boşaldılıb və 1814-cü ilə qədər boş qalıb.Amma mən deyəndə Eldar İsmayıl qəzəblənib mənə hücum edir. Üstəlik, 1814-cü ildə Sulduzdan Göyçəyə gələnlərin 1735-ci ildə Göyçəni tərk edənlərin nəsilləri olduğu haqqında heç bir bilgi, məlumat yoxdur. Böyük ehtimalla hesab edə bilərik ki, 1814-cü ildə gələnlər tamamilə yeni insanlar idi, çünki onlar könüllü olaraq "Vətənə qayıdış" adı altında gəlməmişdilər, onları İran Qacarlar dövləti oraya köçürmüşdü ki, İrəvan xanlığının müdafiə qüdrətini artırsın. Onlar qarapapaq türkləri idilər, başçıları Nağı xan adlı cəsur və sədaqətli bir adam idi. Eldar İsmayıl bunları bilmir və bilmədiyinə görə də mənim yazdıqlarımı oxuyanda bərk əsəbləşir...

Mən demirəm Aşıq Alıdan yazmayın, yazın, amma saxtakarlıqdan yayının. Siz bilməlisiniz ki, Aşıq Alının nəsli Qazaxdan gəlmədir. Qiyas bəyin nəslindəndir. Mən kəndimizin deyil, bütün Göyçənin tarixini yazmışam. Şopendən də sitatlar gətirmişəm. Ancaq Şopen son məlumatdır. Göyçənin adı eramızın

Vİ əsrində də çəkilmişdir. Mənim dediyim odur ki, tarix yamaq istəmir.

Eldar İsmayıl burada yenidən fantastikaya əl atır. Tarixi mənbələrdə Göyçənin adına ilk dəfə Həmdullah Qəzvininin 1346-1347-ci illərə aid olan "Tarixi zeyle-qozide" kitabında rast gəlmişdim.

Aşıq Alının qazaxlı Qiyas bəyin nəslindən olması haqqındakı səhv mülahizə isə xalq şairi Hüseyn Arifə məxsusdur. Qazax mahalının(nahiyəsinin) 1860-cı ilə aid Kameral təsvirində Xeyrumlu kəndində 39 yaşlı Mirzə bəy Qiyas bəy oğlu qeydə alınıb. 1821-ci ildə doğulduğu məlum olan Mirzə bəy Qiyas bəy oğlunun sonralar Alı adında oğlu doğulsaydı belə, ehtimal etdiyimiz həmin Alının ən azı yaş baxımından Aşıq Alı olması mümkün deyil. Göründüyü kimi, xalq şairi H.Arif Aşıq Alının atası Mirzə Ovçu oğlunu qazaxlı Mirzə bəy Qiyas bəy oğlu ilə dəyişik salıb. Və çox maraqlıdır ki, özünü Göyçə mahalının havadarı, əsas söz sahibi sayan E.İsmayıl da Alının Göyçədən kənara çıxarılmasına etiraz etmir, səsini çıxarmır!

Eldar Ismayil: Nazir bəy, mən demirəm ki, kimsə məndən icazə alsın. Amma biz ömrü boyu ağsaqqallardan, aşıqlardan eşitdiklərimizə sondan sona yeni bir yamaq vurulduğunu istəmirik. Artıq Göyçə yoxdu. Bir azdan da onun haqqında kimlər nə yazacaq, Allah bilir. Bu məsələyə son vermək lazımdır. Aşıq Alının Şişqayada olmasını heç kim eşitməyib. Heç Şişqayalılar da. Sizə işinizdə uğurlar arzulayıram. Bu işdə bir qədər ehtiyatlı olmaq lazımdır.O sənədin özü də sən deyən qədər mükəmməl sənəd deyil. O vaxt savadsız adamlardan ayaqüstü götürülmüş rəqəmlər, sorğulardı.

Namiq Aslanov: Nazir müəllim, fikir mübadilənizi ***çox bəyəndim.***Təşəkkür edirəm ki, Qərbi Azərbaycanımızın tarixi, onun görkəmli şəxsiyyətləri barədə ciddi araşdırmalar aparırsınız. Ancaq xahiş edirəm bu işin mükəmməl alınması üçün araşdırmaçı

tarixçilərmizdən, Eldar İsmayıl, Əziz Ələkbərli və bu cür ensiklopedik məlumatlara malik insanlarla əlbir işləyəsən.Uzun illər araşdırmalardan kənarda qalmış oğuz-türk yurdlarımız barədə, müfəssəl bir işi ərsəyə gətirəsiniz.Siz vətən oğullarının hamısına bilik, uğur və tükənməz enerji arzulayıram.

Çox təəssüf ki, N.Aslanov M.Yusifovun, E.İsmayılın və başqalarının təzyiqi ilə sonradan mövqeyini dəyişdi və aramızda gərgin anlar yaşandı. Sonralar hər iki tərəfin səyi ilə sülh yarada bildik. Amma bu yaxınlarda yenidən mövqeyini mənfi istiqamətə dəyişdi.

Murvet Yusifov: Nazir bəy, siz sırf olaraq vergi ilə bağlı siyahıyaalma sənədlərini əsas götürürsünüz. Aşıq Alının, Dədə Ələsgərin az yaşamasını iddia etməyiniz qıcıq yaradır. Bir də 1834-cü ildə Göyçədə erməni əhalinin türklərdən çox olmasını o sənədlərə əsasən deməyiniz.(təzə yerləşdirilənlərlə birlikdə)

Mənim fikrimcə başqa mənbələrə də müraciət etmək lazımdı.Kəndlərin adları ilə bağlı da dolaşıqlıq var dediklərinizdə.

Eldar Ismayil: SAHİB bəy, mən ayrı-ayrı kitablarda Göyçənin tarixini lazımınca işıqlandırmışam. 1831-ci ildə hansı kəndə neçə erməni gəlib o da var. Göyçənin ta qədim tarixləri də yazılıb. 1831- əlüstü hazşrlanmış bir şeydi.

Burada müraciət edilən Sahib Musayev adlı şəxsdir, onun haqqında məlumat veriləcək.

E.İsmayıl isə Göyçənin tarixi haqqında hər şeyi "işıqlandırdığını" bildirərək, onun inhisarında olan bu sahəyə kiminsə yaxın düşməsini süngü ilə qarşılayır.

Eldar Ismayil: Nazir bəy, mən görürəm ki, siz Göyçənin tarixini təzə öyrənməyə başlayırsınız. Bu tarix yazılıb. Xristian qəbristanlığları olub, onlar xristianlığı qəbul etmiş türklər olub. Sonra Göyçədə müsəlmanlıq güclənəndə onlar köçüb gediblər. (!!!)

Eldar İsmayıl heç bir mənbəyə əsaslanmadan fantastik şeylər danışır! Hətta vaxtilə Göyçədə yaşamış türkləri "xristianlaşdırmaqdan" belə çəkinmir! Bunu haradan oxuduğunu, hansı mənbədə qeyd edildiyini göstərmir. Hesab edir ki, onun sözü hər bir yazılı mənbədən daha mötəbərdir!

Eldar Ismayil: Sahib bəy, Mən "ULU GÖYÇƏ" poemasını yazanda bütün kəndlərdə olmuşam. Camaatla görüşmüşəm, tədqiqatçı alimlər mənim yanıma gəlirdi, Mirəli Seyidov dağlarda OĞUZ qəbirlərini tapırdı.

Mən Dərələyəzi nə qədər bilir və tanıyiramsa, Nazir bəy də Göyçəni bir elə tanıyir. Mən o dəfə də Nazir bəydən xahiş etdim ki, hamı bidiyi işə qulluq etsin.

Murvet Yusifov: Mən istəyirəm Nazir bəy kitabın çapına tələsməsin. Ziddiyyətli məqamların üzərində yenidən işləməyi lazımdı. Nazir bəy Şopenin yazdıqlarına inanır, bir elin dediyini inkar edir... Nazir bəy, həmin dövrdə 1.485 erməni ailəsinin Göyçədə yerləşdirilməsini mən qəbul etmirəm.

Eldar Ismayil: Nazir bəy, o siyahı çox yarımçıqdır, mükəmməl siyahı deyil. Mirəli Seyidov deyirdi ki, o siyahını hazırlayıb göndərmək tapşırığı verilmişdi. Birin ata mindirib o kəndlərə göndərirdilər. O da gedirdi kəndin girəcəyində bir-iki adam tapıb ondan soruşduğunu qeyd eləyirdi.

Həyatda olmayan mərhum professorun doğrudan da belə bir söz deyib-demədiyini təəssüf ki, indi aydınlaşdıra bilməsək də, hətta demiş olsaydı belə, aydındır ki, həqiqətə uyğun deyil.

Məsələn, tutaq ki, mərhum professorun dediyi kimi olub və kənddəki adamların bir hissəsi qeydə alınıb, qalanı alınmayıb (halbuki, belə deyil). Siyahıya alınan adamlardan niyə imtina edirlər? Bu rəhmətliklərin günah nədir? Eldar İsmayılın bu məntiqini və düşüncə tərzini başa düşmək mümkün deyil. Əgər doğrudan da E.İsmayıl hesab edirsə ki, siyahı yarımçıqdır, onda "siyahıya düşməyənlərdən" bir neçəsini də onlar tapsın ki,

həmin siyahılara əlavə edək. Təbii ki, bir nəfər də göstərə bilməzlər, çünki heç nə bilmirlər.Əvəzində isə yenə məni məzəmmət edir: "Mən o dəfə də Nazir bəydən xahiş etdim ki, hamı bidiyi işə qulluq etsin".

Eldar İsmayıl: Bizim kəndin şəcərəsi də var. O məlumat yalandı. Qarapapaqlar dediyiniz tayfa Ağbulaqda yaşamayıb.

MƏNİM ŞƏCƏRƏM:

Mənim atam Ələsgər
Babam İSMAYIL,
İsmayılın atası ƏHMƏD
Əhmədin atası İSMAYIL
İsmayılın atası BABACAN
Babacanın atası QULU.

Qulu İranın Sulduz vilayətindən Kəvərin Dəliqardaş kəndinə gəlib. Bir neçə ildən sonra Ağbulağa gəliblər.

Nazir bəy, bu şəcərə sizdə varmı?

Burada mənim yorumlarım silinib. Bu yorumların birində Eldar İsmayıla yazmışdım ki, şəcərəsini yazsın ki, onun babalarını Ağbulaq kəndində axtarım. O vaxt hələ "Göyçə mahalının Kameral təsviri. 1831-ci və 1842-ci illər". (Bakı, 2017) kitabım nəşr edilməmişdi. Buna baxmayaraq, müəlliflik hüquqlarımın da pozula biləcəyini nəzərə almadan, Ağbulaq kəndinin 1831-ci ilə aid olan kameral siyahısını E.İsmayıla göndərdim ki, qohumlarını orada tapıb sevinsin və təqdim etdiyim sənədin doğruluğuna inansın. Amma E.İsmayıl qohumlarını Ağbulaq kəndinin 1831-ci və 1842-ci illərə aid kameral siyahılarında tapmadı. Görünür, əvvəlcədən həmin sənədə mənfi münasibət bəslədiyinə görə diqqətlə baxmayıbmış.

Düşünə bilərik ki, başqa qarapapaqlar kimi E.İsmayılın babaları da 1814-cü ildə İranın Sulduz mahalından gəlib əvvəlcə Göyçə mahalının Dəliqardaş kəndində məskunlaşıblar, amma 1830-cu ildə Türkiyənin Bəyazid Paşalığından köçürülən ermənilərdən 116 ailə Göyçə gölünün cənubunda yerləşən

Dəliqardaş kəndində yerləşdiriləndə qarapapaqlar Dəliqardaşı tərk edib gölün şimalında, "Güney"də yerləşən Ağbulaq kəndinə köçüblər. O vaxt, 2017-ci ilin aprel ayında, mübahisələrin və müzakirələrin qızğın vaxtında, kitabımı çapa hazırlayarkən bunu yoxlamağa vaxtım, və açığını desəm, həvəsim də olmamışdı. Amma indi, bu kitabı yazmağa başladığım 2018-ci ilin mart ayının 3-də (gecə saat 1-35 olduğuna görə, artıq martın 4-ü sayılmalıdır) E.İsmayılın şəcərəsinə mənsub olanları 1842-ci ilin kameral siyahısında, Ağbulaq kəndində asanlıqla tapdım. Bu, 10 nömrəli ailədir (səh.227; saat 1-40-də):

"10.Hüseynqulu Mehdi oğlu 46 y; oğlu Hüseyn 19 y;
qardaşları: Babacan 41 y; onun oğlu İsmayıl 5 y;
Rzaqulu 26 y; onun oğlu Həsən 6 y.

16 xalvar əkin yeri, 4 xalvar buğda, 1,5 xalvar arpa əkini, 6 atı, 60 baş iribuynuzlu və 100 baş xırdabuynuzlu heyvanı var".

Beləliklə, məlum olur ki, E.İsmayılın babaları zəngin adamlar imişlər.

Amma onu deyim ki, mənim yazılarımdan İ.Şopenin adını öyrənən əleyhdarlarım və bədxahlarım Şopendən başqa heç kimi tanımırlar. Onların diqqətinə çatdırım ki, İ.Şopen 1831-ci ilin Kameral siyahılarının müəllifidir, 1842-ci ilin kameral siyahısını qələmə alan isə quberniya katibi Aleksandr Korallovdur.

Maraqlıdır, görəsən, E.İsmayıl bu siyahıdakı adamlardan, yəni babalarından da imtina edəcəkmi? Zənnmcə yox. Axı onların qeydə alınan mal varlığı bu ailənin zəngin, zəhmətkeş və hörmətli bir ailə olduğunu göstərir.

Xoşbəxtlikdən, həmin ailəni biçarə İ.Şopenin rəhbərliyi ilə tərtib edilmiş 1831-ci ilin Kameral siyahısında da görürük. (səh.123):

"18.Hüseynqulu Mehdi oğlu 35 y; onun arvadı və anası; iki oğlu var: Hüseyn 8 y; Bədəl 3 y;

Iki qardaşı var: Babacan 30 y (onun arvadı); İrzaqulu 15 y".

Bu siyahılarla tanışlıqdan məlum olur ki,

1.E.İsmayılın şəcərəsindəki Babacan 3 qardaşdan ortancılıdır və 1801-ci ildə, oğlu İsmayıl isə 1837-ci ildə anadan olublar;

2.E.İsmayıl Babacanın atasının adını düz bilmir. Bu 3 qardaşın atasının adı Qulu deyil, Mehdi olub və 1831-ci ildən əvvəl öldüyünə görə siyahıya düşməyib. Babacanın qardaşları Hüseynqulu və İrzaqulunun adındakı –qulu sonluğundan E.İsmayıl Babacana ata "düzəldib". Əgər oxucu xatırlayırsa, Aşıq Ələsgərin əmisi Allahverdini də Alməmmədə ata eləmişdilər. Necə də tanış ssenaridir!

3.1831-ci ilin siyahısında qeyd olunan Hüseynqulunun 3 yaşlı oğlu Bədəl 1842-ci ilin siyahısında yoxdur, yəni 14 yaşına çatmadan ölüb.

Görəsən, E.İsmayıl Babacanın qardaşları Hüseynqulunu və Rzaqulunu, onların törəmələrini tanıyırmı?

Görəsən, E.İsmayıl bu kitabda ümumiyyətlə babalarını görübmü?

Oxucu fikirləşə bilər ki, babalarını üzə çıxartdığıma görə E.İsmayıldan təşəkkür umuram. Amma qətiyyən belə deyil. Çünki o məndən müxtəlif dövlət qurumlarına yazılan donosun təşkilatçısı və ilhamvericisidir. Orada onun imzası var: İsmayılov Eldar Ələsgər oğlu. Soyadından sonra "şair" sözü də yazıb, "tarixçi", "yazıçı", "publisist","etnoqraf" sözlərini isə əlavə etməyib. Həmin donos barədə sonra bəhs ediləcək.

Qəribədir ki, bu müzakirələrin əvvəlində əslən Göyçənin Hüseynquluağalı (sonradan adını dəyişib Nərimanlı ediblər) kəndindən olan Sahib Musayev adlı bir nəfərə də etibar edib kitab çap olunmadan həmin kəndin siyahısını verdim. Amma qərəzdən, kindən gözləri tutulmuş bu adam hazır siyahıdan öz babalarını tapa bilməmişdi. Yenə özüm işə qarışıb babalarını tapıb ona göstərdim, amma buna baxmayaraq mənim ən qatı düşmənimə çevrildiyinə görə məcbur olub onu facebookda blok etdim ki, bir-birimizin yazılarımızı görməyək və qulağım dincəlsin... O, bloka saldığım 2 nəfərdən biri idi...

Onu da mütləq qeyd etməliyəm ki, kənd sakinlərinin qarapapaq türkü olması həm 1831-ci, həm də 1842-ci ilin kameral siyahısında göstərilib. 1842-ci ilin kameal siyahısında isə əlavə olaraq bu şəxslərin qarapapaqların bosçalı(bu söz sonralar "borçalı" şəklini almışdır) tayfasına mənsub olduğu qeyd edilib.

Göründüyü kimi, Göyçə haqqında hər şeyi bildiyini iddia edən 75 yaşlı "hərşeyşünas" hətta mənsub olduğu türk tayfasının adını da bilmir...

Amma babalarının Sulduz vilayətindən gəlməsi haqqında E.İsmayılın dedikləri düzdür. Onlar da başqa qarapapaqlar kimi 1814-cü ildə İranın Sulduz bölgəsindən gəlib və 1830-cu ildə Türkiyədən köçürülən ermənilər gələnədək Dəliqardaş kəndində yaşayıblar, çox güman ki. elə 1830-cu ildə də Ağbulağa köçüblər və 1831-ci ildə Ağbulaq kəndində qeydə alınıblar.

2017-ci ilin aprel ayının 23-də və 24-də baş vermiş bu dialoqları sonradan uzun sürən dava-dalaşın başlanğıcı saymaq olar.

Aprelin 24-dən sonra, ayın 29-da artıq E.İsmayılın rəhbərlik etdiyi qaraguruhçuların başçısı Mürvət Yusifov Göyçəlilərə müraciət edir:

SƏFƏRBƏRLİK

Məşhurların doğum tarixləri ilə bağlı aprelin 23-də verdiyim məlumatdan çox keçmədən Eldar İsmayıl səfərbərlik təlimatı verib, Mürvət Yusifov dəstəbaşı rolunda çıxış edərək məsələnin məğzindən, işin mahiyyətindən xəbəri olmayan göyçəliləri və başqa dost-tanışlarını səfərbərliyə alır. Sonralar xeyli adamlar mənə dedi ki, əleyhimə təşkil etdilkəri yığıncaqlara şəxsən E.İsmayıl zəng vurub onları dəvət edirmiş. Bu adamlar isə məni yaxından tanıdıqlarına, hansısa bir anti-milli iş görməyəcəyimə tam əmin olduqlarına görə onun təkilifini qəbul etməyiblər və bu səbəbdən də E.İsmayıl onların əksəriyyətinə düşmən kəsilib.

E.İsmayılı şərti olaraq Əbu-Süfyan saya bilərik.

29 aprel 2017.

Murvet Yusifovun facebook statusu

Dəyərli dostların diqqətinə!

Üzümüzə gələn həftə düzənlənəcək "Göyçə mahalı-aktual məsələlər" adlı toplantımızda iştirak edəcək dostların münasibətini bilmək istəyərdim.

Yorumlar:

Arifə Ehmedli: harada keciriləcək?

Murvet Yusifov: Bakıda keçiriləcək.

Arifə Ehmedli: Kaş bir defé Gəncədə keciresiz bu toplantilardan birini

Murvet Yusifov: Arifə müəllimə, Gəncədə də, Gəncəbasardakı soydaşlarımız təşkil eləyə bilərlər.

***Arifə Ehmedli*:** Düzdür, ancaq Mürvər müəllim gərək dəstək olsun.

Murvet Yusifov: Elə bəla dəstəyin başındadı!

Qabil Zimistanoglu: Murvet Yusifov bəy, dəstək deyəndə nə nəzərdə tutulur?

Murvet Yusifov: Sənin iştirakın bəs edər!

Qabil Zimistanoglu: məmuniyyətlə!!! Onda nə zaman keçirildiyi vaxtı açıqlayarsınız!! Tədbirdə

Murvet Yusifov: Qabil bəy ciddi məsələ üçün toplanırıq!

Murvet Yusifov: 1 həftə müddətində olacaq.Vaxt və məkan haqqında təkliflәriniz önəmlidi.

Qabil Zimistanoglu: Olsun! Amma göyçəlilərin tədbirini sazsız təsəvvür etmək bir az çətin məsələdir. İstirahət günlərinə salınsa, daha yaxşı olar

Araz Yaquboğlu: Xüsusilə də gərək sən oxuyasan, Qabil Zimistanoglu.

Q.Zimistanoğlu çalıb-oxumaq, aşıqlıq etmək üçün əlinə düşən fürsətdən vəcdə gəlir! Amma bilmir ki, meydan hələlik Əbu-Süfyanın və Əbu-Ləhəbindir!

YENI ÇAĞIRIŞ

Mürvət Yusifovun statusu
30 aprel 2017

06 may 2017-ci il günün ikinci yarısında Göyçə aydınlarının toplantısına qatılmaq istəyənlər münasibətini bildirsin.

Daha bir təhrik

Murvet Yusifovun statusu
1 May 2017 ·

Əziz dostlar!

Qərib yurddaşlar!

Göyçə həsrəti ilə yaşayanlar!

Bir neçə gün öncə Göyçə mahalı-aktual məsələlərlə bağlı toplantı keçirmək təklifi ilə bağlı status yazmışdım. Dostlardan bir neçə nəfər münasibət də bildirmişdi.İndi vaxtı müəyyənləşdirdik. 06 may 2017-ci il saat 15-00.

Buyurun, iştirak etmək istəyənlər münasibət bildirsin.

Qeyd edim ki, toplantımız siyasi xarakter daşımır.

Qaraguruhçuların toplantı yeri: "Laləndə" şadlıq evi. Son vaxtlar "xeyir-şər evi" kimi fəaliyyət göstərir.

Çağırış təkrarlanır

Murvet Yusifov
4 May 2017 ·

Göyçə mahalı-Yurd yerimiz,
Aktual söhbət adlı toplantımız 06 may saat 15-00 da Gənclik metrosuna yaxın Laləndədə baş tutacaq. Ziyalıların iştirakı vacibdi!

Ələkçini qılverəni-Aqşin Hacızadə

Şair Şiruyənin oğludur. Məndən DTX-ya donos yazmağın ən qızğın təhrikçilərindən biri.

Aqşin Hacı Zadə yazır:
5 May 2017 ·

Dostluğumda olan Göyçəlilərin, xüsusən də Bakı şəhərində yaşayan Göyçəlilərin--(uzaq olduğu üçü bölgələrdə yaşayanlara əziyyət verilmir, gəlmək istəyənlər buyura bilərlər əlbətddə)-- diqqətinə çatdırıram ki, hörmətli eloğlumuz ***Murvet Yusifovun təşəbbüsü*** ilə Göyçəyə və Göyçəlilərə həsr olunan "GÖYÇƏ MAHALI -YURD YERİMİZ" mövzusunda dəyərli tədbir keçiriləcəkdir. Tədbir 06 may saat 15-00 da Gənclik metrosuna yaxın Laləndədə baş tutacaq. Əziz Göyçəlilər, Göyçənin ziyalıları, ana yurda sevginizlə bu tədbirdə iştirakınız çox vacibdir. Xahiş edirik bu tədbirdə iştirak edəsiziniz. Öncədən

təşəkkür edirik. Tədbirlə bağlı məlumat əldə etmək istəyənlər Mürvət müəllimlə əlaqə saxlamaq üçün bu nömrəyə zəng edə bilərlər. 050 301 66 89.. Bu statusu yazaraq paylaşmağı özümə borc bildim.

Son çağırış

6 may 2017

Murvet Yusifovun statusu

Göyçə mahalı-Yurd yerimiz
Aktual söhbət adlı toplantımıza saat yarım qaldı.
Ziyalılar, biganə qalmayın!
Toplantı Gənclik metrosuna yaxın Laləndədədi

Yorumlar:

Füzuli Sabiroğlu: Çox təəssüf ki, mənim xəbərim yoxdu...

Murvet Yusifov: Əgər şəhərdəsinizsə gec deyil.

Füzuli Sabiroğlu: Şəhərdəyəm. Ancaq bilsəydim, işimi ona görə planlaşdırardım.

Murvet Yusifov: İki həftədi bu barədə ardıcıl yazılarımız, paylaşımlarımız olur.

Taleh Əlioğlu Vəliyev: Uğurlar arzulayıram.

Mafiya tələb edir: Naziri tapın!

Murvet Yusifovun statusu
6 may 2017

Göyçə mahalı-Yurd yerimiz

Aktual söhbət adlı tədbirimiz 06 may 15-00 da gerçəkləşdi. 25 aydının iştirakı ilə baş tutan tədbirdə bir çox məsələlərə toxunuldu. Bu kimi tədbirlərin davamlı olması qərarlaşdırıldı. Son günlər sosial şəbəkədə mübahisə mövzusu olan Göyçənin tarixi, Aşıq Alının, Dədə Ələsgərin yaşam müddətləri ilə bağlı çıxışlar oldu.Yekun olaraq bu informasiyanın müəllifinin diqqətinə etirazların çatdırılması tövsiyyə olundu. Göyçə mahalının tarixi, mədəniyyəti, saz-söz sənəti ilə bağlı dolaşıq söhbətlər, müəmmalı qısqanc münasibət pislənildi.

Göründüyü kimi, M.Yusifov iki həftəlik cəhdlərinə, E.İsmayılın zənglərinə baxmayaraq tədbirə cəmi 25 adamın qatıldığını deyir. Güman edə bilərik ki, M.Yusifov pərtliyini gizlətmək üçün həmin rəqəmi 2 dəfə şişirdib.

Aqşin Hacı Zadə: Buna çox şad oldum. Davamlı olar inşaalah. Var olun bu təşkilatçılıq üçün, Mürvət müəllim. İnanırıq ki, növbəti tədbirlərdə say çoxluğumuz kifayət qədər olacaq. Uğurlar olsun sizlərə.

Mirzahid Haciyev: Alqislayiram, Murvet bey, ehate dairesini genislendirmek ve daha da aktual meseleleri muzakire etmek daha da yaxsi olar

Murvet Yusifov: Çox təşəkkür edirəm Aqşin müəllim, tədbir boyu telefon əlaqələriniz, dostlarınızın tədbirə qatılması təqdirəlayiq oldu.

Aqşin Hacı Zadə: Dəyməz, əziz Mürvət müəllim. Borcumuz orada olmaq idi. İnşaallah növbəti tədbirdə mütləq olacam. Var olun.

Murvet Yusifov: İnşallah.

Murvet Yusifov: Tədbirin təşkilində dəstəyinə görə Oruc müəllimə, Namiq Aslanova, Koroğlu Qasımova, Nail Qurbanova xüsusi təşəkkürlərimi çatdırıram.

Haqqında söhbət gedən Oruc "Laləndə" xeyir-şər evinin sahibidir. Obyektinə müştəri cəlb etmək üçün fürsətdən maksimum dərəcədə yararlanmaq istəyir. Mənfur adamdır, "Laləndə" xeyir-şər evini başqa qardaşları ilə şərikli alsa da, sonradan onu ələ keçirdi və qardaşları ilə düşmən oldu. İndi guya Göyçənin, Aşıq Ələsgərin təəssübünü çəkir!

Yusif Huseyn: Belə tədbirlər mütəmadi olaraq keçirilməlidir. Heç kimin haqqı yoxdur ki, Ululrımızın ruhunu incidə.. Aşıq Alı və Aşıq Ələsgər Azərbaycan klassikasına öz adlarını qızıl hərflərlə yazıblar..Biz bunu yaddan çıxarmamalıyıq.. dostlar..Uğurlar..

Murvet Yusifov: Diqqət və dəyərinizə görə təşəkkür edirəm şirin ləchəli şair dostum.

Yusif Huseyn: Murvet Yusifov ..Var ol, dost.

Murvet Yusifov: Tədbirə qatılan bütün aydınlara, xüsusilə Türk Dünyasının böyük yazarı, Ulu Göyçənin fədakar oğlu Eldar İsmayıl Böyüktürkə sonsuz təşəkkürlərimi bildirirəm.

Fəridə Qədimova: Bu tədbirlərin keçirilməsi çox önəmlidi, özümüzün özümüzə sahib çıxmamızdı.Tədbir təşkilatçılarına, şəxsən Mürvət müəllimə və iştirakçılarına çox təşəkkür edirik. Arzu edirik növbəti tədbirlərin əhatəsi daha geniş olsun. El bir olsa zərbi kərən sındırar...Uğurlar olsun!

Nail Qurbanov: Qatılmaq lazımdı.

Murvet Yusifov: Tədbirin ilk olaraq az tərkibdə keçirilməsi planımızda idi.

Qətiyyən utanmadan aşkar yalan danışır, xeyli vaxt əlləşib-vuruşduqdan sonra özünün elan etdiyi 25 nəfəri (yəqin ki, daha az olub) yığmasından doğan məyusluğu belə pərdələmək istəyir.

Əsas o idi ki, Göyçə aydınları münasibət bildirsin. Diqqətinizə görə təşəkkür edirəm Göyçəmin aslan qızı!

Taleh Əlioğlu Vəliyev: Uğurlar arzulayıram.

Aqşin Hacı Zadə

GÖYÇƏLİLƏR.

Göyçədən uzaqda, Göyçə eşqiylə,

Birliyiniz pozulmasın Göyçəlilər!

Əl verin, el olun, elə birləşin,

Sizə quyu qazılmasın Göyçəlilər!

Tarix nədir, nə bilir ki, hərcayı?

Ucaldın da siz haqq səsi, harayı.

Göyçənin minillik yaşı, həm sayı,

Saxta-suxta yazılmasın Göyçəlilər!

Aqşinəm, fəth edib bütün dünyanı,

Göyçədən yayılıb şöhrəti, şanı.

Ələsgərin, həm Alının ünvanı,

Ora-bura yozulmasın Göyçəlilər!

Şair Şiruyənin "şair" oğlu hecası, ölçüsü bilinməyən söz yığını ilə M.Yusifova lirik-fəlsəfi dəstək verir!

06.5.2017

Taleh Əlioğlu Vəliyev: Var ol, qardaş.

Namiq Aslanov: Mən bütün izləyiciləri salamlayaraq, bildirmək istəyirəm ki, Göyçəymizin tarixinə, etnoqrafiyasına, görkəmli şəxsiyyətlərinə, qəhrəmanlıq səlnaməsinə kölgə salmaq istəyən hər bir kəs, ciddi təpgimizlə qarşılaşacaq. Mən elə düşünürəm ki, Göyçə ümmanına baş vuran hər bir araşdırmaçı, o dəryada boğulmaması üçün, Göyçə gerçəkliyini bilən insanların yardımından istifadə etməlidirlər.Ən azından bu işə baş qatan şəxslər, Böyük Türk Eldar İsmayıl kimi şəxsiyyətlərdən məsləhət almağı ozünə sığışdırmırsa, heç olmasa Eldar müəllimin Qərbi Azərbaycanımız, Ulu Göyçəmiz haqqında yazıb yaratdığı tarixi romanlara müraciət etsinlər (bilməmək eyib deyil, bilməyib öyrənməmək eyibdir).

QƏRAR

Yığıncağın çıxardığı verdikt Namiq Aslanovun dilindən səsləndirilir: Göyçə mövzusu "Böyük Türk" Eldar İsmayılın inhisarındadır! Göyçədən yazanlar ya ondan məsləhət almalıdır, ya da onun "tarixi" romanlarından istifadə etməlidir ki, buna icazəsi olsun! Halbuki, E.İsmayıl mənə yazmışdı ki, mən demirəm Göyçədən yazanlar məndən icazə alsın.

N.Aslanovun yazdıqları E.İsmayılın qeyri-səmimi olduğunu, onun özünün isə savadsızlığını üzə çıxarır.Harada görünüb ki, tarix yazmaq üçün tarixi romanlara müraciət

etsinlər? Halbuki bunun əksinə olmalıdır, tarixi roman yazanlar tarixi mənbələrə, tarixi əsərlərə müraciət etməlidirlər.

E.İsmayıldan gələn və havadarlarının dəstəyi bu dəstənin şüur səviyyəsinin göstəricisidir!

Namiq Aslanov: O ki, qaldı dədə ələskərə, aşiq aliya, ağ aşiq allahverdi kimi söz nəhənglərinə: o böyük qüdrət sahibləri üçün özündən uydurma həyat və yaradıcılıq yaratmağa heç kimə ixtiyar verilməyib. Çünki bu dahilər qədim oğuz yurdumuzun şəriksiz şəxsiyyətləri olmaqla, Oğuz Türk kimliyimizin simvollarıdır.

Bu gün bu söz nəhənglərini özəlləşdirib, milli kimlikləri haqqında şübhə toxumu səpən missionerlərə səslənirəm, özünüzü yormayın, bu dühaların milli kimliyinə (TÜKÇÜLÜYÜNƏ) şübhə ilə yanaşmanı, UCA TANRININ varlığına şübhə ilə yanaşma kimi dəyərləndirirəm. Son olaraq bildirirəm ki, Qərbi Azərbaycanın, o cümlədən Ulu Göyçənin tarixi barədə olacaq sərsəmləmələrə ciddi təpki göstəriləcəkdir.

Xoş niyyətli, qərəzsiz araşdırmaçılar isə, həmişə qayğımız və dəstəyinizlə əhatələnəcəklər. Tariximizə və mədəniyyətimizə biganə qalmayan oğuz övladlarini alqişlayiram.

N.Aslanov yazır ki, "bu gün bu söz nəhənglərini özəlləşdirib, milli kimlikləri haqqında şübhə toxumu səpən missionerlərə səslənirəm". Görünür, biznesi olan və özəlləşdirmə ilə məşğul olan bu adam insanların da özəlləşdirilməsi haqqında bəsit təsəvvürə malikdir. Əks halda, adını sadaladığı sənətkarların "özəlləşdirilməsindən" necə danışmaq olar?

M.Yusifovun təxribatı artıq öz işini görüb. Müzakirələrə qoşulduğu ilk vaxtlar müəllifə uğurlar arzulayan N.Aslanovun mövqeyi həmin yığıncaqdan sonra xeyli sərtləşib, artıq məni "missioner", tədqiqatlarımı isə "sərsəmləmə" adlandırır, "bu

dühaların milli kimliyinə (TÜKÇÜLÜYÜNƏ) şübhə ilə yanaşmanı, UCA TANRININ varlığına şübhə ilə yanaşma kimi dəyərləndirirəm",-deyir. Halbuki mən Aşıq Alının və Aşıq Ələsgərin türklüyünə (N.Aslanovun yazdığı kimi türkçülüyünə deyil!) heç bir şübhə etməmiş, əksinə, Ə.Əmirovun və Ş.Əsgərovun Aşıq Alını kürd çıxarmaq cəhdlərinin qarşısını alaraq onun türk olduğunu sənədlərlə sübut etmişəm!

Mahmud Memmedov: Eşq olsun Göyçenin fedakar oğluna, eşq olsun Göyçenin deyerli oğlanlarına.

Şebnem Bunyadzade: Tedbirin teşkilatçısı Mürvet Yusifova, tedbirin ağsaqqalı Dede Eldara allahım özü kömey olsun. El üçün sinenizi siper eliyirsiniz.Bize dua etmek qalır.

Deməli belə! Artıq Göyçənin yeni "Dədə"si peyda olub! Nə etmək olar? Tarixdə yalançı peyğəmbərlər, yalançı hökmdarlar olduğu kimi, yalançı "Dədə"lər də ola bilir.

Murvet Yusifov: Hər birinizə təşəkkür edirəm.Var olasınız.

Nail Qurbanov: Ulu Göycenizin tarxini bilenler yazsalar daha yaxşı ve efekli olar.Qedim bir xalqın tarixini.

Koroğlu Qasımov: Naziri tapmax lazımdır. Ay Nail bey, yoxsa yalandan danısmax yox.

Mafiyavari şəkildə "Naziri tapmax lazımdır, ay Nail bəy, yoxsa yalandan danışmax yox" yazan keçmiş polis işçisi Koroğlu Qasımov "Yeni Müsavat" qəzetinin yazdığına görə, Gəncə şəhərində polis orqanlarında işlədiyi vaxtlar tutub gətirdiyi bir qadınla oğlunu bir-birinin yanında lüt soyundurub, deyib ya nəşə satdığınızı etiraf edin, ya da cinsi əlaqəyə girin!. Buna görə polis orqanlarından qovulub, deyilənə görə hətta haqqında cinayət işi açılıb(2009-cu ilin dekabr ayında), amma güclü havadarlarının köməyi ilə daha ağır cəzalardan qurtara

bilib. Xalqın fərdləri ilə bu cür davranan, doğma dilində yaza bilməyən, xalq qəhrəmanının adını daşıyan keçmiş polis zabiti məni "tapmaxdan" danışır!

Qeysar Asif Aliyev: Uy da. (((Ilk tetbirdi ki qacirdim.((((Ya Bakida yox idim, ya da fikir vermemişem, uzurlu sayin.((((

Rizvan bey Ezizimiz hemişe zenk ederdi, bir cox qardaşlarimiz deyerdi.(((Neden demediz. Cox pis oldum inanin. Ora yiqişanlarin hamisina Allah komey olsun, saqolsun sizder varsiz.

Qeysər Asif Əliyevin haqqında bəhs etdiyi şəxs çox güman ki, Rizvan Talıbovdur. O bu tədbirin təşkilatçıları arasında olmadığına görə yəqin ona zəng vurmayıb. Sonrakı proseslər göstərdi ki, M.Yusifovda R.Talıbova qarşı bir qısqanclıq da var, özünü Göyçənin lideri rolunda görən M.Yusifov R.Talıbovu öz yolu üzərində əngəl sayır.

9 May 2017.

Mürvət Yusifovun statusu

Bu gün Dədə Ələsgərin nəticəsi Ələsgər müəllim telefonla əlaqə saxladı mənimlə. Göyçə mahalı-Yurd yerimiz Aktual söhbət adlı tədbirimizdən xəbər tutduğunu, Aşıq Ələsgərin ömür yaşı ilə bağlı mübahisə yaradan adamlardan narahatlığını dilə gətirdi. Belə hallara qarşı ***amansız(!!-N.Ə.)*** olacaqlarını qətiyyətlə bildirdi. Tədbir iştirakçılarına təşəkkürlərini çatdırmağımı xahiş etdi.

Mayın 6-da "Laləndə" xeyir-şər evində özünün dediyi kimi 25 ziyalı ilə Aşıq Ələsgəri "müdafiəyə" qalxan M.Yusifov dairəni get-gedə genişləndirmək, havadarlar toplamaq üçün hər vasitəyə əl atır və məqsədinə qismən də olsa nail olur. Həm də

hər cür yalanlar uydurmaqdan nə bezir, nə utanır. Ələsgər Ələsgərovu işə qoşmaq üçün özü ona zəng vurduğu halda, məsələni tərsinə qələmə verir!

Mən isə hələ də ehtirasları coşanlara məsələnin mahiyyətini izah etməyə çalışıram.

Namiq Aslanov: Eşq olsun DƏDƏ ƏLƏSKƏR ocağının yadigarı el ağsaqqalı Ələskər müəllimə.Ələskər müəllim arxayın ola bilər ki, DƏDƏ ƏLƏSKƏR zirvəsinə əl qoyub, xəstə təxəyüllə saxta tarixçə formalaşdırmaq istəyən hər bir kəs, müxtəlif formalarda sərt cavab alacaqlar. O ki, qaldı Ulu Göyçəmizin tarixinə baş vurmağa, bu barədə görkəmli insanlarımız, araşdırmaçılarımız kifayət qədər araşdırmalar aparıb və isbat ediblər ki, o müqəddəs yurd yerimiz, şəriksiz və təmiz Oğuz Türk yurdudur. Kimlərsə sidq ürəkdən və qərəzsiz Göyçə Oğuz Türk yurdunun, araşdırılmayan tərəfini təhlil etmək istəyirsə, o araşdırmaçını ancaq alqışlamaqla, dəstək nümayiş etdirəcəyik. Bir el məsəlimizi xatırladıram. Məsləhətli don gen olar. Bu araşdırmaçılara isə məsləhətim odur ki, qəbul ediləcək və samballı bir tarixi əsər ortaya qoymaq istəyirsinizsə , mütləq Göyçəmizin tarixini araşdıran, ağsaqqallarından və ziyalılarından məsləhət və rəy alasınız.Belə olarsa, nərahatçılığa və söz - söhbətə yer qalmayacaq.

Göründüyü kimi, N.Aslanov əvvəlki tezisini təkrar edir: Göyçədən yazmaq istəyən mütləq E.İsmayılla məsləhətləş-məlidir, başqa sözlə ondan icazə almalıdır! Mən isə səbrlə məsələnin mahiyyətini izah etməyə çalışıram:

Nazir Ahmedli: Ələsgəri dahi edən onun yaradıcılığıdır, yoxsa çox yaşamağı? Əlbəttə, yaradıcılığı!!! Əgər məlum olsa ki. o 105 ildən az yaşayıb, dahiliyinə kölgə düşəcək?? Müşfiq cəmi 29 il, S.Vurğun 50 il, Cavid 59 il yaşayıb, amma heç kim onların böyük şair olduğuna şübhə etmir,

Namiq Aslanov: Nazir müəllim, təbii ki, Allah insana verdiyi ömrü heç kim nə azalda, nə də ki, artıra bilməz. Ancaq Dədə Ələskəri görənlər, onun həyatını təhlil edənlər, dəqiq bir nöqtəni qoymuşlar.***Ona görə də xahiş edirəm ki, özümüzdən Dədə Ələskərə özümüzə məxsus həyat və yaradıcılıq fikirləşmək və uydurmaq lazım deyil.*** İnanın ki, bunu etməklə çox böyük günah etmiş olarsınız.Yaxşı olardı ki, Dədənin yaradıcılığını, onun böyüklüyünü araşdırıb təbliğ edəydiniz. Belə olan hal sizə daha çox rəğbət qazandırardı.

Nail Qurbanov: Tebii ki, yaşinin azı-coxu onun yaradıcılıgına kölge salmır.Yaşının düzgün yazılması vacibdir, 105 il yaşadıgını hamımız bilirik Nazir müellim, düzgün yazsaq bütün Qerbi Azerbaycanlılar razı qalarlar.

Nazir Ahmedli: Namiq müəllim, həmin kitabda Ələsgərin yaradıcılığı da araşdırılır, təbliğ edilir, onu aşıq yaradıcılığının zirvəsi adlandırmışam. Əgər məsələ çox yaşamaqdadırsa, sovet vaxtı Lerikdə Şirəli Müslümov adında bir adam tapmışdılar ki, guya 167 yaşı var. Belə çıxır ki, o hamıdan dahi adamdır?

Nail müəllim, təkcə Ələsgərin deyil, tanıdığımız digər böyük aşıqların da doğum tarixləri indiyə qədər səhv yazılıb, hamısını dəqiqləşdirmişəm. Onların yaradıcılığını isə bacardığım qədər yüksək qiymətləndirmişəm, Ələsgəri dahi adlandırmışam.

Nail Qurbanov: Nazir müellim, bizlerin isteyini nezere alsaniz size minnettar olarıq. İsteyimiz elə də böyük deyil.

Nazir Ahmedli: Nail müəllim, bu məsələnin Ələsgərə zərrə qədər ziyanı yoxdur, bir daha təkrar edirəm, məsələ təkcə Ələsgərdən getmir. Ağ Aşıq, Aşıq Alı, Aşıq Musa, Şair Məmmədhüseyn, Aşıq Hüseyn Şəmkirlinin də doğum tarixləri dəqiqləşdirilib, axı burada Aşıq Ələsgərə hansı haqsızlıq edilir?? Əksinə, haqq-ədalət bərpa olunur. Aşıq Alını kimlərsə kürd çıxarmaq istəyirdi, mən həmin sənədlərlə sübut edirəm ki, o türkdür. Bəyəm bu pisdir??

Murvet Yusifov: Nail müəllim, elə xahiş etdiniz ki))))... Şəxsən mən, həqiqətin tərəfdarıyam. Həqiqəti isə xahişlə almırlar. Nazir müəllim dediyi təvəllüd və tarixi rəqəmlər ***cəfəngiyyatdan***

başqa bir şey deyil. Qeyd etdiyim kimi son günlərədək bu mövzuya diqqətim olmamışdı. Sağ olsun, Nazir Əhmədlinin söylədiklərindən sonra maraqlandım. Ağ Aşığın da, Aşıq Alının da, Dədə Ələsgərin də haqqında indiyədək yazılan tarix və təvəllüdlər kifayət qədər tarixi faktlara söykənir.

M.Yusifov normal dialoq aparanlara təzyiq göstərir, "həqiqəti xahişlə almırlar" kimi bir cümlə ilə təhrikçilik edir. Eyni zamanda boynuna alır ki, bu məsələlərdən uzaq adamdır, haqqında söhbət gedən sənət adamlarının həyat və yaradıcılığı haqqında təsəvvürü yoxdur. Sadəcə olaraq, yaranmış fürsətdən bacarıqla istifadə edib siyasi divident qazanmaq istəyir, "Göyçənin təəssübkeşi" rolunu mənimsəmək istəyir.

Namiq Aslanov: Nazir müəllim, özün də bilirsən ki, bu məsələ tək Göyçəlilər üçün yox, bütün Qərbi Azərbaycanlılar və ümumiyyətlə bütün Türk dünyası üçün həssas məsələdir. Ona görə də hamımız ortaq məxrəcə gəlib, haqqa söykənməliyik. Ən azından Türkçülük məsələlərində, böyük dahilərimizin milli kimliklərinim şübhə altına alınıb özgələşdirilməsi məsələlərində vahid mövqe sərgiləməliyik. İnanın ki, üstümüzə gələnlərin qabağından qaçdıqca, bizi tapdamağa çalışırlar.Ona görə də hamımız çəkici bir yerə vurmalıyıq. Olan anlaşılmazlıqları oturub birlikdə, dostyana müzakirə edib, vahid mövqeyə gəlməliyik. Bizim çarpışan vaxtınız deyil.Onsuz da Türk düşmənlərinin, üzərimizə total hücumlarının hədəfindəyik. Birliyimizi birmənalı şəkildə qorumalıyıq.

Nazir Ahmedli: Namiq müəllim, bütün dediklərinizlə şərikəm, ayrı cür də ola bilməz. 1996-cı ildə ***"İrəvan əyalətinin icmal dəftəri"*** adlı bir kitab çap olunub. Müəllifləri Z.Bünyadovla H.Məmmədovdur. Yazıblar ki, bu kitabın çapına kömək üçün müraciət etdiyimiz Qərbi Azərbaycanlıların heç biri kömək etmədi, bu əraziyə aidiyyatı olmayan elmi işçi, qubalı Zəminə Hacıyeva kitabın çap xərcini ödədi.

Bu töhməti Qərbi Azərbaycanlılar bütün ömür boyu daşıyacaq. Həmin kitabda Göyçə mahalı da var, 1590-cı və 1728-ci illərdə orada hansı kəndlər olub, hamısı var. Çox qiymətli kitabdır, internetdə var, baxmaq istəsəniz tapa bilərsiniz. Mənim yazdığım kitablar da bu səpkidədir. Hazırda **"Göyçə mahalının Kameral təsviri. 1831-ci və 1842-ci illər"** adlı kitabımı nəşrə hazırlayıram. Mürvət Yusivovun babaları da həmin syahılarda var, doğum tarixləri də göstərilib, çox qiymətli sənəddir. Siz Göyçənin hansı kəndindənsiniz?

Murvet Yusifov: Mürvət Yusifovun babaları haqqında olan tarixlə də razılaşmadı Mürvət Yusifov)). ***Nazir müəllim, ümumiyyətlə o sənədin üzərində işləməklə nəsə yazmaq olar.Və bu məsələdə tanınmışlara toxunmamaq şərti ilə.***

Nazir Ahmedli: Mürvət müəllim, mənə qarşı işlətdiyiniz kobud ifadələri unutmağa hazıram. Babalarınızın doğum tarixinə gəlincə, qəbul edib-etməmək özünüzdən asılıdır, amma mən qəbul edirəm. Öz kəndimizdən yazanda da bəziləri deyirdi səhvdir, hərə kiminsə şifahi sözünə əsaslanırdı.

Murvet Yusifov: Nazir müəllim, məncə kobud olacaq hələki bir söz işlətməmişəm.Sizin sənəd deyib tutduğunuz nədi? Məgər Heydər Əliyevin təşkilatçılığı ilə keçirilən Dədə Ələsgərin 150 illiyi sənəd deyil? Tarixi faktlara gəlincə, bu faktlar kifayət qədərdi. Siz inadkarlığınızı davam etdirsəniz bu faktların hamısı ortada olacaq.

"Siz inadkarlığınızı davam etdirsəniz bu faktların hamısı ortada olacaq" cümləsi nə deməkdir? Hansı faktlardır onlar? Göründüyü kimi, elmi fakt ortaya qoya bilmədiyindən, M.Yusifov bu dəfə şantaja keçib, Aşıq Ələsgərin dövlət səviyyəsində 150 illik yubileyinin keçirilməsindən danışır. Halbuki, yubiley məsələsinə adı çəkilən kitabımda mən də toxunmuşam.

Sonradan haqqında daha geniş danışacağımız personajlardan biri, "Lider" TV-nin əməkdaşı F.Sabiroğlu yorumlarının birində yazmışdı ki, Aşıq Ələsgərin 150 illik

yubileyinin keçirilməsini Nazir Əhmədliyə sonuncu zərbə kimi ehtiyatda saxlayıram.

Aşkar şizofreniya əlamətidir...

Nazir Ahmedl:i Mürvət müəllim, mənim sənəd dediyim arxiv sənədləridir və dünyada tarix yazan bütün alimlər indiyə qədər onlara əsaslanır və bundan sonra da əsaslsnacaqlar. Təkcə öz istifadə etdiyim sənədləri nəzərdə tutmuram, bütün arxivlərdəki bütün sənədləri nəzərdə tuturam.

Murvet Yusifov: Nazir müəllim, vergi arxivi yüz faiz tarixi istinad nöqtəsi ola bilməz!

Nazir Ahmedli: Bu vergi arxivi deyil, mahallar bütöv şəkildə inventarlaşdırılıb. Adamların siyahısından başqa Göyçədəki bütün dağlar, göllər, çaylar, təbii ehtiyatlar, heyvanlar, vergi sistemi, mineral sular, tarixi abidələr, bir sözlə hər şey inventarlaşdırılıb. Hansı çaylarda hansı balıqların olduğuna qədər yazılıb. Balıq ovlamaq üçün necə icazə verildiyi də daxil olmaqla. Çox qiymətli sənəddir. Özünüz də görəcəksiniz.

İ.Şopen ermənilər haqqında yazır ki, yerli ermənilər əslində erməni deyil, onlar ermənileşmiş yəhudilərdir. Gördüyünüz kimi həddən artıq qiymətli məlumatdır. Sonra yazır ki, ermənilərin oxuduğu mahnılar, oynadığı rəqslər, musiqi də türklərindir. Bundan da qiymətli məlumat ola bilərmi? İndiki tarixçilər də ermənilərə qarşı ideoloji mübaruzə aparanda onun bu qiymətli fikirlərindən istifadə edirlər.

Murvet Yusifov: Qardaş, dediyin o sənəddə mənim kəndimin adı belə düz yazılmayıb.***Ağbulaq haqqında yazılanlarla Eldar müəllim də razılaşmadı.***Yəqin ki, razılaşılmayan çox kəndlər var. Ümumiyyətlə, sənəd dediyin istinad nöqtənizin özü səhvdi. Nədən, niyə səhv olduğunu onu görmədən deyə bilmərəm.

Paradoksa baxın! Bir tərəfdən deyir ki, "sənəd dediyin istinad nöqtənizin özü səhvdi", elə oradaca əlavə edir ki, "niyə səhv olduğunu onu görmədən deyə bilmərəm". Beləliklə

boynuna alır ki, həmin sənədləri görməyib. Və görmədən də onları səhv elan edir!

E.İsmayıl və onun doğulduğu Ağbulaq kəndinə gəlincə, bu kitabı yazmağa başlayarkən, vaxtilə E.İsmayılın babaları haqqındakı şəcərəsinə əsaslanıb onları Göyçə mahalının 1831-ci və 1842-ci illərə aid kameral təsvirlərində tapdığımı artıq yazmışam. Həmin günün səhəri, yəni 2018-ci ilin 4 martında M.Yusifovun zaman tunelinə təxminən bu məzmunda məktub yazmışdım: "E.İsmayıl öz babalarını mənim "Göyçə mahalının kameral təsviri" kitabımda tapa bildimi? Əgər tapmayıbsa, ona denən babaları 1842-ci ilin siyahısında Ağbulaq kəndində 10-cu ailə, 1831-ci ilin siyahısında isə 18-ci ailədir. Mal varlıqlarından görünür ki, dövlətli adam olublar.

Amma Babacanın atasının adı E.İsmayılın yazdığı kimi Qulu deyil, Mehdidir.

Mən E.İsmayıldan heç bir təşəkkür gözləmir və onunla ünsiyyətə girmək istəmirəm. Çünki məndən DTX-ya yazılan donosda onun da imzası var".

Bu sözləri kompüterdən yazıb evdən çıxmışdım, axşam saat 7-də evə qayıdanda M.Yusifovun reaksiyasını görmək üçün yazımı axtardım, gördüm ki, onu silib.

Ona görə də, "Ağbulaq haqqında yazılanlarla Eldar müəllim də razılaşmadı" cümləsi çox maraqlı gəldi mənə. Babasının atasının adını dəqiq bilməyən adamın mənim yazdıqlarımla razılaşmaması təbii sayılmalıdır!

Nazir Ahmedli: Sənədə şərh yazmaq olar, hansısa məsələnin səbəbini izah etmək olar, amma onları inkar etmək olmaz axı. Sənədi təhlil etmək, tənqid etmək, şərh etmək yasaq deyil. Bizdə deyildiyi kimi, heç bir yazı, sənəd Quran ayəsi deyil, amma bu sənədləri kənara ata bilmərik.

Murvet Yusifov: Nazir müəllim, sizin dediyiniz o sənəddə kəndin adı belə səhv yazılırsa onu sənəd deyib tutmaq nəyə gərəkdi?

Nazir Ahmedli: Həm də məsələnin həlledici əhəmiyyət daşıyan bir tərəfi var: 15 yaşına çatmış uşaqlardan və kişilərdən "başpulu" deyilən 1,2 rubl (1 qoyun 2 rubl idi) vergi alırdılar və ona görə də məmurlar kiminsə yaşını hec vaxt kiçiltməzdilər. Rəqəmi dəyişməyə çalışsaydılar onların yaşını daha böyük göstərərdilər. Qadınlar və 15 yaşdan aşağı uşaqlar isə başpulu vergisindən azad idi.

Nazir Ahmedli: Nərimanlı kəndinin əvvəlki adı Hüseynquluağalı olmayıb?

Murvet Yusifov: Sizin sənəddə Daş Keyti də göstərilir.

Nazir Ahmedli: Yazılıb ki, Daş Keyti və ya Hüseynquluağalı. Yəqin bir vaxtdan sonra 1-ci adı unudulub, kənd camaatı 2-ci ada üstünlük verib. Belə şeylər olurdu.

Murvet Yusifov: Sənəd dediyiniz o yazıda (mən onu görmədən adını çəkə bilmərəm) səhvlər çoxdu. Səhvlər toplumunu sənəd adlandırmaq olmaz.

Mürvət Yusifov artıq neçənci dəfədir ki, görmədiyi sənəddə çoxlu səhvlərin olduğundan danışır!

Nazir Ahmedli: Sizin onları sənəd saymamağa, mənim isə saymağa ixtiyarım var, necə deyərlər, fikir plüralizmi, söz azadlığıdır bu. Hamını eyni cür düşünməyə vadar etmək olmaz. Belə hala totalitarizm deyirlər.

Murvet Yusifov: Nazir müəllim, belə fikir yürütməyiniz Göyçə tarixinə, Göyçə coğrafiyasına bələd olmamağınızın təzahürüdü. Bir az öncə yazdım ki, Göyçə mahalında kəndlərin adı 14-15-ci əsrlərə qədər tam dəqiqləşib. Eldar İsmayılın tarixi romanlarına bax, Qərbi Azərbaycan-Göyçə erməni işğalı kitabında bunlar kifayət qədər elmi və tarixi əsaslarla izah olunubdu.

Kitabın adını standarta uyğun yazmadığına və nəşr tarixini göstərmədiyinə görə güman etmək olar ki, adı "Qərbi Azərbaycan-Göyçə erməni işğalı"dır. Burada M.Yusifovun tamamilə elmdən kənar bir adam olduğu üzə çıxır. Adları "14-

15-ci əsrlərə qədər tam dəqiqləşən" Göyçə kəndlərindən danışır və mənbə kimi E.İsmayılın "tarixi" romanlarına istinad edir. Heç olmasa E.İsmayılın "sübutlarının" hansı mənbələrə söykəndiyini demir. Çünki bu haqda elementar anlayışı yoxdur.

Şahlar Haciyev: Nazir bəy, bu məlumatları haradan götürmüsünüz? Həqiqətə uyğun olmayan bu məlumatlar nə məqsəd daşıyır? Aşıq Ələsgərin yaşını 74 eləməklə heç nə dəyişmir, amma ağılabatan deyil axı. Məqsədinizi anlamaq olmur.

Mürvət Yusifov: Nazir müəllim, Dədə Ələsgərin yaşına kölgə salmaq yaradıcılığına, dahiliyinə, milli kimliyinə kölgə salmaq qədər mümkünsüzdü. ***Mən, ümumiyyətlə son günlərədək bu mövzuya diqqət yetirməmişdim.Son günlər araşdırmalardan məlum oldu ki, bu mövzuda kifayət qədər dolğun yazılıb və yenidən bu mövzuya toxunmağa ehtiyac görmürəm. 19-cu əsr Göyçə mahalının yeni tarixidi.*** Göyçə yazarları Dədə Heydərin, Miskin Abdalın həyat və yaradıcılığını araşdırıblar. Bunlar da Ağ Aşıqdan 2-3 əsr əvvəl yaşayıblar.***Mən sizə bir eloğlu kimi təklif etdim ki, əlinizdə dediyiniz sənəd varsa onun üzərində işləyin. Çap üçün tələsməyin.***Çünki sizin dediklərinizin həqiqətdən uzaqdı. Amma siz sözünüzü göyərtməkdə davam edirsiniz.Dədə Ələsgərin nəticələri ayaqdadı**.**Bu, bir elin heysiyyatına toxunan məsələdi. İndi də bir eloğlu kimi təklif edirəm ki, yığışdırın bu söhbəti!

Elmi arqumenti tükəndiyindən, indi də məni Aşıq Ələsgərin nəvə-nəticələri ilə hədələyir.Çox keçmədən onun bu hədələrinin gerçək olduğu ortaya çıxdı.

Amiranə bir tərzdə mənə "təklif edir", daha doğrusu tələb edir: "Yığışdırın bu söhbəti!"

Mürvət Yusifov artıq neçənci dəfədir ki, "sənədlərin üzərində işləməkdən" danışır. Başqa sözlə, onları saxtalaşdırıb köhnə doğum tarixlərini qüvvədə saxlamağı təklif edir.

Nazir Ahmedli: Mürvət müəllim, nahaq əsəbləşirsiniz. Mənim yazdıqlarım elmi mövqedir, akademiklər ona rəy verib. Göyçəli, tanınmış alim Əli Şamil kitabıma ön söz yazıb, onun həqiqət olduğunu təsdiq ediblər. Kitabda təkcə Ələsgərin deyil, Ağ Aşığın, Aşıq Alının, Aşıq Musanın, Şair Məmmədhüseynin və Şəmkirli Aşıq Hüseynin də yaşları dəqiqləşdirilib. Məsələ təkcə Ələsgərlə bağlı olsaydı, bəlkə də açıb-ağartmazdım, bu şəxslərin hamısı haqqındakı bilgilər yanlışdır. Onları düzəltmək lazımdır. Kitabda təkcə onların doğum tarixlərinə deyil, yaradıcılığına da toxunulur və Ələsgəri dahi, Azərbaycan aşıq sənətindəki yerini isə dağın zirvəsi adlandırmışam. Mənim babamın babası haqqında bütün tayfamız o fikirdə idi ki, 156 il yaşayıb. Bu cür sənədlərlə aşkar etdim ki, o 156 il deyil, 87 il yaşayıb, dünya da dağılmadı.

Murvet Yusifov: Nazir müəllim, məsələ burasındadı ki, siz dediyiniz təvəllüdlər tamamilə yanlışdı. Dədə Ələsgərin şəcərəsinin təvəllüdləri varmış. Siz hansısa rusun hardasa, nədənsə yazdığını gözümüzə niyə soxursunuz? Adını çəkdiyiniz adamlar bu günə qədər harada idilər? Əli Şamil Eldar İsmayıl yazdığının onda birini yazıbmı? Mən burada başqa məqamların olduğunu düşünürəm!!!

Nazir Ahmedli: Mürvət müəllim, nə məqamdan söhbət gedir, nəyə işarə edirsiniz? Eldar müəllimin yazdıqlarına heç kim kölgə salmır, sağ olsun, neçənci dəfə qeyd edirəm ki, onun yazdığı ayrı janrdır, bu ayrı.

Rehman Hesenov: Cox hormetli Murvet muellim! O Nazir beye tarixi menbelere esaslanan faktlarla başa salsaniz da o başa duşmeyecek, ən azi ona gorə ki, ***o öz dogum tarixini bilmir,*** qaldi ki, hansi akademik rey yazib o da şubhelidir repressiya qurbanlarinin ölum tarixini muqayise edir sevinir, tez olubler. Düşüncəsizlikdir. Dede Elesgerle bunlarin ne elaqesi, öz cografiyasini hec bilmir tutarli cavaba gore alqişlayiriq.

Murvet Yusifov: Rəhman müəllim, Nazir müəllim savadlı, natiq eloğludu. Amma bu məsələdə inadkarlıq eləməklərini anlamıram. Mən eloğlu kimi Nazir Əhmədliyə və onunla

işbirliyində olanlara təklif edirəm, məsələni qapasınlar. Boşuna zəhmət çəkməsinlər. Bu kitab tarixi faktlarla boykot ediləcək!

Bu dəfəki hədəsində tətbiq edəcəyi başqa bir təşkilati tədbirin adını da göstərir-boykot!

Halbuki, "tarixi sənədlərlə təkzib edəcəyik" deməliydi. Əlbəttə, əgər bu cür sənədləri varsa!

Amma M.Yusifov etiraf edir ki,"Nazir müəllim savadlı, natiq eloğludu".

Rehman Hesenov: Inadkarliginin sebebini yazsin, belke tezyiq edirler? Biz de bilek.

Qabil Zimistanoglu: Mən də Nazir Ahmedli müəllimin Göyçə və Göyçənin tarixi şəxsiyyətləri ilə bağlı apardığı araşdırmalarda çoxsaylı nöqsan, qüsur və təhriflər mövcuddur. Onun bu məsələyə diqqətlə yanaşması olduqca vacib məsələdir. Təkcə bir məqama toxunmaq istərdim. Nazir müəllim öz babaları haqqında araşdırmada qeyd edir ki, o, qaraçorlu tayfasındandır. Zelinski isə öz əsərlərində qaraçorlu tayfasının türk mənşəli olmadığını bildirir. Onda Zelinskinin qeyd etdiklərini əsas kimi götürmək olarmı? Hər halda, bu cür məsələlər diqqət yetiriləcək və həssas məsələlərdir.

Qabil Zimistanoğlu burada düşük bir rol oynayır! Zelinski qaraçorluları kürd sayır, onlarla başqa müəllif isə türk sayır. Ələsgərin və başqa aşıqlarımızın doğum tarixlərindəki yanlışlıqların buraya nə aidiyyatı var?

Bütün elmi mövqeləri bir kənara qoyuram, adında "qara" olan bütün tayfalar türkdür: məsələn, qarapapaq, qaraqoyunlu, qaramanlı, qarakeçili və s. O cümlədən də qaraçorluların türk olmağı şübhə doğurmayan faktdır və bu məsələləri "Dərələyəz mahalının kameral təsviri" (Bakı, 2017) kitabımda ətraflı təsvir etmişəm. Üstəlik, mən qaraçorlu deyiləm və belə şey də yazmamışam. Qaraçorlular Dərələyəz mahalına 1811-ci ildə gəliblər, daha doğrusu, Qarabağ xanı Mehdiqulu

xanla aralarında ixtilaf yarandığına görə, İran şahzadəsi, taxt-tacın varisi Abbas Mirzə qaraçorluları Dərələyəzə yerləşdirib və onları bütün vergilərdən azad edib.

Mənim babalarım isə "Naxçıvan sancağının müfəssəl dəftəri" (Bakı, 2001) kitabında, Dərələyəzin Məlikşah kəndində 1727-ci ildə qeydiyyata alınıblar. Bunlar Murad Şahqulu oğlu və onun qardaşı Əliquludur.

1991-ci ilə qədər mənim özüm də "Şahquliyev" soyadını daşımışam və məqalələrim 1990-cı ildə "Azadlıq" qəzetində həmin soyadla dərc edilib.

Nazir Ahmedli: Qabil Zimistanoglu, mən qaraçorlu deyiləm. 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftərində" (Bakı, 2001) babam Şahqulu və onun 2 oğlu Dərələyəz mahalının Məlikşah kəndində qeydə alınıb. Qaraçorlularda bir nəfər də Şahqulu adında adama rast gəlməzsiniz. Əksinə, Zod kəndinin 1831-ci ilə aid siyahısında Şahqulu var, o isə qarapapaqların qazax tayfasına məxsusdur. Kitabımı yəqin diqqətlə oxumamısan. Bu məsələni orada işıqlandırmışam. Qaraçorlular Dərələyəzə 1811-ci ildə gəlib, babam Şahqulu isə 1727-ci ildə artıq Dərələyəzdə qeydə alınıb. Kitabımda o da var.

Q.Zimistanoğlu əsas məsələdən yayınıb çirkin üsula əl atır. Halbuki "Gabud və gabudlular" (Bakı, 2016) kitabımda elmi mənbələrə istinad edərək qaraçorluların türk olduğunu da yazmışam.

Qabil Zimistanoglu: Nazir Ahmedli müəllim, kitabınızı hələ tam başa çatdırmamışam. İnşallah tam şəkildə bu günlərdə oxuyub qurtaracağam. Hazırda kitabınız yanımda olmadığı üçün səhifəsini qeyd edə bilmirəm. Amma kitabınızda qeyd etdiklərinizdən aydın olur ki, qaraçorlu tayfası Dərələyəzdə bir neçə kənddə məskunlaşıb. Zelinski isə bu tayfa ilə bağlı

qeydlərində bildirir ki, Qaraçorlular türk tayfası deyil. Sizcə, Zelnskinin bu fikrini əsas götürmək olarmı?

Göyçə oğuz türklərinin məskəni olub. Zod kəndi isə Göyçənin tarixi və böyük kəndlərindəndir. Tarixi mənbələrdə Makedoniyalı İsgəndərin dövründə Zod qızılının emal olunması ilə bağlı məlumatlar var. Bu kənddə də, Göyçənin digər kəndləri kimi türklər yaşayıb

Vasif Museyibov:

Qeyrilər etdilər tərəqqeyi tam,
Qaldı zillətdə fəqireyi islam.
Allah sənə rəhmət eləsin Mirzə Ələkbər...

Murvet Yusifov: Füzuli müəllim, Dədə Ələsgərin tələf olanlardan başqa 11 uşağı həyatda yaşayıb. Talıb 10-cu övladı olub. Tələf olan uşaqlar Talıbdan əvvəl olublar. Belə faktlar çoxdu...Nazir Əhmədli və ona dəstək verən göyçəlilər, yəqin övladları üçün də başqa təvəllüd icad edəcəklər.

Mahmud Memmedov: Eziz qardaş Mürvet müellim, seni tanımağa çox şadam. Senin narahatçılığını da başa düşürem. Kaş senin kimi göyçeliler bir az çox olardı. Senin heyecanını anlamayanlar, lüzumsuz diskussiya deyenler, yorumlardan yan keçen göyçelilerin hereketi inanıram seni yolundan dödermiyecek, ruhdan salmayacaq

Qabil Zimistanoglu: Füzuli Sabiroğlu müəllim, müzakirə mövzusu olan bu kitab hələ çap olunmayıb. Məndə olan kitab Nazir müəllimin işıq üzü görən Dərələyəz mahalının kameral təsviri ilə bağlı olan kitabdır.

Murvet Yusifov: Təşəkkür edirəm Mahmud bəy! Belə şeyləri çox görmüşəm.Təbii ki, haqq uğrunda olduğum üçün kimlərinsə hansısa hərəkətinə görə geri çəkilməyəcəm. Vətənimizin işğaldan azad edilməsinə çalışmaq əvəzinə, qondarma tarix yazmaq xoş niyyətdən irəli gələn bir şey deyil.

M.Yusifov artıq təriflərdən məmnun olub, təcavüzünün, şər əməllərinin dozunu artırmağa başlayır.

25 May 2017.

M.Yusifovun statusu:

Tarixi şəxsiyyət anlayışını dərk etməyənlər tarix yazmaq eşqinə düşəndə vəlvələ olur!

Yorumlar:

Aqşin Hacızadə: necə ki, bir özündən "alim" birisi GÖYÇƏ və göyçəlİlər haqda ağlına gələnİ yazmaq istəyir.

Murvet Yusifov: Elə göyçəli də var o sırada.

Кеклик Мамедова: görəsən, o günü görəcəyikmi ki, göyçəli, bakili, salyanli, qaxli, nə bilim, yeraz, qraz, qarabağli və s. ...sözləri aradan çixacaq, təkcə "azərbaycanli" sözü qalacaq?! haralisan sözünə neçə nəfər "azərbaycanliyam!" cavabi verir?

Şahlar Haciyev: Sahib Musayev, Bu Aşıq Ələsgərə aid kitab deyil, Göyçənin kameral təsviridir. Rusların təhrifləri olsa da, qiymətli məlumatlar var. Nazir bəyə minnətdarlıq düşür. Haqqını dəyərləndirməliyik.

Murvet Yusifov: Şahlar bəy, o kameral təsvir adlandırılan yazıdakı yanlışlıqlar işin xarabını çıxarır.***Bəli, oradakı bəzi məlumatların üzərində işləmək olar.***Amma bunu sənəd deyib olduğu kimi çap etdirmək düşmən dəyirmanına su tökməkdi.

Göründüyü kimi, Ş.Hacıyev bu sənədlərin mühüm sənədlər olduğunu anlayır və "Nazir bəyə minnətdarlıq düşür" deyir. Amma M.Yusifov araya girib onu düzgün yoldan azdırmağa çalışır.

Yenə "üzərində işləmək"! Yəni saxtalaşdırıb nəşr etmək.

Şahlar Haciyev: Nədi axı narazılıq yaradan məlumat ?

Murvet Yusifov: Müzakirələrdə diqqətli olmaq lazımdı. Kəndlərin adları düz yazılmır, əhalinin sayı təhrif olunur. Bəzi

kəndlərin adı çəkilmir. Elə o siyahıya alma əsasında Ağ Aşığı kürdə bağlayır, Aşıq Alının, Dədə Ələsgərin yaşadığı 30-35 ili silir. Bununla da pis heç nə etmədiyini bildirir. Unudur ki, hər iki ustad sıradan biri deyillər. Hər ikisi tarixi şəxsiyyətdi. Silinən 1-5 il deyil, 30-35 ildi.Bu isə yarım ömür deməkdi.

Şahlar Haciyev: Bəs deyir ki, bu başqa kitabdır.

Murvet Yusifov: Başqa ola bilər mahiyyətcə eynidi.

Şahlar Haciyev: Mürvət Nazirdəki məlumatlar Oruc bəyin (Laləndə) dediyi Tanrıverdidəki əlyazmadır. Çox üstünə getməyin. Xeyli iş görüb

Murvet Yusifov: Bilmirəm Tanrıverdidəki nədi. Bunun təqdim etdiyi qəbul edilən deyil.

Murvet Yusifov: Şahlar bəy, hamıdan əvvəl mən ona çox yumşaq halda dedim ki, əziyyət çəkmisən, amma bu sənədlərin üzərində yetərincə işləmək lazımdı. ***(Yenə "üzərində işləmək"!-N.Ə.)*** Bir misal çəkim. Çox örmətli Eldar İsmayıl Göyçədə doğulub boya başa çatmasına, orada böyüməsinə baxmayaraq, "Ulu Göyçə" poemasını yazanda Göyçəni qarış-qarış gəzib, yaşlı adamları bir-bir danışdırıb qeydlər aparırdı. Budu məsuliyyət. Nazirə deyilir ki, Aşıq Alı Qızılvəngdə doğulub, orada da dəfn edilib. Dirənib ki, yox Şişqayada olub. Dədə Ələsgərin öz dediyi: rus gələndə mənim 7-8 yaşım olardı.

Nazir deyir yox, rus yazıb 1852. Mən də çox istəyərdim ki, yurd yerlərimizlə bağlı elə bir şey yazsın ki, təşəkkür edək. Eldar müəllim "Səttaroğlu" romanını yazdı. Bütün vedililər təşəkkür etdi.Vedibasarda o dövrdə baş verən hadisələr o qədər ziddiyyətli idi ki..Amma bunu Eldar zəkası, Eldar qələmi o qədər məharətlə işlədi ki, hər kəs razı qaldı. Həmin hadisələri də rus bizə başqa cür təqdim edirdi.***Yadınızdadısa, ilkin müzakirələrdə mən çox irəli getmirdim. Nazirin sözünü göyərtməsi məni məcbur etdi. Hələ minnət qoyur ki, mən Alını, Ələsgəri türk yazmışam.Nə isə....***

Mən məsləhət bilirəm ki, bu mövzunu qapasın. Tarix yazmaq üçün bir yox, eyni dövrə aid bir neçə mənbədən istifadə etmək lazımdı....

Şahlar Haciyev: Bu adam tarix yazmır ki, onu qınayaq, sadəcə əlinə keçən məlumatları kitab halına salmaq istəyib. Qaldı Ağ Aşıq məsələsinə: o haqda və qarapapaqlar haqda fikir mübadiləsi etmişik.Əgər rusların süzgəcindən keçibsə, elə ustalıqla düyün salırlar ki, analiz etmək çətin olur.

Murvet Yusifov: Buna nə güc düşüb ki, rusların düyününə salır özünü. Bir halda ki o düyündən çıxa bilmir.

Şebnem Bunyadzade: O yazılarda ne var. Bu qeder adam size irad tutur siz israr edirsiniz Nazir Ahmedli?

Murvet Yusifov: Sənəd adlandırdığı bu yazı toplumunda əsas tutduğu o illərdə yaşamış ulularımızın kimliyi belə düz yazılmayıbsa nədən keçməliyik Sahib bəy!Sovet arxivlərində belə, o ərazilərdə hər şey ermənilərin xeyrinə dəyişdirildiyini çoxları bilir.Bundan əlavə hələ o yazılarda olan digər qaranlıqlardan xəbərimiz yoxdu.Belə çıxır ki, Dərələyəz haqqında yazılan kitabın da araşdırılmasına ehtiyac var.Bizlər razı ola bilmərik ki, ata baba yurdlarımız haqqında obyektiv olmayan məlumatlar tarix kimi yazılsın

Mahmud Memmedov: Tarix yazılmaqla deyil qebul edilmekledi

Bərəkallah, Mahmud Məmmədov! "Gözəl" bir "aforizm" yaratdın! Tarix yazılmaqla deyil, qəbul edilməklə imiş. Yəni tarixdə hansı hadisələr baş verib, önəmli deyil, xoşumuza gələn şəkildə hadisələr uydurub, onları "tarix" kimi yazmalıyıq! Yaxşı, tutaq ki, bunu da etdik. Bəs sənin dediyin kimi, həmin yazılanı Biləcəridən o tərəfə keçəndən sonra heç kim qəbul etməyəcəksə, onda necə olacaq?

Mürvət Yusifov isə artıq Dərələyəzin də "qayğısına qalır": Dərələyəz haqqında yazılan kitabın da araşdırılmasına ehtiyac var".

Aqşin Hacı Zadə: Mənə maraqlı gəlir, bu adam bu çətin zamanda bu qədər vəsaiti hardan alır Bu bir.. Yəni Leninqrad, 8 illik haralarasa əyaq döymək, vaxt itirmək, İkincisi hamı dediyi

kimi mən də deyirəm əsrlərlə tariximizi saxtalaşdıran, az qala bizi ermənilərə tam qurban etməyə hazır olan ruslara bu inam, bu sevgi necə də "ülvi" sevgiyə bənzəyir,(((

Nazir Ahmedli: Beləliklə, məlum olur ki, milli tayfası Aşağı Keyti kəndini tərk edəndən sonra Yellicə kəndinin əhalisi oranı tutub və onu kəndxudaları Hüseynqulu ağanın adı ilə "Hüseynquluağalı" adlandırıblar.

Sonrakı tədqiqatlarımdan məlum oldu ki, Hüseynqulu ağa Gəncəli Cavad xanın nəvəsi imiş.

Şahlar Haciyev: Nazir bəy, bu məlumatla bütün yazdıqlarını alt-üst eləyirsən. Demək istəyirsən ki öncə Nərimanlıda kürdlər yaşayıb?

Murvet Yusifov: Hələ başqa şeylər də çıxacaq!

Şahlar Haciyev: Bu axı uzaq tarix deyil.Ona görə də babalarımızın dediklərinə inanmalıyıq. Ağız Ədəbiyyatı ən yaxın tarixin sübutudur.Deyilənlərə görə Göyçədə milli qoyunlardan olmayıb. Onlar sonradan gəlmədir.

Şahlar Hacıyev artıq azğınlaşaraq milliləri "qoyun" adlandırır.

Murvet Yusifov: Şahlar bəy bu barədə kifayət qədər yazılıb.

Nazir Ahmedli: Millilər qarapapaqlardan sonra gəlib, sonra da əksəriyyəti çıxıb gedib. Çoxu da Vediyə gedib. Əvvəlcə Gərnibasar mahalından gəlmişdilər

Murvet Yusifov: Hüseynquluağalı 18-ci əsrin sonlarına aid olan adıdı. Nərimanlının Hüseynquluağalıdan əvvəl bəzi mənbələrdə Palçıqlı, bəzi mənbələrdə Çamırlı kimi qeyd edilib. Bu adam nə və nədən danışdığını da bilmir. Nazir, mənim səhifəmdə mənim elimə obama şər böhtan deməyinin fərqindəsənmi. Səbrim tükənir haa!

Göyçə mahalının 1942-ci ilə aid kameral təsvirində Hüseynquluağalı kəndinin adının Kəndxuda Hüseynqulu ağa Hüseynqulu ağa oğlunun adından yarandığını görmək elə də çətin deyil. Əgər GÖRMƏK istəsən! Bu adam isə heç nəyi görmək istəmir!

Murvet Yusifov: Qohumları dediyi yalan olar)))Rus nə yazıbsa o düzdü. Nazir sən artıq ağ eləyirsən.Qapa bu mövzunu. İndi də kəndimi milli yurdu elədin. Sənlə normal danışmaq oımur. Əsəblərim gərilir!!!

3 iyun 2017.

Mənim paylaşdığım status:

XIX əsrdə yaşamış ustad aşıqlarımız Aşıq Ələsgər, Aşıq Alı, Ağ Aşıq, Aşıq Söyün Şəmkirli, Şair Məmmədhüseyn, Aşıq Musa və başqalarının həyat və yaradıcılığından bəhs edən "Haqq-nahaqq seçilər Haqq divanında" adlı kitabım işıq üzü gördü.(Kitabın elmi redaktoru akademik Nizami Cəfərovun və tədqiqatçı-jurnalist, folklorşünas Əli Şamilin ön sözləri ilə). Kitabda haqqında söhbət gedən sənətkarlarımızın doğum tarixləri yeni arxiv sənədləri əsasında dəqiqləşdirilmişdir.

Yorumlar:

Asya Haci: Təbrik ediram Nazir muallim. Dəyərli ishlərinizdə sizə uğurlar arzulayiram

Nazir Ahmedli: Çox sağ olun, Asya xanım, təşəkkür edirəm

Allahverdi Mahmudov: Тебриклер Назир муеллим.

Mushfig Alekperov: Eshg olsun.

Nadir Sah Fırdevs: Tebrıkler, tarıxımızı gelecek nesıl üçün yazdıgına göre, tarıxde qalaçaqsan

Metanet Saraclı: Xeyirli,uğurlu olsun! Karyeranızda inqilab yaratsın.Bir sözle, ayağı sayalı olsun!

Asif Quliyev: Təbrik edirəm.

Əli İbrahimov: Çox şad oldum.Çox sağ ol, çəkdiyin əziyyətlərə görə. Mən bu kitabı mühüm ədəbi hadisə hesab edirəm.Uğur olsun.

Vüqar Əsgərov: Təbrik edirəm, uğurlarınız bol olsun

Qılman İman: Təbriklər, xeyirli, uğurlu olsun. Mümkünsə mənim payımı saxlayın müəllim))

Qulu Aqses: Təbrik edirəm.

Nizami Tahmazov: Urekden tebrik edir ve daha möhteshem uqurlar arzulayiram.

Mehri Ceferova: Tebrikler Nazir muellim!

Akif Haciyev: Təbriklər!!!

Ali Haziquliyev: Xeyirli uğurlu olsun qardash.

Rustam Dastanoglu Mamedov: Çox deyerli, lazımlı iş görmüsünüz, Nazir müellim.Tebrik edirem.

Nazir Ahmedli: Sizə çatdıracağam, köhnə dost!

Rustam Dastanoglu Mamedov: Önceden teşekkür edirem,Nazir müellim.

Etibar Etibarli: TƏBRİKLƏR!!!

Sahil Humbetov: Təbriklər müəllim, gün olsun 50 ci kitabını nəşr etdiresiniz

Sona Almazli: Xeyirli ve uqurlu olsun,qeleminize ve duşuncenize saqllq

Kamil Veli: Təbrikler, sevindim!

Akif Ahmedgil: Təbrik edirəm. Zənnimcə, ciddi arşdırmadır...

Tahire İsmayilova: Təbtik edirəm uğurlarınızın davamını diləyirəm

Zeynal Mamedov: Tebrikler deyerli dost.

Musellim Quliyev: Təbriklər.

Behbud Memmedov: mən sizi təbrik edirəm Allah caninizi sag, gözünüzü nurlu etsinki belə kitablarin sayi dahada cox olsun sizi səmimi qəlbdən təbrik edirəm

Adalet Tahirzade: Ürəkdən təbrik edirəm!

Ahliman Hıdırov: Təbrik edirəm

Aqil Kengerli: Təbrik edirəm.Uğurlu olsun.

Vuqar Zeynalov: Təbriklər, Nazir müəllim! Sizin qələminiz daim millətə, onun tarixinə, mədəniyyətinə, inkişafına xidmət edib. Siz hər türlü təbriklərə və təltiflərə layiqsiniz. Uca Tanrı sizin zəhmətinizin bəhrəsini versin. Milli məfkurənin formalaşmasında siz bir mayaksınız. Allah sizi bu bu millət üçün qorusun. Amin!

Nazir Ahmedli: Çox sağ olun, Vüqar müəllim, Allah Sizdən razı olsun

İbrahim Rüstəmli: Təbrik edirəm, Nazir müəllim.

Maarif Piraliyev: Uğurların çox olsun,Nazir bəy.Sənin uğurun bizim üçün qürurdur.

Abulfat Maharramli: Təbrik edirəm, Nazir müəllim. Uğurlarınız davamlı olsun!

Asif Abbaslı: Təbrik edirəm!!! Tebrikler!

Osman Fermanoglu: Təbrik edirəm.

Nazir Ahmedli: Dostlar, hamınıza tək-tək təşəkkürümü bildirirəm! Yaxşı ki, varsınız!! Hamınıza bu kitabdan hədiyyə etməyə hazıram!

Xuraman Fatullayeva: Təbrik edirəm, uğurlar arzulayıram.Axarıncı olsun.

Maarifçi Qadınlar: Tebrik edirem. Reallaşmayan bütün arzularınız gercekleşsin. Daim bele sevincler nesibiniz olsun. Edebiyyatımıza da böyük töhfeler vermek ücün Size uca tanrıdan cansağlığı. Uzun ömr dileyirem.

Nazir Ahmedli: Çox sağ olun, minnətdaram. Mən də həyata keçirməkdə olduğunuz nəcib və ağır işlərdə sizə uğurlar və cansağlığı diləyirəm!!

Nazim Shamilov: Təbriklər Nazir müəllim!

Nazir Ahmedli: Sağ ol, əziz qardaşım!

Oktay Memmedov: Təbrik edirəm! Xeyirli-uğurlu olsun! Ayağı yüngül olsun . Başqa aşıq-şairlərin də yaradıcılığını işıqlandırasan,inşaallah!

Serdar Alibeyli: Təbriklər! NAZIR BEY UGURLAR

Ilhame Kazimova: TEBRIK edirem, yeni - yeni yaradiciliq axtarişlari, ugurlari arzulayiram

Mehbube Ağayeva: Ugurlar diləyirəm.

Yusif Qarayev: Nazir bəy təbrik edirəm.

Ramin Məmmədov: Səmimi qəlbdən təbrik edirəm,Nazir müəllim!Sizə yeni-yeni uğurlar arzulayıram!

Mûbariz Binnetoqlu Zengezurda: Nazir müellim tebrik edirem! Yaradlclllqlnlz davamll olsun.

Rahim Xudaverdiyev: Təbriklər!!!

Abdurrahman Karaköse: Hayırlı-uğurlu olsun hocam. Sizin adınıza çok sevinçliyim. Okumayı çok isterim.

Nazir Ahmedli: Əziz qardaşım, 1 həftəyə qalmaz, kitabın e-variantını internetdə yerləşdiririz.

Abdurrahman Karaköse: Teşekkür ederim hocam, Hürmetler size

Ibrahim Huseynquliyev: Tebrik edirem!

Elshad Musayev: Təbriklər, Nazir bəy! İnanıram ki, hələ çox yeniliklər gətirəcəksən. Uğurların davamı gəlsin!

Nazir Əhmədli: Sağ ol, əziz qardaşım. İrəvan xanlığına daxil olan 15 mahalın və İrəvan şəhərinin Kameral təsvirlərini-1831-ci ildə orada yaşayanların adbaad siyahısını hazırlamaq və nəşr etmək fikrindəyəm. 1 neçə il ağır zəhmət tələb edən fundamental işdir. 8 ildir ki, həmin sənədləri toplamaqla məşğulam, indi onları çapa hazırlamaq qalır. Dərələyəz mahalının Kameral təsvirini artıq nəşr etdirmişəm.

Ilgar Mukhtarli: Deyerli Nazir müəllim tebrik edirem, sizin Qerbi-Azerbaycanin bütün bölgelerini ehate eden sanballi araşdirmalarinizi gözləyəcəyik, size başarilar! Bu kitabi hardan alaq?

Afseddin Nebiyev: Təbrik edirəm.Yeni -yeni uğurlar arzulayıram!

Qafar Cəfərli: Nazir müəllim,təbrik edirəm.Daha böyük uğurlar arzulayıram.

Binyamin Aliyev: Təbriklər, Nazir bəy! Uğurlarınız davamlı olsun!

Seyfettin Altayli: Tebrikler qardaşım.

Azer Veliyev: Nazir müəllim Sizi kitabınızın çapdan çıxması münasibəti ilə səmimi qəlbdən öz və ailəmiz adından təbrik edirəm.Allah sizə can sağlığı və uzun ömür versin ki, bundan sonra da uğurlarınız davamlı olsun

Xaqani Memmedov: Nazir müəllim Sizi səmimi qəlbdən təbrik edirəm. Yaradıcılığınızın davamlı və qələminizin iti olması diləyi ilə Sizə can sağlığı arzulayıram..

Ismayil Imamov: Təbrik edir və yaradıcılıq fəaliyyətinizdə uğurlar arzu edirəm.

Veli Xramcayli : tebrikler

Zakir Hüseynoğlu: Təbrik edirəm

Zaur Mammadov: Tebrik eliyirem bu kitabiniz isiq uzu gormesi munasibeti ile Allah size omur versin innen bele de bir cox kitablariniz oxucularin istifadesine verilsin

Mehdi Calals: UĞURLAR DİLƏYİRƏM!

Ganira Pirguliyeva: Kitabın elektron versiyası varsa, mümkünsə məlumat verərdiniz.Yoxdursa haradan almaq mümkündür?

Nazir Ahmedli: turuz.com saytındaa var, oradan oxuya bilərsiniz.

Koroğlu Qasımov: Sen ne qeder serefsiz yazılar yazmanda davam edecen

İlyas Şahquliyev: Sən şərəfsizi başa salana qədər.

Bu, həmim Koroğlu Qasımovdur ki, Gəncə şəhərində polis orqanlarında işləyərkən, boyunlarına narkotika satmaqla məşğul olduqlarını qoymaq üçün bir qadınla onun 20 yaşlı oğlunu soyundurub bir kameraya salmışdı...

12 iyun 2017.

Eldar İsmayılın statusu

ALLAH SƏNƏ RƏHMƏT ELƏSİN AY DƏDƏ ƏLƏSGƏR!

Sən deyəndə ki:

"Səksəni, doxsanı keçibdi yaşım,

Gor deyə tərpənir bəlalı başım.

Əzrayıl həmdəmim, məzar yoldaşım,

Daha köç təblini çal, qoca baxtım!"

Yerdən, göydən xəbər verən ay böyük insan, sən nədən bilmədin ki, sənin yaşın 70 civarındadı?! Sən öz yaşını bilmədiyinə baxma, indi elə bilicilər çıxıb ki, deyirlər cəmi 74 il ömür sürübsən. Ay dahi ustad, indi kimə inanaq, SƏNƏ, yoxsa BİLİCİYƏ?!

Yorumlar:

Azər Göyçəli: tam doxru eldar muellim.

Təvəkkül Goruslu Məmmədov: Bu, məni bağışlasın millət, lap debilizmdi!

Maharram Shirinov: Eldar muallim sizi allah qorusun siz koycanin faxrisiniz

Həkim Eloğlu: O bilicinin bildiyini lazımlı……

Qərbli Əlvi: "Bilicilər" çox bilirlər axı...

Azərnəşr Ardnş: Ele bilicileri boş verin. Aşıq Elesgerin hele neve-neticesinden durur.Tarixi saxtalaşdıran bedğurlardı onlar.Var olun Eldar müellim

Bədirə Niftaliyeva: Allah rehmet elesin, ustad şaire.

Murvet Yusifov: Əsrlərdi yurdlarımız işğal edilir. Soydaşlarımız qətl edilir. Millətimiz soyqırıma məruz qalır....Bu bilicilər tarixin həmin səhifələrinə toxunmaq əvəzinə söz

sərraflarının doğum və ölüm tarixlərini "araşdırmaq" eşqinə niyə düşürlər? Haqqında söhbət açdıqları ərazidə millətin rus-erməni təcavüzünə məruz qalması yox, Ağ Aşığın, Aşıq Alının, Dədə Ələsgərin yaşının azaldılması marağı haradan gəlir? Qos-qoca kəndlərimizin tarixdən silinməsi hansı millətə xidmət edir? Erməni arxivlərinə istinadən yazılmış bu kitab kimlərə lazımdı? Bu sualların cavabı açıqlanacaqdı!

Ibrahim Bayramov:Tarixi saxtalasdirmaq olmaz. Pis odur ki, baltanin sapi özümüzdendir. Hele sevinek ki, Dede Elesgeri basqa millete vermirler. Dədə Ələsgərin yaşı eserlerindedi. Asiq Ələsgər hem de Göyçənin tarixidi.

Bu, "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" (Bakı,2002) adlı qiymətli kitabın müəllifi, professor İ.Bayramovdur. O vaxt məsələnin mahiyyətindən xəbərdar deyildi. Sonradan professor mənə zəng vurdu, görüşdük və hər iki kitabımı ona bağışladım, onları oxuyub məzmunundan xəbər tutunca mövqeyini müsbətə doğru dəyişdi).

Niftali Goyceli: Nazir Əhmədli, Göyçənin tarixini erməni sifarişilə erməni kimi tərsinə yazıb...Mən də bir az ordan-burdan məlumatlıyam ki, yazdıqlarını "Erməni milli arxivinə" istinadən yazıb. Elə bu istinadlar göstərir ki, ***ermənіyə işləyəndir.*** Yazdığına görə guya Ağ Aşıq milli (yəni türk deyil), Aşıq Alı 75, Aşıq Ələskər 70 il yaşayıb və s. Kitabı əldə edib oxuyandan sonra lazımı münasibət bildirəcəm....

Müzakirələrə qoşulan Niftalı Göyçəli məni ermənilərə işləməkdə ittiham edir, kitabda yazılanların doğru olmadığını iddia edir, həm də etiraf edir ki, hələ kitabı oxumayıb..

Allah beləsindən qorusun!

Bu adamı izləyin, daha neçə-neçə sərsəmləmələrinin şahidi olacaqsınız!

Güher Bulak: Mekanı cennet olsun nur içinde uyusun.

Muzahim Iskandarov: Dede Elesgerin yasını bilerekden azaltmaq isteyen her kes milletimizin tarixini saxtalasdlrmaga callışır.

Sevda Hesenova:

Ələsgər kəsilib səbrü aramdan,
Oxlayıbsan,qanlar axır yaramdan.
Haqq ilə sövda qıl, əl çək haramdan,
Halaldan mətləbin al, qoca baxtım.

Cefer Ceferli: ELDAR MÙƏllİM! Bizdə Aşıq Ələsgəri necə dəyərləndirirlər, eləcə də, kitabını çap edirlər.Orta məktəb dərsliklərinə daxil edilən şeirləri də bərbad şəkildə uşaqlara təqdim edirlər. Gòrùn qocalanda adamın başı titrəyər, yoxsa, tərpənər!? Qılıncsız, tùfəgsiz alır canımı,yoxsa, qılıncsız, qalxansız alır canımı olmalıdır!? Nə isə Aşıq Ələsgərin kitabları dəfələrlə çap olunsa da, kobud və biabırçı səhvlərlə doludur. Əgər kimsə Ələsgərə canıyananlıq edirsə, qoy bunlara fikir versin. Bir də Ələsgərin dahiliyindən yazsınlar!

Nec oldu,Serbiya, Çernoqoriya!?
Əl-ayaq altında qaldı İtaliya.
German bomba atdı, qan oldu dùnya,
Qırıldı dùnyada insan qalmadı.

Bax bundan yazsınlar, bu dahilikdən. Bùtùn dùnyəvi informasiyalardan uzaqda yaşayan bir aşıq dùnyanın ən qabaqçıl siyasətçisinin belə izah edə bilməyəcəyi tarixi hadisəni Ələsgər dahiliyi dòrd misrada izah edir. Yoxsa, kimsə òz Mùtrùb dəftərində nə yazıb, necə yazıb, mən də, yeni elm kəşf edib, təzə ixtira etmişəm! Nə isə sòz ki, çoxdur, yeri yoxdur deməyə!

Cəfər Cəfərov maraqlı bir məsələyə toxunub. Birnci dünya müharibəsində baş verən hadisələr zamanı Aşıq Ələsgərin əldən-ayaqdan uzaq bir yerdə olduğuna, informasiya vasitələrinin olmaması səbəbindən Ustadın o hadisələrdən xəbər tutması və bu cür şeir yazması mümkün deyildi. Kitabımda bu məsələyə toxunmuşam və bildirmişəm ki, bu zəif şeir sadəcə olaraq Aşıq Ələsgərin deyil, kimsə onun adından kitablara

dürtüşdürüb. Cəfər Cəfərov isə dastanlara məxsus bir pafosla iddia edir ki, bu məlumatlar Ələsgərə qeybdən gəlirmiş!!

C.Cəfərov etiraf edir ki, Ələsgərin şeirləri çox təhriflərə məruz qalıb.

Ezizov Yaver: Dede Elesger saziyla sozuyle tanınmış usdad olub bu dunyada Elesgerin tayi beraberi olmuyub olada bilmez ağzina yiyelik ede bilmiyenler bildiklerinde danişir bilmediklerini de

Akbar Mammadov: Kim nə deyir desin, DƏDƏ ƏLƏSGƏR AZƏRBAYCAN yaşadıqca yaşayacaq.

Arif Məmmədli: Gözəl məntiqdi. Əlavə şərhə ehtiyac yoxdur.

Fəridə Qədimova: Dəyərli ELDAR müəllim, hər saxta "bilici" bir saxta tarix yazmaqla DƏDƏ ƏLƏSGƏRƏ xələl gələsi deyil ki. Saxtalıq köpük kimidir, tez qabarıb, tez sönər.... Dədə Ələsgərsə tarixlər boyu yaşayacaq!

ALLAH o yalançı, saxtakar falçı tarixçilərə lənət eləsin. Bu məxluq Eçmiadzin "muzeyi" tək yazılmış "saxta" tarixin sifarişlə təbliğatçısıdır. Uzaq gedə bilməz.

F.Qədimova artıq təhqiqə və qarğışa keçir! Və yazdığım kitabı oxumadan!

Murvet Yusifov Mən bu məsələnin sonunacan gedəcəm. Kimliyindən asılı olmayaraq hər kəs saxtakarların yanında olduğuna aydınlıq gətirəcəkdi.

Fəridə Qədimova: O kitabı yəqin ki siz görmüsüz, mən görməmişəm... bu müraciət həm də onu dəstəkləyənlərədir.

Fəridə Qədimova kitabı görmədiyini bir daha etiraf edir, amma qarğış və söyüşdən qalmır.

İsmayil Hasanov: O yaziğa bilici yox falçi deyin.

Murvet Yusifov: Əzizlərim, ümumi Göyçənin tarixini saxtalaşdırmaya cəhddi. Məsələyə qlobal yanaşmanızı xahiş edirəm.Onda qaranlıq mətləbləri aydın görəcəksiniz.

M.Yusifov artıq məsələni "qloballaşdırır", yəni bütün Yer kürəsinin "probleminə" çevirib, dünya miqyasında müzakirəsini təklif edir. Amma qəribədir ki, BMT-yə müraciət etməyi unudur…

Eldar Ismayil: Fəridə xanım, məsələ tək Ələsgər məsələsi deyil. Burda kökü dərinə işləyən fikirlər durur...

M.Yusifovun "qloballaşma" təklifinə E.İsmayıldan dəstək gəlir!

M.Yusifovun özü isə ehtirasları qızışdırmaqda davam edir:

Murvet Yusifov: Hər bir kəs öz kəndinin, öz el-obasının tarixini saxtalaşdıranlara münasibət bildirməlidi.

Yazını oxuyub gizlənənlər, nədən qorxursunuz?

Tariximiz dövlətçiliyimizdi. Biz dövlətçiliyimizin yanındayıq. Bu yolda bütün maneələri aşacağıq!

Cefer Ceferli: Olmayan və çırpmayan ùrəklərinin ùstùndə Mùtrùb dəftəri gəzdirənlərə cavab:

Nə artıq din, nə əksik gùl,nə dannan,

Mùxənnətə zəhər olmur nədən nan.

Xoşgedem Abdullayeva: gözəl yazibsiz. allah o böyük sənətkara rəhmət eləsin.

Ayten Nuriyeva: Dədə Ələsgərdən daha yaxşımı bilirlər yaşını...bu "bilicilr"???...

Azadə Novruzova: Allah Böyük Üstadımızın ruhunu şad etsin! Yalan ayaq tutar yeriməz!

Zülfüqar İsgəndərov: Dədə Ələsgər 1821-ci ildə anadan olub. Dədəmin dediyinə görə aşıq Ələsgər bizim kəntcimiz Alı kişinin sünnət toyun idarə edib. İndi öyrəndiyim məlumata görə

Alı kişi 1905 ci ildə anadan olub. Sünnətin ən az 5 yaşında olmasını hesab etsək, Alı kişinin sünnət edildiyi tarix 1910-a düşür.

Bəh-bəh! Zülfüqar İsgəndərov çox "mühüm" bir problemi qaldırır!İndi oxucular artıq onun kəndçisi Alı kişinin sünnət edilməsinin tarixini bilirlər. Amma təəssüf ki, Z.İsgəndərov kəndlərinin adını yazmayıb.

Mina Əliyeva: Belə çıxır ki, indiyəcən yazılanlar yalan imiş?! Dədə Ələsgərin yaşı, doğulub ömür sürdüyü ərazi, vəfatı haqqında yazılanlar təhrif olunubmuş?!

Murvet Yusifov:Dəyərli münasibətiniz üçün təşəkkür edirəm Mina müəllimə.Bir nüansı diqqətinizə çatdırım ki, müəllifin istinad nöqtəsi erməni arxividi. Ermənilərin SSRİ məkanında arxivlərə soxulub saxtalaşdırma əməliyyatları apardıqları barədə KİV-lərdə kifayət qədər məlumat var.

Bu "dahiyanə" kəşfin müəllifi isə Niftalı Göyçəli adlı bir nəfərdir. Gələcəkdə onun buna bənzər hələ çox "kəşflərinin" şahidi olacaqsınız.

Eldar Ismayil: Mina müəllim var olun, əsil ədəbiyyatçı filoloq, tarixə açıq gözlə baxan savadlı bir ziyalı mövqeyiniz bu yazıda tam aydınlığı ilə üzə çıxır. Ələsgər kimi müdrik söz sərraflarını tədqiq etmək, araşdırmaq sizin kimi mötəbər, yüksək səviyyəli ali məktəb müəlliminin işidir.

Nazir Ahmedli: Adınızı ziyalı qoymusunuz, mənim yazdıqlarımı oxumadan, nəyə istinad etdiyimi görmədən əhali arasında dezinformasiya yayırsınız. O arxivləri ermənilər tərtib etməyib. Rusiya imperiyası həmin əraziləri işğal edəndən sonra rus məmurlar tərtib edib və bütün dünya da, Azərbaycan tarixçiləri də həmin arxiv sənədlərinə istinad edir. Onları səhv adlandırmaq əsil savadsızlıq və elmdən bixəbər olmaqdır. O sənədlər 200 ilə yaxındır göz bəbəyi kimi, ən yüksək səviyyədə

qorunur. Mən ömrümün 8 ilini o işə həsr edib 70 mindən artıq adamın siyahısını gətirmişəm ki, qəbri erməni tapdağında olan ulularımzın adlarını kitablarda çap edim ki, ruhları şad olsun!! İki gündür təhqir qalmadı, söyüş qalmadı yazmayasınız. Bu, sadəcə olaraq tərbiyəsizlikdir ki, bu da savadsızlıqdan irəli gəlir, söz tapa bilməyən adam təhqirə keçər. Bu sənədləri və mənim yazdıqlarımı AMEA-nın Tarix İnstitutu, Folklor İnstitutu, Yazıçılar Birliyi, Aşıqlar Birliyi, akademiklər, bütün elmi ictimaiyyət qəbul edir, deyirsiniz onlar hamısı dəlidir?? Aşıq Ələsgər 105 il yaşamasa, onun dahiliyinə xələl gələcək? Bu, tam zırramalıq və nadanlıqdır. Başqalarını demirəm, peyğəmbərimiz 63 il yaşayıb, belə çıxır ki, o Ələsgərdən xırda adamdır? Kim adam kimi polemika apara bilməyib söyüşə, təhqirə keçirsə, dediyinin 100 qatı onun özünə, getsin!!!

Akəm Xaqan: Bu tip davranışlar xoşagələn deyil. Yetər uşaqlıq etdiniz. Kitab ortada. Müzakirə üçün səbəbiniz fərqli. Yetər.

Şebnem Bunyadzade: Akemsen, xaqansan nesen, sen kime ağıl qoyursan? Özüne ağıl qoyan lazımdı.

Akəm Xaqan: Mən Akəm Xaqan olaraq Göyçə camaatına yaraşdırmadığım bir durumla qarşı-qarıyayam. Sizi isə anlamağa çalışıram... Nə əcəb yetənə çatmaq, çatmadığına daş atmaqla məşğulsan? Bunun sizə başucalığı gətirəcəyini zənn etmirəm, xanım.

Şebnem Bunyadzade: Senin Göyçe camaatıyla ne işin var ki? Anlaşılmayan sözlerinle ara qatma. Sen bildiyin bir şey yoxdu burda. 3 ay evvel olmuş söhbeti tezelemekle neylemek isteyirsen? Niyyetini get sehifende ele, hörmetli insanın sehifesinde üfunet yayma.

Akəm Xaqan: Xanım, davranışına və danışığına nəzarət elə. Mən bu faydasız söz-söhbətlərin bitməsini və barış yaratmaq istəyən bir türk oğluyam. Savadlı, tədbirli və özünə hörmət edən ziyalıları dəyirmi stola dəvət edirəm.

Murvet Yusifov: Akəm Xaqan, sən Göyçə mahalına ağsaqqallıq etmək istəyirsən?Şəbnəm xanım haqlı yazıb ki, 3 ay

əvvəl olmuş söhbəti təzələyib insanların əsəbi ilə oynamayın! Mənim rəyimi cavablandırmısan. Həm də yersiz, mənasız! İşinlə məşğul ol! Məqsədin, məramın məlumdu. Sənlik burada iş yoxdu! Hörmətli Şəbnəm xanım, Mətanət xanım, xahiş edirəm imkan verin, bunu cavablandırım.

Akəm Xaqan: Bu millətin qüruru ilə oynamağa kimsənin haqqı yoxdur. Nə də millətin önündə gedən ziyalıların bir-birini kiçik düşürməsi çıxış yolu deyil. Mənim hər birinizin şəxsiyyətinə hörmətim var və xeyli müddətdir bu çəkişmələri izləyirəm.

Murvet Yusifov: Xanımlardan üzr istəyirəm! Akəm Xaqan, kişi ilə danışın! Sənin bu qədər yersiz müdafiəndən sonra hər hansı təklifin əbəsdi! Müəllif isə müzakirəyə iki dəfə dəvət olunub, özü istəməyib. Sənin çabalarına ehtiyac yoxdu!

Akəm Xaqan: Murvet Yusifov, yorulmadınızmı? Burda qadın, kişi ayrılmaz. Yurddaşlıq, vətəndaşlıq söz konusu. Mən elə əvvəldən də barış mövqeyində olmuşam və adamların bir-birini kiçik düşürülməsinin əleyhinəyəm. Sözünüz, arqumentiniz varsa, buyurun dəyirmi stola. Orada bütün suallara cavab və çözüm olacaq. Buna əmin ola bilərsiniz.

Murvet Yusifov:))))) Gülməli deyilmi? Sizin dəyirmi stola? Sənin "zəhmətin" unudulmaz. Aylardı ki, qəliz cümlələrinlə insanları təhqir edir, bir eli aşağılayır, şərə xidmət göstərirsən. İndi yadına düşdü ki, səhv edirsən!

Bu adam ağa qara deməkdən zərrəcə abır-həya etməyib, sülh yaratmaq istəyən Akəm Xaqana hücum edir, onu şərləyir, onun insanları aylardır təhqir etdiyini və şərə xidmət etdiyini yazır!

Əsil "adımı sənə qoyum, səni də yana-yana", atalar sözü bu hal üçün deyilib!

Akəm Xaqan: Bu məsələ ilə bağlı Nazir Əhmədli ilə də söhbətimiz olub, onu da barışığa dəvət etdim. Buyurun masaya və bu xeyirxah işə dəstək verək.

Murvet Yusifov: İndi də yeni ssenari hazırlayıb polisə şikayət verin.

Akəm Xaqan: Murvet Yusifov, bu tip söhbətlərə getməyi nə sizə, nə də özümə yaraşdırıram. Gəlməsəniz belə, sizi başa düşərik. Uğurlar.

Murvet Yusifov: Məni maraqlandıran mənə yox, elimə, obama, Azərbaycanıma olan "hörmətiniz"di. Qeyd etdiyim kimi, yersiz manevrləriniz, ssenarilәriniz baş tutan deyil! Yaxşı olar ki, başqa variant seçəsiniz! Sonra o da gec olacaq!

M.Yusifov artıq ala buludlardadır və "qan-qan" deyib hamıya meydan oxuyur!

Akəm Xaqan: Nazir Əhmədli əvvəlcədən hamıya bəlli olan və zaman-zaman alimlər tərəfindən istinad edilən bir kitabdan bəhs etmişdir. Bu tip siyahılar zaman-zaman aparılmış və dövlətlər vergi siyasəti yürütmüşlər.

Füzuli Sabiroğlu: Siz Nazir Əhmədlidən soruşdunuzmu Erm. Milli Arxivindən bu "sənədlər" ona necə ötürülüb?

Akəm Xaqan: Füzuli Sabiroğlu, gəlin açıq danışaq. Bu sənədlərin varlığından hamı kimi sizin də xəbəriniz var. Nazir Ahmedli o sənədləri tapıb araşdırarkən niyə indiyə qədər onun varlığı kimsənin ağlına gəlməmiş? Söhbətin axarını başqa səmtə yönəltməyək. Niyəsini siz də yaxşı bilirsiniz, mən də. Niyyətlər bəlli. Düşünürəm ki, yetər.

Şebnem Bunyadzade: Tap tapmaca gül yapmaca)) Bu deyesen yuxuludu

Füzuli Sabiroğlu: Mən də buna sual verirəm :) Bu Nazirdən də betəriymiş ki

Akəm Xaqan: Bu sənədlər ermənilərin Rusiya imperiyası tərəfindən gətirilməsinin danılmaz təsdiqidir. O zamanlar Zaqafqaziya Rusiyanın tərkibinə qatılmışdı. Şopen də Rusiyanın iradəsinə iyğun Kameral siyahıları tərtib etmişdir. Bu hamıya bəllidir. Ermənistanın "doğum şəhadətnaməsi" olan bu sənəd bir

çox gizli mətləblərə aydınlıq gətirmişdir. Ermənilərə sərfəli olmadığı üçün də bu günə kimi o sənədlərə istinad olunmamışdır.

Şebnem Bunyadzade:))) bu da bunun keşfi

Akəm Xaqan: Sizin düzəltdiyiniz şou özünüzdən başqa kimsəyə gülməli deyil. Elə isə siz öz kəşflərinizdən bəhs edin.)

Şebnem Bunyadzade: Aylardı şou yaradan sizsiniz, utanmazın oynamağına benzeyir

Murvet Yusifov: Cavab verməyin qoyun öz özünə danışsın

Akəm Xaqan: Həə. Daha deyiləsi sözünüz yoxdur. Nə isə. Adamları təhqir edir, sonra da hədələyirsiniz? Nə gözəl məntiq.

Şebnem Bunyadzade: Bu terbiyesizin yazdıqlarını oxuyun bunun kimliyini bilin. Hele bunun nazı ile oynayırsınız

Eldar Ismayil: Nazir bəy, kim sənə söyüb onu mən bilmirəm və söyünc də düzgün deyil.Mən əvvəlcədən sənə dedim ki, sən Göyçədən xəbərsizsən, Göyçənin izini-tozunu tanımırsan. Göyçədən 5 dərə adı, təpə adı çəkə bilməzsən. Sən Göyçə haqda heç nə bilmirsən. Bilmədiyin yerdən kitab yazmaq olmaz. Sən bu yazında da özün günahını inkar edirsən. Deyirsən ki, Ələsgər 105 il yaşamasa onun dahiliyinə xələl gələcək? Bəli saxtakarlıq elə burdan başlayır. Bayaq adını çəkdiyiniz o təşkilatlar Ələsgərin yubileylərini keçirib, kitablarına ön söz yazıblar, məqalələr veriblər. ***Sizə nə zor düşüb ki, Ələsgərin, Alının, Ağ Aşığın yaşını, yerini, yurdunu dəyişməyə çalışırsınız?*** Kitabınızı oxuyacağıq, şübhəsiz ki, sizin fikirləriniz, nə demək istədiyiniz aydınlığı ilə ortaya çıxacaq. O ki savaddan danışırsınız, ola bilər savadınız yaxşıdı. Ancaq AĞ AŞIQ Allahverdi haqqında yazırsınız ki,(oxumamışam, eşitmişəm) ona AĞ AŞIQ sözünü bənizinin ağlığına görə yox, " böyüklərinin üzünə ağ olduğuna görə deyiblər." Əgər buna bənzər bir cümlə işlədibsinizsə, demək sizin kitab yazmaq səriştəniz sıfıra bərabərdir. Mən bu kitabı oxuyacam, cavabı ondan sonra yazacam. Bir də sən Aşıqlar Birliyinin, akademiklərin adını sadalamaqla özünüzə bəraət qazandıra bilməzsiniz. Onlar bu kitabı görəndə tam geri duracaqlar! Bir az vərəqlədim, bu kitabın başdan ayağa qüsurlu

olduğunu yəqin etdim. Nazir bəy, sən bilmirdinmi ki, sənin bu kitabın ziddiyyət yaradacaq?

Nazir Ahmedli: Onu necə oxumusan ki, tərsinə danışırsan? Aşıq Əkbərə və Mikayıl Azaflıya istinad edən A.O.Kərimli yazıb ki, Allahverdi valideynlərinin üzünə ağ olduğuna görə ona "Ağ Aşıq" deyiblər. Mən isə deyirəm ki, bu yalandır!! O valideynlərinə ağ olmayıb, albinos olduğuna görə "Ağ Aşıq" deyiblər. Akademiklər də kitabı görüblər, saydığım instansiyaların hamısı görüb, kitab onlarda var. BDU-nu yaxınlığındakı Akademkitab mağazasında da var, kim istəsə alıb oxuya bilər

Eldar Ismayil: Mən sənə dedim ki, kitabı oxumamışam. Cavabını geniş şəkildə verəcəm.

E.İsmayıl artıq neçənci dəfədir ki, kitabımı hələ oxumadığını etiraf edir, amma bunula belə, yersiz hücumlarından əl çəkməyib zəhərini üstümə tökür! Bu da "Göyçədən 40 kitab yazan"ın məntiqi! "Nə yazdığını bilmirəm, amma hamısını səhv yazmısan!"

Dəhşətdir!

Nazir Ahmedli: Elmi cavaba, polemikaya etik çərçivə daxilində həmişə hazıram. Mövqeyimi qəbul etməsəniz də, inkar etsəniz də mövqeyinizə də hörmətlə yanaşıram. Mənim elmi və ailə tərbiyəm budur

Eldar Ismayil: Demək o akademiklər əgər onu oxuyubsa (indi heç kim heç kimin kitabını oxumur) ordakı nöqsanları başa düşməyibsə yazıqlar olsun.

Nazir Ahmedli: O Məhərrəm Hüseynlidi nədi, onun səhifəsində M.Azaflının qızları mənimlə davaya çıxmışdılar ki, M.Azaflı Ələsgərdən böyük aşıqdır, onda susub heç səsini çıxartmırdı. Bir saat 2 bacı ilə mübahisə elədim ki, Ələsgər Aşıq poeziyasının zirvəsidir və heç kim bu zirvəyə qalxa bilməyib

Eldar Ismayil: Nazir bəy, mənim sənlə heç bir problemim olmayıb, indi də yoxdur. Mən Göyçə ilə bağlı 40-dan

artıq kitab yazmışam. Ancaq erməni mənbələrinə istinad etməmişəm. Çünki onlar bizim tariximiz tam tərsinə yazırlar.

Mən Azaflının ailəsi ilə bağlı adamam. Onlar heç vaxt deməyiblər ki, Azaflı Ələsgərdən böyük aşıqdır! Əksinə Ələsgərə böyük hörmət qoyublar!

Nazir Əhmədli: Eldar müəllim, onlar erməni mənbəyi deyil, Azərbaycan Tarix İnstitutu da, bütün dünya da onlara istinad edir. Fikrimi qəbul etmirsiniz, tənqid edirsiniz, yenə də mövqeyinizə hörmətlə yanaşıram, çünki, hər bir şəxsin öz mövqeyi ola bilər. Amma bəzi səviyyəsizlər başlayır söyüşə, qarğışa, məni ermənilərə işləməkdə günahlandırmağa. Mən Azərbaycanda Atattürk haqqında kitab yazan ilk müəllifəm. "Mustafa Kamal Atatürk" kitabım 2002-ci ildə nəşr olunub.

Yusif Mirzeyev: Bu ne menbedi bütün dünya ona istinad edir)) Men indi bildim kı, Nazir Atatürk Merkezinde işleyir. Bele adamın ele möteber bir yerde işlemesini rehberlikden sorğulamaq lazımdı.

Eldar Ismayil: Mən söyüş-möyüş bilmirəm. Kitabı oxuyub, mədəni qaydada cavabını yazacam.

E.İsmayıl artıq neçənci dəfədir ki, kitabı oxumadığını etiraf edir. Bununla belə, yazdıqlarımı pisləyir. Insanları üstümə qaldırır, məni Güyçə haqqında heç nə bilməməkdə günahlandırı).

Nazir Ahmedli: Buna heç bir etirazım yoxdur, mədəni adamlar belə etməlidir və Sizin də söyüş yazdığınızı demirəm, başqaları bunu edir.

Fazila Yahya: Sağ ol Cəfər müəllim!

Murvet Yusifov: Nazir kitabının qəbul edildiyi instansiyaları sadaladı. Sadaladığı instansiyalar da münasibətlərini bildirəcəklər yəqin ki. Amma mən bəri başdan əminliklə bildirirəm ki, o instansiyaların heç biri bunu təsdiq etməyəcək. Nalayiq sözləri işlədən də Nazir özüdü, üstəgəl insanları qaralayır.Mən bir daha Naziri normal danışmağa dəvət edirəm.

M.Yusifov neçənci dəfədir ki. şantaja keçir.

Yusif Mirzeyev: Anlamaza xoşluqla ne qeder deseniz anlamaz

Həkim Eloğlu: Bu kitabın adı nədir görəsən? Müəllifin özü harada doğulub?

Murvet Yusifov: "Haqq nahaq seçilər haqq divanında".

Həkim Eloğlu: Kitabın adı budurmu?

Murvet Yusifov: Bəli Hacı

Nazir Ahmedli: Mürvət, görürsən ki, sənlə heç bir polemikaya girmirəm, xahiş edirəm məni rahat burax.

Murvet Yusifov: Nazir, açıq etiraf edim ki sənin yazılarından xoşlanmıram. Amma yazdıqların məcbur edir.

Şebnem Bunyadzade: Mürvet müellim, bu şerxata olduğunu görürsünüzmü?

Murvet Yusifov: Şəbnəm xanım sizin qeyrətinizə bələdəm. Beləsinə fikir verməməyinizi düşünürəm.

Eldar Ismayi: Mürvət bəy, kitabı arxayın oxuyacağıq, sonra sözümüzü deyəcəyik. Söyüş niyə olmalıdı?

Baxtiyar Qasimov:
Elesger kesilib sebri aramdan
Oxluyursan qanlar axir yaramdan
Haqq ile duz dolan el cek haramdan
Halaldan payini al qoca baxtim

Ozum ashiq oldum oglum gulleci
Onda bildim qaldi dovletden ucu
Qirildi qoyunlar qalmadi keci
Indide yixilib kel qoca baxtim

Bayram Özdemir: Aşık Eleskerin ruhu şad olsun.

Elcin Suleymanov: Amin, Var olsun Eldar müəllim kimi ağsaqqallarımızı

Ezizov Yaver: Dede Əlesger kimlerinse boş bogazlarin agzina soz olasi aşiq olmuyub herkes agzina yiyelik etsin menasiz boş sozler danişmasin Dede Elesger Goycemizin fexri olub her zaman Goycemizin adin usaldim tanidib biz Goyceliler Dede Elesgerle fexr edirik men fexr edirem ki Goyceliyem ve Dede Elesgerin kecisiyem Agkilseliyem ***(yəqin "kəndçisiyəm" demək istəyib-N.Ə.)***

Elçin Hüseynov: bax bizim bədbəxtçilimiz budur. bu xalqi eraza, kraza bölməyimiz. biz azərbaycanli olaraq canimizla, qanimizla işqal altinda olan torpaqlarimizi erməni işğalindan azad etməliyik. bax onda bizim bəh-bəhə ilə danişmağa haqqimiz olacaq. bu gün bizlərin heç birinin haqqi yoxdur fəxrlə danişmaqa. mən sizə deyim rəhmətlik Aşiq Ələsgər də, şair Cavad da, Azafli Mikayil, Alqayit və adlarini çəkə bilmədiyim yüzlərlə söz sərraflarimiz var. onlar hamisi bizdən fərqli olaraq bu xalqin fəxridirlər. ona görə ki, onlara qiyməti sağliğinda azərbaycan xalqi vermişdir. ələsgərin, alinin ş'erləri nənələrimiz, babalarimiz vasitəsi ilə əzbərlənərək gəlib bu günümüzə çatmişdir. bugünki xalq şairlərini, xalq artistlərini isə heç kəs tanimir. xalqin olmaq üçün xalqla olmaq lazimdir. bu gün bu dahiləri rahat buraxmaq lazimdir. ***onlarin sizlərin heç birinizə ehtiyaci yoxdur.*** onlari yaşadiği zamanin insanlari laziminca qiymətləndirmişdilər. ona görə də onlar insanlarin qəlbində daimi yaşayacaqlar. m.ə.sabir, mirzə cəlil yüz il bundan əvvəl yazdiqlari bu gün də realliqdir. bu xalqin bu yüz ildə yalniz geyimi dəyişib. ağili onda da olmayib və indi də yoxdur. bu gün bu xalq xurafətdən əl çəkməyib. axirinci gördüyüm isə məni lap dəhşətə gətirdi. **mal piri.** buna nə ad vermək olar. seyid nə bilim nə nə. dilənçilik edir allahin adi ilə. dəfələrlə demişəm ulu tanrinin adini öz çirkin işlərinizə bölməyin. sizlərdən özünü azərbaycanli bilən hər kəsdən çox xahiş edirəm vətənimizi bölgələrə bölməyək. bax belə bölə-bölə yüz ildir vətənimizi itirdik .bax bəhbəhlə yerazam deyə göyçə, zod haqqinda ağiz dolusu ş'er dedin. bəs o gözəl cənnət məkanda indi nəyə görə yaşamirsan? çətin başa düşərsiz. biz bütöv bir yumruq şəklində olmaqi başarmaliyiq.vətəni bölmək olmaz. hamiliqla

dövlətin ətrafında birləşib torpaqlarimizi azad etməliyik. onda mən sizlərin hər birinizlə fəxr edəcəm. bu gün isə fəxr edəcəyim bir realliq yoxdur.

Savadsiz-qanmaz Elçin. Allah amaninda, bütün soydaşlarima can sağliği arzu edirəm.

Xəqani Həbiboğlu: Kitabı oxumamışam, buradakı müzakirələrdən gəldiyim qənaət:

1.Nazir Ahmedli arxivlərdə qalmış (söhbət arxivdə yazılanın doğruluğundan getmir) məlumatlarla bizi tanış etdiyi üçün təşəkkürə layiqdir...

2.Nazir müəllim arxivdə yazılanların doğru olduğunu iddia edirsə...axı onlar qəsdən dəyişdirilə bilər...

3.Ulu Göyçədən-Dədə Ələsgərin yurdun, Kəlbəcərdən (kəlbəcərli olduğum üçün yazdım) Dədə Şəmşirin vətənin boş qoyub Bakıda-rahat evlərdə Nazir bəyi söymək dərdin əlacı deyil!

Fazil Elioglu: Mən böyük ustadın nəticəsiyəm. Ələsgəri oxumadan, öyrənmədən danışmayın, "uzaqgörəlik" eləməyin. Oğlu Talıb və onu görənlər aşığın 105 yaşında haq dünyasına qovuşduğunu deyiblər. Münəccimlik eləməyin.

Həkim Eloğlu: Fazil həkim Görkəmli şairimiz Əli Qurban Dastançının oğludur.

Fazil Elioglu: Bəli Ağkilsədənəm. Allah ölənlərinizə rəhmıt eləsin. Biz itirə-itirə gəlirik. Tariximizə, mədəniyətimizə əl atırlar, öz əlimiznən dəyişdirilər. Arxivdə ola bilər, Ələsgəri dərindən oxusaydı, hörmətli alimimiz arxivdə yazılanların saxta olduğundan yazardı, onu yazanları üzə çıxardardı

Murvet Yusifov: Alim deyil!

Aydin Əsgerov: Aşıq Ələsgər haqqında yazılan o yalan tarix barədə eşidəndə yadıma rəhmətliyin bir misrası düşdü

Göyərib gicitikan baş verib çaşır
Doldur dağarcığını Göyçəyə aşır
Elə billəm qoca çaqqal ulaşır
Olsa sənin kimi yüz şair Nağı

İlyas Şahquliyev: Çaqqal kimi siz ulaşirsiniz. Ancaq qozu qabiğli yemə.

Qabil Zimistanoglu: Tariximizi saxtalaşdıranlar, ustadlarımıza çamur atanlar saxta profillərdən yararlamağa da üstünlük verirlər. Bu gün tarixi torpaqlarımız olan Göyçəmizin, Dərələyizimizin, Zəngəzurumuzun, Ağbabamızın, Vedibasarımızın, Zəngibasarımızın və bir sözlə, 16 mahalın tarixinin, coğrafiyasının, folklorunun və tarixi şəxsiyyətlərin həyatları haqqında məlumatların bir qrup tərəfindən ermənilərin xeyrinə saxtalaşdırılması prosesi başlayıb. Bu cür anoloji halın sabah işğal altında olan Qarabağımızda baş verəcəyinə heç kim zəmanət verə bilməz.!!!!

Qulu Quliyev: Hörmetl Eldar muellim 1978-ci ilde Basarkeçer rayonun Agkilse kendinde dahi insanin oglu ashiq Talib demishdir ki men atamin 95 yashi olanda birge ashiqliq edirdik. Bunu oglu deyirdi.

Muzahim Iskandarov: Bu kitabda butövlukde tariximiz saxtalaşdırılıb

Tofiq Taqiev: Tariximizi, kimliyimizi elimizi, obamızı saxtalaşdırmaq ən böyük cinayətdir. Belə ki, gələcək nəsil nəyin düz, nəyin saxta olduğunu bilməlidir, O ki, qaldı həmin kitaba, müllifin saxta tarixə, kənd adlarına bu qədər inadkarlığı, haradan qaynaqlandığı, "vətənpərvərliyi" aydın deyil.

Muzahim Iskandarov: Kitab ne ucun yazılıb meksed aydındı

Farman Hasanov: Bu məmləkətdə hər şey saxtadır, və qəsdən bilərəkdən saxtalaşdırılır.

Məhəmməd Bayramov: Hörmetli Sahib Musayev, bu mexluqu qandırmaq asan olmayacaq. Bu işler sifarişlidir ve konkret plan esasında icra olunur. Esas meqsed qedim türk torpaqlarında saxta kürd tarixi yaratmaqdır. Bu meseleye öteri yanaşmaq olmaz. Tariximizin, medeniyyetimizin saxtalaşdırılması son derece ciddi meseledir. Hesab edirem ki,heqiqetin ortaya qoyulması ve bu kitabların ziyanlı edebiyyat kimi qadağan olunmasına nail olmağımız

Məhəmməd Bayramov Göyçənin Kəsəmən kəndindəndir. AXC hakimiyyəti vaxtında AXC üzvü olaraq, Binəqədi təhsil şöbəsinin müdiri təyin edilmişdi. Hakimiyyət dəyişiləndə qılafını dəyişib alovlu YAP-çı oldu və vəzifəsini saxlayıb xeyli müddət rayon təhsil şöbəsinin müdiri kimi müxtəlif maxinasiyalarla məşğul oldu. Sonra rayon təhsil şöbələrini birləşdirdilər və onu Bakı şəhər Baş təhsil idarəsində müdir müavini vəzifəsinə təyin etdilər, o vəzifədə də xeyli müddət işlədi. Bakı şəhərindəki 300-dən artıq məktəb onun kurasiyasında idi. Təkcə bayramlarda, ad günündə məktəb direktorlarının onu paketlərlə təbrik etməsindən milyonlar toplamışdı. Mikayıl Cabbarov təhsil naziri təyin ediləndə onu vəzifəsindən qovdu.

Özünü vəzifəsiz, rüşvətsiz təsəvvür edə bilməyən Məhəmməd indi də yaranmış fürsətdən yararlanaraq, özünü gözə soxur ki, "mən də buradayam". Hesab edir ki, göstərdiyi "vətənpərvərliyin" hesabına kimlərinsə diqqətini çəkə və yeni vəzifə qazana bilər.

Vəzifədə işlədiyi vaxtlarda xalqın qanını sormaqla məşğul olduğuna görə, əvvəlki yazışmalarımızda onu "zəli" adlandırmışdım.

Nazir Ahmedli: Sənin səsin yenə çıxır, zəli??

Cefer Ceferli: Bu adam kitab yazır, elementar məntiqi araşdırmır. Axı deyilən hər bir sòz məclis ùçùn oxunurdu. El ağsaqqalları bu sòzù dinləyirdi,ona qiymət verirdi. Ələsgər boyda bir dahi necə "mùbağilə" edib, 70 yaşını 80–90 deyə bilərdi? Bu nə məntiq, nə ağılsız mùhakimədir?! Bir də ki, 70 yaşında kim deyərdi ki, mənim başım gora titrəyir?! Yəqin Nazir bəyin xəbəri yodur ki, Goyçədə 90 yaşlı adam òləndə 40 gùn ağlayardılar ki, onun nə vaxtıydı ki, dùnyadan kòçsùn ?! ***(!!!-N.Ə.)*** Başqa faktlara inanmasa da,heç olmasa,bu fakta inansın?!

Füzuli Sabiroğlu: Səbr edin əzizlərim! Çoxları bu imtahandan üzüqara çıxacaq.

14 iyun 2017.

Mürvət Yusifovun statusu

Son günlər Ağ Aşıq, Aşıq Alı, Dədə Ələsgərin doğulduğu tarix, bunun dolayısı ilə Göyçə mahalında bir çox kəndlərin tarixləri ilə bağlı cəfəngiyyatlar çap etdirmiş Nazir Əhmədli etiraz edənləri hədələməklə, təhqir etməklə "qəhrəmanlıq" nümayiş etdirir.Söyüş qəhrəmanı hələ də etdiyi səhvlərin, ***mən deyərdim cinayətlərin*** fərqində deyil.Mən ona yox, onu tərifləyənlərə bir neçə sual ünvanlayacam. Nazir Əhmədli də Qərbi Azərbaycandan deportasiya edilənlərdəndi. Yəqin ki, erməni- rus hərbi birləşmələrinin yerli əhaliyə zaman zaman tutduğu divanlar haqqında eşidib.Yəqin ki, öz dədə-baba torpaqlarının müdafiəsi uğrunda erməni-rus hərbçilərinə qarşı mərdliklə döyüşmüş əfsanəvi qəhrəmanlarımız haqqında eşitmişdi. Nazir Əhmədli niyə məhz bu ustadların yaş məsələsindən yapışır. Həm də onların yaşlarını azaltmaqla istedadlarına kölgə salmadığını iddia edir. Bu adam tarixin o səhifələrinə müraciət edib, yurdlarımızın yağmalanmasından, ululariımızın əsarətə götürülməsindən yazsa yaxşı olmazdımı?Ustadlar haqqında formalaşmış tarixi yalanlamaq sizcə həqiqət axtarışında olmaqdımı?

Bu gün erməni əsarətində qalan kəndlərimizin tarixini gəncləşdirmək kimin dəyirmanına su tökməkdi? ***Bütün bunlar hüquqi müstəvidə həllini tapacaq!*** Nazir Əhmədlinin haray-həşir salıb, təhqir etdiyi adamları qaralama cəhdlərinə aldanmayın. ***Nazir Əhmədlidən başqa yorumlarda söyüş, nalayiq sözlər işlədən yoxdu.*** Bunun üçün zəhmət çəkib baxın həqiqətin tərəfində olun. Həyasızlığın pik nöqtəsi AMEA Tarix İnstitutu, Folklor İnstitutu, Azərbaycan Aşıqlar Birliyi və s. qurumlar tərəfindən kitabın yüksək dəyərləndirildiyini bəyan etməsidi. Adını çəkdiyi təşkilatlar rəsmi münasibətlərini bildirəndə bu adam siz dostlarına nə cavab verəcəkdi...Qapı-qapı

düşüb harasa kitab verməyi kitabının qəbul edildiyini güman edən adam daha çox iddiada ola bilər.

İnsan nə qədər həyasız olmalıdır ki, məni söyənləri yox, məni söyüş söyən kimi qələmə versin!Elə bu statusunda nə qədər təhqiramiz ifadələr işlədib!

Yorumlar:

Heqiqet Binnetova: Nazir Əhmədlini mən necə illərdi "Millət" qəzetinin baş redaktoru kimi tanımışam. Savadlı mədəni bir insan kimi. Bu kitabı çap etməkdə məqsədi nədir ki?

Murvet Yusifov: Həqiqət xanım, ilk söhbətlərimizdə mən də sizin kimi düşünüb, onu bu yoldan bir eloğlu kimi çəkindirməyə çalışdım. Bizim ermənilərlə hərtərəfli müharibədə olduğumuzu xatırlatdım. Belə bir məqamda ulularımızın tarixlərini yalanlayacaq bir yazının, kəndlərimizi gəncləşdirəcək bir yazının düşmən dəyirmanına su tökəcəyini izah etdim. Bu adam nəinki başa düşmədi, hətta etiraz edənləri hədəyə, təhqirə keçdi. Bu adam bir çox instansiyaları üz-üzə qoyacağının fərqindədimi. Bütün məsələlərin hüquqi müstəviyə keçməsi zərurəti yaranıb.***Bu işə Milli Təhlükəsizlik Nazirliyi də münasibət bildirəcək yəqin!***

M.Yusifov da "işverən" dostları kimi məni Milli Təhlükəsizlik Nazirliyi ilə hədələyir, müraciət etmək üçün ünvan göstərir!

"Bu işə Milli Təhlükəsizlik Nazirliyi də münasibət bildirəcək yəqin!" cümləsi göstərir ki, şair Şiruyənin işverən oğlu Aqşin Hacızadənin təkid etdiyi donosu artıq oraya göndəriblər!

Heqiqet Binnetova: ..... Kitab çap olunub ki?.....

Murvet Yusifov: Bəli çap olunub. Qapı-qapı düşüb kitab paylayıb. Elə düşünür ki, bunun fikirləri qəbul edilib)

Heqiqet Binnetova :Yəqin ki, bizə də gəlib catar o kitabdan. Nazir Əhmədlinin "tarixi kitabı"

Murvet Yusifov: Hədəyə, təhqirə məruz qalan soydaşlarımızın, yalanlanan tariximizin müdafiəsində bütün vətənpərvərləri fəal olmağa çağırıram.

Aqşin Hacı Zadə: Bu işin bir nömrəli cavabı, həlli ***Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinə xəbər verilməli, müraciət olunmalıdır.*** Maraqlıdır, Azərbaycanda yaşayan azərbaycanlı erməni arxivindən necə istifadə edir? Arxiv aydın məsələdir ki, erməni-rus tərəfindən "girdirmə" arxivdir. Özləri kimi GİRDİRMƏ. Bu "yazar" nə marağa ermənіyə işləyir? Bu suallara MTN aydınlıq gətirər inşaallah.

İşverənlərin ilhamçısı rolunda çıxış edən Aqşin Hacızadə, şair Şiruyənin oğlu yenidən söhbətə qoşulur və MTN ideyasını təkrarlayır. Görünür,donosun göndərilməsini hələ bilmir.

Mürvət "abisi" ona təsəlli verir:

Murvet Yusifov: Bu məsələyə dövlətimizin aidiyyatı qurumlarının hamısı münasibət bildirəcək Aqşin bəy! Nazir təhqirlərinə də cavab verəcək.

Aqşin Hacı Zadə: Bu belə də olmalıdır. Murvet Yusifov. Allah köməyiniz olsun. Satqınlara lənət olsun.

Şebnem Bunyadzade: Bunun nazı ile çox oynayırsınız Mürvet müellim.

Murvet Yusifov: Biz sivil mübarizə aparmaq fikrindəyik. Onun səviyyəsinə enməməliyik Şəbnəm xanım.

Yusif Mirzeyev: Biz hemişe sizin yanınızdayıq.

Murvet Yusifov: Təşəkkür edirəm.

Qabil Zimistanoglu: Nazir Əhmədlinin çıxardığı bu kitab milli təfriqəni qızışdırmaqdan və düşmən dəyirmanına su tökməkdən başqa ayrı şeyə xidmət etmir. ***Bu, artıq Milli təhlükəsizlik məsələsidir.*** Ermənilərin birdən-birə Azərbaycana

hansısa vasitəylə arxiv sənədlərini ötürməsi heç də xoş niyyətdən xəbərt vermir. Ayrı-ayrı illərin kameral siyahısının Nazir bəyin əlinə hansı formada düşməsi özlüyündə maraqlıdır.

Yenə Milli Təhlükəsizlik Nazirliyi! İşverənlərin, donosçuların sayı artmaqdadır!

Q.Zimistanoğlu bir qrup adama imzalatdırdıqları donosu yazdığına görə özünə bəraət qazandırır: "Bu, artıq Milli təhlükəsizlik məsələsidir!"

Murvet Yusifov: Qabil müəllim, o kitabdan bura paylaşımlar elə təcili. Nazir rəylərdə dolaşıq yazır.

Qabil Zimistanoglu: Rəylərdə nə qədər dolaşıqlıq yazsa da kitab ortadadır və hər kəs oxuyub, bu barədə fikirlərini bölüşə bilər. Artlq elektron versiyası da internetə yerləşdirilib. Çaşqınlığı aradan qaldırmaq üçün bu link vasitəsi ilə oxuyub, bu kitabın hansı məqsədlə çıxdığını, haqq və nahaqqın nədən ibarət olduğunu oxucu düzgün müəyyənləşdirə bilər:

http://turuz.com/search?q=Nazir%20Ehmedli

Qabil Zimistanoglu: Nazir bəy nəşr etdirdiyi kitabda yazır ki, milli tayfasını bəzi araşdırmaçılar kürd, bəziləri isə türk hesab ediblər. Amma özü birmənalı şəkildə milli tayfasının kürd olduğunu, 1831-ci ilin kameral siyahısına əsasən Göyçə mahalında yaşayan 999 müsəlman ailəsindən 227 ailənin milli tayfasından olduğunu qeyd edir ***("Haqq-nahaqq seçilər haqq divanında" səh 178.)*** Ağ Aşığın isə Milli tayfasından və kürd olduğunu qeyd edir. Maraqlıdır, əgər milli tayfası araşdırmaçılar tərəfindən mübahisə predmeti yaradırsa, bunu halbuki, N.Əhmədlinin özü də qeyd edir ki, milli tayfasını bəzən kürd, bəzən də türk tayfası kimi qəbul ediblər. N.Əhmədli bəs onda niyə Ağ Aşığın milli mənsubiyyətini kürd kimi qeyd edir? Bunları isə ermənilərin arxivinə istinad edərək qələmə alır. N.Əhmədli bildirir ki, o öz soy-kökünü yaxşı tanıyır. O, öz soy-kökünü yaxşı tanıdığı kimi Ağ Aşığın nəvələri də öz soy-köklərin yaxşı bilirlər. Artıq məsələ ilə bağlı Ağ Aşıq nəslinin nümayəndəsi, hazırda Türkiyədə

yaşayan, gözəl alimimiz Elbrus Cəfərov məlumatlıdır. O, məndən xahiş etdi ki, burada qeyd edim ki, onların nəsli istər ata, istərsə də ana tərfdən türkdürlər. Babasının milli mənsubiyyəti haqqında yazılanlar cəfəngiyatdır. Məsələ ilə bağlı bu günlərdə Bakıya dönəcək, bu məsələnin çözülməsini həm hüquq müstəvisində həll etməyə çalışacaq, həm də babası haqqında məqalələrlə mətbutada çıxış edəcək. Qeyd edim ki, Elbrus Cəfərov İstanbul Texniki Universitetin Aerokosmik Fakültəsinin professoru, Avropa Beynəlxalq Astronavtika Akademiyasının müxbir üzvüdür!!!

Murvet Yusifov: İnformasiya üçün təşəkkür edirəm Qabil müəllim.

Şebnem Bunyadzade: Proseslerin hüquqi müsteviye daşınmasında men de iştirak edeceyem.

Et, Mürvət Yusifov, et! Amma başqa şər əməllərinə son qoy, barı!

Qabil Zimistanoglu: Kitabda Aşıq Ələsgərin 1852-ci ildə, atası Alməmməd 1824-cü ildə, Allahverdini isə aşığın babası kimi deyil, əmisi kimi qeyd edib. O, 1814-cü ildə, Aşıq Ələsgərin oğlanları Bəşir 1882-ci ildə (1867-ci ildə deyil), Əbdüləzim 1888-ci ildə, Talıb isə 1892-ci ildə (1877-ci ildə deyil) doğulduğu və Talıbın 102 yox, 87 il yaşadığı öz əksini tapıb. səh 279.

Murvet Yusifov: Belə çıxır ki, Dədə Ələsgər dünyasını dəyişəndə Talıb cavan oğlan imiş).

1892-ci ildə doğulubsa, Aşıq Ələsgər vəfat edəndə Aşıq Talıb 34 yaşında olub.

Bir şeyi başa düşmədim-atası öləndə Aşıq Talıbın cavan olması bəyəm qəbahətdir ki?

Qabil Zimistanoglu Kitabda heç bir şəxsin ölüm tarixlərinə dəyişiklik edilməyib, yalnız doğum tarixlərinə dəyişiklik edilib. Göyçədə mövcud olan coğrafi adların əksəriyyətinin adlarında da təhriflər var. Bu da Göyçə

coğrafiyasını yaxşı bilməmzlikdən irəli gəlir. Coğrafi adlar necə yazılıbsa, rus versiyasında o cür də qeyd olunub.

Aqşin Hacı Zadə: bu adam sırf sifarişlə. ermənilərə və kürdlərə işləyir. Bu "adam" bu xalqın düşmənidir və bu işlə MTN məlumatlanmalıdır mütləq.

Baş işverən qorxur ki, MTN məsələsi o biri donsçuların yadından çıxar. Ona görə də təklifini tez-tez yeniləyir!

Coğrafi adlara gəlincə, Qabil Zimistanoğlu o qədər nadandır ki, tərcümə etdiyim sənəddə onları dəyişməyə ixtiyarımın olmadığını başa düşmür. Özləri hər cür saxtakarlıqlara əl atdıqlarına görə, məni qınayırlar ki, mən niyə onların etdiyi kimi etməmişəm. Həm də öz adlarını mənə qoyub məni saxtakarlıqda ittiham edirlər. Belə yerdə deyiblər ki, "adımı sənə qoyum, səni də yana-yana!".

Murvet Yusifov: Ölüm tarixini dəyişə bilməzdilər. Çünki 1905-1918 ci illərdə baş vermiş tarixi proseslərdə dahi şəxsiyyətlərin adları hallanır. Doğum tarixini dəyişmək nisbətən asandı. ***Çünki anadan olanda dahi deyildilər.*** Yaxşı bilməməzlikdən yox, heç bilməməzlikdən. Bizim Nərimanlı kəndi haqqında söylədikləri həqiqətdən uzaq və gülüş doğurandı!

Qabil Zimistanoglu: yazır ki, Nərimanlıda da milli tayfaları yaşayıb. Kəndin əvvəlki adı Yellicə olub.

Murvet Yusifov:)))))

Murvet Yusifov: Mənim babam gəlib qovub milliləri))))

Qabil Zimistanoglu: Çox maraqlıdır, belə çıxır ki, kitabda yazılanlara inansaq, Göyçədə yaşayan müsəlmanların təxminən yarısı milli olub. Bəs görəsən, 1988-ci ilədək Göyçədə yaşayan müsəlman əhalinin demək olar ki, 90 faizdən çoxu türklərdən ibarət idi. Bəs necə oldu ki, bu millilər yoxa çıxmışdı. hara getmişdilər görəsən? Heç mən orada yaşadığım müddətdə Göyçədə milli adında bir tayfanın yaşadığını eşitmədim. Yəqin elə hamısını sənin baban qovubmuş)))) Amma zarafatsız, bu milli məsələsinin içərisində milli olmayan çox mətləblər gizlənib.

Q.Zimistanoğlu hədsiz dərəcədə savadsız olduğunu, 2-ci sinif səviyyəsində də biliklərinin olmadığını neçənci dəfədir nümayiş etdirir: əvvəla, 227 ailə 999 ailənin yarısı yox, yarısının yarısından da azdır. İkincisi isə deməkdən dilim qabar oldu ki, millilər 1834-1835-ci illərdə kütləvi şəkildə Göyçəni tərk edib Vedibasara getdilər. Sənin yaşadığın 1980-ci illərdə təbii ki, Göyçədə milli yaşamırdı saymaq olar (Qızılvənk kəndinə köçən 16 milli ailəsi və Kərkibaş kəndinə köçən Ağ Aşıq Allahverdi istisnadır).

Bu adamların şüur səviyyəsi doğrudanmı belədir, yoxsa bilə-bilə özlərini başa düşməzliyə qoyurlar?

Millilərin Göyçəyə Gərnibasar mahalından gəldiyini yazan İ.Şopen onun tarixini göstərməsə də, Paskeviç Rusiya Xarici İşlər naziri qraf Nesselroda 27 iyun 1827-ci il tarixli məktubunda yazır ki, bir çox tayfalar əlçatmaz dərələrə çəkilib müharibənin nə ilə qurtaracağını gözləyirlər. Beləliklə, Gərnibasardan Göyçəyə gedənlərin 1827-ci ilin yazında, hərbi əməliyyatların qızışdığı yaz aylarında getdiyini düşünə bilərik.

Ramin Sahirzayev: Yena ermani paraslar nasa yeni fikira dusublar bela insalar birinci oz naslini va cabatlarni arasdlrsln

Murvet Yusifov: Nazir mənim səhifəmə hansı üzlə gəlir? Yazır ki, 1937-ci ildə repressiyalar niyə baş verib? Yəni işarə vurur ki, ***biz işverənlik edirik.*** Yurdumun tarixinin keşiyində durmaq işverənlikdimi? Deməli, bu erməni dəyirmanına su tökməyi milli vəzifəsi hesab edir.

Mürvət Yusifov nəhayət, məşğul olduğu işin adını çəkir-İŞVERƏNLİK!

Milli Təhlükəsizlik orqanlarına donos yazmağın başqa adının olub-olmadığını isə M.Yusifov təəssüf ki, göstərmir.

16 iyun 2017.

Mənim statusum.

27 illik yaradıcılıq fəaliyyətimdə ilk dəfədir ki, peşəmlə bağlı həyatıma ciddi təhlükə yaranıb. Bu gün saat 15-52-də adını deməyən, özünü Aşıq Ələsgərin nəvəsi adlandıran bir nəfər **051 444-10-99** nömrəli telefondan mənə zəng edərək, ***"Haqq-nahaqq seçilər Haqq divanında"*** kitabımda Aşıq Ələsgər və digər 5 nəfər tanınmış aşığın doğum tarixlərini dəqiqləşdirdiyimə görə məni küçə söyüşləri ilə təhqir etdi və öldürməklə hədələdi. Bütün bunlar özünü bütün Göyçə mahalının lideri rolunda görən Mürvət Yusifov adlı bir nəfərin pravakatorluğunun və təhrikçiliyinin nəticədsidir. Sabah Baş prokurora və Daxili işlər nazirinə göndərəcəyim şikayət ərizəsində bunlar öz əksini tapıb. FB-də dostluğumda olan 5 min nəfərə məlumat verməkdən məqsədim odur ki, əgər başıma bir iş gəlsə, cavabdehin təhrikçilik edən Göyçə mahalı, Nərimanlı kənd sakini Mürvət Yusifov olduğunu bilsinlər.

Polis araşdırması nəticəsində tezliklə məlum oldu ki, məni söyən və öldürməklə hədələyən həmin "qəhrəman" İslam Ələsgərovun oğlu Xətai Ələsgərli imiş.

Təbii ki, onun bu qəbahətli, Aşıq Ələsgər ocağına yaraşmayan hərəkətində Mürvət Yusifovun həmin günədək apardığı təhrikçilik fəaliyyəti, ara qarışdırması həlledici rol oynamışdı. Bu barədə ona dəfələrlə xəbərdalıq da etmişdim ki, adamları sən qızışdırırsan.

Yorumlar:

Fahrettin Gülmemmed: yazınızı oxumuşam...hede-qorxu gelinecek bir sebeb yoxdur. Provokasiya yolverilmezdir.

Abdurrahman Karaköse: Cahilliğin, Akılsızlığın, Ahlaksızlığın bu kadarına pes doğrusu. Hocam Allahın izni ile bir halt işleyemezler.Yine de gerekeni yapın. Sizi seviyoruz.Allah korusun.

Nazir Ahmedli: Çox sağ olun, Abdurrahman bəy!

İbrahim Rüstəmli: Biz sizin yanınızdayıq, Nazir müəllim. Nə lazımdısa, hazırıq.

Nazir Ahmedli: Təşəkkür edirəm, İbrahim bəy.

Maarifçi Qadınlar: Mürvetdi nedi öz fikirlerini normal şekilde sübut etmeye cehd ede bilerdi. Bele edebsiz adamın kim olduğunu bilmek isteyerdik. Nazir bey, yeqin ki qanun onun layiq olduğu yeri gösterecek. Ziyalılar bu meseleye göz yummamalıdır. Bigane qalmamalıdırlar. Biz Sizinleyik

Murvet Yusifov: Hörmətli Maarifçi Qadınlar, böhtan xarakterli çağırışa həqiqəti bilmədən aqressiv münasibətiniz başa düşülən deyil!

Maarifçi Qadınlar: Murvet Yusifov kitabdan xeberim var. Siz ne ücün tehdid edirsiniz. Her kesin fikrine hörmetle yanaşılmalıdır. Tehdid, başqa meseleler yolverilmezdir

Murvet Yusifov: Təhdid nəyə deyirsiniz? Nazirin yazılarına yumşaq irad təhdiddmi? Kitabı oxumusunuzsa bunun hansı zərurətdən doğduğunu, hansı milli maraqlara xidmət etdiyini duymusunuzmu? Sosial şəbəkədə aparılan müzakirədə fikir biidirmək təhdid adlanırmı? Qarayaxma, böhtan xarakterli, əsassız bir statusa görə başqasını hədəf götürmək ziyalı parametrlərinə uyğun gəlmir

Maarifçi Qadınlar: Murvet Yusifov Siz cox aqressivsiniz. Bu terzde bir netice ortaya qoya bilmezsiniz. Men kitabı tam olaraq oxumamışam. Oxuyacam ve fikrimi bildirecem. Sadece sebrle söykendiyiniz faktları ortaya qoya bilersiniz. Bunu da qanun araşdırmalıdır

Firuz Mustafa:

Hərcayıdan, müxənnəsdən, nadandan
Nə söz qaldı sənətkara dəyməmiş....

Aşıq Ələsgər

Belələrinə çox da ciddi yanşmayın...

Murvet Yusifov: Firuz müəllim məsələnin mahiyyətinə varmağınızı xahiş edirəm

Nazir Ahmedli: Firuz bəy, dəstəyinizə görə təşəkkür edirəm. Bir neçə həftə əvvəl özlərini Ələsgərin nəticəsi adlandıran 3 nəfər-Füzuli, Xətayi və Əli adlı adamlar zəng edib hədə-qorxu gəlmiş və kitabı üzə çıxarmamağımı tələb etmişdilər. O hadisələri heç açıb ağartmadım. Amma bu günkü hadisə onlardan tam fərqli idi və real təhlükə hiss etdim.

Namiq Abbasov: Salam Nazir müəllim, boş verin, soyuqqanlı olun, yaxşı deyiblər tutmayan itə zəncir vurmurlar, belə hərəkət edənin demək ki, zənciri yoxdu. Təəsuf edirəm ki, aşıq Ələskərin belə qohumu var.

Tanriverdi Pasha: Nazir bəy, axşamın xeyir!! Sənin kitabınla bağlı mənim də başım "ağrımaqdadır".. Sənin bizim kənd (Ardanış), xüsusən bizim tayfa haqqında mənə göndərdiyin materialın bir qismi kəndimizin ziyalıları arasında yayılmışdır və onların əksəriyyəti sənin Göyçə haqqında kitabını səbirsizliklə gözləyirlər. Lakin eləsi də var ki, nəinki Aşıq Ələsgərin yaşını, hətta öz tayfalarının 2 siyahıyaalmada əksini tapmamasını böyük saxtakarlıq sayırlar. Onlar indiyə qədər yaxın babalarının (ən uzağı 100 il) nə vaxtsa danışdığı "nağıllara və rəvayətlərə" inanmağı üstün sayırlar.. Onlara tarix, arxiv, siyahıyaalma, arxeologiya, etnoqrafiya nə olduğunu başa salmaq mümkün deyidir.. Belə vacib və əhəmiyyətli iş, əsər "cahil kütlə" üçün nəzərdə tutulmaz, ona görə onlara baş qoşma... Guya Aşıq Ələsgərin bir az gec doğulması onun xidmətini, sənətini azaldırmı??? Qoy sübut ortaya qoysunlar, bəlkə o, siyahıyaalma vaxtı "sadəcə kənddə olmayıb, Gədəbəydə və ya Kəlbəcərdə bir neçə illik toy məclisində olub"...

Nazir Ahmedli: Təşəkkür edirəm, Tanrıverdi bəy, yaxşı ki, Göyçənin Sizin kimi ziyalıları da var. Sizin indicə yazdıqlarınızı 3 aydır onlara deməkdən yoruldum, heç xeyri yoxdur, elə çevir tatı, vur tatı. Babası çıxmayanlar bir yana, babalarını tapıb verdiklərim

də özlərini bilə-bilə nadanlığa qoyur və üstümə hücuma keçirlər. Guya mən kimisə özüm yaradıb ortaya çıxarmalı idim.

Tanriverdi Pasha: Nazir bəy, bəs nə fikirləşirdin??... Nəsimini, Seyid Əzimi, Sabiri, Cəlil Məmmədquluzadəni və digərlərini vaxtında, hətta bu gün də "daşlayanlar" Göycədə də yoxdumu??

Nazir Ahmedli: Minnətdaram, Tanrıverdi bəy, bunların bu həkətindən hirslənib az qalırdım "Göyçə mahalının Kameral təsviri" kitabının çapını dayandırım. Amma sənin kimi və başqa Göyçəli dostlarımın, Göyçəni təmsil etməyə mənəvi haqqı çatanların xətrinə fikrimdən daşınıram və o kitabı da çap edib mütərəqqi Göyçə ziyalılarına çatdıracağam.

Maarifçi Qadınlar: Nazir bey gördüyü işlerin, araşdırmalarının doğru menbelerden qaynaqlandığına esaslanaraq qetiyyetle davam etmelidir. Korazehnlerden ferqli olaraq ziyalılar onu desteklemelidir. Qarşı teref güc nümayiş etdirmek evezine bir az ağlını çalışdırsın

Murvet Yusifov: Tanrıverdi Paşa, çox istiqanlılıqla təbliğ etdiyiniz bu kitabın milli maraqlarımıza zidd olduğu, milli mənafeyimizə zərbə vurduğu təsdiqlənəndə nə yazacağınız mənə maraqlıdı?

Tanriverdi Pasha: Mürvət, sən "milli maraq" dedikdə, nəyi nəzərdə tutursan?? Əlimizdə olan sənədəbənzər şey həmin kameral siyahıyaalmadır.. Sən iddia etdiyin şeyləri sübut etmək lazımdır. Aşıq Ələsgərin nəvəsinin, kəndçilərinin dediyi yeganə mənbə ola bilməz. Yəqin 167 yaşlı Şirəli Müslümov və 156 yaşlı Mahmud Eyvazov haqqında eşidibsən, onların da yaşı təxminən bir o qədər artırılıb..

Murvet Yusifov: Milli maraq, babalarımızın tarixini rus-erməni arxivlərinin, yəni rusun, ermənin diktəsi ilə dəyişmək!

Tanriverdi Pasha: Mürvət, rusların, ermənilərin arxiv materiallarını, tarixi sənədləri saxtalaşdırmalarını inkar etmək fikrində deyiləm.. Niyə ancaq yaşını dəyişiblər??, istəsəydilər yaradıcılığını, aşıqlığını da ələ salıb aşağılayardılar... Bunu araşdırmaq lazımdır, hələ çox vaxt keçməyib. Fironların

mumiyalarına görə yaşlarını, ölüm səbəblərini indi müəyyənl etmirlərmi???

Murvet Yusifov: Sənədləri saxtalaşdırma fərdi aparılmır. Ümumi aparılır. Mən öz babamı misal çəkdim. Mənim babamın da yaşı kiçildilibdi. Yusif 1842-ci ildə 8 yaşında olduğu bildirilir o siyahıda. Amma elə deyil. Görünür bu tarix ümumi dəyişdirilib. Bunu araşdırmaq lazımdı. Məsələyə səthi yanaşmayın. Bu, ululariмıza hörmətsizlikdi.Siz rəydə yazırsınız ki, biz yüz ildən o yana babamızı tanımırıq. Bu sizin probleminizdi. Bizim kəndin qrupu var. O qrupdakı yazışmalardan görürəm ki, 18-20 yaşlı gənclər tayfalarının şəcərələrini yazırlar.16-cı əsrə gedib çıxır şəcərənin tarixi. Dədə Ələsgərin oğlu Aşıq Talıb 1979-cu ildə dünyasını dəyişib. Bu, qədim tarix deyil. Aşıq Talıbın səs yazıları var Dədə haqqında danışır. Ehtimal ki, televiziyanın arxiv fondunda da var bu səslər. Ümumiyyətlə kəndlərimiz haqqında da doğru olmayan informasiyalar verilir dediyiniz sənədlərdə. Göyçə mahalı elmə, təhsilə diqqəti ilə seçilən bölgəmiz olub. İnsafa gəlin. Özümüzə hörmətsizlik etməyək. Artıq məsələ bütün ölkəyə, o cümlədən ölkə xaricinə yayılıb. Bu gün inboksuma Almaniyadan, Amerikadan həmyerlilərimiz yazıb narahatlıqlarını bildirirlər.

Tanrıverdi Paşa, el qınağı ağır olur. Gəlin elimizə hörmətlə, sədaqətlə yanaşaq.

Tanriverdi Pasha: Mürvət, mənim də öz dədə-babalarımı tanımaqda problemim yoxdu... Göyçədə, bəlkə də Azərbaycanda yeganə adamlardanam ki, 127 yaşlı nənəmin nənəsi (nənəmin özü və anası da sağ idi) Məşədi Məsməni görmüşəm, o rəhmətə gedəndə 18 yaşım vardı.. Ardanış və Cil kəndlərini 1826-1828-ci illərdə mənim ulu babalarım salıb.. adları da həmin kameral siyahıyaalmada var... Yaşları da həqiqətə uyğundur... Təəssüf ki, onlardan əvvəlki nəslimiz haqqında heç bir məlumat yoxdur.. Onu bilirəm ki, kökümüz hətta Aşıq Ələsgərlə birdir - qarapapaqlarıq, təmiz türkük. Daha dərinə getmək üçün araşdırmalar aparılmalıdır, arxivlərdən və digər mənbələrdən yararlanmaqla əsil həqiqət üzə çıxarılmalıdır..

Murvet Yusifov: Bu, araşdırma deyil qardaş. Əslində ***Göyçədə mütləq çoxluq Oğuz türkləri olub***. Qarapapaqlar az say təşkil edib. Bu tarixdi və kifayət qədər sübutlar, dəlillər var. Mənim bir statusum var ona baxsan bunların hamısının cavabı var orda. Mənim Nazirlə nə tanışlığım, nə ədavətim olmayıb. Mənim fikirlərimi qərəz kimi anlamayın. Mənim davam tariximizin təhrif edilməyi üstündədi. Bu da dövlətçiliyimiz, milli maraqlarımız üçün önəmlidi!

M.Yusifovun və onun ideoloqu Eldar İsmayılın narahat qaldığı əsas şey onların oğuz deyil, qarapapaq türkü olmasının ortaya çıxmasıdır. Bu adamlar başa düşmür ki, qarapapaq türkləri ən təmiz türklərdir və oğuz türklərindən heç də aşağı sinif deyil. İkincisi isə onlar oğuz idi, mən qoymadım?

Namiq Abbasov: Nazir müəllim, bir də ki, həmişə sənin və haqqın yanındayam. Həm dost, həm də qohum kimi. Sirkə tund olanda hamı bilir nə olur.

Nazir Ahmedli: Təşəkkür edirəm, Namiq bəy!

Ali Kafkas: Xəstə ruhlu insanlar. Sanki Ələsgər dede bunları vekil edib özündən sonra. Bunlar özlərini nə zənn edirlər ?!

Nazir Ahmedli: Əli bəy, Müşfiqi, S.Vurğunu, Cavidi, nəhayət Peyğəmbər əfəndimizin yaşını 100 dəfə bunlara xatırladıram ki, onların xidməti yaşları ilə ölçülmür. Elə deyirlər əgər Ələsgər 105 il yaşamayıbsa, sən bütün Göyçə mahalını təhqir edirsən, vəssalam. Əgər mən sənəddə tapsaydım ki, o 105 il deyil, 115 il yaşayıb, onda hamısı şad olub məni alqışlayacaqdı!! Son dərəcə absurd bir hal!! ***Guya Ələsgər rəhmətlik hal-hazırda sağdır, 105 il yaşayacaqmış və mən onu yaşamağa qoymayıb 74 yaşında öldürürəm! Onlar məsələni bu cür anlayır!!***

Nigar Ögeday: Hocam, yazınızı oxumuşam. Normal bir şeydir. Hele de anlamıram bir tarix bunları neden bu qeder rahatsız edir

Nazir Ahmedli: Anlamaq mümkün deyil, Nigar xanım!

Nigar Ögeday: Hocam, aldırma. Boş ver

Murvet Yusifov: Nigar xanım, məsələnin mahiyyətinə varmısınız?

Nigar Ögeday: Mürvet bey, anlatın varak. Sorun ne? O böyüklükde devletimi elimden alıb üzerinde Ermenistan qurublar sesimiz cıkmır. Doğum tarixi, nece yaşda ölme faciesini yaşayırık. Keşke bu savaşı İrevan torpakları ücün verseydik.

Murvet Yusifov: Bu, elə onun davamıdı.Diqqətli olsanız anlamaq çətin deyil. Maraqlıdı ki, milli qüvvələr kimi tanıdığımız sizlərin belə mövqeyi ilə qarşılaşırıq.Əfsuslar olsun!

Nigar Ögeday: İnsanları hedeleyerek, arayıb söyerek bunu yapmak olmaz.

Teyyub Memmedli: Siz Aşıq Ələsgərin doğum tarixi barədə fikir söyləmisinizsə, bu onun yaradıcılığına, xələl gətirə bilməz. O, BÖYÜK USTADDIR.

Nazir Ahmedli: Tamamilə haqlısınız. Amma mən bu sözü onlara min dəfədir deyirəm, xeyri yoxdur.

Teyyub Memmedli: bu qədər yersiz mübahisə bizi istəməyənləri sevindirər.hörmətli dostlar,bu yersiz mübahisəyə bir qəti və son cavab: Aşiq Ələsgər nə 105 nə də 74 yaşinda dünyasini dəyişməyib. Aşiq Ələsgər ölməyib, o yaşayir. onun 196 yaşi var. qədirbilən azərbaycan xalqi yaşadiqca, o da yaşayacaq. onun yaşi artdidca dayandiğı o uca zirvədən daha aydin görünəcək. ....

Mirze Sakit:

Aşıq Ələsgərin sərvəti yox-yox,

Mürvətin zərrəcə mərfəti yox-yox...

Cavanşir Sadiqov: Siz heç nədən çəkinməyin, onların savadı varsa fakt qoysunlar ortalığa. Siz arxivlərdəki faktlara söykənmisiniz. Biz həmişə sizinləyik, ğözəl alim.

Murvet Yusifov: Formalaşmış tarix fakt deyilmi? Rus-erməni arxivi sizlərə etalon oldumu?

Gulaga Agazade: Mutleq muraciet edin, arasdirilsin. Huququ dovletlerde bu bele edilir.Yalanci patriotluq lazim deyil

Vuqar Zeynalov: Cəmiyyətdə həmişə nümunə bildiyim qərbi azərbaycanlılara heç cürə yaraşdırmadığım hərəkətləri görüb xəcalətlənirəm...nə qədər çətinmiş bir-birini başa düşmək, ayıb deyilmi...bizim təəssübkeşliyimiz harda qaldı...nə qədər "ağır problem"dir ki məsləhətlə, danışıqla həll edilməsin. Ağsaqqallar ağsaqqallıq etsinlər..bu iş bitsin. Vallah ayıbdır...

Sahib Musayev: Vuqar Zeynalov niyə məsələdən hali olmamış bir obaya bir elə dahi insanlara qara yaxan birisini eşidirsiz.

Vuqar Zeynalov: Sahib müəllim, mən bu mübahisədən bir xeyli sonra hali oldum...və diqqətlə yazışmaları izlədim, tutulan iradların içində tutarlı bir faktı təqdim edən görmədim.. Mən elimi-obamı, onun dünyaya bəxş etdiyi insanlarla həmişə fəxr etmişəm və hər yerdə hər zaman onların böyüklüyünü insanlara çatdırmağa çalışmışam. Mənin yurdumla bərabər dahilərimizə sevgimin həddi-hüdudu yoxdur.

Sahib Musayev: Vuqar Zeynalov mən əvvəlcə məsləhət gördüm ki, hələ kitab çap olunmamış, o istinad edilən sənəddə böyük uyğunsuzluqlar var. Onda mən təkcə öz tayfamız haqda bilirdim, bir də Ələsgərlə Alının yaşlarının xeyli kiçildilməsi haqda. Təklif etdim ki, yaxşı olar Göyçə ağsaqqalları ilə məlumatı olanlarla görüşülsün. Düzdü Nazir Ahmedli istinad etdiyi sənədə dəyişiklik edə bilməz, bu cinayət olardı. Sadəcə şərh verə bilərdi əvvəlcədən bu uyğunsuzluqlar haqda. Ancaq məni və başqalarını, Eldar Ismayil müəllimi də eşitmədi. Təcili kitabı çap etdirdi. Kitab isə dəhşətdi. 1831-ci ilə qədər kitaba görə Göyçədə TÜRK yaşamayıb Hansısa MİLLİ kürdlər yaşayıb əsasən. DƏDƏ ƏLƏSGƏRİN yaşı 1821-dən 1852-yə sıçraması da Ağkilsədə türk yaşamaması ilə bağlı imiş. Ümumiyyətlə 80-ci illərdəki kürtləşmə söhbətinin yeni variantidi. Zəhmət olmasa kitabı oxuyun sonra şərh verin.

Murvet Yusifov: Vüqar bəy, dostluğunuz öz yerində.Burada rastlaşdığınız söyüş, təhqirləri kimin yazısında görmüsünüz?Tutarlı fakt görmədiyinizi bəyan edirsiniz. İzləmiş olsaydınız tutarlı faktları görmüş olardınız. Ağbulaqdan

olduğunuz halda bu kitabda Göyçə mahalının tarixinin təhrif edildiyini görə bilməməyiniz məni üzdü.Nazir rus erməni arxivini köçürüb kitab çıxarmaqda və bunu bizə tariximiz kimi sırımaqda haqlıdırmı?Bizlərin tərəfindən hansısa nalayiq söz oxumusunuzmu?Burada qadınları, yaşlı adamları söyməyinin, təhqir etməyinin müqabilində bizlərin soyuqqanlılıq nümayiş etdirməyimizi niyə əksinə görürsünüz?Qarayaxma, şər atma statusuna qoşulub, həqiqətin əleyhinə çıxış etmək yaxşı hal deyil.Məni maraqlandıran odu ki, məsələnin mahiyyətindən xəbəri olmayan adamlar niyə bu cür aqressiya nümayiş etdirirlər?Özü haqqında zavallı mifi yaratmağa çalışanın çağırışı ilə mənim ünvanıma yazılanları eliniz, obanız sizə bağışlayacaqmı?

Vuqar Zeynalov: Öncə bilmədən, bir qüsur işlətdimsə üzürlü hesab edin. Anlaya bilmədiyim bir şey də budur ki, Nazir Əhmədli bəyan edib-edir ki, "mən türk oğlu, türkəm və yeddi arxa dönənim də türkdür". Bu halda Əhmədli nəyə görə türkləri azaldıb kürdləri artırsın???Kitabı çox yaxın vaxtda yəqin ki, mən əldə edəcəm və təbii ki, diqqətlə oxuyacağam. Tam obyektivliklədə münasibətimi bildirəcəyəm. Bir də ki, mənim münasibətim bir Göyçəli kimi şəxsimə və məni tanıyanlara aid olacaqdır. Böyük ədiblər bu işi doğru düzgün təftiş etməlidirlər. Heç cürə ona da inana bilmirəm ki, Nazir müəllim, dədə Ələsgəri aşağılayan nəsə yazsın...bunu onun daxili məhkəməsi olan vicdanı yol verməz! Mən belə düşünürəm. Qaldı ki, mütləq kitab oxunmalıdır...

Nazir Ahmedli: Təşəkkür edirəm, Vüqar bəy! Doğum tarixindəki yanlışlıqdan başqa mən Ələsgər haqqında bir tük qədər inciklik gətirəcək şey yazmamışam və yaza da bilməzdim. O, bizim vicdanımızdır, əlçatmaz zirvəmizdir. bütün Azərbaycanın və bütün türk dünyasının fəxr mənbəyidir!! Xahiş edirəm, oxuyun, sonra nə iradlarınız olsa dinləməyə məmnuniyyətlə hazıram. Siz böhtanlara inanmayın!

Murvet Yusifov: Vüqar bəy, diqqətli olmaq lazımdı. Burada Nazirə qoşulub təhqiramiz sözlər işlətmək günah etməkdi.Mənim sözüm burda məqsədli şəkildə iştirak etməyənlərədi. Hərçəndki rəylərdə xahişlə, sifarişlə, bir də bu

məqsəddə şərik olanları görürəm. Sizin belələrinə qoşulmağınız yaxşı hal deyil.

Vuqar Zeynalov: Murvet Yusifov, sözlərinizə diqqət edin, nə qoşulmaq, nə təhqiramiz sözlər!!! Siz məni kiminləsə səhv salmayın! Mən heç vaxt kirli oyunlarda olmadım və olmam da! Bunu heç vaxt unutmayın! Böhtan xarakterli sözləri də yığışdırın!!! Bir kəlmə söz yazmışamsa mən öz vicdanımın səsi ilə yazmışam. Böhtan deyib-günahları öz üstünüzə çəkməyin! Dürüstlükdən danışırsan lakin qara fikirlərlə kimlərisə "oyunlarda" hesab etməyin. Oyun quranada lənət olsun, onu oynayana da! Qurtarın!!!

Vuqar Zeynalov: Mürvət Yusifov, sizə məsləhət görürəm ki, mütləq siz həkimə müraciət edin! Bu sizin gələcək sağlamlığınız üçün mütləq vacibdir!!!

Murvet Yusifov: Məsləhətinizə görə təşəkkür edirəm)))

Xəqani Həbiboğlu Dünən də qeyd etmişdim ki, arxivdə olanlarla bizi tanış etdiyi üçün Nazir Ahmedliyə təşəkkür düşür...

İrəm Dağlı: Inanmaq olmur ki hələ də bu qədər cahil insanlar var...

Ilhame Kazimova: Nazir müəllim, Siz düz edirsiniz, beleleri ermeniden beterdir. Onlar sizin nece boyuk bir iş gördüğünüzü derk etmirler. Siz mutleq huquq-muhafize orqanlarina melumat verin .

Murvet Yusifov: İlhamə xanım, sizi diqqətli olmağa səsləyirəm. Biz erməni arxivindəki məlumatları bizim tariximizə gətirənlərə irad bildiririk!!!!

Nazir Ahmedli: İlhamə xanım, təşəkkür edirəm, artıq məlumat vermişəm.

Murvet Yusifov: Məsələnin hüquq müstəvisində həll olunması mənim təklifimdi. Təklifimi qəbul etməyin məni eşitməyindi. Buna görə sağ ol

Murvet Yusifov: Burda ədəbiyyatdan yox, tarixdən söhbət gedir. Haqqında söhbət gedən yazı erməni rus arxivindən götürülüb, bu da milli maraqlarımıza zidd olaraq tariximizi təhrif edir.

Turan Bozqurd: Nazir bey, cahil insanlardi, fikir vermeyin

Seyar Huseyinov: Nazir bəy, butun zamanlarda bu cur hallar olubdur.Nadanlar həmişə olub və olacaq. Bu gun bizlər bir intiqam ilə yaşamaliyiq.İstər Qərbi Azərbaycan, istər Qarabağda bizim ululərin qəbri təhqir olub.Onlarin kəllələrindən ermənilər kilqabi duzəldib satişa cixaribiar.Elə erməni ailəsi olmaz ki, onun evində suvenir kimi AZƏRBAYCANLİ vətəndaşinin kəlləsindən hazirlanmiş kilqabı olmasin.Qarabağda əşir dişmuş qiz gəlinlər bu 24 il ərzində dəfələrlə zorlanmiş, onlardan döl titilmuş, doğulan qiz uşaqlarini fahişəxanalara, oğlan uşaqlarini isə təlim kecərək Qarabağa yerləşdiriblər.Sizin gördüzünüz işlər alqişa layiqdir.

Jale Jafarova: Bele nadanlara baş qosmaga hec, hem de hec deymez Nazir bey

Murvet Yusifov: Jalə xanım, nadan sözünü kimə və nəyə görə ünvanlayırsınız?

Seyar Huseyinov: Nazir bəy, siz cox mühüm və vacib bir iş görmusunuz. bu alqişa layiqdir. sizin təqdiqatiniz əsasinda milli kimlik və milli mənsubuyət ortada olduğuna görə kimlərisə narahat edir. Bu da təbiidir.

Murvet Yusifov: Hansı millətin kimliyini ortaya çıxarıb?

Nameddin Mirzaxanlı: "Danabaş" kəndinin köhnə sakinlərindən Sizin kəndə köçənlər varmiş. Buna görə fikir eləmə, onların başına ağıl qoyanlar tapılacaq....

Rıdvan Sapmaz: Geçmiş olsun

Pervana Mamedli: Bar verən ağaca daş atan çox olar. Fikir verməyin. Enerjinizi belə cahillərə yox, sonrakı araşdırmslarınıza, sevdiklərinizə sərf edin.Azərbaycanda fikir,elm adamları nələr çəkməyib?!

Samir Abbasov: Nazir muəllim, haqq daim yaninizda olsun.Biz sizin yaninizdayiq.Allah Sizi qorusun.Ele ciliz insanlar haqqi dananlardir.səbrli olun.Haqq nazilər, üzülməz.

Kamil Veli: Nazır bey, bele işler cox olur.Sebrli ol,esla esebleşme. Problemi agsaggallarla çöz. Nizami muellimle meslehetles, Asiq Əlesgerin nevesi men bildiyim geder yaxsi

adamdı onunla goruşsen problem çözüler. Lutfen sebrli ol. Saygılarımla...

Rəcəb Nurəli: Mən Nazir bəyin sözügedən kitabını oxumamışam. Amma əminəm ki, 30 ildir yaxından tanıdığım və dostluq etdiyim, "Azadlıq" qəzetindən tutmuş indiyədək tanış olduğum bütün yazılarında, siyasi və ictimai proseslərə, insanlara, tarixi faktlara münasibətlərində, dostluq və qohumluq əlaqələrində, hətta məişət söhbətlərində belə son dərəcə həssas, obyektiv və ədalətli olan Nazir bəy bu araşdırmasında da öz daxili Məninə sadiqdir.

Nazir Ahmedli:Çox sağ olun, Rəcəb bəy, təşəkkür edirəm.

Asif Merzili: Problemin səbrlə həlli yolu tapılmalıdır, başqa yol qəbuledilməzdir...

Şahlar Haciyev: Maraqlı odur ki, kitabı oxuyanlar da, oxumayanlar da münasibət bildirir. ***Kitab çıxmamışdan öncə Nazir bəyə dəfələrlə xahiş etdik ki, bəzi düzəlişlər etsin.Amma bunu etmədi.*** Birdəfəlik bilun ki, məlumatlar Şovunist Rusların arxivindən götürülüb.

Mürvətin kəndlisi və havadarlarından biri olan Şahlar Hacıyev də etiraf edir:" ***Kitab çıxmamışdan öncə Nazir bəyə dəfələrlə xahiş etdik ki, bəzi düzəlişlər etsin.Amma bunu etmədi".***

Şahlar Hacıyev, nəhayət "günahımın" nə olduğunu bəyan edir. Əgər onların dediyi kimi, sənədlərə düzəliş, daha doğrusu, saxtakarlıq etsəydim, başıma ağrımayacaqmış. Amma onda mən də onların tayı olacaqdım! Onlar məndən bunu istəyirdilər!

Nazir Ahmedli: Şahlar müəllim, Siz kitabımı oxumusunuzmu? Mənə edilən təklif o idi ki, "sənədin üstündə işləyək", yəni bu təklifi normal dillə desək, rəqəmləri dəyişək. Mən sənədə necə müdaxilə edə bilərəm, Siz deyin. Onun nöqtəsinə, vergülünə toxuna bilmərəm. İkincisi də tutaq ki? Ələsgərin doğum tarixini 1852-dən 1821-ə qaytardıq? bəs atasının, qardaşlarının, əmisinin, əmisi oğlanlarının yaşını nə

edək? Kənddəki digər ailələrin yaşını nə edək? Məsələn, 1873-cü ildə Ələsgərin 21 yaşı, hələ Səhnəbanı ilə evlənməyən Mustafanın 15 yaşı vardı, Ələsgəri 52 yaşlı (1821-ci il doğumlu) etsək, Mustafanın 1873-cü ildəki 15 yaşını, Səhnəbanının 36 yaşında olan anası Yetəri necə edək? Yəni bütöv bir saxta sənəd düzəldilməlidir. Bunu da edək, 1859-cu ildəki, 1842-ci,1852-ci, 1831-ci ildəki siyahıları necə dəyişək? Ona görə də, bəzilərinin etdiyi "sənədin üstündə işləmək" təklifini qəbul etsəydim, işin mənəvi tərəfini bir kənara qoysaq belə, praktik cəhətdən də mümkün deyildi.

Şahlar Haciyev: Nazir Ahmedli, heç olmasa öz fikirlərini özün bildiyin fornada əlavə edib dəyişmək olardı. Sizi kimsə orjinalı dəyişmıkdə günahlandırmazdı. Siz bilə-bilə ki, kəndiniz türklərin qədim məskənidir və kimsə deyir orada ermənilər yaşayıb. İnciməzdiniz?

Nazir Ahmedli: Hansı kənddən söhbət gedir?

Şahlar Haciyev: Mənim 7 minillik türk tarixi olan Nərimanlı kəndimdən.

İlahi, özün kömək et bu millətə! Bu adam Nərimanlı kəndinin 7 min illik türk tarixindən danışır!

Mən hələ elə bir məqalə, kitab oxumamışam ki, 7 min il bundan qabaq hansısa xalqdan, millətdən danışsın!

İlahi, bu xalqa rəhm elə!!

Nazir Ahmedli: Mən axı Nərimanlıda erməni yaşadığını zənnimcə yazmamışam. İkincisi də Sizə öz kəndimizdən misal gətirim. Müəllifi tarixçi alim H.Məmmədov(Qaramanlı) olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə doğulduğum Gabud kəndində 1727-ci ildə 2 erməni ailəsinin yaşadığı göstərilib, müsəlman yoxdur. 1831-ci ildə isə orada erməni yoxdur, 8 müsəlman ailəsi yaşayır və mənim babalarım da oradadır. Bu da "Dərələyəz mahalının Kameral təsviri" kitabında öz əksini tapıb. Mən yazdığım "Gabud və gabudlular" (2016) kitabımda hər 2

sənəddə necə yazılıbsa elə də vermişəm. Fikrinizcə, mən öz kəndimizə xəyanət etmişəm?

Şahlar Haciyev: Nazir bəy, mən o sualı Sizə ünvanlamışam: "Siz bilə-bilə ki, Sizin kəndin 7 min illik türk tarixi var və kimsə deyir ki, o kənddə ermənilər yaşayır, sizə necə təsir edər" ? Biz də ona görə inciyirik.

Nazir Ahmedli: Şahlar müəllim. bir daha təkrar edirəm, o vaxtkı adı ilə Hüseynquluağalı kəndində, sonrakı adı olan Nərimanlı kəndində sənədlərin tərtib edildiyi vaxtlarda erməni yaşamırdı və mən də orada erməni yaşadığını yazmamışam. Hansı səhifədə yazmışamsa, xahiş edirəm, göstərin, bir də baxım. Hiss edirəm ki, hələ kitabımı oxumamısınız. Əgər vaxtınız və həvəsiniz varsa, zəhmət olmasa oxuyun, o zaman fikir mübadiləsi aparmağımız daha asan olar.

Şahlar Haciyev: Erməni - kürd. Nə fərqi var ki? Ermənini şərti yazmışam

Nazir Ahmedli: Şahlar müəllim, müzakirə və mübahisə obyekti olan "Haqq-nahaqq seçilər Haqq divanında" kitabımda ümumiyyətlə Sizin kəndin adı çəkilməyib(nə Hüseynquluağalı, nə də Nərimanlı kimi) orada kürdün, yaxud türkün yaşadığına da toxunulmayıb. Belə başa düşürəm ki, Sizə səhv məlumat veriblər.

Şahlar Haciyev: Kitabı oxumaq istərdim.

Nazir Ahmedli: Kitabı internetdə oxuya bilərsiniz. turuz.com saytında.

Eynulla Ismayilov: Tarixi məlumatlara görə kimsə kimi belə qarşılamaq? Ancaq tarixi məlumatın necə çətinliklə əldə olunmasından xəbəri olsa bəlkə də xəcalət təri tökər, minnətdarlıq edər, əgər insanlığı varsa, yox əgər kalsa nə desən ondan gözlmək olar. Amma həqiqət naminə hər şeyə qatlanmaq və axıra kimi mübarizə aparmaq lazımdır ki, acı da olsa həqiqət olsun .

Hörmətli Eynulla İsmayılov yazır:"tarixi məlumatın necə çətinliklə əldə olunmasından xəbəri olsa, bəlkə də xəcalət təri tökər, minnətdarlıq edər, əgər insanlığı varsa".

Eynulla müəllim, budur, Mürvətin özündən betər dostları bu cür "xəcalət təri tökür" və mənə "minnətdarlıq edirlər". Buyurun, tanış olun!

Mahmud Memmedov: Bu paylaşımda yorum yazan insanlar neyin haqqında yazdıqlarını bilmiller.Bu insanların hamısını aldanmışlar kimi başa düşürem. İnsanları aldadıb başqasını söydürmek provakasiyadı.

Niftali Goyceli: Nazir Əhmədlinin "HAQQ-NAHAQQ SEÇİLƏR HAQQ DİVANINDA" KİTABI VƏ MİSSİYASI

Niftalı Göyçəli iyunun 17-də öz səhifəsində də buradakı yazdıqlarını paylaşdığına görə, oxucular onunla tanış olacaqlar. Təkrarçılıq olmaması üçün burada ixtisar etdim.

Murvet Yusifov: Yorumlarda iştirak edib, Nazirə dəstək olanlar fikirlərimizi təhrif etməkdə davam edirlər

Nazir Ahmedli: Niftalı Göyçəli, başqalarından fərqli olaraq kitabın mahiyyətindən də söz açdığınıza görə, bəzi məsələlərə aydınlıq gətirmək istəyirəm. Əvvəla onlardan biri odur ki, Göyçənin qədimdən oğuz-türk yurdu olduğunu inkar etmirəm. Amma 1988-ci ildə oradan deportasiya olunanlar qarapapaq türkləri idi və 1814-cü ildə oraya İranın Sulduz mahalından Sərdar Hüseynqulu xan gətirmişdi.

Niftali Goyceli: Nazir bəy, kitabınızı əldə edib. dünən axşamdan gecə saat 3-00-ə kimi oxudum, səhər də saaat 9-30-dan saat 4 radələrinə kimi...indi 200 səhifəsini tamamlamışam, qalıb 83 səhifəsi. Qeydlər də götürürəm, hər halda bir ziyalı eloğlu kimi bir-birimizə rəqib olaraq ədalətli "döyüş" apara bilərik...

N.Göyçəli kitabımdan gətirdiyi sitatların hamısını təhrif edib. Məsələn, mən yazmamışam ki, Ələsgər Səhnəbanıdan ayrılanda dostu Paşa ilə əmisi qızı Zöhrə 2-3 yaşlarında olub. Yazmışam ki, Ələsgər Paşadan 13 yaş böyük olduğuna görə onları uşaqlıq dostu adlandırmaq olmaz. Əgər Ələsgər İslam

müəllimin yazdığı kimi Kərbəlayi Qurbanın evindən qovulanda 18 yaşı vardısa, 5 yaşı olan Paşa ilə onun dostluğundan necə danışmaq olar? Olsa-olsa, Paşanı Ələsgərin tapşırıqlarını yerinə yetirən üzüyola uşaq adlandırmaq olar. Zöhrənin isə yaşı haqqında ümumiyyətlə söhbət olmayıb. Sosial şəbəkəfəki mübahisələr zamanı daim sual vermişəm ki, əgər Zöhrə Ələsgərin əmisi qızıdırsa, onun atası kimdir, yəni Ələsgərin əmisinin adı nədir? Bu primitiv suala isə heç vaxt cavab verə bilməyiblər. Çünki, İ.Ələsgərov Zöhrənin atası Allahverdini Ələsgərə baba edib.

Kitabımdan gətirdiyi sitatları təhrif etməsi bir yana, N.Göyçəli özünü müharibə meydanındakı sərkərdələr kimi hiss edir. Və bundan vəcdə gəlir!

Nazir Ahmedli: Kitabıma göstərdiyiniz elmi marağa və qiymətli vaxtınızı ona sərf etdiyinizə görə bir müəllif olaraq Sizə təşəkkür edirəm!

Amma orasını da deməliyəm ki, biz rəqib yox, eloğlu və qələm əhli olaraq həmkarıq! Allah qələminizi iti eləsin, sizə yaradıcılıq uğurları arzulayıram.

Şahlar Haciyev: Təkçə Dədə QorQutla deyil, Türklərin OĞUZ XANI da Göyçədən Turanı idarə edib. Məzarı da Göyçə gölünün kənarındadır. Belə müqəddəs məkan ləkə götürməz.

Şahlar Hacıyev öz təxəyyülü ilə insanları "heyrətləndirməkdə" davam edir!

Nazir Ahmedli: 1724-cü ildə osmanlılar yenidən Çuxursəddi və Göyçəni tutublar. 1735-ci ildə Nadir oraları osmanlılardan geri alıb və Göyçə yenidən dağıntılara məruz qalıb, boşalıb.80 ilə yaxın boş qalıb, orada bir ailə də yaşamayıb. Ruslar İrəvan qalasını almaq üçün 1804-cü və 1808-ci illərdə iki dəfə cəhd ediblər, ala bilməyiblər. Amma onların yenidən qayıdacağını bildikləri üçün İran şahı Fətəli şah Qacar öz təbəələrindən İrəvan Sərdarına verib ki, xanlığın müdafiə qüdrətini möhkəmlətsin.

Qarapapqların Göyçəyə gəlişi də bu vaxt, yəni 1814-cü ildə baş verib. Sərdar Göyçədəki qarapapqlardan vergi almırdı, əvəzində, müharibə olacağı halda qarapapaqlar döyüşə 1.000 nəfər süvari döyüşçü çıxartmalı idi. Qarapapqların Göyçədə o vaxtkı sayını yazmırlar, amma 1.000 nəfər döyüşçü çıxartmaq üçün xeyli sayda olmalı idilər. Göyçə qarapapaqlarının başçısı Nağı xan idi. Nağı xan axıra qədər Sərdara sadiq qaldı və İrəvan işğal edildikdən sonra Sərdarla birlikdə İrana getdi. Ruslar onun İrəvan şəhərindəki evini və bağını müsadirə etdilər. Nağı xanın bir neçə arvadı və çoxlu oğul-uşağı olub, onlardan biri, 1831-ci ildə 22 yaşı olan Kazım ağa İrana getməyib və praporşik rütbəsində Göyçənin Rəhman kəndində qeydiyyatdadır. Görünür, 1828-1829-cu illər rus-türk müharibəsində rusların tərəfində türklərə qarşı vuruşub praporşik rütbəsi alıb. Qarapapqlardan fərqli olaraq, Göyçədəki digər müsəlmanlar isə vergidən azad deyildilər.

Niftali Goyceli: Nazir bəy, bunlar kitabınızda var, oxumuşam və başqa mənbələrdə də var... tarixi faktlar öz yerində, bu "kameral" yazılarda bir-birini təkzib edən məqamlar var, növbəti yazımda göstərəcəm...

Nazir Ahmedli: Məni tənqidinizdə də sizə uğur arzulayıram, təkcə xahişim odur ki, qərəzli olmayın, missiya yerinə yetirir və s. böhtandan başqa bir şey deyil.

Niftali Goyceli: Nazir bəy, "missiya" məqsədli hərəkətdir, burada nə var ki? Sizin də məqsədiniz tarixi, dediyiniz kimi düzgün bərpa etməkdir...Mənim də "missiyam" Ustadlar haqqında yazılmış tarixi müdafiə etməkdir...

Nazir Ahmedli: 1831-ci ildə Göyçədə cəmi 577 qarapapaq ailəsi qalmışdı, aydındır ki, Nağı xanla İrana gedənlər də olub, yazırlar ki, qarapapaqlardan xeyli sonra (ili göstərilmir) Gərnibasar mahalından millilər də buraya gəlib.

1831-ci ildə Göyçənin 59 kəndində yaşayış var idi, 67 kəndi boş idi. Sonra boş kəndlər yavaş-yavaş məskunlaşmağa başladı, bir kənddə əhali artanda bir qrup adam boş kəndə köçürdü ki, torpağı çox olsun, yaxşı yaşasın. Məsələn, İnəkdağı kəndi belə yaranıb. Bir xeyli adam Zod kəndindən ayrılıb oranı

məskunlaşdırıblar. O kənddən bu kəndə, bu kənddən o kəndə köçənlər çox idi.

1831-ci Ağkilsə və Qızılvənk kəndi boş idi, heç kim yaşamırdı. Buraya başqa kəndlərdən gəlib məskunlaşdırdılar. Məsələn, Ağkilsə kəndinə Dərəçiçək mahalının Ulaşıq kəndindən gələnlər də var idi. Qızılvənk kəndinə isə Yarpızlıdan xeyli adam gəlmişdi və Alının qayınatası Niftalı da onlardan biri idi. Onun qardaşı isə Yarpızlının kəndxudası idi. Kərkibaşı kəndini isə 1831-ci ildə Daşkənd kəndində yaşayan 13 kərkibaşı ailəsi yaratmışdır. Çox güman ki, onlar da hansısa boş kəndə yığışıb oranı məskunlaşdırıblar.

Hörmətli, Niftalı bəy, tarix elminin, dövlət sənədlərinin dediyi və mənim bildiyim faktlar bunlardır. Bunları qəbul etməyib, təkzib edə bilərsiniz. Amma filankəs belə dedi, filankəsin atası belə söylədi, ifadəmə görə üzr istəyirəm, tarix elmi üçün gülməli ifadədir. Belə şeylər ancaq bədii əsərdə, memuar janrında yazıla bilər və yazılmalıdır da, o da lazımdır. Amma bu cür yazıları tarix kimi təqdim etmək olmaz, ***tarix ancaq arxiv sənədləri ilə yazılır.*** Bunu istənilən tarixçi sizə deyəcək. ***Əgər mənim tarix elminə, arxiv sənədlərinə əsaslanıb yazdıqlarımı təkzib etmək istəyirsinizsə, mütləq siz də arxiv sənədlərinə əsaslanmalısınız.*** Bu işin alternativi yoxdur!! Mən sizə bu işdə ancaq uğur arzulaya bilərəm və yazacağınız əsərin oxucusu olaraq səbirsizliklə gözləyirəm!!

Niftali Goyceli: Zori Balayan da "tarixlərə" istinad etmişdir, "Erebuni"də arxeologiyaya, heraldikakaya əsaslanırdı... "arxiv" də ağız araşdırması ilə tərtib olunur... Bir kəndə gedib sorğu-sualla nəsə yazıb, atırsan arxivə və olur arxiv materialı. Yalan da ola bilər...Erməni arxivi bizim üçün dövlət sənədi ola bilməz...

Niftalı Göyçəlinin "ölməz kəşfi": "'arxiv" də ağız araşdırması ilə tərtib olunur..."

Bu adamın arxiv sənədləri haqqındakı təsəvvürü mağara insanının düşüncəsi səviyyəsindədir...

Nazir Ahmedli: Mən mənfur Balayanın tarixə istinad etdiyini düşünmürəm. Yazdığı bədnam "Ocaq" romanını oxumamışam, amma bilirəm ki, bizim xalqa qarşı uydurulmuş ideoloji və düşmənçiliklə yazılmış romandır. Bədii əsər olan romanı tarix saymaq olmaz!

Son olaraq yaş məsələsinə də aydınlıq gətirirəm. Qadınlar və uşaqlar vergidən azad idi, ancaq 15 yaşına çatmış oğlan uşaqlarından və yuxarı yaşı olan kişilərdən vergi alınırdı. "Başpulu" deyilən bu vergi gümüş pulla 1 rubl 20 qəp, indikli pulla təqribən 120 AZN!! Ona görə də ***heç bir məmur oğlan uşağının yaşını kiçik yazmazdı ki, dövlətin vergisi itməsin,*** saxtakarlıq etsəydi, daha böyük yazardı, Heç bunu da etmirdilər. Beləliklə, rus məmuru nə adamların sayını az göstərməyə, nə də yaşını kiçiltməyə meylli ola bilməzdi!!

Niftali Goyceli: Nazir bəy, bunlar hamsı kitabınızda var...

Niftalı Göyçəli ikinci dəfədir mənə cavab olaraq yazır ki, bunların hamısı kitabınızda var. Adam, varsa, öyrən, daha nə höcət edirsən?

Nazir Əhmədli: Bunları təkcə Sizin üçün yazmadım, Nİftalı bəy, bəzi adamlar kitabı hələ oxumayıb, ona görə də ətraflı yazdım..

Murvet Yusifov: Buna kim qarantiya verir ki, erməni rus əlində olan sənədlər dəyişdirilməyib. Hələ qardaş ölkələr birliyi adlanan SSRİ statistik sənədlərində hər şey ermənilərin xeyrinə yazılırdı.Niftalı müəllim, mən anlaya bilmirəm siz kameral təsvir deyilən sənədi müzakirə edirsiniz? Axı bu araşdırmaçı hansı zərurətdən mübahisəsiz bir məsələni-Ustadların doğum tarixini araşdırmaq fikrinə düşüb?

Nazir Ahmedli: Əvvəla, ak.N.Cəfərovun və rəyçi Ə.Şamilin yazdıqları ön sözdən də görünür ki, ***ustadların yaş məsələsi mənə qədər mübahisəsiz deyildi*** və hörmətli akademikimiz onları ***"qələti-məşhur"*** adlandırır. İkinci suala da

kitabda cavab vermişəm: Göyçə mahalının kameral təsvirini çapa hazırlayanda gördüm ki, doğum tarixləri çox yanlışdır. Və məsələ təkcə Ələsgərdə də deyildi, gördüm ki, bütün sənətkarlarımızın doğum tarixləri uydurma rəqəmlərdir. Nizami müəllim demiş, "qələti-məşhurları" düzəldən kitabım da belə meydana çıxdı. Düşünürəm ki, cavabını israrla istədiyiniz sualınıza cavab verdim.

Murvet Yusifov: Akademik Nizami müəllim Cəfərovun bu ifadəni işlətməsi məndə şübhə doğurur. Bu ifadənin harada və nə vaxt işlənməsi çox maraqlıdı

Nazir Ahmedli: Səh.3. "Həqiqətin ardınca, yaxud elmi redaktordan" "Etiraf edək ki, Azərbaycan söz sənətinin dühalarında Aşıq Ələsgərin həyatı, xüsusilə 22 mart 1821-ci ildə... anadan olması ...vaxtaşırı müəyyən mübahisələrin mövzusu olmuşdu" Səh. 4-5: "Fikrimizcə, Nazir Əhmədlinin elmi dövriyyəyə daxil etdiyi yeni tarixi sənədlər, materiallar mövcud yanlışlıqlara son qoyur, "qələti-məşhurları" təkzib edir" .

Murvet Yusifov: Bu yanaşma özü qərəzlidi. Hamıya məlumdu ki, mübahisə yaratmağa cəhd edənlər hara xidmət edənlər olub. Bu gün söhbəti yeniləmək bənzər olaydı.

Ali Shamil: Hörmətli Nazir bəy, bu gün bir tanışım sizin yazılara baxmağı məsləhət gördü. Baxdım və təəssüf hissi keçirdim.(Əslində sizin yazıları toplayıb mənə göndərmişdi). Anlaya bilmirəm nədən vaxtınızı belə izahlara, cavablara sərf edirsiniz? Bu sizə və millətə nə verəcək? Vaxtınızı belə boş-boş şeylərə sərf etməyin.

Nazir Ahmedli: Tamamilə haqlısınız, Əli müəllim! Səhvimi etiraf edirəm. Məni hədələmək məsələsi olmasaydı, məsələni demək olar ki, qapatmışdım. Amma məni provakasiyaya çəkdilər və nə qədər qiymətli vaxtımı itirdim. Keçin günahımdan, hocam! Sabahdan İrəvan dəftəri üzərindəki işimi davam etdirməyə söz verirəm!

Ali Shamil: Sənə kim deyirdi provokasiyaya gedəsən? İşinlə məşğul olmayıb yazışmanı davam etdirsən məcburam bir xaker tapıb sizin fasoobok səhifənizə də telefonunuza da blok qoyduram

Perviz Semedov: Əzizlərim, burada mübahisə edənlərin əksəriyyətini vətənpərvər, millətini sevənlər olaraq tanımışam. Təəssüf ki, Nazir Ahmedlinin yuxarıda vermiş olduğu saytdan kitabı açıb oxumaq mümkün olmadı.

Nazir Ahmedli: Pərviz müəllim, mən kitabımı Sizə bağışlaya bilərəm. Mənbəyə gəlincə, onlar erməni mənbəyi deyil. Rusiya İmperiyasının dövlət qurumlarının tərtib etdiyi rəsmi dövlət sənədləridir. 1831-ci ildə və sonralar tərtib olunub.

Perviz Semedov Təşəkkür edirəm, məmnun olaram. Sizin fəaliyyətiniz, (Baş redaktor olduğunuz zamandan) həmişə tərəfimdən izlənilib. İnşallah bu mübahisə xoş sonluqla başa çatar.

Qabil Asirov: qarapapaq millət adıdır ya tayfa?

Nazir Ahmedli: qarapapaqlar türk tayfalarından birinin adıdır.

Qabil Asirov: bu məsələ mənim üçün önəmlidi zəhmət olmasa inboxa baxın

Ebulfez Guliyev: çox təəssüf ki Azərbaycan türklərini səhv olaraq parçalayırlar. sünnüləri tərəkəmə, qapapaq adlandırırlar. Rəhmətlik Taşlıova özü mənə deyirdi ki, biz azeri türküyük, Semed Vurğunun nəslindənik. Amma oğlu Mete yazır ki, mən tərəkəmə xalqının nümayəndəsiyəm

Nazir Ahmedli: Tərəkəmə və ya onun sinonimi olan qarapapaq adlı xalq yoxdur və ola bilməz. Onlar Azərbaycan xalqının etnogenezində önəmli rol oyayan türk tayfalarından biridir. Onların ayrı xalq olması üçün ən azı dilləri bizdən fərqlənməlidir. Fərqlənirmi? Əlbəttə yox. Ona görə də sarsaq söhbətdir, xalqı xırdalamaq üçün düşmən dəyirmanına su tökməkdir!

Murvet Yusifov: Deməli bunların facebook səhifəmizi qapatmaq imkanları da var. Pərviz bəy, bir neçə dəfə yazmışam. Ola bilər oxumamısan. Bir daha qeyd edirəm. Bu kitabın ümummilli mənafeyimizə zərbə vurduğu, düşmən dəyirmanına su tökdüyünü görmək üçün tarixçi, akademik olmaq gərəkli deyil.

Niftali Goyceli: Nazir bəy, burada bir məqamı da tapmışam: "Sankt-Peterburq sənədləri"-arxivi, Ermitaj,

xəritəşünaslıq sahələri, mədəniyyət, erməni Lavrovun başçılığı ilə Rusiya xarici diplomatiyası, təhlükəsizlik üzrə "alfa qrupu" ...1980-ci illərdən milliyətcə erməni olanların-"yants","yan", bəzən də dəyişmiş"ov, yev"lərin əllərindədir...sizə ötürdükləri məlumatda belə bir düzəliş: 1842 -ci il tarixində "42" rəqəmini "73" eləmək sadə bir şeydir və olur 1873, Aşıq Ələskərin doğum tarixi də 1821-ci il yox, 1952-ci il olur...qalan məsələlər haqqında yeni yazımda məlumat göstərəcəm...

Niftalı Göyçəlinin bütün bu həmlələri, uydurmaları, sərsəmləmələri Servantesin məşhur Don Kixot obrazını, yel dəyirmanını düşmən cəngavər bilib ona hücum etməsini xatırladır. Yavəri öz ağasına deyir, bu yel dəyirmanıdır, Don Kixot etiraz edir: Sanço, sən qəhrəman deyilsən, ona görə sənin gözünə elə görünür!

Niftalı Göyçəlinin statusu

17 iyun 2017.

Nazir Əhmədlinin "HAQQ- NAHAQQ SEÇİLƏR HAQQ DİVANINDA" KİTABI VƏ MİSSİYASI

"Ön söz"dən başlayaq. NİZAMİ CƏFƏROV, akademik: "Haqq-nahaqq seçilər haqq divanında" kitabı ...tarixi sənədlərə əsaslanaraq indiyə qədər çox hallarda dəlilsiz-sübutsuz istinad edilmiş, fərqinə varmadan... (tarix yazanları) bir sıra "qələti-məşhur"ları müzakirə obyektinə çevirir"...

Yəni ki, Nazir Əhmədliyə qədər olan alim və tədqiqatçılarımız-məşhurlarımız "qələt eləyiblər, tarixi səhv yazıblar"...Nizami müəllim heç olmasa, "yanlış edənlər" yazsaydı, belə sərt alınmazdı... 1930-cu illərdən başlayaraq Azərbaycan ziyalıları, alimləri elmi ekspedisiyalar tərkibində, ayrılıqda Aşıq

Allahverdinin (1754-1860), Aşıq Alının(1800-1911), Aşıq Ələskərin(1821-1926) həyat və yaradıcılıqlarını tədqiq edib, əsərlər yazmışlar. Azərbaycan dövlətinin sərəncamı ilə yubleyləri keçirilmişdir. 1999-cu ildə son böyük həcmli "MİN BEŞ YÜZ İLİN OĞUZ ŞEİRİ" kitabında, şeir mətnlərinin, müəllif və əsərlər haqqında məlumatların, lüğətin tərtibçisi, ön və son sözlərin müəllifi AzYB-nin sədri ANAR olan 910 səhifəlik antologiyada da Aşıq Allahverdinin(1754-1860), Aşıq Alının(1800-1911), Aşıq Ələskərin(1821-1926) həyat və yaradıcılıqları haqqında məlumatlar verilmişdir...Belə çıxır ki, burada da hörmətli akademikimizin təbiri ilə desək: "qələti-məşhur"luq olmuşdur. Əvvəldən qeyd edim ki, Nazir Əhmədli "kameral" istinadlarının-"dəlillərinin" hamısını belə yazır: "Ermənistan Milli Arxivi" yəni ki, 1990-cı ildən sonra düşmən arxivinə hansı yolla müraciət edə bilmişdir? Əgər məlumat vermişsələr də, erməni saxtkalığı dünyada məşhur olmaqla, onlar "türkə" hansı həqiqəti ötürmüşlər? İndi keçək kirabın mövzusuna. Kitabda əsasən Aşıq Allahverdinin, Aşıq Alının, Aşıq Ələskərin doğum və ölüm tarixləri "araşdırılır". Göstərilir ki, 1831-ci ildə Ağkilsə kəndində heç kim yaşamırdı (səh.22)... Bu formada da Qızılvənk kəndini qeyd edir. Eldar İsmayıl və Gündüz Əhmədov: "QƏRBİ AZƏRBAYCAN, GÖYÇƏ-ERMƏNİ İŞĞALI" kitabındakı istinadda: "Dəftəri- sicili-livayi-Rəvan" 1603-cü il.İstanbul, 1603-cü il: AĞKİLSƏ kəndi- 7.325 ağça(vergi), QIZILDAŞ(Qızılvənk) KƏNDİ -3590 ağça(vergi). N.Əhmədli qeyd edir ki, (səh. 28)1831, 1842, 1852, 1859, 1873-cü illərdəki "kameral" yazılarda Aşıq Ələskərin adını tapa bilməyib, nəhayət (2016-cı ildə)1873-cü ildəki "kameral"da tapıb və Ələskərin haqqında "məlumat" əldə edib, doğum tarixinin 1852-ci il oluğunu öyrənib və necə? - Ermənistanla müharibə şəraitində (dediyinə görə onun dostları var) "dostlar" doğru məlumatmı ötürüblər?

Bu cür ağ yalan danışmaq üçün insan nə qədər həyasız olmalıdır!! Mən heç vaxt elə söz deməmişəm.

Nazir bəy sual verir ki, Ələskərin yaşının azaldılması onun dahiliyinə nə ziyan vurur?.. Nazir bəy, kitabda göstərirsiz ki, Ələskər Səhnəbanıdan(18 yaşlarında) aralanandan sonra "Zöhrə, Paşa" adlarında olanlar 2-3 yaşlarında olub və onlar Ələskərlə Səhnəbanı arasında söz aparb-gətirə bilməzdilər, deməli tarixi bir dastanı yalan, uydurma adlandırırsız.

Burada da yalan danışır. Zöhrənin yaşı məlum olmadığına görə, onun söz aparıb-gətirə biləcəyini nə təsdiq. nə də inkar etmək mümkün deyil."Ələısgərlə Səhnəbanı" dastanında Zöhrə Ələsgərin əmisi qızı kimi təqdim olunur, amma atasının adı çəıkilmir. Mən sual verirəm ki. Zöhrə Ələsgərin hansı əmisinin qızıdır. Zöhrənin atası kimdir? Sonra əlavə edirəm ki, dastan müəllifləri Ələsgərin əmisi Allahverdini, yəni Zöhrənin atasını Ələsgərə baba edəndə, yəqin bu barədə düşünməyiblər.

Bundan əlavə, yazırsız ki, Ələskərin Səhnəbanıya olan məhəbbəti qarşılıqlı olmayıb, Səhnəbanı Ələskəri sevməyib və s. Bu qənaətə necə gəlmisiz?-aydın deyil**.**

Yenə düz danışmır. Dastanda Ələsgərin Səhnəbanıya həsr etdiyi şeirlərin hamısını nümunə gətitrib əlavə edirəm ki, həmin 8 şeirin bir misrasında da Səhnəbanının ona ilqar verdiyi, əhd-peyman bağladığı qeyd edilməyib. Amma bununla belə, onların arasında hər hansı bir qarşılıqlı məhəbbətin ola biləcəyini də istisna etməmişəm.

Aşıq Ələskərin "Səksəndən, doxsandan keçibdir yaşım" misrasını da "ritorik"-mübaliğə adlandırırsız, eləcə də Aşıq alının "Doxsanı ötürdüm, yüzə nə qaldı" misralarını "uydurma" hesab edirsiz, nə əsasla?

Niftalı Göyçəli ustad aşıqlara aid edilən həmin misralarda da kobud təhriflərə yol vermişdir.

–hardasa “kameralda” “Alı” adına uyğun “Almədət” adı tapıb deyirsiz ki, Aşıq Alının adı Almədətdir...Bəs onda Alının şeirlərində möhürbənddə: “Aşıq Alı sənə qurban” əvəzində “Aşıq Almədət sənə qurban” niyə yazmır, yazsa, heca düz gəlmir? – Bəlkə belə demək istəyirsiz? Aşıq Ələskərin oğlu Aşıq Talıbın (1877-1979) ömür tarixinə əsasən oğulla ata arasında 56 il fərqə şübhə edirsiz ... Bizim Göyçə mahalında -Dərə kəndində (bunu kənd sakinləri də təsdiq edərlər) Ənzəli baba 67 yaşında ikinci dəfə evləndi və 55 yaşında həyat yoldaşından iki uşağı oldu, burada təəccüblü nə var ki?..

(davamı var...)

Məcid Namazov: yaşa niftali muellim!... butun faktlari ile heqiqeti subut erirsiniz!... cavab versin gorek nece cavab verecek?

Rehman Hesenov: Sag ol Niftali muellim!! Heqiqet delillerle subut olunur ve heyatin guzgusudur.

Maarifçi Qadınlar: Hele Niftalı müellim delil ortaya qoymayıb. Ortada söz güləşdirmek var.

Niftali Goyceli Hansı söz güləşdirmə, mən orada səhifələri də qeyd edirəm və Nazir bəyin kursivlərini də göstərirəm...Aşıq Alının "Əllini ötürdüm, yüzə nə qaldə" misrası üzərində hələ 70-ci illərdə mübahisə vardı. Mənim atam Aşıq Xanbuta Hüseyn Ariflə bu barədə söhbət ediblər, cavab belə olub ki, daha belə yayılıb, nə mənası var...Amma orijinalda belədir və atam da belə oxuyurdu: "Gəşt eylədim, bu dünyanı dolandım, doxsanı ötürdüm, yüzə nə qaldı, Ayaq getdi, əl gətirdi diş yedi, baxmaqdan savayı gözə nə qaldı". Elə bir ustad sənətkar məntiqsiz söz deməz ki, "əllini ötürdüm yüzə nə qaldı" bir zaman məsafəsinə də fikir verin...Bir yazıya fikir verin, müəllifin bütün cəhdləri Göyçənin məşhürlarının yaşına yönəlib. yazımda da şərhini verirəm və davamını da izləsənin çox mətləblərdən agah olacaqsız...Allahın nəzərində olasız!

Niftalı Göyçəli öz dediklərindən həvəslənib əndazəni aşır, guya atası Aşıq Xanbutanın Hüseyn Arifin "səhvini" düzəltdiyini və məşhur xalq şairinin də ona etiraz etmədiyini uydurur, üstəlik Aşıq Alının "Əllini aşırdım, yüzə nə qaldı?" dediyinin məntiqsiz olduğunu uydurur, bu da azmış kimi, Aşıq Alını da təhrif edir,"Əllini ötürdüm, yüzə nə qaldı?" yazır. Yəni Aşıq Alını da "redaktə edir".

Demişdik axı, hər şey onun gözünə başqa cür görünür!

Maarifçi Qadınlar: Menim ücün Aşıq Alının yaşı deyil, yaradıcılığı maraqlıdı. Mübahise etmediyimi de demişem.Amma bir az derine gederek düşünürem ki, bizi ehate eden aleme nezer salanda telefon, bilgisayar, her gün istifade etdiyimiz meişet texnikası,kosmosun fethi, daha ne bilim neler, hec birininin yranmasında azerbaycanlı başı yoxdur.Fikirleşirsen ki, başlarını bele şeylere işledibler. Ele indi de belə davam edir.

Niftali Goyceli: Şərqiyə xanım, siz o tərəfi nahaqq olsa da, müdafiə edəcəksiz...Azərbaycan alimlərini yaxşı araşdırsanız, bizim texniki elmlər sahəsində keçmişdə də, indi də dünya səviyyəli ziyalılarımız var, fəqət qabağa çıxanlara qarayaxmalar bizi geri salır...Mən növbəti yazımda Nazir bəyin Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələskərin nəyə görə yaşlarını və Göyçə "kameralını" belə canfəşanlıqla yazmasını da şərh edəcəyəm...

Elə, Niftalı Göyçəli, elə! Sən axı hər şeyi başqa cür görürsən!

Maarifçi Qadınlar: Men qeyd etdiyim eşiyaların hec birinde azerbaycanlı izi yoxdur dedim. Yene ümumi sözler.

Maarifçi Qadınlar: Mence Aşıq Alı "Əllini aşırdım, yüze ne qaldı?" deyir.

Aqşin Hacı Zadə: Maarifçi xanın, ad böyük hərflə yazılır. O da ola böyük bir ustadın adı. 1801-ci ildə anadan olmuş, Qızılvəngli aşıq Alının adı.

Niftali Goyceli: Şərqiyə xanım, deyirsiz ki, Aşıq Alının yaradıcılığı maraqlıdır. Aşıq Alı deyir: "Kəm baxma ustad yoluna, Pir ilə işin nədir!", "Hər yuvaya əl uzatma, şahmar vurar əlindən, sən ovsunçu deyilsən, mar ilə işin nədir?"...

Maarifçi Qadınlar: Men hec bilmirdim ad böyük yazılır, ne yaxşı dedin.

Maarifçi Qadınlar: Allah sene ağıl versin. Ey adın böyük yazıldığını "keşf eden" "dahi". Ne yaxşı ki dedin! Yoxsa bütün imlalarda adları sehv yazardım.

Tahir Hüseynov: Dialoqdan anladiğimiza görə bir neçə nəfər bir yerdə Niftali müəllimin tərəfindəyik.Çünki Niftali müəllim qərəzsiz və faktlarla danişir.

Maarifçi Qadınlar: Tahir Hüseynov kimsenin terefinde olmaqdansa haqqın terefinde olub doğru olanları söylemek lazımdı. Esebi, emosional adamlar yalanı perdelemeye can atanlardı

Anasız cocuğa daye gerekdir,
Şaire ilhamdan maya gerekdir,
Şairem ,söyleyir yerinden duran
Adamın üzünde heya gerekdir.
(Mikayıl Müşfiq)

Maarifçi Qadınlar: İndi qarşımdakının kim olduğunu bildim,cenab Moşu bey!

Maarifçi Qadınlar: Rafael Hebiboglu, burada telefonla yazıram. Sen hec olmasa "o genişmiqyaslı " görüşünde başının üstündeki lövhedeki sehvleri düzeldeydin. Düzdü , ona yeqin ki, o beş - altı neferden ve senden başqa baxan yoxdu, amma yene olsun, ayıb olub. Ele biabırcı sehvleri vidioda qoymaq. Xatırladım ki, Naxcıvandan Moşu cıxmayıb. Mirzə Celil, H. Cavid, Y.Memmedeliyev, M. Araz və s.

Sözün sözü pozmağı var,
Qayalara yazmağı var,
Deve kimi qızmağı var,

Sözle zarafat eyleme.

Kelle – paca, hereden bir az qatıb adını şair qoyan. O "kitabı"- nı da bazara cıxartma, dağıt görüşüne gelenlere. Zaten oradan uzağa gedesi bir zad deyil.

Niftali Goyceli: Şərqiyyə xanım, mənim yazımda istinad etdiyim məqamlar Nazir bəyin yazdıqlarıdır və məqsədim Göyçə mahalının ustadlarını müdafə etmək və onların adlarına hər-hansı qondarmaları qəbul etməməkdir...İndi Nazir bəylə mədəni qaydada "döyüşürük", Allah haqqın tərəfində olsun!..

Don Kixot "döyüşür"!

Maarifçi Qadınlar: Elbette her şey ziyalılıq cercivesinde olmalıdır.

Maarifçi Qadınlar: Esebleşmeden her kes elmi delillerle öz faktlarını ortaya qoysun.

Nazir Ahmedli: İnsanlar haqsız olanda əsəbləşirlər. Şərqiyyə xanım!

Niftali Goyceli Bəli, mən ancaq müəllifin öz yazdığı ziddiyyətli faktları mədəni formada özünə çatdırıram...

Ramil Beyler: Halal olsun ustad. Həqiqəti üzə çıxarmaq sizin kimi dahilərin işidi təbii ki. Allah razı olsun...

Yəqin Ramil Bəylər də onun adyutantı Sanço Pansadır ki, öz "cəngavəri" Niftalı Göyçəlini nə az, nə çox-"dahi" adlandırır! Onların dedikləri N.Göyçəlinin ağlına batdı və sonradan haqqında bəhs edəcəyim "Göyçə ustadları" adında bir almanax çıxardanda, özünü də həmin kitaba salıb bəyan edir ki. Göyçənin sonuncu ustadı odur!

Mənim kitabım Niftalı Göyçəlinin işinə yaman yaradı. Heç kimin tanımadığı bu adam xeyli tanındı, hətta "dahi" səviyyəsinə qalxdı!

Flora Mikayilova: Nece illerdir ki, ermeni saxtalasdirmalarindan danisilir. Ermeni arxivlerini Quran ayesi kimi teqdim edenleri de ...gorduk. Bir seyi tarixden azca xeberi olan her kes bilir Rusiya isgallari zamani muqavimet gosteren kendlerimiz yandirilmis, ehalisi mehv edilmisdi. Mudafiesiz qalan bezi kendlerin ehalisi qacmisdi. Ekseri Irana 've Osmanliya kendler muveqqeti bos qala bilerdi Bəzi kendlerin ehalisi qayidib, bezisi yox Hemen kendlere de ermeniler 've yezdi kurdler kocurulub Rusiya xristian teessubkesliyi aparirdi 've Qafqaz isgallarini" xristianlari muselman zulmunden azad etmek missiyasi" adlandirib. Ermeniler hemen erazilere gelmediler.Gelme ermeniler 've isgalci ruslar esl tarixi "qeletsiz" yazmayacaqdilar her halda onlarin menbelerine istinad etmek ozu de "qelet elemek" sayila biler

Zaur Ilhamoglu: Maraqlı məlumat oldu.Çox sağ olun!

Бабек Абушов:Mən anlaya bilmirəm Azərbaycan tarixini təhrif etməklə, hətta saxtalaşdırmaqla, Azərbaycanın şəxsiyyət-lərinə qara yaxmaqla bəzi "ziyalılar" nə demək istəyirlər? Həqiqət ona tərs baxanların üzünə tüpürənə qədər sakitləşə bilməz. Bu "ziyalılar" üzü tüpürcəkli yaşamaqdan qorxmurlar ki?

Aydın Murovdağlı: ulu yaradan gül-çiçəkdən bal çəkməyi kəpənəyə deyil, bal arisina tapşirib."Öləsgərəm, hər elmdən haliyam"-deyən dahini səriştəsizlər tədqiq edə bilməz!

Kamandar Zeynalov: Allah Sizi qorusun, Niftalı müəllim! Sizə bu yolda uğurlar diləyirəm. Həqiqətin qarşısında duruş gətirə bilməyən yalan və iftiralar onsuz da həmişə olub, var və olacaq. Həqiqət isə nazilsə də üzülməz. Türk, azəri və oğuz tarixinə ləkə vurub, təhrif edənlərə isə ar olsun. Sizə sağlam ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Macid Namazov: men hamini salamlayiram! menim sozum -maarifci qadinlaradir! cox yerinde işledirsiz ki, hec bir texnikanin yaradilmasinda azerbaycanli başi yoxdur!

Qeys Hesenov: Yaşa Niftalı müəllim.Nizami müəllim dilci alim olsa da , dilcilikdən uzaqdır, sadə primitif sözləri təhlil

edərkən cox müşahidə eləmişəm. Qələt sozü isə elə səhv demək, deməkdir, ərəbcə.

Ebulfet Adil Oglu: Var olun Niftali müəllim, tutarlı faktlar ortaya qoyursunuz.

Zafar Aliyev: Məncə, Nazir Əhmədli o arxiv sənədlərinin surətini geniş publikaya təqdim etsə, bütün spekulyasiyalara son qoyular, tarixi faktlar haqqında emosional mülahizələrə yer qalmaz. Doğrudan da onun təqdim etdikləri tarixi sənədlərdirsə, nə qədər də istəməsək belə faktları qəbul etmək zorundayıq. Sterotipləri sındırmaq həmişə müqavimətlə qarşılaşır.

Mən Z.Əliyevin dediklərini nəzərə alıb həmin sənədlərin surətini fb-də paylaşdım, amma N.Göyçəli onların üstündə Fotoşopla dəyişikliklər edib məzə çıxartdı.

Niftali Goyceli: Zəfər bəy, "Sankt-Peterburq sənədləri"-arxivi, Ermitaj, xəritəşünaslıq sahələri, mədəniyyət, erməni Lavrovun başçılığı ilə Rusiya xarici diplomatiyası, təhlükəsizlik üzrə "alfa qrupu" ...1980-ci illərdən milliyətcə erməni olanların-"yants","yan", bəzən də dəyişmiş"ov, yev"lərin əllərindədir...Nazir bəyə ötürdükləri məlumatda belə bir düzəliş: 1842 -ci il tarixində "42" rəqəmini "73" eləmək sadə bir şeydir və olur 1873, Aşıq Ələskərin doğum tarixi də 1821-ci il yox, 1952-ci il olur...qalan məsələlər haqqında yeni yazımda məlumat göstərəcəm...

Niftalı Göyçəli tutuquşu kimi əzbərlədiyi rabitəsiz və mənasız sözləri yorulmadan ifraz edir..

Zafar Aliyev: Amma 1831 il yazılmış senedin nə qədər qabağa çəkilməsi ehtimalı var, uzağı 3 il, yəni 1828-ci ildən qabaq ola bilməz. 1842-ci il də eynən.

Niftali Goyceli: Mən də siz deyəni deyirəm ki, 1831-ci ili saxtalaşdırıb 1873-ci il eləmək olar və bu da 1828-ci ildən sonradır...Nazir Əhmədli yazır ki, Aşıq Ələskər 1852-ci ildə

anadan olub..."Ermənistan Milli Arxiv" kameral yazısı 1873-cü ildə Ələsgərin 21 yaşında olduğunu göstərir...

Zafar Aliyev: Bəs onda hansı ili saxtalaşdırıb 1831-ci il (1842) eləmək olar?

Niftali Goyceli: Drezdendə 4000 illik heroqlifi saxtalaşdıran erməni hər şey edər...

Niftali Goyceli: Şəxsiyyətini yaxşı tanımıram, əsərini oxuyub Göyçə və Göyçə ustadlarına qərəzini gördüm...

Niftali Goyceli: FB-də "Nazir Ahmedli" yazın, səhifəsində kitabın üz qabığının şəkili var...

Kim hansı arqumenti gətirir, gətirsin. Don Kixotu fikrindən daşındıra bilmək gücündə deyil. "Cəngavərimiz" onlara etiraz edib deyir ki, bu yel dəyirmanı deyil, çox məkrli düşmən olduğuna görə cildini dəyişib ki, insanlar onu tanımasın. Mən isə tanıyıram.

Don Kixotun yel dəyirmanına hücumunun nə ilə nəticələndiyini, güman edirəm hörmətli oxucularımız bilir...

Niftalı Göyçəlinin statusu

21iyun 2017.

Dünən - 20. 06. 2017 – ci il tarixində Aşıq Ələsgərin nəticəsi Xətai bəylə görüşümüz oldu və onunla Nazir Əhmədlinin "HAQQ- NAHAQQ SEÇİLƏR HAQQ DİVANINDA" KİTABI VƏ MİSSİYASI ilə əlaqədar söhbət etdik. Kitabda göstərildiyi kimi, guya Aşıq Allahverdinin, Aşıq Alının, Aşıq Ələsgərin doğum və ölüm tarixləri-100 il yaşaması tarixləri indiyə qədər yalan, şişirdilmə rəqəmlərlə göstərilib... Mən Xətai bəyə söylədim ki, iki ay müddətində kitabın müəllifi ilə sosial şəbəkədə yazışmalar aparırıq, onun istinad etdiyi (əgər doğrudursa) "Ermənistan Milli Arxivi" adlandırdığı mənbə qərəzçilik

olduğunu bildiririk və 70-80 il Azərbaycan elm mərkəzlərinin, ayrı-ayrı tarixi tədqiqatçıların, eyni zamanda əldə edilən Azərbaycan dövlət sənədlərinin əleyhinə fəaliyyətinin ya bilərəkdən, ya da bilməyərəkdən olduğunu deyirik. Bir yazımda da müəllifə bildirmişəm:

Hələ İkinci Dünya müharibəsindən sonra Həzi Aslanovun qatili Marşal Baqramyan "Sovet Hərb Tarixi" rəisi işləyərkən yalandan 32 erməni generalı və müharibə qəhrəmanları "yaratdı".

N.Göyçəli tarixə düşəcək yeni "termin" "yaradır": "Sovet Hərb Tarixi" rəisi! Həm də yazır ki, "Marşal Baqramyan yalandan 32 erməni generalı yaratdı". Olmayan generalı Baqramyan necə yarada bilər?-sualına gərək N.Göyçəli cavab versin, çünki heç kim onun bu "dərin" siyasi "düşüncələrini" açа bilməz

Sovet dövründən "Sankt-Peterburq Arxivi", Ermitaj, xəritəşünaslıq sahələri, mədəniyyət, erməni Lavrovun başçılığı ilə Rusiya xarici diplomatiyası, təhlükəsizlik üzrə "alfa qrupu" ...1980-ci illərdən milliyətcə erməni olanların-"yants","yan", bəzən də dəyişmiş "ov, yev"lərin əllərindədir... ötürdükləri məlumatda (Nazir bəy düz deyirsə) belə bir düzəliş: 1831 -ci il tarixində "31" rəqəmini "73" eləmək sadə bir şeydir və olur 1873, Aşıq Ələskərin doğum tarixi də 1821-ci il yox, 1952-ci il olur...buna bənzər erməni yalanları Zori Balayanın "Oçaq-ocaq" əsərində də əks olunmuşdur..Bu məsələ ilə sosial şəbəkədə Nazir Əhmədliyə kəskin etirazlarını bildirən görkəmli şair-publisist ***Eldar İsmayıl Böyüktürk, tanınmış jurnalist Mürvət Yusifov, Göyçə ziyalılarından Musayev Sahib və "Aşıq Alı" kitabının müəllifi, tədqiqtçı jurnalist Qabil Zimistanoğlu və s. ziyalılarla görüşüb, söhbət edib, onların da etirazları əsasında 4 elmi idarəyə müracit məktubu hazırlayıb Xətai bəylə ünvanlara payladıq.***

Beləliklə, Niftalı Göyçəli haqqında məlumat verəcəyimiz donosun müəlliflərini ictimaiyyətə təqdim edir: Eldar İsmayıl Böyüktürk, Sahib Musayev, Qabil Zimistanoğlu, Mürvət Yusifov və Niftalı Göyçəli! Qiymətli məlumat üçün mən hətta ona "təşəkkür" də "borcluyam"! Amma onun "4 elmi idarə" dediyi ünvanlardan yalnız biri, AMEA Tarix İnstitutu elmi İdarədir. Qalan ünvanlar-Azərbaycan prezidenti, Nazirlər Kabineti, Milli Məclic, ən əsası isə Dövlət Təhlükəsizlik Xidməti əlbəttə, elmi idarə deyil. Özü də ünvanların sayı 4 yox, 5-dir. Görünür, Niftalı Göyçəli burada da hər şeyi tərs görüb: Tarix İnstitutunu elmi ünvan saymayıb, qalan dördünü elmi ünvan sayıb. Görünür, o fikirdədir ki, adı çəkilən qurumların başçıları elmi tədqiqatla, folklorşünaslıqla məşğul olurlar!

Axı hər şey bu "orijinal" adamın gözünə başqa cür görünür!

Azərbaycan Aşıqlar Birliyinin sədri görkəmli folklorşünas alim Məhərrəm Qasımlının bu təxribat xarakterli kitaba kəskin etirazını öyrəndik. Azərbaycan Folklor İnstitunda kitaba müsbət rəy yazan və həmin elmi məkanda işləyən Əli Şamilovun bir cavabı bizi heyrətə gətirdi: "Mən Nazir Əhmədovun bu kitabından sonra öz doğma babamın kim olduğunu öyrəndim" belə bir rüsvayçı cavabdan sonra dərhal binanı tərk etdik...həmin gün kitabın elmi redaktoru "Atatürk Mədəniyyət Mərkəzi"nin direktoru Nizami müəllimlə görüşdük. və Nizami müəllimlə söhbət əsasında onun da fikirini öyrəndik ki, "Ermənistan Milli Arxivi"ndən, eləcə də Peterburq arxivindən ötürülən məlumatlar erməni yalanları da ola bilər... Qalan iki elmi idarələrin: Az. Folklor İnstutunun və Az.EA Dil - Ədəbiyyat İnstitutunun rəhbərlərinin cavablarını da sabah öyrənəcəyik...

Məni saxtakarlıqda ittiham edən Niftalı Göyçəli nə mənim soyadımı, nə də Atatürk Mərkəzinin adını saxtalaşdırmaqdan da çəkinmir.

Hörmətli Niftalı müəllim, axı mən –ov, –yev soyad sonluğundan qurtarmaq üçün 1990-1991-ci illərdə 9 ay müxtəlif idarələrə ayaq döymüşəm, mənə rəhminiz gəlsin!

Yorumlar:

Nəriman Paşayev: Niftali Goyceli muallim salam. Bunlarln maqsadi nadi naya gora bela yanlışlqlara yol verirlar haqiqatan beladirsa niya muafiq qurumlar qalan ziyallarlmlz susrlar.

Niftali Goyceli: Nəriman bəy, indi siz dedyininiz o məsələlərlə məşğuluq...

Adil Cefakes: Ustada rəhmət. Sizə cansağlığı. Dəyərli qardaşım.

Elchin Ahmedov: ümumiyyetle kecmise gülle atani gelecek top tyfengle garsilar Niftali myellim Asig Elesgerle bagli o kitabda soylanen fikirlere hele kitab cixmamisdan munasibet bildirmisem Kime hagg verilir ki ve ne marag var ki kecmisi tehrif etsinler Bir myddet kitab cixmamisdan gabag fb muzakire aparirdilar .Hetta Goycenin tarixi ile de yanlis melumatlar yazilirdi.1970 ci ilde A.Elesgerin 150 illik yubileyinde 85 90 yasli Agkilse kendinin gocalarindan A ELESGERLE bagli faktlari oyrenmek ycyn mysahibe gotyryrdyler Indi goryn tarixi faktlari hemin tarixi yasayanlar degig bilir yoxsa indiki tedgigatcilar

Ali İsmayıl Aliyev: Salam Niftalı müəllim. Mən anlamadım -Aşıq Ələsgər neçə il ömür sürdü?

Niftali Goyceli: Nazir Əhmədli "erməni mənbələrinə" əsalanıb yazır ki, 74 il yaşayıb...

Ali İsmayıl Aliyev: Bizə lazımdırmı o mənbə. Aşığın 106 il yaşaması faktları var və bu bizi qane edir.

Niftali Goyceli: Qəribə burasındadır ki, ixtisasca kimyaçı və 5-6 il jurnalist fəaliyyətli bir ziyalı qardaşımız tarixi tədqiqat

aparır və erməni mənbələrinə əsaslanan, ya da hansısa təsir altına düşüb tariximizi saxtalaşdırır...buna nə ad verək!..

Nazir Ahmedli: Niftalı bəy, "birisi" yox, heç olmasa "bir nəfər" yaza bilərdiniz. Güman edirəm ki, üslub xətasıdır😀😀😀

Niftali Goyceli: Baş üstə! düzəliş...Bir ziyalı qardaşımız yazdım

Nazir Ahmedli: Təşəkkür edirəm, anlaşdıq!

Goyce Mahali Dere Kendi-Basarkeçər: Bu meseleye ciddi yanasmag lazimdir Goyce Oguz Türklerinin meskeni olub gorkemli ziyalilari ile mehsur olub. Goycenin tarixi etnografiyasi elmi deliller esasinda tedgig olunub tesdigini tapib Bu gyn Asiig Elesgerin Asig Alinin Goyce Tyrklerinin tarixi durumuna saxtakar yanasmalar geti yolverilmezdir. Bu ermenilerin movgeyine uygyndyr Cox teesyf ki Ekrem Elyislilerin sayi artmagdadir Gyman edirem ki bu cyr tedgitatcilarin mekiri acilmali ve kime ve neye xidmet etmeleri askarlanib xalga catdirilmalidir.

Ali İsmayıl Aliyev: Böyük aşığımız neçə yaş yaşamış əslində?

Niftali Goyceli: 1821-1926-cı illər Aşıq Ələsgərin ömür tarixidir...

Memmed Merzili: Niftalı müəllim, çox heyif ki, hələ də bizim bəzi "ziyalılarımız" tariximizə düşmən kəsiliblər.

Ebulfet Adil Oglu: Niftali müəllim var olun, indi o qədər tarixçi (kimyagər), araşdırmaçı jurnalist peyda olub ki, öz ata - babasının adını bilmir, amma tarix yazır, rəy bildirir. Nazir Kimyagərdən soruşun görək kameral sözünün mənası nədir?

Flora Mikayilova: Kitabi oxumamisam. Ancaq muzakireleri izleyirem.

Ciddi elmi arasdirma aparan her kəs bilir ki, ermeni 've rus - çar arxivleri ..cox vaxt Azerbaycanlilarin uzune bagli olub Hetta Sovetler doneminde Rusiyada tehsil almis tarixcilerin o arxivlere girisi cetin idi. Ermenistan arxivine ...Bu muellif nece gire bilib 've ne vaxt ? Buna nece nail olub.Rusiyada ...8 il teqiqat aparib guya ..... He meqsedle? Rusiya çar arxivleri her kes ucun aciq

deyil . Orda islemek ucun mueyyen idarelerden icaze olmalidir . Ozu de .ciddi nezaretle.

Kitabımı oxumadığını deyən Flora Mikayılova ağır ifadələr işlətməkdə davam edir. Halbuki. Kitabı artıq internetdə yerləşdirmişdim və oxumağa meyli olsaydı, oxuya bilərdi. Amma yoox! Bunlarınkı budur! Kitabı oxumadan kitab və onun müəllifi haqqında hər cür fərziyyələr. "nəzəriyyələr" uydurub ittihamlar irəli sürürlər!

Nazir Ahmedli: Flora xanım, orada işləmək indi tam azaddır. Arxivin saytında yazılıb ki, ərizə, 3x4 ölçüdə 2 fotoşəkil və pasportla müraciət etmək kifayətdir. İşləmək fikriniz olsa məsləhət verə bilərəm

Niftali Goyceli: Orada erməni saxtakarlığı ediləndən sonra indi tam azaddır...

Niftali Goyceli: Ən çox istəyirlər ki, azərbaycanlı ziyalıları istifadə edib ziddiyyətli məlumatlar əsasında "bir-birlərini qırsınlar"...

Elchin Ahmedov: Nazir Ahmedli sizin ne maraginiz var ki tarixen tesdig edilmis Oguz yurdu Goyce mahali ve Goyce ziyalilari hagginda yanlis melumatlar yayirsiniz s ve megsediniz nedir Ve sizin Goyceye ne aidiyyatiniz var Goycenin cox deyerli ziyalilari var yegin bu meseleye mynasibet bildirecekler

Murvet Yusifov: Yaxşı sualdı Elçin Əhmədov, "nə marağınız var?". Maraq da, məqsəd də artıq ortadadı. Sənə təşəkkür edirəm.

Flora Mikayilova: Tarix sistemli elmdir Nazir muellim. Siz ele bunu arasdirmaq ucun Moskva arxivlerine getmisdiz? Actual imis! Amerikani bir defe kesf etmisdiler . Ikinci defe de kesfe ehtiyac varmis gorunur. Qerbi Azerbaycan isgal altindadir GOYCE - nin adini da Sevan qoyublar .Indi onu muzakireye cixarmaga ne meqsed var.Car arxivlerine coxlu ermeniler isleyir . Putinin onlara "Size Qafqaza haradan geldiyiniz xatirladan senedler car arxivlerinde var" demesinden sinra ermeniler orda

yangin toretdiler.Bunu hami bilir . Ziyanlarina olan senedleri mehv etdiler. Coxunu da saxtalasdirib cemiyyet teqdim etdiler.Arxivleri de ozleri kimi " muqeddesdir .." ermenilerin .Ehemiyyetli 've naraziliga sebeb olan , qeyri - obyektiv yanasma ile ciddi 've profesional adamlarin arasdirmalarina leke salmanizdir. Mesel var. Eger bir kor devenin ayaqlarina toxunsa, deyecek sűtundur. Beline toxunsa deyecek tepedir Diletantlar da tarixden yazanda hemen veziyyet alinir Eslinde bu kitaba cox ehemiyyet verilmeseydi yaxsi olardi Yaxsi reklam olunur. Qara piar da piardir Adamin damarinda qani donur ki ..babalarimizin sumukleri de ğorunde rahat yata bilmediyi esir ..Goyceni bu cur muzakire obyektine cevirdiz .

Niftali Goyceli: Flora xanım, nə yaxşı ki, sizin kimi aydınlarımız var, Allah qorusun!

Flora Mikayilova: Arxive esasen yazibsa ...her bendde menbe kimi arxiv senedinin nomresi 've kodu gosterilmelidir . Bunlar olsa bele, Alban kilselerinin tarixini , Irevan seherinin, Irevan xanliginin Qaraqoyunlu dovletinin Qarabagin 've s . erazilerin tarixini asanliqla saxtalasdirmis ermenilerin ...Bu " arxiv senedlerine " efibar etmek olarm? Bos ..kendler ve " milliler " Muellif qeyd edir ki kurdler ozlerine milli deyirdiler. “Milli " sozu arxivde orginalda nece gosferilibmis . maraqlidir .Irevan quberniyasi rus isgalinda ciddi muqavimet gosferib . Ehali oldurulub .kendler viran qoyulub . Coxu Turkiyeye, qacib camaatin. Hemen bos qalmis .kendlere de ermeniler 've yezdi kurdler yerlesdirib . Bunlar Tarixde var. Ermeni dilini yaxsi bilir muellif ? Rusu bildik ...oxuyar ..

Flora Mikayilova: Ermeni dilini 've elifbasini bilirmi muellif?Yoxsa ermeniler de arxiv senedlerimi rus dilinde yaziblarmis?😊ozu de ...teze kocuruldukleri Qafqazda .

Niftali Goyceli: Flora xanım, internetə indi-axşam baxarkən sizin çox obyektiv yanaşmalarınızı gördüm, var olun! İki aydır ki, Nazir bəyə sual verirəm: - Bizim torpaqlarımızı Rusiya irtica qüvvələri ilə birləşib işğal edən, "Xocalı" soyqırımını törədən erməni mənbələrinə necə inanıb kitab yazmısız? Cavab:

"Çar Rusiyası və erməni mənbələri doğrudur"...Daha bundan sonra Nazir Əhmədliyə nə deyəsən!..

Kitabımı oxumadan uzun-uzun "nəzəri" mülahizələr yürüdən Flora Mikayılova və ona havadar çıxan Niftalı Göyçəli o ki var, ürəklərini boşaldırlar və onları başa salmağın mümkünsüz olması səbəbindən cavab vermirəm...

SƏHNƏYƏ YENI AKTYOR ÇIXIR:

QABIL HÜSEYNLI

Hadisələr xoşagəlməz məcrada böyüməkdə davam edir. Eldar İsmayıl daha bir oyunçunu qızışdırıb meydana buraxır. Bu, üzü üzlər görmüş professor Qabil Hüseynlidir.

Mənim statusum

21 iyun 2017.

Vallah bu məsələ ciddiliyini tamam itirdi. Bilmirsən güləsən, ağlayasan, yoxsa hirslənəsən. Saat 19-48 dəqiqədə 055 434 40 39 nömrəli telefindan mənə zəng gəldi (onun nömrəsini ona görə yazıram ki, inanmayanlar asanlıqla sözlərimin həqiqət olub-olmadığını yoxlaya bilsinlər). Özünü Qabil müəllim və professor kimi təqdim edən şəxs son vaxtlar haqqında çox danışılan "Haqq-nahaqq seçilər Haqq divanında" kitabımla bağlı söhbət açdı, kitabımın adını bir neçə cəhddə höccələyə-höccələyə oxudu və aramızda belə bir dialoq oldu:

-Eşitmişəm Siz Dərələyəzdənsiniz.

-Bəli, Dərələyəzdənəm.

-Sizin nə ixtiyarınız var Göyçədən yazmağa?

-Mən Yer kürəsində yaşayan 7 milyard insanın hamısından yaza bilərəm və bunun üçün Sizdən icazə almağa ehtiyac görmürəm.

-Sən burada Aşıq Ələsgərdən yazmısan.

-Bəli, yazmışam və onu dahi adlandırmışam, kitabımı oxumusunuzmu?

-Bir az oxumuşam, sən kimsən onu dahi adlandırırsan, sən kimyaçısan, get kimya ilə məşğul ol.

-Sizin ixtisasınız nədir?

-Mən filosofam, tarixçiyəm, humanitar sahənin professoruyam. Göyçə əhalisinin adından səni məhkəməyə verəcəyəm, səni dizin-dizin süründürəcəyəm.

Evdə olduğumdan və böyük ziyalılarımız Kamil Vəlinin, Nəsir Əhmədlinin Ədalət Tahirzadənin, Vurğun Əyyubun və başqalarının məni sərt sözlərdən çəkindirən qınaqlarını yadıma salıb telefonu söndürdüm. Hörmətli feysbuk dostalrım, mən nə edim, nə məsləhət görürsünüz? Vallah o adamın günahından keçirəm, amma qəlbimi ağrıdan odur ku, Azərbaycanda bu ağılda, məntiqdə professorlar var. Elmi bu vəziyyətdə olan Azərbaycanın gələcəyi varmı? İçərinizdə həvəsi olan varsa, o adama zəng vurub öyrənin görüm, doğrudan professordur, yoxsa yalandan özünü elə təqdim etdi? Əgər doğrudan "professor" olsa, daha bu ölkədə yaşamağa dəyməz.

Yorumlar:

Bayram Babazade: Mudrikler galib olur..!

Vurgun Eyyub: Nazir bəy, necə olur ki, Kamil Vəli, Nəsir Əhmədli, və başqa gözəl insanları unudub, hansısa sözünü-özünü bilməyən adamlara görə bu ölkədə yaşamaq istəmirsiniz?)))

Firuz Mustafa: Görünür, bu cür adamlar elə zənn edirlər ki, tədqiqata cəlb edilən sahə də "özəlləşdirməyə" aiddir və "özəlləşdirmə" bütün hallarda təmiz gəlir gətirə bilər...

Xazar Fatdayev: Statusda adini cekdiyiniz ziyalilarin meslehetine bir daha emel edin, dogrunu onlar deyib..sadece fikir vermeyin😆

Niftali Goyceli: Xəzər bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "tarix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Niftalı Göyçəli Xəzər Fətdayevdən başlayaraq, yuxarıdakı səfehləmələrini kişmiş yemiş tutuquşu kimi təkrarlayır.

Nazir Ahmedli: Çox sağ olun, hörmətli ziyalılarımız! Nə yaxşı ki, varsınız! Sizin dəstəyinizi görəndə sevimli şairimiz M.İsmayılın "Hələ yaşamağa dəyər bir az da" şeiri yadıma düşdü.

Mamedali Hesenov: Nazir müellim ele cılız adamlara fikir verme.

Afseddin Nebiyev: O, kimdirsə Azərbaycandakı monopoliyanı ədəbiyyat sahəsinə gətirmək istəyir.Sanki Nikolay Kopernikin dövründə yaşayırıq. Elə bir polemika aparan insan heç vaxt professor ola bilməz.Elm adamı haradan olur olsun, fərq etməz, ətrafındakı insanlara işıq saçmalıdır. Kitabınızı çox uzaqlarda olduğumdan internet vasitəsilə oxuyuram. Çox gözəl araşdırmadır. Lap tutaq ki, mübahisəli məqam var, onu normal səviyyədə müzakirə etmək olmazmı? Əlbəttdə olar, o halda ki, insanlarımız o mədəniyyətə sahib olsalar. Bu insanlar başa düşmürlər ki,indi biz XXl əsdə yaşayırıq. Bu əsrdə yaşayıb insanlarla orta əsrlərin dövründəki yaşam tərzi ilə rəftar etmək olmaz. Bu təhsilsizliklə biz hara gedirik ?

Niftali Goyceli: Əfsəddin bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Afseddin Nebiyev: Biz Rusiyanın hər zaman Azərbaycanı təhdid, təzyiq altında saxladığını inkar etmirik.Xalqımıza qarşı törədilən terroru, ərazi işğallarını, ermənilərı hər zaman silahlandırıb onun arxasında duraraq bizi faciələrlə üz -üzə qoyan düşmənləri də tanıyırıq. Ancaq söhbət tarixin saxtalaşdırılmasından gedirsə hər zaman buna cəhd olub və olacaq.Mən kitabdakı faktların arxiv sənədləri olduğu üçün normal müstəvidə müzakirə polemika aparılmasının tərəfdarıyam.Hər dövrdə tarix, ədəbiyyat hakimiyyət mənsublarının ideoloji maraqlarına xidmət edir.Sovet tarix ədəbiyyat dərslikləri də o çərçivədən kənar çıxa bilməzdi.İndi yeni əsərin meydana çıxmas nəyi pisdir ki?Yeni əsər müzakirə olunsun həqiqətlər meydana çıxsın gələcək nəsillərə tariximizi düzgün çatdıraq.Niftali müəllim, deməyim odur ki,əsl həqiqətlər sağlam mübahisərdən sonra meydana çıxır.

Eynulla Ismayilov: Deyirlər düşmənin çoxdursa düzgün, həqiqət aşiqi, mübarizsən – yoxdursa, özünçün yaşayan canlı məxluqsan. Demək nəsə bir iş görə bilmisiniz. Tüstü çıxırsa demək orda ocaq var. Ocaq varsa bu insana məxsusdur . Yaxşı insan alim olsalar bəhrələnər əvvəllər yazıb professor adı aldıqları səhvlərə bir nəzər yetirər. Daha həqiqəti basdırmağa nə ehtiyac? Nəcəfqulunun karikatura kitabindakı bir şəkil düşdü yadıma . Arvad deyir ki bəsdi bu tülkü şəklini 30 ildi çəkdin . Rəssam da arvadına deyirki arvad səs salma bəss 30 ildi bu tülkünün hesabına dolanmırıq??? Bunlarınkı da dönüb ona. Boş verin, ancaq mehriban davranın getsin . Həyat elə belə şeylərnən rəngarəngdir . Heç kimi qınamayın . Zaman həm sağaldır, həm ucaldır, həm də saraldır. Siz həqiqətsiniz. Osa həmişə qılınc kimi iti, gün kimi aydın olsa da acıdır. Onlarla qəti çəkişməyə dəyməz .. Sizin

əməyiniz onlara yox, gələcək nəsillərə lazımdır. Odur ki, sakit işinizlə məşğul olun . Uğurlar ...

Nazir Ahmedli: Minnətdaram.

Niftali Goyceli: Eynulla bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Tutuquşu dil boğaza qoymur..

Agakisi Seferov Qardaşım Nazir, kaş bu insanlar səni tanıyardılar.Onda bilərdilər ki. layiqli iş ortaya çıxarmaq üçün savadlı, dürüst, zəhmətkeş və ən əsası vətənpərvər olmalısan ki, təmənnasız bu zəhmətə qatlaşan. Belə insanlar sənə maneə deyil.Sənə uğurlar arzulayıram

Niftali Goyceli: Ağakişi bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə tor-paqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Agakisi Seferov Niftalı bəy. irticaçi adlandırdığimiz o dönəmdə bizim tariximiz yazilib. Tarixi dəqiqləşdirmək üçün hansı mənbədən istifadə etmək lazımdır? Bizim dövlət arxivimizdə olan bunlardır -əgər bunlar səhvdirsə düzünün harada olduğunu göstərin.Əgər orada səhv varsa da bu NAZİR bəyə aid deyil.Nazir müəllimi bu tədqiqat islərinə görə təhqir etmək isə ayıbdır və məqsədli şəkildədir. Əgər yazılanlara etirazınız varsa bunu rəsmi şəkildə dəqiqləşdirmək mümkündür.KAŞ millətimizdə Nazir müəllim kimi alimlərin sayi daha çox olardı.Sağ olun

Ali Orucov: Nazir bey, siz üzerinize düşeni etmisiniz. Çox sağ olun. Hərə öz arşını ile ölçür. Qoyun kim ne deyir, desin. Sizin maraqli kitablarınızın davamını gözləyirik.

Nazir Ahmedli: Təşəkkür edirəm, Əli bəy! O adamın soyadını və kimliyini öyrənə bilsən, sənə minnətdar olaram

Niftali Goyceli: Əli bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Metanet Saraclı: Fikir verme,Nazir müellim, rehmetlik Sabir demiş,

"Çalxalandıqca,bulandıqca zaman nehre kimi
Yağı-yağ üste çıxır, ayranı ayranlıq olur!"
Bir sözle, zaman en edaletli hakimdir.

Nazir Ahmedli: Təşəkkür edirəm, Mətanət xanım, haqlısınız.

Niftali Goyceli: Mətanət xanım, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Tutuquşumuz kişmişdən yeyib sayıqlamalarını təkrar etməkdədir...

Rafiq Merezeli: O adam kimdise ona bash qoshmag'a deymez.Qaldi ki, sizi mehkemeye vermeye? Inaniram. Bu dövletde ne desen olar! Sözardi: Ashiq Elesger menim de sevdiyim ashiqlardandi. Ama, mence, onu dahi adlandirmaq bir az mûbalig'eli görsenir. Ona göre ki, Fûzuli, Nesimi kimi dahilere

onda ne deyek? Ne deyek ki, bir qezelinin acmasi haqda nece - nece eserler yazilib

Nazir Ahmedli: Rafiq müəllim, mənim dahilik haqqında fikrim odur ki, həmin şəxs öz zəmanəsini qabaqlasın.Bu baxımdan Ələsgər də öz zəmanəsini ən azı 100 il qabaqlayıb. Ölümündən keçən 90 il ərzində hələ də o zirvəyə çatan aşıq, el sənətkarı yoxdur. Onu Füzuli ilə yox, aşıq sənətinin nümayəndələri ilə müqayisə edin.

Vurgun Eyyub:
Bir sual eşitdim ömrüm uzunu,
Nizami böyükdü, yoxsa Füzuli?
Aqillər ayırmaz biri birindən,
Qızılın yanına qoyar qızılı!

Nazir Ahmedli: Müəllifi kimdir, Vurğun bəy?

Vurgun Eyyub: Rəhmətlik Füzulişünas Sabir Əliyev!

Nazir Ahmedli: Allah rəhmət eləsin, çox gözəl deyilib

Vurgun Eyyub: Sabir müəllim gözəl alim olmaqdan başqa gözəl də şair idi...

Rafiq Merezeli: Ashiq Elesger 105 il ömür sûrûb. Gözel qosmalari, tecnisleri, qifilbendleri, dodaqdeymezleri olsa da mehsuldar yaradiciliq baximindan her iline bir sheir de dûshmûr.

Vurgun Eyyub: Rafiq bəy, əvvəla, Nazir bəy sənədlə-sübutla göstərib ki, Ələsgər 105 il yox, az yaşayıb. İkincisi, Ələsgərin şeirlərini yaddaşlardan toplamışıq, ona görə də az olmağı təəccüblü deyil. Üçuncüsü, şairin böyüklüyü nə qədər yazması ilə ölçülmür. Ələsgər mənim üçün nəhəng şairdir, aşıqlığı barəsində isə yalnız eşitmişik, şahidi olmamışıq.

Vurgun Eyyub: Hə, hamı elə yazıb, amma ortaya konkret sənəd qoymayıblar! Ələsgərin böyüklüyü bəyəm onun az, ya çox yaşaması iləmi ölçülür?

Rafiq Merezeli: Nazir müellime öz tedqiqat ishlerinde ug'urlar arzulayiram. VURG'UN bey size ise siyasi mübarizenizde

müvèffeqiyyet dileyirem. Xoshca qalin. Bag'ishlayin ki, sizin mûzakirenize qoshuldum.

Nazir Ahmedli: Vurğun bəy, doğum tarixindən başqa, Ələsgərin əmisi Allahverdinin (indiyə qədər babası kimi tanıdılan) 3 oğlunu və 3 nəvəsini də üzə çıxardıb onlara təqdim etmişəm. Qohumlarına görə təşəkkür bir yana, sanki onların üzərinə düşmən gətirmişəm. Vallah mən bu adamları başa düşməkdə acizəm.

Bakhtiyar Abdullayev: Məncə fikir verməyin, işinizə davam edin.

Ali Kafkas: Sağ qulaqdan alıb sol qulaqdan buraxın. Qozbeli qebir düzelder. Beleleri düzelmez. Siz yazmaga davam edin. Dest xettinize milletimiz çoxdan etibar edib.

Nazir Ahmedli: Çox minnətdaram

Gülehmed Qaribov: Qabil müəllim unudur ki, bizdə artıq Xanlıq dövrü arxada qalıb. Bizde dövlət movcuddur

Niftali Goyceli: Güləhməd bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Natiq Adilov: Natiq Cavadli, bu Qabil Zimistanoğlu deyil ki))

Nazir Ahmedli: Yox, məncə. O öz fikirlərini FB-də açıq yazır. Həm də o adam soyad dedi nəsə, əsəbi vəziyyətdə olduğuma görə əmin deyiləm. Məmmədli dedi, yoxsa Hüseynli. Lap N.Zeynalovanın dediklərinə oxşadı.😂Qabil Hüseynlinin belə hərəkətini ağlıma sığışdıra bilmirəm, ona görə də soyaddan əmin deyiləm.

Natiq Adilov: Nazir Ahmedli müəllim, yadıma düşür ki, o vaxtlar Zimistanoğlun da kim idisə, məşhər ayağına çəkirdi, Ələsgərə görə

Nazir Ahmedli: Hə, rəhmətlik İ.Ələsgər onu məşhər ayağına çəkmişdi-məhkəməyə vermişdi ki. niyə Aşıq Ələsgərin

kitabını tərtib edib çap etdirmisən. İndi rollar dəyişilib. Həmin sözləri Q.Zimistanoğlu mənə deyir və o da məhkəmə, üstəlik MTN-lə məni hədələyir.

Natiq Adilov: Nazir Ahmedli, doğrudan? Mən zarafatla yazmışdım. Demək, bizim Qabil sizin üstünüzə yürümüşdür? Vay, vay.

Reshad Oruc Oğlu Agashirinov: Siz onla goruşun...Uz be uz sohbet edin.Ve bir iki o sahenin adamlari ilede meslehet edin..Bele şeyler olur..Evvel paxilliq edir ve ondan ustun bir movzu, kitab hazirladiqini gorub fiyxirir.Siz oz işinizle mesqul olun..Hec kime fikir vermeyin..Qoy versin mehkemeye..Sizde ona qarsi iddia qaldirin ki, sizim deyerli vaxtinizi alir, hede qorxu gelir..Cox demek olar..Narahat olmayin..Işinizde ugurlar

Niftali Goyceli: Rəşad bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

"Tutuquşumuz" öz işindədir..

Xan Resuloglu: Qəribə gələni bu ki, Səni niyə öz adından yox, bölgə adından məhkəməyə vermək istəyir? Aşıq Ələsgəri isə özəlləşdirməsələr, daha yaxşı olar, çünki onun əsərləri təkcə bizim də yox, türk dünyasının da yox, bütün dünyanındır-yaradıcılıq da, yaradıcının ismi də tayfa, bölgə üçün deyildir.

Nazir Ahmedli: Tamamilə razıyam. Aşıq Ələsgərin 1821-ci ildə deyil, 1852-ci ildə doğulduğunu və 105 il deyil, 74 il yaşadığını aşkara çıxartmağımı Göyçə mahalı üçün təhqir sayırlar(bir qrup provokator. Təşkilatçıları Mürvət Yusifov adlı bir nəfərdir). Mən həm də Ələsgərin əmisini, 3 əmisi oğlunu və əmisi nəvələrini üzə çıxardıb qohumlarına tanıtmışam.

Nazir Ahmedli: Halbuki, Xoşqədəm Hidayətqızı kiminsə qohumunu Rusiyada tapıb göstərəndə 9 milyon xalq gözünün suyunu axıdırdı...

Xan Resuloglu: Hətta, Nazir bəy, Sizin gətirdiyiniz dəlilləri yalan çıxara bilsələr belə, aqressivliyin və təhqirin yeri deyil axı... Əksini-doğru bildiklərini ortaya qoysunlar. Aşıq Ələsgərin şərəfi hamımızındır və məncə, Sən özün onu heç kimdən də az istəmirsən...

Nazir Ahmedli: Tamamilə doğrudur. Mən həmin kitabda təkcə tarix məsələsinə toxunmamışam. Ələsgərin yaradıcılığını geniş şəkildə, başa düşdüyüm qədər şərh eləmişəm, onu Azərbaycan Aşıq poeziyasının zirvəsi və dahi adlandırmışam. Bəzi tərtibçilərin təhriflərini düzəltmişəm.

Subhan Abiyev: Bunlarinkı qisqancliqdan başqa bir şey deyil! Fikir vermeyin, cavab verəcəyiniz təqdirdə onlara şərait yaradacaqsiniz ki, daha cox danişsinlar. Ən gozel yol, fikir vermemek.

Nazir Ahmedli: Uzun müddət cavab da vermədim, amma bəzən bıçaq sümüyə dayanır. Mürvətin kəndlisi Abbas Bağır adlı bir hacı var, o bizə müraciət etdi, mən də onun çağırışına əməl etdim, özü də bilir. Amma bu adamlar üçün həyatda müqəddəs deyilən bir şey yoxdur.

Subhan Abiyev: Bele meselelerde başqalarinin meslehetini eşitmemek lazimdir. Siz doğru bildiyinizi edin. Nazir Ahmedli Bey, Insan haqq bildiyi bir şeyden cekinmemeli. eyni zamanda geriye addim bu meselede ozunuzun mehvinizdir. Qetiyyen olmaz!

Nazir Ahmedli: Haqlısınız.

Subhan Abiyev:Nazir Ahmedli, Əlbəttə! Aqsaqqallar öyredilmiş aqsaqqallardir, mekrli insanlardan ağsaqqalmi olar? Heyifdir bu adi onlara demek.

Sarvaz Hamidoglu Belələri çoxdur və bu ölkədə elə sükan başındadırlar...

Subhan Abiyev: It hurer karivan kecer. Fikir vermeyin. Onun seviyyesine enmək lazim deyil əsla! O ele onu isteyir də.

LeylaRövşən Məmmədəliyev: .....karvan keçər

Niftali Goyceli: Leyla xanım, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Tagi Turk: Nömrəni maraq üçün araşdırdım, Qabil Hüseynli çıxdı...

Subhan Abiyev: Qabil Huseynli Musavati keci qiymetine satdi ve hakimiyyetin boyunduruquna boyun qoydu. Onun bu işleri gormesine hec teecublenmirem de. Cunki o çöreyi dizinin ustunde olan adamdi. Gunlerin bir gunu o İmişliye gelende maşinla avariyaya duşmuşdu ve derhal bize zeng vurub xeber vermişdi. Biz hadise yerine geldik, onu derhal xestexanaya catdirdiq. Ne ise, iller kecdi, men bununla “28 may” metrosu yaxınlığında goruşdum ve tanişliq verdim ki, Qabil bey, yadinizdadirsa siz İmişliye gedende maşininiz yoldan cixmişdi ve biz sizinle orda goruşduk, sizi xestexanaya catdirdiq. Mene ne dese yaxşidir?)) Eger menim sizin kimi dostlarim olmasaydi, Musavatin İmili rayon teşkilatindan mene yardima gelmeyeceklerdi. Dedim Qabil bey, meni size komek ucun Musavatin rayon teşkilatinin sedri Iltizam Bey gonderib, amma siz onun indi haqqina girerek ədaletsizlikle sucladiniz..Əzizlerim, Bu Peyser Qabilden ne deseniz gozlemek olar, O artiq sifarişle işleyir.

Nazir Ahmedli: Heyrət edirəm!!!!!!!!! Bir yanlışlıq olmasın???

Həə, Qabil Hüseynli, sənin belə işlərin də var imiş!
Amma təəccüblənməyə dəyməz....

Alikram Maqerramov: Nazir müəllim, başınızı götürün qaçın bu lağlağı fb məkanından.

Nazim Muradov: Aşıq Ələsgər kimin obyektidi? Kimin monopoliyasındadı? Biz onun haqqında yazmaq üçün kimden icaze almalıyıq? Deyin bilek lütfen...

Xan Resuloglu: Doğrudan e... Kitab halında çıxsa, 500 səhifəni aşmış olan ədəbi qeydlərim var ki,(bu ancaq öz ədəbiyyatımız haqda olanıdı hələ)-"Ədəbiyyat dərsləri" adıyla dərcini düşünürəm və orada Aşıq Ələsgər də olmalıdı..bilək da bə...icazəni kimdən alaq...

Nazir Ahmedli: Xan Resuloglu müəllim, Allah qələminizə qüvvət versin! Kitabınızı səbirsizliklə gözləyirik!

Niftali Goyceli: Nazim bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Nazim Muradov: Niftali Müellim, men biterefem amma elmi obyektivliyin terefdarıyam... Xocalı qatillerinin bu obyektivliye ne dexli var?!

Чингиз Исаев: Insanlar xestedir!

Mirze Qarasov: Yəqin Hafiz Hacıyevin əmisi oğludur.Sizə qan uddurajax!!!

Etibar Etibarli: Nazir müəllim, inamayin. o kimdisə sizi əsbiləşdirmək üçün zəng edib. ya da sizin kölgənizi qiliclayan birinin "əlaltisi" dir. başima gəlib. əhəmiyyət verməyin.

Heyder Oguz: Qardaş, sizə zəng edən adam professor olmasaydı, təəccüblənərdim. Nədən ki, bu ölkədə ən səfeh adamlar pulla-parayla alim, akademik olurlar. Siz də bu başı boş "alim qırıqları"na əhəmiyyət verməklə onların qiymətini qaldırırsınız. Elə səfehləri boş verin.

Heyder Oguz:

Qoşsa hər kimsə əgər bir neçə başdanboşa baş,

Özü əlbəttə o kəslərlə gələrmiş başa baş.

Başıyoxdan gələr insan başına fitnə-fəsad
Qardaşın olsa belə, qoşma səfeh qardaşa baş.

Qaynadar bir neçə milyon başı istərsə fələk,
Kim deyir qaynamayır eyni qazanda qoşa baş?

Hər kimin saqqalı ağsa, demə ağsaqqal ona,
Atadan qalma misal vardı ki, baxmaz yaşa baş.

Atdığın ox daşa dəymişsə, üzülmə buna çox,
Vay o gündən ki, dəyər zərb ilə, Heydər, daşa baş

Nazir Ahmedli: Var ol, şair! Qələminə qüvvət, canına sağlıq!

Pasha Babakerli Amircanov: Dil qabar bağladı, bir nadana dönnəm mən özüm, Bir kiçik mətləbi bir nadana qandırmaq üçün.

Nazir Ahmedli: Paşa müəllim təşəkkür edirəm

Aslan Azadaliyev: Nazir bəy o şəxs kimdirsə, komik aktyorlarındandır, sadəcə rola girib, sizinlə professor adı ilə danışaraq özünəməxsus səhnə yaradıb. Çünki çox gülməlidir bu epizod, lap lətifəyə oxşayır😆

Vekıl Faiq: Yaqin qocalib başın itirir, onun yaşına hörmet olaraq boş ver

Pənah Söyləməzli: Haqq- edalet naziler amma uzulmez

Sadaqat Mammadova: Ashig gorduyunu cagirar Sen Dereleziye beledsen gonshu Rayonun kucesni bele tanimadan o barede nece yaza bilersen bu kitabi sifarishle yazmisan yaxud yalniz imza sene mexsudur

Zafar Aliyev: Buradakı müzakirələr birbaşa həmin arxiv sənədləri və oradan çıxan nəticələrlə bağlıdı. Müəllifə təklif edirəm həmin sənədlərin surətini ictimailəşdirsin, əgər sənədlərdə

saxtalaşdırma haqqında şübhə qalmazsa, hamının onları qəbul etməsi zərurəti yaranar, mənasız söz-söhbətə də son qoyular

Nazir Ahmedli: Zəfər müəllim, arzunuzu nəzərə alıb sənədləri paylaşdım, tanış ola bilərsiniz

Niftali Goyceli: Zəfər bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halılmıza!..

Niftalı Göyçəli heyrətamiz inadkarlıqla hamıya eyni sözləri yazmaqdan usanmır və böhtan yazmaqdan utanmır!

Nazir Ahmedli: Niftalı Göyçəli, professor H.Mirzəyevin yazdığına görə(kitabımda istinadı göstərmişəm), Aşıq Alının 180 illik yubileyi ərəfəsində prof. Mürsəl Həkimov 6 aylıq elmi ezamiyyət götürmüş və Alı haqqında 72 səhifəlik "elmi" məqalə yazmış və Həsən müəllimə 2 dəfə oxumuşdur. Gəldiyi nəticə isə Ş.Əsgərovla Ə.Əmirovun Alını milli çıxarmaq cəhdlərinə haqq qazandırmaq idi. Bu, inanmıram ki, Sizi qane etsin

Zafar Aliyev: Niftali Goyceli mən adı gedən kitabda ustadların adını yox, yaşını aşağılayan-aşağı göstərən fikirləri oxudum. Həmin ustadların dövrünün digər insanları ilə münasibəti isə mülahizə formasında yazılıb. Ustadlar haqqında da dəfələrlə dahi sözü daxil epitetlərlə yüksək fikirlər söylənilib.Opponent olsa belə gəlin ədalətli davranaq

Niftali Goyceli: Kitabdan bir nümünə: "Aşıq Ələsgərlə Səkinəbanunun məhəbbətləri qarşılıqlı deyildir"-hökm...müəllifin doğum tarixinin rus-erməni mənbələrinə görə dəyişdirilməsindən gələn qənaəti...Belə dəlillər kitabda xeyli var...oxumusuzsa, diqqət edin!

Nazir Ahmedli: Niftalı bəy, mənim yazdığımı təhrif etməyin. Mən yazmışam ki, "Ələsgərin öz sevgilisinə qoşduğu

gözəl şeirlərdə bu sevginin qarşılıqlı olduğuna aid bir misra da görmürük. Bu şeirlərin heç birində Ələsgər Səhnəbanının onu sevdiyini iddia etmir".

Niftali Goyceli: Kitabı oxumaq üçün başqasına vermişəm...əldə edəndə səhifələri və sətirləri də qeyd edərəm...Tarixdə kim qəddarlıq və yanılışlıqlar edərsə, qınaq obyektinə çevrilməsini düşünməlidir, bunun üçün gələcək şəcərə məsuliyyət daşımır...

Nazir Ahmedli: Sənədlər göstərdi ki, Pullu Məhərrəm zorla Səhnəbanını Mustafaya almayıb, çünki Mustafanın atası Məhərrəm də, Səhnəbanının atası Qurban da onlar evlənməmişdən qabaq ölmüşdülər. Və Məhərrəm heç bir qəddarlıq etmədiyi halda. qınaq obyektinə çevrilib. Bu dastana qulaq asan və ya onu kitabdan oxuyan adamın Məhərrəmə qarşı nə qədər kin və qəzəb püskürəcəyini gözünüzün qabağına gətirin! Adama yazıq deyilmi? O ki, "sifarişli" bir əsər yazmamışdı.😂

Murvet Yusifov: Bir loru dildə izah etmək məcburiyyətindəyəm. Deməli, biz kəndimizi, babalarımızı səhv tanımışıq. Rusun, ermənin təqdim etdiyi kimiymiş kəndimiz də, babalarımız da.Nazirə dəstək verənlər, yüz minləri təhqir etdiyinizin fərqindəsinizmi?

Salam Salamzade: inciməyin, odu söndürüb külüylə oynayırsız. O boyda torpaq birdəfəlik, əbədi əldən gedib, mahal tarixinin davası gedir. Heç yaraşır bu mənasız davanı aparmaq ?

Sadaqat Mammadova: kitaibi oxumamisham, ançag bilirem ki, sifarishle tariximiizi saxtalaşdirirlar.

İnsanı heyrət bürüyür! Bir yandan deyir kitabı oxumamışam, digər yandan onun haqqında kökm verir!

Salam Salamzade: Hamının fikrini bildirməyə haqqı var. Amma bunu dəlil və sübutlarla etmək lazımdır, küçə razborkası, söyüş təhqirlə mübahisə aparmaq cahillikdir və belə adamların sözlərinin həqiqiliyi şübhə doğurur. Hamıya aiddir. O torpaqlar

ermənidədir. Və bizim millət olaraq daim didişməyimizin nəticəsidir bu. Heç olmasa indi özümüzə gələk.

Maarifçi Qadınlar: Doğrudur. Sadaqat Mammadova, oxumamısan haradan bilirsen?

Maarifçi Qadınlar: izlediyimden görürem ki siz "men de varam" deyirsiniz, amma yoxsunuz.

Xaqani Safaroqlu: Kitabı hardan tapıb oxumaq olar? Konkret narazılıq nədən ibarətdir? Aşıq Ələsgərdən yoxsa Göyçə ilə bağlı faktlardan?

Nazir Ahmedli: Xaqani bəy, **turuz.com** saytından oxuya bilərsiniz. Kitabın özünü də Sizə bağışlaya bilərəm. Konkret olaraq arxiv sənədləri əsasında 6 nəfərin doğum tarixlərindəki yanlışlıqları düzəltmişəm, onlardan biri də Ələsgərdir. Bəziləri dezinformasiya yayıb bunu Göyçə mahalı üçün təhqir kimi qələmə verir və adamları üstümə qaldırmağa çalışırlar. Amma çox şükür, adamlar da əsil həqiqəti öyrəniblər.

Rasim Ismayilov Nazir müəllim elə bilirlər o arxivlərdə işləmək, tədqiqat aparmaq asan işdir. Boş verin. Buna diqqətlə qulaq asın.https://www.youtube.com/watch?v=fKjreLnSWzE
Bu Ülkede Hiçbir Başarı Cezasız Kalmaz -youtube.com

Niftali Goyceli: Rasim bəy, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halımıza!..

Hələ XX əsrin əvvəllərində patefonlarda, sonralar isə radioqəbuledicilərdə oxudulan plastinkaları(biz ona "val" deyirdik) yəqin ki, çoxları xatırlayır. Əgər həmin plastinkanın səthində cızıq əmələ gəlirdisə, onu oxudan iynə ilişir və plastinka eyni şeyləri oxuyurdu. "Arşın mal alan" filmində də o cür səhnə var. İynənin harada ilişəcəyini bilən nökər Vəli ustalıqla iynəni zədələnmiş hissədən keçirir və musiqi davam

edir. Eyni sözləri Niftalı Göyçəli kimi tez-tez təkrarlayan adamları rəhmətlik atam "qırıq val" adlandırırdı. Sən demə, Niftalı Göyçəli Don Kixot obrazından başqa "qırıq val" roluna da yarayırmış!

Murvet Yusifov: Ümumən Göyçə mahalının tarixi ilə bağlı səsləndirdiyi fikirlər tariximizi təhrif edir.Bu kitabda əsasən ustadların doğum tarixi, bir də bəzi kəndlərin tarixi təhrif olunub. Amma çap ediləcək kitabda ümumi Göyçə mahalının tarixi təhrif olunur. Çünki, Nazirin " mötəbər mənbə" adlandırdığı bu yazı toplumunda məqsəd budu.

Maarifçi Qadınlar:İşletdiyi ifadelerden professor olmadığı bellidi. Siz sadece senrli olun. Oda mehkemeye vermeyinde olsun.

Niftali Goyceli: Şərqiyyə xanım, əgər rus irticasına arxalanan və Rusiya informasiya vasitələrini zəbt edən, əsrlərlə torpaqlarımızı işğal edən,"Xocalı" soyqırımı və s. faciələrə səbəbkar düşmənlərin "taiix yazıları"na inanıb 80-90 illik Azərbaycan elmi ekspedisiyalarının və alimlərinin yazdıqlarını təkzib edərək Göyçə ustadlarının adlarını aşağılıyan yeni bir "tarix" yazırıqsa, vay bizim halımıza!..

Patefonun iynəsi yenə ilişib!

Ali Samedov: 2014 -cu ildə 150000 AZN verib eşşəyə də professor diplomu almaq olardi! !!! indi neçəyədir, bilmirəm? !!!

Ali Samedov: dollar 2 dəfə bahalaşib! !!!

Uluxan Ozadli: O adam professor olsa da, olmasa da, onu yeqin bilirem ki, Azerbaycanda professoru, elmi qabiliyyetine göre deyil, ancaq onun kimi esarete xidmet edenlerden, o işde "sadiq" olanlardan qayırırlar...😜

Ali Samedov: pulunu verməsən, heç Həsən ağanin bacisi oğlu olsan da, mümkün deyil! !!!

Ali Samedov: heç olmasa, 30000 ğərək verəsən! !!!

Uluxan Ozadli: Ele o "vermekle" de özlerini sadiq xidmetçi olmağa "boğaz" etdirirler de...😜

Tural Məhərrəmoğlu Əliyev: bu məsələdə ölkənin nə günahı?

Alima Amal: Möteber bir universitetin 25 illik ishcisi duz bir ildi menim heyatimi zehere dönderib, borc istedi vermedim, indi de firildaqla almaq isteyir...sebr edirem hele, gørum sonu ne olur..

Nəhayət, "əsərin qəhrəmanı" Qabil ortalığa çıxır.

Qabil Hüseynli: Hadisəni çarpıtmağınıza heyrətlənməyə bilmirəm. Əvvəla, biz çoxdan tanışıq. Mən fəlsəfə elmləri doktoru, professoram. 30-dan çox kitabın, minlərlə məqalə və ekspert rəylərinin müəllifiyəm. Azərbaycan televiziyalarında 35 ilə yaxındır ki, siyasi verlişlərdə aparıcı, şərhçi və politoloq kimi çalışıram. Gürcüstanın Kutaisi-1, Rusiyanın İctimai kanalı ilə əməkdaşlıq əlaqələrim var. İllərdir Azərbaycan ictimai rəyini formalaşmasında xidmətləri olan şəxslərdən biriyəm. Bu günlərdə əlimə Nazir Əhmədlinin müəllif olduğu "Haqq-nahaqq seçilər haqq divanında" adlı kitabı keçdi. Oxudum. Orada Göyçə mahalı, oranın insanları, xüsusən də aşıq sənətinin korifeyləri Aşıq Alı, Aşıq Ələsgər haqqında həqiqi faktlara söykənməyən, hətda aşağılayıcı fikirlərə rast gəldim. Əvvəl özü ilə fikir mübadiləsi etməyi qərarlaşdırdım. Güc-bəla ilə telefonunu əldə etdim və bir neçə cəhddən sonra onunla əlaqə yarada bildim. Dostcasina hal-əhval tutduq. Sonra mətləbə keçdim və adını çəkdiyim kitabdakı bəzi faktlara görə göyçəlilərin ondan incik və qəzəbli olduğunu söylədim. Göyçəlilərin ünvanına çox pis bir söyüş söyüb telefonu qapatdı.

Nazir Ahmedli: Qabil, sənə ad qoymaqda çətinlik çəkirəm. Buradakı abırlı adamlara görə də yalançını söyə bilmirəm. Yalançının evini Allah yıxsın ki, mən Göyçəlilərin ünvanına hər hansı bir nalayiq söz işlətmişəm. Əgər Göyçəlilərə kim söyübsə, onun 100 qatı onun qohum-əqrəbasına getsin!! Bu da sənin sonuncu oyunundur? Sən üfunətli satqının birisən. Əvvəl kommunist partiyasını satıb AMİP-ə keçdin, sonra E.Məmmədovu

satıb ADİP yaratdın. Dünya praktikasında birinci haldır ki, mərhum prezident H.Əliyevin fərmanında "riyakarlığına görə Q.Hüseynli tutduğu vəzifədən azad edilsin" yazılmışdı. Sonra Müsavatın qapısında süləndin və onlara da xəyanət etdin. İndi hansı partiyadasan və kimləri satmağa hazırlaşırsan? Sən nə vaxtdan Göyçəni təmsil edirsən?

Qabil Hüseynli: Heyrət ey büt.

Nazir Ahmedli: Televiziyada boş-boş laflarınla, əngə verməklə burada ötüşə bilməzsən! Ay içiboş, saxta professor! Harada kimi təhqir etmişəm, sitat gətir, səhifəsini göstər. Qoy camaat da görsün hansı ifadəm kimi təhqir edib!!

Qabil Hüseynli: Hamısı olacaq.

Nazir Ahmedli: Oxumusansa göstər, oxumamısansa, niyə çərənləyirsən??

Qabil Hüseynli: Qəzəblisən, səni dərindən tanıdığıma görə daha uyğun ifadələr işlədərdim, amma sözə heyfim gəlir. Tarix, fəlsəfə, psixologiya, multikulturalizm, sosiologiya fənlərindən dərs deyən adama içiboş demək hansı mərifətə və səviyyəyə malik olduğunu nümayiş etdirir.

Şahlar Haciyev: Bu nə biyabırçılıqdır bəylər. Belə yazıları öz şəxsi səhifənizdə yazsanız yaxşı olar. Hər şeyin həddi var.

Nazir Ahmedli: Qabil, sən heç göyçəli də deyilsən, Tərtərin Cəmilli kəndində oxuduğunu yazmısan. Sadəcə olaraq aranı qarışdıran provokatorsan. Sən o qədər fənndən dərs deyə bilərsən, mən arxiv sənədləri tapıb rus dilindən Azərbaycan dilinə tərcümə edə bilmərəm? Əgər qabiliyyətim yox idisə, hələ 21 il əvvəl Siyasi Şurasının üzvü olduğun AMİP-in ideologiyasına rəhbərlik edən "Millət" qəzetinin Baş redaktorluğunu niyə mənə etibar etmişdiniz?

Qabil Hüseynli: Məsələni çox bəsit, oz səviyyəsinə uyğun formada təqdim edir. Bəli 32 yaşımda professor olmuşam. 12 il kafedra müdiri, H.Əliyev dövründə isə Dövlət müşaviri vəzifəsində çalışmışam. İndi də professor vəzifəsində çalışıram. Hər il 1 kitabım, hər gün bir neçə qəzet və saytda ekspert rəylərim

çıxır. Nazir müəllim bu miqyası dəyərləndirə bilmirsə, hətərən-pətərən cizma qaraları ilə bir qədim mahalın heysiyyatı ilə oynamaq eşqinə düşübsə yolu açıq olsun.

Uluxan Ozadli: Bele meselelerde, her halda, rejime xidmet eden teref günahkardır. Belelerine elmi adlar da ele onun üçün verilmişdir. Qabil Hüseynli de göze soxmaq istediyi bu qeder "emelleri" ile çox da öyünmesin ve Azerbaycanı da artıq "xelvet dere" saymasın...

Qabil Hüseynli: Mənim diplomlarımın hamısı Sovet döbrünün, Moskvanın diplomlarıdır.

Uluxan Ozadli: Daha pis. Bu enene ele sovetlerden qalmayıbmı?...

Şahlar Haciyev: Maraqlıdır! Görəsən Qabil Hüseynlini alim kimi qəbul etməyən nadanlar nəyə qadirdir. Nazir Ahmedli mən sizi ciddi bir insan kimi qəbul etmişdim. Çox heyif.

Uluxan Ozadli: Hansı haqla polemikada opponentleri "nadanlar" adlandırırsınız? Bu ən böyük medeniyyetsizlik deyilmi? Medeniyyetsizin "müzakiresi"nden ne fayda ola biler?...

Haqlısınız, Uluxan Ozadlı! Atalar nahaqq yerə deməyib ki, "dostunu mənə göstər, kim olduğunu deyim".

Şahlar Haciyev: Uluxan Ozadli mən sizi tanımıram, ona görə də sizin haqda heç nə deyə bilmərəm. Mənim "davam" Nazir Ahmedli ilədir. Siz özünüzə götürməyin, kimisə incitmək, təhqir etmək heç bir ədəb qaydasına sığmır.

Aslan Gurbaneli: Burda ele qeribe sohbetler gedir, 24 ildir Qarabag ermeni digalarindadir, lavaşımızı ogurladilar, torpagimizi oğurladilar, mahnimizi oğurladilar, musiqimizi oğurladilar sesuvuz cixmir, indi gelib burda kitabda olan bezi fikirlerin davasini edirsiniz. Qabil bey, huneriniz catirsa prezidentimize Qarabagimizi qaytarmadigi ucun etiraz zengi edin ve men eminem ki, basda men olmaqla Azerbaycan xalqi da sizi destekleyecek. Belke de sizinki hec kitab davasi deyil,sadece tezminat almaqcun ne ise behane axtarursunuz?

Aslan Gurbaneli: Onda men de duşum ortaya meyxanaci Vuqari mehkemeye verim ki, sen Qaxli deyilsen, niye meyxananda Qaxin adini cekirsen?

Shamama Hesenli: Boş verin 😛:

Qabil Hüseynli: Hər halda məslət bilərdim ki, gedin o kitabı tapın oxuyun

Nazir Ahmedli: Mən indicə sənə müraciət ünvanlamışam, "professor"! Təhqir olan cümlələrimi yaz və səhifəni göstər ki, millət görsün! Təhqir var, yoxsa yox!

Seyid Mirfeyzulla: Hər şeyin doğrusunu Allah bilir. Ölkənin dərdi qalıb bir yanda Azərbaycanın iki ziyalısı da geyişib bir birinə Nə deyim sizlərə ???

Qabil Hüseynli: Qirmizi adamsan Nazir müəllim, şər - şəbədəni yığışdır.

Seyid Mirfeyzulla: Qabil Hüseynli Yaraşdırmıram hər ikinizin tituluna. Belə məsələ varsa da onun müzakirəsi bura deyil əzizim!

Nazir Ahmedli: Get, ağzımı açdırma Qabil! Hətta kimsə telefon sahibinin sən olduğunu yazanda da heyrətlənmiş və inana bilməmişdim ki, bu sən ola bilərsən! Çünki dünən danışanda "Məmmədli" ilə "Hüseynli" arasında tərəddüd edirdim. Nömrəni bilənlər səni deşifrə etdi! Qəbahətinin bağışlanmasını xahiş etmək əvəzinə, növbəti dəfə siyasi f-yə keçib mənim Göyçəlilərə hər hansı pis bir söz işlətdiyimi yazırsan. Sən qan tökülməsini istəyən Keşiş Qaponsan! Sən üzdə eser, daldada yoldaşlarını polisə satan Azefsən!! Sən İuda İskariotsan!! Və Allah qəni-qəni rəhmət etsin, H.Əliyev sənin qiymətini çox gözəl verib!

Aslan Gurbaneli: Her ikiniz professor adamsiniz siz,ali savadli insanlara ise hormetim sonsuzdur, belkem el ele verib Qarabagimiz haqqinda birlesib bir kitab yazasiniz genc nesil elmlensin.Bu sozlerimi emr yox,xahis kimi qebul edin

Qabil Hüseynli: Durduğumuz yerdə işə düşmüşük, yoxsa belə işlərə vaxtımmı var,

Seyid Mirfeyzulla: Yaşım sizlərə məsləhət verməyə düşmür. Bəlkə qutarasınız bu çəkişməni ?!

Qabil Hüseynli: Haqlısınız

Mamedali Hesenov: Men Nazir Ehmedlini 40 ilden çoxdur tanıyıram ve onun dürüstlüyüne, vetenperverliyine heç bir şübhem yoxdur. Bu kitab da vetene-vetendaşa xidmetin növbeti nümunesidir. Rejim dövründe arxivlerin ictimaiyyete qapalı qalması ucbatından yaranan yanlışlıqların düzeldilmesine xidmet eden bu kitabın neşrini aqressiya ile qarşılamaq heç bir etik qaydalara sığmır

Nazir Əhmədli: Təşəkkür edirəm, Məmmədəli müəllim!

Niftali Goyceli İki aydır ki, Nazir bəyə sual verirəm: - Bizim torpaqlarımızı Rusiya irtica qüvvələri ilə birləşib işğal edən, "Xocalı" soyqırımını törədən erməni mənbələrinə necə inanıb kitab yazmısız? Cavab: "Çar Rusiyası və erməni mənbələri doğrudur"...Daha bundan sonra Nazir Əhmədliyə nə deyəsən!..

"Qırıq val" yenə ilişib!

Nazir Ahmedli: Niftalı Göyçəli, Ağkilsə kəndinin 1859-cu ilə aid kameral siyahısını bölüşmüşəm, xahiş edirəm baxın.

Nazir Ahmedli: Mən zənnimcə heç vaxt "erməni mənbələri doğrudur" yazmamışam axı Niftalı bəy. Həm də erməni mənbələrinə istinad etdiyimi də yazmamışam.

Niftali Goyceli: Nazir bəy, siz o "kameral" yazını öz gözlərinizlə görməmisiz və dəqiqləşdirməsiz ki, orada il tarixləri dəyişməyib...1831 tarixində "31" rəqəmini "59" eləmək çox asandır... Siz bu həqiqəti gec-tez görəcəksiz. Mən sizə demişdim ki, 20 il fon rəisi işləmişəm və fondün "soverşenno sekretno" bölməsinə DTK tərəfindən ancaq mütəxəsislər "dopsk" -buraxılış ala bilirdilər...Bəs siz ora necə daxil ola bilmisiz?

Niftali Goyceli: Xatırlayırsızsa, sizə bir yazımda bildirmişdim ki, mən iki il Leninqrada yaxın Pskov vil. Dedoviçi rayonunda yaşayırdım və Leninqrad ali Partiya məktəbi istəyimlə əlaqədar hər ayın bir neçə günlərini şəhərdə olurdum, eyni zamanda mədəniyyət sahələri ilə maraqlanırdım...Ermitaj "Qafqaz" bölməsinə başçıılıq edən erməni olduğunun şahidiyəm...

Azərbaycana aid tarix bir otaqda, ermənіyə aid "tarix" dörd otaqda yerləşirdi... Sovet dovründən Rusiya arxiv, mədəniyyət, xəritəşünaslıq, indiki Lavrovun başçılığı ilə xarici diplomatiya erməni məmurların əlindədir...

Nazir Ahmedli: Niftalı bəy, kameral siyahılara inanıb-inanmamaq barədə Tarix İnstitutuna müraciət edin. Nə cavab versələr, Sizinlə razılaşacam

Niftali Goyceli: Akademiyada Mirzə Ləmbəli [6] ilə də söhbət eləmişik, çörək kəsib, dostluq elədiyim ziyalıdır... Mübahisə elədik, sonda dedi:"Hər ikinizə böyük hörmətim var..." neytral qaldı...

Nazir Ahmedli: Hə, Mirzə səmimi adamdır və arxivlərlə iş təcrubəsi var. Dərələyəz mahalının Kameral təsvirini ona vermişəm. Bu cür işləri çox yüksək qiymətləndirir

Niftali Goyceli: Dostum Mirzə bu barədə məlumat verdi... Ona ərkyana dedim: "Mirzə, Nazir bəylə mübarizədəyəm, amma səni rus-erməni mənbəyinə əsaslanan-inandığın yazını görsəm, topun ağzına qoyub atacam!"

Nazir Ahmedli: Siz ona təzyiq göstərməyin, onun arxivlərlə zəngin iş təcrübəsi var.

Zulal Arpacayli: Hörmetli Nazir muellim men o şexse deyirem: elin o başi bu başi yoxdur

Niftali Goyceli: Gör nə günə qalmışıq ki, rus irticası və erməni yalanları üzərində bu qədər Azərbaycan ziyalıları üz-üzə dayanıb!.. Bu milləti cüzi bir təxribatla bir-birinə qırdırmaq çox asan bir şey imiş!.. Ya Rəbbim, bizə rəhm elə!

Nazir Ahmedli: Allah bizi o günlərdən qorusun!

Niftali Goyceli: Amin!..

Mamedali Hesenov: Hörmetli Niftali bey bu söhbetler 2 aydan artıqdır müxtelif sepgilerde müzakire olunur. Men de arasıra izleyirem. Nazir Ehmedlini 40 ile yaxındır tanıyıram. Qelemine,aile terbiyesine çox yaxından beledem. Siz de Sahib müellimde Mürvet ve Qabil müellımde yazırsınız ki, Sen tarixçi

[6] Şərqiünaslıq İnstitutunun əməkdaşı Mirzə Ənsərlini nəzərdə tutur.

deyilsen kimyaçısan. Düzdür Nazir Ehmedli kimya üzre felsefe doktorudur. Ancaq onu yaxından tanıdığıma göre mesulıyyetimle deyirem ki, Nazir Ehmedli tarixi tarixçilerden, edebiyyatı edebiyyatçılardan heç de pis bilmir. Nazir Ehmedli 9 kitab, minden artıq elmi meqalenin müellifidir. Türk xalqına qarşı bu insanın o qeder sevgisi var ki, Atatürk haqqında böyük bir elmi monoqrafiyanın müellifidir. O ki qaldı kitabla bağlı meseleye, bu kitab arxiv senedleri esasında yazılıb. Hemın arxiv senedlerininde bezi nümunelerini facebook seyfesinde gördüm. Ona göre de sizden xahiş edirem bu meseleye son qoyun.

Niftali Goyceli: Məhəmmədəli bəy, sizin mədəni və yanımcıl bir Vətən oğlu kimi məsləhətinizi qəbul edirəm, təşəkkürümü bildirirəm! Həyatda hər birimizin bir yanılışı, aldadılması ola bilər***...Mən Nazir bəyin intellektini yazdığı yazı və qrammatik qaydalara əməl etməsindən görürəm ki, yüksəkdir***. Bir məsələ məni narahat edir ki, mənsub olduğum Göyçə mahalının ustadlarının, eləcə də dünya mədəni təfəkkürünün nümayəndələri haqqında rus-erməni mənbələrinə əsaslanan yeni tarix ortaya qoyulur və burada 80-90 illik AzEA-sının elmi ekspedisiyalarının, alimlərin, tədqiqatçıların, dövlət rəhbərləri tərəfindən sərəncamla keçirilən yubleylərin üzərinə xətt çəkilir...Yenə də Allah bilən məsləhətdir! Yurdlarımız yağı əlində toponim, hidronim, etnonimlər saxtalaşdırılımış, indi də qalıb tarixləri...

Rahib Pashayev: Salam, Nazir müəllim! Əgər sizi açıq dialoq şəklində hədələyirlərsə, bilin ki, belə adamlar aciz və qorxaqdırlar. Onlara vaxt ayırmağa dəyməz. Belələri ilə dialoqu davam etdirib özünüzü onların səviyyəsinə düşürməkdən ehtiyyatlı olun! Reaksiyalar çoxdursa sevinməyə dəyər. Deməli qələminiz güclüdür.

Nazir Ahmedli: Təşəkkür edirəm, Rahib müəllim, inanın ki, məcbur qalmasam, bu söhbətlərə qoşulmaram, çünki görüləcək çox təxirəsalınmaz işlərim var, hamısı bu səpkidədir. Amma görəndə ki, kimsə qərəzli şəkildə ictimai rəyi çaşdırıb əleyhimə mənfi fikir formalaşdırır, cavab verməyə məcbur oluram.

Veli Xramcayli: Qağa, bos ver “it hurer, yel qayadan ne aparar?”

Həkim Eloğlu: Vəli müəllim "karvan keçər" yazmaq yaddan çıxdı.

Loğman Mehemmedoqlu: Vəli, məncə sözünə fikir versən yaxşıdı,

Niftali Goyceli: Nazir bəy, nə bilim, vallah, daha olan-olub, keçən-keçib, böyük toplantıda ictimai yekun bilinəcək... Allah bizə bu düşmən işgəncələri altında inlədiyimiz bir zamanda ümumi mənafe üçün birləşməyə yardım etsin!

Nazir Ahmedli: Amin, Niftalı Göyçəli! Mən həmişə milli mənafenin daşıyıcısı olmuşam. Bir neçə nümunəni də buradakı rəylərimdə yazmışam. Onlardan bəzilərini xatırlatmaqda fayda var:

1.1992-ci ildə Milli Məclisdə Dövlət dili haqqında qanun müzakirə edilərkən göstərdiyim xidmət.

2.1997-ci ildə "Monitor" jurnalı xalqımızı və o cümlədən Qərbi Azərbaycanlıları aşağılayanda yazdığım "Mutantlar" adlı irihəcmli məqalə.

3.Moskva bazarlarında azərbaycanlıları şil-küt edib döyəndə yazdığım "Rusiyada faşizm" adlı manşet yazısı.

4."Etnik dinlər və dünya dinləri" dərsliyində yazdığım "Qədim türklərdə din" bölməsi. və s. kimi onlarla, yüzlərlə yazılarım.

5.1997-ci ildə İran səfərimdə Mahmudəli Çöhrəqani ətrafındakı informasiya blokadasını təkbaşına yaran jurnalistəm. Hadisəni irihəcmli "Təbriz əfsanəsi" adlı məqaləmdə ətraflı təsvir etmişəm və həmin məqaləm ***"Biz sözü seçdik"*** kitabıma daxil etmişəm. Bu kimi nümunələri çox artıra bilərəm.

Nazir Ahmedli: Buraya "Mustafa Kamal Atatürk" (2002) kitabımı da əlavə edin

Şebnem Bunyadzade: Niftalı müellim, elmi esasla sübut etmek isteyiniz baş tutmayacaq. Ortada elmi söhbet yoxdu. Düşmenin saxtalaşdırdığı tariximizi müdafie ve tebliğ edenle öz dilinde danışılmalıdı. ***Mürvet müellimin evvelki mövqeyi doğru***

yol idi. İndi o da sizin kimi loyallaşıb. Eger sizler bele davam eleseniz men mene söyüşünü mehkemede ona yedirdecem. Bunu edeceyim nağddı

Murvet Yusifov: Şəbnəm xanım, Mürvət Yusifovun loyal münasibəti fikrinizlə razılaşmıram. ***Aidiyyatı qurumlardan gözlədiyim münasibət ləngiyir.*** Mən, əvvəldən söz verdiyim kimi məsələnin ali instansiyalara çıxarılacağına çalışacam. Hələki qarşı tərəf ucuz variantlara gedir. Belə ki, bəzi saytlarda özünü təbliğ və ictimai rəyi çaşdırmaq məqsədi ilə yazılar verdirir. Bu isə boşuna çapalamadı!

Mürvət Yusifovun "Aidiyyatı qurumlardan gözlədiyim münasibət ləngiyir" ifadəsindən başa düşmək olur ki, artıq yuxarı instansiyalara donos yazıblar, amma hələ bir nəticə yoxdur. Və gözlədiklərini ala bilmədiklərinə görə məyusluq içərisindədirlər!

Penah Soylemezli: nazir bey o kitabi oxumaq isterdim

Nazir Ahmedli: İnternetdə var, Pənah bəy, oxuya bilərsən. turuz.com saytı

Penah Soylemezli: bas uste cox sag ol

Alovsat Aliyev: Men Göyçə mahalinda cox taninmis ziyali ailesinde böyümüşəm. Sizlerden cox-cox uzur istiyirem. Usaq vaxti yigisib qonsu kendin usaqlari ile futbol oynuyurduq burden kamandalar arasinda mubahise yarandi neticede dava dusdu. Bu zaman kenar bir Adam bizlere yaxinlasib "ne ucun bir-birinizi qirirsiniz?"- sualini verdi, biz de sebebi ona izah etdik. Adam bize bildirdiki yeke kisilersiniz gedin ders oxuyun isle gucle mesgul olun. Letifesi sisden uzaq Lakin bele bir xosegelmez halin bas vermesi, ustelik by cure muzakire edilmesine men cox tessuflenirem.

Nazir Ahmedli: Əlövsət müəllim, o sözü sizə deyən adam çox aqil adam olub, deyib gedin oxuyun, elmlə məşğul olun. Mənimlə davaya çıxanlar isə əksini deyir: elmlə məşğul olma!

Hidayet Agbabali Memmedov: Nazir müəllim, Görəsən Rus işğalından əvvəl 200 yox, 500-1000 illər öncə Göyçədə, o cümlədən Qərbi Azərbaycanda mövcud olan yaşayış yerlərinin adlarını kim aşkara çıxaracaq. Kumık alimi Aci Murad çox gözəl sübut edir ki, bütün xristian dünyası ilə birgə Türklərə qarşı nə kimi iftiralar, yalanlar yazıblar, Nə qədər Türk mənbəələrin məhv ediblər. Nə qədər haqq deyən dilləri susdurublar. Sovet dövründə də haqq deyənləri türkçülükdə, müllətçilikdə günahlandırıb gedərgəlməzə yola salıblar. Yaxşı, deyək ki, Siz haqlısınız. Sözüm yox, sənədlərə əsaslanmısınız. Elə isə niyə daha əvvəlki dövrlərdən başlayıb, yavaş-yavaş gələydiniz indi dediklərinizə.

Nazir Ahmedli: Hidayət müəllim, İrəvan xanlığı və o cümlədən Göyçə mahalı da 1583-cü və 1724-cü illərdə osmanlılar tərəfindən işğal olunub və onlar da həmin ərazilərdə 1590-cı və 1727-ci illərdə bu cür sənədlər tərtib ediblər və onların əsli Türkiyə arxivlərində saxlanılır. Tarix İnstitutu indi həmin sənədləri çapa hazırlayır. Həmin sənədlər ərəb əlifbasının siyaqət xətti ilə yazılıb və Azərbaycanda onun mütəxəssisi demək olar ki, yoxdur. Nə isə, bu işin hamısını yazsam, uzun məsələdir. Onları mən də oxuya bilmərəm, heç akademiklərimiz oxuya bilmir. Rəhmətlik Z.Bünyadov və indi Kanadada yaşayan H.Məmmədov bu sahədə ilk cığıraçanlardır. Onlar İrəvan əyalətinin 1728-ci ilə aid icmal dəftərini 1996-cı ildə çap ediblər. Həmin kitabda 1590-cı və 1727-ci illərdə Göyçə mahalındakı yaşayış məskənlərinin adlarını da veriblər. Mən hazırda mətbəədə olan "Göyçə mahalının kameral təsviri. 1831-ci və 1842-ci illər" kitabıma yazdığım ön sözə həmin kəndlərin də adlarını yazmışam. Təxminən 50 səhifəlik ön sözdə Göyçənin tarixini, orada yaşayan türk tayfalarını və başqa məsələləri də işıqlandırmışam.Hazırda isə planlarımdan biri də Sizin mənsub olduğunuz Ağbaba mahalına aid olan bu cür sənədləri də tapıb gətirmək və nəşr etdirməkdir. Sizin həmyerliniz, mənim yaxın dostum professor Ramiz Əsgərə bu barədə söz vermişəm.

Hidayet Agbabali Memmedov: Hə, Ramiz müəllim fəxrimizdir. Özü də Onlar Qarslıdırlar. Mənim əslim

Ərdəbildəndir (Bunu dəqiq bilmirəm. Bir ağsaqqal bildirmişdir ki, bizim əslimiz Ərdəbildəndir) Ancaq mənim bildiyimə görə Bizim nəslimiz İrəvandandır. Atamın atasının adı Məmməd, babamın adı Qulu bəy olub, Onun da atası Əhməd ağa olub. Soyadları mənə qaranlıqdır. Mənim soy adım Məmmədov Atamın soy adı Quliyev, Yəqin ki, onun da soy adı Əhmədov olub. Başqa yerləri bilmirəm, bizim Ağbabada qəsdən uşağa babanın adını soy ad kimi veriblər. Burada da ermənilərin məkrli siyasəti əsasdır, Onlar çalışıblar ki, bizlərin izi tozu tarixdən silinsin. Ona görə də ***Sizin yazılarınız məndə emosiya yaratdı. Şükür ki, məlumat verib intizardan çıxartdınız.*** Dediyiniz mənbələrdə yəqin ki, mənim də şəcərəmə aydınlıq gələr. Mərhum akademik Z.Bünyadovun dediyiniz kitabını tapa bilərəmmi.

Nazir Ahmedli: Hidayət müəllim, mən Sizin neçə vaxtdır emosional və əsəbi vəziyyətdə yazdıqlarınızın hamısını oxumuşam, amma bilirdim ki, bunların hamısı məlumatsızlıqdandır. O adamlar emosiyaları coşdurmaq üçün Göbbelsvari yalanlar uydurur və xalqın məlumatsızlığından istifadə edirlər. Amma necə deyərlər, olan olub, keçən keçib. Keçənə güzəşt deyərlər.Başımı qatmasaydılar, İrəvan şəhərinin də 1831-ci ilə aid kameral təsvirini çapa hazırlayırdım. O kitab çıxanda ola bilər ki, babalarınız oradan çıxsın, yaxud Ağbaba mahalının kameral təsvirindən çıxsın. Mən bütün Qərbi Azərbaycanı başdan-başa. Zəngəzurdan tutmuş Ağbabaya qədər çap etmək istəyirdim ki, Qərbi Azərbaycanlılara bir töhfə verim. Amma yəqin barəmdə aparılan şantaj, qaralama kampaniyasından xəbəriniz var. Kimi MTN-ə, kimi məhkəməyə verməklə hədələyir. Nə istəyirlər eləsinlər, heç olmasa təhqir etməsinlər.

Hidayet Agbabali Memmedov: Təşəkkürlər. Nəzərdə saxlayacam. Akademik Z.Bünyadovun göstərdiyiniz kitabını haradan ala bilərəm. Xəbərim var. Sonralar bir-iki yazımı silmişəm.

Nazir Ahmedli: Həmin kitabı Google-axtarış verin, PDF formatda var. Yazarsınız "İrəvan əyalətinin icmal dəftəri".

Mənim statusum
22 iyun 2017.

"Haqq-nahaqq seçilər Haqq divanında" kitabımla bağlı gedən diskussiya və müzakirələrdə istinad etdiyim sənədləri görmək istəyən FB iştirakçılarından ixtisası tarix olan və məsələdən başı çıxanların arzusunu nəzərə alaraq Novobəyazid qəzası (Göyçə mahalının adını dəyişib bu cür eləmişdilər) Ağkilsə kəndinin 1859-cu ilə aid Kameral siyahısını paylaşıram. Həvəsi olanlar sənəddəki adları kitabımda verdiyim siyahı ilə müqayisə edə və sənədin nöqtəsinə, vergülünə dəymədiyimə əmin ola bilərlər. Siyahıda **6.14** nömrəsi ilə qeydə alınanlar Allahverdi və Alməmməd qardaşlarının ailələridir və Alməmmədin də Allahverdinin qardaşı olduğu açıq-aşkar yazılıb.

Yorumlar:

Adalet Tahirzade: Bu sənəd 1859-cu ildə tərtib edilib və orada Ələsgərin 7 yaşı olduğu göstərilib. Deməli, sənəd onun 1852-ci ildə doğulduğunu təsdiqləyir. Sənədin doğruluğu heç bir şübhə doğurmur. Bu əyal dəftərinin tapılıb üzə çıxarılması və nəşri tarixşünaslığımız baxımından çox qiymətlidir.

Nazir Ahmedli: Təşəkkür edirəm, Ədalət bəy, bütün səhifələri paylaşdım ki, həm kitabda verdiyim həmin ilə aid bütün adları müqayisə etsinlər. həm də bütün səhifələrin eyni xətlə yazıldığına əmin olsunlar

Sadaqat Mammadova: 2 esr yashi olan səned hec-qırışmayib belə.....

Nazir Ahmedli: 😄

Sadaqat Mammadova: sənedi hansi firmanin utusu ile utuleyibler, yaxşi reklam ola bilerdi

Adalet Tahirzade: Nazir bəy, anlamağa başlayıram ki, vaxtilə Mirzə Cəlilin Danabaş kəndində çəkdiklərini indi də Siz çəkirsiniz. Sizə çoxlu səbirlər diləyirəm!

Nazir Ahmedli: Var olun, Ustad!

Firuz Mustafa: Maraq doğuran, gərəkli, təkzibolunmaz faktdır....

Sanan Celilli: Bu sənəddə cəmi bir tarixi rəqəm görürük. 1859. 59 rəqəmi çap yox, əl ilə yazılıb. Erməni "tarixçilərinin" zəngin saxtalaşdırma təcrübəsini və bu sınədə onların neçə illər ərzində toxunmaq imkanlarının olmasını nəzərə alsaq, sənədin ciddi ekspertizaya ehtiyac olduğunu anlamaq elə də çətin deyil. Sovet dövründə Açıq Ələskərin 150 illik yubileyi qeyd olunarkən, bu faktdan istifadə edərək o tədbiri pozmamaqlarına da inanmaq çətindir. Buna görə belə "sənədlər"lə işləyərkən ehtiyatlı olmaq lazımdır.

Nazir Ahmedli: Sənan müəllim, sənəd hazır blanklarda yazıldığına görə, 18 rəqəmindən sonra 59 qoyulub. Blankları isə Dövlət qurumunun sifarişi ilə o vaxtkı mətbəədə hazırlayırdılar. Hər şeydə kriminal axtarmayın

Sanan Celilli: Ola bilər ki, həmin dövrdə sənəd düzgün tərtib edilib. mən ona sonrakı müdaxilələrin mövcud ola bilməsindən danışıram. Məncə belə hallarda müxtəlif mınbələrin müqayisəli araşdırmasını apararaq əsl həqiqəti üzə çıxarmaq olar.

Sanan Celilli: Hörmətli Nazir bəy, həm də siz bu sənədə inana bilərsiniz, öz işinizdir. Lakin o qədim mahalın bir sakini kimi mənim babalarımdan və hörmətli ziyalılardan eşitdiyim informasiyalar mənə şübhələnmək üçün böyük bir əsas verir.

Nazir Ahmedli: Müqayisə etmək barədə Sizinlə razıyam. Amma məsələ burasındadır ki, müqayisə aparmağa başqa mənbə yoxdur. Həm də gördüyünüz kimi, nə adlarda, nə rəqəmlərdə düzəliş yoxdur. Üçüncüsü isə, başqa illərin kameral siyahıları da var axı. Birində düzəliş olsa, hamısında düzəliş olmalıdır ki, bir-birinə uyğun gəlsin. Dördüncüsü isə, adamların yaşını dəyişmək kimin nəyinə lazımdır axı? 1821-ci ildə doğulsaydı 1859-cu ildə Ələsgərin 38 yaşı olmalı idi. 38 yaşındakı kişini kim 7 yaşında yazardı? Həm də oğlan uşqğı 15 yaşına çatanda vergi verirdi. Rus məmuru onun yaşını kiçildib, dövlətinə ziyan vurardımı?

Sənan Cəlilli: Birinci sənəddə "düzəliş" edən əl yəqin ki, o biri sənədləri də saxtalaşdırmağı unudacaq qədər hərif

olmamalıdır. Unutmayaq ki, erməni alimləri belə işlərin mahir ustalarıdır. Mən uşaq olanda bir erməni səfil kimi dağlarda, qəbristanlarda gəzirdi. hamı onu axmaq bir səfil hesab edirdi. Lakin sonralar məlum oldu ki, o tarixi yerlərə erməni xaçı basdırmaqla məşğul olurmuş.

Nazir Ahmedli: Sənan müəllim, ermənilərin saxtakarlığı bizə də, bütün dünyaya da məlumdur. İlya Çavçavadze də onların saxtakarlığından yazıb. Amma bu sənəd erməni sənədi deyil, Rusiya dövlətinin rəsmi sənədidir.

Sanan Celilli:Nazir bəy, mən belə düşünürəm ki, burada tarixi dəyişməklə "pəncərələr" yaradıb oraya "köklü" ermənilərin "qovulub-qayıtması" üçün şərait yaratmaq məqsədi güdülə bilər.

Niftali Goyceli: 6. 14... Nazir bəy, "Alesker" adı və ailə üzvləri Aşıq Ələskər ailəsi ilə çox az oxşar olsa da, Aşıq Ələskər ailəsi deyil...***Aşıqlar yaz açılandan, qar yağana qədər Göyçədə yox, başqa ellərdə səfərdə olurlar...***İvan Şopenin siyahıyalma işini icra edən erməni nümayəndələr bəzən kənd adlarını da səf salıblar və Göyçə kəndlərini Dərələyəz, Dərəçiçək mahallarına da aid ediblər...Göyçədə erməni kəndlərinin də adlarını məlum olmayan adlarla həddən çox artırıblar...Nə isə, nə Vatikan missiyaneri Şopen, nə də erməni yalanları "Quran" ayələri deyil...

Niftali Goyceli Nazir bəy, bu sənədə də baxın, burada 1831-ci il "Агикилииса" haqqında məlumat var...Böyüdəndə oxunacaq..

Niftalı Göyçəli paylaşdığım sənədin üstündə Fotoşop praqramı ilə düzəliş edib mənimlə höccətləşməyə başlayır. İndiyə qədər deyirdilər sənədin surətini fb-də paylaş baxaq görüm doğrudanmı var, indi də belə məzələnirlər. Bir müddət sonra Sabutay Hacıyev adında bir şarlatan Rusiya Dövlət Arxivinin adından saxta bir "sənəd" paylaşıb ictimaiyyətdə müəyyən çaşqınlıq yaratmışdı. Görünür, kompüter proqramlarının köməyi ilə bu cür işləri görməyi elə Niftalı Göyçəli onun ağlına salıbmış.

Nazir Ahmedli: Niftalı bəy, gərək onu 1828 edəydiniz ki, 7-ni çıxanda 1821 alınaydı😂

Niftali Goyceli: Nazir bəy, mən hələ elektronikadan cüzi bilirəm...bilənlər məndən yüz qat saxtalaşdırma işində üstündürlər...o da qala rus-erməni şeytanlarına...Ələsgərin yaşını 3 il az da yaza bilərdilər, o zaman dəqiq doğum kağızı yox idi ki...

Niftalı Göyçəli etiraf edir: "Nazir bəy, mən hələ elektronikadan cüzi bilirəm... bilənlər məndən yüz qat saxtalaşdırma işində üstündürlər".

Afərin. N.Göyçəli! Saxtakar olduğunu axır ki, boynuna aldın!

İlyas Şahquliyev:Aşiq Niftali Göyçəli, Aşiq Ələsgər tək sizin yox, bütün bu xalqin babasi, ağsaqqalidir.Siz yazirsiniz: AŞİQLAR yaz açilandan, qar yağana qədər Göyçədə yox,başqa ellərdə səfərdə olurlar...AŞİQ Ələsgər təklif olunmamiş yerə getməyib. Aşiq Ələsgərdən nə istəyirsiniz .BELƏ DƏ TƏHQİR OLAR? Əvvəl savadsiz, indisə... onu dilim gəlmədi yazam 🤭 göstərmisiniz. Sizə nə deyim?Özünüz seçin.

Həkim Eloğlu: Hörmətli yoldaşlar! Həmin vaxtkı rus-erməni ittifaqının gələcək siyasətinin proyektinə görə bu siyahı belə tərtib olunurdu. Çün ki, gələcək yüzillik planda qədim Azərbaycan torpağında Ermənistan dövləti qurmaq dururdu. Nə vaxtdan Azərbaycan tarixi ruslar və ermənilər tərəfindən təhrif olunmamış şəkildə göstərilib? Bilirsinizsə deyin, xahiş edirəm. Diqqətiniz üçün təşəkkür edirəm!

Niftali Goyceli: 1828-ci ildən əvvəl də erməni məkri gedirdi və 1828-ci ildən-işğaldan sonra ən çox İrəvan xanlığında erməni yalanları vüsət almağa başladı..."kameral" yazı da İvan Şopenin (Vatikan missioaneri) köməkçiləri ermənilər tərəfindən aparılmışdır. Bundan əlavə ermənilər öz xeyirlərinə Sovet dövründə də tarixi mənbələrə əl atmaları "məşhüri-cahandır"...

Nazir Ahmedli: İvan Şopenin Göyçə mahalında qeydiyyatçı köməkçisi Arxip Rıjkovun milliyətini erməni olmadığı açıq-aşkar göz qabağındadır.

Niftali Goyceli: ermənin adının Qərib, İvan, Arxip olması təəccüblü deyildir...

Həkim Eloğlu: Yəqin ki, təkcə Dədə Ələsgərin deyil bütün əhalinin yaşını az göstərməyə çalışıblar ki, türklər burada çoxdan yaşamayıblar deyə bilsinlər.

Bu lap quşu "gözündən vurur!"

Müzakirələrin, mübahisələrin getdiyi vaxtlarda nə qədər bu cür "dahiyanə" mülahizələrin, "elmi kəşflərin" şahidi olduq!

Nazir Ahmedli: Arxip Rıjkov tərtəmiz rusdur. O vaxt ermənilər arasında hədsiz dərəcədə türk-müsəlman adlarına rast gəlinirdi və bu da təəccüb doğurmamalı idi. Çünki onlar bizim mədəniyyətin tam təsiri altında idilər, türkcə danışırdılar və söydüyünüz Şopen yazır ki, ermənin özünün musiqisi-zadı yoxdur, hər şeyi türklərdən götürüblər.

Həkim Eloğlu: Bu yerdə Şopenin həmvatına bir Fatihə)))))

Nazir Ahmedli: Abbas bəy, Dədə Ələsgərin yaşını kiçik göstərməklə həmin məqsədə nail ola bilməzdilər, axı ondan yaşca böyüklər vardı, əhalinin atası, babası.

Abbas bəy deyə müraciət etdiyim şəxs Hacı Abbas Bağırovdur. O vaxt Abbas Bağırov imzası ilə yazırdı, sonradan profilini dəyişib Həkim Eloğlu etmişdi. Mən bu yazışmaları arxivləşdirəndə kompüterdə Həkim Eloğlu kimi görünürdü.

Həkim Eloğlu: Bütün əhalinin yaşını nəzərdə tuturam. YƏNİ DƏDƏ ƏLƏSGƏRİN DƏDƏSİNİN BABASININ. Sadəcə bu təxmin etdiyim bir mülahizədir. Xətası ola bilər. Çün mən tarixçii deyiləm. Bircə onu bilirəm ki, nə rus, nə də erməni bizim

tarixi maraqlarımızı olduğu kimi saxlamayıb. Saxlaya bilsəydi məkrli planlarının həyata keçməsi yəqin ki, çətin olardı.

Nazir Ahmedli: Abbas bəy, sənəddən görünür ki, Almə-mədin böyük qardaşı Allahverdinin oğlanları var. Ələsgərin qohumları və mənim opponentlərim niyə o qohumları inkar edir? Halbuki, Xoşqədəm bir şou düzəldib guya Rusiyada kimisə tapdığını göstərəndə hamı əvvəlcə ağlayır, sonra da alqış tökür!

Ələsgərin 3 əmisi oğlu, onların oğlanları, yəqin böyük bir eldir. Niyə onlardan imtina edirlər? Yazıqların günahı nədir?

Niftali Goyceli: Qəribə burasıdır ki, bu Avropa (Vatikan) missionerlərinin tülkü hiylələrini hələ də anlaya bilmirik. Haradasa bir "yağlı" söz işlədib girib qəlbimizə...Onsuz da, dünyada Adəm və Həvvadan törəyən, dinlərin parçaladığı bəşəriyyət hər bir təfəkkür formalarında dolayısı ilə ortaqdırlar...

Həkim Eloğlu: Hörmətli Nazir müəllim! Hər kəs öz əsil əcabətini rusun yazdığından yaxşı tanıyır. Siz də zəhmət çəkib bu kitabı yazanda alternativ mənbələrdən istifadə etsəydiniz bəlkə də bir qədər sular duru görünərdi. Sadəcə Sizdən yaşca kiçik olsam da xahiş edirəm ki, polemikanı hər kəs sivil şəkildə aparasınız. Bu yazıları hər yaşda, hər cür adam oxuyur. Lazımsız ifadələr ayıbdır. Əgər səhv deyirəmsə üzürlü sayın.

Abbas Bağırov verdiyim sualdan yayınıb nala-mıxa vurur.

Nazir Ahmedli: Hacı hansı ifadəm xoşunuza gəlmədisə, silməyə hazıram. Məncə kimisə incidəcək ifadə yazmadım.

Həkim Eloğlu: Burdakı yazılar təmizdir şükür. Ö biriləri nəzərdə tuturam. Diqqətiniz üçün sağ olun.

Nazir Ahmedli: Hansını nəzərdə tutursunuz? Mənə alçaqcasına qurşaqdan aşağı zərbə vurmağa cəhd edənə cavabımı nəzərdə tutursunuzsa, o məni məcbur etdi. Göyçə və göyçəlilər haqqında hansısa pis söz işlədənin atasına min lənət! O, sadəcə məntiqli söz tapmayıb ən alçaq üsula əl atır. Beləsinə cavab verməyim?

Həkim Eloğlu: Mənə təsir edən budur ki, öz daşım öz başımı yarır. Bu ifadəmə görə üzrxahlıq edirəm.

MÜRACIƏT

24 iyun 2017.

Mürvət Yusifov:

Azərbaycan Aşıqlar Birliyinə

Azərbaycanın dəyərli folklorşünaslarına

Azərbaycanın mütərəqqi fikirli elm adamlarına

Azərbaycan aydınlarına

Müraciət

Göyçə mahalının tarixini, saz-söz sənətinin korifeyləri-Ağ Aşıq, Ustad Alı, Dədə Ələsgərin həyatı və yaradıcılığını təhrif edən kitabın (Nazir Əhmədli) çapından sonra narazı ziyalıların Folklor İnstitutuna və digər təşkilatlara müraciəti olmuşdu.

Məsələnin birbaşa aidiyyatı olduğu bu qurumun loyal münasibəti ideyanın elə bu qurumun mətbəxində hazırlanmasına şübhə yaradır. Yalnız rus-erməni arxivinə istinad edən bu kitabda 19-cu əsr Göyçə mahalının tarixi bütünlüklə təhrif olunur. İdeoloqları tərəfindən "tarixi inqilab" adlanan bu kitabın Azərbaycan tarixinə dolayısı ilə kölgə salacağı təhlükəsi var. Belə ki, müəllifin özünün bəyan etməsindən məlum olur ki, növbədə

Qərbi Azərbaycanın digər mahalları da var. Ümummilli mənafeyimiz naminə Sizləri mövqe bildirməyə çağırıram.

Yorumlar:

Bədirə Niftalıyeva: "Haqq inceler, üzülmez"- ne qeder saxtalaşdırsalar da mümkün deyil- xalqımızın tarixi bir çeşmedi---- zaman- zaman durulacaq!!!!!!

Mina Əliyeva: Şəxsən mənə maraqlı gələn odur ki, ziddiyyətli fikirlərlə dolu olan və bu qədər böyük narazılığa səbəb olan bu kitab haqqında etiraz məzmunlu məktublarla müraciət etmiş ziyalı təbəqənin fikrinə əlaqədar təşkilatlar nədən reaksiya vermir? Niyə fikir bildirmirlər? ! Bildirirlər)))Amma çox acizanə və təəssüf doğuran gülünc cavab(((

Mina Əliyeva: Mürvət müəllim, dediyinizdən belə nəticə çıxarmaq olar ki, əgər əlaqədar olanlar da suyun üstü ilə üzüb keçirilərsə, demək,"kitabın qabırğası qalındır", heç kim kürəyini yerə vura bilmir, yaxud da hərə öz kölgəsini qoruduğu üçün dərinə getmək istəmir...

Murvet Yusifov: O kürəkləri bizlər vuracağıq yerə Mina xanım.

Mürvət dastan personajları kimi hərbə-zorba gəlir: "O kürəkləri bizlər vuracağıq yerə Mina xanım". Yeri gəlmişkən, oxucular görəcəklər ki. bu. M.Yusifovun yeganə hərbə-zorbası deyil.

Niftali Goyceli: Mənim dostluğumda olan Flora xanım Nazir Əhmədliyə belə bir məlumat verməklə müraciət edir: "Putin ermənilərə deyəndə ki, sizin haradan gəldiyiniz çar arxivində var..." bu hadisədən sonra ermənilər "Peterburq Çar arxivi"ndə yanğın törətdilər. İndi sizin əldə etdiyiniz o kameral haradandır?..Nə isə, Nazir Əhmədli belə suallardan qaçmaqda davam edir və yazdıqlarının doğru olduğunu israr edir...Bu onun

öz işi, amma dövlət tarix və ədəbiyyat elmi mərkəzləri bu qərəzli kitaba qanuni münasibət bildirməlidir...

Nazir Ahmedli: İnşallah, bildirərlər. Niftalı bəy

Eldar Ismayil: Şopenin adı ilə təqdim olunan bu sənədi ermənilər hazırlasyıb ortaya qoymuş və bu gün də bizi barmaqlanda oynadırlar. Bu sənədə mən baxdım. Tamamilə saxtadır. Kəndlərin adları düz deyil,, Bəzən Dərəçiçəkdən, Qırxbulaqdan olan kəndləri gətirib Göyçəyə qatıblar. Adamların adının, yaşının qondarma olduğu ilk baxışda diqqəti cəlb edir. Göyçədə yaşayan əhalinin böyük qisminin ***Qarapapaq*** kimi göstərilməsi göstərir ki, ***bu siyahı Vartazarın stolunun üstündə yazılmışdır.***Ümumittətlə ermənilərin tərtib etdiyi Şopen sənədlərinə bizim istinad etməyimiz çox yanlışlıqdır.Mən bu günlərdə bu sənəd haqqında fikilərimi bildirəcəm.

Nazir Ahmedli: Eldar müəllim, Göyçədə çoxluq təşkil edən türk əhalini qarapapaq göstərmək səhvdirsə, onları necə adlandırmağı daha doğru hesab edirsiniz?

Aradan aylar keçsə də, E.İsmayıl hələ də həmin sualıma cavab verməyib. Ürəyində tutduğu və indiyə kimi yazdığı cızmaqaralarda özlərini türk-oğuz adlandırmağı yadımdadır. Amma burada başqa bir sual da çıxacaq: 24 oğuz boyundan hansına mənsubsunuz? Təbii ki, bu sual cavabsız qalacaq.

Əgər xatırlayırsınızsa, mənimlə mübahisə edən vaxtlarda yazmışdı ki, əcdadlarım İranın Sulduz mahalından əvvəlcə Göyçənin Dəliqardaş kəndinə gəliblər, orada bir neçə il yaşadıqdan sonra isə Ağbulaq kəndinə köçüblər. E.İsmayılın yeganə fikridir ki, onunla razılaşmaq olar. Amma həmin fikirləri tamamlamaq lazımdır ki, E.İsmayıl ya onları bilmir, ya da bilmək istəmir:

1.Babaların Sulduzdan 1814-cü ildə gəliblər.

2.Təkcə sənin babaların yox, həmin vaxt Sulduz mahalından Göyçə mahalına köçənlərin hamısı qarapapaq türkləridir.

3.İrəvan xanlığının işğalından sonra 800 qarapapaq ailəsi başçıları Nağı xanla yenidən İrana qayıdıb.100 qarapapaq ailəsi isə Türkiyəyə gedib.

4.Ədirnə sülhündən sonra 1830-cu ildə Rusiya hökuməti Türkiyənin Bəyazid Paşalığından köçürdüyü 1.485 erməni ailəsini Göyçənin cənubundakı kəndlərdə yerləşdirib, o cümlədən də E.İsmayılın babalarının yaşadığı Dəliqardaş kəndində 108 erməni ailəsi yerləşdirilib. Çox güman ki, ermənilər həmin kəndlərə yerləşdiriləndən sonra E.İsmayılın ermənilərlə bir yerdə yaşamaq istəməyən qarapapaq (oğuz yox!) babaları həmin 1830-cu ildə Göyçə gölünün şimalında olan Ağbulaq kəndinə köçüblər və 1831-ci ildə tərtib edilən ilk Kameral siyadıda (Şopenin siyahısı kimi tanınır) siyahıya alınıblar.

5.E.İsmayılın səhvlərlə tərtib etdiyi nəsil şəcərəsində Babacan və onun qardaşları, o cümlədən oğlu İsmayıl qeydiyyata alınıb.

Tövsiyə edirəm ki, mənə acıq etməyib həmin babalarına, ulularına sayğı ilə yanaşsın və gələcək yazılarında həmin sənədlərə istinad etsin.

6.Həmin sənədlərdən məlum olur ki, Babacan 1801-ci ildə, oğlu İsmayıl isə 1837-ci ildə doğulublar.

7.E.İsmayıl Babacanın atasının adını Qulu kimi vermişdi, amma məlum oldu ki, Babacanın atası Qulu deyil, Mehdidir.

Murvet Yusifov: Bunu dəfələrlə izah ediblər.....

Şahlar Haciyev: Tariximizə, mədəniyyətimizə böyük zərbələr vurub məhv etməyə çalışan, tariximizə düyünlər vurmaqla məşğul olan şovunist RUS arxivlərindən məlumatlar götürüb təhrif olunmuş şəkildə kitab yazmaq ən azı nadanlıqdır. Nazir Əhmədli və Nizami Cəfərov bu məlumatların saxtalaşdırılmış olduğunu çox gözəl bilirlər. Bilə-bilə də kitab halına salmaqda Göyçə ziyalılarına hörmətsizlik ediblər... nə isə. Nazir Əhmədlini əməlli-başlı reklam elədik, tanıtdırdıq.

Bu başabəla "tarixçi" neçənci dəfədir ki, təhqirlərdən əl çəkmir.

Fəridə Qədimova: Çox doğrudur, Şahlar müəllim....Bəlkə də məqsədli şəkildə bu müzakirəni daha da genişləndirdilər. Bayaq 5 - 3 nəfər oxuyacaqdısa, indi maraqlar artıb kitabı oxumağa, bu da Rus və erməni mənbələrinə istinad edən kitab müəllifinə xeyir elədi(((

Murvet Yusifov: Kitabın ideoloqlarının təxribatları davam edir.

Murvet Yusifov: Bütün dostlar məlumatlansın

Murvet Yusifov: Fəridə xanım, 28 iyun Qərbi Azərbaycanlı Ziyalıların Fikir Mübadiləsi tədbirindən dərhal sonra iştirakçılara təzyiqlər, hədələr başlayıb. İnsanları təqib və təhdid edirlər. Yuxarıda dostlara onu işarə verdim...

Mən dünyada hələ bu qədər həyasız yalan görməmişəm!

Kim təzyiq göstərib, kimə göstərib?Belə bir fakt ola, Mürvət də onu ictimailəşdirmək fürsətini əldən qaçıra! Belə bir şey olmayıb, sadəcə olaraq mən demişdim axı, Mürvət Göbbelsin üsullarından yararlanır!

Seyyare Memmedli: Mən təəssüf edirəm ki, Atatürk Mərkəzində çalışan bir əməkdaşın yazdığı kitab türkü bu dərəcədə narazı salıb! Bunu necə başa düşmək olar!?

Mənim statusum

26 iyun 2017.

Nəşrə hazırladığım Qərbi Azərbaycan mahallarının Kameral siyahıları ilə bağlı bir qaraguruhçu dəstənin irticası davam edir. Bu qaraguruhçular 3 şüar irəli sürür:

1.Böyük aşıqlarımızın doğum tarixlərinin dəqiqləşdirilməsi onları təhqir etməkdir.

2.Kitab müəllifindən donos yazaq.

3.Nazirin nə marağı var bu kameral siyahıları çap etdirir?

İlk 2 məsələni bir kənara qoyub, birbaşa 3-cüyə keçmək istəyirəm.

Məlum olduğu kimi, osmanlıların işğal etdikləri ərazilərimizdə tərtib etdikləri müfəssəl və icmal dəftərlərini bu sahənin patriarxı sayılan Hüsaməddin Qaramanlı (Ziya Bünyadovla birlikdə) "Qarabağ əyalətinin müfəssəl dəftərini (1727-ci il)", "Naxçıvan sancağının müfəssəl dəftərini" (1727-ci il) çap etdirib. "İrəvan əyalətinin icmal dəftərini" (1728-ci il) çapa hazırlayıb, ancaq onu çap etdirmək üçün vəsait tapmayıb, çox çətinliklərdən sonra çap etdirdiyi həmin kitabda belə cümlələr yazıb:

"Bu mühüm mənbənin nəşri ilə bağlı olaraq müraciət etmədiyimiz səlahiyyətli və imkanlı şəxs qalmadı. Bizi təəccübləndirən onların bu kitabı nəşr etdirmələri üçün imkanları olduqları halda vəsait ayırmamaqları deyil, iç üzlərini açaraq öz elinin-obasının tarixi keçmişinə nümayişkaranə şəkildə biganəlik göstərmələri olmuşdur. Heç gözləmədiyimiz halda bu əsərin çapının həyata keçirilməsini İrəvan əyalətinin ərazisi ilə bağlılığı olmayan bir şəxs, filologiya elmləri namizədi Zəminə xanım Hacıyeva öz üzərinə götürdü. Ümumi mənafeyi üstün tutaraq əsl vətəndaş kimi hərəkət etmiş Zəminə xanıma öz təşəkkürümüzü bildirir və elmi işlərində uğurlar diləyirik"

Çox yaxşı eləyib də yazıb bu sözləri. Bəzi qaraguruhçular, üzdəniraqlar, işverənlər mənə hücum etməkdənsə, bütün Qərbi Azərbaycanlıları haqlı töhmət altında buraxan bu qınağın aradan

qaldırılmasına çalışsaydılar, bəlkə günahlarının yüzdə birini yuya bilərdilər.

"Dərələyəz mahalının Kameral təsviri" kitabımı internetdən oxuyan H.Qaramanlı (hazırda Kanadada yaşayır) e-poçtuma göndərdiyi məktubda yazır:

"Salam Nazir muəllim,

Siz cox dəyrli bir iş görmüsünüz.Həm çox faydalı və zəngin bir mənbəni tərcümə etmisiniz, həm də bu sahədə gözəl bir ənənənin- Kameral təsvir kimi mənbələrin elmi dövriyyəyə buraxılmasının əsasını qoyursunuz.Bizdə bu tip mənbədən hər kəs özünə lazım olan bir fakti istifade edərdi ve bununla da kifayətlənərdi. Siz ise, bu menbeni Mənbəşünaslğın araşdırma obyektinə çevirirsiniz. Bele bir niyyətiniz varsa,Sizə uğurlar arzu edirəm.Mənce bu Sizdə çox yaxşi alinar.

Hüsaməddin".

Hesab edirəm ki, irticanın 3-cü şüarına cavab verdim və bu kameral siyahıları çap etdirməkdə nə marağım olduğunu FB iştirakçılarına anlada bildim. İrtica qüvvələri onsuz da anlamayacaq və bəlkə də yeni-yeni ittihamlar hazırlayacaqlar!

Teyyub Memmedli: Elə bu qaragüruhçu adlandırdığınız dəstəyə gərək bir orucluq süfrəsi açaydınız. Çünki sizin kitabınızdan xəbəri olmayanlar da xəbər tutub onu əlbəəl axtarırlar.Onlar bu kitabı yaxşıca təbliğ etdilər.

Eynulla Ismayilov: Onlar gəldi - gedərdi, Sizin işləriniz millətçin, mədəniyyətimiz üçün, dövlətçiliyimiz üçün, musiqişünaslığımız üçün bir tarixi - vacibi Töhfədir.Var olun . Yazın yaradın .....

Nazir Ahmedli: Çox sağ olun, Eynulla müəllim.

Metanet Saraclı: Hüsemeddin Qaramanlını men de savadlı bir mütexessis kimi tanıdığımdan onun reyini yüksek qiymetlendirir, size uğurlar dileyirem.

Bayram Babazade: Cavidi, Müsfiqi bu cur adamlar mehv edib, size de qiymazlar, mumkun olsa,bu birincisi, ikincisi gara-guruh, irtica dediyin hemise movcud olub, var,olacag. Burada deyilir ki, onlara sufre acmaq, bas gosmamag, onlar geldi geder-di... mahiyyetce teslim demekdi.Torpaglari teslim etmek kimi... Uzeyir beyi xatirlayin...

Faiq Mammadov: Bu siyahıyaalmaya men şübhe ile yanaşıram eger eledirse onun süretlerni teqdim edilse yaxşı olardı ve bu şübhelere son qoyulardı

Nazir Ahmedli: Mən o surətləri FB-də paylaşmışam, baxa bilərsiniz

Niftalı Göyçəlinin statusu

30 iyun 2017.

ALLAH SEVGISI

Biliyi kamildir, ədəbi əla,

Hacı, doktor Abbas-Rəbbin vergisi.

Təfəkkür sahibi dərindən-dərin,

Qəlbinə hakimdir Allah sevgisi.

Üzündə nuru var, sözündə hikmət,

Əməlində saleh, əldə səxavət,

İstəyi Haqq yolu, düzlük, ədalət,

Sirlər aləmindən verilib dərsi.

Göyçəli, Yaradan divan yaradıb,

Şeytana uymayan mərifət dadıb.

İmanı olanı Mövlam ucaldıb,

Təqva qəbul edən anlayar bəhsi.

Rəylər:

Aylardır mənasız və dolaşıq sözləri ilə baş-beynimi tökən, qırıq val kimi eyni sözləri dəfələrlə təkrarlayıb milləti bezdirən Niftalı Göyçəliyə təsir etmək imkanı yarandı. "Almaz" pyesində Aftilin Ocaqqulunu "axsaq qatır"söhbəti ilə cin atına mindirməsi epizodundan yararlanmaq qərarına gəldim. Onun "şeir" adına camaata sırıdığı cızmaqaralarını tənqid etməyə başladım. Niftalı Göyçəli də cızmaqaralarının haqlı tənqidinə ağrılı reaksiya verdi..

Nazir Əhmədli: Niftalı müəllim, şeiri ünvanladığınız Hacı Abbas Bağıra mənim də hörmətim var, amma bir oxucu kimi nəzərinizə çatdırmalıyam ki, şeir texnikanız çox zəifdir. hətta deyərdim ki, bərbaddır. Burada işlətdiyiniz "vergisi", "sevgisi", "dərsi" və "bəhsi" sözlərinin heç biri digəri ilə həmqafiyə deyil. Güman edirəm ki, tənqidimdən inciməyib yaradıcılığınızı təkmilləşdirəcəksiniz. Sizə yaradıcılıq uğurları arzulayıram.

Və seçdiyim üsul bəhrəsini verir, N.Göyçəli geri çəkilib aramızdakı münasibəti yumşaltmağa çalışır:

Niftali Goyceli: "dərs", "bəhs" köklü qafiyədir... Linqvistikada söz "morfem"ləri ism olanda şəkilçili işlədilməsi zərurəti yaranır və qafiyə kimi işlədilə bilər. nə?-sevgi-si və s. Bu cür klassiklərdən istənilən qədər misallar çəkmək olar...Qaldı ki, şeiriyyətdə mən A.Alıdan, A. Ələsgərdən sonra "dodaqdəyməz" janrında çığalı qoşma təcnis, gəraylı cığalı təcnis, gəraylı deyən yeganə şairəm...Homerdən sonra, Dədə Qorquddan sonra epos yazan da mənəm...Nə isə, özümü çox tərifləmişəm...nəzəri münasibətinzə hörmət edirəm və təşəkkürlərimi bildirirəm...***Allah şeytana lənət eləsin! Çox heyiflər olsun ki, sizin kimi dərin savadlı intellektli, elmi təfəkkürə malik bir qan-can soydaşımızla gərgin münasibətlərdə bulunduq!*** Yazmağa mövzumu azdır? Bilik potensialınızı səmərəli istiqamətə yönəltmiş olsaydınız, haralara yüksələ bilərdiniz! Allah rəhm eləyib bizi aydınlığa çıxarsın! Amin!

Nazir Ahmedli: Niftalı bəy, mənim intellektimə verdiyiniz dəyərə görə sizə səmimi təşəkkür edirəm. İnanıram, vaxt gələcək ki, mənim yazdığım kitablarda Göyçəlilərə və o cümlədən Göyçəli dahilərimizə də sevgidən başqa bir hissin olmadığına əmin olacaqsınız. Bəzi adamların göyçəliləri qıcıqlandıran məsələləri bilərəkdən ortaya atdığını görəcəksiniz. Belə məsələlərdən biri də Göyçədəki milli məsələsidir. Hazırda mətbəədə olan "Göyçə mahalının kameral təsviri. 1831-ci və 1842-ci illər" kitabımdan sizinlə bir məlumatı bölüşməyi vacib bilirəm. 1831-ci ildə Göyçədə qeydiyyata alınan 227 milli ailəsindən 1842-ci ildə cəmisi 16 ailə qalıb ki, onlar da yalnız Qızılvənk kəndindədir (Kənddə 8 qarapapaq ailəsi də var). Millilərin Vedibasara köçdüyünü dəfələrlə sizlərə yazmışdım. Onların Göyçəyə qarapapaqlardan sonra Gərnibasardan gəldiyi haqqında Şopenin verdiyi məlumatı da dəfələrlə təkrar etmişdim. Bir daha təkrar edirəm, millilər Göyçəyə qarapapaqlardan sonra gəlib, qısa bir müddətdən sonra da çıxıb gediblər. Çoxsaylı rəylərdən oxuyuram

ki, bəziləri milliləri ermənidən də artıq düşmən sayır. Əgər belədirsə, Göyçəlilər fəxr edə bilər ki, onların babaları milli kürdlərini(hərçənd bir çoxları onları türk hesab edir) Göyçədən çıxarıblar. Allah doğrudan da şeytana lənət etsin. Bir çoxları ermənilərin dədə-baba torpaqlarımıza,(o cümlədən Dərələyəzə) yiyələnməsinə o qədər emosional reaksiya vermirlər, nəinki, bir ovuc millinin 10-15 il Göyçə mahalında yaşamasına. Əsasən heyvandarlıqla məşğul olan millilər köçəri tayfalar idi və gah bu mahala, gah da başqasına köçürdülər. Xahiş edirəm bu rəyimi də Sizlərin mənim haqqımdakı görəcəyiniz tədbirlərə görə ürəyinizi yumşaltmaq cəhdim kimi qiymətləndirməyəsiniz. Qədərimiz nədirsə, başımıza o da gələcək. Allah yar və yardımçınız olsun!

Niftali Goyceli: Allah aydınlığa çıxarsın, Amin!..

Maarif Piraliyev: Müəyyən zaman kəsimində polemikada, mübahisədə bulunan Niftalı Yusubov (Göyçəli) və Nazir Əhmədli, hər ikiniz mənimçün qiymətlisiz.Niftalı qırx ilə yaxın bir müddət dostum, Nazir müəllim isə qonşu kənddən olan bir Aydın.(baxmayaraq ki,bir-iki yas mərasimlərindəki görüşümüz istisna olmaqla aramızda sıx münasibət olmayıb).Sizin elmi araşdırmalarınızın düşmənçiliyə keçməsini istəməzdim.

Nazir Ahmedli: Təşəkkür edirəm, Maarif müəllim. Əgər təhqirlər olmasa, hər cür tənqidə, polemikaya açığam. Həqiqət elmi mübahisələrdən doğar. 1831-ci ildə Göyçə mahalında 577 qarapapaq ailəsinin yaşaması məni şübhələndirmişdi. Çünki qarapapaqlar müharibə olan halda döyüşə 1.000 nəfər atlı döyüşçü çıxartmalı idi. Nəhayət, elmi mənbələrdən tapdım ki, 800 qarapapaq ailəsi İrana köç edib. Buradan da mənim mülahizələrim özünü doğrultdu və həmin faktı kitaba yazdığım ön sözə əlavə etdim. Mən əleyhdarlarımdan bu cür elmi mükahizələr gözləyirəm, onlar isə..

Niftalı Göyçəlinin münasibətində yumşalmanı görən Mürvət Yusifov tez-tələsik araya girir. Sonradan düşmən kəsildiyi Niftalı Göyçəlinin "poeziyasını" göylərə qaldırır:

Murvet Yusifov: Niftalı müəllim, sizin poeziya dilinizin gözəlliyinə söz ola bilməz. Hacı Abbas həkimə ithaf etdiyiniz şeer isə yüz minlərin qəlbindən gələn istəklə həmahəng olduğuna görə daha gözəldi! Yeri gəldi, gəlmədi müdaxilə edib, öz hərəkətlərini unutdurmağa çalışan, söhbətin məğzinə diqqət etməlidi!

Həkim Eloğlu: Əziz qardaşım Mürvət müəllim, iltifat olunan yerdə adam buz kimi əriyir Vallah! Allah başınızı daim uca dağların başı kimi əzəmətli eləsin! Mənə Siz əzizsiniz, demək olar ki,bir beşikdə böyümüşük ona görə Sizi yaxşı tanıyıram.

Murvet Yusifov: Hacı Abbas həkim -əziz qardaşım, Ulu Yaradan yolunu açıq, başını həmişə uca eləsin. Niftalı müəllimin də qələmi iti olsun.Amma hər an qan qaraltmağa çalışan adamın sizin kimi allahın istəkli bəndəsinə həsr olunan mövzuya başqa rəng qatması məni nəyəsə məcbur edir. Hərçənd ki, Sənin çağırışınla mövqeyimi yumşaltmağa çalışmışdım.

N.Göyçəli Mürvətin tərifindən çox məmnun qalıb cavab "tostu" deyir:

Niftali Goyceli: Mürvət bəyin Haqq-ədalət təfəkkürü "kristal-saf-almaz" mahiyyətə əsaslanır...Bu da insan əzmini ucaldan, çoxlarından seçmli əlamətdir...Olur də, bəzən keçiləsi məqamlar da ortaya çıxır...Mürvət bəy var olsun!

Həkim Eloğlu: Allah ürəklərinizə görə versin!

Nazir Ahmedli: Amin!!

Ebulfet Adil Oglu: Ürəyinizə sağlıq, var olun Niftali müəllim, təbinizə qüvvət. Hacı Abbas həkimə də can sağlığı arzulayıram.

Həkim Eloğlu: Var olun hörmətli, Ebulfet Adil Oglu

Shirazi Ibrahimov: Niftalı müəllim, sağ olun ki, Hacı Abbas həkimin əməllərini və xarekterini nəzm şəklində ifadə etmisiniz. Sizin qələminizdən çıxan bütün əsərlərinizi ədəbiyyatsevərlər yüksək qiymətləndirirlər. Sadə bir oxucunuz kimi sizə yeni yaradıcılıq uğurları arzulayıram.

Aqşin Hacı Zadə: Kimliyindən asılı olmayaraq gözəl insanın, sadə insanın, saf insanın qarşısında hörmətdən,sevgidən irəli gələrək baş endirmək ucalmaqdır. Abbas Baqir bu sadalanan və sadalanmayan bir çox müsbət cəhətlərin əsl sahibidir. Allah daha uca etsin əziz ellimizi, dostumuzu. Müəlif Niftali Goyceliyə bu şeirdə qüsur tutmaq yersiz alınır. Bilirsiz ortada dəyərli fikir, mövzu, sevgi varsa, qafiyə və ya nəsə oxşarlığı çatışmaya bilər, olsun, bu tarixi bir əsər deyil ki, ciddi qüsur ola. Əsas odur ki, yazı yazanda minlərin, milyonların, xalqın ruhunu məhv edəcək fikir olmasın. Hər iki dostumuza eşq olsun.

Fəridə Qədimova: Aqşin müəllim, icazənizlə bu gözəl fikirlərinizə şərik olum.Hər iki şərəfli, qeyrətli Vətən oğullarına can sağlığı arzu edirəm.Həmişə dost sevgisi, el məhəbbəti sizlərdən, bütün gözəl dostlardan əskik olmasın!

Ebulfet Adil Oglu: Niftali müəllimin şerinə qüsur tutmaq qoca qarı qeybəti kimi bir şeydir, yox savad yoxlamaqdısa Niftali müəllim yuxarıda yazdıqlarının izahatın verib. ***Mənim ömrüm boyu nifrət etdiyim fənn Azərbaycan tarixi olub,*** amma qiymət xətrinə beş almışam. Dədəm də belə təriflərin, tarixlərində ucbatından subay öldü.

Ömrü boyu Azərbaycan tarixinə nifrət etdiyini etiraf edən bu ünsür, aylardır tarixdən, milli təəssübkeşlikdən dəm vuraraq məni təhqir edir!!

Göründüyü kimi, qaraguruhçular M.Ə.Sabirin tipləri kimi özlərini ifşa etməklə məşğuldurlar!

***Macid Namazov*:** Niftali muellimin şeeri cox ureye yatan etirafdir ! Haci Abbasa her ne qeder yukseliş varsa hamisi yaraşir! her ikinizede -cox sag olun deyirik!...

Neriman Mamedov: Salam Niftəli müəllim.Şeriniz çox maraqlı və yadda qalandır.Var olun.gözəl ellimiz.

N.Göyçəli son yorumlarda onu dəstəkləyənkərdən aldığı dəstəkdən ürəklənir və artıq mənim haqqımda fikrini dəyişir:

Niftali Goyceli: Nəriman bəy, bəzi şeirdən, ədəbi nəzəriyyədən başı çıxmayanlar polemika xatirinə mənim şeirimə "bərbad" deyir..."Başını başlara qoşanlar" anlamır ki, "başa baş gərək"... Təşəkkür edirəm, Nəriman bəy, var olasız!

Həkim Eloğlu: Hörmətli Niftali Goyceli, zəhmət olmasa Ebulfet Adil Oglu müəllimin yazısını mənə izah edərdiniz? Bağışlayın!

ELDAR İSMAYIL HÜCUMA KEÇIR

("Yeni Müsavat" qəzeti və musavat.com saytında dərc olunub).

"Qalmaqallı kitab müəllifinə tanınmış şair-yazıçıdan sərt cavab gəldi

Eldar İsmayıl: "Axı bunları bilə-bilə ermənin xeyrinə işləyən təsvirlərə necə istinad etmək olar?"

Bugünlərdə çapdan çıxmış "Haqq-nahaq seçilər haqq divanında" kitabının qərbi azərbaycanlıların böyük bir kəsiminin ciddi etirazına səbəb olduğu haqda məlumat vermişdik. 100-ə yaxın qərbi azərbaycanlı ziyalı toplantı keçirərək kitabda tanınmış aşıqlar haqda yanlışlıqlara və Qərbi Azərbaycanda qədim türk adlarının ermənileşdirilməsinə etiraz etmişdi.

Etiraz doğuran əsas məqam isə odur ki, kitabda istinadların 90 faizi Ermənistan Milli Arxivində saxlanıldığı iddia olunan sənədlərədir. Qərbi Azərbaycan haqda 30-dan artıq kitabın müəllifi, əməkdar jurnalist, şair-yazıçı Eldar İsmayıl deyir ki, Nazir Əhmədlinin son vaxtlar qalmaqala səbəb olan çap məhsulunu oxuyub: "Əgər Nazir Əhmədli Göyçə haqda kitab

yazmaq istəyirdisə, Göyçənin tarixini bilən insanlar var, onlardan məsləhət ala bilərdi. Ermənistan Milli Arxivini əldə tutarqa edib sırf erməni məkrinin və hiyləsinin məhsulu olan ”Erməni vilayətin"in kameral təsvirinə güvənib bu kitabı yazmamalıydı. O, yalnız kameral təsvirə söykənərək başqa mənbələrə istinad etmir, heç bir tutarqa ortaya qoymur. Düşmən millətin keşiş Nersesin tərtib etdiyi sənədlərə uyğun kitab yazıb Göyçənin saz-söz ustadlarına yeni paltar tikməkdən çəkinmir. Bir azdan ermənilər bu kitabdan özümüzə qarşı istifadə eləyəcəklər. Türk dünyasının saz-söz karifeyləri Ağ Aşıq Allahverdi, Aşıq Alı və Aşıq Ələsgərə qarşı şər-böhtan kampaniyasının belə həddə çatdırılması çox üzücüdür. Yer-yurd adlarında böyük saxtakarlıqlara yol verilməsini müəllif anlaya bilmədiyindən əlində olan “məlumatlara” böyük maraqla yanaşıb. Çar Rusiyası dövründə İrəvan vilayətində əhalinin ilk siyahıya alınması fransız mənşəli İvan Şopenə tapşırılıb. Şopenin adı ilə ermənilərin marağına xidmət edən kameral təsvir, tariximizi saxtalaşdıran “sənəd” bu gün millət olaraq öz içimizdə narazılıq yaradan qalmaqala səbəb olub. Tarixən Göyçə mahalının oğuzlardan ibarət olan əhalisinin milli mənsubiyyətini qatıb-qarışdırmaq çap məhsulu müəllifinin ya məlumatsızlığı, ya da hansısa məkrli maraqlara xidmətidir".

E.İsmayıl deyir ki, kitabla tanış olandan sonra belə qənaətə gəlib: “Nazir Əhmədlinin tarixə aid kitab yazmaq təcrübəsi və səriştəsi tamamilə yox dərəcəsindədir! Kitab Göyçə aşıq sənətinə, Göyçə mədəniyyətinə və Azərbaycan tarixinə zidd olaraq yazılmış bir çap məhsuludur! Əhalisinin 75- 80 faizi türk olan İrəvan və eləcə də Göyçə mahalını olduğu kimi təsvir etmək ermənilərin xeyrinə ola bilməzdi. Buna görə də İrəvanda ilkin siyahıya alınmaya ermənilər ciddi nəzarət ediblər. Bu tarixi faktdır. Onlar rus generalı Qraf Paskeviç İrəvanvskini narahatçılıqla anlatdılar ki, siyahıya alınmanı türk Mirzə İsmayıla tapşırmaq olmaz. O, hər şeyi olduğu kimi yazacaq. Bu ermənilər üçün sərfəli deyil. Elə onların təkidli tələbi ilə İrəvan xanının vəziri işləmiş Mirzə İsmayıl bu işdən kənar edilib. Qraf Paskeviç

erməni dostu, milliyyətcə fransız olan İvan Şopeni "Erməni vilayəti" üzrə inzibati idarədə müşavir vəzifəsinə təyin edib. Nazir Əhmədlinin istinadları da məhz İ.Şopenin, əslində isə məhz ermənilərin tərtib etdikləri siyahıyadır. Üstəlik, həmin siyahının yenidən saxtalaşdırılmadığına da heç bir zəmanət yoxdur. Ermənilərin xisləti belədir, hara düşdülərsə, özlərinə tarix yazmağa girişirlər, yerli əhalinin mədəniyyətini, yer-yurdunu özününküləşdirirlər. Nazir Əhmədli də bunları bilməmiş deyil. Ermənilərin saxtakarlığına şərik çıxmamalıydı".

E.İsmayılın Mirzə İsmayıl haqqında dediklərinə aydınlıq gətirməliyəm.

Mirzə İsmayıl İrəvan xanının vəziri və maliyyə naziri idi. Türkmənçay Müqaviləsinin şərtlərinə görə İrəvan xanlığına aid maliyyə-vergi sənədləri 6 ay ərzində Rusiya tərəfinə təhvil verilməli idi ki, işğalçı dövlətin həmin ərazilərdə toplanan vergilərin sayı, növü və miqdarı haqqında məlumatı olsun ki, özləri bu vergini yığanda heç nə itirməsinlər. Həmin sənədləri tərtib edən isə Mirzə İsmayıl idi. İrəvanın işğalından sonra Mirzə İsmayıl da İrəvan Sərdarı kimi İrana getmişdi. Amma Müqavilədən sonra İran hökuməti Mirzə İsmayılı göndərmişdi ki, tərtibçisi olduğu maliyyə sənədlərini ruslara izah etsin. İ.Şopenin yazdığına görə ruslar Mirzə İsmayılın yazdıqlarına o qədər də etibar etmirdilər. Düşünürdülər ki, Mirzə İsmayıl vergiləri qəsdən az göstərə bilər. Amma 1831-ci ildə yeni idarəçilərin İrəvan xanlığı üzrə tərtib etdikləri Kameral təsvir sənədləri göstərdi ki, Mirzə İsmayıl hər şeyi düzgün yazıb.

Sənədləri təhvil verəndən sonra İran təbəəsi Mirzə İsmayıl təbii ki, İrana qayıtdı. Birincisi, Kameral siyahıların tərtibini niyə ona həvalə etməli idilər? İkincisi, yeni sənədlər hakim dövlətin öz dilində, yəni rus dilində tərtib edilməli idi və edildi. Mirzə İsmayıl isə təbii ki, rus dilini bilmirdi. Üçüncüsü

isə həmin iş 3 ilə başa gəldi. Mirzə İsmayıl 3 il orada qalmağa razı olardımı?

Göründüyü kimi, Eldar İsmayıl haradansa adını eşitdiyi Mirzə İsmayıl haqqında absurd şeylər uydurur.

Onu da qeyd etmək lazımdır ki, "İrəvan şəhərinin kameral təsviri.1831-ci il (2018) kitabında Mirzə İsmayılın İrəvan şəhərində müsadirə olunan mülklərinin də siyahısı göstərilmişdir.

Müsahibəsində toxunduğu bütün məsələlər, mülahizələri, etirazların hamısı bu cür absurd şeylər olduğuna görə hamısına vaxt ayırmağa dəyməz.

Kitabda hansı məqamlara toxunulub, burada narahatçılığa gətirib çıxaran hansı məqamlardır?

Bu suala Eldar İsmayıl belə cavab verdi: "Kitabla tanış olmağa başladıqda hiss olunur ki, müəllifin Aşıq Ələsgər dərdi var. Guya Ələsgərin böyüdülməsi kimlərinsə kiçildilməsi deməkdir".

Nazir Əhmədli yazır. Sitat: "Cəmiyyətdə bir böyüklük, nəhənglik sindromu var idi.... Bu özünü bütün təşkilatlarda göstərirdi. Aşıq şeirlərini toplayan araşdırıcılar da bir ..böyük.. məşhur.. ..sənətkar.. yaratmaq istəyirdilər. Başqalarının, yəni Alının, Bəşirin, İmanın, Musanın haqqının tapdanması önəmli deyildi".

Adamı dəhşət bürüyür! Göyçəyə aid 40 kitab yazdığını yeri gəldi-gəlmədi adamların gözünə soxan "şair", "yazıçı", "publisist", "tarixçi" ümumiyyətlə, "hərşey şünas" E.İsmayıl əvvəl kitabı oxumaya-oxumaya fitva verib özü və başqalarına məni söydürürdü, kitabımı guya oxuyandan sonra isə Əli

Şamilin yazdığı ön sözdən sitat gətirərək onu mənim adıma çıxır və yenə əvvəlki böhtanlarını davam etdirir!

Belə yerdə deyirlər ki, "sən nə çalırsan çal, mən "heyvagülü" oynayacağam!"

Heç nədən məlumatı olmayan müəllif bilmir ki, adını çəkdiyi adamların tanınmasında Ələsgərin böyük təsiri var. Kitab belə iftiralarla doludur.

Nazir Əhmədli müəllif olduğu yazısında bildirir.

Sitat:

"Sənədlərlə ilk tanışlıq göstərdi ki, Aşıq Ələsgər 1821-ci ildə Ağkilsə kəndində anadan olmayıb".

"Adım Ələsgərdi, Göyçə mahalım" başlıqlı yazısında isə yazır: "... Məlum oldu ki, təkcə Aşıq Ələsgərin deyil, eləcə də Göyçənin başqa nəhəng sənətkarlarının - onun ustadı Aşıq Alının da, Alının ustadı Ağ Aşığın - Aşıq Allahverdinin də, Şair Məmmədhüseynin, Aşıq Musanın, hətta Aşıq Ələsgərlə görüşmək və onun qüvvəsini sınamaq üçün Göyçəyə gəlib çıxmış Aşıq Söyün Şəmkirlinin də indiyə qədərki tərcümeyi-halı uydurmadır. Ona görə də daha geri çəkilməyə yer qalmadı və qərarımı verdim".

Kitabı vərəqlədikcə hiss olunur ki, müəllif Ələsgəri aşağılamaq üçün bir fürsət axtarır. İslam Ələsgərin "Haqq aşığı Ələsgər" deməsi Əli Şamili incidərək Nazir Əhmədliyə təsir edir. Odur ki, yazır.

Sitat: "Göründüyü kimi, İslam müəllim babasının "peyğəmbər" ünvanı ilə də kifayətlənməyib, "fövqəlbəşər" mərtəbəsinə qaldırır, yəni əstəğfürullah, Allahlaşdırır". İslam müəllimə görə, Ələsgər o

qədər dahidir ki, bütün şeirlərini bir, nəfəsə, sinədən deyib və redaktə etməyib.

Bəs yazdığını sonra redaktə edən"böyük söz ustadları Nizami, Füzuli, Hafiz, Nəsimi və yüzlərlə başqa mütəfəkkirlər bəyəm Ələsgərdən kiçik şairdilər?"

Bənzətmə çox yersiz alınıb. Ələsgər də həmin dahilərdən biridir! Nazir Əhmədlinin yazdığından belə anlaşılır ki, İ.Şopenin "Erməni vilayəti"nin kameral təsvirində Ağkilsə kəndinin adı yoxdusa, demək, Ələsgərin doğum tarixi düz deyil?

Axı həmin təsvirdə Aşıq Ələsgərin vəsf etdiyi o boyda Şahdağın da adı yoxdur. Belə çıxır ki, Göyçədə Şahdağ olmayıb? Axı bunları bilə-bilə ermənin xeyrinə işləyən təsvirlərə ermənin maraqlarına uyğun şəkildə necə istinad etmək olar? Belə çıxır ki, Nazir Əhmədli, onun dəstəkçiləri üçün bu kameral təsvir ən müqəddəs bir sənəddir?

Ələsgər haqda olan məlumatlara inanmırıqsa, torpaqlarımızı caynağına keçirmiş ermənilərin kameral təsvirinə necə inana bilərik? Bu təsviri ortaya qoyanlar ağıllarına gələni buraya doldurmayıblarmı?

Kitab hazırlananda N. Əhmədli gərək digər mənbələrə də üz tutaydı. "İrəvan əyalətinin icmal dəftəri"ndə (1603) Ağkilsə kəndinin dövlətə 7325 ağça verdiyi bildirilir. Demək, Ağkilsə kəndi "Erməni vilayəti"nin kameral təsvirindən 228 il əvvəl də mövcud olub. Mən yenə kameral təsvirin nöqsanlı və xatalı olmasına aydınlıq gətirmək istəyirəm. Kameral təsvirdə göstərilir ki, **Böyük Məzrə kəndində 40 əliqanlı, 9 milli ailəsi yaşamışdır. Əvvəla, əliqanlı tayfasının və ya millətinin mövcudluğunu, görəsən, eşidən olubmu?**

Əvvəlcə subyektiv idealistlərdə bu fikir mövcud idi: mən varamsa, dünya, materiya var, mən yoxamsa, dünya yoxdur. Bu cərəyanın görkəmli nümayəndəsi kimi Devid Yum tanınır.

Yazıq Yum bilməzdi ki, Eldar İsmayıl onun fikrini özünə uyğun şəkildə dəyişdirəcək, amma bir qədər fərqli şəkildə, əgər mən bilirəmsə, haqqında danışılan şey var, mən bilmirəmsə, yoxdur!

E.İsmayıl haqqında eşitmədiyi əliqanlı tayfasının mövcudluğunu beləliklə, inkar edir!

Buna ad axtarmalı olsaq, gərək onu "subyektiv idealizmin E.İsmayıl modeli" adlandıraq!

E.İsmayıl istinad etdiyi "İrəvan əyalətinin icmal dəftəri" də 1603-cü ilə yox, 1728-ci ilə aiddir və onu ak.Z.bünyadov və H.Məmmədov (Qaramanlı) 1996-cı ildə kiril əlifbası ilə çap etdiriblər. E.İsmayıl bunları bilmir, haqqında söhbət gedən sənədin tərtib edilmə tarixini dəqiqləşdirməyə ehtiyac duymur. Eldar İsmayıl onu 1603-cü ilə aid edirsə, deməli elədir! E.İsmayıl deyə bilməz ki, 1603-cü il texniki xətadır, çünki 1831 rəqəmindən 1603-cü ili düzgün çıxıb və onun Kameral siyahılardan 228 il əvvəl tərtib edildiyini deyir. E.İsmayıl dedisə, qurtardı, etiraz qəbul edilmir!!

Zaven Korkodyan isə "Sovet Ermənistanının əhalisi" kitabında yazır: "Böyük Məzrə kəndində 1831-ci ildə 293 nəfər, 1886-cı ildə isə 1379 nəfər azərbaycanlı yaşayıb. Z. Korkodyana görə, Qızılvəng kəndi ən qədim kəndlərdən biridir. Buradakı Oğuz qəbiristanlığında qəbirüstü daşlarda (X-XIII) əsrə aid yazılar mövcuddur.

Kameral təsvirdə Zod kəndində 44 qarapapaq ailəsinin yaşadığı deyilir.

Lakin Zodda 1831-ci ildə 245 nəfər, 1879-cu ildə 1584 nəfər Azərbaycan türkü yaşayıb. Zərzibili kəndinin adını "Zarzebil" yazan erməni işçilər göstərirlər ki, burada 41 qarapapaq, 2 erməni ailəsi yaşamışdır. Bunu eşidən zərzibillilər daş atıb başını tuturlar ki, 1988-ci ilə kimi bizim kənd erməni üzü görməyib. Kameral tərtibdə Ağbulaq, Toxluca, Ardanış, Cil kəndlərində də saxtakarlıq göz önündədir. Bu kəndlər tarixən həmişə böyük kəndlər olub. Əhalisi oğuz türkləri olsa da təsnifdə qarapapaq yazılır. Oğuz və qarapapaq qardaşlardı. Lakin oğuzlar fateh bir qol olduğuna görə ermənilər bir yerdə də olsun bu adı dillərinə ala bilmirlər.

Yeri gəldi-gəlmədi, erməni arxivindən istifadəyə görə məni topa tutan "hərşeyşünüs" yazdıqlarımı təkzib etmək üçün özü çox həvəslə Zaven Qorqodyana üz tutur, 1831-ci ildə Böyük Məzrə kəndində 293 nəfər, Zod kəndində isə 245 nəfər Azərbaycan türkünün yaşadığını göstərir. Başa düşmür ki, elə onun inandığı Zavenin özü də həmin rəqəmləri İ.Şopendən götürüb. Mənim isə Zavendən ən böyük fərqim və üstünlüyüm odur ki, onun yalnız rəqəmlə ifadə etdiyini mən siyahılarla göstərmişəm, yəni Böyük Məzrə kəndindəki həmin 293 nəfərin də, Zod kəndində yaşayan 245 nəfərin adlarını da üzə çıxardıb çap etmişəm!

Siyahıların sonunda Zavendən gətirilən sitatdakı rəqəmlər də var: "Əhalisi müsəlmanların əliqanlı və milli tayfalarına mənsub olan Böyük Məzrə kəndində 49 ailə, 150 kişi, 143 qadın, cəmi 293 nəfər yaşayır" (Göyçə mahalının kameral təsviri.1831-ci və 1842-ci illər". Bakı, 2017, səh.103.)

"Əhalisi müsəlmanların qarapapaq tayfasına mənsub olan Zod kəndində 44 ailə, 145 kişi, 100 qadın, cəmi 245 adam yaşayır" (Yenə orada, səh.94).

Görünür, E.İsmayıl yazıb oxumağı yenidən öyrənməlidir.

Məni başqa bir şey də təəccübləndirir: Şopenə və N.Əhmədliyə inanmayan, çar məmurlarının tərtib etdiyi sənədlərin ermənilər tərəfindən saxtalaşdırıldığını 3 cümlədən bir tutuquşu kimi təkrarlayan E.İsmayılın bu Zaven Qorqodyan sevgisinin kökündə nə durur? Halbuki həmin sənədlər Z.Qorqodyanın süzgəcindən keçəndə E.İsmayılın məntiqinə görə Z.Qorqodyan onu ermənilərin xeyrinə saxtalaşdırıb elmi ictimaiyyətə təqdim etməli idi. E.İsmayıl demək istəyir ki, İ.Şopenin o sözlərinə inanmaq olar ki, onları Zaven Qorqodyan da qəbul edib və yazıb. Yaxşı, tutaq ki, bunu da etdik. Bəs Eldar İsmayıl bu qədər sevdiyi və qiymətləndirdiyi Zaven Qorqodyandan Ağkilsə, Qızılvənk, Kərkibaş kəndlərində 1831-ci ildə neçə türk yaşadığı haqqında niyə sitat gətirmir??

Axı Zaven Qorqodyan da 1831-ci ildə həmin kəndlərin boş olduğunu yazır!!

Özü üstündən sükutla keçir, hesab edir ki, heç kim bu boşluğu hiss etməyəcək.

Eldar İsmayıl qarapapaq olmaqdan məyusluq duyur və oğuz olduğu halda qarapapaq yazıldığını deyir. Məyusluğu onunla bağlıdır ki, oğuzlar fateh olduğuna görə ermənilər Göyçə əhalisini qəsdən qarapapaq ediblər. E.İsmayıl bilmir ki, qarapapaqların mənsub olduqları qıpçaq türkləri oğuzlardan daha fatehdir və XI əsrdə qıpçaqlar oğuzları Orta Asiyadan sıxışdırıb çıxarıblar. Oğuzlar Xorasandan keçərək Anadoluya və Yaxın Şərqə yayılıblar, qıpçaq türklərinin özü də Xəzərin şimalından, Şimali Qafqazdan keçərək döyüşə-döyüşə Ukraynaya, Avropaya qədər gediblər. E.İsmayıl onu da bilmir ki, Gürcüstan tarixinin ən böyük hökmdarı hesab olunan Qurucu David məhz Şimali Qafqazda yaşayan qıpçaq xanı Atrakın qızı ilə evlənib qayınatasını 40 minlik döyüşçü ilə 1118-ci ildə yanına dəvət edəndən sonra bölgənin ən böyük hökmdarına çevrildi, ona qulluq edən qıpçaq türkləri oğuzlara

dəfələrlə qalib gəldi və məhz onların sayəsində Tiflis Gürcüstana birləşdirildi və onun paytaxtı oldu.

E.İsmayıl bütün bunları bilmir və ağlına gələn cəfəngiyyatı sağa-sola səpələyir!

Eldar İsmayıl deyir:

Kameral təsvirin erməni uydurması sətir-sətir üzə şıxır. Məsələn, belə bir məlumat verilir:

- Kərimağa kəndi, Dəli Arutyun kəndi, Komaser kəndi Toxluca kəndi yaxınlığında yerləşir.

Bu kəndlər yaşayış olmayan boş kəndlərin siyahısında göstərilib.

Əslində bu adda kəndlər Göyçədə heç vaxt olmayıb! Bu faktdır!!! Toxluca, Ağbulaq və Şorca kəndləri ilə qonşu olan oğuz türklərinin yaşayış məskənidir. Adıçəkilən Komaser kəndi isə Dərəçiçək mahalında olub. Kameral təsvirin bu iyrənc niyyəti istədikləri qədər uzadılmışdır.

Məsələn, Nazir Əhmədli həmin təsvirə istinadən yazır: "Adatəpə kəndi. 22 qarapapaq ailəsi".

Əslində Adatəpə dağ adıdır. Belə bir kənd olmayıb. Kənd yoxdursa, aydındır ki, orada yaşayış da olmayıb.

Eldar İsmayıl ağına-bozuna baxmadan saga-sola sərsəm ifadələr ifraz edir. Vaxtilə Toxluca kəndinin yaxınlığında boş kənd kimi qeydə alınan Komaser kəndinin adını eşidəndə az qalır havalansın. Deyir, belə bir kənd olmayıb, onu yalandan

kameral təsvirə salıblar ki, guya bu adda erməni kəndi olub. Amma qarapapaq türklərinin yaşadığı qeydə alınan Adatəpə kəndindən niyə diksinir? Bunlar ki, türk və müsəlmandır! Eldar İsmayıl ümumiyyətlə, bilmədiyi şeylərin düşmənidir.

Eldar İsmayıl, həmin kəndlər haqqında səni başa salım.

Boş kənd kimi qeyd edilən Komaser kəndi, görünür bir daha məskunlaşmayıb, elə xaraba olaraq qalıb və təbii ki, sizing vaxtınızda da mövcud olmadığına görə sən eşitməmisən.

Adatəpə kəndinə gəlincə, 1831-ci ildə əhalisi qeydə alınsa da, 1842-ci ilin siyahısında yoxdur, deməli boşalıb və Komaser kəndi kimi bir daha məskunlaşmayıb. Düşünmək olar ki, 1834-1835-ci illərdə millilər Göyçədən Vedibasara köçəndən sonar Adatəpə kəndinin sakinləri də millilərdən boşalan kəndlərə köçüblər. 1831-ci ildə Adatəpədə siyahıya alınan adamları 1842-ci ilin kameral təsvirinə görə müəyyən etmək olar ki, hansı kəndə köçüblər. Bunun üçün bir balaca zəhmətə qatlaşıb "Göyçə mahalının Kameral təsviri"nə baxmaq lazımdır. Elə 1842-ci ilin Kameral təsvirinə görə Göyçədə 9 yeni qarapapaq-türk kəndi yaranıb, ehtimal etmək olar ki, adatəpəlilər həmin kəndlərdən hansınasa, bəlkə də tamam başqasına köçüblər.

Eldar İsmayılın bu balaca işin öhdəsindən gələ biləcəyinə ciddi şübhələrim var və bu şübhələrim əsassız deyil. Çünki, Ağbulaq kəndinin nə 1831-ci, nə də 1842-ci ilə aid siyahılarında öz babalarını tapa bilməyən, yad qaratəpəliləri necə axtarıb tapsın?

Bu, görünür Eldar İsmayıl üçün həlli mümkün olmayan problemdir. Eldar İsmayıl boş-boş danışmağa daha fərasətlidir…

N.Əhmədli yazır:

“Toxluca çayı Adatəpə yaxınlığında gölə tökülür”.

Cavab verirəm: “Tamamilə yalandır. Toxluca çayı Göyçə gölünə kəndin ayağında tökülür”.

1831-ci ilə aid Kameral təsvirdə Adatəpə kəndi 56-cı nömrə ilə siyahıya alınıb (s.118) və onun Adatəpə yarımadasında yerləşdiyi yazılıb. “Kameral təsvirə izahat yazısı”nda isə Toxluca çayının Adatəpə yaxınlığında gölə töküldüyü yazılıb(s.136). E.İsmayıl isə Adatəpə yarımadası və orada yerləşən Adatəpə kəndi haqqında bilmədiyinə görə, yuxarıdakı cümləni Adatəpə dağının yaxınlığı kimi başa düşür. Əslində isə Toxluca çayının Adatəpə kəndi yaxınlığında gölə tökülməsi kimi başa düşmək lazımdır.

Eldar İsmayılın bunları bilməməsi təbiidir, babalarını hazır siyahıda tapa bilməyən, Babacanın atası Mehdini tanımayan, Babacana Qulu adında yalançı ata düzəldən adam bunları haradan bilsin?

N.Əhmədli yazır: "Ağbulaq kəndi. 26 qarapapaq ailəsi".

Cavab verirəm: “Əslində bu kənddə bir nəfər də olsun qarapapaq tayfasına mənsub adam yaşamamışdır. Ağbulaqlıların 70 faizi (Böyük köçdən sonra) Güney Azərbaycanın Sulduz mahalından gələnlərdir.

Sulduzdan gələnlərin qarapapaq olduğunu inkar edən E.İsmayıl “bəs onlar hansı türk tayfasına mənsub idilər?” sualına cavab vermir, çünki heç nə bilmir və öz soy-kökünü inkar edir. Ümumi ibarəli “qədim türk-oğuz yurdu Göyçə” sözləri ilə kifayətlənmək mümkün deyil, E.İsmayıl! Göyçədə oğuzların yaşadığını heç kim inkar etmir, E.İsmayıl! Amma Şah Abbas Göyçəni 1604-cü ildə, Nadir Əfşar isə 1735-ci ildə osmanlılardan geri alarkən, Göyçə müəyyən müddət boş

qalmışdı. Ona görə də Göyçənin əvvəlki oğuz sakinləri oranı tərk etmişdilər, 1814-cü ildə Sulduz mahalından köçürülən türklər qarapapaq idilər, E.İsmayıl! Əgər sən bunları bilmirsənsə, savadın yoxdursa, bu o demək deyil ki, məsələ belə deyil!

Bayaq dediyim kimi, bu, "subyektiv idealizmin Eldar İsmayıl modeli"dir: mən bilmirəmsə, deməli belə deyil, vəssalam!

N.Əhmədli yazır: "Basarkeçər kəndi. 30 milli, 1 biruki ailəsi".

Cavab verirəm: "Erməni Zaven Korkodyana görə 1831-ci ildə Basarkeçərdə 178 nəfər azərbaycanlı yaşamışdır.

Zaven Qorqodyan sevdalısı E.İsmayıla mən də cavab verirəm: "Əhalisi müsəlmanların milli və biruki tayfalarına mənsub olan Basarkeçər kəndində 31 ailə, 91 kişi, 87 qadın, cəmi 178 adam yaşayır" (Göyçə mahalının kameral təsviri.1831-ci və 1842-ci illər. Bakı, 2017, səh.67).

İ.Şopendən yalnız rəqəmləri götürən Z.Qorqodyan E.İsmayıl üçün çox mötəbər mənbədir, amma həmin 178 adamın adlarını tapıb üzə çıxaran N.Əhmədli E.İsmayıl üçün Göyçənin düşməni imiş!

E.İsmayılın bu erməni sevgisi görəsən, haradan qaynaqlanır? Bəlkə deportasiya edilməmişdən qabaq-Ağbulaq kəndinin sovet sədri işləyərkən onu həmin vəzifəyə təyin edən erməni dostlarından başlayır bu sevgi? Bəlkə erməni dostları ilə içdiyi araq-çaxır, Ağbulaq kəndinin quzularının ətindən yedirtdiyi kabab, kəsdiyi çörək onları belə etibarlı dosta çevirib? Bəlkə də tamam başqa səbəblər var, mən bilmirəm, hər halda özü bu məsələyə aydınlıq gətirsə, daha yaxşı olar!

Görəsən, qarapapaq, əliqanlı, biruki, qaraçorlu, ayrım, çakırlı, milli və s. kimi tayfa adlarını təsvirə yerləşdirməkdə ermənilərin saxtalaşdırmaqdan başqa məqsədləri olmayıb ki? Əlbəttə olub. Burda erməni təbliğatı "biruki, qaraçorlu, qarapapaq və s. yaşamışdır, türk yaşamamışdır" deyir.

Yuxarıdakı abzasdan E.İsmayılın qarapapaqları, ayrımları, çakırlı tayfasını və başqalarını da türk saymadığı anlaşılır. Sonra isə mənə qarşı fantastik bir ittiham irəli sürür: "Nazir Əhmədli demir ki, niyə Suriyadan, İrandan gətirilən ermənilərin milliyyəti erməni yazılır, türklər isə tayfa adları ilə göstərilir?"

Eldar İsmayıl, bəyəm mən ermənilərə, türklərə tayfa yaradan, adqoyanam?

Hesab elə ki, mən verdiyin suala cavab verə bilmədim, indi zəhmət çək, özün cavab ver, niyə Suriyadan, İrandan gətirilən ermənilərin milliyyəti erməni yazılır, türklər isə tayfa adları ilə göstərilir?

Nazir Əhmədli demir ki, niyə Suriyadan, İrandan gətirilən ermənilərin milliyyəti erməni yazılır, türklər isə tayfa adları ilə göstərilir? Göyçə gölünün cənubundakı sıra dağların bir neçəsinin adı çəkilsə də, kameral təsvirdə gölün şimal hissəsindəki dağlar tamam unudulur. Əslində unudulmayıb. Təsviri hazırlayan ermənilərə Göyçə gölünü dörd tərəfdən qucaqlayan "qüdrətdən səngərli qalalı dağlar"ın adları qaranlıq idi. Çünki bunlar İrandan, Türkiyədən, Suriyadan gələn nabələd ermənilər idi. Bu dağların adlarını yerli Azərbaycan türkləri bilirdi. Ancaq təsviri hazırlayanlar bu adları türklərdən xəbər almırdılar. Çünki belə bir doğru-dürüst təsvir ermənilərə lazım deyildi. Nazir Əhmədliyə də nədənsə lazım olmayıb. Niyəsini buyursun özü izah etsin".

E.Məmmədəliyev ("Yeni Müsavat").

14 iyun 2017.

Eldar İsmayılın statusu

Görkəmli folklorşünas alim, professor Mürsəl Həkimovun ömrünün bir qismi Göyçə ilə bağlıdır. Göyçədə müəllim işləyərkən də, sonrakı dövrdə də Göyçə folklorunun öyrənilməsi ilə (xüsusilə Ağ AŞIQ Allahverdi) bağlı araşdırmalar aparmış, Azərbaycan folkloruna dəyərli yeniliklər bəxş etmişdir. Göyçə ədəbi mühitini yüksək səviyyədə aradırmışdır. Göyçə haqda böyük alimin fikirlərini oxuyaq.

PROFESSOR MÜRSƏL HƏKİMOVUN ELDAR İSMAYILIN "MƏN BURDA QƏRİBƏM, YURD ORDA QƏRİB" KİTABINAYAZDIĞI ÖN SÖZDƏN SƏTİRLƏR…

Bismillahir—rəhmanir-rəhim! Əziz qədirbilən oxucum! Sən Göyçə elində qonaq olubsanmı? "Göyçə gülü" havasına dalıb- uyuyubsanmı? Göyçə gölündə əl-üzünü yuyub, güzgülənmisənmi? Elə isə qulaq as! Bil və agah ol! Hər bir ulu xalqın tarixi, o xalqın müdriklərinin piranlarının, nuranlarının, ağsaqqallarının, aıbirçəklərinin, ustad, peşəkar-ifaçı ozanlarının-aşıqlarının düzüb-qoşduqları, nəsildən- nəsilə tütyə kimi yaşatdıqları əfsanə- əsatir adlandırdığımız, damğa vurduğumuz ağız icadlarından başlayır.

Bu baxımdan, şəhdi-şəkər dilli, sazlı- sözlü əmbiyaların-evliyaların, ərənlərin "Göyçə gölü", "Uğuz qəbri""Göyçə gölü əfsanəsi", "Bəzirgan qalası", "Ağ qala", "Ağ oğlan", "Kəmənd qaya", "Xor-xor qaya", "Qatar qaya", "Pəri bulağı", "Qazan düşən", Topaşan" və sayını ietədiyimiz qədər artıra biləcəyimiz əfsanə- əsatir yorum –yozumlarından başlayır Ulu Göyçə eli, "Göyçə gölü"nün oğuz –elat tarixi.Baxın: bir mahalda nə qədər ustad, peşəkar-ifaçı, elat şairlər yetişib. Miskin Abdal, Dərdli

Nəsib, Ozan Heydər,Qul Mamud, Şımpırlı Sevgili, Ağ Aşıq, Şair Məmmədhüseyn, Aşıq Alı, Alçalı Məhərrəm, Dədə Ələsgər, Aşıq Musa, Şair Hacı, Zodlu Ustad Abdulla, Mirzə Bəylər, Şair Kazım və i.a.Şişqayalı şair Aydın, Çoban Məhəmməd, Növrəs İman, Şair Əbülfət, Şair Aqil, Şair Bəhmən, Xəstə Bayraməli, Şair İsmixan və sayını bir daha artıra biləcəyimiz müdriklər diqqətimizi təsadüfən özünə çəkmir.

Bax, beləcə əziz oxucular! Bu möcüzənin bir payı da bizim haqqında söhbət açacağımız istedadlı şairimiz Eldar İsmayıldır.

Bir dənə "bax beləcə" də məndən!

Bax beləcə, əziz oxucu! Təvazökarlıqdan "əziyyət çəkən" E.İsmayıl evində qonaq saxladığı mərhum professorun yazdığı ön sözü oxucuların gözünə soxur, özünü reklam edir. Yəni demək istəyir ki, görüsünüzmü, mərhum professor M.Həkimov da mənim "hərşeyşünaslığımı" təsdiq edir. Mənim dediklərim, yazdıqlarım mütləq həqiqətdir və etiraz-filan qəbul etmirəm!

Etmə, Eldar İsmayıl, etmə!

Yorumlar:

Helime Mehrani Muradi: Müdriklerimiz - iftixarimiz

Eldar Ismayil: Sahib bəy, dünən Nazir bəy mənə yazdı ki, mən ailə tərbiyəmə görə heç kəsi təhqir etmerem. Ancaq çox təəssüf ki, onun şeirini oxudum, o ifadələri gördüm.Hətta hamıya savadsız deməsi də məni incitmir. Mən o kitabı oxuyuram. Və normal qaydada cavabını verəcəm. Hamınızdan xahiş edirəm tərbiyəsiz sözlər yazmayın...

Nazir Ahmedli: Eldar müəllim, yazdıqlarımı tənqid etsəniz belə, heç bir qələm sahibi tənqiddən inciməməlidir, hər kəs öz mövqeyini elmi dəlillərlə müdafiə etməlidir. Əsəri yazan da,

tənqid edən də. Qoy kimin haqlı olduğunu oxucular müəyyənləş-dirsin.

Məlumat üçün deyim ki, kitabda prof.H.Mirzəyevin Aşıq Alı haqqındakı bir məqaləsinə istinad etmişəm. H.Mirzəyev yazır ki, prof. M.Həkimov 1981-ci ildə Alı haqqında 72 səhifəlik bir məqalə hazırlamışdı və sonra H.Arifdə itib-batdı. Orada M.Həkimov da Alını Milli dərəsi ilə bağlayırmış və H.Mirzəyev də onu müdafiə edib. Mən isə hər ikisinin mövqeyinə etiraz etmişəm.

Aqşin Hacı Zadə: Səninlə burada yazışmaq mənasızdır. Sənin erməni və ya rus arxivlərindən o məlumatları necə əldə etmisən, erməni və rus yönümlü məlumatlarla nə maraqdasansa, ***bütün bunları mənim fikrimcə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi araşdırmalıdır.*** Belədə sənin kimliyin və maraqğın bilinəcək. Göyçənin və Göyçəlinin tarixi dünyanın tarixindən az fərqlənir. Sən onu bilə bilməzsən. Sən yazdıqların kimlərinsə vaxtilə yazmış olduğu və əksəriyyəti saxta yazılmış qeydiyyat-lardır. Bu qədər.

Nazir Əhmədli: Sənin kimi işverənlər 1937-ci ildə çoxlarını güdaza verib... Onlar da millət adından belə bəlağətli danışırmışlar yəqin...

Murvet Yusifov: Nazir, sən bütün körpüləri yandırmısan. Bunları bərpa etməyin üçün etdiklərinə görə üzr istəməlisən.

Nazir Ahmedli: Mürvət, sən səhv yoldasan, əvvəlcə yazdığımı oxu, sonra da elmi dəlillərlə tutarlı cavab yaz. Görənlər də desin Nazir haqsızdır, Mürvət haqlı. Çox bəhs etdiyin sivil üsul budur. ***Sən göyçəlilərin emosiyalarını qızışdıraraq siyasi divident qazanmaq və liderlik eşqinə düşmüsən.*** Sənin kimi emosional adamdan lider olmaz. Milləti uçuruma apararsan.

Murvet Yusifov: Nazir, mənim sənə qarşı heç bir qərəzim olmayıb.Bu məsələdə də sənə eloğlu kimi məsləhət gördüm ki,

qayıt bu yoldan. Sən nəinki qayıtmadın daha irəli gedərək etiraz edən insanları təhqir etməkdən, hədələməkdən də çəkinmədin. Cavabını almadıqca artırırsan. Aqşin Hacızadə ölkə nüfuzlu Sərraf Şiruyənin oğludu. Hara daş atdığının fərqindəsənmi.

Mina Əliyeva: Məncə belə polemika ilə bir yerə varmaq olmaz. Soyuq başla, təmkinlə bütün anlaşılmazlıqları yoluna qoymaq mümkündür.Səbr və təmkininizi əldən verməyin.Yaşca sizlərdən böyük olduğum üçün bunları yazmağı özümə borc bildim.

Murvet Yusifov: Mina müəllimə, polemikadan keçib. Bu, camaata fikir mübadiləsi aparmağa da imkan vermir.

Nazir Ahmedli: Qaldı ki, o sənədlərin çap edilib-edilməməyinə. Mənim 1 kitabım mətbəədədir. "Göyçə mahalının 1831-ci və 1842-ci illərə aid kameral təsviri". Mənsub olduğum Dərələyəz mahalının bu tip kitabından sonra çox hörmət etdiyimə görə Göyçəmahalını qabağa çəkdim, halbuki. siyahı üzrə 15-ci yerdədir. Bu kitabda mahalda həmin tarixdə hansı insanlar yaşayıbsa, onların adı, yaşı və mal varlığı göstərilib. Bu sənəd qızıldan qiymətlidir və birinci dəfə çap olunacaq. Pis çıxmasın, bu iş üçün müəllifə heykəl qoymaq lazımdır, nəinki təhqir etmək.

Həmin siyahıda 1.240 Göyçəli ailənin adı var. Deyirlər yarımçıqdır. Tutaq ki, elədir, mənə qədər 1 nəfərin adı məlum olmayıb. Mən 1.240 ailəni üzə çıxardıram, qoy bütün qalanlar da 40 ailə tapsınlar və həmin siyahıya əlavə edib onu zənginləşdirsinlər. Bu, işin xeyrinə olar!

Mehri Karakoyunlu: Bir şeyi anlamadım. Bezi reyler neden silinir?

Nazir Ahmedli: Mehri Karakoyunlu, çünki özlərini həqiqət carçısı hesab edən bəziləri həqiqətdən qorxurlar.

Mehri Karakoyunlu: İlan hemişe ulduzdan qorxar. Silenin de kim olduğunu da yaxşı bilirem. Her zaman da menim yazımı ve ya yorumumu defelerle silib. Men Eldar müellime soruşuram: eger bir yazıda menim söz deme haqqım yoxdursa neden meni etiketleyir?! Yox, eger haqqım varsa neden silinir?! Men tariixçi deyilem. Oxumadığım bir şey haqdada yazmam. Sadece tutulmuş bir mövqede yanlışlıq görürsem öz möqeyimi bildirerem... Yazılmış yorumu silen iradesi zeif mövqesiz bir adamın olduğu bellidi.

Abbas Bağır bey! Bezi insanların şexsiyetine hörmet ve ya perestiş etmek için şexsen tanışlığı gerekmir. Size ve Eldar beye sevgim, sayğım sonsuzdur. Artıq bu silmelerden bezdim. Kimse kiminse fikrini ve ya yorumunu beyenmek zorunda deyil. Seviyyeli insan her kesin fikrine hörmet etmelidi. Hetta düz olmasa bele...

Şebnem Bunyadzade Menim reylerimi niye silmisen. O reylerde söyüş yox idi axı.Senden ferqli olaraq men söyüş yox irad yazmışdım

Şebnem Bunyadzade: Hacı hekim qardaş size minnetdaram. Amma men özüm de cavab vermek gücündeyem. Onu kimi ev qehremanları el qehremanı ola bilmez

Mehri Karakoyunlu Men de sizin qrupda öyle idim Şebnem xanım!!!

Şebnem Bunyadzade: Mehri xanım salam.Qerezli danışmağınız hansı sebebdendi bilmirem. Size qrup rehberi ve üzvleri terefinden hemişe hörmet qoyulub. Mürvet müellime yönelmiş bu hücumu anlamıram.

Mehri Karakoyunlu: Şebnem xanım, salam! Sizce qrupdan niye çıxdım? Menim silinen reyimi oxudunuzmu? Silinmesiçin neyi hak etmişdi? Neytral bir yazını neden sildiler?

Hele de anlamıram. Heç kese de qerezli bir şey yazmam. Bu menim xarakterim deyil...

Musa Erdenanar: Selam olsun Eldar İsmail müellime, hörmetlerimi bildirer ellerinden öperem.

Taleh Əlioğlu Vəliyev: Allah Hüseyin müəllimə şəfa versin.Mürsəl müəllimədə allahdan rəhmət diləyirəm.

Murvet Yusifov: Nə yaxşı varsınz!Hörmətli Eldar müəllim, dəyərli məlumatlar sizin sayənizdə deyilib, bizlərə də sizin sayənizdə çatdırılır. Bu gün Göyçənin pasportu Sizsiniz. Göyçə və Ustadların tarixi ilə bağlı sərsəmləmələr bəzi göyçəlilərin iştirakı ilə təbliğ olunur.Küçə söyüşlərindən ibarət söz yığnağına tərif yazan göyçəlilərin olması adamı ağrıdan haldı. Göyçəli sözünü ona görə hallandırıram ki, başqa bölgədən olanlar həqiqətin nə olduğunu bilməkdə şətinlik çəkərlər.Amma bütün göyçəlilər dəqiq bilməlidi ki, bu sərsəmləmələr ya qeyri normal təxəyyülün məhsuludu, ya da məqsədlidi.Bütün bunlarla yanaşı Nazirin insanları həm təhqir etməsi, həm şərləməsi dözülməz vəziyyət yaratsa da hələlik dözürük. Amma Nazir bilməlidi ki, səbrin də həddi var.Şəxsən mən Nazirlə dialoqun mənasız olduğu qənaətindəyəm . Hər şey hüquqi müstəviyə yönəlməlidi!!

Nazir Ahmedli: Mürvət, mən Eldar müəllimə hörmət əlaməti olaraq, bütün günü yazdığın təhqiramiz sözlərin hələ heç birinə cavab yazmamışam. Bəsdir. Mənim səbrimin bir həddi var!!!

Murvet Yusifov: Mən təhqir yazmıram. Sən təhqirlə təklifi səhv salırsan.

Məhbubə Abdullayeva: Ezizim dayim siz her yasinizta gozel ve isteklimizsiz !Allah sizi qorusun ! Amin !

Məhbubə Abdullayeva: Huseyin dayimada saqlam heyat arzulayiram !

Muzahim Iskandarov: Allah sizi qorusun Eldar muellim siz bizim fexrimissiz Oki qaldl ***kimse Goyce haqqlnda nese yazmaq isteyirse Eldar muellimden ve onun kitablarlndan behrelenmelidir*** Butun Goyce agsaqqallarl ziyalllarl bu yazllanlarln duzgun olmadlglnl deyirler muellif hec esitmek isdemir Demeli onda bu kitab kimlerinse gosterisile yazlllr

Məhərrəm Hüseynli: Allah Mürsəl müəllimə rəhmət, eləsin. Hüseyn müəllimə isə can sağlığı versin.Hər ikisi də qiymətli alimlərimizdir.

Feride Leman: Var olun, Meherrem muellim!

Ebulfet Adil Oglu: Allah Mürsəl müəllimə rəhmət eləsin, Hüseyn müəllimə də can sağlığı arzulayıram.

Feride Leman: Eziz ve cox deyerli Eldar muellim, ureyiniz var olsun! Allah sizi qorusun, dayim- qedirsunas, gorkemli folklorsunas Mursel muellime Allahdan rehmetler dileyirem.Her zaman etibarlisiniz.Size sonsuz tesekkurlerimi bildirirem.

Tariyel Aliyev: Allah Mursel Hekimova allah rehmet elesin. Huseyin muellime sagliqli shefali omur versinHer ikisinin folklorshinsligimiza boyuk tohfeleri var.Azerbaycan edebiyyatinin inkishafina tekan verib onu tedqiq eden folklorshunas alimlerimizin bu sahede zehmet boyukdur.Oxucunun husnu regbetini qazanaraq qelblere ishiq sacan alimlerimize gozel nurlu omur arzulayiram!

Bayram Mammadov:Allah her iki alime cansagligi versin.

Bayram Mammadov: Uzr isteyirem, Mursel muellimin vefat etdiyini bilmirdim. Allahdan boyuk alime rehmet dileyirem.Huseyn muellime can sagligi arzulayiram.

Seyyare Memmedli: Allah rəhmət eləsin, gözəl, folklorşünas alim Mürsəl Həkimova! Allah sizə də, Hüseyn müəllimə də can sağlığı versin, Eldar müəllim! Siz Göyçənin canlı tarixisiniz!

Feride Leman: Var olun,Səyyarə xanım!

Mahluga Qaramanli: ELDAR müəllimi varaqlamağımıza çox ehtiyyacımız var. Bəli canlı tarix, tariximizi yaddaşlarımıza köçürən qəhraman , dəyərli şəxsiyyət Allah sizi qorusun. Uzun ömürlər versin. Bizlərdən qalan, yaddaşlara yox, geri dönüşümüzə mübarizə səlnaməsi yazacaq tariximizi paylaşmalı, təsdiq etməli, əbədi və əzəli torpaqlarımızı tələb etməyimiz üçün ölkəmizin başçısının ətrafında daha sıx birləşməliyik. Birliyimiz sarsılmasın!!!!!!!!!!!!!!!

Professor Qabil Hüseynli ilə aramızdakı insidentdən sonra irtica qüvvələrinin tərəfini tutan "Teleqraf" qəzeti və "Teleqraf.com" saytı onun müsahibəsini dərc etmişdi. Q.Hüseynli E.İsmayılın çürük ittihamlarını təkrarlayan bir müsahibə vermişdi. Müsahibənin başlığı "Nazir Əhmədli Aşıq Ələsgəri kürd çıxarıb" kimi bir şey idi. Əslində Q.Hüseynli müsahibədə elə söz işlətməsə də, saytın müsahibə götürən əməkdaşı emosiyaları coşdurmaq üçün belə bir başlıq qoymuşdu. Müsahibə çıxandan sonra kulis.az saytının direktoru Ş. Ağayar mənə zəng vurub həmin saytın televiziya kanalında müsahibəyə dəvət etdi. Geniş müsahibə verdim, sualların birinə cavab olaraq bildirdim ki, Aşıq Ələsgər kürd deyil, mənim kitabımda elə şey yazılmayıb, əgər bunu Q.Hüseynli mənim adıma çıxırsa, mənə böhtan atır. Sonra iş böyüyəndə Qabil Hüseynlinin özü də təkzib verdi ki, elə bir söz işlətməyib və başlığa çıxarılan söz müxbirin uydurmasıdır.

Kulis.az saytında gedən televiziya müsahibəmin videosunu paylaşdım və aşağıda gedən müzakirələr onun haqqında idi. Əslində həmin müsahibənin kitabım haqqında izahat işi aparılamsında da çox köməyi oldu. Ona baxanlar

məsələnin mahiyyətindən xəbər tutub qaraguruhçuların bütün dediklərinin yalan, şər və böhtan olduqlarına əmin oldular.

Həmin müsahibəyə Youtube kanalında baxmaq olar.

5 iyul 2017.

Nazir Ahmedli, Kulis.az'ın canlı videosunu paylaştı.

Penah Soylemezli: Nazir bey kitabimizi tam oxudum. kitab tam arxiv senedleri esasinda yazilib.UGURLAR

Чингиз Исаев: Kitabi men oxumamisam Nazir muallmin yazdigi kitablar maragli olur!

Nazir Ahmedli: Təşəkkür edirəm, Çingiz müəllim

Tanriverdi Pasha: Nazir bəy, yəqin bu izahlardan sonra bədxahlarınızın sayı bir qədər azalacaq..

Nazir Ahmedli: Mən də ümid edirəm, Tanrıverdi bəy!. Allah ürəklərinə insaf salsın!

Allahverdi Mahmudov: Nazir müəllim, təbriklər. Çox sevindim. Qardaşım, Sizə can sağlığı arzulayıram və elmi işlərinizdə və elmi axtarışlarınızda uğurlar arzulayıram. ƏHSƏN!

Nazir Ahmedli: Təşəkkür edirəm, Allahverdi müəllim

Eldar Ismayil: Necə olur ki, siyahıya almada yerli türklər tayfa kimi göstərilir, amma Suriyadan, İrandan köçürülən ermənilər erməni kimi göstərilir? Tayfaları ermənilər uydurduqları kimi, Göyçədə yaşayan dahilərin də yaşını ermənilər uydurub

Nazir Ahmedli: Hörmətli Eldar müəllim, qarapapaq türkləri indiki Şimali Azərbaycan əhalisinin bel sütunu, onurğasıdır. Gəncəbasar, Borçalı, Göyçə, Dərəçiçək, Şəmkirbasan və bir çox başqa ərazilərimizin əhalisi qarapapaqdır. Burada xəcalətli bir şey yoxdur, əksinə onlar bu xalqın özüdür. Təmiz türkdürlər. Buradakılardan artıq da İranda yaşayırlar. Şəxsən mən qarapapaq olsaydım, bununla qürur duyardım. Göyçənin oğuz-türk yurdu olduğuna heç kimin şübhəsi olmamalıdır. Amma ora bir dəfə 1604-cü ildə Şah Abbas tərəfindən osmanlı işğalçılardan azad edildikdən sonra dağıntılara məruz qalıb və uzun zaman boş qalıb. İkinci dəfə də 1735-ci ildə Nadir oranı osmanlılardan azad edəndə yenə Göyçə boş qalıb. Sonuncu dəfə burada 1814-cü ildə məskunlaşan qarapapaqlar da ən təmiz türklərdir. Bilmirəm, niyə buna etiraz edirsiniz.

Fexri Qocayev: Hemin dovre, yaxud ele 1918-ci ile qeder bizi turk milleti kimi hansi tarixi eserde qeyd edibler ki, burada da edeydiler? Bunu beyem bilmirsiz ki, ruslar terefinden biz hemin vaxtlara aid butun senedlerde ya tatar, yaxud da ayri-ayri tayfalarin adiyla qeyd olunurduq. Ele ozumuz de esasen ozumuzu ya sadece muselman, yaxud tayfa adiyla adlandirirdiq. Nazir muellim burada basdan ayaga faktlara soykenib, ekser bedxahlar ise qaraguruculuqla mesguldu. Men kitabi oxudum ve tam eminlikle deyirem ki, olduqca samballi ve moteber bir eser ortaya qoyulub.

Eldar Ismayil: Suriyadan gələn ermənilər heç öz dillərini belə bilmirdi. Aşıq Ələsgərin 150 illik Yubileyi 1972-ci ildə İttifaq səviyyəsində keçirilib. Ermənistan SSR-də də keçirilib. O zaman ermənilərin yadına düşmürdü ki, kameral siyahını üzə çıxarıb Aşıq Ələsgərin yaşını müəyyənləşdirsinlər? Emənistandan deportasiya olunandan 30 il sonra ermənilərin yadına düşdü və bu saxtalkarlıq da hansısa yolla Nazir Əhnmədlinin əlinə keçdi. Onun danışığı ictimaiyyəti çaşdırmaqdan başqa bir şey deyil. Jurnalist yaxşı olardı ki, saxta sənədləri N.Əhmədlinin harada və necə əldə etdiyini soruşaydı

Qabil Zimistanoglu: Aşıq Alının tədqiqatçısı kimi qeyd edirəm ki, onun Aşıq Alı haqqında verdiyi bir informasiyadan başqa hamısı yalandır

Qabil Zimistanoglu: Yaxşı olardı ki. tədqiqatçıların mövqeyinə də yer ayırasınız.

Onun bir dəqiq informasiyası isə Aşıq Alının türk oğlu türk olmasıdır

Nazir Ahmedli: Bu necə alınır? Özünüzə sərf edəni qəbul edirsiniz, qalanlarını qəbul etmirsiniz. Bu cür yanaşma obyektiv sayıla bilməz.

Qabil Zimistanoglu: Nazir Əhmədli özünə sərf etdiyi variantlarda ustadların şeirlərinə istinad edir, amma Aşıq Ələsgərin "səksəni, doxsanı keçibdir yaşım" fikirlərini isə ustadın mübaliğəsi adlandırır. Ədəbiyyatçılar bildirsinlər görək bu cür mübaliğə olur?

Qabil Zimistanoglu: Görürünür, Şopen Göyçəni gəzən zaman atının qılçı sınıb, bir çox kəndlərə gedib çıxmayıb, ona görə də xeyli kənd siyahıya alınmayıbdır..

Murvet Yusifov: Deyək ki, atının qıçı sındı gedə bilmədi. Bəs yalançı kənd adlarını artırmaq hardan gəlir....

Nazir Ahmedli: Gərək Şopenin öz qıçı sınaydı, oralara gedə bilməyəydi və bu cür qiymətli sənədləri da yazmayaydı!!

Musellim Quliyev: Nazir müəllimi yaxından tanıdığma, onun savadına və şəxsi keyfiyyətlərinə bələd olduğuma görə bilirəm ki, gördüyü iş-ərsəyə gətirdiyi bu kitab öz həqiqi qiymətini alacaq və oxucular tərəfindən bəyəniləcək.Bir də ki, tarix arxivlərə əsaslanır.Kitabda göstərilənlərə etirazı olanlardan xahiş edirəm ki,öz etirazlarını tarıxi arxiv sənədləri ilə təsdiq eləsinlər. Düşünürəm ki,bu daha məqsədə uyğun olar.Nazir müəllimə uğurlar arzulayıram.

Nazir Ahmedli: Təşəkkür edirəm, Müsəllim müəllim.

Qabil Zimistanoglu: Müsellim bəy, məsələ bundadır ki. Nazir bəyin istinad etdiyi məlumatların da heç bir hüquqi əsası yoxdur. Ermənistan Milli Arxivinə istinad etdiyi məluamatlar da

informasiya toplusundan başaqa bir şey deyil. Ona görə həmin informasiyaları da mötəbər mənbə kimi qəbul etmək olmaz

Tanriverdi Pasha: O siyahıyaalmanın saxta olduğunu, Ermənilərin həmin o vaxt və ya sonradan həmin məlumatları saxtalaşdırdığını elmi dəlillərlə sübut etmək lazımdır.. Bunu indi Nazir Əhmədli çap edib və onun arqumentləri də ortadadır.. Bu kitabın ərsəyə gəlməsində böyük xidməti və zəhməti olan Naziri hansısa qərəzlikdə və ya savadsızlıqda günahlandırmaq insafsızlıqdı.. Tarıxçilər 3-4 min il bundan əvvəl yaşayan mütəfəkkirlərin və tarixi şəxsiyyətlərin yaşını dəqiqləşdirə biliblər.. İstənilən halda, Azərbaycanın istənilən bölgə, kənd və şəhərlərinin, həmçinin orada məskunlaşan tayfaların tarixi yaxşı öyrənilməyib..

Murvet Yusifov: İki aydı faktlar və dəlillər göstərilir.Fakta və dəlilə baxırsınız ki? Adını çəkdiyiniz arxivə hansı dövlət qurumu müraciət edib alıb o sənəd dediklərinizi?Həmin arxivlərdə şəxsi sorğuyla, dost, tanış vasitəsi ilə sənəd verilmədiyini bilirsinizmi? İnad göstərməyinizə rəğmən suallar çoxalır...Hansı zərurətdən yarandı belə əzablı yol seçməyiniz?Bu məsələni yığışdırmamaqda məqsədiniz nədi?

Nazir Ahmedli: Dəyərli dostum və Göyçənin mütərəqqi ziyalısı Tanrıverdi bəy! Mən bu adamlara bir şeyi xatırlatmaq istəyirəm: Tarix İnstitutu mənim istinad etdiyim Şopenə istinad edərək 2010-cü ildə "İrəvan xanlığı" adlı kitab nəşr edib və həmin kitab 2012-ci ildə Azərbaycan Respublikasının dövlət mükafatına layiq görülüb...

Tanriverdi Pasha: Mürvət bəy! Təsadüfən tanışlardan biri Sankt-Peterburq arxivində olan istənilən sənədin surətini əldə etmək imkanı olduğunu bildirib.. Direktorun özü ilə tanışdır və mobil telefonla da zəng edə bilər... Yəni həmin arxiv materiallarının saxtalaşdırılma imkanlarını yerində dəqiqləşdirmək olar...

Murvet Yusifov: Yaxşı tanışlarınız var)))

Qabil Zimistanoglu: Tanriverdi bəy! Nazr bəy yazır ki, Dəli Arutyun, Komaser adlı erməni kəndləri olub Toxluca kəndi yaxınlığında. Siz Toxlucaya yaxın bu adda erməni kəndlərinin

olduğunu eşitmisiniz? Elə saxtakarlıq göz qabağındadır. Mən bir göyçəli kimi Göyçədə bu adda ermən kəndlərinin olduğunu eşitməmişəm. Hələ bu saxtakarlıqdan biridir. Onlarla bu haqda misal çəkmək olar. Siz Toxlucaya yaxın yaşayırdınız. Siz toxlucalılardan da soruşun görün, belə adlar olubmu və ya Zərzibil kəndində guya erməni ailələri yaşayıb. Bu saxtakarlıq deyil, bəs nədir?

Q.Zimistanoğlu xaç atası Eldar İsmayılın Komaser və Dəli Arutyun kəndləri haqqındakı savadsız ittihamını daha savadsız şəkildə təkrarlayır.

Onun T.Paşaya ünvanladığı sualın cavabını yuxarıda vermişəm.

Nazim Shamilov: Hörmətli Nazir müəllim! Çıxışınızı çox diqqətlə dinlədim. Böyük işlər görürsünüz. Sizə bu yolda uğurlar arzulayıram. Ağbaba mahalı ilə əlaqədar araşdırmalarınız olacaqmı?

Nazir Ahmedli: Əziz dostum, Nazim müəllim! mənim ideyam belədir ki, Ağbaba və Zəngəzur mahallarını da gətirib İrəvan xanlığına daxil olan 15 mahalla birlikdə nəşr edim və bütün Qərbi Azərbaycan əhatə olunsun. Yəni gedə bilmədiyimiz dədə-baba torpaqlarımızda yatan bütün ululariımızın adını üzə çıxarıb ruhlarını şad edim. "Dərələyəz mahalının kameral təsviri" kitabım 2 ay qabaq nəşr olunub, "Göyçə mahalının kameral təsviri" isə bu günlərdə işıq üzü görəcək. Növbədə İrəvan şəhərinin kameral təsviridir, çünki o daha mühümdür.

Nazim Shamilov: Təşəkkürlər, kitablarından haradan əldə edə bilərik.

Nazir Ahmedli: Xəbər edəcəyəm

Rahim Xudaverdiyev: Nazir müəllim, cıxışıya qulaq asdım və cox ləzzət eylədi, sözüm yoxdur!!!

Fexri Qocayev: Nazir muellim, ugurlar arzulayiram Size.. Cixisiniza diqqetle qulaq asdim, mentiqli, faktlara soykenen esasli arqumentlerle gozel izah etmisiniz.

Nailə Mirzəyeva: Nazir müəllim, Şopenin atının nə günahı var? Əgər o at İ.Şopenə yoldaşlıq etməsəydi, bu kitab yazılmazdı. Və bu kitab olmasaydı biz bugün həmin illərdə doğma yerlərimizdə kimlərin və necə yaşaması haqda bilgilərdən məhrum olardıq. Kitabı oxudum, həm üslubu, həm orada verilmiş siyahılar, həm də şərhləri çox maraqlıdır. Sağ olun.

Nazir Ahmedli: Təşəkkür edirəm, Nailə xanım. Sizin kimi ciddi alimin verdiyi qiymət mənim üçün çox dəyərlidir. Mən bundan sonra da ancaq və ancaq həqiqətlərin uğrunda çalışıb mübarizə aparacağam. Haqq gec-tez öz yerini tutacaq.

Fexri Qocayev: Nazir muellim Yelizavetpol-Gence bolgesi uzre de kameral siyahi varmi? Varsa capi nezerde tutulur?

Nazir Ahmedli: Fəxri bəy, o bizim arxivdə var və ona hər kəsin əli çatır. Mən elələrini çap edirəm ki, bizdə yoxdur

Fexri Qocayev: Anladim, tesekkur edirem.

Miraslan Azizxanoglu: Nazir mùəllim, Sizin bu izahlardan sonra bədxahlarınızın sayının azalacağına ùmid edirəm. Yazıqlar olsun ki, biz hələ də milllət kimi formalaşmamışıq. Birbirinə çamur atmaqda bizə çatan olmaz

Nazir Ahmedli: Miraslan müəllim, həqiqət günəş kimidir, qara buludlar müəyyən vaxt onun qarçısını kəsə bilər, amma buludlar müvəqqəti, günəş isə əbədidir!!

Akif Huseynov: Nazir muellim siz Goyce mahalini ve Agkilse kendini taniyirmisiniz,1972 ci ilde Asiq Elesgerin 150 illik yubileyinde istirak etmisinizmi,Asiq ELESGERIN dogum tarixini ermenlerin hansi arxivinden götumusuz,onda siz usaq idiniz, Siz Asiq Elesgerin dogumunu saxtalasdirmaqla ne demek isteyirsiniz.Sizi kimiler Azerbaycan tarixini ve Azerbaycaninin gorkemli sexsiyyetlerinin tarixini saxtalasdirmaqla dusmen deyirmenine su tokursunuz.Size sual verirem kimlerin sifarisi ile bunlari yazirsiniz ,Birde ki siz tarixci deyilsiniz ,kimyacisiniz gedin senetinizle mesgul olun.Siz Asiq Elesgerin dogumunu saxtalasdirmaqla Azerbaycan xalqini onun tarixini eyni zamanda GOYCE mahalini tehqir etms olursunuz. Ona gore de zizden xahis edirem Asiq Elesger haqinda olan fikir lerinizi geri

goturesiniz. Yoxsa omur boyu Goycelilerin nifretini qazanacaqsiniz.

6 iyul 2017.

Qalmaqallı kitab müəllifinə tanınmış şair-yazıçıdan sərt cavab gəldi
Eldar İsmayıl: "Axı bunları bilə-bilə ermənin xeyrinə işləyən təsvirlərə necə istinad etmək olar?" Bugünlərdə çapdan çıxmış "Haqq-nahaq seçilər haqq divanında"…
musavat.com

Yorumlar:

Kamandar Ismayilov ikincisi de nadan Goycede yaşamaya-yaşamaya Goyce haqqinda neden ve ne yaza biler

Ələddin Allahverdiyev: Qərbi Azərbaycanın, xüsusilə qədim oğuz mahalı Göyçənin tarixini, onun təbiətini, görkəmli şəxslərinin həyat və yaradıcılığını uzun illər boyu yüksək dəqiqliklə, dərindən tədqiq edib öyrənmiş böyük şair, görkəmli publisist, əməkdar jurnalist Eldar İsmayılın "Haqq-nahaq seçilər Haqq divanında" "kitabı"nın müəllifinə cavabını dərin maraq hissi ilə oxudum. Yazıda gətirilən tarixi sənədlərə, təkzib olunmaz dəlillərə, məntiqə söykənən dəyərli məlumatlar, onların əsasında müəllifin söylədiyi fikirlər "kitabın" nəyinsə xatirinə qərəzli yazıldığını, onun müəllifinin yalnız üstündə erməni "əli" olan "kameral təsvir"ə istinadı ilk növbədə milli-mənəvi dəyərlərimizin tarixinə, onun görkəmli nümayəndələrinin - Ağ Aşıq Allahverdinin, Ustad Aşıq Alının, Şair Məmmədhüseynin, Aşıq Musanın, Dədə Ələsgərin, Şəmkirl Aşıq Hüseynin və başqalarının həyat və yaradıcılığını saxtalaşdırmağa cəhd etdiyini, bununla da onun bütöv Türk dünyasına böyük iddiaları olan mənfur, məkrli qonsülarımızın "dəyirmanına su tökdüyünü" sübut edir.Böyük Vətəndaş-Şair Eldar İsmayıla minnətdarlığımı bildirirəm!

Hard Bayram: Soz tapmirsan demeye men edebiyyatci olmasamda bilirem, oxumusham ve eshitmishem ki Ashig Elesker

nece ustad ashigin muellimi olub.Tutarli cavab ucun teshekkur edirem size Eldar muellim.

Elbrus Caferov: Eldar müellimin mekalesini okudum. Mükemmeldir. Mekale tarihi faktlara esaslanmıştır.Entrikacı "tarihci-etnografın" "kitabını" ve onun istinad ettiyi keşiş Nerses'in Şopen'e yazdırdığı "kameral tesvirile" birlikde alt-üst edir, kökünden çürütür.Sizleri tebrik edirem.Eldar müellime minnetdarız.

Nazir Ahmedli: Hörmətli Eldar müəllim: "Sitat: "Cəmiyyətdə bir böyüklük, nəhənglik sindromu var idi.... Bu özünü bütün təşkilatlarda göstərirdi. Aşıq şeirlərini toplayan araşdırıcılar da bir ..böyük.. məşhur.. ..sənətkar.. yaratmaq istəyirdilər. Başqalarının, yəni Alının, Bəşirin, İmanın, Musanın haqqının tapdanması önəmli deyildi".

Gətirdiyiniz sitatda deyilənlər mənim yox, kitabın əslən Göyçədən olan rəyçisi, tanınmış tədqiqatçı-jurnalist Əli Şamilin yazdığı ön sözdəndir. Xahiş edirəm, sitat gətirəndə dəqiq olun.

Eldar Ismayil: Nazir bəy, yazdığınız bu kitabın ideoloqu da Əli Şamildir. Növbəti yazımda onları qeyd edəcəm. Narahat olmayın.

Eldar İsmayıl təhrifə görə üzr istəmək əvəzin, hücuma keçir..

Nazir Ahmedli: Onu bu işlərə qatmayın, o həddindən artıq dürüst adamdır, kitabımın əlyazmasını da tam hazır olandan sonra görüb. Baxmayaraq ki, kitabda onu tənqid də etmişəm, o qədər alicənab adamdır ki, həmin yerləri ixtisar eləməyimi də xahiş etmədi, əksinə mənə təşəkkür etdi ki, onun yanlışını düzəltmişəm. Belə insanlar çox nadir və böyük insanlardır.

Niftali Goyceli: Əli Şamilə sual verdik: "Əli müəllim, siz babanızın adını bilirsizmi? Cavab: " Bu kameral yazılı kitaba qədər yox..." Bu sözlərə qəbul otağında oturan üç xanım da gülümsər onun üzünə baxdılar... Aşıq Ələsgərin nəticəsi Xətai bəy təəccüb içində, əsəbi halda Əli müəllimə baxarkən onun qolundan tutub bayıra çəkdim və dedim: "Gəl-gəl, bu adamlar "missiyaları"

naminə hər şey deyə bilərlər...bu adam Nazir Əhmədlidən də dəhşətlidir!" ...Əli müəllimin belə cavabını indi siz də qiymətləndirin...

Niftalı Göyçəli Əli Şamilin cavabından dəhşətə gəldiyini yazır. Halbuki, babası Mehdini tanımayan, onu Qulu kimi qələmə verən Eldar İsmayıldan fərqli olaraq, Əli müəllim səmimi şəkildə etiraf edir ki, Kameral təsvir nəşr olunana qədər uzaq babaları haqqında heç də hər şeyi bilmirmiş.

Niftalı Göyçəli və onların xaç atası Eldar İsmayıls isə sözsüz ki, "bilirlər" və onlara heç bir sənəd-zad lazım deyil!

Elbrus Caferov: Dede Elesger o şiiri tam bunlar için yazmıştır.

Qabil Zimistanoglu: Eldar müəllim bu yazısında dəqiq məqamlara toxunub. Göyçənin tarixi, bu mahalda yaşayıb-yaradan adlı sanlı ozan-aşıq sənətinin nümayəndələri olan Ağ Aşıq Allahverdi, Aşıq Alı, Dədə Ələsgər və sənətlkarların ailə üzvləri, yer-yurd adları və s. ilə bağlı saxtakarlıqlar arqumentlərlə alt-üst edilib. Belə başa düşdüm ki, yazının davamı olacaq. Davamını gözləyirik.

Bəxtiyar Rüstəmoğlu: Ermənin xeyrinə olan yazıda məqsəd nədir?Bu insan nəyə nail olmaq istəyib?Bu suallara cavab tapmadığım üçün Əkrəm Əylislinin „Nobel mükafatı"-nı xatırla-yıram.

"Yeni Müsavat"dakı müsahibənin davamı

"Tanınmış şair-yazıçıdan erməni arxivinə istinadla yazılan kitab müəllifinə yeni sərt ittihamlar

Eldar İsmayıl: "...bu cür cəfəngiyyatlardan uzaqlaşın, bu cılız iddialarınızdan əl çəkin!"

Bugünlərdə çap olunan “Haqq-nahaq seçilər haqq divanında” kitabının qərbi azərbaycanlıların böyük bir kəsiminin ciddi etirazına səbəb olduğu haqda məlumat vermişdik. Kitabın müəllifi Atatürk Mərkəzinin şöbə müdiri Nazir Əhmədli, elmi redaktoru Atatürk Mərkəzinin sədri, deputat, akademik Nizami Cəfərov, rəyçisi isə AMEA-nın Folklor İnstitutunun xarici əlaqələr departamentinin rəhbəri Əli Şamildir. 100-ə yaxın qərbi azərbaycanlı ziyalı toplantı keçirərək kitabda tanınmış aşıqlar haqda yanlışlıqlara və Qərbi Azərbaycanda qədim türk adlarının ermənilәşdirilməsinə etiraz etmişdi.

Etiraz doğuran əsas məqam isə odur ki, müəllif Nazir Əhmədli kitabda istinadların 90 faizini Ermənistan Milli Arxivində saxlanıldığı iddia olunan sənədlərə edib. Həmin sənədlərin mötəbərliyi isə böyük şübhə doğurur, saxtalaşdırılmasına dəlalət edən çoxsaylı məlumatlar var.

Qərbi Azərbaycan haqda 30-dan artıq kitabın müəllifi, əməkdar jurnalist, şair-yazıçı Eldar İsmayıl bir neçə gün əvvəl həmin kitabda yazılanların həqiqət olmadığını isbatlayan bir çox faktları ortaya qoyub. O, kitabın Azərbaycan tarixinin saxtalaşdırılmasına yönləndiyini nəzərə alaraq bir daha fikirlərini bölüşüb, faktlarla həmin sənədlərin saxtalığını ortaya qoyub. E.İsmayıl bir daha qeyd edir ki, Ermənistan Milli Arxivini əldə tutarqa edib sırf erməni məkrinin və hiyləsinin məhsulu olan “Erməni vilayətin”in kameral təsvirinə güvənib belə bir kitab yazmamalıydı. Düşmən millətin, keşiş Nersesin tərtib etdiyi sənədlərə uyğun kitab yazıb Göyçənin saz-söz ustadlarına yeni paltar tikməyə ehtiyac yox idi. Çar Rusiyası dövründə İrəvan vilayətində əhalinin ilk siyahıya alınması fransız mənşəli İvan Şopenə tapşırılıb. Şopenin adı ilə ermənilərin marağına xidmət edən kameral təsvir, tariximizi saxtalaşdıran “sənəd” bu gün millət olaraq öz içimizdə narazılıq yaradan qalmaqala səbəb olub. Tarixən Göyçə mahalının oğuzlardan ibarət olan əhalisinin milli

mənsubiyyətini qatıb-qarışdırmaq çap məhsulu müəllifinin ya məlumatsızlığı, ya da hansısa məkrli maraqlara xidmətidir.

E.İsmayıl deyir ki, kitabda istinad olunan kameral təsvirin nöqsanlı və xətalı olmasına bir daha faktlarla aydınlıq gətirir. Kameral təsvirdə göstərilir:

- "Kəvər çayı. Ördəkli kəndindən birinci çay olan öz mənbəyini Ağmanqal dağlarından aşağıdakı Dəliqardaş və digər kəndlərin yaxınlığındakı bulaqlardan götürür. O bir neçə qolu ilə Qışlaqdan yuxarıda birləşir və Noraduz (Nərədüz) yaxınlığında gölə tökülür".

Eldar İsmayıl:

-Bilmək lazımdır ki, Ördəkli kəndi Göyçənin Dərəçiçəklə sərhədində olan kəndlərdən biri olub. Dəliqardaşla və Nərədüzlə Ördəklinin arasında xeyli məsafə vardı. Ördəkli çayı ancaq kəndin yaxınlığında gölə tökülə bilərdi. Ağzı yoxuşa, Nərədüzə tərəf axa biməzdi.

Məlum həqiqətdir ki, güneyli, quzeyli Azərbaycan, eləcə də Anadolu türkləri, İraq türkmənləri Aşıq Ələsgərin 100 ildən artıq yaşadığını bilirlər. Bu yaş həddini də ilk növbədə Böyük sənətkarın özü, övladları, on iki şəyirdi, həmyerliləri, onu yaxından tanıyan dostları və tanışları müəyyən ediblər. Daha sonra görkəmli folklorşünaslar Ələsgərin həyat və yaradıcılığı ilə maraqlanıb, onun haqqında saysız-hesabsız məqalələr yazılıb, verilişlər hazırlanıb. Dəfələrlə Dədə Ələsgər kimi tanınmış söz sərrafının dövlət səviyyəsində yubileyi keçirlib. Hətta 1972-ci ildə o vaxt Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi işləyən Heydar Əliyevin rəhbərliyi ilə Bakıda, Aşığın doğma kəndi Ağkilsədə və Moskvada 150 illik yubileyi keçirildi. Dövlət səviyyəsində keçirilən 175 illik yubiley tədbirləri geniş miqyas alaraq bütün ölkədə qeyd edildi. Nazir bəy birdən-birə bütöv

Azərbaycan düşüncəsinin, fikrinin üstündən cızıq çəkərək bu qənatə gəlir ki, İvan Şopenin "Erməni vilayətinin" kameral təsvirində Ağkilsə kəndinin adı yoxdusa, demək Ələsgərin doğum tarixi düz deyil. Demək, onun fikricə, kameral təsvir ən müqəddəs bir sənəddir. Nerseslərin dizi üstə hazırlanan təsvirinə inanmaq olar, Azərbaycan ictimaiyyətinə inanmaq olmaz?

Nerses adını təsadüfən çəkmirəm. Nerses kimdir sualına "Obozrenie Rossiyskix Vladeniy za Kafkazom" hesabatından oxuyuruq:

(4 cildlik hesabat, Maksim Musayev)

-6 oktyabr 1827-ci ildə Paskeviç general-leytenant Krasoskiyə, yepiskop Nerses və podpolkovnik Borodinə Quberniyanın idarəçiliyini tapşırıb. Qriboyedovun milli zəmində üsyan ola bilər deməsindən sonra Nerses və Borodin Qafqazdan qovulub. Ermənilər təcili Nersesi kilsəyə baş keşiş verdiyindən o qalıb və sonrakı bütün hadisələrin iştirakçısı olub. 1838-ci ildə Göyçədə çar Rusiyasına qarşı baş vermiş üsyana görə Zod, Qızılbulaq (Çaxırlı) və Böyük Məzrə camaatı kəndliyə aid bütün imtiyazlardan məhrum edilib, hüquqsuz vəziyyətə salınıblar. Vəziyyətin bu həddə çatmasında da Nersesin şeytan barmağı ciddi rol oynayır.

Göyçə gölünün cənubundakı sıra dağların bir neçəsinin adı çəkilsə də kameral təsvirdə gölün şimal hissəsindəki dağlar tamam unudulur. Əslində unudulmamışdır. Təsviri hazırlayan ermənilərə Göyçə gölünü dörd tərəfdən qucaqlayan "qüdrətdən səngərli qalalı dağlar"ın adları qaranlıq idi. Çünki bunlar İrandan, Türkiyədən, Suriyadan gələn nabələd ermənilər idi.

Bu dağların heç birinin adları kameral təsvirdə yoxdu: "Marallıca" , "Çalmalı", "Murğuz", "Qanqallı" , "Ocaq dağı",

“Əyricə”, “Kirkitli”, “Pir dağı”, “Böyük yal”, “Topaşan”, “Şah dağ”, “Şivri”, “Sarı nər”,”Çalmalı”, ”Qarnıyarıq” və. s.

Ümumiyyətlə “Şah dağ” silsiləsinə aid dağların kameral təsvirdə yer almaması bu sənədin yalan-yanlış doldurulduğunun bariz nümunəsidir. Kitab müəllifinin etirafı bizim fikirlərimizi təsdiq edir.

E.İsmayıl qeyd edir ki, N.Əhmədli belə bir kameral təsviri həqiqiliyini yoxlamadan yazır: “Göyçənin yeni sakinlərinə başqa dağların adı məlum deyil”.

Mən də ona cavab verirəm:

- Əcəba, müəllif Göyçənin “yeni sakinləri” deyəndə gəlmə ermənilər nəzərdə tutmurmu? Əgər elədirsə, onların hazırladığı bu sənədi nə üçün təbərrük kimi qəbul edir? Göyçənin tarixinə, tarixi şəxsiyyətlərinə, saz- söz ustadlarına yenidən tarix yazır? Onları sağdan sola, soldan sağa çəkir? Məgər bu dağların adını tapıb sənədləşdirə bilməyən “yeni sakinlər” görəsən Əlinin, Vəlinin, Məhəmmədin adını, yaşını, atasını, babasını necə doğru-dürüst müəyyənləşdirə bilərdilər? Niyə məhz Ağkilsə, niyə Ələsgər? Görəsən, Ələsgərin yaşını böyütmək istəyənlərin məqsədi nə imiş? Əsgərlikdən saxlatmaqmı, yoxsa pensiya düzəltməkmi? Mən bu sualı “Aşıqlarımızın ömür yoluna aydınlıq gətirməyin yeni mərhələsi başladı” məqaləsinin müəllifi Əli Şamilə vermək istəyirəm? Mən Göyçəni kənd- kənd gəzmişdim. İnsanlarla görüşmüşdüm. Hər göyçəli Aşıq Ələsgərə müqəddəs Allah adamı kimi və Allahın nuru kimi baxırdı. Siz rast gəldiyim ilk göyçəlisiniz ki, Ələsgəri ermənilərin ala-yarımçıq hazırladığı saxta sənədin kor gözləri ilə görürsünüz. 3 noyabr 1984- cü ildə Vedinin Şirazlı kəndindən elin-obanın sevimlisi Ağamir Əsədov mənim yaşadığım Ağbulağa gəldi. Görüşüb bir az söhbət edəndən sonra Ağkilsə kəndinə Aşıq Ələsgər ocağına getmək istədiyini bildirdi. Bəşirin oğlu Həşim kişi ilə görüşmək istəyirdi. Kirvəlik

qohumluqları vardı. Bayraməli Əliyev, Ağamir Əsədov və mən Ağkilsəyə yollandıq. Yolda üç bəndlik "Basarkeçərdə" başlıqlı bir şeir də yazdım. Ələsgər ocağında Həşim kişi bizi çox qonaqpərvərliklə qarşıladı. Ağamirin gəlişinə çox şad oldu. Biz Ələsgərlə, Alı ilə bağlı ona bir çox suallar verdik. Ələsgərin yaşı ilə sualımıza o belə cavab verdi:

- Babamı yaxşı xatırlayıram, O rəhmətə gedəndə mənim 14 yaşım vardı. Hazırda 72 yaşım var. Babam Ələsgər deyirdi ki, rus gələndə (1828) mənim 7-8 yaşım olardı. Əgər o yaşdan kiçik olsaydım yadımda qalmazdı. Deyirdi ki, yüzü adlamışam. Yəqin ki, kişinin yaşının 1821-ci il olduğunu belə də müəyyənləşdiriblər. Ola bilər 1 yaş, 2 yaş o yan, bu yan olsun. Həşim kişi Aşıq Alı haqqında da dəyərli fikirlər söylədi. İndi varlığı-yoxluğu bilinməyən erməni arxivlərinə istinad edib kitab yazanlar desinlər, mən Dədə Ələsgərin nəvəsi Həşim kişinin dediklərinə inanım, yoxsa Nersesə?

Məgər Ağkilsə kəndinin adının təsvirə düşməməsi kəndin o illərdə olmaması demək idi? "Şah dağ"ın da adı düşməmişdi. Belə çıxır ki, "Şah dağ" 1831- çi ildə olmayıb! Sizin "mötəbər" saydığınız sənədə çox kəndlərin adı düşməyibsə, demək bu təsvir etibarlı sənəd sayıla bilməz.

Ağkilsədə yaşayış olmayıbsa, 1603- cü ildə dövlətə 7325 ağça vergini kim verirdi? (Bax: İrəvan əyalətinin icmal dəftəri. Səh. 109.)

Bir qotur keşişin tərtib elədiyi sənədi tərifləyə-tərifləyə gözə soxur, bütöv Azərbaycan ictimaiyyətinin, ustadın qohum-əqrəbalarının, folklorşünasların, Azərbaycan aşıqlarının, Azərbaycan dövlətinin fikirlərini yalana çıxarırsınız.

Eldar İsmayıl "qotur keşiş" deyəndə arxiyeoiskop Nersesi nəzərdə tutur və iddia edir ki, guya Nerses İ.Şopenə düzgün

siyahıyaalma keçirməkdə mane olub. E.İsmayıl bilmir ki. İ.Şopen bu Kameral təsvirləri tərtib etməyə başladığı 1829-cu ildə, Nerses istəsəydi də İ.Şopenə mane ola bilməzdi, çünki ondan 1 il əvvəl, 1828-ci ildə Bessarabiyaya, indiki Moldovaya sürgün edilmişdi.

Digər tərəfdən, Nerses yox, əgər İ.Şopenin öz dədəsi gəlsəydi, İ.Şopen heç kimi siyahıyaalmadan gizlətməzdi, çünki bu, vergi qaçaqçılığı idi və ağır şəkildə cəzalandırılırdı. Əgər aydın olsaydı ki, kəndxuda kimisə gizlədib, onu ağır fiziki və maddi cəza gözləyirdi-100 rubl cərimə şallaqlama. 100 rubl isə 50 qoyunun və ya 10 öküzün qiyməti idi. Eldar İsmayıl isə bütün bunları bilmir və bilmədiyinə görə də təxəyyülünə güc verir:

Əli müəllim, xəbərin varmı, "Erməni vilayəti" adlanan kimi ermənilər qışqırdılar ki, bu torpaqlarda bizim 3 min illik tariximiz var. Amma siz onların sənədi ilə Göyçənin qədim tarixini qatlayıb diziniz altına qoyursunuz.

Göyçə aşıq məktəbinin tarixinin böyüdüldüyünü narahatçılıqla vurğuladığınız halda, gəlmə ermənilərin uydurduğu 3 min il yalanını dilinizə almırsınız.

Erməni həmişə çalışıb ki, Qərbi Azərbaycan, o cümlədən Göyçənin tarixi saxtalaşdırılsın. Mən Krasnoseloda çıxan "Dostluq" rayon qəzetində Azərbaycan şöbəsinin müdiri işləyəndə ağbulaqlı Aşıq Sultanəli ilə bağlı yazı vermişdim. Burda yazmışdım "Aşıq Sultanəli Göyçə Aşıq Məktəbinin bu günki layiqli nümayəndəsidir. Göyçə aşıq məktəbi sozü rayonun erməni rəhbərliyinin tərpətmişdi. Qalmaqala səbəb oldu. Onlar istəmirdilər, bu ərazidə türklərin yaşayış tarixi, mədəniyyəti olduğu kimi təqdim olunsun.

Əli Şamilin bu günkü fikri ilə ermənilərin dünənki fikri bir-birini tamamlayır. Tamamlamasa keşiş Nersesin təlimatı ilə

hazırlanan “Erməni vilayəti”nin kameral siyahısına söykənib Göyçə sənətkarlarına, Göyçə mədəniyyətinə və tarixinə həqarətlə yanaşmazdı.

Əli Şamil yazır: “...2000-ci ildən sonra İslam müəllimlə (İslam Ələsgərov) bir yerdə Folklor İnstitutunda işləyəndə İ.Şopenə istinad edərək 1821-ci ildə Ağkilsədə yaşayış olmadığını yazmışdım. Məqaləni hörmət əlaməti olaraq müəllimim və Ələsgər ocağının alim oğlu, bu sahənin bilicisi sayılan İslam Ələsgərova oxumağa vermişdim. İslam müəllim məqaləni oxuyanda bərk əsəbləşmiş, yazını cırıb zibil yeşiyinə atmışdı”.

Əli Şamil bununla açıb deyir ki, Nazir Əhmədliyə bu mövzunu mən vermişəm, mənbənin də İ.Şopen olduğunu demişəm.

Sual olunur, sən bir elm adamı, folklorşünas alim olaraq kameral təsnifatın Göyçədə dəqiq aparılmadığını, elə İ.Şopen özünün də etiraf etdiyini bilmirdinmi? İvan Şopen Göyçəyə atla gedərkən atdan yıxılıb qıçının sındığını və təsnifin yarımçıq qaldığından xəbərin yoxdumu?

İlahi, bu adamın fantaziyası nə qədər ucsuz-bucaqsız, təxəyyülü nə qədər intəhasızdır! Gah uydururlar ki, Şopenin atının qıçı sınmışdı, gah da yazırlar ki, Şopenin özünün qıçı qırılmışdı və Göyçəyə getməmişdi! Axı bu harada yazılıb? Bu qırılma söhbətini E.İsmayıl haradan çıxarır, bir özünə məlumdur, yəqin ki, bir də Allaha!

Tutaq ki, Şopenin atının qıçı sınmışdı, bütün İrəvan əyalətində Şopenə başqa bir at tapıb verə bilmirdilər? Şopen İnzibati İdarəni müşaviri, yəni rəisin iki müavinindən biri idi. Siyahını yazanlar katiblər idi və Şopen onları təsdiq edirdi. Göyçə mahalının 1831-ci ilə aid Kameral siyahısını tərtib edən katibin adı Arxip Rıjkovdur.

Bu kütbeyinlərin Şopenin özünün və ya atının ayağının sınması səbəbindən Göyçənin bir çox kəndlərinin siyahıyaalınmadan kənar qalması haqqındakı komik uydurmaları yəqin bəşər tarixinin ən axmaq fikirləri sırasındadır! Bu uydurmanı ancaq E.İsmayıl, Q.Zimistanoğlu və M.Yusifov edə bilərlər!

Açığı, bu bəsit düşüncələrə, bəsit təfəkkürə bilmirsən ağlayasan, bilmirsən güləsən!

Əgər özünün dediyi kimi Göyçə haqqındakı 40 kitabı da bu düşüncə tərzi ilə yazıbsa, Göyçənin tarixinə dəsmal götürüb ağlamaqdan başqa çarə qalmır!

Sən bilmirdinmi İ.Şopen ermənilərin fransız qardaşıdı? Bimirdinmi, torpaqlarımıza sahib çıxmış ermənilərin hər hansı bir sənədi bizim xeyrimizə ola bilməz?

Bilirdinsə, niyə bir folklorçu kimi eldən-obadan, böyük sənətkarlardan, Azərbaycan ictimaiyyətindən bilgi toplamırdın?

Əli Şamil daha sonra yazır: "İslam müəllim mənə də incikliyini bildirdi, narahat olmuşdu ki, mən ondan xəbərsiz məqaləni haradasa çap etdirərəm. İnstitutun direktoru Hüseyn İsmayılova da məndən şikayət etmiş, xahiş etmişdi ki, məqalənin çapına mane olsun.

Göyçə aşıq məktəbinin yaşını böyütmək istəyən, bu mövzuda dəfələrlə mənimlə mübahisə edən Hüseyn İsmayılov sakit və mülayimliklə xahiş etdi ki,İslam Ələsgərov sənin müəllimin olub, ağsaqqal adamdır, hirslənər, başına bir iş gələr. Sən gəl bu məsələni qapat. Mən bu mövzudan əl çəkmək fikrində deyildim. Lakin əlimdə ciddi tarixi sənəd yox idi. Nazir Əhmədlinin qarşımızdakı kitabı isə mənim bu mövzuya müraciət etməyimə son qoydu".

Əli Şamil, siz əlimdə ciddi tarixi sənəd yox idi deyəndə hansı tarixi sənədi nəzərdə tutursunuz? Siz də Şopendən götürübsünüz, Nazir Əhmədli də Şopenə müraciət eləyir. Buradan belə nəticəyə gəlmək olar ki, Dədə Ələsgərin şeirlərinin təhlili də sizin qələminizdən çıxıb...

Hətta Nazir Əhmədlidə Ələsgərə bu soyuq münasibəti də siz oyatmısınız. Yoxsa Nazir Əhmədli hara, Ələsgər hara, Alı hara, Ağ Aşıq hara, Göyçə hara? Nazir Əhmədlinin Göyçə haqqında cüzi bir anlayışı olsaydı, bilərdi ki, Göyçə camaatı biruki, əliqanlı, çakırlı yox, oğuzlar olub. Bilərdi ki, göyçəlilərdə köçərilik olmayıb, o cümlədən Ağkilsə camaatını da köçəri adlandırmaq məlumatsızlıqdı. Əli Şamil, Nazir Əhmədli sizin bu məqalənizin gözünə kameral siyahını qataraq yorumlar eləmiş, sizi təkrarlamış, heç nəyə nail ola bilməmişdir.

Məsələn: Azərbaycan ictimaiyyətinin 200 yüz illik bir vaxt biçimində Aşıq Alı kimi tanınmış şəxsiyyətin Qızılvəngdə doğulduğunu inkar edərək "Aşıq Alı Şişqayada doğulub" deməyiniz, Aşıq Alının əsl adı Almədətdir qənatiniz çox gülüncdür! Ayıbdır! Belə yorum-yozumla siz beş addım belə gedə bilməzsiniz.

E.İsmayılın "200 yüz illik bir vaxt biçimində" ifadəsinin üzərində isə yəqin ki. dil tarixçiləri, linqvistlər, lüğətçilər uzun illər baş sındırmalı olacaqlar ki, bu şair-yazıçı-publisist-jurnalist nə demək istəyib!

Dilimizə yad olsa da, son iki onillikdə dövriyyəyə girmiş "zaman kəsimi" ifadəsinin mənasını pis-yaxşı başa düşmək olur, E.İsmayılın "kəşf etdiyi" "vaxt biçimi" ifadəsini anlamaq isə uzun illər müşkül bir məsələ olaraq qalacaq!

Və bu adam uzun illərdir ki, Azərbaycan Tibb Universitetinin qəzeti olan "Təbib" qəzetinin redaktorudur!Əgər

qəzeti də bu cür dildə buraxırsa, oxucularının nə isə anlaya biləcəklərinə şübhə edirəm!

Yazırsınız ki, Göyçə aşıq məktəbinin yaşını böyütmək istəyən Hüseyn İsmayılovla bu mövzuda dəfələrlə mübahisə etmişəm. Hüseyn müəllimlə mübahisə etdiyinizə inanmıram. Çünki siz folklorşünaslar arasında elə seçilən sima deyildiniz. Əvvəla, Hüseyn müəllim o institututun yaradılmsında böyük əməyi olan adamdır. Səhv etmirəmsə, sizi də işə o, götürüb. Hüseyn müəllim hansı aşığın yaşını artırıb ki? Onun rəhbərliyi ilə bütün bölgələrin folkloru toplanıb çap edilmədimi?

Azərbaycan folklorunun toplanıb çap edilməsində belə bir işi Şopenin erməni qardaşları sevməyə bilər, ancaq xalqımız, millətimiz üçün bu çox sərfəliydi. Bir də ki, inanmıram, Ələsgərə görə Hüseyn müəllim sizdən nəyisə xahiş eləyə... Dur çıx,- deyərdi!

Eldar İsmayıl Əli Şamilə "inanmıram, Ələsgərə görə Hüseyn müəllim sizdən nəyisə xahiş eləyə... Dur çıx,- deyərdi!"- yazır və qardaşını zəhmli, hökmlü göstərmək istəyir. Olsun. Amma qardaşının bu cür hökmlü olmasana aid konkret fakt göstərə bilərdi. H.İsmayılov direktor olan vaxt E.İsmayılın oğlunu işdən qovub.

Amma Eldar İsmayıl bunu demir.

Eldar İsmayıl onu da demir ki, qardaşı H.İsmayılov Folklor İnstitutunu yaradan və H.İsmayılova çörək verən mərhum professor Yaşar Qarayev vəfat edəndən sonra onun həyat yoldaşını da işdən çıxartmışdı. AMEA Ədəbiyyat İnstitutunun mərhum direktoru Y.Qarayev H.İsmayılovun elmi rəhbəri olmuş, onu yanına işə götürmüş, Folklor İnstitutunun yaradılmasında və H.İsmayılovun oraya direktor təyin edilməsində həlledici rol oynamışdı.

Eldar İsmayıl, əlbəttə, bütün bunları demir.

Amma Eldar İsmayıl mərhum Y.Qarayevin Göyçə haqqında yazdıqlarını həvəslə oxucularla paylaşır..

Siz Göyçəli ola-ola sevinclə-"Ələsgərlə bağlı yaranmış mövzuya bir də qayıtmağıma Nazir Əhmədli son qoydu" deməyiniz və "Hüseyn İsmayılov Göyçə aşıq məktəbinin yaşını böyütmək istəyirdi, buna görə mübahisələrimiz olurdu" sözləriniz təsdiq edir ki, Göyçə tarixinin qədimliyi sizi üzürmüş!

Duyğularınızdan, nəfəsinizdən Göyçəyə nifrət qoxusu gəlir...

Aşıq Ələsgərin yaradıcılığını özlərinəməxsus, olduqca zəif bir tərzdə təhlil etmələri haqda bir söz demək istəmirəm.

E.İsmayıl qeyd edir ki, kitab müəllifi və ya müəllifləri qələmə sarılanda qarşılarına aşağıdakı məqsədi qoyublar:

- Göyçədə qeyri millətlərin sayını artırmaqla oğuzların adı göstərilməsin, mənşəyi bilinməyən tayfa və millətlərə üstünlük verilsin. Olmayan erməni kəndlərinin adlarını saxta təsnifdən kitaba köçürsün.

Kitabda oxuyuruq:

Başkənd kəndində Türkiyədən köçürülən 28 erməni ailəsi yaşayır.

Yuxarı Adyaman kəndində Türkiyədən köçürülmüş 16 erməni ailəsi yaşayır. Dəliqardaş kəndində Türkiyədən köçürülən 116 erməni ailəsi yaşayır.

Bu siyahını N qədər uzatmaq olar. Müəllif yazmır ki, 1931-dən əvvəl bu kəndlərdə kimlər yaşayıb? Oğuzların yaşadığını dilinə gətirmədən yeni millətlər və tayfalarla kitablarını zənginləşdirirlər. Məsələn Qanlı Allahverdi kəndində 16 milli ailəsinin yaşadığı iddia edilir. Bizdə olan məlumata görə bu məlumatlar tamamilə səhvdir. Qanlı Allahverdi kəndinin camaatı vaxtı ilə Qazax mahalından gəlmiş türklərdir. Burada milli adında tayfa yaşamayıb! Ümumuyyətlə göyçəlilər sizin gen-bol işlətdiyiniz tayfa adlarını həyatları boyu eşitməyiblər.

E.İsmayıl bu abzasda Azərbaycan dilçiliyinə yeni bir söz də qazandırır: "N qədər"! "Bu siyahını N qədər uzatmaq olar". Yəqin demək istəyir ki, "Bu siyahını kifayət qədər uzatmaq olar". "40 kitabın müəllifinə" deyəsən Azərbaycan dilini yenidən öyrətmək lazımdır.

Amma şübhə altına aldığı rəqəmləri yoxlamaq üçün çox sevdiyi Z.Qorqodyana müraciət etsəydi, görərdi ki, Zavenin özü də həmin rəqəmləri İ.Şopendən götürüb.

Son qənaətim belədir:

- Bütün Göyçə ziyalılarının etirazla qarşıladığı bu çap məhsulu məqsədyönlü şəkildə işlənib. Göyçədə olmayan erməni kənd adlarının, naməlum tayfa adlarının, təhrif olunmuş yer-yurd adlarının kitabda yer alması fikrimizə əsas verir.

Xüsusilə, Göyçə Aşıq məktəbi banilərinin yaşının kiçildilməsi, yerlərinin dəyişdirilməsi Göyçənin qədimlik anlayışını aradan qaldırmaqdan başqa bir şeyə xidmət etmir. Eyni zamanda, milli mənsubiyyəti türk olan Ağ Aşığı aparıb milli tayfasına bağlamaq çox qaranlıq məqamlardan xəbər verir. Bu qaranlıq məqamların qarşısı vaxtında alınmasa, bundan ziyan Azərbaycan ədəbiyyatı və tarixi çəkə bilər.

Odur ki, üzümü Əli Şamil və Nazir Əhmədliyə tutub deyirəm ki, Ağ Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgərlə bağlı bu cür cəfəngiyyatlardan uzaqlaşın, bu cılız iddialarınızdan əl çəkin! Unutmayın ki, Qərbi Azərbaycanın hər guşəsi, mədəni aləmi Azərbaycan və Azərbaycan tarixi deməkdir!

E.MƏMMƏDƏLİYEV,
Musavat.com

09.07.2017 “

“Yeni Müsavat” qəzetində və musavat.com saytında ağzına gələn sərsəmləmələri çap etdirən E.İsmayıl aşkar məmnunluq içərisindədir. Bəs necə, artıq mənim “Haqq-nahaqq seçilər Haqq divanında” kitabımı “yer üzündən silib”! Köksünü qabardıb məğrur-məğrur addımlayır və təbrikləri qəbul edir::

E.İsmayılın statusu

10 iyul 2017.

“VAR OL ELİMİZİN--OBAMIZIN, XALQIMIZIN QEYRƏTLİ OĞLU ELDAR İSMAYIL! Su içdikləri quyuya tüpürən, erməni dəyirmanına su töküb dən daşıyan ***nacinslərə*** verdiyin cavaba və layiqli ittihamlarına görə VAR OL!. Bu ***nacinslərin*** erməni mənşəli və mənbəli GÖYÇƏ tarixinə, insanlarına kölgə salmağa, çamur atmağa hesablanmış çap məhsulu müəlliflərin AZƏRBAYCAN xalqından və GÖYÇƏ insanlarından rəsmən üzr istəməklə öz əlləri ilə toplanıb layiq olduğu zibilliyə atılmalıdı və atılacaq!” **SAHİB MUSAYEV**

Hər cür küçə söyüşləri, təhqirlər yazdığına görə FB-də blok etdiyim Sahib Musayevin yazdıqlarını mən, mənim yazdıqlarımı isə o görmürdü. Bununla da yaxamı onun əlindən qurtarmaq istəyirdim. İndi Eldar İsmayıl onun mənim haqqımda yazdığı təhqirləri sitat kimi burada paylaşır ki, mən də görüm və əsəbləşim. İkinci məqsədi isə S.Musayevin onun ünvanına yazdığı ucuz tərifdən xoşallanmasıdır!!

Açığı, Sahib Musayevin "erməni mənşəli və mənbəli GÖYÇƏ tarixinə, insanlarına kölgə salmağa, çamur atmağa hesablanmış" ifadələri məni heyrətləndirdi. Qaraguruhçu dəstə gah məni Göyçənin türk tarixini saxtalaşdırmaqda suçlayır, gah da erməni mənşəli Göyçə tarixinə çamur atmaqda ittiham edir. Bunu Sahib Musayev yazır, Eldar İsmayıl tirajlayır...

Onun bu cılız hərəkətinə mən də ayrı cür cavab verirəm:

Nazir Ahmedli: Eldar müəllim, Sizə ünvanladığım sualı burada da təkrarlayıram: vaxtilə "Göyçə dağı" adlanan dağ siz orada yaşayanda hansı adla tanınırdı?

Bayram Mammadov: Canina azarla tanınırdı. Başa duşmedim, agzina geleni yazmagin bes elemir, hele bir ozune haqq qazandirirsan. Sizin kimiler varsa bize duşmen(ermeni-rus-fars) lazim deyil. Hereniz girmisiniz bir deşiye, tokun ermeni deyirmanina cirkli sulardan.Başqalari başqasininkini ozelleşdirir, buda ozumuzunkunu başqalaşdirir.Yaşamadigin yer haqda yalan fikirlerinizi yigiwdirin.Hamisi cehennem,Nizami muellimin bu cefengiyyata rey yazmasi meni yandirir.

Eldar Ismayil: Nazir bəy, Sizin bu dağlar, yer- yurd adları haqda məlumatınız olsaydı belə bir kitaba imza atmazdınız. Mən sizə deyəndə ki Göyçə haqda Sizin təsəvvürünüz yoxdu, necə kitab yaza bilərsiniz? Siz dediniz ki, mən Sizdən icazəmi almalıydım.? Dedim icazə yox, məsləhət almalıydınız.... Gördünüzmü "Haqq yerini tapdı"? ***Göyçə adında ayrıca dağ yox idi.*** Ancaq Kişik "Şahdağ" silsiləsi boyunca onlarla başı buludlara dəyən

dağlar vardı: "Çalmalı", "Pir dağı, "Kirkitli","Şivri", "Sarı nər", "Qarnıyarıq" və sair. Məqalədə dağ adları var, baxa bilərsiniz.

Sualın cavabını bilməyən E.İsmayıl nala-mıxa vurmaqla məşğuldur!

Nazir Ahmedli: Hörmətli Eldar müəllim, sualıma cavab verə bilmədiniz. Mən sizdən konkret olaraq bir daha soruşuram: "Kitabi-Dədə Qorqud"da və "İrəvan əyalətinin icmal dəftərində" (1728) adı çəkilən Göyçə dağı adını sadaladığınız dağların arasında hansıdır? Buna cavab vermək əvəzinə, məni söyən, sizi isə şit-şit tərifləyən bir ədəbsizin yazdıqlarını paylaşırsınız. 75 yaşlı adam, ağsaqqal bir şair, qələm əhli üçün çox ayıbdır. Başqa sözüm yoxdur.

Görünür, sonradan yazdığı yorumları silən Hacı Abbas Bağırov burada mənimlə dialoqa girir və Göyçə dağının Çalmalı dağı olduğunu yazır.

Nazir Ahmedli: Hacı, həmin dağ Çalmalı deyil, həm də sualımı sizə ünvanlamamışam. 3 aydır ki, Eldar müəllim mənim Göyçə haqqında heç nə bilmədiyimi, özünün sə hər şeyi bildiyini 100 dəfə mənə deyib və yazıb, sonuncu qəzet müsahibəsində təkrar edib. Göyçə haqqında verdiyim ən sadə suala isə cavab verə bilmir. Əvəzində məni söydürür. Çox təəssüf edirəm! Halbuki, göyçəlilərə sözü keçən bir ağsaqqal kimi müraciət edə bilərdi ki, təhqirə yol verməsinlər. Bu statusunda isə hörmətli ağsqqqalımız onu öyən, məni söyən Sahib Musayevin sözlərini paylaşmaqla, ağsaqqllıq normalarına ciddi xələl gətirmişdir.

Şahlar Haciyev: Nazir Ahmedli, Məlumunuz olsun ki, "Kitabi Dədə Qorqud"dastanında Göyçə dağı adinda bir dağ adi çəkilmir. Siz yenə məlumatları Erməni mənbələrindən götürmüsünüz. Göyçənin Ağsaqqal alimini təhqir etmək üçün deyəsən lap Şeytanın özünə müraciət etməyə hazırsınız. Mən sizi bu qədər aciz təsəvvür etmirdim.

S***on vaxtlar 7 min il əvvəlki hadisələrdən geninə-boluna fərziyyələr irəli sürən, təbii ki, nəinki Göyçə aşıqlarını, hətta Dədə Qorqudu da "bilən" bu başabəla "tarixçi", iddia edir ki, "Kitabi Dədə-Qorqud"da Göyçə dağının adı çəkilmir! Nə olar, ona bir daha xatırlatmaqda fayda var! Qoy heç olmasa, buradan öyrənsin!***

"Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin 126-cı səhifəsində, "Qazan bəy oğlu Uruz bəyin dustaq edildiyi boy"da Qazan xanın dilindən deyilir: "Mən bu oğlanı alayın, ava gedəyin.Yedi günlük azuğa çıqayın. Oxatdığum yerləri, qılıc çalıb baş kəsdiyim yerləri göstərəyim. Kafir sərhədinə, Cızığlara, Ağlağana, Göyçə dağa aluban çıqayın. Sonra oğlana gərək olar, a bəglər!-dedi.

Eldar Ismayil Nazir bəy, hoppanıb Dədə Qorquda düşmə. Mən sənə cavab verə bilmədim? Mən istədim ki, bir az üzdən gedim. İndi sənin yalanla yoğrulmuş kitabının gününə baxarsan. Dədə Qorqudda deyilən dağ Göyçənin üstü dağlardı. Ayrıca Dağ adı yoxdur.

Sualın cavabını bilməyən və buna görə də əsəbləşən E.İsmayıl indi də sırf aşıq üslubunda hərbə-zorbaya keçir!

Şahlar Haciyev: Eldar Ismayil. Xahiş edirəm siz ona cavab verməyin. Bu adam hətta sizi təhqir etməyə hazırdır. Nə lazımdır biz cavab verərik.

Eldar Ismayil: Nazir bəy, sən bu camaatı 3 aydır işindən-gücündən edibsən.

Nazir Ahmedli: Eldar müəllim, arxı tullanmamış "bərəkallah" demə. Dədə Qorqud uzaqdır, 1728-ci il çox yaxındır-bizi cəmi 289 il ayırır. Siz isə 500 il bundan əvvəl yaşadığını iddia etdiyiniz Miskin Abdalın müasiri kimi onun haqqında da iddialı sözlər yazırsınız. 289 il əvvəlki çox mühüm bir şeyi isə bilmirsi-

niz. Əsəbləşməyiniz haqsız olduğunuzu göstərir. Qulbeçələrinizə isə deyin ki, işə qarışmasınlar, sadəcə elmi mükalimə aparaq.

Eldar Ismayil: Mən heç kimi təhqir etmirəm. Bu sizin xislətinizdi. Mən sənə televizya ekranında cavab verəcəm.

Nazir Ahmedli: Çox yaxşı, özünüzdən əminsinizsə, birlikdə o ekrana çıxaq, bir qapıya futbol oynamayaq.

Eldar Ismayil: İnşallah.

Nazir Ahmedli: Anlaşdıq.

Şebnem Bunyadzade: Üç aydı ermeni sifarişi ile milleti zeherlemeye çalışan söyüş qehremanı ile danışmağa adam yoxdumu Dede Eldar? Siz onun seviyyesine enmeyin.

Bəh-bəh! "Böyüktürkə" təzə ünvan da verirlər-"Dədə Eldar!" Burada hərə öz cəhrəsini əyirir, E.İsmayıl yeni titullar qazanır!

Şahlar Haciyev: Ən yaxşısı onun səviyyəsinə enməməkdir. Reklam olunduqca azğınlaşır. Öncə Qabil Hüseynlini, indi isə Eldar İsmayılı təhqirə keçib

Murvet Yusifov: Bədnam kitab müəllifinin işlətdiyi ifadələrin çəkisini, mənasını anlamadığını bir neçə dəfə bildirmişəm. "Qulbeçələrinizə deyin işə qarışmasınlar" Bu ifadəni işlədən "tarixi inqilab" qəhrəmanı anlamır ki, ***hədəf götürdüyü ünvanın hər biri ayrı-ayrılıqda onun özündən savadlıdı.*** Anlamır ki, "Göyçə mahalının tarixini, coğrafiyasını bilmirsən" demək ona yönəlik ən humanist bir ittihamdı. Bilərəkdən bu cür yazdığını etiraf etməyi dolayısı ilə xəyanətini etiraf etməyidi.Əslində Eldar İsmayılın humanistliyinin qarşılığıdı bu. ***Mən öncədən təklif etmişdim ki, kitabın məramı, məqsədi bəlli olduğu üçün oxunmadan boykot ediməli, bu yazı toplumuna "tarixdə inqilab" adı verənlər hüquq müstəvisinə çəkilməlidi.***

Qədim yurd yerlərimizi işğal edib, bu gün də əsarətdə saxlayan dövlətin arxivinə istinadən yazılmış kitabda xeyirli nəsə gözləmək əbəsdi.

Son olaraq Nazirə, Sahib Musayevlə debata çıxmağını məsləhət görürəm.

Sənin ideoloqların belə, debatda Eldar İsmayıl Böyüktürkə uduzacaqlar!!!

Qulbeçələr isə işə qarışıb sualıma cavab tapa bilmədiyindən pərt olan E.İsmayılı vəziyyətdən çıxarmağa çalışırlar.Həm də qorxurlar ki, mənimlə debata çıxa və biabır ola.

Mürvət Yusifov "Mən öncədən təklif etmişdim ki, kitabın məramı, məqsədi bəlli olduğu üçün oxunmadan boykot ediməli, bu yazı toplumuna "tarixdə inqilab" adı verənlər hüquq müstəvisinə çəkilməlidi" cümləsi ilə məndən DTX-ya yazılan donosun əsas təşkilatçılarından və ideya müəlliflərindən biri olduğunu bir daha etiraf edir..

Nazir Ahmedli: Hacı Abbas Bağır, Siz bu statusda Sahib Musayevin haqqımda işlətdiyi təhqirləri Eldar müəllimin yaydığını nəzərə almırsınız? Tutaq ki, özü məni söyməyib, söyənin sözlərini buraya yazmağa nə ad verirsiniz? Buna deyirlər "İlanı Seyid Əhməd əli ilə tutmaq". Neçə vaxtdır "Yeni Müsavat"ın səhifələrində geninə-boluna mənə qara yaxır. Bircə dəfə balaca bir irad tutmuşam ki, Əli Şamilə aid olan sözlərin müəllifi kimi məni göstərib. ***Bunlar elə hesab edir ki, mən müqəssirəm və boynuma kəfən dolayıb qarşılarına gəlməliyəm. Mən isə hesab edirəm ki, məni haqsız yerə söyürlər və onlar Tanrının qarşısında cavab verib cəhənnəm odunda yanacaqlar.*** Çünki mən Göyçə və Göyçəlilərə xidmət etmişəm. Onlar öz ağırlığında qızıl qoysaydı, ata-babalarının şəcərəsini, doğum tarixini müəyyənləşdirə bilməzdi. Qohumlarını tapıb üzə çıxarmışam. Aşığın sözü qurtaranda "neynim-neynim" deyəm kimi, bunlar da ortaya bir fakt qoymayıb tutuquşu kimi "erməni-rus mənbəyi" sözündən başqa bir şey bilmirlər***. Eldar müəllim qəzetə müsahibəsində deyib ki, erməni keşişi Nerses guya Şopenə mane olub ki, düz yazmasın. Mən isə onun nəzərinə***

"İrəvan xanlığı" kitabından misal gətirdim ki, Nersesi 1828-ci ildə Moldaviyaya sürgün ediblər, o 1831-ci ildə Şopenə necə mane ola bilərdi?? Bu adamların bütün uydurmaları sabun köpüyü kimi partladıqca daha da əsəbləşib hiddətlənir və təhqirin dozasını artırırlar.

BU ADAMI YADDA SAXLAYIN: SABUTAY HACIYEV!

Sabutay Haciyev: Hər vaxtınız xeyirli olsun. Əvvəla burada məndən öncə sülh və əmin-amanlıq çağırışlarına qoşuluram, hər kəsi səbirli olmağa çağırıram. Mənə hələ də aydın olmayan bir məsələ var. Biz tanıdığımız adamlardan kim öz dədə babasını tanımır? Bu sözlə niyə kimsə özünü təhqir edir? Nazir bəydən isə bir şey soruşmaq istərdim. Şopeni niyə bu qədər inanaraq müdafiə edirsiniz? Maraq nədir? Xahiş edirəm heç kim komment yazmasın, yalnız Nazir bəy cabvab versin.

Nazir Ahmedli: Mən "tanımır" demədim, şəcərəni və doğum tarixlərini dedim. Mənim özüm də babamdan o tərəfə olan ulularımın doğum tarixini bilmirdim, sənədlərlə təsbit etdim.

Murvet Yusifov: Sabutay müəllim, güman edirsən ki, nəsə başa salacan?!

Nazir Ahmedli: Sabutay Hacıyev, çünki Şopenin yazdıqları tarix dairələrində vazkeçilməz mənbədir. 2010-cu ildə Tarix İnstitutunun hazırladığı "İrəvan xanlığı" kitabında da onun yazdıqlarından xeyli istifadə olunub. Qalan mənbələrdən az istifadə edilib. Azərbaycan tarixşünüslığında hələ elə bir tarixçi yoxdur ki, Şopenin yazdıqlarını şübhə altına alsın.

Şahlar Haciyev: Boş - boş, gic-gic faktlarla həyasızlaşan Nazir cavab varilmədikcə azğınlaşır. Öncə Qarapapaq türkləri haqqında.. ***Onların izi Göyçədə rast gəlinmir. Onlar Oğuz türkləri deyil, qıpçak türkləridir.Bir hissəsi Borçalıda yaşayıb, bir hissəsi isə Qarabağda xristiyan dinini qəbul edərək haylara qarışıb.*** Onların Göyçədə' "yerləşdirilməsi" isə məqsədli şəkildə istifadə olunub. Dəfələrlə Osmanlıların Azərbaycanı işğalından

ağızdolusu "danışan" nazir bilməlidir ki, işğalçılar Ruslar, Farslar, ermənilər olub. Nadir şah isə 1735 ci ildə şah deyildi və ən böyük Türkçü, Turançi idi. Məqsədi isə Osmanlılarla birləşib böyük Turan qurmaq idi. Bunun üçün fars təriqəti olan şiəçiliyi aradan götürmək istədi və elə onun qurbanı oldu.Dəfələrlə xahiş etdik ki, Dədə Ələsgərin tarixinə toxunma, razılaşmadı, məqsəd başqa imiş.

Öz aləmində guya məni aşağıladığını zənn edərək adımı kiçik hərflə, savadsızlığından isə rus, fars, türkçü və turançı sözlərini böyük hərflə yazan başabəla zırrama doğrudan ağlını itirərək "Öncə Qarapapaq türkləri haqqında.. Onların izi Göyçədə rast gəlinmir. Onlar Oğuz türkləri deyil, qıpçak türklərindir. Bir hissəsi Borçalıda yaşayıb, bir hissəsi isə Qarabağda xristiyan dinini qəbul edərək haylara qarışıb",-yazır. Ustadı kimi fantaziyaya uyaraq, "Nadir şah isə 1735 ci ildə şah deyildi və ən böyük Türkçü, Turançi idi. Məqsədi isə Osmanlılarla birləşib böyük Turan qurmaq idi",-deyir.

Əgər mən hansısa türkün ermənіyə çevrildiyini yazsaydım, görəsən bu nadanlar mənə daha hansı söyüşü söyməzdilər? Bu nadan isə bütöv bir türk etnosunun ermənіləşməsi haqqında sərsəmləyir!

Nazir Ahmedli: İnsan nə qədər səfeh olmalı imiş ki, Nadirin osmanlılara qarşı apardığı qanlı müharibələri onlarla birləşmək cəhdi kimi qiymətləndirsin...

Şahlar Haciyev: Bilmədiyin şeylər çoxdur ey nadan.. Sən Nadir şahın Sultan Mahmuda yazdığı məşhur məktubu oxu, sonra mənə cavab verərsən.

Əvvəlki yorumda başladığı təhqirlərini davam etdirir.

Murvet Yusifov Sabutay müəllim, Şopeni müqəddəs bilib, onun yazdıqlarının vasitəsi ilə babalarını tapanlarla diskussiya etməyə dəyməz. Xahiş edirəm dayanın. 3 aydı eyni sözləri

təkrarlayır. Şopenin dolayısı ilə yazıları ona ötürənləri müqəddəs adlandırır.

"Tarixçi"ni başa salmağa cəhd edirəm:

Nazir Ahmedli: Ey cahil, Nadir şah o məktubda yazırdı ki, sünnilərin 4 məzhəbi ilə şiələrin cəfəri məzhəbinə bərabər status verək, sünni-şiə düşmənçiliyi aradan qalxsın. Amma Osmanlı üləmaları sultana dedilər sən islamın xəlifəsisən, onun təklifini qəbul etmə, şiəlik dindən xaricdir. Rədd cavabı alan Nadir şah hətta bu məsələyə görə 1743-cü ildə Osmanlılara müharibə elan etdi, amma işin başa gəlməyəcəyini görüb fikrindən vaz keçdi. Sən nadan isə deyirsən Nadir şiəliyi ləğv etmək istəyirdi. Hər şeyi belə baş-ayaq qələmə verən qanmazsan.

Deyəsən, sonuncu cümləm "tarixçi"yə təsir edib. Söz tapmayıb deyir:

Şahlar Haciyev: Bəlkə bu tərbiyəli oğlanla qurtaraq yazışmanı?

Sabutay Hacıyev: Mən bir dəfə bu barədə sizə (Nazir Əhmədli) demişəm, yenə də xatırlatmaq istərdim ki, İvan ŞOPEN əslində bütün varlığı ilə Qafqazda erməni kökünü dərinləşdirməyə xidmət edən bir tarixçidir. Onun aşağıda şəklini qoyduğum kitabını siz gərək kameral qeydlərdən əvvəl oxuyaydınız. Bu kitabda ŞOPEN elə bir erməni tarixi yaradıb ki, ondan sonra gələn bütün erməni və ermənipərəst araşdırmaçılar bu kitabın materiallarına istinad etmişlər. Belə bir adamın əməyinin məhsulu olan materiallar əsasında o torpağın suyunu içib, havasını udan bir adam bu səviyyədə aşağılayıcı və saxta bir kitaba necə imza ata bilərdi, bu çox maraqlıdır. Ən azından sizdən əvvəl bu adamın yaradıcılıq məhsullarını araşdıran Ella Əlibəyovanın tədqiqatlarından yararlanmağınız məsləhətli olardı.

Nazir Ahmedli: Əgər bilmək istəyirsinizsə, mən bu kitabı oxumuşam, onun həm elektron, həm də çap variantı varımdır. Və

yenə də oxuyuram. Onun qədim erməni salnaməçilərinə əsaslanıb yazdığı erməni tarixində onları qədim, böyük bir millət kimi göstərməsi, Böyük Ermənistan dövləti haqqında yazdıqlarının üstündən sükutla keçmişəm. Bizim xeyrimizə olan yerlərindən isə hazırda mətbəədə olan ***"Göyçə mahalının kameral təsviri.1831-ci və 1842-ci illər"*** kitabımda istifadə etmişəm. Bu cür sitatlardan biri odur ki, Şopen yazır ki, əslində 1831-ci ildə Erməni vilayətində yaşayan ermənilər etnik baxımdan erməni saymaq olmaz. Onlar assuruyalıların, midiyalıların və Babilistan işğalından sonra buraya gələn yəhudilərin törəmələridir. Bu yəhudilər təqibdən xilas olmaq üçün erməni dilini qəbul edib ermənilşiblər. Şopen həm də yazır ki, ermənilərin musiqisi-filanı yoxdur, onlar bütün musiqini tatarlardan (yəni türklərdən) götürüb. Yazır ki, vilayətin sonuncu ermənilər-2 min ailə 1804-cü ildə general P.Sisiyanovla gedib Tiflisdə məskunlaşıblar. Az-çox erməni sayıla biləcəklər İrandan köçürülən ermənilərdir.

Şopenin təqdim etdiyi statistik rəqəmlər təsdiq edir ki, işğaldan qabaq İrəvan və Naxçıvan xanlığında yaşayan yerli ermənilər ümumi əhalinin 20 faizə yaxınını təşkil edirdi. Rusların İrandan və Türkiyədən neçə ermənini gətirdiyi və etnik balansı ermənilərin xeyrinə necə dəyişdiyini göstərir. Mən də onun həmin statistik rəqəmlərini adını çəkdiyim kitaba daxil etmişəm. Tarix İnstitutunun nəşr etdiyi "İrəvan xanlığı"(2010) kitabında da həmin rəqəmlər əksini tapıb. Bütün Azərbaycan tarixçiləri də Şopenin həmin rəqəmlərinə əsaslanıb ermənilərin qədim türk torpağı olan İrəvan xanlığına gəlmə olduğunu yazırlar. Mən də onların yazdığını cümlə-cümlə yazanda məni düşmən adlandırırlar. Siz deyin, bu qərəzkarlıq deyilmi?

Sabutay Haciyev: Burada bir fərq var. Siz onun yazdığı materialları görmək istədiyiniz kimi qəbul edirsiniz. ŞOPEN bu kitabda guya müəyyən qədər tarazlıq yaratmaq xatirinə sizin göstərdiyiniz bəzi cümlələri işlədib. Lakin kitabın əsas məğzi, mənası ermənilərin qondarma tarixini leqallaşdırmaq olub, və o buna nail olub. Görürsünüz, hətta onlarla düşmən mövqedə olan bir dövlətin tarixçiləri belə bu kitaba MÜQƏDDƏS yanaşaraq

qəbul edirlər, və yeri gəldi gəlmədi istinad edirlər. Bu da ondan irəli gəlir ki, bizdə milli qürur hissi tam formalaşmayıb. ***Bizim "tarixçilər" milli mənəvi dəyərlərimizi ŞOPENİN bir-iki kəlməsinə sataraq özlərinə tanımadıqlari dədə-baba yaradırlar. Adamın gərək öz qəlbində xalq, millət sevgisi ola.*** O olmayandan sonra nə mənim yazdıqlarım, nə də kiminsə söyüşləri təsir eləməz. Ən azından onu da bilmək lazımdır ki, bu cürə saxta mənbələri əldə rəhbər tutanlar Ümummilli liderimiz Heydər Əliyevin, Prezidentimiz İlham Əliyevın o torpaqlar, orada yaşayıb yaratmış tarixi şəxslər haqqında dediklərinə, imzaladıqları sərəncamlara qarşı şübhə yaradaraq xalqın illərlə inandığı tarixi faktlarai ləkələməkdədirlər.

Nazir Ahmedli: Biz həmin kitabdan ermənilərin xeyrinə olmayan şeyləri istifadə edirik. Və bu kitabın əsasında yazılan "İrəvan xanlığı" kitabı cənab prezident İ.Əliyevin sərəncamı ilə dövlət mükafatına layiq görülüb.. İkincisi və əsas olanı isə odur ki, ondan imtina etdikdən sonra ortada daha heç bir mənbə qalmır. Onu rədd eləmək üçün gərək düzgün hesab etdiyin başqa mənbə ortaya qoyasan. Bu cür mənbə isə yoxdur. Onda gərək, ümumiyyətlə həmin dövrün tarixi yazılmasın. Həm də deməliyəm ki, Şopen həmin dövrün vergi sistemini, kənd təsərrüfatını, iqtisadi münasibətləri, maliyyə, çəki və ölçü vahidlərini, orada yaşayan xalqların etnoqrafiyasını təsvir edib. Tarix elmi Şopendən imtina etsə, ortada heç nə qalmaz. Amma bütün tarixçilər onun kitabından Azərbaycan türklərinin xeyrinə olan məlumatlardan istifadə edir və belə də olmalıdır. Çünki tarix elm olmaqdan daha çox ideoloji silah rolunu oynayır.

Sabutay Haciyev: Əgər siz istəsəydiniz həqiqəti də tədqiq edə bilərdiniz. Deyirsiniz ŞOPENDən başqa heç bir material yoxdur. Bu günlərdə mənə göndərilən tarixi sənədlərin içində daha mötəbər tarixçilərin əmək məhsulları ilə tanış olmaq imkanı qazanmışam. Bunlardan bir neçəsini deyim, siz də vaxtınız olanda tapıb maraqlana biləsiniz. Nikolay Fyodoroviç Kruze. 1835-ci ildə yazdığı kitab "Rusiyanın Cənubi Gafgaz vilayətlərinin önəmi haqqında"; Naməlum müəllifin yazdığı "Qədim Asiya Albaniyası

haqqında"; 1836-cı ildə yazılmış"Rusiyanın Cənubi Qafqazdakı ərazilərinin statistik, etnoqrafik, topoqrafik,və maliyyə icmalı"-müəlliflər: Vasiliy Leqkobıtov, Nikolay Frolov, Aleksandr Yanovskiy. ; Əlavə olaraq Dmitriy Zubatyevin bütün yaradıcılığı həmin ərazilərin öyrənilməsi ilə bağlıdır; Eduard İvanoviç Əyxvald topladığı materiallarda (1825-26) ərazinin tarixi və antologiyası təsvir olunub, və s. İnanın ki, əgər istəsəydiniz tapa bilərdiniz. Və bu göstərdiyiniz ŞOPENİZMdən daha layiqli materiallar əsasında kitab yaza bilərdiniz. Heyf.

Sabutay Hacıyevin bəhs etdiyi Nikolay Fyodroviç Kruze ilə maraqlandım. Haqqında belə məlumat verirlər ki, 1823-1901-ci illərdə yaşayan rus ictimai xadimi və yazıçı olub.

Sabutay Hacıyev onun 1835-cı ildə yazdığı "Rusiyanın Cənubi Gafgaz vilayətlərinin önəmi haqqında" kitabından bəhs edir! Belə çıxır ki, Kruzenin həmin kitabı 12 yaşında çıxıb! Kitabın yazılmasına da təxminən 1 il vaxt sərf edildiyini nəzərə alsaq, rəhmətlik Kruze onu 11 yaşında olarkən yazmağa başlayıbmış!

İkincisi isə, Sabutay Hacıyev tarixçi, etnoqraf Şopenin yazdıqlarını şübhə altına alıb yazıçının yazdıqlarına üstünlük verir! Hələ orasını da demirəm ki, Kruzenin belə bir kitabı doğrudan da olubmu?

Sabutayın tarixçiyə yox, yazıçıya üstünlük verməsi isə, Eldar İsmayılı xatırladır. O da deyirdi ki, mən Göyçənin kəndlərini gəzib "Göyçənin dastanı" adlı poema yazmışam, Göyçə haqqında başqa tarixi əsər yazmağa ehtiyac yoxdur!

Şahlar Haciyev: 1717-ci uldə Venetsiya yaxınlığında Müqəddəs Lazar adasında "Mxitaristlər" adlı təşkilat yaradılıb. Bu cəmiyyətin məqsədi: Erməni dövləti, tarixi, tarixçisi, ədəbiyyatı, ədəbiyyaçısı yaratmaq olub. Hətta V əsrdə yaşamış Moisey Xorenski də saxta tarixçi imiş. Onun tarix kitabında V, VI, VII, VIII, IX həttaX əsrə aid məlumatlar var. "Erməni xalqının tarixi" kitabını yazmaq isə fransız tarixçisi Larsona tapşırılır. Onun etirafı

belə olub "Onlar Yunanstan tarixinə bənzərr tarix yazdırmaq istədilər. Amma gələcəkdə bunların hamısının üstü açılacaqdır". 1787 ci ildə isə Rusiyada "Musin Puşkin" təşkilatı yaradıldı. Bunların məqsədi; Qafqazda Erməni dövləti yaratmaq, əraziləri Türklərdən təmizləmək olub. Ona görə heç bir erməni və rus müəlliflərinin əsası yoxdur. Onlara əsaslanıb kitab yazmaq da çox mənfi haldır

Murvet Yusifov: Sabutay Hacıyev, bu adam Şopeni gah qibləgahı edir, gah yalan yazdıqlarını deyir. Şopenin yazdıqlarının həqiqət olmadığı qənaətində olan Çar Rusiyası 1879 -cu ildə yenidən rəsmi siyahıya alma keçirdi. Dövlət sənədi kimi həmin siyahı qəbul edildi. Göstərdiyiniz tarixi ədəbiyyatları da oxuyub istəyinə uyğun qəbul edəcək.Qəribə iddiada bulunur."Bəs tariximiz yazılmasın?" Guya tarix yazır.

Dəqiqəbaşı müzakirələrə qarışıb ona yön vermək istəyən M.Yusifov savadsızlığı ucbatından Sabutay Hacıyevi burada tələyə salır. Çünki birinci Ümumrusiya siyahıyaalması 1879-cu ildə deyil, 1897-ci ildə keçirilib. M.Yusifov 7 və 9 rəqəmlərinin yerini səhv salıb, Sabutay Hacıyev isə M.Yusifova inanaraq sonralar həmin rəqəmi əlində bayraq etməklə uydurma şeylər düzüb-qoşur və özünü rüsvay edir.

Nazir Ahmedli: Sabutay müəllim,

1.Mən Göyçənin tarixini yazmamışam və yazmağa iddiam da yoxdur, mən Göyçənin tarixini yazmaqda istifadə edilə biləcək həddindən artıq qiymətli sənədlər olan Göyçə mahalına aid kameral siyahıları üzə çıxarıb nəşr edirəm.

2.İ.Şopenin haqqında danışdığımız kitabı da bu kameral siyahılardan alınan məlumatların icmalıdır və çox qiymətli əsərdir. Əgər onu bütövlükdə internetdən əldə edə bilmisinizsə, oxumağınız məsləhətdir. Orada erməni tarixini oxumaq lazım deyil, qalan materialları oxuyun.

3.Ətrafında mübahisələr gedən kitabım da tarix kitabı deyil, ədəbiyyatşünaslığa və folklorşünaslığa aiddir. Mən Göyçə

mahalının kameral təsvirini çapa hazırlayanda Göyçəli tarixçi alim axtardım ki, o da oxusun, kitaba ya elmi redaktor, ya məsləhətçi, ya da rəyçi olsun. Həm həmin ərazini bildiyinə görə, həm də mənəvi məsələyə görə. Göyçə mahalından bəhs edən kitabda bir Göyçəli alimin də adı olsun. Bunu Göyçəli dostlarım da bilir. İnanın ki,belə bir Göyçəli mütəxəssis tapa bilmədim.

Telman Velizade: Ermeni arxivlerinde olan melumatlar Azerbaycan'a qarsi olan tarixi saxta informasiyadi

Kamil Aqamaliyev: Hörmətli Nazir müəllim. Siz 1831-ci ildən başlayaraq Ermənistanda azərbaycanlıların yaşadığı kəndlərin əhalisinin sayını bilsəydiniz daha yaxşı olardı.Yalnız Basarkeçər rayonunun 37 kəndində 1831-ci ildə 4111 nəfər, Mixayılovka-Çəmbərək (Krasnoselo) rayonunda 1442 oğuz türkləri (azərbaycanlılar) yaşamışlar. Həmin illərda Göstərilən rayonlarda bir nəfər də olsun erməni olmamışdır.

Nazir Ahmedli: Hörmətli Kamil müəllim, 1831-ci ildə Göyçə mahalında 999 ailədə 5.607 adam yaşayırdı. Mən bu adamların hamısının adını üzə çıxardıb nəşr etməklə nə pis iş görmüşəm? Sizin variantınızda bu rəqəm 5.653-dür. Tutaq ki, sizin rəqəminiz düzdür. Arada 46 adamın adı qalır. Özündən razı, alimi-biəməl və Göyçə haqqında hər şeyi "bilənlərə" təklif edin ki, onlar da hamısı köməkləşib həmin 46 adamın adını ortaya çıxardıb çap etsinlər. Görüm, nə edəcəklər? Kimisi iş görür və söyülür, kimlər isə boş-boşuna özünü tərifləyib həzz alır. Həmin 46 nəfərin adlarını, doğum tarixlərini gözləyirəm! Uğurlar olsun!

Tanımadığım, neçə yaşında, hansı sənətin yiyəsi olduğunuı bilmədiyim bu adam öz "dahiliyinə" inanıb amiranə bir şəkildə mənə göstəriş verir:

Kamil Aqamaliyev: Hörmətli Nazir müəllim, Siz 5.607 nəfərin adlarını və doğum tarixlərini mənə göndərin, mən baxım görüm həmin siyahada kimlərin adı və doğum tarixi yoxdur. Gözləyirəm.

Hörmətli Nazir müəllim, 1831-ci ildə Basarkeçər və Krasnosela rayonlarında bir nəfər də olsun erməni yasamayıb. 1831-ci ildə Yerevan şəhərində olan 18.766 həfər əhalidən 15.992 nəfəri azərbaycanlılar olub ki, bu da şəhər əhalisinin 85.2 FAİZİNİ təşkil edib. Bu məlumatlar 1962-ci ildə A.P.Manvelyan və Q.M.Martirosyan tərəfindən tərtib edilmiş statistik məcmuədən götürülmüşdür.

"Vətənpərvər" K.Ağamalıyev də baş ideoloqları E.İsmayıl kimi həvəslə erməni müəlliflərə üz tutur, "vətənpərvərliyinin" qıcqırmasından İrəvanın adını ermənilər kimi "Yerevan" yazır və 1831-ci ildə İrəvan şəhərində yaşayan sakinlərin statistikasını da səhv göstərir. Heç olmasa, Manvelyanın və Martirosyanın əsərinin adını göstərmir ki, onu tapıb dediklərinin həqiqətə nə qədər yaxın olub-olmadığını yoxlayasan. Amma mən qəti əminəm ki, 1831-ci ilə aid rəqəmlərdə onlar da İ.Şopenə istinad ediblər və rəqəmlər də o cür deyil.

K.Ağamalıyevin aşkar yekəxanalığından dilxor olsam da, müvazinətimi saxlamağı bacarıb cavab verirəm:

Nazir Ahmedli: Hörmətli Kamil müəllim, həmin adların yazılldığı kitab "Göyçə mahalının kameral təsviri" adlanır və hazırda mətbəədədir. 10 günə çıxacaq, onda tanış olacaqsınız. İrəvan şəhərinə gəlincə, orada yaşayanların da adı çıxacaq. Yəqin 3-4 ay çəkəcək. Bu işləri nəşrə hazırlamaq çox ağır və zəhmət tələb edən işdir. İrəvandan sonra o biri mahallar da nəşr olunacaq.

Cavansir Abdullayev: Ay Eldar məllim, özünüzü yormayın. Sifarişlə yazılan yazıya icazə alınmır!

Seyyare Memmedli: Mən çox sevinirəm ki, HAQQ-ın divanı artıq başlayıb! Bunu SİZlər edirsiniz, Ulu Göyçəmizin əsil, ana südü kimi halal tarixini bilən və haqqı nahaqdan tutarlı dəlillərlə seçib tarixi bilməyənlərə göstərən əziz və hörmətli Eldar müəllim! Düşmən arxivinə əsaslanıb "tarix" yazmaq Göyçəni, bəlkə də Qərbi Azərbaycanı Azərbaycandan təcrid etmək, erməni

torpağı kimi qələmə vermək deməkdir! Görəsən, Göyçənin ehtiyacı vardımı ki, bu kitab yazılsın!?Bu kitabı yazan Nazir Əhmədli bəlkə də elə hesab edirdi ki, akademik Nizami Cəfərovun rəyindən sonra hamı onun bu üzdəniraq kitabını bəh-bəhlə qarşılayacaq!? Əgər dövlətimizin başçısı İrəvanın, ümumiyyətlə, Qərbi Azərbaycanın qədim Azərbaycan torpaqları olduğunu vurğulayırsa və ərazi bütövlüyümüz siyasətin ən başlıca tərkib hissəsidirsə, onda saxta sənədlərlə dolu olan bu cür kitablar siyasətimizə zidd deyilmi!?

E.İsmayılın, M.Yusifovun yalanlarına uyan və onlar kimi təhqirlər yağdıran S.Məmmədli anlamır ki, mənim nəşr etdirdiyim kameral təsvirlər dövlətçiliyimizə ən böyük xidmətdir. Siyasətçilərimiz Qərbi Azərbaycan torpaqlarının türklərə məxsus olduğunu deyəndə sözlərinə sübut kimi məhz həmin kameral təsvirlərə istinad edəcəklər

S.Məmmədli davam edir:

Bu cür kitablar Göyçəlilərə, Azərbaycan xalqına xəyanət deyilmi!? Biz özümüzlə mübarizə aparaq, ya düşmənlə!? Sizin bu kitabınız nə dövlətə xidmət edir, nə də xalqa! Sual vermək istəyirəm: Siz kimə xidmət edirsiniz, Nazir bəy? Onsuz da millətin dərdi başından aşır. Bu cür dəyərsiz çap məhsulu ilə xalqın əsəblərini tarıma çəkmək nə deməkdir!? Bəli, "Haqq, nahaq seçilir haqq divanında"! Buyurun, Göyçənin tarixi ilə tanış olun! Haqqı nahaqdan seçin!

Elbrus Caferov: Teşekkür ederiz Seyyare Hn.

Verdiyim sualı bilmədiyinə görə pərtlik keçirən E.İsmayıl Səyyarə Məmmədlinin təsəlliverici sözlərindən sanki canlanır, amma sualım əvvəlki kimi cavabsız qalır:

Eldar Ismayil: Əziz Səyyarə xanım, gözəl şair, siz çox böyük vətən sevdalı birisiniz!Siz də olan qeyrət, namus nə olaydı millətimizin müəyyən qismində olaydı. Bu gün erməni ilə üz-üzə

durduğumuz vaxtda içimiz düşmən ünsürlərlə doludur.Belə bir şəraitdə torpaqmı qaytarmaq olar? Düşmənə qalibmi gəlmək olar? Nə isə Torpaq gedib, indi məqsədləri tarixi unutdurmaqdı.
Mən çox ağrı-acı çəkirəm. Millətimizə yazığım gəlir. İçəridən də, kənardan da təklənib. Var olun, nə yaxşı Siz və Sizin kimilər az da olsa var!

Qarşılıqlı tostlar! Əhsən!

"Şairə" Səyyarə Məmmədli isə E.İsmayılın onun ünvanına sözylədiyi tosta cavab tostu demək fürsətini əldən qaçırmır:

Seyyare Memmedli: Göyçənin bu cür dəyərli, ləyaqətli alimlərinin, tarixçi və tədqiqatçılarının qarşısına dəyərli və ləyaqətli kitablarla çıxmaq lazımdır, hörmətli kitab müəllifləri! Oxuyun və nəticə çıxarın!

Doğrusu, "şairə" xanımın "kitab müəllifləri" müraciətini başa düşmədim. Mən o kitabın şərikli deyi, tək müəllifiyəm.

Aslan Aslan: Nazir bey siz goycedensiniz? N. Ceferov size Rey verer onun tanidiqi yer balaxani bileceri olar. ne naziriziniz? İşinizle meşqul olun .

Murvet Yusifov: Bilinir, hər bir incəliyinə qədər bilinir. Artıq məlum şəbəkənin ifşa edilməsi məqamı yetişdi!

Nazir Ahmedli: Heç kim bekar durmayıb: kimisi iş görür, kimisi də iş verir.... Xalq öz qəhrəmanlarını tanımalıdır!

Rizvan Aliyev: Xalq şərəfsizləri də tanımalıdır

Murvet Yusifov: Mütləq!

İndi də aylardır ünvanıma hər cür təhqiramiz söz yazsa da cavabsız qoyduğum, özünü Ağ Aşıq Allahverdinin nəticəsi adlandıran başqa bir professor estafeti qəbul edir. O Türkiyədə yaşayır:

Elbrus Caferov:

“GELET” GEZERİM

(Mesneviden parça)

Küllüğünde yâdın eşelenirdi,
Goduh bir şey bulup şeşelenirdi.
Katır söyledi ki: angırman gerek,
Gücenmeye bir eşek bul müşterek.
Men kısır kalmışım, yoktur eserim,
Yüzüme tutmaya “gelet” gezerim.

Elbrus Mahmudoğlu

Özünü Ağ Aşıq Allahverdinin nəticəsi elan edən, onun milli tayfasına mənsub olduğunu üzə çıxarmağımdan narazı qalaraq aylardır mənə hərzə-hədyan yağdıran bu başabəla “professor” artıq bütün sərhədləri keçib, yazdığı cızmaqara ilə guya məni alçaltmaq, qisas almaq istəyir. Onun bu həyasızlığı artıq səbrimi daşıran son damla olduğundan, öz işlətdiyi ifadələrlə cavabını verməkdən başqa əlacım qalmır:

Nazir Ahmedli: Əslini danan haramzada, zındıq oğlu zındıqsan! Kül sənin kimi PKK-lı “professorun" başına. Sən professor deyil, eşşək oğlu eşşəksən!!

Bu ara ələkçinin qılverəni rolunda çıxış edən biri onu müdafiə eləməyə tələsir:

Qabil Zimistanoglu: Arayış verim ki, Elbrus Caferov müəllim təkcə Azərbaycanımızın deyil, ümumiyyətlə Türk dünyasının fəxr olunası barmaqla sayılacaq alimlərindəndir. Onun kosmik tədqiqatlarla bağlı apardığı araşdırmalar təkcə Türk

Cümhuriyyətinin deyil, Avropanın inkişaf etmiş ölkələrinin, o cümlədən Amerikanın diqqətini çəkib. Türkiyə Cümhuriyyətində bu sahəni bilən yeganə mütəxəssis alimlərdəndir. Özü isə Göyçə Aşıq Məktəbinin inkişafında misilsiz xidmətləri olan, Ulu Göyçədə Aşıq Alı kimi nəhəng bir sənətkarın kamil yetişməsinə səbəb olan Ağ Aşıq (Allahverdi) nəslinin nümayəndəsidir. Ana tərəfdən qohumluğun bir tərəfi Aşıq Alıya gedib çıxır. Bu gün Elbrus müəllim kimi bir alim erməni saxtakarlığının stresini yaşayır. Bu alimin babası türk oğlu türk olmasına baxmayaraq, Nazir Əhmədli erməni mənbəyinə istinadən ustadın milli kürdlərindən olduğunu qeyd edir. Diqqətinizə onu da çatdırım ki, onun istinad etdiyi mənbədə AĞ AŞIĞIN aşıq olması xüsusilə qeyd edilir. Erməni əllbəttə ki, imkan verməz ki, AĞ AŞIQ kimi bir türk oğlunun milli mənsubiyyətini olduğu kimi göstərsin. Əlində olan materilları saxtalaşdırmalıydı, saxtalaşdırdı da. Bu kişinin nəvəsi nə vaxtdır babasının türk olduğunu, özünün türk olduğunu deyir. Ustadın nəvəsini isə PPK ilə əlaqədə ittiham edir. Bu, olduqca ağır ittihamdır. Görəsən, bunu hansı mənbəyə istinad edir, yenədəmi erməni arxivinə?!!!

Bayram Mammadov: Xalq oz qehremanlarini taniyir. Kul sizin kimi qehremanlarin başina. Ermeni deyirmanina su tokenden qehreman yox, satqin olur, pulun nokeri, oz xalqïnin tarixini saxtalaşdiran olur.

Natiq Goycali: Salam olsun bu ermeni arxivinden melumat alan kimdise onun ozu de ermeniye işleyendir goyceden yazirsansa goyce agsaqqalarindan tani sonra haqi yazin

Tevekgul Cemilli: Nazir Ahmedli sənin qanını mütləq araşdırmaq lazımdır bu elə belə yaranan iş deyil.

Bu adam hətta faşist Almaniyası ideoloqlarının həsəd aparacağı ifadələrə əl atır!Və özünə havadarlar da tapır:

Hicran Baycan: size aynen katiliyorum sevgili tevekgül bey, gercek türk konu ne olursa olsun gidip de ermeninin düzüp

koşmaca yalan menbelerine dayanarak kendini bu kadar alçaltarak rezil duruma düşürmez.....bu ermenisever şahsi tanimiyorum

Şahlar Haciyev: 100 %əminəm ki, onun qanı R 1 N deyil. Həmişə akademik Nizami Cəfərovun səmimiliyinə və milli düşüncəsinə şübhə ilə yanaşmışam.

Muzahim Iskandarov: Bunlar bu kitabı yazmaqla demek isteyirlet ki Goyce ermeni torpaqları olub.

Elbrus Caferov: Şahlar Bey, suratından bellidir. Fikrinizde yanılmamısınız. Sazı sevseydi o sözlerden çekinerdi.

Havadarlarını görüb ürəklənən Elbrus Cəfərov yenidən qələtini təkrar edir:

Elbrus Caferov

"GELET" GEZERİM
(Mesneviden parça)
Küllüğünde yâdın eşelenirdi,
Goduh bir şey bulup şeşelenirdi.
Katır söyledi ki: angırman gerek,
Gücenmeye bir eşek bul müşterek.
Men kısır kalmışım, yoktur eserim,
Yüzüme tutmaya "gelet" gezerim.

Elbrus Mahmudoğlu
11 Temmuz2017 İstanbul

Və əvvəlkindən də sərt şəkildə cavabını alır:

Nazir Ahmedli: Əslini danan haramzada, zatıqırıq, zındıq oğlu zındıq, PKK-nın uşağı, əldəqayırma və geydirmə "professor". Arsız, pəzəvəng boyunu yerə soxum! Sən Ağ Aşığın üz qarasısan!

Və necə deyərlər, həsdəyir:

Elbrus Caferov: Nihayet, terbiyenizin seviyesi ortaya cıktı.

Nazir Ahmedli: İslam Ələsgərov baban Allahverdinin şeirini Almənmədin qardaşı Allahverdinin adına çıxmışdı. Mən ədaləti bərpa edib yazmışam ki, bu şeir Ağ Aşıq Allahverdinindir. Sən salak[7] isə "sağ ol" demək əvəzinə, 2-3 aydır məni təhqir edirsən.

Şebnem Bunyadzade: Ara qatan ara vuran cefengiyyat ustası menevi terrorla meşğuldu. Siz ey ziyalılar bunun iyrenc söyüşlerini ne vaxtadek eşideceksiz? Bunun işlediyi teşkilata imzalı müracietinizi gönderin. Siyahıda menim adımı birinci yazın

Tevekgul Cemilli: Nazir mən də Göyçəni yaxşı tanıyıram, mən onu sizə demək isdəyirəm ki iminni[8] Göyçə dagı olmayıb Göyçənın dağları olub Ada təpə tərəfi su ilə əhatə olunmuş bir dağ idi bu yalanları necə utanmadan bizə sırımağa çalışırsan

Nazir Ahmedli: Kitab sabah çıxacaq, Təvəkkül, öyrənərsən, Göyçə dağı olub, ya yox.

Eldar Ismayil: Nazir bəy, sən nə bu dağları görübsən, nə dağlardan xəbərin var. Sən Şopenə istinad edirsən. Şopendə hanı Göyçə dağı? ***Dədə Qorqudda işlənən Göyçə dağı Göyçənin üstü dağlar deməkdi.*** Çox nahaqdan bu söhbətləri ortaya atırsan. Mən Dərələyəzdən nə qədər bilirəmsə sən də Göyçədən bir elə məlumatlısan. Bu qalmaqala son qoymaq lazımdı.

E.İsmayıl burada başqa bir "tarixi kəşfə" imzasını atır: "Dədə Qorqudda işlənən Göyçə dağı Göyçənin üstü dağlar deməkdi".

Nazir Ahmedli: Eldar müəllim, Şopen yazdıqlarında Göyçə dağı yoxdur, keçən dəfə yazmışdım. 1728-ci ildə tərtib

[7] Türkcə "qurumsaq" deməkdir. Türkiyədə yaşadığından, yeri gəldi-gəlmədi türk sözləri ilə yazdığına görə bu cür yazdım.

[8] Ruscanın "imenno", yəni "məhz" sözünü bu cür eybəcər şəklə salıb yazır

olunmuş, hazırda Türkiyə arxivlərində saxlanan və ak.Z.Bünyadovla H.Məmmədov (Qaramanlı) tərəfindən 1996-cı ildə nəşr edilən "İrəvan əyalətinin icmal dəftəri" kitabında var. "Göyçə dağı" Kitabi-Dədə Qorqudda da var, amma Siz onu uzaq tarix saydınız, ona görə onu önə çəkmirəm.

Qalmaqala son qoymağın isə mən də tərəfdarıyam, bu cür dava-dalaş, söyüş-təhqir heç birimizin ürəyindən ola bilməz. Sizin nüfuzunuz var, xahiş edirəm adamlara müraciət edin, son qoysunlar, mən heç vaxt çağırışı pozan tərəf olmayacağam.

Haqqında söhbət gedən Göyçə dağı sonralr Böyük Ağmanqal adlanıb və bu barədə "Göyçə mahalının kameral təsviri" (Bakı, 2017) kitabımın ön sözündə yazmışam.

E.İsmayıl və havadarları isə özləri bilmədiklərinə görə hətta o boyda dağı inkar edirlər! Göyçə dağı olmayıb, vəssalam! Halbuki, əgər yerlərimiz dəyişik düşsəydi və mən inkar etsəydim, deyəcəkdilər sən Göyçənin düşmənisən, Göyçəni gözün götürmür və s.

Bu fakt subyektiv idealizmin "Eldar İsmayıl modeli"dir-mənim bilmədiyim şeylər mövcud deyil, vəssalam!

Niftali Goycelinin statusu

11 iyul 2017.

DOSTUM MAARİF MÜƏLLİMƏ CAVAB

Maarif Piraliyev: Qardaşım, səni salamlayıram.Böyük qalmaqala səbəb olmuş "Haqq-nahaqq seçilər haqq divanında" kitabını bu gün əldə edib bu saata qədər125 səhifəsini diqqətlə oxudum.Doğrusu düşmənçiliyə qədər gedən mübahisələrə heç bir əsas görmədim. Tarix, etnoqrafiya, ədəbiyyat və s. həmişə tədqiqat obyekti olub.N.Əhmədli də bu missiyanı üzərinə

götürərək tədqiqat aparıb və əldə etdiyi rəsmi sənədlərə (əgər bu sənədlər doğrudan da varsa) əsaslanaraq mülahizələr yürüdüb. (Yeri gəlmişkən,ixtisasca ədəbiyyatşünas olmayan müəllifin Dədə Ələsgərin yaradıcılığını təhlil etməsi təqdirəlayiqdir.) N.Əhmədlinin istinad etdiyi arxiv sənədləri düzgün deyilsə,ona alternativ olan arqumentlər qoymaq lazımdır.Əlbəttə,mən uzun illər ədəbiyyatla məşğul olan adam olduğumdan,Dədə Ələsgərin bioqrafiyası,barəsindəki dastan-rəvayətləri hamının qəbul etdiyi mənbələrdən öyrəndiyim üçün Nazir bəyin kitabındakı faktlar mənimçün də qəribə gəlir.Lakin bir məsələ ilə razılaşmaq zorundayıq ki,tədqiqat həmişə yeniliklər ortaya qoya bilir. Qalmaqaldansa, yenidən tədqiqata girişmək lazım.Mənim düşündüklərim bu.

Niftali Goyceli: Salam! Qardaş, qısa deyim ki, SSRİ dövründə xəritəşünaslıq, arxivşünaslıq, arxeologiya, mədəniyyət sahələrində erməni millətindən olan nümayəndələr saymaqla qurtarmaz, azərbaycanlı nümayəndələr də tamamən olmayıb. Mikoyanın SSRİ rəhbərliyində ikinci yerdə dayanması da unudulmamalıdır... Belə bir vəziyyətdə əsrlər boyu Azərbaycan torpaqlarının hissə-hissə işğalı və tarixinin saxtalaşdırılması prosesi indi də davam edir... Yazırsan ki, "alternativ olan arqumentlər qoymaq lazımdır." Aşıq Ələsgər haqqında birinci yazı 1926-cı ildə "Dan ulduzu" №4-də "J.T.Ə GURCUSTAN VƏ ERMƏNİSTAN KOMİTƏLƏRİNİN NƏ3RIJJA" jurnalında məlumat verilir və onun hələ sağlığında dilindən eşidilən 100 yaşının olması, eyni zamanda şeirləri qeyd edilir. "Moskva Dövlət Arxivi"ndə Çar Rusiyası sənədinə əsasən 1821-ci ildə doğulduğu qeyd edilir...Xaçpərəst missioneri ermənipərəst İvan Şopenin "kameral" siyahısı Çar Rusiyası tərəfindən də qəbul edilməmiş, 1876-cı ildə quberniyalar üzrə yenidən siyahıyalma aparılmışdır və Sovet dövründə də saxtalığına görə rədd edilmişdir...

N.Göyçəli yazır: "Xaçpərəst missioneri ermənipərəst İvan Şopenin "kameral" siyahısı Çar Rusiyası tərəfindən də qəbul edilməmiş, 1876-cı ildə quberniyalar üzrə yenidən siyahıyalma

aparılmışdır və Sovet dövründə də saxtalığına görə rədd edilmişdir".

Bir cümlədə nə qədər savadsızlığı, cahilliyi üzə çıxır! İ.Şopenin çar dövründə qəbul edilmədiyini uydurması bir yana (halbuki, ona Demidov mükafatı vermişdilər), 1876-cı ildə quberniyalar üzrə siyahıyaalmaların keçirildiyini iddia edir! Buna baxanda Mürvətə şükür! O, birinci Ümumrusiya siyahıyaalmasının 1879-cu ildə keçirildiyini yazmışdı, yəni 7 ilə 9-un yerini səhv salmışdı, Niftalı isə 9-u 6-ya oxşadıb 1876 yazır! İrad tutsan, deyəcək ki, mən belə hesab edirəm, vəssalam!

Bu nadanlara neçə dəfə yazdım ki, həmin ərazilərdə təkcə 1831-ci ildə yox, daha beş dəfə-1842-ci, 1852-ci, 1859-cu, 1873-cü və 1886-cı illərdə də Kameral siyahılar tərtib edilib. Yeni siyahıların tərtib edilməsi İ.Şopenə inamsızlıqdan əmələ gəlmirdi, aradan keçən müddətdə ölənlər siyahıdan çıxarılır, yeni doğulanlar, bir yerdən başqa yerə köçənlər yeni siyahılara əlavə edilirdi.

Aşıq Ələsgərin adının qeyd olunduğu siyahı isə 1859-cu ilə aiddir, onu başqa hökümət məmuru tərtib edib, o vaxt artıq Şopen çoxdan Qafqazı tərk etmişdi.

Sən deyirsən "bəmdən bəmə", bunlar deyir "damdan dama!"

N.Göyçəli qırıq val kimi əvvəlki sərsəmləmələrini davam etdirir, onun sayıqlamalarının hər birinə ayrılıqda cavab verməyə, açığı həvəsim yoxdur:

İndiki dövrdə Şopenin "kameralına", "Erm. Milli Arxivi"nə əsaslanan "tarix" yazanlar bilməlidir ki, onlara ötürülən sənədlərdə saxtakarlıq etmək düşmən erməni-rus güruhunun "sağ əlindən gələn" məkrlərsiz deyil...Bəzi insanların söydükləri Sovet dövründə Aşıq Ələsgərin yaradıcılığı və yaş dövrü elmi ekspedisiyalar, ayrı-ayrı elm adamlarının tədqiqatları ilə mükəmməl surətdə xalqa çatdırılmışdır, dövlət tərəfindən də yubileyləri keçirilmişdir..."Haqq-nahaqq seçilər haqq divanında" kitabında indiki erməni-rus saxtakarlığına əsaslanıb Aşıq

Ələskərin yaşının kiçildilməsi ilə Nazir Əhmədli və onun "ideoloqu" Əli Şamilin, "qələti-məşhurlar" sözü işlədən Nizami Cəfərovun Aşıq Ələsgərə qarşı "məhəbbəti" çox aydın görünür...Kitabı tam oxuduqca məkrləri yaxşı-yaxşı görəcəksən... Neyləmək, Nizami Cəfərov akademik, millət vəkili, vəzifə sahibi, Əli Şamilov Folklor İnstitutunun Xarici Əlaqələr şöbəsinin "başqanı", Nazir Əhmətli "Atatürk mərkəzi"nin direktor müavini, əlində kişik biznes... "pullu-imkanlı" adamlar, eyni zamanda ermənipərəst dairələr tərəfindən dəstək alanlar...Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgəriin müdafiəsinə qalxan göyçəlilər də kasıb-küsub ziyalılar və sadə adamlar...Aşıq Ələsgərdən: "Haqq ilə nahaqqı axtaran hakim tapar qulaq ilə göz arasında"... Qarabağın tarixi də Zori Balayanın "Ocaq"kitabı ilə "alternativ olan arqumentlər qoymaq lazımdır." deməklə "sözkəsərliklə" dünya tərəfindən qəbul edildi...Bizim içimizdən "sapı bizdən olan baltalar" olmasaydı, düşmən gücsüz olardı...Nə isə, işimiz Allaha qalıb....

Elbrus Caferov: Niftalı müellim, fikirlerinize katılıyoruz. Görüşünüzü özet olarak devlet gazetelerinde ve TV'de paylaşmak zamanı gelmiştir.

Niftalı Göyçəli fürsətin yetişdiyini hasab edib professorun yorumundan yararlanmaq fikrinə düşür:

Niftali Goyceli: Elbrus bəy, Nizami Cəfərov, Əli Şamil, Nazir Əhmətli zəngin adamlar və məmurlardır...Mənim param yox, 200 manat pensiya alıram, TV-lərə para gərəkdir...

Nazir Ahmedli: Maarif müəllim, obyektivliyinizə və ədalətliliyinizə görə Sizə təşəkkür edirəm. Siz Niftalı bəyi inandırmağa çalışmayın, onun mövqeyi türklər demiş önyarqılı, bizim ifadəmizlə qərəzlidir. Gətirdiyi arqumentlərin hamısı əsassızdır, onların hər birinə azı 10 dəfə cavab vermişəm, amma yenə öz dediyini deyir və yersiz inadkarlıq edir. İnanıram ki, gec-tez həqiqət mövqeyinə gələcək.

Niftali Goyceli: Nazir bəy, mən qeyd elədim...siz imkanlı, vəzifəli və arxanızda kimlərin olduğu artıq bəllidir...Ağa qara deməklə nə qədər gedəcəksiz- gedin, əlbət bir haqq-divan zamanı da olar...

Nazir Ahmedli: Niftalı Göyçəli, bu ölkədə Sizdən başqa hamı Ələsgərin düşməni imiş-mən, N.Cəfərov, Ə.Şamil və başqaları. Onlar da təsadüfən bir-birini tapıb Ələsgərə sui-qəsd ediblər. İzah edə bilərsinizmi bu adamlar niyə Ələsgərə düşmən olmalıdır??

Hokuma Hashimova: Sayat Nova erməni dilində birdənədə şer yazmayıb hamısını azəri türkü ləhçəsində yazıb ancaq ermənilər onu özününküləşdirib sizi kimi xalqın üz qarasl olan yazarlar isə dahilərini inkar edirsiniz ayıbdı dünyadan heç nə aparmayacaqsız özgənin verdiyi ianə adamın tez boğazında qalar.

Nazir Ahmedli: Hiss olunur ki, siz kitabı oxumamısınız və içindəkilərdən xəbəriniz yoxdur. Mən söz vermişəm ki, qadınlara cavab verməyim. Əgər imkanınız varsa, oxuyun. O zaman bu sözlərdən xəcalət çəkəcəksiniz

Niftali Goyceli: Nazir bəy, kitabınızda tək "kameral" yazı deyil, yeri gəldikcə Aşıq Ələsgərə "məhəbbətinizi" bildirmisiz... Bütün Göyçə mahalının insanları və mütərəqqi insanlar sizə qarşı dayanıb, siz isə erməni-rus yalanlarını əsas tutub inadınızdan dönməyirsiz və dönməyəcəksiz də...Hər -halda bir ədalət zamanı olar, hələlik köhləninizi dödrdnala sürün və nə qədər gedəcəksiz, gedin..."senssasiya" üçün dövlət mükafatı da ala bilərsiz.. Varlanın, "kefə baxın"...bu cür hərəkətləriniz qarşısında biz kasıb-kusub, vəzifəsiz ziyalılar, mənim kimi "acından günorta duran" zavallı bir şair sizə neyləyə bilərik...

Niftalı Göyçəli neçənci dəfədir ki,sərvətdən, var-dövlətdən söz açır, amma ünvanı səhv salıb. Onun qınamalı olduğu adamlar biz deyil, tutduğu vəzifədən sui-istifadə edərək rüşvət yığanlar, cinayət yolu ilə sərvət toplayanlar olmalı idilər.

Ramil Zeynalov Hörmətli Niftali muellim bu yazar eslen haralidi bilmirsiz?

Nazir Ahmedli: Mən Dərələyəzliyəm, N.Cəfərov Vedilidir, Ə.Şamil də Göyçəli

Niftali Goyceli: Ramil bəy, Nazir Əhmətli Dərələyəz mahalının Gavut kəndindəndir, ixtisasca kimyaçı olsa da, fəaliyyətə qəzet redaktorluğundan başlayıb və tarix-ədəbiyyat üzrə müstəqil tədqiqatçıdır. Qeyd edim ki, intellektli, məlumatlı ziyalı şəxsdir... Çox heyiflər olsun ki, elmi potensialını səmərəsiz işə sərf edir!...

N.Göyçəli haqqımda "intellektli, məlumatlı ziyalı şəxsdir" deyir. Görəsən gün haradan doğub?

Nazir Ahmedli: Birbaşa redaktor olmamışam. Əvvəlcə müxbir, sonra şöbə müdiri, sonra baş redaktorun birinci müavini, sonra Baş redaktor olmuşam. Kəndimizin adı Gabuddur. İ.Bayramov bu sözün mənasını "qayalar arasından keçən yol" kimi verir və deyim ki, kəndin təbiətinə çox uyğun gəlir

Murvet Yusifov: Mərhum Prezident Heydər Əliyevin sərəncamını yalana çıxarıb Prezident İlham Əliyevdən mükafat almağı iddia edir.

Niftali Goyceli: Nazir bəy, mən qısa yazdım...dostum Yaşarın şivəsindən yadımda "Gavut" qalıb.

Niftali Goyceli: Ramil bəy, kitab müəllifi yaza bilərdi ki, "Şopenin kameralı" və buraxardı oxucuların öhdəsinə...Əli Şamilin "ambisiyasına" yuvarlanmazdı...

Ramil Zeynalov: Nazir müəllim, niye menim sualıma fikir bildirmediz?

Nazir Ahmedli: Niftalı bəy, həmin kitab 1 həftəyə çıxacaq. "Göyçə mahalının kameral təsviri.1831-ci və 1842-ci illər". Onlar rəsmi dövlət sənədləridir. Mən onları rus dilindən tərcümə etmişəm və ön söz yazmışam. 1831-ci ilə aid kameral təsvir Şopenin rəhbərliyi ilə tərtib olunub və onu Arxip Rıjkov yazıya

alıb. 1842-ci ilə aid kameral təsviri də Korallov yazıya alıb. Mən onlara heç bir müdaxilə edə bilməzdim.

Nazir Ahmedli: Ramil müəllim, hansı sualınıza cavab vermədim, zəhmət olmasa təkrar edin, cavab verim

Ramil Zeynalov Nazir müəllim, eger rus arxivi ele deqiq ve etibarlı menbedise, ordan bele cixir ki, Dede Elesgerin minlərlə itib batan elyazmalarini da tapmaq olar?

"Ələsgərin əlyazmaları!" Özü də minlərlə! Rəhmətlik nəvəsi İslam müəllim isə ölənəcən təkid edirdi ki. Aşıq Ələsgər hərf tanımayıb. Bizim personajımız isə Ələsgərin minlərlə əlyazma qoyub getdiyindən bəhs edir. Sayını dəqiq bilmirəm, amma ehtimal edirəm ki, AMEA Əlyazmalar İnstitunda da minlərlə əlyazma yoxdur!

Ona görə atalar deyib ki, qulaq hər gün bir təzə söz eşitməsə uzanar!

Bu adamların nadanlığının və fantaziyasının sərhəddi yoxdur! Tutaq ki, Aşıq Ələsgərin "əlyazmaları" da olub, o məsələnin bu işə nə dəxli var? Burada söhbət Rusiya hökumət məmurlarının tərtib etdiyi və hazırda arxivdə saxlanılan rəsmi sənəddən gedir.

Niftali Goyceli: Nazir bəy, artıq iş-işdən keçib...Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər müdafiəçiləri və sizin tərəf arasında barışmaz mübarizə gedir...Sizin tərəf, Maarif müəllimə yazdığım kimi vəzifə və imkan baxımından güclüdür... Mən nə qədər deyirəm ki, erməni-rus mənbələri saxtadır, yenə də siz onlara istinad edirsiz...

Nazir Ahmedli: Niftalı Göyçəli, bizi 2 cəbhəyə bölməyiniz düzgün deyil. Yuxarıdakı sualıma da cavab vermədiniz. Niyə düşünürsünüz ki, Aşıq Ələsgəri yalnız Siz sevirsiniz, N.Əhmədli, N.Cəfərov və Ə.Şamil də onun düşmənidir? Bu düşmənçilik üçün hansı səbəb ola bilər? Allah xatirinə göstərin

Niftali Goyceli: Nazir bəy, Bu düşmənçiliyi doğuran səbəb sizin düşmən mənbəyinə istinadınızdır...

Niftalı Göyçəli ikinci dəfə təkrar etdiyim sualdan yayınaraq özünü avam yerinə qoyub cavabı çarpıdır. Mən soruşuram ki, adını çəkdiyi üç nəfər Aşıq Ələsgərlə niyə düşmən olmalıdır, o isə mənim erməni-rus mənbəyindən istifadə etdiyimə görə özünün və özü ağılda olanların mənimlə düşmən olduğunu yazır...

Ramil Zeynalov: Niftali muellim olarmı bu arxiv yazarı olan şopenin nenesiyle Dede Elesgerin nese elaqesi olsun)))) Şopen de qesdine dursun bu kişinin)))))))

Niftali Goyceli: Ramil bəy, Aşıq Ələsgər əzəmətli kişi olub, bəlkə Şopenin xanımı ilə dostluğu qısqanclıq yaradıb...Olar, həyatdır də...

Mən də durub bu ağılın yiyəsi olan Niftalı Göyçəli ilə dialoq aparır, fikir mübadiləsi edirəm. Yorumlarımın birində Niftalıya və onun dəstəsinə "sizlərlə mübahisə etmək xəlbirlə su daşımaq kimi bir şeydir" yazmışdım.

Ramil Zeynalov: Bu daha da inandiricidi, hem de tarix təhqiqatcilarina bir işaredi)))))

Niftali Goyceli: Ramil bəy, yaxşı "mövzü" irəli sürmüsüz. Aşıq Ələsgər səfərlərdə olub, İrəvanda Şopenin xanımı ilə saz-söz məclisində görüşə bilərdi və sair...

Ramil Zeynalov: Bilərdi yox, bu şuphesiz olub, sadece təhqiqatçılar Şopenin nüfuzuna xelel gelmesin deye tarixi faktı gizledirler)))))

Hər şeyi bir yana qoyaq, İ.Şopen 1798-ci ildə, Aşıq Ələsgər isə 1852-ci ildə doğulublar və Aşıq Ələsgər anadan olmamışdan xeyli əvvəl İ.Şopen İrəvanı tərk etmişdi. Aşıq Ələsgərin adının qeyd edildiyi 1859-cu və 1873-cü illərə aid Kameral təsvirlərin müəllifi isə İ.Şopen deyil. Bu adamlara nə qədər deyirsən, de..

Mirzə Cəlil demişkən, necəsən qanmayım, atan yansın?"

Niko Göyçəli: Yuz faiz

Niko Göyçəli: Niftali muellim cox sag olun ki bu meselenin usdune ciddi durmusuz

Maarif Piraliyev: Doğrusu, bu çəkişmələrin, biabırçılığa durmağın məğzini anlaya bilmirəm.Adı çəkilən kitabı sona qədər oxudum. Orada nə Dədə Ələsgərin,nə də göyçəlilərin aşağılanmasına səbəb olacaq bir fikir də rastıma düşmədi.Yalnız bu zamanacan Dədəni tədqiq edən İslam Ələsgərin və digərlərinin bir sıra yanlışlıqlar etdikləri qabardılıb.Axı, Ələsgər baba 105 il yaşayıb, yaxud 75 il , bu Ələsgərin böyüklüyünə nə ziyan vurur ki? Bu insanları bu qədər qıcıqlandıran başqa nə varsa, qeyd edin bəlkə mənə də çatsın.O kitabda Göyçədə hansı illərdə kimlərin yaşadığı və yaşları qeyd olunub ,müəllif də o zamanlar çar Rusiyasının səlahiyyətli nümayəndəsinin kameral (siyahıya alma) sənədlərə istinad edib.Gəlin birlikdə həmin siyahıya almaların saxtalığının sübutuna çalışaq.Vallah bir-birinizə düşmən kəsilmək üçün bir əsəs yoxdur.

Niftali Goyceli: Maarif müəllim, Aşıq Ələsgərin yaşının kiçildilməsi ilə onun həyat və yaradıcılığı qatıb-qarışdırılır-***bu taktiki missiya gedişidir..."***Ələsgər və Səhnəbanı" dastanının uydurma olduğunu deyir və yazır ki, Ələsgərlə Səhnəbanı məhəbbəti qarşlıqlı olmayıb...Aşıq Ələsgərlə Nizami, Füzulini müqayisə edərək göstərmək istəyir ki, Aşıq Ələsgər onlara bərabər tutulmaz və s... kitabı necə oxumusan ki, bunları görməmisən?

Maarif Piraliyev: Niftali Goyceli Mən onları görmüşəm, ancaq daxilimdə qeyri hisslər olmadığından orada elə də təhqiramizlik sezməmişəm.Mən də o fikirdəyəm ki,Dədə Ələsgər Azərbaycan xalq ədəbiyyatının aşıq yaradıcılığının Everestidir, Nizami, Nəsimi və s. isə klassik yazılı ədəbiyyatın, əruzun təkanvericiləridir,bu mənada onları bərabərləşdirmək düz deyil.

Murvet Yusifov: !!!!!!!!!!!!!!!!!!!

Niftali Goyceli: Maarif Piraliyev Biz də deyirik ki, birini digərindən yuxarı tutmaq düzgün deyil və müqaysə də heç düz deyil...

Nazir Ahmedli: Maarif müəllim, sən özünə əziyyət verib onlara nəyisə izah eləməyə çalışma. Çünki başa düşmək istəməyəni başa salmaq mümkün deyil. Qoy nə qədər istəyirlər, boş-boş danışsınlar, əllərindən gələni də beş qaba çəksinlər. Onlardan tədqiqatşı yox, olsa-olsa professional işverən çıxar.

Murvet Yusifov: Yenə davam edir?

Niftali Goyceli: Ramil bəy, Mənim də ana tərəfim Miskin Abdal nəslindəndir... Saryaqubda Nağı baba anamın babası Məmmədalının qardaşı oğludur...Mən Şəkidə (1981-87) Mədəniyyət evinin direktoru işləyən vaxtlarda hər il Daşkəndə Seyid Bayram Ağanın ziyarətinə gedirdim...Bir dəfə maşını Sarıyaquba sürdüm və Nağı babanın oğlu Əli müəllimlə görüşdüm... Onu tanıyırsanmı?

Niftali Goyceli Mən Miskin Abdaldan qalma bir aş qazanını nəsldən nəsilə keçən ocaq əşyası kimi indi də saxlayıram...

Niftalı Göyçəli facebook səhifəsində bir mis qazan şəkli paylaşmışdı ki, bunun 400 yaşı var, indi də həmin qazanın Miskin Abdaldan qaldığını yazır. Atalar ona görə deyiblər ki, "yalançının yaddaşı olmaz". Bir tərəfdən bu qaraguruhçu dəstə deyir ki. Şah İsmayıl Xətai hələ şah olmamışdan qabaq (!) 1501-ci ildə, Göyçədən keçib Ərzincana gedərkən Miskin Abdal haqqında fərman imzalayıb. Yəni 517 il bundan əvvəl. Digər yandan da deyir ki, 400 illik qazan Miskin Abdalındır! 400 yaşına görə, bu qazanın 1617-ci ildə düzəldildiyini fikirləşməliyik. Və hesab etməliyik ki, həmin vaxt da Miskin Abdal sağ idi. "Göyçə ustadları" (2017) kitabında Niftalı Göyçəli Miskin Abdalın 1430-cu ildə doğulduğunu və Şah İsmayılın vəfatından sonra, 94 yaşında Göyçəyə gələrək məktəb açdığını yazır (səh.). Qazanına görə Miskin Abdalın 1617-ci

ildə də sağ olduğunu düşünsək, Niftalı Göyçəliyə görə Miskin Abdal nə az, nə çox-200 ilə yaxın yaşayıb!!

Əgər Niftalı Göyçəli deyirsə, mübahisə etməyə dəyməz, çünki "qohumunu" ondan yaxşı kim bilər? Axı yuxarıda "Mənim də ana tərəfim Miskin Abdal nəslindəndir..." yazır.

Ümumiyyətlə, Miskin Abdal adı son vaxtlar bu möhtəkirlərin alver predmetinə çevrilib.

Niftali Goyceli Mən hələ Tələbə olan vaxtları "1975-80cı il) tarix elmləri doktoru Həmdulla müəllim "Leninqrad Tarix Arxivi"ndə işləyən erməni işçilərinin saxtakarlığından nələr danışırdı, yazsam, çox uzun çəkər...

Niftali Goyceli Sovet dövründə erməni ziyalıları da Aşıq Ələsgərin 1821-cı ildə doğulduğunu yazırdılar...yəni onlar da bu Şopeni görmürdülər?..İndi Şopen "aşiqləri" nə yaman canfəşanlıq edirlər...

ElTun Quluzade: Bu yazarin ədəbiyyatdan xəbəri yoxdu, yəqin rus dili muəllimidi

Niko Göyçəli: Sen ogulsan

Sərdar ƏLİBƏYLİ

HAQQIN DİVANINI SÖYÜŞ YERİ

EDƏNLƏRƏDİ SÖZÜM

Nazir Əhmədli bir kitab yazıb, aləm bir-birinə dəyib, həftələrdi ki, kitab ətrafındakı mübahisələr, müzakirələr, təhqir və söyüşlər, həddini aşan yerli-yersiz söz atışmaları səngimək-bitmək bilmir. Nə vaxt bitəcəyi də bəlli deyil. İndicə yenə də bu sərsəm polemikaların bir bölümünə rastladım Fb-də, soyüşün, təhqirin, qarğışın biri bir qəpikdən keçərək, qurşaqdan da aşağı düşüb. Açığı, müzakirələrin bu səviyyəyə enməsinə üzüldüm, artıq

kitabda yazılanlar da bir kənarda qalıb və qarşı tərəflər bir-birinin şəcərə və şəxsiyyətini müzakirə və mübahisə predmetinə çeviriblər.

Nazir Əhmədli yəqin ki, o kitabı yazarkən bu qədər populyalıq qazanacağını heç düşünməmişdi, düşünə də bilməzdi. Amma adamlar onu xeyli populyarlaşdırdılar. Hesab eliyirəm ki, bəzi təhqirlər və söyüşlər xaricində, Nazir bəy nəticələrdən razı qalmalıdı. Onun bu kitabı son yarım əsrdə Azərbaycan çapında ən çox müzakirə olunan, mübahisələr doğuran və müəllifinə ən çox populyarlıq gətirən ilk kitab oldu.

Qarşı tərəfdəkilər bunun fərqində ola bilmədilər və artıq olanlar oldu. Hər ziyanda bir xeyir var deyirlər ya, bax, bu da həmin o hallardan biridi, o qədər.

Hələ də Zori Balayanın "Ocaq" kitabına qarşı qoyulacaq bir əsər yoxdu ortalıqda. Yeni və ən yeni tarixin anasını ağladıb saat-saat, gün-gün, həftə-həftə, ay-ay, il-il saxtalaşdıranlara "mıqq" eliyib cınqırını çıxara bilməyənlər, artıq gənc nəslin ya tamam unutduğu, ya da unutmaq üzrə olduğu nəsnələrdən ya yazır, ya da yazanları söyüllər. Nə bu millətin tarixi, nə də bəşəri simaları kimsənin monopoliyası deyil, adam da doğru-yanlış bir kitab yazıb, kimsənin də atasını söymüyüb. Yaxşı-pis, doğru-yanlış, istinad elədiyi mənbələr də var. Buna etiraz etmək də hər kəsin haqqıdı, amma yazıya cavab yazı, kitaba cavab da kitab ola bilir ancaq. Nazir Əhmədlini populyarlaşdırmaqdansa, oturun bir kitab yazın, heç deyilsə sanballı, və ciddi mənbələrə istinad edən bir yazı qoyun ortaya bə adamlar. söyüşnən, qarğışnan olacaq iş deyil bu.

P.S.

Aşıq Ələsgər inkarolunmaz bəşəri bir dühadı və onun yaşının 17, ya da 117 olması bu həqiqətə zərrə qədər də təsir eləmir. Bu arada qalan nə varsa, hamısı təfərrüatlar silsiləsinə aiddi və böyük mənada heç bir anlam daşımır. Bu mənada, Nazir Əhmədlinin nə yazdıqları Quran ayəsidi, nə də istinad etdiyi

mənbələr Qurandı. Başqa cür düşünənlər və başqa mənbələrə əlləri yetənlər də bu haqda öz kitablarını yazmaq və öz arqumentləri ilə ortaya çıxmaq əvəzinə niyə bu qədər hay-küy qoparıblar, bax orasını heeeç qanammıram.

Yorumlar:

15.07.2017

Eldar İsmayıl

Sərdar bəy, kitabı yəqin oxumayıbsan. . Sənə cəmi 10 sual verəcəm:..

Eldar İsmayıl həmin sualları sonra bir də yazdığına görə, burada ixtisar etmişəm.

Sərdar Əlibəyli:Eldar müəllim, bu on suala yazılmış sanballı cavab elə bir kitab eliyər, yazın verin çapa, amma Nazir Əhmədlini söyməklə, ya da quru ittihamlarla prosesi qazanmaq mümkün deyil, qalan bütün variantlarda proses Nazirin populyarlaşmasına xidmət edəcək. Bəlkə elə onun özü də bunu istəyir !!!!!!!!!!!!!!!!!!!!

Maarif:Bu gündəmi zəbt eləmiş qalmaqallı məsələyə mən də rəy yazmışdım .Eynilə Sərdar bəyin fikirlərilə üst-üstə düşür. Söyüş, təhqir yalnız sahibini aşağılaya bilir.Nazir müəllim tədqiqatçılıq missiyası üzərinə götürüb.Hansısa sənədlərə istinad edərək Göyçə mahalının bir hissəsinin 19-cu əsrin birinci yarısına olan kəndləri və əhalisi haqqında şərh verib.Adı gedən kitabın əksər hissəsi istinad olunan sənədlərin surətidir.Bir şeyi nəzərdə saxlamaq lazım ki,1989-cu ilə qədər Göyçənin kəndlərində türklər yaşayırdısa,bu gün ermənilər,kürdlər,yunanlar və digər millətlər yaşayır.1830-60-cı illərdə də belə halların olması mümkün idi.

Yəni qıcıqlanıb bir-birini təhqir etməkdənsə,daha sanballı arqumentlər gətirməklə yeni nəşr ortaya qoymaq olar.Ən tutarlı cavab isə bu olar. Tarixi faktlarla dastan, rəvayət söyləmələri ayrılar.

Feysbukdakı yorumlar:

Nizami Novruzov: Ay qardaş qanında qarışıq olan nadandan nə gözləyə bilərik.Nadana da söyərlər.

Şahlar Haciyev: Sərdar bəy söhbət Aşıq Ələsgərin yaşından getmir. Bu adam qədim türk eli olan Göyçə mahalının etnik tərkibinin kürdlərdən ibarət olduğu haqda iddialar irəli sürür. Ələsgərin doğum tarixinin 1851 ci ilə çəkməsi düşünülmüş şəkildə edilir. Çünki yazır ki, 1831 ci ilədək Ağkilsə kəndində yaşayış olmayıb. Bu faktlari təkzib etmək üçün kitab yazmağa heç bir ehtiyac yoxdur.

Şebnem Bunyadzade: melum olur Serdar bey de ne etdiyini müeyyenleşdirib

Eldar Ismayil: Sərdar bəy, kitabı yəqin oxumayıbsan. . Sənə cəmi 10 sual verəcəm:..
1. Sən Toxluca kəndini tanıyırdın. Toxlucanın yaxınlığında KƏRİMAĞA, DƏLİ ARUTYUN, KOMASERkəndləri vardımı?
2. Sən Göyçədə BİRUKİ, MİLLİ, QARAÇORLU, ƏLİQANLI, ÇAKIRLI, AYRIM, DƏMİRÇİLİ milləti, yaxudtayfası yaşadığını eşitmişdinmi?
3. Şopenin kameral təsvirinə bax, gör bu sadalanan millət, tayfa adları orda varmı? Məsələn təsvirdə yazılıb Ağbulaq kəndi 26 ailə. Nazirin kitabında yazılır Ağbulaq kəndi 26 Qarapapaq ailəsi.
4. Nəyə görə başqa- başqa ölkələrdən gələn ermənilər ERMƏNİ yazılır, müsəlmanlar müxtəlif tayfa adları ilə göstərilir?
5. Sən bilərsən Ördəkli kəndi Dərəçiçəklə Göyçənin kəsişdiyi yerdədi, O kənddən çay ağzı yuxarı Kəvərə tərəf axıb Dəliqardaş kəndində gölə tökülərdimi?
5.Göyçə camaatı, o cümlədən Ağkilsə kəndinin sakinləri köçəri kimi qələmə verilir. Bu adamın Göyçədən zərrə qədər məlumatı

varmı? Bilmir ki, aran elləri- Gəncə, Tovuz, Şəmkir, Qazax, Ağstafa, Qarabağ elləri yüz illərlə Göyçə dağlarına yaylağa çıxırdılar.
6. Sən bilərdin Toxluca çayı doğrudanmı Adatəpənin yanında gölə tökülürdü? Yoxsa Toxlucanın ayağındamı?
7. Ada təpə kənd idi, yoxsa dağ? Guya Adatəpə kəndində 22 qarapapaq ailəsi yaşayıb.
8. Qarapapaqlar Oğuzların qardaşıdı. Oğuzları bütün xriistiasn aləmi fateh olduqlarına görə sevmirlər. Göyçənin əsas əhalisi oğuzlar olduğu halda bir yerdə oğuz adı çəkilmir.
9. Göyçənin "Şahdağ" silsiləsində olan dağların birinin adı belə təsvirdə
yoxdu- , "Şahdağ", "Marallıca" "Çalmalı" (Qərb tərəfində), "Ocaq dağı",
"Kirkitli". "Pir dağı", "Topaşan", "Qarnıyarıq", "Çalmalı" (Şərqdə) və sair.
Mən hələ Göyçənin dağüstü göllərini, çaylarını demirəm…
-Məgər kameral təsvirə bu dağlar düşməyibsə o təsviri mükəmməl bir sənəd saymaq olarmı?
Kameral təsvirdə Ağkilsənin adı yoxdusa demək Ələsgərin yaşı 30 il böyüdülüb. Təsvirdə "Şahdağ"ın da adı yoxdur, demək "Şahdağ" adlı dağ da olmayıb.?
Ancaq bu təsvirin ermənilər tərəfindən hazırlandığını müəllif özü etiraf edir:
"GÖYÇƏNİN YENİ SAKİNLƏRİNƏ BAŞQA DAĞLARIN ADI MƏLUM DEYİL,"
Yeni sakinlər kimdi? Ermənilər!
10. Göyçə haqda məlumatı olmayan bir adamın birdən birə ortaya çıxıb Xalqın 200 il Aşıq Alı kimi tanıdığı sənətkara yeni ad – ALMƏDƏT adı verməsinə nə qiymət vermək olar?!
Mən yüzlərlə belə nöqsanlı uydurmaları ortaya qoya bilərəm.
Göyçədə Məşədi İsa dövlət məmuru olub. Romanovlar sülaləsinin 300 illik yubileyinin iştirakçısı olub. Onun doğum haqda sənədləri olub. Məşədi İsa 1845- ci ildə doğulub. Həmişə də Ələsgərə Ələsgər əmi deyərmiş!O ki qaldı söyüş, həqarət məsələsinə. Nazir

bəyə demək lazımdır ki, Ağ Aşıq Allahverdinin nəticəsi İstanbul Texniki Universitetinin professoru, dünya elm aləmində öz dəstixətti olan Elbrus Cəfərov deyir ki, mənim babam haqda yazdıqlarınız düz deyil. Bu sözə görə onu ən ağır söyüşlərlə təhqir etmisən! Demək hamı sənin uydurmalarına bəli deməlidi? Kitab Göyçə Aşıq Məktəbinə, Göyçə mədəniyyətinə və Azərbaycan tarixinə ləkədir.

Elbrus Caferov: Hak sözünüze göre teşekkür ederim, Eldar müellim.

Nazir Ahmedli: Eldar müəllim, nə qədər ağa qara deyəcəksən? Kitaba yazdığın iradlara sözüm yoxdur, Sərdar bəy dediyi kimi, ona cavab yazın, çap etdirin.. Dünyanın az qala elm fatehi adlandırdığın Elbrus Cəfərov mənə təhqirlər yazanda ona təriflər deyirdin, mən ona yalnız bir cavab qaytarmışam, turpun dalı acı çıxıb. Bu cür haqsız, ədalətsiz mövqe ağsaqqala yaraşmaz. Halbuki mən türkün ən böyük məziyyətinin ədalət olduğunu düşünürdüm.

Bu kitab isə Göyçə aşıq məktəbinə ləkə deyil, bu məktəbə ləkə gətirənlər Ələsgərin yaradıcılığını hər təzə nəşrində daha artıq təhrif edənlər, Ağ Aşığnn, Xəstə Qasımın və başqalarının şeirlərini öz qohumlarının adına çıxanlardır. Zərrəcə ədalətiniz olsa, bu faktları etiraf edərsiniz

Eldar Ismayil: Nazir bəy, Mən həmişə çalışmışam bu iş yoluna düşsün. Yenə də çalışıram. Amma sən zor- güc uydurmalarını həyata keçirmək istəyirsən.İnsanlara ən ağır söyüş yağdırırsan.Mən dedim bunları etməyin və indi də etməyin. İki nəfərlə oturaq bir qərara gələk.Mən Elbrus müəllimin sizin söyüşünüşdən sonra onun tərbiyəsini gördüm. O sizə çox mülayim bir cavab verdi. Hamıya cavab vermək lazımmı sənə?

Nazir Ahmedli: Eldar müəllim, mən yenə də sizə hörmətimi saxlamaqda davam edirəm. Sizdən xahiş etmişdim ki, nüfuzunuzdan istifadə edib mənə söyüş söyənləri, qarğış, təhqirləri dayandırmaq üçün onlara təsir edəsiniz. Kitabı tənqid edən nə qədər istəsəniz kitablar, məqalələr yazın, amma haqsızlıq edib onun Göyçə aşıq məktəbinə ləkə gətirdiyini deməyin. Bir də

əgər o kitabda kimə qarşı zərrəcə təhqir varsa, məni məhkəməyə versin..

Şebnem Bunyadzade: Eldar müellim buna serf elemeyen fikirleri danmaqla missiyasını davam etdirir

Murvet Yusifov: Sərdar Əlibəyli heç mən də sənin fikrini qanammıram!

Serdar Alibeyli: Mənim fikrim mənim fikrimdi və sənin qanıb-qanmamağın Sənin işindi, kəndin bilirsin !!!!!!!!!!!!!!!!!!

Serdar Alibeyli: Eldar müəllim, bu on suala yazılmış sanballı cavab elə bir kitab eliyər, yazın verin çapa, amma Nazir Əhmədlini söyməklə, ya da quru ittihamlarla prosesi qazanmaq mümkün deyil, qalan bütün variantlarda proses Nazirin populyarlaşmasına xidmət edəcək. Bəlkə elə onun özü də bunu istəyir !!!!!!!!!!!!!!!!!!!

Eldar Ismayil: Sərdar bəy, mən o kitabları cild-cild yazmışam. Sənə sənin bildiklərini sual kimi verdim ki həqiqəti görəsən. Mən heç kimə söymərəm, söyünc gədə işidi. Mən həqiqəti deyirəm, ona görə ki, mən nə yaşadım Eldar kimi yaşadım!

Eldar İsmayıl yazır ki, "Mən heç kimə söymərəm, söyünc gədə işidi". Onun bu dediklərinə nə dərəcədə sadiq qalıb-qalmadığını, söyüş, təhqir yazıb-yazmadığını yoxlamaq imkanımız olacaq.

Serdar Alibeyli: Çox hörmətli Eldar bəy, söhbət nə Sizin yazdığınız kitablardan gedir, nə də konkret olaraq Sizin kimisə söyməyinizdən, amma açıb bir də baxın o polemikalara, nə qədər söyüş, qarğış, təhqir var orda. Ayrıca da mən öz düşüncələrimi yazdım və bu qədər çirkin və çirkli polemikalara qoşulmaq niyyətim yoxdu, burda belə artıq söyüşlər və söyüşlərə haqq qazandıran şərhlər gəlməyə başlıyıb.

Eldar Ismayil: Mən yenə deyirəm bu qazanı qaynadan Nazir bəydi, mən onunla söhbət etmək istədim. O hələ də ona-buna cavab verməklə məşğuldu. Əgər mənim kitabım haqda ikicə

adam tənqid yazarsa mən o tənqidi qəbul etmişəm və etməkdəyəm.

Ramiz Qusarçaylı: Adamın ürəyi ağrıyır...Olmazmı ciddi tarixçilər dəvət edilib dəyirmi masa təşkil olunsun...Təhqirlərlə tarix araşdırılar?

Nazir Ahmedli: Ramiz müəllim, çox haqlısınız. Mən istənilən tarixçi ilə söhbət edib, onun iradlarını qəbul etməyə hazıram. Burada məni söyənlər isə, tarixçi olmamaları bir yana, kitabımı oxumayanlardır.

Şebnem Bunyadzade: Bu söyüşden başqa ne bilir axı?

Eldar Ismayil: Nazir bəy, mən hansı ağa qara demişəm? Birini göstərə bilərsənmi? Sən çox yanlışlıqlara yol verirsən. Ona görə də bu məsələ uzanır.

Nazir Ahmedli: Deyirsiniz ki, Elbrus Cəfərov və başqaları mənə qarşı heç bir təhqiramiz söz işlətməyib, mən isə onları söyürəm. Bu, ağa qara demək deyilmi? Bəyəm mən dəliyəm ki, təhqir etməyəni söyüm? Onların nə yazdıqlarını axı Sizdən başqa oxuyanlar da var və hamı bunu görür.

Eldar Ismayil: Mən daha sənin işinə qarışmayacam, Nazir bəy! Get nə bilirsən onu da elə!

Nazir Ahmedli: Eldar müəllim, mən ancaq və ancaq elmi fəaliyyətlə məşğul olmaq və vətənimə, millətimə xidmət etmək istəyirəm. Ayrı bir fikrim yoxdur

Eldar Ismayil: Nazir bəy, söyüş gədələrə məxsus keyfiyyətdir. Mən elə söhbətlərə çox qoşulmuram. Mənə üzünü çıxarıb gətirirlər, hamısını görürəm. Qurtarmaq istəmirsiniz istəməyin.

Mübariz Məsimoğlu: Eldar bəy! Mən Nazir Əhmədlinin yazdığı kitabı çox diqqətlə oxumuşam. Onun istinad etdiyi mənbə məlumdur. Bu mühüm bir imperiya sənədidir. Bu sənəd o səbəbdən tərtib olunub ki, yerli əhali vergidən yayına bilməsin. Belə olan halda bu sənədin obyektivliyinə şübhə etmək yeri qalmır. Nazir fərziyələrə yox , sənəddəki faktlara istinad edib. Həmçinin, Nazirin bu kitabda haqqa- ədalətə sevgisindən dolayı nə qədər əzab çəkməsi, axtarışları göz önündədir. Həmçinin, Aşıq

Ələsgərin doğulduğu illərdə türk milləti əfsuslar olsun ki, doğum tarixlərini qeydə almırdılar. Və Əbdürrəhman bəyin məlum hekayəsində olduğu kimi atadan uşağın yaşını soruşanda ata cavab verirdi ki, balam filan vaxtı sel gələn tarixdə doğulub. Başqa bir tərəfdən siz də fikir bildirmək də haqlısınız. Yazın ki, bu sənəd hansı- hansı mənbələrə əsasən doğru ola bilməz. Amma mənbələrə istinad edin.. Babamızın, nənəmizin danışdığı fərziyələrə yox. Lap başqa bir tərəfdən deməyin ki, Dərələyizli Göyçə mahalından niyə yazır? Yapmayın belə şeylər lütfən!

Nazir Ahmedli: Təşəkkür edirəm, Mübariz bəy.

Murvet Yusifov: Mübariz bəy, müdafiə etdiyiniz "faktlar"ı Sovetlər dönəmində araşdırmaçılar görə bilmirdi?Hər vəchlə türkün tarixini təhrif etməyə çalışan erməni araşdırmaçıları nə yaxşı göz yumurdular?

M.Yusifovun "dahiyanə məntiq"indən belə çıxır ki, sovet vaxtı bütün məsəllərə nöqtə qoyulub, daha heç bir araşdırma aparmağa lüzum yoxdur!

Şebnem Bunyadzade: Bu kitabı oxuyan normal savad sahibi hansı meqsed güdüldüyünü anlayar

Eldar Ismayil: Nazir bəy, Allah bu yolda sənə uğur versin. Sənin bu kitabın haqda mən söz demişəm. Nöqsanları və uydurmaları demişəm. Sən niyə demirsən ki, Eldar müəllim nöqsanlar da var. Niyə razılaşmılrsan? Sən get tarixi romanlar yaz... Yoxsa olmayan şeyləri olmuş kimi göstərmək kitab yazmaq deyilki?Əgər bu kitaba bənzər kitab yazacaqsansa yazma. Çünki yenə qalmaqallar içində qalacaqsan!Bir də ki, Əli Şamil kimilərin yalanına qoşulmayın.

Nazir Ahmedli: Eldar müəllim, mən demirəm ki, mənim, yaxud da o sənədi tərtib edənlərin yazdıqları Quran ayəsidir, hətta Günəşin üzündə də ləkələr var. Mən deyirəm ki, səhvlərimi, nöqsanlarımı normal, elmi dillə və etik çərçivədə göstərsinlər, əgər bu kitab növbəti dəfə nəşr olunacaqsa, haqlı iradları nəzərə alım, düzəldim, amma bunun əvəzində ancaq söyüş və təhqir

yağdırırlar. Bu heç kimə yaraşmır. Bəyəm kiminləsə söyüşmək mənə xoş gəlir? Əli Şamilə gəlincə, o kitabı yalnız tam hazır olanda görüb və onun varlığından xəbər tutub.

Eldar Ismayil: Nazir bəy, bunu bütün Göyçəlilər bilir, sizi bu qalmaqala salan Əli Şamil və dörd tərəfində fırlanan bir neçə qulbeçə var, onlardı...

Nazir Ahmedli: Eldar müəllim, bu fikri ortaya atanlar böyük günah işlədirlər. Əli Şamil məndən yaşlı, məndən savadlı, Göyçə mühitində yetişən, neçə illərin söz adamı, qələm ustadı olan, neçə-neçə kitabların müəllifidir. Məni niyə irəli verməli idi, elə özü də yazardı. Bu kitab yazılıb qurtarandan sonra onun varlığından və içindəkilərdən xəbər tutub bəyənib.

Eldar Ismayil: Əli Şamilil məqaləsində hər şeyi açıb deyib. Bunu bütün Göyçəlilər bilirlər..

Şebnem Bunyadzade: Bu kitabı Heyder Eliyev dövleti düzeldecek.

Eldar Ismayil: Mübariz müəllim, mən deməmişəm ki dərələyəzli niyə Göyçədən yazır. Mən deyirəm ki, sən Göyçə haqda məlumata malik olsaydın bilərdin ki, ORDƏKLİ çayı ağzı yoxuşa, Dəliqardaşa tərəf axmazdı. Mən demişəm ki, məsləhət almaq lazımdı. O da deyib ki, mən səndən icazəmi almalıydım?

Mübariz Məsimoğlu Eldar bəy! Kitabı təhlil edin... Nəyinin doğru, nəyinin yanlış olduğunu ayrıca bir məqalə halında yazın. Yanlışlıqlar aradan qalxsın. Hesab edirəm ki, bu kitab ümümən dəyərli bir kitabdır və Nazir bəy də əsl Türk oğlu türkdür... Bu kitabı tamamilə dəyərsiz bir kitab kimi qaralayıb Nazir bəyi topa tutmaq həqiqətin üzə çıxmasına xidmət etmir. Sizə yaradıcılıq uğurları diləyirəm.

Nazir Ahmedli: Eldar müəllim, coğrafiya ilə bağlı iradlarınıza bir söz demirəm, əgər o cür yanlışlıqlar varsa, o kameral siyahını tərtib edənlərin səhvidir. Məni yalnız düzgün tərcümə etməməkdə qınamaq haqlı olardı. Öz adımdan yazdığım mətnə hansı iradlarınız varsa, onları da göstərin ki, doğrudanmı səhvlərim, nöqsanlarım çoxdur? Nöqsanların olmasını istisna

etmirəm, onları yalnız normal polemika ilə öyrənmək istəyirəm. Mənim mövqeyim həmişə belə olub.

Eldar Ismayil: Nazir bəy, Mən Məşədi İsa haqda kiçik yazı verdim, onu oxuyun nəticə çıxarın. Nə olar adam səhv edər. Amma qəbul etməmək düz deyil. Sağ olun.

Şebnem Bunyadzade Üç ayda öyrenmeyen 1 saatda öyrene bilmez

Eldar Ismayil: Mübariz müəllim, mən kitabı təhlil etmişəm, məqalələr yazmışam, Yeni Musavat qəzetində və saytında gedib. Yasxşı olar oxuyub sonra deyəsiniz.

Mübariz Məsimoğlu: Çox yaxşı...

Eldar Ismayil: Nazir bəy, Daha mən bu haqda heç nə deməyəcəm. Siz bilərsiniz!

Şebnem Bunyadzade Metanet xanım bu müellifi dolayısı ile müdafie edenler özlerini çirkli oyuna bulaşdırdıqlarını başa düşmürler

Bayram Mammadov Ne şairem,ne elm adami,sade bir Goyceliyem.Heyasiz gormuşdum,belesini yox .Xoşunuz gelmir, meni mehkemeye verin deyir.Oxunmamiş duaya amin demezler. Biz seni tehqir etmirik, layiq oldugun terzde cavabini veririk.Sen kimsen ki, menim ecdadimi mene tanitdirmaga calişirsan.Get oz ecdadlarin , eslin-neslin haqda yaz.Men seni sevecem,sen sevmesende mahnisi yada duşur.Sende bu uzdeniraq Goyce sevgisi hardan yarandi birden-bire?

İlyas Şahquliyev Ay,Bayram, nəslini sənə tanitmaqda N.Əhmədlinin məqsədi odur ki, nəslini taniyasan və o insanlara oxşayasan , həyasiz və nadanliqdan əl çəkib adam olasan.

Eldar İsmayıl bayaqdan riyakarlıq edib deyirdi ki, "söyünc gədə işidir", və s. İndi isə bu nadan qulbeçəsi Bayram Məmmədovu təhqirdən çəkindirmək niyyətində deyil.

Daha bi riyakarlığı isə odur ki, iddiasına görə mən durduğu yerdə camaatı təhqir edirəm. Amma göründüyü kimi yüzlərlə belə təhqiri cavabsız buraxmışam, yenə də Eldar

İsmayılı qane etmir. Çünki bütün bu çirkinliklərin başında özü durur, dirijorluq edir..

Niftali Goyceli: Sərdar bəy, Çar Rusiyası dövrü 1879-cu il "Moskva Dov. Arxivi" Aşıq Ələsgərin doğum tarixi(1821-ci il) göstərilir... Sovet dövründə ən birinci məlumat "DAN ULDUZU" №4-də ömrünün son çağlarında (1923-26-cı illər) Aşıq Ələsgəri öz gözləri ilə görmüş jurnalın müxbirlərindən biri yazır: "El şairlərindən bəhs edərkən hal-hazırda həyatda olan xalq arasından çıxmış şairlərimizin ustadı və mürşüdü kocaman Aşıq Ələsgərimizi də unutmamalıyıq...Sonra Jurnalda Aşıq Ələsgərin bir neçə şeirlərini dərc etmişlər, eyni zamanda məqalədə belə bir qeyddə var: "indi onun (Ələsgərin) sinni yüzə yaxınlaşmışdır"... Mürvət bəyin burada qeyd ediyi "Bolşaya Sovetskaya Ensklopediya"- 1950-ci il məlumatında da Aşıq Ələsgərin həyat tarixi (1821-1926) göstərilir...Bu faktlar elmi redaktor akademik Nizami Cəfərova, rəyçi Əli Şamilova, "kameral kitab" yazan müəllif Nazir Əhmədliyə bəs etmirmi?.. Fəqət onlar erməni yalanlarını qələmə alan Şopenin "syahısını" "müqəddəs mənbə" qəbul edirlər...Həmin siyahıda da "tapdıqları" Aşıq Ələsgər ailəsi tərkibi, adlar, nə də Aşıq Alı ailəsi və adlar düz gəlmir. Nə isə bir uyğun qeydləri mütləq qəbul edib, ardınca da öz bədnam missiyalarını irəli sürürlər...Biabırçılığa baxın ki, Aşıq Alının adının Almədət olduğunu da israrla dilə gətirirlər...

Elbrus Caferov: Teşekkür ederim Niftalı müellim. Üstelik de Sulduz'dan Kerkibaş'a gelmiş ve orada Alı'ya üstadlık etmiş Ag Aşığa "milli" deyirler.Ağ Aşığın şeceresi bu yalanı redd edir. O kadar.

Niftali Goyceli: Ağ Aşığı mənim ana babam, Miskin Abdal tayfasından- "Töstülü" tayfasından olan Məmmədalı Mustafa oğlu (1820-1960) öz gözləri ilə görmüşdür. Dediklərindən: " Ağ Aşıq çox ləmsli oxuyordu. Saç-saqqalı dümağ, camala gözel, üzünnən nur tökülüyordu." Ağ Aşıq Allahverdi qeyri-adi fiziki görünüşə malik, yəni saçının, qaş və kipiklərinin ağ tükləri onun gözəl görünüşünə xələl gətirməmişdir,

üzünün dərisi də adi göyçəlilər kimi olmuşdur...Dədə Qorqud da uşaqlıqdan ağ tüklü olmuşdur...Hər ikisi də Allahın seçdiyi və adi insanlardan fərqləndirdiyi müdriklər, möminlər olmuşlar... Sonradan Ağ Aşıq haqqında "albinos"-filan uydurmadır...

Niftalı Göyçəlinin sonuncu yorumu lap müsibətdir. Yenə də ana babasının Miskin Abdal tayfasından olduğunu və 140 il(!) yaşadığını uydurur! Amma babası Məmmədalının niyə osmanlı ləhcəsi ilə danışdığını təəssüf ki, izah etmir. Babası belə "deyirmiş": " Ağ Aşıq çox ləmsli oxuyordu. Saç-saqqalı dümağ, camala gözel, üzünnən nur tökülüyordu."

Niftalı Göyçəli, əgər babanı osmanlı ləhcəsi ilə "konuşduroyarsansa", bil ki, onlar gözələ sənin yazdığın kimi "gözel" yox, "güzel" deyirlər. Abrın olsun, Niftalı!

Miskin Abdal məsələsini alver predmetinə çevirən bu cür möhtəkirlərə, nəhayət cavab vermək qərarına gəldim.

Tədqiqatçı Araz Yaquboğlunun bir statusu diqqətimi çəkdi:

MİSKİN ABDAL MƏSƏLƏSI

Araz Yaquboğlunun statusu
8 avqust 2018

İki il əvvəl bu günkü gün yazdığım status:
Vallah belə olmaz. Biri deyir Miskin Abdal Göyçənin Sarıyaqub kəndindəndir, biri deyir Gədəbəyin Miskinli kəndindəndir. Bu gün də görün Sədnik Paşa Pirsultanlının kitabında nəyə rast gəlmişəm. O yazır: Qazağın Dağkəsəmən kəndində anadan olmuş, 1515-ci ildə Şah İsmayılın sərkərdəsi kimi şərəfli fəaliyyət göstərdiyinə görə fəxri fərmanla qiymətləndirilən Hüseyn (Miskin Abdal) Türkiyənin Dənizlisində "Təslim Abdal" kimi dəfn olunmuşdur. Miskin Abdal zəngin lirika yaratmışdır. O, İranda mükəmməl dini

təhsil almışdır. Miskin Abdal Çaldıran müharibəsində iştirak etmiş, döyüşdə qıçının birini itirmişdir.

Yorumların içərisində mənim də rəyim var:

Nazir Ahmedli: Bir nəfər yazır: "Miskin Abdalla bagli 80-den cox kend, seher ve qesebe var". Dahiyanə fikirdir!! Miskin Abdalın yaşadığı dövr elan edilən 1500-cü illərdə Səfəvilər dövlətində genetika seleksiya, süni mayalanma və s. yüksək inkişaf edibmiş!! Miskin Abdalın spermalarını sterilizə olumnuş şüşə bankalara yığıb süni mayalanma yolu ilə qadınlara köçürüblər və onun toxumundan 80 kəndin əhalisi yaranıb! Ona görə də Azərbaycan türklərinin yarıdan çoxu şairdir! Amma bir şey qaranlıq qalır: Sarıyaqub kəndinin əhalisi ayrımdır, deməli Miskin Abdal da ayrımdır. Azərbaycandakı bütün ayrımlar isə 80 kənddən xeyli azdır. Belə çıxır ki, Miskin Abdaldan həm ayrımlar, həm qarapapaqlar, həm də başqa tayfalar törəyib. Bu Miskin Abdal nə qədər qeyri-adi adam imiş! Genetika elmi bunu necə izah edəcək??

İroniya ilə yazdığım bu yoruma etiraz edən olmadı. Həmin gün A.Yaquboğlu Miskin Abdalla bağlı başqa bir status da paylaşmışdı və oradakı rəylərdə fantastik şeylər görəndə, nəhayət bu məsələyə nöqtə qoymağın vaxtının gəldiyini görüb müzakirələrə qoşuldum:

Emine Rahimova: Miskin Abdal Həqiqətən Göyçənin Sarıyaqub kəndindən olub.Onun qohumları, nəticələri Goranboyun Qaradağlı kəndində yaşayırlar.Miskin Abdalın özünə məxsus əşyaları onlarda ocaqda saxlanılır.Şahın onu vəziri təyin etməsi ilə bağlı fərman möhürlü onlardadır.

Taleh Əlioğlu Vəliyev: Goranboyun Qaradağlı kəndindədi Misgin Abdalın ocağı. Bizə qonşu kənddi. Hələ o ocağ Sarıyaqubda olanda 87 ci ildə mən o ocağı orda ziyarət etmişəm. Qurbanımda olub o ocağda kəsiblər. Ocağın sahibi Misgin

Abdalın şəcərəsi haqqda Nəsib babanın oğlu Hacı Şakir müəllim cox məlumatlıdı. Tarix müəllimi olan Hacı Şakir müəllim geniş bilgilərə malikdi. İnşallah sizi tanışda edərəm. Bizə doğma ailədi .

Efganes Kha: Emine Rahimova Şah İsmayılın? Ailədə original sənəd qalıb? Göstərirlər ya necə?

Taleh Əlioğlu Vəliyev: Misgin Abdala məxsus sənədlər və əşyaları qorunub saxlanılır. Ziyarətcilər tərəfindən ziyarət olunur.

Efganes Kha: Taleh Əlioğlu Vəliyev istəsək göstərirlər? Yaxından görmək olur?

Taleh Əlioğlu Vəliyev: Bəli qardaş. Zəngləşək vaxt təyin edək bir yerdə gedərik . Bizə qonşu kənddi. Mənim yaşadığım şəhərdən Dəliməmmədlidən kecib gedirsən Qaradağlıya ocağın olduğu kəndə . Sadəcə niyəttin ziyarət niyyəti olsun. Mən qulluğunda hazır .

Efganes Kha: Taleh Əlioğlu Vəliyev mən tarixsevərəm. Niyətim əsl sənədi canlı görməkdir. Mümkündürsə, istəyərəm köməklik edəsiniz. Nömrənizi özəldən yazın lütfən

Emine Rahimova: Bəli , bağışlayın baxmadım başım bir az qarışıq oldu, cavab verə bilmədim, amma, doğrudan da belədir.Mən o ocaqda oldum və televiziya üşün çəkdim.Maraqlı bir reportaj.O ailə Göyçədən köçkün olaraq Goranboyun Qaradağlı kəndində məskunlaşıb.Və həmin sənəd onlardadır.

Bağırov Abbas: Çox sağ olun!

Nazir Ahmedli: Efganes Kha, Şah İmayıla aid edilən və guya Miskin Abdal haqqında verilmiş iki sənədi Vikipediyada tapa bilərsiniz. Oradakı "Miskin Abdal" məqaləsini açın. Əslən Sarıyaqub kəndindən olan və Hazırda AMEA Tarix İnstitunda işləyən Bəxtiyar müəllim (soyadını unutmuşam) deyir ki, həmin sənədləri görkəmli alim, əslən Cənubi Azərbaycandan olan professor Seyidağa Onullahiyə oxutdurub və orada Miskin Abdal haqqında heç nə yoxdur, yəni deyilənlər hamısı uydurmadır. Digər tərəfdən, bu versiyanı müdafiə edənlər deyir ki, fərman Seyid Hüseyn adında adam haqqındadır və Seyid Hüseyn elə Miskin Abdaldır! Bu da uydurmadır. Seyid Hüseynin Miskin Abdalla eyni adam olduğunu kim və necə sübut edə bilər? Bu hansı

mənbədə qeyd edilib?? Bütün bunlar cəfəngiyyatdan başqa bir şey deyil. Digər tərəfdən, 1580-ci illərdə və 1724-cü ildə Osmanlılar həmin əraziləri işğal edəndə oradakı bütün əhali də Səfəvi ordusu ilə İrana çıxıb gediblər. Göyçə 1814-cü ildə məskunlaşdırılanda hələ Sarıyaqub kəndi də yox idi, 1842-ci ilin siyahısında var və kəndin adı kəndxuda Sarı Yaqubun adından götürülüb. 1500-cü illərdə Sarıyaqub kəndindən danışmaq sadəcə olaraq savadsızlıqdır. Ən ciddi məsələ isə odur ki, 1842-ci ildə həmin kənddə yaşayan adamların 340 il əvvəl həmin kənddə yaşadığı iddia edilən Miskin Abdalın, yaxud Seyid Hüseynin nəslindən olduğunu kim və necə sübut edə bilər? Bütün bu nağıllar savadsız adamları çaşdırmaq üçün düzülüb-qoşulmuş nağıllardan başqa bir şey deyil!

Qılman İman: Nə oldu Nazir bəy, bu qədər adamlar, alimlər dedikləri yalan oldu, Bir Bəxtiyar dediyi düz çıxdı?Hamı bilir ki Şah İsmayıl Misgin Abdala möhürlü kağızla 5 kənd bağışlayıb.Bu, fakt!Qaldı ki siz yenə öz ənənizə sadiqsiniz, Göyçə mahalında yaşayışı gətirib 18 əsrə çıxarırsınız.Mən başa düşə bilmirəm, siz nə istəyirsiz Göyçə və göyçəlilərdən, əl çəkin də!Bu nə düşmənçilikdi?Bunu bir dəfəlik bilin, siz 200 kitab da yazın istəyirsiz, burada da 500 kommet-status yazın, heç nə dəyişməyəcək.Sadəcə deyirəm, ayıbdı, insanların heysiyatı ilə oynamayın.

Nazir Ahmedli: Qılman İman, mən nə ayıblı iş tutmuşam, nə də heç kimlə düşmənçilik etmirəm, mən tədqiqatçıyam. Bəxtiyar müəllimlə mərhum professor S.Onullahini də bir tərəfə qoyuram. Necə deyərlər, ağa durur. ağacan durur. Azərbaycanda həmin sənədi oxuya biləcək yüzlərlə adam var, şərqşünaslar, ərəb əlifbasını oxuyan mütəxəssislər var, onlara oxutdurun. Məsələnin başqa tərəfi isə odur ki, əgər həmin sənədlər doğrudan da Şah İsmayılın, yaxud başqa hökmdarın fərmanıdırsa, onu mütləq və mütləq AMEA Əlyazmalar İnstitutuna vermək lazımdır ki, mühafizə edilsin, korlanmasının qarşısı alınsın. Axı xüsusi rejimdə saxlanmayan sənəd 517 il davam gətirə bilməz!!. Onun itmək, oğurlanmaq, əprimək təhlükəsi də var. Mən belə başa

düşürəm ki, kimsə o kağızları savadsız adamlara nümayiş etdirərək nəzir yığmaqla məşğuldur. Halbuki, onlar Şah İsmayılın fərmanıdırdsa, dövlət əhəmiyyətli sənədlərdir və Azərbaycan hökuməti onları ya satın almaqla, ya zorla, ya da xoşla Əlyazmalar İnsitutuna gətirməyibsə, deməli o boyda işin əhəmiyyətini başa düşmür!

Nazir Ahmedli: Göyçə mahalında yaşayışı 18-ci əsrə gətirmirəm, özünüz qəsdən insanları çaşdırmaq istəyirsiniz. Göyçədə yaşayış orta əsrlərdən, Dədə Qorqud zamanından olub. Mən müharibələr nəticəsində Göyçənin müəyyən müddət boş qalmasından danışıram. Elə sonuncu hadisələr də buna oxşar hadisələrdir. 30 ildir ki, Göyçədə türk yaşamır. Bəlkə bunu da inkar edəsiniz?

Şahlar Haciyev: Nazir Ahmedli.Göyçədə türk tarixi orta əsrlərdən yox,çox qədim zamandan başlayır.E.ə.IX əsr Urartu mənbələrində Göyçə mahalındakı türk tayfalarının adına rast gəlmək olur.Basar,gögər.qamər və.s. Türk tayfalarının izləri çox qədim zamanlara gedir.Dədə Qorqud dastanı isə orta əsr zamanına deyil,qədim zamanlara gedir.IX də yazılması,onun o zamanlara aid olduğu demək deyil.Dədə Qorqud dastanının hətta Homerin "İlliada"sında izləri görünür.Bizim təpəgözümüz Homerin siklopundan daha qədim olduğu aşkar olunub.

Nazir Ahmedli: Şahlar Haciyev, mən Sizinlə Göyçədə neçənci əsrdən başlayaraq türklərin yaşaması haqqında mübahisə açmayacağam, bunun üçün tutarlı dəlillərə, mənbələrə əsaslanmalıyıq. Cavabım Qılman İmana yönəlib. O bilə-bilə məsələni dolaşdırır, insanları çaşdırır ki, guya mən türklərin 18-ci əsrdən Göyçədə yaşadığını deyirəm.

Şahlar Haciyev: Nazir bəy. Mən sizə göndərdiyim sənədi Goranboydan,Miskin Abdal ocağının dəyərli nümayəndəsi ,tarixçi Şakir bəydən almışdım. O sənəd yüzillərdir Sarıyaqub kəndindəki ocağında saxlanılırdı.(1988 qədər).İndi bunları təhrik edib, başqa Şopensayağı kameral təsvir artıq bir şeydir.

Elnur Baxış: Şakir müəllim Goranboyun Qaradağlı kəndində yaşayır orda Miskin Abdalın ocağını yaradlb adına ziyarətgah yaradıb.

Nazir Ahmedli: Nəzir yığır?

Şahlar Haciyev: Nazir Ahmedli Tanımadığınız bir adam haqqında ironiya ilə yazı yazmaq ədəb qaydalarına uyğun deyil. Şakir bəyi uşaqlıqdan tanıyıram.Çox dəyərli və savadlı türk oğludur

Nazir Ahmedli: Mən tamamilə ciddi şəkildə soruşuram: həmin ziyarətgah dediyiniz ünvana nəzir verirlər, yoxsa yox, Şahlar Hacıyev? Mənə ədəb qaydaları öyrətmək cəhdiniz də ədəb qaydalarına uyğun deyil.

Bağırov Abbas: Hörmətli Şahlar Haciyev ! Daha ədəb qaydalarını əvvəlki tərzdə axtarmaq və ummaq zamanı keçib təəssüf ki.Çox təəssüflər olsun ki, ədəb dərsi keçənlər ədəb anlayışından uzaq olanlardı.

Bir zamanlar ağsaqqallıq etmək iddiasında olan bu özündən müştəbeh adama hörmətlə yanaşırdım. Amma göründüyü kimi, açıq-aşkar etikanı pozur, amma mən yenə də onun bu tikanlı sözlərini cavabsız buraxıram:

Nazir Ahmedli: Şahlar bəy, dediyim kimi o sənədi oxutmaq qətiyyən çətin bir iş deyil, qoy bir mütəxəssis oxusun və orada nə yazıldığını desin, əgər səhv desə, özü biabır olacaq. Məsələnin ikinci tərəfi isə sənədin dövlət əhəmiyyəti daşıması ilə bağlıdır. O elmi kataloqlara salınmalı və dövlət tərəfindən mühafizə edilməlidir. Bunların heç birinin olmaması ciddi şübhələr doğurur. Siz də bir tədqiqatçı olaraq məsələnin bu tərəflərinə diqqət yetirməlisiniz Məlumat üçün deyim ki, Matenadaranda bu cür sənədlər var, Qaraqoyunlu hökmdarı Cahanşahın, Uzun Həsənin, Şah İsmayılın, Şah Təhmasibin və başqalarının Eçmiadzin kilsəsinə verdikləri imtiyazlar haqqındakı fərmanlardır. Erməni alimi Papazyan 1956-cı və 1958-ci illərdə onları orijinalda, yəni fars dilində, tərcümələrini isə rus və erməni

dillərində 2 cilddə çap edib, geniş şərhlər yazıb. Əgər siz dediyiniz də bu cür fərman olsaydı, Azərbaycan alimləri onu tədqiq etməli və çap etdirməli idilər, həm də onu Əlyazmalar İnstitutunda saxlamalı idilər. Bütün bunların heç biri olmayıbsa, bu sizi düşündürmür?

Максим Джаббаров: Nazir müəllim işin hüquqi tərəfini deyir.....

Yeri gəlmişkən, tez-tez yaşayışının çətinliyindən, cəmi 200 manat pensiya ilə yaşamağa məcbur olduğundan ürək yandıran yorumlar yazan Niftalı Göyçəli də bu cür "ziyarətgah" yaratmaq istəmir ki? Axı, ana tərəfinin "Miskin Abdal nəslindən olduğunu" iddia edir!

Hələliksə, 2017-ci ilə qayıdaq:

16 iyul 2017.

Mənim statusum

"Göyçə mahalının kameral təsviri. 1831-ci və 1842-ci illər" kitabım nəhayət işıq üzü gördü.Kitaba daxil edilən Qərbi Azərbaycanın Göyçə mahalında 1831-ci və 1842-ci illərdə çar məmurları A.Rıjkov (İ.Şopenin rəhbərliyi ilə) və A.Korallov tərəfindən tərtib edilmiş kameral təsvirlərdə əhalinin adbaad siyahısı, milli tərkibi, sayı ilə yanaşı, mahalın təbii ehtiyatları, heyvanat və bitki aləmi, dağları, çayları, gölləri, yolları, əhalinin məşğuliyyəti, vergilər və s. ətraflı şəkildə təsvir olunmuşdur.Kitaba yazılan ön sözdə "Göyçə" sözünün etimologiyası, mahalın tarixi ətraflı şəkildə geniş təsvir edilmişdi. Kitabın elmi redaktoru hazırda Kanadada yaşayan alim, tarix üzrə fəlsəfə doktoru H.Məmmədov(Qaramanlı), məsləhətçisi AMEA Tarix İnstitunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Tofiq Nəcəfli, rəyçisi isə həmin institutun şöbə müdiri, tarix elmləri doktoru Qasım Hacıyevdir. Hər üçünə buradan təşəkkürlərimi bildirirəm.

Elmir Turan: Nazir müəllim, təbrik edirəm, bu kitabı haradan əldə edə bilərəm? Ünvan deyin, gəlim götürüm, elmi işimlə əlaqəli mövzudu.həmin dövrə aiddir demək olar. Çox maraqlı gəldi mənə

Nazir Ahmedli: Mən onu sizə hədiyyə edirəm, Elmir bəy. Əgər elmi işiniz üçün yarıyacaqsa, ürəkdən məmnun olaram

Niftali Goyceli: Elmir Turan Buyurun, təbrikiniz "Mübarək!".. Yurdlarımızın adı ermənileşdirilib əldən getdi, indi də tariximizə Şopen erməni məkri qoşulub təbliğ edilir...

Elmir Turan: Sizi tanımıram kimsiz Amma gəlin hər bir hadisəyə həqiqi yanaşaq.Mən belə kitabın nəşrinə görə təşəkkür etmişəm indi də edirəm.Nəyi pisdir ki sizin övladlarınız bir var xarici ədəbiyyatdan bir də var öz həmyerlimizin əsərində öz ata baba yerlərimizlə tanıyıb dərk edib öyrənsin.Mən belə nəticəyə gəlirəm ki kitabın işıq üzü görməsi sizi nəsə narahat edir. Amma mən yenə də Nazir Ahmedli müəllimi təbrik edirəm.Xoşunuza gəlsə də gəlməsə də

Şebnem Bunyadzade: Bela ondadıkı heqiqeti yox ermeniye xeyir olan yalanı anlayacaqlar Elmir Turan. Anlamaq lazımdı ay müdafie edenler

Terane Camalqizi: Şəbnəm xanım,lütfən daha geniş izah verərsinizmi, yalan nədədir. Mən bu diskussiyanı təsadüfən oxudum.

Terane Camalqizi: Qaynatam orada verilən Ağzıbir kəndindəndir. Nəyin səhv, nəyin düz olması maraqlıdı.

Terane Camalqizi: Nəyinsə ermənіyə xeyir olmasını əlbəttə heç kəs istəməz

Terane Camalqizi: Kim bilirsə bu məsələ haqda denis izahat versin,lütfən

Nazir Ahmedli: Təranə xanım, Ağzıbir kəndində 1842-ci ildə yaşayan bütün əhalinin adı və doğum tarixi bu kitabda var. Bunun nə ziyanı olub-olmadığını müəyyən etməyi öz öhdənizə buraxıram.

Terane Camalqizi: Bəs problem nədədir?

Nazir Ahmedli: Heç bir problem yoxdur, onu süni şəkildə yaradıb düşmənçilik edirlər. İrtica qüvvələridir.Bu da onıarın "təşəkkür üsulu"dur.

Firuz Mustafa: Təbrik. Uğurlar.

Niftali Goyceli: Buyurun, təbrikiniz "Mübarək!".. Yurdlarımızın adı ermənileşdirib əldən getdi, indi də tariximizə Şopen erməni məkri qoşulub təbliğ edilir...

Yenə "qırıq val" fəaliyyətdədir, məni təbrik edənlərə tənəli və səfeh sözlər yazır.

Dimes Hak: Kutlarım Nazir Ahmedli kardeşim. Eminim ki, biz yeniden görüşende bu kitabı da ala bilecem. Mevlam seni korusun...

Nazir Ahmedli: İnşallah

Mamedali Hesenov: Nazir bey xeyrli olsun.tebirik edirem.

Metanet Saraclı: Uğurlu olsun Nazir müellim!Ayağı sayalı olsun ve bir daha qalmaqalla rastlaşmayasınız!

Nazir Ahmedli: çox sağ olun, Mətanət xanım. Mən də inanıram ki, bir daha qalmaqal olmayacaq

Nazir Ahmedli Hamınıza təşəkür edirəm, dostlar!!

Bayram Babazade: Bu kitaba gore mukafatlandirilsaniz tesadufi saymaram.

Niftali Goyceli: Buyurun, təbrikiniz "Mübarək!".. Yurdlarımızın adı ermənileşdirib əldən getdi, indi də tariximizə Şopen erməni məkri qoşulub təbliğ edilir...

Bakhtiyar Abdullayev: Allah Sizə barlı-bəhərli ömür verib şükürlər olsun, arzu edirəm ki ömrünüz uzun, canınız sağlam olsun. Mən də əldə etmək istəyirəm bu kitabdan.

Musellim Quliyev: Təbrik edirəm.

Nailə Mirzəyeva: Yeni kitab münasibətilə təbrik edir Sizə yeni-yeni uğurlar diləyirəm.

Mûbariz Binnetoqlu Zengezurda Nazir bey, bu vacib ve deyerli eserinizin erseye gelmesi münasibeti ile sizi semimi qelbden tebrik edirem!

Kazim Salimov Təbrik edirəm Nazir bəy! Kimin nə deyib-yazmasından asılı olmayaraq, çox vacib və lazımlı nəşrdir.

Niftali Goyceli Buyurun, təbrikiniz "Mübarək!".. Yurdlarımızın adı ermənileşdirib əldən getdi, indi də tariximizə Şopen erməni məkri qoşulub təbliğ edilir...

Aydin Revan UGURIAR

Nezirmemmed Zohrabli: Təbriklər və uğurlar Nazir bəy!

Mehed Tagiyev: Təbrik edirəm

Mahmud Memmedov: Bu qeder narazılıq yaradan kitaba lap 100 nefer tebrik yazsa da keçerli deyil Çünki tariximizle ziddiyyet teşkil eleyen kitab on min insanda narazılıq yaradıb

Adalet Tahirzade: Ürəkdən təbrik edirəm!

Flora Xelilzade: Təbrik edirəm, Nazir Əhmədli!

Maarif Piraliyev: Yeni uğurlar.təki "Haqq-nahaqq seçilər haqq divanında" kimi qalmaqala səbəb olmasın.Yəqin ki, Bakiya güzarım düşsə kitab satışı mağazalarından soruşaram.

Nazir Ahmedli: Maarif müəllim, qalmaqal çıxaranlar gördüyünüz kimi həmin bəd əməllərini davam etdirirlər.. Bu bir mərəzdir.

Və möcüzə: valın iynəsi cızılmış yeri adlayır və yeni sözlər eşidirik:

Niftali Goyceli: Allah məni erməni "mərəzinə" yoluxmaqdan qorusun!..

Mahmud Memmedov: Tek seni yox Niftalı müellim. Yaxşı adamları

Шахназ Салех: Təbrik edirəm....Arzu edirəm ki, gözəl Göyçəmizin kameral təsviri, oxucularının gözündə və yaddaşında əbədi yaşasın...!

Nazir Ahmedli: Amin, Şahnaz xanım

Nazim Shamilov: Tebrikler! Xeyirli, uğurlu olsun.

Niftali Goyceli: Buyurun, təbrikiniz "Mübarək!".. Yurdlarımızın adı ermənileşdirib əldən getdi, indi də tariximizə Şopen erməni məkri qoşulub təbliğ edilir...

D***eyəsən, tələsmişəm, iynə yenə ilişdi.***

Nazir Ahmedli (Nazim Şamilova): Çox sağ ol, qardaş

İynə keçir:

Niftali Goyceli: BərəkAllah,Göyçənin nə qədər "dostları" var imiş!...

İynə yenə ilişir:

Niftali Goyceli: Buyurun, təbrikiniz "Mübarək!".. Yurdlarımızın adı ermənileşdirib əldən getdi, indi də tariximizə Şopen erməni məkri qoşulub təbliğ edilir...

İynə yenə keçir:

Niftali Goyceli: Nazir bəy, burada mənim müraciətimi silə bilərsiz, amma sizi təbrik edənlərin hər birinə "inbox"da yazdığımı da silə bilməyəcəksiz ki...

Nazir Ahmedli: Niftalı Göyçəli. mən heç nə silməmişəm.

Niftali Goyceli: Silinmələri görürəm...bəs kim silir?

Nazir Ahmedli: mən kompüterdən yazıram və elə indicə evə gəlib yazılanları görmüşəm. Heç nədən xəbərim yoxdur.

Ali Shamil: Nazir bəy uğurlar arzulayıram. Arzum budur ki, sentyabıradək İrəvanı da tamamlayıb nəşriyyata verdikdən sonra o biri mahallara keçəsiniz

Nazir Ahmedli: çox sağ olun, Əli müəllim, əgər başımı qatmasaydılar. bəlkə də İrəvan mahalının əlyazması indi hazır idi.

Şebnem Bunyadzade Bir birinize ürek-direk verib yekelenmeyin etdiklerinizin cavabını vereceksiniz.

Əli İbrahimov: Təbriklər.İnşallah sabah birini götürməyini xahiş edirəm .

İbrahim Rüstəmli: Təbrik edirəm.

Nazir Ahmedli: Hamınıza təşəkkür edirəm, dostlar, sağ olun

Ali Kafkas: Tebrikler. Ela. Bir qaynağı tərcümə edib oxuyuculara çatdırmaq elm adına gözəl töhfədir. Rəy çilər də öz sahələrində yetkin insanlardır. Şübhəsiz ki tarixin ən əcayib iddiası da gələcək ardından. Ermənilər kameral təsvir sənədlərini Nazir Əhmədli yə otürub)). Lütfen cavab vermeyin)) Yəqin ki kameral təsvirin nə olduğunu bilmirler)

Nazir Ahmedli: Doğrudan da bilmirlər, Əli bəy. Təkidlərdən sonra Ağkilsə kəndinin 1859-cu ilə aid kamaeral təsvirini paylaşdım, Fotoşopla onun üzərində əcaib dəyişikliklər edib, məzələndilər.

Ali Kafkas: Mən həqiqətən deyirəm, bu yersiz tepkileri anlamıram. Bunların elmi araşdırma məntiqi və anlayışı yoxdur. Mən sizin kitaba yazılan on sözləri oxudum. Çox yüksək səviyyədə təhlil ediblər. Mütəxəssis rəyi ortada. Bir də danışan Nazir Əhmədli deyil, sənədlər danışır. Doğruluğuna şübhə edən əks dəlil sənəd argument gətirsin. Bu qədər bəsit. ..

Murvet Yusifov: İndiyə qədər qoyulan arqumentlər azlıq elədisə daha çox arqumentlər rəsmi şəkildə qoyulacaq heç darıxmayın

Nazir Ahmedli: Sağ olun, Əli bəy! İrtica qüvvələri vaxtımı almasaydı, indi İrəvan şəhərinin də Kameral təsviri hazır idi. Həddindən artıq mühüm sənəddir. Bunlar məndən MTN-ə, Prezident Aparatına və başqa yerlərə donos yazıblar. Tarix İnstitutunda, Folklor İnstitunda. Atatürk Mərkəzində, Ədəbiyyat İnstitunda və başqa yerlərə olublar, eyni cavabı alıblar, amma yorulmaq bilmirlər. Bu enerjilərini faydalı bir işə sərf etsəydilər kaş ki..

Yusif Mirzeyev: Mürvet müellim, humanistlik etmeyib tedbirde kitabın yandırılmasına imkan verseydiniz bunlar bu gün bele danışa bilmezdi.

Mahmud Memmedov:Yusif bey, mesele bitmeyib ki

Nazir Ahmedli: Təşəkkür edirəm, Əli bəy. var olun!

Abdurrahman Karaköse: Hocam tebrik ediyorum.Hayırlı uğurlu olsun.İlim adamları belgelerle konuşurlar.Siz tarihin tozlu sayfalarında kalan belgeleri sunarak gerçekleri ortaya çıkartmışsınız.Müsterih olun.Şu şunu dedi,bu bunu dedi değil belgeler ne dedi ona bakılır.Selam eder,araştırmalarıyın devamını dilerim.Allah yar ve yardımcın olsun.

Nazir Ahmedli: Təşəkkür edirəm, Abdurrahman bəy! Var olun!

Akəm Xaqan: Son zamanlar baş verənləri diqqətlə izləyirəm. Bütün sədləri aşaraq uğurlu bir yola qədəm qoydun. Sizi hamıdan daha çox mən alqışlayıram. Uğurlarına da hamıdan çox sevinir və inanıram. Düz yolda olduğuna da zərrə qədər şübhə etmə. Kitabın da xeyirli, xalqımız üçün faydalı olsun, əziz Nazir Ahmedli. Uğur olsun, qardaş.

Şebnem Bunyadzade: ermeni diline de tercüme etdirin

Serdar Alibeyli: Təbriklər

Nazir Ahmedli: Təşəkkür edirəm, Sərdar bəy!

Namiq Əkbərli: Rus və ingilis dilində nə zaman olacaq?

Şebnem Bunyadzade: ermeni dilinden sonra

Namiq Əkbərli: Bu əslində mütləq lazımdır

Qabil Allahyarov: Xeyirli uğurlu olsun!

Şebnem Bunyadzade: Bu niyyetli işi tebrik edenler mesuliyyeti bölüşdüklerini başa düşsünler!

Yeşim Demir: Tebrikler hocam :)

Nazir Ahmedli: Çox sağ olun

Enver Chingizoglu: Təbriklər! Xeyrli olsun!

Agakisi Seferov: Əziz qardaşımı ürəkdən təbrik edirəm. Mən sənin böyük və təmənnasız elm adamı olmağınla fəxr edir cansağlığı və yeni uğurlar arzulayıram. Elmin yolu heç vaxt hamar olmur. Düz və dürüst işində sənə uğurlar arzulayıram.Sənin işin bir bölgəyə deyil.bütün Azərbaycana aiddir.Ürəkdən təbrik edirəm

Murvet Yusifov: Bəli Azərbaycana aiddi. Azərbaycan tarixini təhrif edib!!!!

Agakisi Seferov: Nazir müəllimin Asıq Ələsgər sevgisi, dərin biliyi, gərgin işləmə bacarığı,bir çox insanlarda olmayan qədər vətənpərvərlik hissi bu elmi əsərlərin ortaya çıxmadına səbəb olub.Tarixi faktlar dövlətimizin arxivlərində qorunub saxlanılır. Əksini isbat etməyin yeganə yolu tarixi sənədlərdir. Havayı sözlər heç bir işin həlli deyil

Nazir Ahmedli: Təşəkkür edirəm, Ağakişi müəllim

Murvet Yusifov: Dövlətiniz hansıdı)?

Agakisi Seferov: Sizin işiniz eybəcər sözlərlə ara qarışdırmaqdır

Yusif Mirzeyev: Ağakisi Seferov yazdığından görünür bilmediyin işe girişmisen. Kenar ol

Murvet Yusifov: Yusif bəy imkan ver qoy tanınsınlar.

Agakisi Seferov: Yusif bəy, Nazir Əhmədlini 40 ildir tanıyıram,yazdığı əsərləri oxumuşam.

Yusif Mirzeyev: Burdakı rey yazanlar şablon sözler yazırlar. Özleri de bilmir neden yazırlar

Yusif Mirzeyev: 40 İldi tanıya bilersen. Amma oxuduğun nedi bilmirem. Oxusan bele yazmazdın. Ne etdiyinizi bilin. Boşuna dost zibiline düşmeyin

Edalet Fred Meherremov: təşəkkurlər zəhmətə görə .Bizə nə verir bu .hamı əyani və qiyabi bunu bilir . Nə etməliyik ki bizə qayıtsın özümüzün olsun .təbrizdə kəlkuqda dərbətdə iravanda hə bizim olub .di hı nolsun bəs bu gun nə bilim mən prafestur deyiləm

Şebnem Bunyadzade: Sen bunlardan düz fikirleşirsen

Firdovsi Qenberov: Adlarini cekdiyiniz eraziler bize qayitmaq ucun gerek Şah Ismail Xetai kimi rehberimiz ola...

Penah Azeri: Təbrik edirəm. axarımlı olsun.

Freddy Shaban: Tebrik ediram sizi

Nazir Ahmedli: Təşəkkür edirəm

Şebnem Bunyadzade: Beli Mahmud müellim variant işledir qedeşler))

Orxan Zakiroğlu Baharlı: Təbrik edirəm. Xeyirli, uğurlu olsun

EL Nagi: Nazir Ahmedli, bizim kendin adi yoxdur burda.

Nazir Ahmedli: Hansı kənddir?

EL Nagi: Qaraqoyunlu, Nerimanli kendine qonsudur. Əzizli də deyirdilər.

Mahmud Memmedov:Qaraqoyunlu bu siyahıda düşmeyib)))

Nazir Ahmedli: Qaraqoyunlu adında kənd var.

EL Nagi: Basqa kendlerdi Boyuk ve Kicik Qaraqoyunlu kendi. Bizim kend mehz Nerimanli ve Zod kendine qonsu olan Qaraqoyunlu kendidir.

Mahmud Memmedov:El Nagi yeqin sizin kendi ermeniler vermeyib bu yazıq neylesin

Çapay Qasımov: Nazir müəllim digər mahalların da kameral təsvirini hazirlasaz gözəl olar.

Nazir Ahmedli: Çapay müəllim, mənim planım elə odur. Digər mahalları da hazırlayacam.

Çapay Qasımov: inşallah

Qeys Hesenov: Xeyirli və davamlı olsun.

Mustafa Eyvazov: Təbriklər

Flora Xelilzade: Nazir müəllim təbrik edirəm, mənə bu kitabı vermədiniz....

Nazir Ahmedli: Çox sağ olun, Flora xanım. O vaxt hələ çıxmamışdı, indi isə Bakıda deyiləm, qayıdanda verəcəm.

Firdovsi Qenberov: Sen Goycenin tarixini bilmirsen....

Nazir Ahmedli: Bu Göyçənin tarixi deyil, orada yaşyanların siyahısıdır.

Firdovsi Qenberov: Hardan alifsan o siyahini?

Nazir Ahmedli: Sən prokurorssn, yoxsa oxucu? Oxucusansa və göyçəlisənsə, öz kəndinizin siyahısına bax, əgər babalarını orda görsən, daha sənə nə lazımdır, deməli siyahı və sənəd düzgündür.

Mahmud Memmedov: Bu heç Dereleyezin de tarixini bilmir

Kadir Hüseym: Tükçülüyümüzə milətimizə xeyirli olsun

Mahmud Memmedov: Türkçülüyün xeyrine Ermenistan Milli Arxivinde xeyir axtarmaq gülmeli deyilmi?

Göründüyü kimi, bir qrup qaraguruhçu səhifəmə girib kitabım haqqında müsbət rəy bildirənlərə, təbrik edənlərə atmaca atır, suyu bulandırırlar. Amma insanlar nəyin nə olduğunu yaxşı bilir və bu milçək vızıltılarına fikir vermirlər...

Nazir Ahmedli: Burda xeyirlik-ziyanlıq bir şey yoxdur. Əhalinin siyahısıdır vəssalam.

Tapdig Farhadoglu: Təbrik edirəm. Çox dəyərli elmi araşdırmadır.

Nazir Ahmedli: Təşəkkür edirəm, Tapdıq bəy, köhnə dost. Bu kitabdan hədiyyən məndən! Necə deyərlər, çörəyi ver çörəkçiyə, bir çörək də üstəlik!

Kirman Rustemli: Təbrik edirəm edirəm, bəy əfəndi

Parviz Ismayilov: kamerali bildik bes audit ne vaxtdi?))

QARAGURUHÇULARIN YENI “LIDERI”:

“Lider” TV-nin əməkdaşı Füzuli Sabiroğlu

Füzuli Sabiroğlunun statusu

13 iyul 2017.

"Brilyant Dadaşova ermənini tərifləmədi"- bu xəbəri saytlar az qala ölkənin 1 nömrəli xəbərinə çeviriblər. Ancaq bundan daha dəhşətli bir hadisədən sanki heç kimin xəbəri yoxdur. Doğrudan heyrət ediləsi bir vəziyyətdir... Mənim üçün ən heyrət ediləcək məqam isə Nazir Əhmədlinin Ermənistan Milli Arxivindən əldə edərək yazdığı bədnam kitabın elmi redaktoru millət vəkili,

akademik Nizami Cəfərovun mövqeyidir. Hörmətli akademik ermənilərin Nazir Əhmədliyə ötürdüyü bu sənədlərin- "Kameral təsvirlər"in dəqiqliyinə heç bir şübhə etmədiyini söyləyir. Elə həmin o Ermənistan Milli Arxivinin direktor müavini Sonya Mirzoyan o sənədlər haqqında tamam başqa şeylər söyləyir. "...камеральное описание это документ, который создавался позже. Поскольку описание создавалось для того чтобы обложить налогом, люди часто не были заинтересованы в предоставлении точных сведений. Нередко скрывались дети, уменьшался их возраст и т.п. Поэтому как к генеалогическому источнику к ним нужно подходить осторожней. Особенно в датах рождения..." Və elə həmin o Ermənistan Milli Arxivinin direktoru Amatuni Virabyan REGNUM-a müsahibəsində bu "kameral təsvir"lərin çapına başlayacaqlarını söyləmişdi. Məqsədini isə belə izah edirdi: ""Мы покажем, какая деревня была исконно армянской, а какая состояла из переселенцев из Персии. Это делается для того, чтобы избежать дезинформации азербайджанской стороны о том, что в Нагорном Карабахе не было армян, а их завезли из Персии при помощи России". Virabyan İrəvan quberniyasına daxil olan mahalların "kameral təsvir"ləri haqqında bir söz deməsə də, artıq sənədlərin "surəti" hansısa "möcüzə" nəticəsində Ermənistan Milli Arxivindən gəlib düşüb Nazir Əhmədlinin əlinə və bu adam da "sənədlərin dəqiqliyinə heç bir şübhə etmədən" artıq "Şərur-Dərələyəz uyezdinin Kameral təsviri"ni Bakıda çap etdirib. Və and içib ki, qalan uyezdlərin də "Kameral təsvirləri"ni çap etdirəcək. "Möcüzə" demişkən... Elə Amatuni Virabyan da bu sənədlərin indi Ermənistan Milli Arxivində olmasını "möcüzə" adlandırıb: "В 1920-х годах было произведено перераспределение архивов, часть документов, относящихся к Армении, были перевезены из Тифлиса в Ереван, а часть архивов из Еревана в Нахичеван и Баку. То, что этот документ сохранился у нас - чудо"

Ancaq bu hələ hamısı deyil...

"Elm dəryası" Füzuli Sabiroğlu bir neçə dəfə "uyezd" sözünü işlətsə də, onun Azərbaycan dilində "qəza" olduğunu bilmir. Üstəlik, nəşr etdirdiyim "Dərələyəz mahalınınn kameral təsviri. 1831-ci və 1842-ci illər" (Bakı, 2017) kitabımın adını bilmir. Həm də bilmir ki, özünün dediyi kimi Şərur-Dərələyəz uyezdi haqqında söhbət gedən dövrdə hələ yaradılmamışdı. Füzuli Sabiroğlu çox şeyi bilmir, amma bununla belə, meydana atılıb və özündən olsa, məni "ifşa etmək niyyətindədir".

Abbasqulu Najafzade: Hissə-hissə yazın biz də tanış olaq.

Eziz Elekberli: Hörmətli Füzuli müəllimin yazdığından tam aydın olur ki, ermənilər kameral təsvirlərdəki faktların dəqiqliyini şübhə altına almaq istəyir. Bilirsiniz, erməni niyə belə edir? Çünki oradakı, xüsusilə 1831-də İ.Şopenin qeydə aldığı faktlar ermənilərin Qafqaza gəlmə olduqlarını tam təsdiq edir. Xahiş edirəm, kiçik hisslərə uyub bir-birinizi ittiham etməyin. Bütün mənbələr, o cümlədən kameral siyahıyaalmalar ortaya qoyulmalı və tədqiqata cəlb edilməlidir. Nazir Əhmədlinin çap etdirdiyi "Dərələyəz mahalının Kameral təsviri" kitabı həmin bölgənin türk-oğuz yurdu olduğunu bir daha sübut edir, açın, baxın, bu, ermənilərə sərt bir şillədir.

P.S. Onsuz da Azərbaycanda bu sahə ilə məşğul olan indiyəqədərki bütün tədqiqatçılar (Tarix İnstitutu, Budaq Budaqov, Qiyasəddin Qeybullayev, İsrafil Məmmədov, Sabir Əsədov, Həbib Rəhimoğlu, Əziz Ələkbərli, Nazim Mustafa, İbrahim Bayramov, Həsən Mirzəyev və s. və i. a.) 19-cu əsrin əvvəllərinə aid bütün məlumatlarda ən etibarlı mənbə kimi istisnasız olaraq İ.Şopenə müraciət ediblər, başqa mənbə də yoxdur. İndi Nazir Əhmədlinin üstünə niyə düşüblər? Bəyəm Nazir Amerika kəşf edib?

Hörmətli alimimiz Əziz Ələkbərlinin arqumentləşdirilmiş cəhdləri səmərəsiz qalır. Çünki, Sabir demişkən, "Söz qanmaya-na mətləbi qandırmaq olurmu?"

Füzuli Sabiroğlu: Hörmətli Eziz müəllim söhbət əhalinin yaşının göstərilməsində məlumatların dəqiqliyindən gedir. Bir də ki, Əziz müəllim, burada hansı kiçik hisslərdən söhbət gedə bilər? Nazir Əhmədli ilə mənim hansı ortaq marağım ola bilər ki, mən buna qərəzli yanaşım.

F.Sabiroğlu yazır: "Eziz müəllim söhbət əhalinin yaşının göstərilməsində məlumatların dəqiqliyindən gedir".

Oxucular şahid olacaq ki, F.Sabiroğlu bir neçə aydan sonra artıq yaş məsələsinin onun üçün əhəmiyyət daşımadığını deyir. Atalar ona görə deyib ki, yalançının yaddaşı olmaz.

"Şərur-Dərələyəz uyezdinin Kameral təsviri" barədə bir söz deyə bilmərəm. Ancaq "Yeni Bəyazid uyezdinin Kameral təsviri"nə istinadən Göyçə haqqında yazdığı kitabda bizim əleyhimizə olan çoxlu məlumatlar var. Və bu "Kameral təsvirlər"in necə əldə edildiyini Nazir Əhmədli ciddi-cəhdlə gizlətməyə çalışır. Niyə?

Abbasqulu Najafzade: Füzuli bəy, maraqlıdır, mən Nazir bəyi əqidəli alim kimi tanıyıram, səhv etmirəmsə, Sizin eloğludur. Bunu ona görə deyirəm ki, Göyçə-İrəvan məsələsində Siz işin içindəsiniz, bu məsələni başqalarından daha dərindən bilmək imkanınız var. Çox təəssüfləndim.

Xan Resuloglu: Qoy ədalət zəfər çalsın

Perviz Elay: Bir məsələ var. Bizlərdə rus etnoloqu Şnirelman ciddi tənqid edilir. Bu Şnirelman rus elmi dairələrində sevilməyən birisidir, çünki rus tarixi və arxeologiyasında irqçiliyin olmasını göstərir. Amma onu ermənilər də çox sevmir, çünki o, erməni saxtakarlığını da tənqid edir. Doğrudur, burada incə oyun da gedə bilər, mən bununla üzləşmişəm. Yəni, birisi ortaya çıxır və özünü tənqidçi kimi göstərir və tənqid etdiyi aşkar saxtakarlıq və savadsızlıqdır. Amma daha dərin, "akademik" saxtakarlıq və irqçiliyə toxunmur. Əlqərəz, bu Şnirelman Qarabağın qədim erməni torpağı olmasini belə bir faktla "sübut" edir ki, guya Dağlıq Qarabağda 5-ci əsrə aid erməni dilində yazı(lar) var və bu

faktı sovet dönəmində Azərbaycan tarixçiləri də təsdiq etmişlər. Şnirelman professional kimi bilir ki, əsas göstərici - yazılı mənbədir. Mən çox axtardım, amma 5-ci əsrdə Qarabağda erməni dilində daş üzərində yazı, bunu təsdiq edən azərbaycanlı tarixçilərin əsərini tapmadım. Ola bilsin, yaxşı axtarmadım.

Qurban Səlimov: Füzuli Sabiroğlu, abi dığaların Qarabağda peyda olması haqqlnda, rusların səhf edmirəmsə RTR kanalı sənədli film çəkib və o filmdə Rusiya arxivlərinə istinad olaraq nə zaman və nə səbəbə görə dığalar Qarabağa gəlməsi açıq şəkildə deyilib, maraqlısı odur ki, niyə o filmi biz alıb tərcümə edib yaymamışıq, yanı Hindistanın çəkdiyi, Türk dilinə tərcümə olunan bəsit serial bizə adı çəkilən sənədli filimdən vacibdirmi ??? Yanı belə vacibdir ki, o serialarda ki, aktyorları xaricdən gətirib, TV-də müsahibələrini alıb, sonra da utanmaz-utanmaz elan edirik ki, bu aktyor hardasa saat filanda avtoqraf verəcək...hələ bir biqeyrətliyi nümayış edən alcaqlar efirdən Bakının bütün qızlarını ora dəvət edirəm şuarı ilə çağırış edir, adama deyəllər özünün yaxınlarını, qızlarını dəvət et binanus...

Abbasqulu Najafzade: Pərviz Elayın toxunduğu maraqlı məsələyə alimlərimizn münasibət bildirmələrini istərdim. Yəni onun yazdığı "Şnirelman Qarabağın qədim erməni torpağı olmasıni belə bir faktla "sübut" edir ki, guya Dağlıq Qarabağda 5 əsrə aid erməni dilində yazı(lar) var və bu faktı sovet dönəmində Azərbaycan tarixçiləri də təsdiq etmişlər" fiki ilə bağlı. Hansı Azərbaycan tarixçisi bu faktları təsdiqləyir? Bir də Şnirelmanın bu fikirləri yazdığı mənbə ilə tanış olmaq istərdim.

Araks Haci:Bu mesele tam arashdirilmali ve huquqi mustevide muzakire olunmalidir. Burda tekce Nazir Ehmedlinin saxtakarligindan sohbet getmir, bir boyuk elin kimlerinse sifarishi ile kolge altina alinmasindan sohbet gedir. Bu saxtakarligin hetta Nizami Ceferov terefinden de ciddi cehtle mudafie olunmasi cox teeccublu ve muemmalidir

Abbasqulu Najafzade: Burada nə ola bilər ki, milli məsələ olduğundan kimliyindən asılı olmayaraq "açın sandığı, tökün pambığı". Başqalarına da örnək olsun.

Hakani Abbasali: aziz qardaşim fizuli bey. çox sevindim ki,her kesin seze bilmediyi meqamlari siz evvelki deqiqlikle analiz edirsiniz...tebiiki bu sizin vetene olan vetendaşliq aşkindan doğan sevgidi... amma heç unutmayaq ki bu içimizdeki içliksiz, yabançilara çalişan (guya bilmeden) yabançizadelere zaman layiqli qiymetini verecek...üreyine sağliq...

Eziz Elekberli: Füzuli müəllim, o kameral təsvirlərin bir hissəsi uzaqda deyil, elə Bakıda, Azərbaycan Milli Dövlət arxivindədir, kim istəsə gedib baxa bilər. Füzuli müəllim, Mirzə Ənsərli ilə əlaqə saxlayın, o, həmin materialların üzərində işləyir.

Füzuli Sabiroğlu: Oldu. Əlaqə saxlayaram. Ancaq bilirsinizsə xahiş edirəm deyin. Qərbi Azərbaycanla bağlı Şopenin "kameral təsviri"nin hansısa hissəsi Azərbaycan Dövlət Arxivində varmı? Hansı bölgədi?

Eziz Elekberli: Füzuli müəllim, mən mübahisə etmək istəmirəm, biz o mənbələrlə tanış olmadığımız üçün elə hesab edirəm ki, Nazir Əhmədli ilə polemikaya girməyə hələ hazır deyilik. Onu təkzib etmək üçün əvvəl o mənbələrlə gedib tanış olmalıyıq.

Füzuli Sabiroğlu: Sizinlə tamamilə razıyam. Ancaq mənbə Ermənistan Milli Arxivindədirsə?

Eziz Elekberli: Füzuli müəllim, siz məndən də yaxşı bilirsiniz ki, o sənədlərin kökü Tiflisdə, Sankt-Peterburqdadır, əgər kim isə İrəvanda o sənədlərə əlavə və dəyişikliklər edibsə, bunu aydınlaşdırmaq o qədər də çətin olmayacaq. Bu siyahıyaalmanı İrəvan yox, Peterburq aparıb, Bakıdakı və İrəvandakı o sənədlərin surətidir.

Füzuli Sabiroğlu: Çünki Nazir Əhmədlinin mənbələr haqqındakı qeydlərində Ermənistan Milli Arxivi fond 90 və 93-də saxlanılan sənədləri göstərir. Ermənilər bu yaxında Aleksandropol ***uyezdinin*** kameral təsviri"ni çap etmişdilər və mənbə kimi həmin fondlar göstərilib. Bu sənədlər İrəvandan başqa ayrı arxivlərdə də varsa, suallar yaranır. Niyə məhz Ermənistan Milli Arxivi göstərilib?

Eziz Elekberli: O qədər təfərrüatı bilmirəm, bir onu bilirəm ki, kameral təsvirlərin indiyə qədər tədqiqatlara cəlb olunmamağı bağışlanılmazdır.

Füzuli Sabiroğlu: Eziz müəllim bu sizin üçün maraqlı olar. fond və siyahı nömrəsinə diqqət edin və Nazirin mənbə kimi göstərdiklərinə baxın. Nazir Əhmədlinin məlum "kitab"ında etiraz doğuran məsələlərdən biri də yer-yurd adları ilə Nazir Əhmədli öz "dəyərli əsər"ində iddia edir ki: "Sənədlərlə ilk tanışlıq göstərdi ki, Aşıq Ələsgər 1821-ci ildə Ağkilsə kəndində anadan olmayıb. Çünki nəinki 1821-ci, hətta 1831-ci ildə də Ağkilsə kəndində heç kim yaşamırdı.

Abbasqulu Najafzade: Hələ çox Əkrəm Əylislilər görəcəyik.

Yeni "ideoloq" eyni gündə daha bir status paylaşıb:

Füzuli Sabiroğlunun statusu
13 iyul 2017.

Nazir Əhmədli öz "dəyərli əsər"ində iddia edir ki: "Sənədlərlə ilk tanışlıq göstərdi ki, Aşıq Ələsgər 1821-ci ildə Ağkilsə kəndində anadan olmayıb. Çünki nəinki 1821-ci ildə, hətta 1831-ci ildə də Ağkilsə kəndində heç kim yaşamırdı və bu kənd boş idi!" Kəndin boş olduğu harada yazılmışdı və bunu nəyə əsaslanıb deyir məlum deyil. Sətiraltı buradan belə məna çıxır ki, kəndin türk əhalisi Ağkilsəyə, ümumiyyətlə Göyçəyə, ermənilərdən sonra və ya onlarla eyni vaxtda gəliblər. Çünki, həmin dövrdə artıq mahalın ərazisinə xeyli erməni köçürülmüşdü. Bu öz yerində... Ancaq mahalın tarixini, coğrafiyasını bilmədən, yalnız Ermənistan Milli Arxivində üstündə hansısa manipulyasiyalar aparıldıqdan sonra müəmmalı şəkildə ona ötürülmüş "sənəd"lər əsasında milli ruhumuzun bir parçası olan torpaqlarımızın tarixi haqqında belə cəfəngiyyat yazmaq ən yumşaq desək... Mən buna ad tapa bilmirəm... Adını siz qoyarsınız... Ancaq biz qayıdaq Ağkilsə məsələsinə. Nazir Əhmədli birdən birə "kəşf" edir ki,

1842-ci ildən Ağkilsə kəndində artıq yaşayış var idi... ***Ancaq bu adam bilmir ki, həmin dövrdə Göyçədə başqa bir Ağkilsə kəndi də var idi...*** Təbii ki, adamın mahala bələd olmaması "alim" fantaziyasını əməlli-başlı zorlamasına səbəb olub. Mənimlə razılaşarsınız ki, yaşayış məntəqələrinin yeri, adları, yer-yurd və s. adları ən dəqiq göstəricisi hərbi-topoqrafik xəritələrdir. Ona görə də aşağıdakı xəritələrə diqqət yetirin.

Qərbi Azərbaycan mahalları haqqında xeyli əsərlər yazmış tanınmış alim Əziz Ələkbərlinin arqumentlərini saya salmayan F.Sabiroğlu hikkə ilə yazır: "Kəndin (Ağkilsə kəndinin –N.Ə.) boş olduğu harada yazılmışdı və bunu nəyə əsaslanıb deyir məlum deyil".

F.Sabiroğlu, bu məlumat Göyçə mahalının 1831-ci ildə İ.Şopenin rəhbərliyi ilə tərtib edilmiş Kameral təsvirində, "Göyçə mahalının boş kəndləri" bölməsindədir. Mənim 2017-ci ildə nəşr etdirdiyim Göyçə mahalının Kameral təsviri. 1831-ci və 1842-ci illər" adlı kitabımda 131-ci səhifədədir.

İ.Şopenin Naxçıvan və İrəvan əyalətləri üzrə tərtib etdiyi kameral təsvirlərin icmalı olan, 1852-ci ildə, Sankt-Peterburqda çıxan "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə" adlı kitabında da yazılıb. Həmin kitabında İ.Şopen İrəvan vilayətində, yəni keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində olan 1111 kəndin adını yazıb, həmin kəndlərin hansı boşdursa, onları göstərib. Əziz müəllimin adını çəkdiyi tədqiqatçılar da həmin kitaba istinad edib və məlumatlardan dəfələrlə istifdə ediblər və hələ heç kim o məlumatları şübhə altına almayıb. Elə AMEA Tarix İnstitutu da o məlumatları şübhə altına almadan həmin kitaba dəfələrlə istinad edib. Onların hamısı "dəli" və "qeyri-patriot" imiş, F.Sabiroğlu, bircə sən "ağıllı" və "patriot" imişsən, ortaya atılıb tozanaq qoparırsan!

F.Sabiroğlunun bu monoloqundan bir şeyi də yadda saxlayın: Göyçədə ikinci Ağkilsə kəndinin olduğunu bildirir.

Mən onunla razılaşanda isə nala-mıxa vurub özü özünü təkzib edir!

Yorumlar:

Rasim Jafar: Bu "alim"in "əsər"i harda çap olunub, hardan oxumaq olar? 

Nizami Novruzov: adı satqin, və dilimizdə olan bütün biədəb sözlər.....

Polad Poladov: Füzuli bəy, bu millət nə qədər ki öz türklüyünü unudub özünə qondarma ad qoyur hələ başımız gələcəkdə çox nüsibətlər cəkəcək. İndi sadə gördüyümüz problemlər gələcəyin təhlükəsidir. Deyecekler 1821 də Ağkilsədə azərbaycanlı olmadığına görə Ələsgər də orada anadan olmayıb

Tapdiq Musayev: Bizim tariximiz ne qeder ki oldugu kimi yazilmayib cox musibetlerle rastlaşacağiq.!....

Elbrus Caferov: 1800' lerin başında tertib edilmiş haritede soldan göründüyü gibi Zağalı, Ağ Aşığın kendi Kerkibaş, Basarkeçer, sonra Göle bitişik Ağkilse ve Elesger'in kendi Ağkilse yer almaktadır. Bu kendler çok eskiden var olmuşlar. Ben Kerkibaş'da doğdum, 2-ci Ağkilse'nin harabeliğini çok gördüm, yanındaki çimerlikde çoğu kez olduk. Danever kumları var idi.Şimdi orada ermeniler ruslarla at oynadır. Ahı Eldar müellim demiş nabeled gelmeler ve nabeled "etnograf-tarihçi" nerden bilsin". Ona göre de çefenk sonuçlara varırlar.

Abulfat Heydar: Sapı özümüzdən olan baltalar

Xaqani Ayxan: Narir Əhməddi nədi bilmirəm,gedib aşığın atsın.

Hidayet Agbabali Memmedov: Aşıq atmaqda nadandır

Goyce Mahali Dere Kendi-Basarkeçər: Goycenin tarixi uzun illerden beri oz tesdigini tapib Bu gedim Oguz Turk meskenini yeniden ermenilerin xeyrine saxtalasdiranlar ermeni isgalcilari geder is goryrler .Ozyde Bakida otura otura Misal ycyn Ekrem elyisli kimi bir az Kenarda Zori Balayan kimi myharibe tek top tyfegle olmur .Bizim tariximize garsi yonelen bu bednam

cizmagaralarda bizim tyrkcylyyumuze garsi yonelib.Cebhede ki dysmen belli daxili dysmen belli. Nece ki daxilen saflasmamisig dysmene galib gele bilmeyeceyik.Tariximizi saxtalasdiranlar da byny isteyir. Buna son goyulmalidir

Saleh Mustafayev: Belə satqınlar haradan əmələ gəlir bilmirəm.Belələri hər şeylərini satarlar.Satqına deyilən bütün sözlər.

F.Sabiroğlunun statusuna yorum yazan özü kimi cahillər mənə ən tərbiyəsiz söyüşlər yazmaqla məşğuldur, o isə heç birinə bu ədəbsizlikdən daşınmağı tövsiyə etmir. Mən onlardan hansınasa cavab verəndə aləmi uçururlar ki, Nazir söyüş qəhrəmanıdır. Göründüyü kimi burada onların heç birinə cavab yazmamışam.

F.Sabiroğlu isə yeni-yeni ittihamlar və fərziyyələr irəli sürür:

Füzuli Sabiroğlu
13 iyul 2017.

Ustad Aşıq Ələsgərin yaşı ilə bağlı, daha doğrusu 74 il yaşaması ilə bağlı fikirlərinə etiraz edənlərin bir arqumentinə cavab olaraq Nazir Əhmədli yazır: "Düzdür, opponentlər etiraz edə bilərlər ki, aşıq "Qoca baxtım" adlı qoşmasında "Səksəni, doxsanı ötübdü yaşım",-deyir. Amma onun sadə cavabı odur ki, bu, bədii yaradıcılıq üsullarından olan mübaliğədən başqa bir şey deyil. Belə mübaliğəyə, təzadlara Aşıq Ələsgərin yaradıcılığında yüzlərlə misal gətirmək olar və bunlar onun təkrarsız yaradıcılığının qiymətini daha da artırır!" Bunun nə qədər məntiqli olub-olmadığını bir tərəfə qoyub, dünyadan vaxtsız köçmüş və qısa ömrünün böyük hissəsini İrəvanda, Naxçıvanda və Gürcüstanda çalışmış bir şəxsin, o dövrlərdə Şəmsülcədid, Əli Cədid imzaları ilə mətbuatda çıxış edən Əli Sultanzadənin 1926-cı ilin avqustunda Tiflisdə nəşr olunmuş "Dan Ulduzu" jurnalının 4-

cü nömrəsində gedən Aşıq Ələsgər haqqında məqaləsinə diqqət edin. Məqalə 26-cı ildə çap olunsa da əslən Gədəbəy rayonunun Qaramurad kəndindən olan Əli Sultanzadə bundan əvvəl Ustadın özü ilə görüşmüşdür.

Əli Sultanzadə nə deyib? F.Sabiroğlu bu barədə heç nə yazmayıb.

Yorumlar:

Murvet Yusifov: Hörmətli Fizuli müəllim, təşəkkür edirəm paylaşımınız üçün. Çox acınacaqlıdı ki, bəzilərinin, həm də tarixçi adını daşıyanların bu kitabı müdafiə etdiklərini görür, narazılıq edən çoxsaylı ziyalıların fikrini kiçik hisslər adlandırdıqlarını oxuyuruq. Əziz Ələkbərli Azərbaycan türklərini bir statusda azərilər adlandırırdı...Əziz Ələkbərli bu kitabın qeyri adi əhəmiyyətini qeyd edir, kitab o yerlərin qədim türk torpaqları olduğunu sübut etdiyini iddia edir.

N. Əhmədli 1814-cü ildə Göyçə mahalına qarapapaq türklərini "gətirtməklə", əzəli sakinlər olan oğuz türklərinin izini silməklə "əsl tariximizi" yazır Ə.Ələkbərlinin təbirincə. Çox faktlar çəkmək olar. Amma qərəzli adamlara nəsə izah etməyi mənasız hiss edirəm. Güman edirəm ki aidiyyatı orqanlar tədbir görəcəkdi.

Azərbaycan dilində əməlli-başla yaza bilməyən bu adam "aidiyyatı orqanların tədbir görəcəyindən" danışır. Çünki, haqqımda yuxarılara, DTX-ya artıq donis göndəriblər.

Nizami Novruzov: onlarda erməni qatişiği var 100 faiz-dayilarina ya da əmilərinə çəkirlər

Bakı məktəblərinin birində direktor işləyən bu məxluqun xalqın övladlarına necə təhsil və tərbiyə "verə biləcəyini" qiymətləndirməyi oxucuların öhdəsinə buraxıram.

Sosial şəbəkədə məni dayanmadan təhqir edən bu sürtük nadana bir dəfə də cavab vermədim, ataların "utan utanmazdan, qorx həyasızdan" sözünə əməl etdim.

Qaraguruhun döyüş meydanına buraxdığı Füzuli Sabiroğlu isə dayanmadan yazır...

Füzuli Sabiroğlu

13 iyul 2017.

Qərbi Azərbaycanın tarixi ilə bağlı böyük işlər görmüş dəyərli tədqiqatçımız, həmişə fikirlərinə güvəndiyim Eziz Elekberli mənim "kameral təsvir"lərlə bağlı qeydimə irad tutaraq bildirir ki, indiyə qədər bu istiqamətdə araşdırmalar aparmış alimlərimiz Şopenin məlumatlarına əsaslanıblar. Tamam, razıyam və mən buna heç bir etiraz etmirəm. Amma bildiyim qədəri ilə burada söhbət İvan Şopenin 1828-30-cu illər siyahıya almasının nəticələrini ümumiləşdirdiyi "Исторический памятник состояния Армянской-области в эпоху ея присоединения к Российской-Империи" kitabından gedir. Biz isə siyahıdan danışırıq. Əziz müəllim, bəlkə səhv edirəm? O siyahı çap olunub indiyə qədər? Və ya Azərbaycan tarixçilərindən kimsə o siyahını görüb?

Yeni "lider" də artıq "inkişaf" var, İ.Şopenin kitabının adını öyrənib, amma savadsızlığı imkan vermir ki, İ.Şopenin həmin kitabı məhz 1831-ci ildə öz rəhbərliyi altında tərtib edilmiş kameral təsvirlər əsasında yazdığını bilsin. Həmin kameral təsvirlərdən biri də "Göyçə mahalının Kameral təsvivri"dir. Bizim "qəhrəmanımız" bunları billmir və hikkələnir!

Qaraguruhçular isə onu təqdir edir və ruhlandırır..

Yorumlar:

Nizami Novruzov: erməni olmayan yalani yalandan doğru kimi bütün dünyaya siriyir,bizim səylər.....edir

Qabil Zimistanoglu: Əziz Ələkbərli niyə kitabdakı mərhələli saxtakarlğa toxunmur? Şopen 1832-ci ilədək öz işin alayarımçıq bitirib. Amma bədnam kitabda 1832-ci ildən sonra başlayan mərhələli saxtakarlıq başlayır. Həmin materialların isə Erməni Milli Arxivində saxlandığı qeyd olunur. Əziz Ələkbərli yaxşı olardı ki, Azərbaycanda ilk dəfə istinad edilən mənbədən və həmin materilların necə əldə edilməsindən danışsın.

Sahib Musayev: eziz elekberli neyi oxuyaq, goyçede turk izinin olmamasini, mənim kəndimde heç vaxt kürt yaşamadiqi halda millilerin yaşadiqini--neyi oxuyaq aşiq alinin yeni adini--Almerdeni oxuyaq tutaq ki Dereleyezden samballi birisi çixmayib buna goyçemi gunahkardi. ne düşşmüsünüz goyçenin ustune?

Sahib Musayev: eziz elekberli o mexluq e r m e n i milli arexivini istinad edir, azerbaycan yox,

Bu tərbiyəsiz məxluq "Dərələyəzdən samballı birisi çıxmayıb" deyə bütün dədələyəzliləri təhqir etməkdən belə çəkinmir, ağzı elə köpüklənir ki, Aşıq Alının əsil adının Almədət olduğunu yazmağıma baxmayaraq onu da "Almərdan" kimi qələmə verir.

Sahib Musayevin tərbiyəsizliyi artıq elə həddə çatır ki, F.Sabiroğlu onu bütn Dərələyəz haqqında işlətdiyi təhqirdən çəkindirməyə çalışır:

Füzuli Sabiroğlu: Sahib müəllim, gəlin bir-birimizə qarşı aqressiv olmayaq. Göyçə də, Dərələyəz də, başqa mahallarımız da bizə doğmadı, əzizdi. Bu mahalların hər birindən bütün Türk dünyasının fəxr elədiyi insanlar çıxıb. Emosiyasız, soyuqqanlılıq-la, bir-birimizə hörməti-izzəti gözləməklə, lap elə yumorla bu

məsələni öz aramızda müzakirə edib çözəcəyik. Səhv edən səhvini anlayacaq... Narahat olmayın.

Sahib Musayev: Füzuli Sabiroğlu ezizim o kitab deyileni oxumusunuzmu. Oxuyun ve gorun ki, orada esas mesele tekce ELESGERDE, ALIDA deyil GOYÇE mahalının türksüzleşmesinde, oraya türkün sonradan BORÇALIDAN gelmesinde, orada başqa xalqların

Ağzından köpük tökükə-tökülə yeni bir iddia uyduran S.Musayev Göyçə qarapapaqlarının borçalı tayfaına mənsub olduğunu yazmağımı, onların Borçalıdan gəldiyini yazdığımı uydurur. Halbuki, dəfələrlə onların Sulduz mahalından gəldiyini yazmışam. Elə E.İsmayıl da babalarının Sulduzdan gəldiyini etiraf edib.

F.Sabiroğlu isə onun sözlərini təsdiq edir:

Füzuli Sabiroğlu: Bilirəm əziz qardaşım. Kitabı oxumuşam. Səbrli olaq. Hər şey yerini alacaq. Vaxtı var.

Füzuli Sabiroğlu

15 iyul 2017.

Nazir Əhmədli öz "kitab"ında Aşıq Alının yaşı, nəsli, milliyəti və hətta adı ilə bağlı "tryuk"larının birində gəlir Ustadın şəcərəsi söhbətinin üstünə. Belə məlum olur ki:" Şəcərədə Alının oğlanları Abdulla ilə Məhəmmədin yeri də səhv salınıb, böyük qardaş 1858-ci ildə doğulan Abdulladır. Məhəmməd 1866-cı ildə, Hüseyn isə 1870-ci ildə doğulmuşlar. Şəcərənin qüsurlarını əlbəttə, tədqiqatçı jurnalist Qabil Zimistanoğluna aid etmək olmaz. Onun tərtib etdiyi kitabı Aşıq Alının hələlik ən mükəmməl nəşri saya bilərik". Çox gözəl... Ancaq burada bir əmma var. Bu şəkil "Sovet Ermənistanı" qəzetinin 1981-ci il 31 oktyabr nömrəsindən götürülüb. Orada da qeyd olunur ki, Aşıq Alının nəvəsi- oğlu Məhəmmədin böyük qızı Cahan nənənin yaşı yüzü

keçib. Və yaşı yüzü keçibsə deməli ən azı 1881-ci ildə anadan olub. Məhəmməd 13-14 yaşında evlənibmiş? Ümumiyyətlə kitabda belə riyazi "tryuk"lar doludu... Vaxtı gəldikcə paylaşacam...

Murvet Yusifov: Dəyərli faktlara görə təşəkkürlər Füzuli müəllim!

Nazir Ahmedli: Rəsmi dövlət sənədini şübhə altına alırsınız, amma Q.Əzizovun "Cahanın yaşı yüzü keçmişdir" sözlərinə etibar edirsiniz. Halbuki, Cahan nənənin yaşı heç bir sənədlə təsbit edilməyib və 100-ü keçdiyinə də təkzibolunmaz fakt kimi yanaşmaq olmaz. Q.Zimistanoğluna gəlincə, 3 ay ərzində haqqımda yazdığı yalan və böhtanlara, məndən donosbazlıq etmək haqqındakı təhrik və çağırışlarına baxmayaraq, kitabımda onun haqqında yazdıqlarımı bir daha təkrarlayıram ki, Aşıq Alının hələlik ən mükəmməl nəşri onun tərtib etdiyi kitabdır.

Niftali Goyceli: Torpaqlarımızı işğal edib Ermənistan yaradan və saxta tarix quraşdıran dövlətin "sənədi"!..Bu qədərmi "qaraya ağ" demək...

Qabil Zimistanoglu: Nazir Əhmədlinin son 3 ayda yeni bir istedadı da üzə çıxıb. Düz söyləyən, düz danışan insanları şantaj etməyə çalışır və bununla da hesab edir ki, o, əməlləri ilə doğru söyləyənləri susdura biləcək. Guya ki, mən N.Əhmədliyə böhtan atıram, onun haqqında donosbazlıqla məşğulam. heç olmasa, sözünüzün işlənmə məqamına məsuliyyətlə yanaşın. Əvvəlla, donosbazlıq sovet dövründə qaldı. Sizin erməni saxtakarlığından istifadə etmənizi istər sosial şəbəkədə, istərsə də mətbuatda açıq şəkildə ifadə etmişəm.Başa düşə bilmirəm, deyəndə ki. N.Əhmədli Erməni Milli Arxivinə istinad edərək xalıqmızın tarixini saxatalaşdırır, tarixi şəxsiyyətləri həyatları barəsində məlumatları və yer-yurd adlarını təhrif edir. Bu, nə zamandan böhtan oldu?Mən deyəndə ki, sizin dövlət sənədi hesab etdiyiniz informasiyanın hüquqi sənəd statusu yoxdur, informasiya toplusundan başaqa bir şey deyil. Bu nə zamandan yalan oldu? Çünki dediyiniz o dəvlət sənədinin hüquqi sənəd statusu alması

üçün mütləq istinad etdiyiniz Ermənistan Milli Arxivinin rəhbərliyinin ən azından imzası ilə möhürlü hansısa bir arayışı olmalıdır. Həmin arayışda da qeyd olunmalıdır ki, Nazir Əhmədlidə olan sənədlərin surəti əsli ilə düzdür. Bu olmadığı təqdirdə, hansı dövlət sənədindən danışırsınız? Siz iftira,yalan və saxtakarlıqları cəmiyyətin beyninə yeritmək niyyətindəsiniz. Siz saxtakarlıqlara söykənən məlumatlar əsasında gələcəkdə bir istinad mənbəyi yaratmaq istəyirsiniz!!!

Nazir Ahmedli: Qabil Zimistanoglu, hansı ünvanlara göndərdiyiniz, donoslar haqqında məlumatım var, başqalarını da bunu etməyə açıq çağırışlar etməyiniz göz qabağındadır. Həqiqət elmi mübahisələrdə, müzakirələrdə üzə çıxır, xüsusi xidmət orqanlarının dəhlizlərində yox. Əgər bir jurnalist kimi 1937-ci illərdə KQB-yə yazılanların donos olduğunu bilmirsinizsə, buna ancaq təəssüf edə bilərəm.

Tarixdə sizin donoslarınız, mənim isə kitablarım qalacaq. Bunu heç vaxt unutmayın!

Qabil Zimistanoglu: Nazir Ahmedli, çalışın rəyimi diqqətlə oxuyun. Bir daha qeyd edirəm ki, donosbazlıq sovet dövründə qaldı. Ona görə 1937-ci il dövrü də sovetdə qaldı. İndi o zaman deyil. Hər şey açıq ifadə olunur. Mən fikirlərimi həmişə açıq şəkildə ifadə etmişəm. Bu gündə hər şeyi olduğu kimi açıq ifadə edirəm. Təbirinizcə desək, səndən donosbazlıq etməyə də ehtiyac yoxdur. Məsələ ilə bağlı mətbuatda kifayət qədər informasiya gedib. Əgər təhlükəsizlik orqanları lazım bilsə ki, sizin etdiyiniz hərəkətlər milli təhlükəsizlik məsələlərinə zərbə vurur, yəqin araşdıracaq. Əgər düzsünüzsə, niyə narahtsınız və niyə insanları qarayaxmalarla ittiham edirsiniz. Erməni mənbələrinə istinad edilən məlumatların ömrünün nə qədər olacağını, sizin hara işləyəcəyinizi zaman göstərəcək.

Qabil Zimistanoğlu "Əgər düzsünüzsə, niyə narahtsınız?" sözləri ilə donosbazlığına haqq qazandırmağa cəhd edir.

Füzuli Sabiroğlu: "Sovet Ermənistanı" qəzetinin xüsusi müxbiri Qurban Əzizov özü Göysu kəndindəndir. Göysu kəndi elə də böyük deyildi. 80-90 evdən ibarət idi. Bir də ki, bunu göysululardan, yaxud lap elə Cahan nənənin nəvə-nəticələrindən dəqiqləşdirmək elə də çətin deyil. Eybi yox. Bunu da edərik. :)

Nazir Ahmedli: Etməyinizə heç bir etirazım yoxdur, amma Sizin kimi mən də inanmamaq hüququmu özümdə saxlayıram. Siz sənədə inanmırsınız, mən isə şifahi deyilən mülahizəyə.

Nizami Novruzov: Çəhənnəmə inan

Direktor növbəti dəfə "qabiliyyətini" nümayiş etdirir!

Qabil Zimistanoglu: Cahan nənənin həmkəndlisi olan Qurban Əzizov da, Aşıq Ələsgəri canlı şəkildə danışdıran Əli Sultanzadə də yalan deyir, bircə Nazir Əhmədli və onun əlinə saxta şəkildə keçmiş erməni mənbələri düz deyir.

Qabil Zimistanoglu: Dövlət sənədi hesab etdiyiniz bu sənəddən kompyuterin imkanlarından istifadə etməklə 50-ni düzəltmək olar. Ora hər cür informasiyaları yerləşdirmək də mümkündür.

Stop! Bu Qabilin sonuncu yorumunu yadınızda saxlayın, çünki müasir Ostap Bender rolunda çıxış edən bir şarlatan Q.Zimistanoğlunun ideyasından istifadə edərək ictimaiyyəti çaşdırmağa cəhd etmişdi, amma onu ifşa etdim. Görünür, bu ideyanı həmin şarlatana Q.Zimistanoğlu-M.Yusifov tandemi veribmiş!

Q.Zimistanoğlu "Dövlət sənədi hesab etdiyiniz bu sənəddən kompyuterin imkanlarından istifadə etməklə 50-ni düzəltmək olar", -deyir.

Qabil Zimistanoglu: Nazir bəy, deyirsiniz ki, Qabil məni şərləyir. Sizin nəyinizi şərləyəcəm. Özünüz özünüzü şərləmisiniz, Ermənistan Milli Arxivinə istinad etməklə. Belə bir vəziyyətə də sizi özünüz və buna dəstək verən dostalarınız salıb. Bu yerdə

rəhmətlik Aşıq Alının misraları yada düşür: "Özgələrdən bizə xəta yetişməz, Eləməsək özümüzə özümüz" İndi özün özünə etmisən. Kənardan heç vaxt suçlu axtarma. "Kitabının" az qala hər səhifəsində "Erməni Milli Arxivi" sözləri adamın gözünü deşir. Bilmirəm necə əliniz gəldi, o sözləri ora yazdınız. Necə əliniz gəldi müharibə şəraitində düşmənin informasiya toplusuna istinad etdiniz?!

Murvet Yusifov: 200 ilə yaxın müddətdə erməni əlində olan "Şopenin yazdıqları" bunlara nə qədər də əzizdi. Dədə Ələsgərin dedikləri "yalandı" "Şopenin yazdıqları" əlahiddə faktdı. Bu sevgi haradan gəldiyi araşdırılır və sona çatdırılacaqdı.Tutu quşu kimi əzbərlədikləri kameral təsvir terminini elə təqdim edirlər ki, sanki belə olmalı imiş. Bu cəfəngiyyata dəstək verənlər də sözlərinin məsuliyyətini dərk etsinlər!

Taleh Əlioğlu Vəliyev: Mən başa düşə bilmirəm nənəsini babasının yaşını kim yaxşı bilər.Nəvələri - Nəticələri yoxsa erməni arxivi.

Nazir Ahmedli: Ağkilsəli Aşıq Musanın qızı Qaratel atasının 92-93 il yaşadığını demişdi, məlum oldu ki, rəhmətlik aşıq cəmi-cümlətanı 59 il yaşayıb. Ələsgərin "dostu" kimi qələmə verilən Paşanın isə nə az-nə çox, 120 il yaşadığı iddia edilirdi. Məlum oldu ki, cəmi 75 il yaşayıb. İnsanlar şişirtməyə meyillidir

Nizami Novruzov erməni qohumlarının şişirtdiyini üzə çıxar-kişisənsə

Direktor yenə qulaqlarını şəkləyib! Yeriyənə yol vermir, oturana yer.

Mahmud Memmedov: Ermenistan Milli Arxivi resmi dövlet senedi sayıla bilermi Azerbaycanda? Ay millet niye susursunuz??????

Taleh Əlioğlu Vəliyev: Babam dayısı qızları Cahan nənə Əfruz nənədən söz düşəndə deyirdi ki Əfruzla həm yaşıdıq. Amma Cahan bizdən böyük idi. Ələkbər babam 1890-cı ildə Qızılvənk kəndində anadan olub.

Nazir Ahmedli: Cahanla Əfruz Məhəmmədin qızlarıdırmı? 1873-cü ildə 6 yaşında olan Məhəmməd 1867-ci ildə doğulub. Qızı Əfruz 1890-cı ildə doğulubsa, deməli o vaxt Məhəmmədin 23 yaşı varmış.Tutaq ki, Cahan da ondan 2 yaş böyük olub, o vaxt Məhəmmədin 21 yaşı olur və hər şey qaydasındadır.

Taleh Əlioğlu Vəliyev: Nazir Ahmedli gəlin nəzərə alaq ki, Sovet hökuməti gələndən sonra pasportlar verilib. İnsanların yaşını elə boyuna buxununa baxıb təxmini yazıblar.

Nazir Ahmedli: Məhəmməddən 7 yaş böyük olan Abdulla 1860-cı ildə doğulub. Məhəmmədin qızlarının Qızılvənkdə doğulmasına isə etiraz yoxdur. Mən sizin dediyiniz rəqəmi qəbul etdim və hər şey də düz gəldi, nəyə etirazınız var? Tutaq ki, Əfruz nənə 1890-cı ildə, Cahan nənə də 1888-ci ildə anadan olub. O zaman şəklin çəkildiyi 1981-ci ildə Cahan nənənin 93 yaşı olur. Müxbirin şişirtməyə meyilli olmasını, Cahan nənənin də yaşını dəqiq bilməməsini də nəzərə almalıyıq. Bir vaxtlar Lerik rayonunda Şirəli Müslümov adında bir adamın 167 yaşında olduğunu bütün Azərbaycan qəzetləri bütün dünyaya car çəkdilər, hətta Moskva qəzetlərinin müxbirləri də tökülüb gəldilər, sonra məlum oldu ki, hər şey şişirtmə imiş.

Füzuli Sabiroğlu:))))) sonra da "tryuk" sözündən inciyirsiniz

Bu başıboş "tryuk" sözünü əzbərləyib. Bir qədər əvvəl mənə etiraz edirdi ki, mən niyə Abdullanı Məhəmməddən böyük olduğunu yazmışam. Məhəmməd kiçik qardaş olduğu halda belə Cahanla Əfruzun yaşlarının Məhəmmədlə ziddiyyət təşkil etmədiyini sübut etdim. Əgər Məhəmməd böyük qardaş olsaydı, aydındır ki, yenə şübhəli rəqəm alınmır. Bəs F.Sabiroğlunun qarnını ağrıdan nədir? Heç özü də bilmir

Nazir Ahmedli: Burada nə tryuk aşkar etdiniz? Taleh Əlioğlu qohumunun doğum tarixini yazdı, mən də hesabladım ki, Məhəmmədin sənəddəki yaşı onun dediyi doğum tarixi ilə düz gəlir. Polonski haqqında yazdığınız statusa rəy yaza bilmədim,

yazı üçün pəncərə yoxdur. Rus dilində yazdığınız mətni bitirib Azərbaycan dilinə keçəndə onun dediklərini artıq öz bildiyiniz şəkildə şərh edirsiniz, sitatda dəqiqlik olmalıdır.

Taleh Əlioğlu Vəliyev: Nazir Ahmedli müəllim düzə nə etiraz etmək olar.Amma bütün Aşıq Alının nəticələri Aşıq Alının Şişqayada doğulmağını qəbul etmirlər.O kəndə bizim qohumlar coxdu bu gündə sıx əlaqəmiz var.

Nazir Ahmedli: İkincisi də tutaq ki, Polonski Siz deyən kimi yazıb və Ələsgər də Siz deyən kimi 1821-ci ildə doğulub. 1849-cu ildə 28 yaşında olmalı idi. Doğrudanmı ciddi olaraq hesab edirsiniz ki, Ələsgər artıq 28 yaşında bütün Qafqazda məşhur idi?? Füzuli Sabiroğlu, şişirtməyə meyilli olmayın, mühakimələrinizdə sağlam məntiqə və düşüncəyə əsaslanın.

Nazir Ahmedli: Taleh müəllim, sizə təşəkkür edirəm ki, Siz düzə düz deməyi bacarırdınız. Amma onlar mənim əleyhimə olsun deyə, göydə Günəşi də danmağa gedərlər. Aşıq Alının babasının qəbri Qızılvənkdə ola bilməz, atası Mirzənin qəbri ola bilər. İlk siyahıyaalmanın keçirildiyi 1831-ci ildə hələ Qızılvənk də Ağkilsə kimi xaraba kənd idi, Mirzənin atası Ovçu isə həyatda yox idi.

Füzuli Sabiroğlu:Siz mənim dostluğumda olmadığınızdan şərh yaza bilmirsiniz. İndi həll edərik :)

Taleh Əlioğlu Vəliyev: Nazir müəllim, Qızılvənk Qəbirstanlığı cox böyük və qədim qəbirstanlıq olub.Hüseyin Arif də o qəbirstanlığın qədimliyindən yazı - yazmışdı. Qəbirstanlıq yolun kənarında idi.

Füzuli Sabiroğlu: Aşıq Alının qəbri rəhmətlik Yunis Rzayevin təşəbbüsü ilə bərpa olundu. Qəbrin yerini dəqiq müəyyənləşdirmək üçün köhnə qəbirstanlıqdakı baş daşının parçalarını bir-bir toplamışdılar. Hüseyn Arif bu barədə səhv eləmirəmsə "Ədəbiyyat və İncəsənət" qəzetində yazmışdı. Və orada qəbir daşındakı yazılar barədə də yazmışdı. Mən o yazını taparam

Nazir Ahmedli: Mən demirəm ki, Qızılvənkdə əvvəllər yaşayış olmayıb. Göyçədə orta əsrdə də türklər yaşayıb, ondan

söhbət getmir. 1735-ci ildə Nadir oraları osmanlılardan geri alandan sonra Göyçə dağıntılara məruz qalıb və 79 il boş qalıb. 1814-cü ildə İrandan qarapapaqlar, Göyçənin son sakinləri gəlib və Göyçədə yerləşiblər. 1827-ci ildə 800 qarapapaq ailəsi Nağı xanla İrana qayıdıb. 1831-ci ildə Göyçənin 59 kəndində yaşayış var idi, 67 kənd isə hələ də boş və xaraba idi. Ağkilsə, Qızılvənk və Kərkibaş kəndləri də hələ xaraba və boş kəndlərin arasında idi. Onların hər 3-ü 1842-ci ildən əvvəl məskunlaşdırıldı və ona görə də 1842-ci ilin siyahısına düşüblər.

Füzuli Sabiroğlu: Qəbirstanlıq bizim yaylaq yolunun üstündəydi. Yaylağa gedəndə də, qayıdanda da mütləq orada dayanıb qurban kəsərdik. Bu çox güman ki, Taleh müəllim dediyi Seyidlərlə bağlı olub. Aşıq Alının qəbrini də mən o vaxt görmüşəm. Yəni bərpa olunandan sonra

Göyçədə iki Ağkilsə kəndi olub. Siz bunu nəzərdən qaçırmısınız. Ola bilər bu anlaşılmazlıqların çoxu bununla bağlıdı

Nazir Ahmedli: Biz əsas Ağkilsədən danışırıq. Mən İ.Ələsgərin Ulaşıq kəndi haqqında dediklərini yoxladım və düz çıxdı. 1831-ci ildə Dərəçiçək mahalının Ulaşıq kəndində yaşayan ailələrdən, səhv etmirəmsə 5-i 1842-ci ildə artıq Ağkilsədədirlər və Səhnəbanının atası, əmiləri və babası da onların arasındadır. Amma 1842-ci ilin siyahısında Ələsgərin atası və əmisi hələ də Ağkilsədə qeydiyyata düşməyib.

Füzuli Sabiroğlu: Axı hardan müəyyən edə bilərik ki, əsas Ağkilsə hansıdır? Bəlkə salmayıblar? Ola bilməz?

Nazir Ahmedli: Ələsgərin əmisi Allahverdi Haxverdi oğlu və onun ailə üzvləri 1852-ci ildə Ağkilsədə qeydiyyata düşüblər, amma Almməmməd yaddan çıxanlar siyahısındadır, aydın məsələdir ki, o da Ağkilsədə olub. Beləlkilə, bu ailənin Ağkilsə kəndinə 1842-1852-ci illər arasında gəldiyini düşünməliyik

Füzuli Sabiroğlu: Haradan?

Nazir Ahmedli: sakinlərinə görə deyirik ki, əsas Ağkilsə hansıdır. Yəni o Ağkilsədir ki, orada Ələsgərin də, Səhnəbanının da qohumları, atası var. Elə deyil??

Füzuli Sabiroğlu: Bəs gölün sahilindəki Ağkilsə haqqında niyə məlumat yoxdur?

Nazir Ahmedli: Görünür, o sonradan başqa adla tanınıb, ya da ümumiyyətlə boş olaraq qalıb. Sonuncu göyçəlilər orada yaşayanda da zənnimcə 1 Ağkilsə var idi. Koordinatlarına görə siz dəqiq müəyyən edə bilərsiniz ki, sizin vaxtınızda o hansı kənd idi.

Füzuli Sabiroğlu: Siz yuxarıda qoyduğum xəritələrə diqqətlə baxın. O kəndin yerində son 80-90 ildə kənd olmayıb

Nazir Ahmedli: Onda deməli xaraba olaraq qalıb. Amma yenə də sizə xatırladıram: Biz Ələsgərin və Səhnəbanının ailələrinin yaşadığı Ağkilsə kəndindən danışmalıyıq.

Füzuli Sabiroğlu: Bəlkə elə bu kənd olub?

Nazir Ahmedli: Siz cığallığa keçirsiniz

Füzuli Sabiroğlu: :) Burada çox incə bir mətləb var ki, hamı onu gözdən qaçırıb.

Nazir Ahmedli: buyurun. Amma Polonskinin Ələsgəri haqqında heç nə demədiniz

Füzuli Sabiroğlu: İstəyirsiniz qəzetin özünü paylaşım :) Axır ki, tapdım

Nazir Ahmedli: Doğrudanmı düşünürsünüz ki, doğum tarixinin 1821, yaxud 1852 olmasından asılı olmayaraq Ələsgər 28 yaşında bütün Qafqazda məşhur idi?

Füzuli Sabiroğlu: Niyə də olmasın?

Nazir Ahmedli: Ələsgər Alıdan 24 yaşında ayrılıb və 4 ildən sonra bütün Qafqazda məşhur olub? Halbuki, Alıdan fərqli olaraq onun cavan vaxtlarında hansısa səfəri haqqında dastan da yoxdur. Yəni belə səfərləri yox idi. 25 yaşında Kəlbəcərin Yanşaq kəndində səfərdə olub və 25 yaşındakı Anaxanımı görüb, sevib və alıb. Bütün qəzet lazım deyil. amma Ələsgərin bütün Qafqazda məşhur olması haqqındakı yer lazımdır. Həmin sözü niyə Azərbaycan dilində vermisiniz? Adı çəkilən kitabda bu cür cümlə varmı? Və o kitabı hansı kitabxanada əldə etmək olar? Xəritənizdə heç bir kənd adını oxumaq mümkün olmadı. Aşıq Ələsgərin ailəsinin haradan Ağkilsəyə gəldiyi haqqında isə qəti söz demək mümkün olmadı. 1831-ci ildə Gilanlar kəndində bu ailəyə çox

oxşayan bir QARAPAPAQ ailəsi var, amma tam əmin deyiləm ki, həmin ailədir. Ona görə də qəti hökm verməkdən qaçmışam

Füzuli Sabiroğlu: Baxın. Şişqayanın altında. Bu isə İlyinin xəritəsidir. Ağkilsə öz son bildiyimiz yerdədir. Burada isə son dövrün xəritəsində 1-ci Ağkilsənin xarabalıqları göstərilib

Nazir Ahmedli: Siz onun sonradan hansı adla tanındığını müəyyən edə bilərsinizsə, edin, həm də məsələni dolaşdırmaqla məşğul olmayın, bizim hansı Ağkilsədən danışdığımız Sizə çox yaxşı məlumdur.

Füzuli Sabiroğlu: Qardaşım mən məsələni dolaşdırmıram. Hərbi-topoqrafik xəritədə Ağkilsə adında kənd var. Ancaq sizin təqdim etdiyiniz siyahılarda bu kənddən söhbət getmir. Bunu necə izah edə bilərsiniz? Sonradan bu kənd olmayıb. Xarabalıqları olub. Sizcə bu ciddi məsələ deyil? 🙂:)

F.Sabiroğlu aşkar əlləməliklə məşğul olub məsələni dolaşdırmağa çalışsa da, səbrimi toplayıb onu düz yola qaytarmağa çalışıram..

Nazir Ahmedli: Sizin təqdim etdiyiniz xəritə səhv etmirəmsə, 1847-ci ilə aid idi. İkincisi isə istəyir lap 5 Ağkilsə olsun, biz Ələsgərin, Səhnəbanının yaşadığı Ağkilsədən danışırıq, orada siyahıya alınan əhalinin yaşından danışırıq

Füzuli Sabiroğlu: Onları qoyaq bir tərəfə. Əvvəl aydınlaşdıraq bu kənd niyə siyahıda yoxdur?

Nazir Ahmedli: Mən hələ Niftalı Göyçəli kimi bunu Fotoşopla düzəltdiyinizi də iddia etmirəm😂😂 Yəqin boşdur, ona görə

Füzuli Sabiroğlu: İnsaf bə 🙂:)

Nazir Ahmedli: 1831-ci ildə 67 boş kəndin siyahısı verilir və onlardan çoxunun adı məlum olmayan kimi göstərilir. Qeyd olunur ki, buranın əhalisi boş kəndlərdən çoxunun adını bilmir Siz həmin 67 kəndin siyahısına baxın

Füzuli Sabiroğlu: Adı bilinməyən kəndin adı xəritəyə necə düşüb?

Nazir Ahmedli: Doğrudan da çoxu "adı məlum deyil" kimi yazılıb. Görünür, 2-ci Ağkilsə həmin adı məlum olmayan kəndlərdən biridir. Topoqrafik xəritələr hərbi məqsədlə tərtib olunduğuna görə onun adını sonradan-1847-ci il ərəfəsində və ya ondan əvvəl müəyyənləşdirib yazıblar. Həm də nəzərə alın ki, hərbçilərin işi ayrıdır, məmurların, siyahı tutanların işi ayrı.Hesab edə bilərik ki, hərbçilər daha dəqiq işləyirdilər. Amma həmin kənddə yaşayış olsaydı, 1831-ci ildə olmasaydı da heç olmasa 1842-ci ildə adamları siyahıya alardılar ki, vergi alsınlar.

Füzuli Sabiroğlu: Yəni Şişqayanın əhalisi öz kəndlərindən 2 km aralıdakı kəndin adını o məmurlara deyə bilməyiblər? bu inandırıcıdır sizcə? Yeri gəlmişkən siz o adını çəkdiyiniz Gökçə kəndi Norakert kəndi ilə gölün arasında olub. Mən istəyirəm ki, 1-ci Ağkilsədən fikrimizi yayındırmayaq. Siz dəqiq cavab vermədiniz

Nazir Ahmedli: Mən ətraflı cavab yazdım, yuxarıya baxın Siz yaxşı diplomat kimi ancaq məsələni kələfə salmaqla məşğulsunuz😊

Füzuli Sabiroğlu: 1831-də o kənddə əhali olub. 1840-cı ildən başlayaraq kənd boşalmağa başlayıb.

Görünür, mən F.Sabiroğlunu "yaxşı diplomat" adlandırmaqda tələsmişəm. "Diplomat" sonuncu cümləsi ilə özünü dərin quyuya salıb rəzil olur.

Nazir Ahmedli: Bu kənd haqqında bu qədər müzakirənizin məqsədi nədir axı? Biz ƏSAS Ağkilsədən və Ələsgərdən, onun qohumlarından danışırıq. Tutaq ki, orada 1831-ci ildə əhali də yaşayıb və bəzilərinin ironiya ilə dediyi kimi siyahı tutan şəxsin atının ayağı sınıb, o kəndə getməyib. Bütün bunların bizim mübahisə obyektinə nə aidiyyəti var? Bu ona bənzəyir ki, Dağlıq Qarabağ haqqındakı müzakirələr zamanı Boliviyadan danışasan.

Füzuli Sabiroğlu: Uğursuz bənzətmədi 🙂:)

Nazir Ahmedli: Sizin o Ağkilsəni müzakirə mövzumuza qatmaq cəhdiniz uğursuz müdaxilə və manipulyasiyadır.😊

Füzuli Sabiroğlu: Bunun məsələyə birbaşa dəxli olmasa mən bundan danışmaram

İndi mən F.Sabiroğlunu divara dirəyirəm:

Nazir Ahmedli: 1831-ci ildə həmin kənddə əhalinin olduğu barədə hansı mənbəyə əsaslsnırsınız? Onların siyahısını təqdim edin. Və o kəndin 1840-cı ildən başlayaraq boşalması haqqında mənbə təqdim edin. Bu söhbətin bizim məsələyə qətiyyən dəxli olmadığını bir daha təkrar etməklə verdiyim suallara cavabınızı gözləyirəm. Həmin əhali hansı kəndlərə gedib? Bu suala da cavab verməlisiniz. Və gedənlərin adlarını təqdim etməlisiniz. Yoxsa bir çoxları kimi siz də babaların. nənələrin xatirələrinə istinad edəcəksiniz?

Nizami Novruzov: bəli biz ər kişilərin, nər babaların şifahi kişi sözünə inanırıq nəinki sizin kimi erməni saxta yazılarına və sizin kimi .....

Direktor zəvzəməkdədir...

F.Sabiroğlundan cavab gecikir, Q.Zimistanoğlu da meydana girib "diplomatı" xilas etməyə çalışır...

Qabil Zimistanoglu: Nazir Ahmedli siz dünyanı bir-birinə qatmısınız, özünüz heç bir hüquqi sənəd ortaya qoymadan kimdənsə hüquqi sənəd istəyirsiniz. Bu, isə olduqca gülüncdür. Elmi müzakirələr o zaman effekt verir ki, ortalıqda hüquqi sənədlər olsun. Sənin ortaya qoyduğun və "sənəd" hesab etdiyin isə informasiya toplusundan başqa bir şey deyil. Füzuli Sabiroğ-ludan soruşursuz ki, Ağkilsə ilə bağlı informasiyanı haradan almısan? Siz ictimaiyyətə izahat verdinizmi ki, Ermənistan Milli arxivində saxlanması kimi qeyd etdiyiniz informasiya toplusunu necə və hansı şəraitdə əldə etmisiniz? Doğrusu, hüquqi sənəd statusu olmayan informasiyaların müzakirəsini artıq məqbul hesab ermirəm. Bu cür təhrif olunmuş informasiyalar həm müəllif, həm də digər şəxslər tərəfindən lazımi səviyyədə saxtalaşdırıla bilər.

Hələ bir Niftali Goycelidən sitat gətirirsiniz ki, fotoşopda sənəd düzəldib, rəqəmlərdə dəyişiklik edib. Niftalı bəy sadəcə onu sizə izah etmək istəyib ki, bu gün kompyuterin imkanlarından istifadə etməklə hər cür saxtakarlığı etmək olar. Sizə saxta informasiyaları ötürdüklər kimi. Siz zəmanət verə bilərsinizmi ki, bu gün "mötəbər" mənbə hesab etdiyiniz o informasiyalar fotoşopun süzgəcindən keçirilərək sizə ötürülməyib!!! Söhbət burada ermənilərin etdiyi böyük saxtakarlıqdan gedir. Bir çox kəndlərin siyahısını orada verməmklə və boş göstərməklə məqsədləri yerli əhalini (türklərin) sayaını azaltmaq olub. XVII əsrdə yaşayış olan və mənim anadan olduğum kəndin və yaxud Aşıq Alının, Aşıq Ələsgərin və digər kəndlərdə yaşayışın olmasının cavanlaşdırılması elə buna xidmət edən amillərdən biridir. Göyçədə olmayan erməni kəndlərinin - Dəli Artyun, Komaser, Dəmirçi Poğos və s. kəndlərin salınması da saxtakarlığa xidmət edir. Sonra da qeyd edəcəklər ki. bu kəndlərdə filan qədər ermənilər yaşayıb.

Nazir Ahmedli: Fuzuli Sabıröğlu, mən suallarıma hələ də cavabınızı gözləyirəm.

Qaraguruhçuların yeni ideoloqu 2-ci Ağkilsə kəndində də 1831-ci ildə yaşayış olduğunu və oranın sakinlərinin 1840-cı ildən başlayaraq başqa kəndlərə köçməsi haqqında yalan-palan uydurmaqla özünü necə biabır etdiyinin fərqində olsaydı, güman edirəm ki. məsələyə daha ehtiyatlı yanaşardı.

Demisən, indi isbat elə!

İsbat isə, əvvəlki kimi yoxdur!

18 iyul 2017.
Füsuli Sabiroğlunun səhifəsi

"Diplomatın" özünü necə işə saldığını görən dostları onu vəziyyətdən çıxarmaq üçün dəridən-qabıqdan çıxır, onu ürəkləndirməyə çalışırlar:

Abbasqulu Najafzade: VAR OL FÜZULİ BƏY.

Qabil Zimistanoglu: Füzuli Sabiroğlu bəy, bunlar erməni saxtakarlığı ilə şərik olduqlarını gizlətmək üçün hər cür vasitə və üsullardan istifadə edir, ictimaiyyətin fikrini əsas hədəfdən yayındırmaq istəyirlər. Hansısa vasitəylə Nazir Əhmədliyə ötürülən informasiyanın hüquqi sənətd statusu olmaması onları çıxılmaz vəziyyətdə qoyub. Akademik Nizami Cəfərov Xəzər TV-də açıqlamasında da ictimai fikri yayındıran fikirlər söylədi. Həm də çox tərəddüdlü idi. Bildirdi ki, guya həmin məlumatlar Rusiyanın, Gürcüstanın və Ermənistanın arxivlərində ola bilər. Özünüz də şahidsiniz ki, açıq şəkildə məlumatların Ermənistan Milli Arxivində saxlanıldığı qeyd olunur. Əgər məlumatlar Rusiya arxivində və ya Gürcüstan arxivlərində saxlansaydı, açıq şəkildə qeyd olunardı. Necə ki, N.Əhmədli Aşıq Hüseyn Şəmkirli haqında məlumatın bu şifrə ilə saxlandığını qeyd edir. (F.43, siy 2. sax.vahidi 7348. Yelizavetpol qəzasına daxil olan kəndlərin kameral təsviri.1886-cı il) . Fikir verirsinizmi, bu, məluamat açıq şəkildə göstərilir. Burada bilirsən ki, saxtakarlıq ola bilməz. İstənilən vaxt həmin informasiyanı yoxlamaq mümkündür. Müharibə şəraitində Ermənistan Milli Arxivinə istinad təəccüb doğurur. Adamda istər-istəməz belə bir sual yaranır ki, bu məlumatları haradan almısan. axı sənin istifadə etdiyin məlumatın həqiqiliyini təsdiq edən elə bir sənəd yoxdur. Əgər bu yoxdursa, ortada saxtakarlıq var. Edilmiş saxtakarlığı da Göyçədə yaşa-yanlar tərəfindən asanlıqla müəyyənləşdirmək mümkündür. Bu saxtakarlığın isə ya ona informasiyanı ötürmüş şəxslər tərəfindən, ya müəllif tərəfindən edildiyi qənaətini yaradır.Bu qədər sübutlar və sənədlər ortaya qoymağınıza baxmayaraq, N,Əhmədli hələ də öz iddiasında qalır.

Sensasiya! Q.Zimistanoğlu Aşıq Söyün Şəmkirli haqqında verdiyim məlumatlara şübhə etmədiyini bildirir!

Qabil Zimistanoğlu, görürsən ki, onun da yaşının 27 il böyüdüldüyünü yazmışam. Azərbaycanda olan həmin sənədi ki,

azərbaycanlılar saxtalaşdırmayıb. Amma buna baxmayaraq, tədqiqatçılar indiyə qədər bu sənədlərə diqqət yetirməyib.

Məsələ budur. Mən heç vaxt yazmamışam ki, kimsə Aşıq Ələsgərin yaşını qəsdən artırıb, sadəcə olaraq ortalıqda sənəd-sübut olmadığına görə fərziyyələrə əsaslanıb ustadlar üçün doğum tarixi yazıblar, sonra kitabdan-kitaba keçib, dərsliklərə düşüb, insanların beynində qəlibləşib. Rəsmi sənədləri ortaya çıxardanda isə doğum tarixləri çox fərqləndiyinə görə, isanlara qəribə gəlir və bəziləri sırf psixoloji baxımdan qəbul etmək istəmirlər.

Murvet Yusifov: Təsəvvür etdikcə adamı dəhşət bürüyür. Haqqında danışırılan ərazi 1828-ci ildə Rusiya tərəfindən işğal edilib, orada erməni vilayəti yaradılıb.Həmin vaxtdan müxtəlif vasitələrlə tarixdə öz xeyirlərinə yazılar yazmaq, "sübutlar", "dəlillər" toplamaqla məşğuldular. Qərbi Azərbaycanda yaşamış hər kəs, o cümlədən bədnam kitabın müəllifi də ermənilərin bu cür hərəkətini müşahidə etməmiş deyil. Siz Moskvada saxlanılan Rusiya Dövlət Arxivi ilə də maraqlandınızmı? Bu cür ziddiyyətli "faktlar"ın məsuliyyətini hiss etmədinizmi?100 il müddətində Azərbaycanın görkəmli tədqiqatçılarının gördükləri işi yalanlayıb, onları "qələti məşhur" elan etməyin ağır ittiham olduğunun fərqindəsinizmi?Son olaraq, Füzuli Sabiroğlunun qoyduğu arqumentləri cavablandırmaq lazımdı!!

"Dostları" F.Sabiroğlunu xilas etmək üçün əlləşib-vuruşurlar. M.Yusifov "Moskvada saxlanan Rusiya Dövlət Arxivi" kimi absurd cümlə yazıb savadsızlığını bir daha nümayiş etdirir, mən isə məsələni konkret qoyuram:

Nazir Ahmedli: Füzuli Sabiroğlu, haqqında danışdığınız 2-ci Ağkilsə kəndi haqqında sizə verdiyim suallara hələ də cavabınızı gözləyirəm. Demişdiniz k, 1831-ci ildə orada yaşayış olub və sakinlər 1840 cı ildən başlayaraq oranı tərk ediblər. Suallarımı təkrarlayıram.

1.1831 ci ildə həmin kənddə yaşayış olduğunu təsdiq edən hansı mənbədir?

2.Kənd əhalisinin sayı və siyahısı.

3. Onların köçdüyünü təsdiq edən mənbə.

4.Haraya və kimlərin köçdüyünü göstərən mənbə.

Əgər bu suallara verəcəyiniz cavab yoxdursa(hesab edirəm ki yoxdur) başqaları da cavab verə bilər. Məsələm Qabil Zimistanoğlu. Amma deyin ki konkret olaraq suallara cavab versinlər, söz güləşdirməklə məşğul olmasınlar

Qabil Zimistanoglu: Füzuli Sabiroğlu. sizin erməni dilində yerləşdirdiyiniz məlumatda da ermənilər saxtakarlıq ediblər. Nə qədər saxtakarlıq etsələr də, o ərazilərdə 1862-1872-ci illərdə mövcud olan bəzi türk kəndlərinin adlarının ya əvvəlinə, ya da sonluğuna ermənicə söz artırırlar.

Nazir Ahmedli: Mən hələ də suallarımın cavabını gözləyirəm. Əks halda düşünməliyik ki 2-ci Ağkilsə kəndində kimlərinsə yaşadığı və harasa köçməsi Füzuli Sabiroğlunun uydurmasından başqa bir şey deyil.

Nazir Ahmedli: Yeri gəlmişkən Şişqayalı dostum da bildirdi ki orada yaşayış olmayıb. Şişqayalılar oranı sadəcə "kilsə" adladırırmış və tikili filan da yox imiş. Yəni lap çoxdan mövcud olmuş kəndin xarabalıqları ımiş

Qabil Zimistanoglu: Nazir bəy, dostlarınız vasitəsilə bir az da araşdırsanız, yəqin bu qənaətə gələrsiz ki, Göyçədə ümumiyyətlə kəndlər olmayıb. Hər yerdə kilsələr olub. O kəndləri də yalnız ermənilər abadlaşdırıblar. Ya da köçərilər gəlib məskunlaşıblar. O, "məlumatlı" dostunuz isə yəqin Şişqayadan yox, şiş qayadan imiş. Day keçib, o dostnuzdan soruşun görün, o kənddə Almədəd adında da aşıq olubmu?))))

Murvet Yusifov: Göyçə gölün ətrafında Ağkilsə kəndinin mövcud olması bir neçə mənbədə var. Bunu bilmək üçün Göyçə mahalının tarixini və coğrafiyasını bilmək lazımdı. Onda söhbət hansı kənddən getdiyi anlaşılır.Füzuli Sabiroğlu hər zaman sənədlərin dili və faktlarla danışır!

Yadınızda saxlayın! Mürvət Yusifov da ikinci Ağkilsə kəndinin mövcudluğundan danışır!Bu haqda bir neçə mənbədə məlumatın olduğunu deyir. O mənbələri isə təbii ki, açıqlamır.

Nazir Ahmedli: İrəvan əyalətinin 1728-ci ilə aid İCMAl dəftərində Göyçə nahiyəsində 2 Ağkilsə kəndi qeydə alınıb. Onlardan birincisi 7.325 axça gəlir verən ***Ağkilsə kəndi,*** ikincisi isə 2.890 axça gəlir verən ***Digər Ağkilsə*** kəndi kimi qeydə alınıb (osmanlılar tərəfindən). Şişqaya yaxınlığındakı 2-ci Ağkilsə kəndi çox güman ki odur. Amma bütün Göyçə mahalı kimi o da 1735-ci ıldə boşalıb və görünür, bir daha orada insan yaşamayıb. Son adına gəlincə, şışqayalı dostumun dediyinə görə oranı həm "Kilsə", həm də "Üçkilsə" adlandırırmışlar.

Füzuli Sabiroğlu:))))))))) Və 112 il əvvəl boşalmış kənd Hərbi-topoqrafik xəritəyə düşüb. Ancaq bəzi mövcud kəndlər yox. Siz özünüz inanırsınız buna?

Nəhayət ki. zühur edən Füzuli Sabiroğlu əvvəlki kimi sualdan yayınaraq, aranı qarışdırmaq istəyir!

Murvet Yusifov: Füzuli müəllim, yavaş yavaş öyrənir.

Nazir Ahmedli: Mənim səbrim böyükdür. Suallarmın cavabını gözləyirəm. Hətta sizə kömək etmək üçün əlavə bilgilər də verdim.

Murvet Yusifov: Nazir Əhmədli, sual vermək yox, sualları cavablandırmalısınız.

Nazir Ahmedli: Füzuli Sabiroğlu, doğrudanmı Sizin köməkçilərə ehtiyacınız var?

Füzuli Sabiroğlu: Siz əsas suala cavab verməmisiniz. Bu sənədlər Ermənizstan Milli Arxivindən sizin əlinizə necə düşüb? Mən ikinci Ağkilsənin niyə "Şopennamədə" olmamasının, ancaq Hərbi-topoqrafik xəritədə olmasının səbəni sizdən soruşmuşam. Cavab verməmisiniz.

Murvet Yusifov: Mən demişdim)))

Füzuli Sabiroğlu: Burada hər kəsin öz fikrini yazmaq hüqüqu var. Bəlkə mən camaata bunu qadağan etməliyəm? :)

Nazir Ahmedli: Yaxşı olsun. Qoy sizə kömək etsinlər. Mən yaşayış olduğu yazılan bütün kəndlərdə yaşayan əhalının (ermənilər xaric) siyahısını "Göyçə mahalının kameral təsvirı" adlı kitabımda vermişəm. Siz də yaşayış olduğunu iddia etdiyiniz kəndin əhalisinin siyahısını təqdim edin. Mənim təqdim etdiyim siyahıda 5.607 göyçəlinin adı və yaşı var. Siz və köməkçiləriniz 10 nəfərin adını təqdim edə bilərsinizmi? İndi də osmanlıların tərtib etdiyi və ak.Ziya Bünyafovun nəşr etdiyi sənədi şübhə altına alırsınız ki, bir mahalda eyni adda 2 kənd oıa bilməz. Burada söz deməyə acizəm!

Dialoqun əvvəlində "Lider" Füzuli Sabiroğlu məsələni azdırmaq və məni dolaşdırmaq üçün məsələyə dəxli olmadığı halda, cidd-cəhdlə sübut etməyə çalışırdı ki, Göyçədə 2 Ağkilsə kəndi olub və ikinci Ağkilsə kəndində də 1831-ci ildə yaşayış olub, onun sakinləri 1840-cı ildə oradan köçməyə başlayıblar. Mən "İrəvan əyalətinin 1828-ci ilə aid olan İcmal dəftərinə" əsaslanaraq ikinci Ağkilsə kəndinin mövcudluğunu qəbul edəndə isə onu indi də cidd-dəhdə inkar etməyə çalışır!

Bir az əvvəl ikinci Ağkilsənin mövcudluğunu deyən M.Yusifov məsələnin qəlizləşdiyini görüb aradan çıxmaq istəyir:

Murvet Yusifov: Füzuli müəllim, mən gedim bir azdan gəlib baxaram. Həm gülməlidi, həm ağlamalı....

Nazir Ahmedli: Nəhayət bir daha xatırlatmalıyam ki 2-ci aAğkilsə kəndi haqqında söhbəti bu cür fırlatmaqla bizi mövzudan uzaqlaşdırırsınız. Amma bütün hallarda dalana dirənirsiniz.

Füzuli Sabiroğlu: Ziya Bünyadovun tərtib etdiyi sənədi oxuyacam və məndə şübhə yaradan məqam olsa, problem yoxdu. Mənbəni tapıb yoxlamaq çətin olmayacaq. Amma sizin göstərdiyiniz mənbəni yoxlamaq mümkün deyil. Həmin mənbədəki səhvləri, qeyri-dəqiq məlumatları yoxlamaq üçün lazım olan digər sənədlər də elə sizin "mötəbər mənbə"-

"Şopennamə" ilə eyni yerdə saxlanılır. Yəni bizim bu gün düşmənimiz olan, bizimlə həm hərbi, həm də informasiya müharibəsi aparan ERMƏNİSTAN MİLLİ ARXİVİNDƏ!!! İzah edə bildim?

Eziz Elekberli: Salam, Füzuli müəllim, mən sizin mübahisəyə qoşulmaq istəmirəm, amma xahiş edirəm, Şopenin o siyahıyaalmasını bu qədər gözdən salmayın, siz yaxşı bilirsiniz ki, o, ermənilərin İrandan və Türkiyədən Qərbi Azərbaycan ərazisinə köçürülmə olduğunu, həm də İranın və Türkiyənin hansı bölgəsindən Qərbi Azərbaycanın konkret hansı kəndinə neçə ailə və neçə nəfər ermənin köçürüldüyünü sübut edən yeganə mənbədir. Bu mənbə bizim əlimizdə ermənin gözünə soxa biləcəyimiz çox tutarlı mənbədir. Belə bir faktı xatırladım ki, Şopen sübut edir ki, İrəvan xanlığı, Naxçıvan xanlığı və Ordubad dairəsi ərazisində bir yerdə cəmi 25 min 151 nəfər yerli xristian (onların da əksəriyyəti xristian albanlar olub) olduğu halda, 1828-1831-ci illərdə bu ərazilərə İrandan və Türkiyədən 80 min nəfərdən çox erməni köçürülüb gətirilib. ***Siz ermənilərin bu ərazilərə gəlmə olduğunu belə dəqiqliklə qeydə alan ikinci mənbə tanıyırsınızmı?*** Əlbəttə, Şopendə də yanlışlıqlar ola bilər, amma bu mənbə ermənіyə qarşı bizim əlimizdə ən kəskin silahdır. ***O ki qaldı bəzi kəndlərin Şopendə yaşayış olmayan kəndlər kimi göstərilməyinə, belə kəndlər bütün mahallarda var idi.*** Bu da təbiidir, çünki ruslar İrəvan xanlığının işğalı üçün 24 il müharibə aparmışdılar - 1803-də Sisianov, 1808-də Qudoviç, 1826-1827-də Yermalov, 1827-nin yazından Paskeviç və xanlıq işğal olunduqdan sonra əhalinin bir hissəsi kəndlərdən qaçqın düşmüş, bir hissəsi də işğalı qəbul etməyib kəndləri tərk etmişdi (1918-1920-ci illər soyqırımı zamanı olduğu kimi). Bunu sübut edən çoxlu faktlar var. Paskeviçin mahal başçılarına yazdığı və kəndlərdən köçürülüb aparılmış müsəlman əhalini geri qaytarmaq xahişi ilə dolu məktubları Bakıda Axundov kitabxanasında M.F.Axundovun şəxsən tərtib etdiyi AKAK-larda (Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında) bu gün də saxlanmaqdadır. Təbii ki, aradan bir müddət keçəndən sonra ə**hali**

təzədən geri qayıtdı və bu kəndlərin bir hissəsi 1830-cu illərin sonlarında təkrar məskunlaşdırıldı (1920-ci illərdə qaçqın əhalinin geri qayıtdığı kimi). Əhalisi geri qayıtmayan kəndlər isə gəlmə ermənilərlə məskunlaşdırıldı. Göyçənin Qaranlıq (Martuni) və Kəvər (Kamo) rayonlarının bir çox kəndləri də elə o zaman ermənilәşdirildi. Şopendə bəzi kəndlərin xaraba kəndlər kimi qeydə alınmağı bu səbəbdəndir və aydındır ki, sonrakı siyahıyaalmalarda artıq bu kəndlərdə ə**hali** vardı. Nə isə.

Güman etmək olardı ki, Əziz Ələkbərlinin bu qədər aydın və gözəl izahından sonra, F.Sabiroğlu və dostları məsələnin məğzini başa düşəcəklər!

Amma heyhat!

Söz qanmayana mətləbi qandırmaq olurmu?

Füzuli Sabiroğlu: Eziz müəllim baxır mübahisə hansı siyahıdan gedir. Söhbət məmurlar tərəfindən tərtib olunmuş "Kameral təsvirlər"dən gedir. Şopen şərti bir ifadədir. Bizdə tarixçilər mənbə kimi "Исторический памятник состояния Армянской-области в эпоху ея присоединени к Российской империи» kitabına müraciət edirlər, kameral siyahılara yox.

Bu başabəla "ideoloqu" heç cür başa sala bilmirəm ki, Şopen həmin kitabı elə özünün rəhbərliyi ilə 1831-ci ildə tərtib edilmiş kameral təsvirlərin əsasında yazıb!

Rəhmərlik Mirzə Cəlil bu cür vəziyyətlər üçün yazırdı ki: "necəsən qanmayım, atan yansın?"

Nazir Ahmedli: Əziz müəllim, ətraflı məlumatınıza görə təşəkkür edirəm. Sözünüzün qüvvətı, 1842 ciilin kameral siyahısında Göyçədə yeni məskunlaşdırılan 10 kənd var. Mədinə, Alçalı, Qızılvənk, Gödəkbulaq, Kərkibaşı, Ağkilsə, İnəkdağı, Sultanəli qışlağı, Hacımuxan və Ağzıbir kəndləri. Sonrakı kameral siyahılarda yəqin ki, yeni kəndlər də rast gələcək. Mən Füzuli

Sabiroğlunun Şopenə qarşı antipatiyasını başa düşmürəm. Füzuli bəy, Siz hansı kənddənsiniz?

Eziz Elekberli: Qüsursuz mənbə yoxdur, bu da bizim taleyimizdir, biz məcburuq ki, o mənbələrdən bizə aid olanları birbəbir əxz edək. Mən yuxarıdakı şərhi boş kəndlərlə bağlı mübahisə üçün yazdım. Şopenin kitabındakı siyahıyaalma və 1831 kameral təsviri eyni şeydir,

Füzuli Sabiroğlu: Bala Məzrə, Ancaq ata tərəfim əslən Dağ Zağalıdandır

Nazir Ahmedli: Hə, o kənd var, ancaq o vaxt adı Kiçık Məzrə olub.

Abbasqulu Najafzade: Füzuli Sabiroğlu, XIX əsrdə iki məşhur Şopen yaşayıb. Biri görkəmli Polşa bəstəkarı Frederik Şopen (1810-1849), digəri isə milliyyətcə fransız olan etnoqraf-tarixçi İvan İvanoviç Şopendir (1798-1870). İ.Şopen Qafqazda və indiki İranda tədqiqatlar aparıb. O, yazır ki, "Azərbaycan türkləri oxumaq və oynamaqda qonşularının müəllimidir". "Qonşu" deyildikdə, bu ərazilərdə, Qafqazda yaşayan qeyri-azərbaycanlılar nəzərdə tutulur. İ.Şopen 1828-1831-ci illərdəki Rus imperiyasının vergi almaqdan ötrü Azərbaycanda əhalinin siyahıya alınması haqda da qiymətli məlumat verib. Yəqin ki, Siz də burada tarixçi Şopeni nəzərdə tututrsunuz.

Murvet Yusifov: İndi 2017-ci ildi. 1831-ci ildən bu yana "Şopen" harda idi.? "Şopen"i Sovet tədqiqatçılarından məhrum edən nə idi? Burda bizim xeyrimizə nəsə varsa qanımıza susayan ermənilər nə yaxşı verib?... Onda Nazir Əhmədli açıq bəyan etsin ki, bu "Şopen"i o yox, dövlət gətirib. Biz də işimizi bilək.3 aydı bizə deyirlər ki, dostlarımız veriblər

Murvet Yusifov: Heydər Əliyev Dədə Ələsgərin 175 illiyi ilə əlaqədar sərəncam imzalayanda o Şopeni niyə dindirmirdiniz?

Nazir Ahmedli: Mən Şöpenin rəqəmlərlə göstərdiyi əhalinin adını tapıb Azərbaycan tarixşünaslığına və onların qohumlarına təqdim etmişəm. Burada hansı qəbahətin olduğunu isə bilmırəm. Elə mənə düşmənçılık edənlərin də babalarını üzə çıxardıb doğum illərini göstərmişəm. Kimsə öz nəsil-nəcabətindən

nəsə yazsa, onlar üçün qızıldan qiymətli məlumatlardır. Əvəzində qazandığım söyüş, təhqir və şər-şamatalar oldu. Nə olar, bu da bir tarixdir.. Vətən və mıllət sağ olsun.

Murvet Yusifov: Əziz bəy, xahiş edirəm sualımı cavablandırasınız))))) yuxarıdakı sualıma aydınlıq gətirin zəhmət olmasa. Mən nə araşdırma nə də tarix ilə məşğul olmamışam. 1996-dan danışıram. Ələsgərin 175 illik yubileyindən. Tarixçi mübahisə yaratmamalıdı. Şopen belə yazıb deyə Göyçə mahalının kəndləri, yer-yurd adları haqqında dəli tərsinə informasiya vermək gələcək tarixçilərə istinad nöqtəsi yaratmaqdı

Nazir Ahmedli: Füzuli bəy, Kiçık Məzrənin əhalisi qarapapaqların borçalı tayfası kimi göstərilib. Dini mənsubiyyət baxımından yazılıb ki şıədirlər, ancaq içərilərində sünnilər də var. 1842 ci ildə 30 ailə qeydə alınıb.

Murvet Yusifov: Siz mənim suallarımı səmimi cavablandırsanız inanın mən Nazirdən də yan keçərdim))) Deməli siz diqqətli olmamısınız. Bilməlisiniz ki, ümummilli məsələdə dost, qohum münasibətləri rol oynamamalıdı Amma 2005 ci ildə sizin bir yazınıza irad bildirmişdim. Mənimlə razılaşdın və məni tarixin bilicisi adlandırdın. İndi mənə izah etməyin mümkün olmadığını söylədin.Amma görürəm ki ötən 12 il ərzində siz elə də dəyişməmisiniz!

Əhsən, "tarixin bilicisi"! Amma "tarixin bilicisi" bu mübahisələrin başladığı 2 ay əvvəlki yorumlarından birində yazmışdı ki, bu məsələləri yaxşı bilmirəm və yenicə öyrənməyə başlamışam.

Nazir Ahmedli: Əgər kəndinizdən nəsə yazmaq fikriniz olsa zəngin material var. İxtisasınızı və peşənizi də bilmək istərdim.

F.Sabiroğlu təkəbbürlü şəkildə sonuncu sualımın üstündən sükutla keçir, yəni demək istəyir ki, "məgər sən bilmirsən ki, mən kiməm?". Mən doğrudan da o vaxt bilmirdim

ki, o "Lider" TV-nin əməkdaşıdır.Amma ixtisasca o da mənim kimi jurnalist deyil.

Füzuli Sabiroğlu: Kəndimizlə bağlı istənilən məlumat mənim üçün maraqlıdı. Və Dağ Zağalı.

Nazir Ahmedli: Zağalı var, Dağ Zağalı yoxdur. Ya başqa adla tanınıb, ya da sonradan məskunlaşdırılıb. 1842-ci ildə kənddə 27 qarapapaq ailəsi yaşayıb. 1846-cı ildə hamısı Qızılxaraba kəndinə köçüb. Bəlkə Dağ Zağalı həmin kənddir? Həmin əhalinin siyahısını araşdırmaqla bilmək olar ki Dağ Zağalı həmin kənddir yoxsa yox.

Füzuli Sabiroğlu: Həmin kənddir.

Çox şükür, Füzuli Sabiroğlu heç olmasa bir məsələdə mənimlə razılaşır....

Qabil Zimistanoglu: Füzuli Sabiroğlu, Dağ Zağalı, bizim kənd, Qızılvəng və bir neçə kəndlər təxminən eyni ərazilərdə yerləşirdi. Şopenin atının ayağı sındığı üçün oralara gedib çıxa bilməyib.

Bu adam əvvəlcə ironiya kimi ortaya atdığı replikaya deyəsən, özü də inanıb və bu dəfə artıq sərsəmləyir...

Nazir Ahmedli: Füzuli bəy, güman edirəm ki, sənədlərin dəqiqliyinə olan bütün şübhələriniz aradan qalxmış olmalıdır. Bütün siyahılar bu yaxınlarda çapdan çıxmış "Göyçə mahalının kameral təsviri. 1831 ci və 1842 ci illər" adlı kitabımda var. Dağ Zağalıya köçün tarixi isə tədqiqatçı üçün çox qiymətli informasiyadır. Güman edirəm ki, siz mənim kitabımdakı məlumatlara istinad edib dəyərli bir kitab yazacaqsınız. Müəllifə isə təşəkkür edib-etməmək, yaxud onun kiçik də olsa əməyinin qiymətləndirilib-qiymətləndirilməməsi hər kəsin öz seçımıdir.

Nazir Ahmedli: Ziya Bünyadovun kitabı belə adlanır "İrəvan əyalətini icmal dəftəri". Bakı 1996. İnternetdə var. Səh.40-42

"Lider tv"-də işləyən F.Sabiroğlu şəxsi əlaqələrindən istifadə edərək indi fəaliyyəti dayandırılmış APA tv-nin əməkdaşı İlham Tumasın vasitəsilə mənə müxalif düşərgənin ağır topları saydıqları 4 nəfəri-N.Göyçəlini, M.Yusifovu, Q.Zimistanoğlunu və X.Ələsgərlini verilişə dəvət etdirmiş, İlham Tumas jurnalist etikasını, tərəfsizliyini pozaraq məni çağırmamışdı. İyulun 21-də baş tutan həmin verilişdə onun iştirakçıları bir qapıya futbol oynamışdılar və ağıllarına gələn sərsəmləmələri söyləmişdilər. Mən həmin vaxt Azərbaycandan kənarda olsam da verilişə baxmışdım. Orada ağlına gələnləri danışmaqla kifayətlənməyən N.Göyçəli belə bir status da paylaşmışdı:

Niftali Goycelinin statusu
28 iyul 2017.

ERMƏNİ YALANLARI 1800-Cİ İLDƏN BU YANA
(xülasə)

1828-ci il İrəvanın Çar Rusiyası tərəfindən işğalı ilə əlaqədar rusların dəstəyilə xaçpərəst erməni millətinin yazarlarının qarşısında bir missiya dayandı: arxeologiya və mədəniyyət abidələrinin ermənileşdirilməsi naminə elmi-tarixi və bədii əsərlər yazmaq. Xaçatur Abovyanın (1805-1848) "Ermənistanın yaraları" romanında Həsən xanın fərraşları tərəfindən Təkun (erməni qızı) adlı bir qız zorla saraya aparılarkən Kanaker kəndindən olan (Kənəkir) Ağasi(erməni) dörd nəfər fərraşları öldürüb qızı azad edir və qaçaq düşür. Rus-İran(Səfəvi) müharibəsinin başlandığını eşidən Ağasi rus ordusuna qoşulub

Yerevanın, yəni erməni şəhərinin (əsl adı İrəvanın) azadlığı uğurunda vuruşmalarda iştirak edir...

Kitabı çapa hazırlayarkən. Ağlıma gəldi ki, N.Göyçəlinin bu statusunda Xaçatur Abovlan üçün yazdığı doğum və ölüm tarixlərini yoxlayım. Əvvəlcə azərbaycanca Vikipediyaya baxdım. Orada Abovyanın 1805-ci ildə yox, 1809-cu ildə doğulduğu yazılmışdı. N.Göyçəlinin bu qədər səhv etməsinə inanmağım gəlmədiyinə görə, rusca Vikipediyaya baxdım. Orada da onun doğum tarixi kimi 1809-cu il göstərilib.

Bu cür hərəkətlərinə görə yadıma "şumlamaq" ifadəsi düşdü, yəni N.Göyçəli tarixi şumlayır. Nə ilə şumlayır? Təbii ki, texnologiyanın indiki vaxtında traktorla! Bu cür "böyük uğurlarına" görə hesab etməliyik ki, N.Göyçəli tarixi adi DT-75 traktoru ilə yox, K-700 traktoru ilə şumlayır!

Və təkcə başqa tarixləri yox, öz tariximizi də "şumlayır". Budur,Niftalı Göyçəli ağına-bozuna baxmadan, tarix haqqında "dahiyanə mülahizələrini" yazır, XIX əsrin I rübündə baş vermiş Rusiya-Qacarlar İranı müharibələrini Rus-İran(Səfəvi) müharibəsi adlandırır...

Və sərsəmləmələrinə davam edir:

"aşxarabar"dilində yazılmış bu roman 1850-ci illərdən erməni kilsə təhsilində dərs vəsaiti kimi tədris edilərək qrammatiq qüruluşu və söz tərkibinin 60% türk "morfem"lərinə əsaslanan müasir erməni dilinin formalaşmasında, erməni tarix anlayışına İrəvanın erməni şəhəri(Yerevan) olduğunu yerləşdirməkdə mühüm rol oynamışdır. Həmin əsər XIX əsrin yarsından başlayaraq fransız, rus, alman və s. dillərə tərcümə edilmişdir, Avropa mətbuatında qədim erməni şəhərinin "Yerevan" olduğu haqqında erməni yazarlar tərəfindən bir sıra məqalələr də dərc edilmişdir. 1960-cı illərdə Ermənistan axeoloqları bu yalanlar əsasında 2700 tarixli "Erebuni" şəhərinin maketini quraşdıraraq dünyaya car etilər ki, ermənilər qədim şəhər dövləti

mədəniyyətinə malik bir xalqdır və s...1988-ci ildə Almaniyada (ABŞ kəşfiyyat planı üzrə) erməni diasporunun təşkilatçılığı ilə Tessa Hofman "Vətən uğurunda yenidən qan axır" adlı qərəzli bir məqalə ilə "Zeit magazin" jurnalında çıxış etdikdən sonra, yəni Artsağ erməni "vətənində" ermənilər türklər tərəfindən qətlə yetirilir... eyni zamanda həmin məqalə rus-erməni mətbuatında da dərc edilirdi...Alman türkoloqu Əhməd Şmidenin S. Əlyarova və B. Vahabzadəyə müraciətindən sonra əldə olunan tarixi həqiqətlər əsasında Əhməd Şmide "Die Zeit" jurnalına müraciət edərək Tessa Hofmanın erməni yalanlarını ifşa etmişdir. Fəqət nə faydası, Zori Balayanın "Oçaq" kitabı da zaman-zaman Alban tarixininin arxeologiya, paleoqrafiya, heraldika, numuzmatika sahələri üzrə ermənilləşdirilmiş mənbələrinə əsaslanaraq dünyaya yayıldı...İndi ABŞ və Avropada yeri gəldikcə, polemikalarda Qarabağı qədim erməni Arsağı kimi tarixi-elmi mənbə olaraq irəli sürürlər...
Bu tarixi erməni yalanlarının davamı üzrə indiki zamanda ABŞ, Ermənistan, Rusiya arxivçilərinin müşavirəsində müzakirə edilərək işğal edilmiş Azərbaycan torpaqlarının tarixini müxtəlif formalarda saxtalaşdırmağa yönələn "plan" hazırlanmışdır. Məlum olduğu kimi, hələ SSRİ dövründən Sovet xəritəşünaslığında, arxiv idarələrində, elm sahələrində, hal-hazırda RF-da çoxsaylı erməni nümayəndələrinin olması hər cürə saxtakarlığa fürsət və şəraitin yaranmasına zəmindir. Belə bir zamanda elmi redaktoru: Millət vəkili, akademik Nizami Cəfərov, rəyçisi Əli Şamilov, müəllifi Nazir Əhmədli olan "Haqq-nahaqq seçilər haqq divanında" kitabının "Erm. Milli Arxivi"nə əsaslanması hansı "həqiqət" dən xəbər verər? Bu "Erməni kameral hərəkatı" canfəşanları 90 illik Azərbaycan EA-sı elmi ekspedisiyalarının, ayrı-ayrı tədqiqatçıların elmi əsərlərini, yubileylər haqqında Milli Öndər H. Əliyevin tarixi sərəncamlarını "Qələti-məşhürlar" adlandırmaqda ya bilərəkdən, ya da onlara ötürülən saxtalaşdırılmış materialların mahiyyətinə varmadan "inqilab" edirlər. Bunların təqdim etdiyi "kameral"da Göyçə mahalında az qala 1828-ci ilin başlanğıcından erməni ə**hali** sayı və digər etnoslar da olmaqla, türk ə**hali**sayını bərabərləşdirirlir.

Bir xeyli də məlum olmayan erməni kənd adlarını da kameralda təqdim edirlər. "kameral" yazıda Aşıq Allahverdinin haqqında tam uyğun gəlməyən mülahizələr yürüdülür...Əsasən Göyçə ustadlarından Aşıq Ələsgərin ömür yaşının azaldılması və şeirlərinə düzəliş, həyatı ilə bağlı məlumatlara şübhə, inkar "erməni kameral hərəkatı" canfəşanlarının məkrlərinin açıq-aşkar təzahürüdür. Aşıq Alının ailə tərkibinə uyğun nə isə "tapıb" deyirlər ki, Aşıq Alının adı "Almədət" olub: çox gülünc və rüsvayçı bir yanaşma! Kitabdakı il dəyişmələri belə bir şübhəyə əsas verir ki, ya erməni ötürmələrində qərəzçilik var, ya da sifariş əsasında ermənilər tərəfindən düzəlişlə məqsədyönlü ötürmədir... Bu "erməni kameral hərəkatı"nın Azərbaycan məkanında əldə etdiyi çap məhsullarının məqsədi belədir: " Qərbi Azərbaycan torpaqlarında tarixən erməni xalqı yaşamış və XIII-XVI əsrlərdə türklər tərəfindən qovulmuşlarsa da, XIX əsrdə tarixi yurdlarına dönmüşlər" və s. Burada qısa xülasə yazdım, internet yazışmalarında çoxsaylı tarixi dəlillər göstərilib, eyni zamanda ustadların şəcərə nümayəndələri məlumatlar verib. Lakin "kameral hərəkatı" canfəşanları düşmən mənbələrini "mötəbər" mənbə kimi irəli sürürlər. Tarix: XIX əsrdə Xaçatur Abovyanın "Ermənistan yaraları", XX əsrdə Tessa Hofmanın "Vətən uğurunda yenidən qan axır", Zori Balayanın "Oçaq", Nazir Əhmədlinin "Haqq-nahaq seçilər haqq divanında" kitabları erməni məkrinə xidmət edən təbliğat vasitələridir...

Yorumlar:

Nazir Ahmedli: Ay Niftalı Göyçəli, sizlərə bu tapşırıqları kim verir axı yorulub usanmadan bu cür cəfəngiyyatlar uydurursan, mən bir yana, Nizami Cəfərovu-türkçülüyün böyük xadimini və yenə də böyük türk oğlu Əli Şamili bu cür yalanlarınla qaralayırsan? Ağsaqqal adamsan, yaşına yaraşmır. Sənin tarixdən zərrə qədər biliyin olsa, bilməliydin ki, Səfəvilər sülaləsinin hakimiyyətinə 1736-cı ildə Nadir son qoyub özünü şah seçdirdi, Əfşarlar dönəmi başladı. Nadirin 1747-ci ildə öldürülməsindən bir müddət sonra da Qacarlar sülaləsi hakimiyyətə gəldi və onları 1923-cü ildə fars Rza şah Pəhləvi

taxtdan saldı. 1979-cu ildə baş verən İran inqilabı da Pəhləvi hakimiyyətinə son qoydu. Ruslarla döyüşən də Səfəvilər deyil, Qacarlar idi. Fətəli şah Qacar da İrəvan Sərdarı Hüseynqulu xan Qacarla əmoğlu idi. Niftalı Göyçəli, belə söhbətlərə girişməzdən əvvəl get elm oxu, adama neçə dəfə deyərlər? Cəfəngiyyatlar uydurmağın səni hörmətdən salır.

Niftali Goyceli:Mən orada mötərizədə yazmışam ay "tarixçi"..."İran" sözü 1936-cı idən sonra işlədilir... Rus-Qacarlar yazaydım gərək? Burada elə bir qəbahət yoxdur...məzmuna etriraz varsa, buyurun

Niftalı Göyçəli qəbahətini başa düşsəydi, heç Niftalı Göyçəli olmazdı! "İran sözü 1936-cı ildən sonra işlədilir".

Bəh, bəh, bərəkallah savadına, ağlına! Bu "ağılın" sahibi də Şopeni, akademik Nizami Cəfərovu, başqa alimləri bəyənmir!

Nazir Ahmedli: Televiziya çıxışında dedin Nazirin ədəbiyyatşünaslıqdan xəbəri yoxdur. Halbuki bir neçə gün ondan qabaq sənin cığalı təcnisini təhlil edəndə yazdın ki, ədəbiyyatşünaslıqda səndən üstün yoxdur. İndi Azərbaycanda deyiləm, qayıdanda bütün böhtanlarınıza elə həmin kanalda cavab veriləcək, lap arxayın ola bilərsən. Belə elmlisinizsə, gedin Ələsgəri təhriflərdən xilas eləyib yeni kitabını nəşr edin. Etməsəniz, onu da mən etməli olacağam.

Niftali Goyceli: Sizinki söz güləşdirməkdir, çox məntiqsiz söhbətlər edirsiz...Akademik bilmirdimi, iki il əvvəl ermənilər Putinin "Sizin haradan gəlməyiniz çar arxivində var... "sözündən sonra "Peterburq Çar Arxivi"ndə yanğın törətdilər...İndi o arxiv nə gündə olar...Düzünü deyin ki, ermənilərin "Erm.Milli Arxivi"nə istina etməklə kitab yazmısız...Düşmən arxivi də bizim üçün nə demək olduğunu gərək anlayasız...

Nazir Ahmedli: Dünən sənə ünvanladığım suala hələ də cavab verməyib söz güləşdirirsən. Nərimanlı kəndinin siyahısın-dakı adlar həqiqidir, yoxsa qondarma? Bu adamlara sahib çıxan

var, yoxsa onlardan imtina edirlər? Sənədləri tutaq ki lap Anqlo-sakson arxivindən gətirmişəm. O adamların sahibi var, yoxsa yox?

Niftali Goyceli: Sovet vaxtında olan-1922-ci ildən başlayan arxivi bacarırsızsa, əldə edin və "kameral"la tutuşdurun...bir nəticə görərsiz..."Moskva Dövlət Arxivi"ndə materiallar var...Biz deyirik ki, Şopen vergi siyahısı yazıb, lakin həmin siyahıya ermənilər yalandan erməni kəndləri, ə**hali** sayı qondarıb. Ermənilər Göyçə ustadlarını çox yaxşı tanıyırlar və ötürülən məlumatlarda da onlarla əlaqədar tarixləri dəyişiblər. Hər kəs öz şəcərəsini bilir, mənim babam Yusif, onun atası Əmirxan, onun atası Əhməd xan olduğunu bildiyim halda başqa bir "kameral" məlumatı necə qəbul edim? ***Qaldı ki, o kameral siyahıya, söz yox ki, uyğun şəcərələr var...***

Nazir Ahmedli: Allaha çox şükür!!! İndi de görüm babasının adını üzə çıxardığım adamlar niyə məni söyür və düşmənçilik edir?? Əgər bu iş elə asandırsa, onlar da hamısı toplaşıb 5 adamın adını çıxartsınlar!!

Niko Göyçəli: Nazir Ahmedli Asiq Elesger dunyaya gelende yeqin yaninda olmusuz ona gore deqiq bilirsiz yoxsa bele deqiq bilmezdiz Elesgere cox toxunursan xeyir tapassan telesme

K-700 verdiyim suala cavab verə bilmədiyinə görə, araya girən başqa bir cahilə tez-tələsik minnətdarlıq edir:

Niftali Goyceli: Niko Yeraz, var olun! Haqqın tərəfində olduğunuza görə təşəkkür edirəm!

Abbas Bağırov: Əgər bizim kəndin göstəriciləri maraqlıdırsa bir neçə tayfanın və yaxud bütün kəndin nəsil şəcərəsini göstərə bilərəm. "Yiyəsi var ?"sualının cavabı elə sualın öz içərisindədir.

Niko Göyçəli: Her şeyin oz vaxti var allah her şeyi gorur

Nazir Ahmedli: Abbas Bağırov, mən əminəm ki o adamların hamısının qohumları var və onları tanıyıblar. Sadəcə olaraq Şeytana uyub düşmənçilik yolunu tutublar.

Abbas Bağırov: Məndə bütün kəndin tayfaları və şəcərələri var. Hətta Nərimanlı ilə bağlı digər yerlərdə olan insanların da. Bunu hər kəs bilir ki, uzun müddətdir camaatın qohumluq əlaqələri gələcək nəslə ötürülsün deyə saxlamışam. Qismət olsa çap etdirəcəm.

Nazir Ahmedli: İnşallah! Əvvəlcədən uğur diləyirəm. Bir neçə göyçəli tədqiqatçı da məndən kitabı alıblar və öz kəndləri barədə kitab yazırlar. Zoddan professor Ələddin müəllim, Satanağacdan Lütfiyar müəllim və s.

Vəlişan Inqilab Oglu Qocayev: Abbas Bağırov salam haci senin ve goycelilerin xtrine yoxsa baleyli terefim tutmuwdu

K-700-ün əlinə bir fürsət də düşüb və məni təhqir edir:

Niftali Goyceli: Vəlişan Qocayev Elə bir zamanə gələcək ki: Mal xəsislərin, qılınc qorxaqların, qələm cahillərin əlində olacaq...İMAM ƏLİ.

Ağılda N.Göyçəlidən fərqlənməyən, göründüyü kimi Azərbaycan dilində 3-cü sinif səviyyəsində də savadı olmayan başqa bir nadan mənə "dərs keçmək" iddiasındadır:

Vəlişan Inqilab Oglu Qocayev: Niftali Goyceli Niftali muellim men orta tehsilli ola ola bu nazir kimilerine goycenin ve 38 para kendinin tarixini deyerem onnara goycenin tarixi haqqinda ders kecerem bunnari mehkemeye verib cezasina catdirmax lazimdi

Murvet Yusifov: Hacı Abbas həkim, əziz qardaşım, həyatımda ilk dəfə yazdığımı təkidinlə sildim.

Abbas Bağırov: Sağ olun var olun. Dünyanın nuru üstünüzdən əskik olmasın. Bizə elm öyrədib dərs deyən müəllimlərimizin öyüd nəsihəti sonsuz xəzinədir ki, onlara əməl etmək nicat qapısının açarıdır.

Niftali Goyceli: Vəlişan Qocayev Qardaş, yuxarı instansiyalara müraciət etmişik, cavab gözləyirik...

Niftalı Göyçəli özünün dediyi kimi Göyçə tarixinin bu orta təhsilli "bilicisi" Vəlişan Qocayevin "bunnarı məhkəməyə verib cəzasına çatdırmaq lazımdı" təklifinə cavab olaraq onu əmin edir: "Vəlişan Qocayev Qardaş, yuxarı instansiyalara müraciət etmişik, cavab gözləyirik..." Yəni artıq donosumuzu DTX-ya və başqa instansiyalara göndərmişik, arxayın ola bilərsən!

Vəlişan Inqilab Oglu Qocayev: buda ermenilerden size kicicik bir tarixi hediyye baxin hec olmasa bir az utanc hissi kecirdesiniz belke

Niftali Goyceli: Vəlişan Qocayev, Bu çox dəyərli məlumatdır...Var ol!

Mətanət Əmirli: Nazir bey yene camaata böhtan ataraq polisemi çekeceksiz?!

Amir Bayram: Hörmətli Nazir Ahmedli Niftali Goycelinin yazısında vətəndaşlıq vardır,erməni saxtakarlıqlarını ifşa etmək vardır.Onu aşağılamaqla sizin yazdıqlarınız həqiqət kimi qəbul edilməyəcəkdir. İrəvanda Rəvanqalanı məhv edən ,İrəvanın təməlində Türk kimliyini məhv edən erməni üçün arxiv sənədlərini saxtalaşdırmaq çətin iş deyildir. Rusiya arxivşünaslığı , tarixşünaslığı erməni saxtakarlıqları ilə doludur. Bizim dolma sayaq indi rusların borşu da qədim erməni mətbəxinə aid edildiyi deyilirsə İrəvan xanlığının tarixini saxtalaşdırmaq onlar üçün çətin iş deyildir.

Niftali Goyceli: Amir bəy, var olun! Haqqın tərəfində olduğunuza görə təşəkkür edirəm!

Amir Bayram: Niftali Goyceli bu ziyalıların erməni teroruna ,erməni işğalına qarşı bir kəlmə yazdıqlarını görmədim ,oxumadım.Ancaq nədəndirsə türklər həmişə onlar tərəfindən qınanır.

Murvet Yusifov: Müəllifin ultimatum xarakterli "Azərbaycana gəlib cavab verəcəm" hədəsinə gülməyim gəldi. Azərbaycana gəlib yazdıqlarına, etdiklərinə cavab verməlisən!

Nərimanlılar deyib çox təkrarlayırsan. İnsanların heysiyyatına toxunub təxribata çəkmə!Nərimanlıda babasını itirən olmayıb! Yığışdır bu cəfəngiyyatlarını!Bu günə qədər sənə etdiyimiz güzəştlərin fərqində ol!

Niftali Goyceli: Nazir Əhmədlidən ara qarışdırmaqdan savayı heç nə gözləmək olmaz, onun qələmi kimi ürəyi də məkrlidir...

Nazir Ahmedli: Səni başa düşürəm, Niftalı Göyçəli, danışmağa elmi arqumentlər olmayanda "neynim, neynim" çağırırsan. Mənim sizlərə həmin kanalda cavab verməyimdən niyə belə qorxursunuz? Oyrənmisiz ki, dəstə ilə üstümə gəlib 1 qapıya futbol oynayasınız. Elmi mübahisə elə aparılmır, cənablar!!

Murvet Yusifov:)))) əslində mən bunu cavab adlandırmıram. Qarayaxma, böhtan, şəratmadan ibarət çıxış və cəhdlər olsa-olsa belə özünüzü təkzib və ifşadan başqa bir şey ola bilməz!

Nazir Ahmedli: Bəzilərinin həqiqətdən oddan qoxxan kimi qoxduqları açıq-aşkar görünür!

Mahmud Memmedov: Sen hansı sifetle bu ziyalıların qabağına çıxırsan Şahquluyev?

Mətanət Əmirli: Mürvet müellim yeqin yene siyahisinda yeni insanlar var polise şikayete qaçmağa. Daha fikirleşmir ki Azerbaycan polis haqqi müdafie edir

Elbrus Caferov: Niftalı müellim, görüşünuze katılıyorum ve Sizlere Ağ Aşığın ve Alı'nın şecereleri adından derin minnettarlığımı sunuyorum.

Akif Emirov: Nazir Ahmedli bir az tarixi oxuyub nese oz aleminizde bile bilersiz.ama bu danilmaz faktdirki Goyce mahali xususilede Nerimanli kendi tekce sizi kimilere yox butun dunyaya ferqli ixtisas ve peselerde oz tohvesini verib.odurki gedib basqa seyle oynamaginiz meslehet gorulur.Bizim Goyce mahalinin ziyalilarinin sizi kimi insanlarin meslehetine ehtiyaci yoxdu

Gunduz Azadoglu*:* Deyerli fikirlerinize göre var olun, Niftali müellim..!

Niftali Goycelinin statusu
30 iyul 2017

NAZİR ƏHMƏDLİ BİR YAZISINDA DEYİR:"AŞIQ ƏLƏSGƏRİ TƏRİFLƏRDƏN TƏMİZLƏMƏSƏNİZ, BUNU MƏN EDƏCƏM"... CAVAB

Mən Nazir Əhmədliyə Aşıq Ələsgərin bir bağlamasını təqdim edirəm. Bu bağlamanın onun kitablarının elmi rəhbərləri-akademik N, Cəfərov, Tarix institutunun direktor müavini ilə birlikdə həm bağlama, həm də cavabına izah verməyə qadir olarlarmı?.. Nazir Əhmədli, Aşıq Ələsgər dünyəvi anlayışdan yuxarıda səmavi anlayışa yüksələn Allah vergisidir. Mənim bir "dodaqdəyməz" cığalı təcnis gəraylımın qarşısında aciz qaldınız, o da ola Ələgər dühasına əl atasız...

"Elm dəryası" N.Göyçəli kitabın "elmi rəhbəri" adlı bir termin "yaradır", "Aşıq Ələsgər dünyəvi anlayışdan yuxarıda səmavi anlayışa yüksələn Allah vergisidir" kimi bir absurd cümlə yazır, özünün bir "dodaqdəyməz cığalı təcnis gəraylısının qarşısında aciz qaldığımızdan" qürrələnir!

Təbii ki, Don Kixota baş qoşmağa dəyməz!

Amma bir şey qaranlıq qalır: ixtisasca filoloq olan akademik N.Cəfərovu dodaqdəyməz" cığalı təcnis gəraylısının qarşısında aciz" saymağını başa düşdük, Tarix İnstitutunun ixtisasca tarixçi direktor müavinini niyə buraya qatır? Tarix İnstitutunun direktor müavinlərindən hansını nəzərdə tutur?

Gəl bu müəmmalardan baş aç, görüm, necə açırsan!

Bizim K-700 təkcə tarixi şumlamaqla kifayətlənməyib, ədəbiyyatımızı da şumlamaqdadır:

Niftalı Göyçəli-Aşıq Ələsgərin "Ay nədən oldu?" bağlamasına cavab

Aşıq Ələsgər:
Yerin, göyün, ərşin, kürşün, insanın
Künhü, bunovrası ay nədən oldu?
Yeri göydən, göyü yerdən kim seçdi?
Hikmətin dəryası ay nədən oldu?

Cavab:
"OL!" dedi, yarandı yeddi qat yer-göy,
Adəmin torpaqdan əsası oldu.
Ulduzlar, Ay, Günəş nizama gəldi,
Məhəbbət aləmin təması oldu.

Aşıq Ələsgər:
Yeddi qat göy nə növ ilə quruldu?
Neçə qəndil, neçə sütün vuruldu?
Sən kimsən, mən kiməm kimdən soruldu?
Ustadlar ustası ay nədən oldu?

Cavab:
Yeddi qat göy dairəvi quruldu,
Kainata nurdan sütün vuruldu.
Cəbrayıldan ilk haqq-hesab soruldu,
Düzəltdi səhvini, xilası oldu.

Aşıq Ələsgər:
Nədən loh yarandı, nədəndi qələm?
Neçə hüruf o məclisdə oldu cəm?
Aləmi-ərvahda qurulan ələm
Ayəsi, şüqqası ay nədən oldu?

Cavab:
Cənnət qapısına nur oldu qələm,
"Bismillah" yazıldı- doqquz hüruf cəm.
Ruhlar aləmində quruldu ələm, ("ələm"- elm)
Yüz on dörd surəsi qaydası oldu.(Qurani-Kərimin 114 Surəsi)

Aşıq Ələsgər:
Mansırın toxmağı, İsrafil suru,
Kəbənin zəmzəmi, Musanın Turu,
Nitqimin guyası, didəmin nuru,
Sərimin sevdası ay nədən oldu?

Cavab:
Mansırın toxmağı, İsrafil suru,
Kəbənin zəmzəmi, Musanın Turu,
Nitqimin guyası, didəmin nuru,
Başımın sevdası təqvası oldu? (“təqva” İslam yolu tutmaq)

Aşıq Ələsgər:
Yazıq Ələsgərəm, intizarım var,
Alimsənsə, məni eylə xəbərdar:
Elmi hardan tapdı cümlə aşıqlar? (Şərq şeriyyətində mənası...)
Şeri-müəmması ay nədən oldu? (“müəmma”-şeirin sirrı...)

Cavab:
Göyçəliyəm, Göyçəm olub dərd, qübar,
Sənin Səhnəbanu intizarın var.
Elmi eşq camından tapdı aşıqlar,
Şeri-müəmması nidası oldu.

Yorumlar:

Azer Goycelı: var olun nifdali muellim
Xaqani Ayxan: Allah ömür versin Niftalı müəllim.Çox sağ olun ki,ruhumuzun nizamını təzələdiniz !
Mətanət Əmirli: Var Olun! Yaşayin! Yaradin! Niftali müellim, siz bizim fexrimizsiz.

M.Əmirlinin bu sözlərini yadda saxlayın. Çox keçmir ki, N.Göyçəlini ən ağır özlərlə aşağılayacaq. Hələlikə, onunla fəxr edir!

Qurbetde Parlayan Qigilcim: Ela...! Yüz yaşayın şair! Halal olsun! Cox gozel acmisız! Tebinize quvvet!

Ali Imranoglu*:* hemiseki kimi sözun durdugu an.eşq olsun Niftali mellim.yasayin.

Cavan Müellim Yunusov: Və birdə təəsüf edirəm ki biz göyçelilər öz tariximizi özümüz yazmalıydıq nazir yox

Babek Cafarov*:* Vallah Aşıq Ələsğərin ruhunu incitməyin

Niftali Goyceli*:* Kim incidir, mən, yoxsa Nazir Əhmədli?

Babek Cafarov*:* Onun cavabını alacaq, o insanın üstadın 150-illik yubileyindən xəbəri yoxdur o vaxt bizim doğmalar Ustadın yubileyindən danışırdılar deyirdilər yubiley şəkilləri (rəsmlər) içərisində erməni rəssamının əsəri var idi tufan qalxdı o əsəri apardı ondan sonra sakitlik yarandı belə bir hadisə baş verib xahiş edirəm təhrif etməyin.

Babək Cəfərovun bu yorumu Mirzə Cəlilin "Usta Zeynal" hekayəsini yada salır. Su gətirən şəyirdi Qurban Usta Zeynalın küpəsini ev sahibi Muğdusi Akopun küpəsi ilə dəyişik saldığına görə, Usta Zeynal bərk hirslənir, onu lənətləyir, üzünə tüpürür və şələ-küləsini yığışdırıb gedir, Muğdusi Akopun da işi yarımçıq qalır. Babək Cəfərovun nağılında isə hər şey yaxşı qurtarır: ustadın yubiley tədbiri pozulmur, çünki külək murdar ermənin çəkdiyi murdar şəkli götürüb aparmışdı və hər şey təmizlənmişdi…

Babek Cafarov*:* Bir də onu deyim Ustadı bizim Çobankərəyə dəvət etmişlər üstad gəlib bir neçə ğün qonaq qalıb və soruşub mən ənamımı nə vaxt gəlim aparım, cavab bu olub ki, el dağdan qayıdanda. Ay mənim əzizlərim yəni o ustad bizim eldən çox razı qayıdıb.

Babek Cafarov Bu söhbəti mənə babam danışıb

Babek Cafarov O rəhmətlik həmişə deyirdi ustadın kasıblığln daşını atmasında Çobankərə elinin çox əməyi olub onun öz rəşadətinə və qeyrətinə görə

Babek Cafarov Ustadın 150 illik yubileyi keçiriləndə bizim sevincimizin həddi hüdudu yox idi

"Ustadın kasıblıq daşını atmasında" həlledici rol oynayan çobankərəlilərə "sağ ol" demək istəyirdim, birdən yadıma düşdü ki, yəqin indi hamısı rəhmətə getmiş olar, ona görə də "Allah onların hamısına rəhmət etsin" deyirəm. Amma təəssüf ki, Babək Cəfərov detallara varmır və Ustada nə verdiklərini yazmır...

Ustad bir qoşmasında

"Aşığın nisyəsi, kürdün ilqarı,

Desələr, inanma, düz olmaz, olmaz",-demişdi. Hərçənd rəhmətlik nəvəsi İ.Ələsgərov da Ustad babasının "səhvini" düzəldib, "Aşığın nisyəsi, namərd ilqarı" eləmişdi. Amma hər iki variantda da "Aşığın nisyəsi olmaz" ifadəsi qalmışdı. Ustad öz dediyinə xilaf çıxıb, Çobankərədə nisyə oxumuşdu? Əlbəttə, yox! Sadəcə olaraq facebook səhifələrində hərə bir nağıl uydurur, lağlağıya döndərirlər...

Belə-belə işlər...

Nazir Ahmedli: Niftalı Göyçəli, əvvəla gözlərini sil və yazdığımı təzədən oxu. Mən "Aşıq Ələsgəri tərifl ərdən" deyil, ***təhriflərdən*** xilas edəcəyimi yazmışam və artıq bu işi başlamışam. İkincisi isə vallahi, billahi sənin şeir adına yazdıqıların primitiv söz yığınıdır. A kişi, "təqva" ilə "nida" nə vaxtdan həmqafiyə olub? Sənin "Pəncəli dastanı" kitabını əldə edib onun təhlilinə, ədəbi-bədii xüsusiyyətlərinin araşdırılmasına başlamışam. Əsər mən fikirləşdiyimdən də zəif imiş. Bu haqda məqalə yazacam.

Niftali Goyceli: Mən də deyə bilərəm ki, sizin şeirdən anlayışınız yoxdur...Bir ellin rəy yazıb ki, kəndiniz və qonşu kəndiniz haqqında yazdığınız kitablara görə sizə "mükafat"

veriblər...indi tapıb sizə göndərərəm...təqva, usta, nida, müəmma... "morfem"dir, həmqafiyə sayılır, ay "savad" yiyəsi...

Senan Hesenov: Nazir bey! oxuyub yazan adam kimi bilirem ki kitab erseye getirmek eziyyetli bir işdir, Siz de sag olun eziyyet cekmisiniz, kitab da bir övlad kimi müellife dogmadır. Feqet bir sual Size..Aşıq Elesgerin"Elesgerem yaşım haqlayıb yüzü",ve "Kafkaz" qezetinde geden meqaleni nece izah ede bilersiniz?

Elbrus Caferov: Niftalı müellim, Ruhunuzdan kopan Dede Elesger aşkınız kutlu olsun.

Nazir Ahmedli: Hörmətli Sənan müəllim! Mən "Kavkaz" qəzetində gedən yazını araşdırdım. Məlum oldu ki, yazı 1847-ci ildə yazılıb və qəzetin 1851-ci il 1-ci və 2-ci saylarında dərc olunub. Həmin yazı Sayat Nova haqqındadır. Tatarlardan bəhs edən həmin epizodda Trapavan gölü yaxınlığında bir aşıq məclisindən söhbət gedir (gecə).Əvvəla, aşığın adının Ələsgər olduğu yazılsa da, onun Göyçəli və ya Ağkilsəli olduğu yazılmayıb, ikincisi isə Əgər Ələsgər doğrudan da 1821-ci ildə doğulsaydı belə, hələ Göyçədə tanınmayan 26 yaşlı Ələsgərin Tiflis yaxınlığında nə işi vardı? Söhbət toydan da getmir ki, deyələr onu toya çağırmışdılar. Adicə çəmən üstündə, gecə vaxtı, 20 nəfərin əhatəsində Ələsgər adlı aşığın çalıb-oxumasından söhbət gedir. Onun Aşıq Ələsgər olduğunu iddia etmək düzgün deyil.

Yaz Yağmuru: Sizin kimin sayilan, secilen ziyalilara soz duellosu etmek hec yaraşmir, Siz ikinizede deyerli insansiniz,

Babek Cafarov: Ustadımızın belə bir deyimi var dünyanin puluna ifa etməyən Ələsgər bir torba arpaya-samana ifa edir ha ğidi dünya

Babək Cəfərovdan maraqlı açıqlamalar davam edir, A.Məhərrəmov isə "məşhur Gəncə polisi" Koroğlu Qaımovdan sonra ikinci adamdır ki, bizimlə "hesablaşmağa" çağırır:

Arif Meherremov: Gelsinler son sohbete, gelmeyen de nakishidir!!! Ashiq Elesker biz Azerbaycan Turklerinin milli deyeridir. Bu yaxinlarda xeber tutdum ki Ashiq Eleskere sher bohtan yagdirmaqla Dede Eleskerin haqq olan mudafiesine qalxanlari uzden iraq adlandirib??!! Ölum-qalim sohbetine gelmeyen uzden iraqdir!!! Əger Dovlet selahiyyetlileri sizin cezanizi vere bilmirse o zaman sizin cezaniz verilende ne bade qarishmasinlar!!!

Babek Cafarov: Ah nə deyək haqsızlara.

Babek Cafarov: Axı dünya fırlanır haqsızlar yolda düşəcəklər

Babək Cəfərovun monoloqları mənə V.Şekpirin yaratdığı ölməz Hamlet obrazını xatırladır!

Esmira Məmmədova: Nazir Əhmədli Aşıq Ələsgərdən nə istəyir görəsən???

Nazir Ahmedli: Esmira xanım, mənim Ustad Ələsgərə ehtiramım sonsuzdur və kitabımda da bunu ifadə eləmişəm. Onun təkcə doğum tarixini deyil, yaradıcılığını da çox ciddi şəkildə təhrif ediblər. Mən dahi Aşıq Ələsgəri özünə qaytarıram.

Murvet Yusifov: Dədə Ələsgərin bədahətən deməsi, sinədəftər olması göz şahidlərinin ifadəsi ilə təsdiq edilib. O dövrdə həm özünün yazı yaza bilməməsi, həm yazı texnologiyasının zəif olması ucbatından Ələsgər yaradıcılığının az hissəsi günümüzə gəlib çatmışdı. Göz şahidlərinin dediklərinə əsasən bir məclisdə bir neçə bədahətən şeer səsləndirməsi olub. Göz şahidləri isə tək Göyçə mahalından yox, ümumi Turan ellərindən olmuşdu. 1980-ci illərdə ermənilərin belə Ələsgər dahiliyi haqqında həyəcanlı danışmasının şahidi olmuşam. N. Əhmədlinin kitabından: " Göyçəlilər Aşıq Ələsgəri mifləşdirib, bir neçə aşığın şeerlərini onun adına yazıblar" Bu, onun Aşıq Ələsgər sevgisidi!

Doğrusu, onun yalançılığının həddi yoxdur! Mən harada belə cümlə yazmışam? Cümləni dırnaq işarəsi ilə verməsinə görə gərək onun kitabın hansı səhifəsində olduğunu da yazaydı, yazmayıb. Çünki, mənim kitabımda elə cümlə yoxdur!

Hətta daha irəli gedərək:"Ələsgəri Füzuli ilə yox, aşıqlarla müqayisə etmək lazımdı"N.Əhmədlidən bu kimi "sevgili" sitatları çox gətirmək olar.Ələsgər Dədəlik statusunu xalqından, millətindən alıb. Füzuli kimi, Nizami kimi. Bunu da ədəbiyyatımızın görkəmli nümayəndələri bənzədib və təsdiqləyiblər. Son olaraq Dədə Ələsgərin dahiliyini araşdırmaq qabiliyyəti olmayan birisinin ona "sevgi" göstərməsi özü və havadarlarından başqa heç kimə lazım deyil!

Cavan Müellim Yunusov: Deyir Aşıq Ələsgəri özün qaytarıram görəsən bu dırnaqarası dahi hardan çıxıb?

Uzeyir Hacizade: Müəllim sõz tapmiram dəməyə bõyük minətdarliğimi bildirirəm var olun sizlər Gõyçəni yaşadirsiz

Maarif Piraliyev: Qardaşım,"təriflərdən" yox, bəlkə "təhriflərdən"?

N.Göyçəli ipə-sapa yatmır-sən nə çalırsan çal, mən "heyvagülü" oynayacağam!

Niftali Goyceli: Qardaşım, onun dedikləri elə mahiyyətcə birdir...Üzdə Aşıq Ələsgərə guya "sevgisi" var, amma yazdıqları məkrlərlə doludur...Bu barədə üç aydır ki, onun kitabından dəlillər göstərib yazırıq...Sən bu söhbətlərə müdaxilə eləmə, orada onun qohumları ilə arada narazılıq yaranar...insanlar hamılıqla həqiqəti qəbul edə bilmirlər...Sən mənim ən yaxın dostum, onun da qohumları ilə yaxın münasibətin olan bir zəkalı, insanpərvər, vətənpərvər ziyalı müəllimsən...Allahın amanında olasan! Mənim FB profilimdə Xan sarayının önündə, arxa sırada altıncı rəhmətlik İLHAM-Kamil müəllimin oğlu...Nazir Əhmədlinin

qohumlarından... Ön sırada da xatırlayırsan, Cahangir müəllim , mən və Aydın müəllim...

Nazir Ahmedli: Bərəkallah məntiqinə, mərifətinə, təxəyyülünə! Lap "Qurd və quzu" əhvalatını yadıma saldın. A kişi, nə təhər yazmışam, sitatı o cür gətir də! Bütün millətin gözü önündə, hər şey ortada ikən saxtakarlıq edirsən və saxtakarlığına da haqq qazandırırsan! Sonra başqalarını ittiham edirsən. Buna ad vermək üçün xeyli fikirləşməliyəm!

Niftali Goyceli: Nazir Ahmedli, Mən sizdə heç bir məntiq görmədim, "ağa qara" deməkdən savayı bir sözünüz yoxdur. El içində belə davranışa "söz güləşdirmək" deyirlər...Hələ öz əxlaqımla sizinlə davranıram, amma ironiyalara, mənə "sən" deyə müraciətlərə və s. aşağılamalara son vermək üçün deyəsən, sizinlə şəxsi yazışmalara son vermək lazım gəlir. Sizdən çox pisliklər görmək olar, söyüş-filan, mən də sizə qoşulsam, el məni qınayar... Sizin necə bir yazar olduğunuzdan artıq dünya azərbaycanlıları xəbərdar oldu...Buyurun, bundan sonra nə qədər itəyirsiz yazın-yaradın...

N.Göyçəlinin "Sizin necə bir yazar olduğunuzdan artıq dünya azərbaycanlıları xəbərdar oldu" cümləsini ironiyasız kompliment sayıram.

M.Yusifov isə məni növbəti dəfə hədələyir. "Sürpriz"in nə olduğunu demir, əgər desəydi, onda sürprz olmazdı ki..

Murvet Yusifov: Deyəsən Nazir etdiklərinin müqabilində sürprizlə üzləşəcək. Buna bizi məcbur edir.

Niftali Goyceli: Bir həqiqət məntiqlə nəzəri cəlb edir ki, ermənilər tərəfindən göndərilən 1842-ci il kameral yazısı Azərbaycan tərəfə 1873-cü il saxtalığı ilə sifarişlə ötürülmüdür. Ailə tərkibində yanılışlıq olsa da, 1842-ci il kameralında Ağkilsə kəndi var, həmin tarixlə Aşıq Ələsgərin yaşının o zaman 21 olması buna məntiqi sübutdur, bu təsadüfü uyğunluq deyil... Aşıq Alının da Nazir Əhmədlinin göstərdiyi kameral yazıda ailə tərkibi tamamən başqa adlardır və orada göstərilən "Alməmməd" Aşıq alı

deyil. Kameral yazıda Göyçə mahalında o dövrdə, sonra da olmayan erməni kənd adlarının siyahıda verilməsi elə Şopenin "erməni missiyası"nın təzahürüdür...SSRİ dövründə Şopen "xristian missioneri" olduğuna görə ciddi salnaməçi kimi qəbul edilməmişdir və 1848-ci ildən sonra İrəvan quberniyasının bir neçə qubernatorlarının zamanında əhalinin siyahıya alınması ciddi qəbul olunmuşdur ...Həmin "kameral siyahı" "Moskva Dovlət Arxivi"ndə saxlanılır, bu hadisələrdən sonra ermənilər o arxivə də əl gəzdirə bilərlər...

N.Göyçəli elə ehtirasla yalanlar uydurur ki, ağzı köpüklənir və Almədəti "Alməmməd" yazır, "Moskva Dövlət Arxivi" adında xəyali bir arxiv uydurur, 1873-cü ilə aid Kameral təsvirin əslində 1842-ci ilə aid olmalı olduğunu "düzüb-qoşur" və s. Bir sözlə, tamamilə ciddiyətini itirmiş vəziyyətə, razborkaya dəvət edən A.Məhərrəmov kimi affekt halına gəlir.

Qurbetde Parlayan Qigilcim:
Yağlı elden yememisen şapalaq,
"Haqq deyene" uzadırsan badalaq,

Tevekgul Cemilli: N.Əhmədli sənin Ələsgər babadan nə isdəyirsən axı onun dırnağı bildiyini sənın başın bisəydi yenə olardı sən bunu bilmirsən.

Mehriban Namazova: Boy🥵🥵

Niko Göyçəli:: Men tam arxeyinem ki Dede Elesgere toxunanlar axirda ozderi o girdirme kitabi oz elerinen yandiracaqlar

Hidayet Agbabali Memmedov: S.Vurğun demiş: "Qızılı udsa da qara torpaqlar, Yenə qiymətini özündə saxlar." Yaxud "Günəşi örtsə də qara buludlar, Yenə günəş adlı bir qüdrəti var". Aşıq Ələsgər sevgisi, Aşıq Ələsgər sevdası Türk dünyasının qəlbinə elə hakim olub ki, onu unutdurmaq mümkün deyil. Fərqi yoxdur Aşıq Ələsgər az yaşadı ya çox yaşadı bu fani dünyada. Amma min illər keçsə də o yaşayacaqdır. Amma Nazir bəyi it də tanımayacaq.

Yaddaşımda "Qaloş" ləqəbi ilə yadımda qalan Hidayət Ağbabalı maraqlı ifadə işlədir: "Nazir bəyi it də tanımayacaq". Amma səni tanıyacaqlar. Hidayət kişi!

Elbrus Caferov: Elesger şiiri dünya poeziyasının nadir incisidir. O bürü ustadlarımız da öyle.Gün gelecek yunesko üstadın yubileyini geçirmekle şeref duyacak.

Qaraguruhun "pənahı", "son ümidi", "ideoloqu", "diplomatı" yenidən üstümə hücuma keçir:

30 iyul 2017
F. Sabiroğlunun statusu

Nazir Əhmədli məlum "kitab"ında Aşıq Ələsgərin təvəllüdünün saxtalaşdırılmasına haqq qazandırmaq üçün, Aşıq Ələsgərin həyatını və yaradıcılığını tədqiq etmiş görkəmli folklorşünasların və ədəbiyyatşünasların dəyərli tədqiqatlarını belə şübhə altına almaqdan da çəkinmir. Kitabın elmi redaktoru akademik Nizami Cəfərovun ön sözdə kinayə ilə "qələti-məşhurlar" adlandırdığı bu alimlərdən biri də tənqidçi-ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Qara Namazovdur. Məşhur rus şairi və yazıçısı Polonski ilə Aşıq Ələsgərin 1849-cu ildə görüşməsi ilə bağlı tarixi faktı "ortadan qaldırmaq" üçün Nazir Əhmədli özünəməxsus bir üsul seçib. O. "kitab"ında yazır: "Professor Q.Namazovun "Ozan-aşıq sənətinin tarixi" (Bakı, 2013) kitabında belə rəvayətlərdən biri də Aşıq Ələsgər haqqındadır və onun müəllifi Qara müəllimin özüdür." Budur "Qafqaz" qəzetinin 1851-ci il 1-ci sayında dərc olunmuş həmin qeydlər. Bu materialla bağlı söhbətimiz hələ davam edəcək...

Abbas Bağırov: Hörmətli Füzuli Sabiroğlu, növbəti dəfə sanballı bir faktı tapıb ortaya qoyduğunuz üçün təşəkkürdən böyük bir ifadə bilsəydim Səxsinizə ünvanlayardım. Vətəndaş olmağınızdan məmnunam. Çox keçməz ki, dəyərli yoldaşların köməkliyi ilə Rus arxivi dedikləri yerdən də orijinal faktlar qoyular ortaya sonra görək nə deyəcəklər?!

Abbas Bağırovun bu cümləsini də yadınızda saxlayın: "Çox keçməz ki, dəyərli yoldaşların köməkliyi ilə Rus arxivi dedikləri yerdən də orijinal faktlar qoyular ortaya sonra görək nə deyəcəklər?!"

Sözümüz, əlbəttə olacaq, hörmətli Abbas Bağırov, Siz "orijinal faktları" ortaya qoymaqda olun!

Amma Füzuli Sabiroğlunun hansı "samballı faktı" ortaya qoyması açığı, mənə məlum olmadı.

Qara müəllimlə Polonskiyə gəlincə, rəhmətlik Qara müəllim nəinki heç bir əsas olmadan Polonskinin gördüyü aşığın Göyçəli Aşıq Ələsgər olduğunu iddia edib, hətta Polonskinin məqaləsinin tarixini belə səhv salıb. Yakov Polonski Sayat Novaya həsr etdiyi həmin məqaləsini Qara müəllimin yazdığı kimi 1849-cu ildə deyil, 1847-ci ildə yazıb. Qaraguruhun "son ümidgahı" F.Sabiroğlu da bunu bilmir.

F.Sabiroğlu "Kavkaz" qəzetinin həmin nömrəsini tapıb göstərməklə "afərin" qazanır və kefi ala buludlardadır. Mən isə təəccüblənirəm: F.Sabiroğlu nəyi kəşf edib axı? Onun nümayiş etdirdiyi şeyi mən də etiraf edirəm ki, Polonski filan qəzetin filan nömrəsində belə yazıb və professor Q.Namazov da onu səhv yozub.

Bunlar nədən məmnun qalıb bir-birlərinə tərif yağdırırlar, səmimi deyirəm, heyrətə gəlirəm!

Füzuli Sabiroğlu: Var olun Abbas müəllim. Ən sanballı faktlar hələ qarşıdadı :)

Abbas Bağırov: Sadəcə sağ olun deyirəm! Dərsini "pünhan" alanın, ələst aləmində "bəli"deyənin ruhu da yol göstərəndir. Sağlığınız üçün həmin müqəddəs Ruh duaçıdır İnşAllah!

Elbrus Caferov: Inşaallah.

Şebnem Bunyadzade: Meqsedleri melumdu. Cezasızlıq bunlara manevr imkanları açır heleki

Əli Məhərrəmov: Çox sağ olun Füzuli müəllim.Sizin bu məsələdə əziyyətiniz çox böyükdür.Bax belə faktlar lazım idi bizlərə.bunları arayıb,axtarıb üzə çıxardığınız üçün sizə təşəkkür edirəm.Allah həmişə yardımçınız olsun.Var olun.

Allahverdi Əliyarlı: Halal olsun size. 👏

Aydin Emiraslanov: Eşq olsun elimizin fəxr ediləsi oğluna.

Huseyn Memmedov: Hörmətli Füzuli Sabiroğlu, sizə öz təşəkkürmü bildirirəm ki, nəyinsə xatirnə tarixmizi, görkəmli şəxslərmizi və onların doğum tarixlərini saxtalaşdirmaq istəyən savadsız manqutlara, Erməni dəyirmanına su tökənlərə çox gözəl dəqiq faktla cavab verirsiniz. Eşq olsun sizin kimi azərbaycan ziyalılarına . Var olun .

Xaqani Ayxan: Eşq olsun Füzuli bəy, hünəriniz təqdirəlayiqdir, haqq işi uğrunda mücadilənizi Allah görür!

Niftali Goyceli: Nazir Əhmədlinin bədnam kitabında 1842-ci il kameralında Ağkilsə kəndinin adı düşməyib və 1873-cü il kameralında adı çəkilən Aşıq Ələsgər şəcərəsi uyğundur...1842-ci il kameralında Aşıq Ələsgərin adını versəydi, o zaman Aşıq Ələsgərin yaşı 21 olur...1842-ci ili 1873-cü ilə dəyişib saxtalaşdırmaqla erməni arxiv missiyanı təmin etmişdir. ***Ehtimal ki, bu işi Azərbaycan tərəfdən olan kimsə sifariş etmişdir*** və bədnam kitab nüəllifi də bu "tutarqa" ilə öz niyyətini bəyan etmişdir. Bundan əlavə, Göyçənin Qaraqoyunlu kimi qədim kəndinin adı kameral siyahıda çəkilmir, əvəzinə məlum olmayan erməni kənd adları çəkilir...Ümumiyyətlə, bədnam kitab Qərbi Azərbaycan tarixində erməni xeyirinə xidmət edən bir təbliğat vasitəsidir..... Akademik, Millət vəkili Nizami Cəfərov bu saxta

tarixlərə "mötəbər mənbə" deyərək nə üçün bəraət verir? Bax bu məsələ çox qaranlıq qalır...

Niftalı Göyçəli deyəsən, ağlını tamam itirib. Yazır ki, "Nazir Əhmədlinin bədnam kitabında 1842-ci il kameralında Ağkilsə kəndinin adı düşməyib". Ya yazıb-oxumağı bilmir, ya da gözləri yaxşı görmür. 1842-ci ilin Kameral siyahısında Ağkilsə kəndi var (Göyçə mahalının Kameral təsviri. 1831-ci və 1842-ci illər. Bakı, 2017,səh.242-245).

Az qala unutmuşdum... Onu bağışlamaq olar, axı onun müasir Don Kixot, ağlını itirmiş "cəngavər" olduğunu yazmışdıq...

Xaqani Ayxan: Bax onu özündən soruşmaq lazımdır!

Niftali Goyceli: Onlar heç bir sörğuya cavab vermirlər... "ağa qara" deyib dururlar..

Xaqani Ayxan: Əlbəttə necə ki, İrəvan xanlığını,Qarabağ xanlığını ermənilər öz torpağları hesab etdikləri kimi..Sapı özümüzdən olan baltalar !..(((((

Niftali Goyceli: Bəli, çox yerində qeyd etmisiz: "Sapı özümüzdən olan baltalar"...

Əli Bəy Azəri: NİZAMİ CƏFƏROV ziddiyyətli adamdır. Boşluğu görüb MEYDAN SULAMAQLA məşğuldur. Dəqiq yadımda deyil, "ƏDƏBİYYAT" qəzetində bir məqaləsi çıxmışdı. SASANİ dövlətinin tərkibində elə bir ERMƏNİ ÇARLIĞI təsvir etmişdi ki, ARRAN (AZƏRBAYCAN) az qala həmin çarlığın bir məmləkəti kimi göstərilirdi. Bunun kökün araşdırmaq gərəkdir. AŞIQ ƏLƏSGƏR hamının fəxridir, doğmasıdır. Onun həyat və yaradıcılığını saxtalaşdırmağa niyə CƏHD göstərsinlər? Onların arxasında durub istiqamətləndirən kimlərdir?

Nazir Ahmedli: Tez sevinirsiniz cənablar!

1.Füzuli Sabiroğlu əvvəlki statusda qəzetdən sitat gətirəndə "bütün Qafqazda məşhur olan Ələsgər" yazmışdı, nədənsə, burada həmin sözləri görmürəm.

2.Burada yazılmayıb ki, bu Ələsgər Göyçəlidir.

3.Yaş məsələsini bir yana qoyaq. Hətta Ələsgərin haqqındakı dastanlarda da onun Gürcüstan tərəflərə səfər etməsi barədə heç nə yoxdur.

4.Əgər Ələsgər doğrudan da 1821-ci ildə doğulsaydı belə, haqqında söhbət gedən hadisə vaxtı 28 yaşı olacaqdı. O yaşda isə Ələsgəri ancaq Göyçədə və olsa-olsa Kəlbəcərdə tanıya bilərdilər.

5.Kitabda yazdığımı bir daha təkrar etmək məcburiyyətindəyəm: nə çoxdur Borçalı mühitində Ələsgər adlı aşıq. Axı borçalılar da Göyçə əhalisi kimi qarapapaq türkləridir. Ələsgər adında aşığa rast gəlincə onun məhz Ağkilsəli Ələsgər olduğunu iddia etmək gülünc və qeyri-ciddi söhbətdir.

6.Və nəhayət, Göyçəli Aşıq Ələsgər Polonskinin yazdığı hadisədən 3 il sonra dünyaya gəlib.

O vaxt mən rəhmətlik Q.Namazova inanmış və "Kavkaz" qəzetinin özünə baxmamışdım. Sonradan baxdım və gördüm ki, yuxarıda yazdığım kimi Polonskinin təsvir etdiyi hadisə 1847-ci ildə baş verib və Aşıq Ələsgər hətta 1821-ci ildə doğulsaydı belə, Polonskinin təsvir etdiyi epizodda 26 yaşında olacaqdı. 26 yaşında aşığın isə bütün Qafqazda məşhur olması, Göyçədən uzaq Trapavan kəndində məclis qurub oxuması xəstə təxəyyülün məhsulundan başqa bir şey deyil!

Göründüyü kimi, mənə cavab vermək iddiasında olanlar da qeyri-ciddi adamlar və elmi fakt əvəzinə dastanvari nağıllar uydurmağa meyilli savadsız kütlədirlər.

Füzuli Sabiroğlunu təbrik edənləri və bundan məmnun olan F.Sabiroğlunun özünü başa düşmək qeyri-mümkündür. Bəyəm mən Polonskinin məqaləsini danmışdım, yoxsa oradakı Ələsgər adlı (hərçənd Polonski ikinci dəfə Əli adlandırır)aşığı inkar edirdim? Mən bir daha deyirəm ki, əgər Göyçəli Aşıq Ələsgər hətta 1821-c ildə doğulsaydı belə, Polonskinin təsvir etdiyi aşıq Aşıq Ələsgər deyil, çünki 26 yaşlı Ələsgərin Trapavan gölünün yaxınlığında nə işi vardı? İkincisi isə Polonski həmin məqaləni Aşıq Ələsgər doğulmamışdan 5 il qabaq yazıb!

Üçüncüsü isə, dünyada nə çox Ələsgər adında aşıq! Hər gördüyün Ələsgəri Aşıq Ələsgər kimi qələmə vermək gülncdür!

Nazir Ahmedli Niftalı Göyçəli, sən heç olmasa tarixdən danışma. Sırağagün sənə sübut etdim ki, tarixdən zərrə qədər biliyin yoxdur. Şeirlərin də çox zəifdir. Öz üzərində çalış.

Niftalı Göyçəli yazmışdı ki, Qacarlar və Əfşarlar hakimiyyətində də dövlətin adı "Səfəvilər dövləti" adlanırdı!

Şahlar Haciyev: Nazir Ahmedli. Belə aşağılayıcı sözlərlə ziyalıları tənqid etməkdənsə, səhv yolda olduğunuzu, məğlubiyyətinizi etiraf edin. Çətin olsa da təhqir etdiyiniz ziyaalılardan üzr istəməlisən.

Nazir Ahmedli: Mən heç kimi təhqir etməmişəm, dəfələrlə təhqir yazanlara axırda mən də yazmalı oluram. Ancaq cavab kimi. Niftalı Göyçəlini də aşağılamıram, dəfələrlə onun şeirlərini təhlil edib nöqsanlarını göstərmişəm ***"ədəbiyyatşanaslığımızda Sizdən üstün yoxdur"*** etirafını yazıb. Mən istəyirəm ki, şeirlərini cilalanmış vəziyyətdə oxucu qabağına çıxartsın.

"Ocaqqulunun qatırı axsaqdır!"

Şahlar Haciyev: Başa düşmürəm nədən Aşıq Ələsgərin yaradıcılığını dastanlarda axtarmalıyıq. Aşıq Ələsgərin hər bir hərəkəti dastanlaşmalıydır ki? Niyə axı Aşıq Ələsgəri Borçalıda axtarmalıyıq? Sizin yazdığınız kitabdakı faktlarla uyğun gəlmədiyimi üçünmü ? Bu fakt deyil. Başqa bir şey fikirləşin.

Nazir Ahmedli: Aşıq Ələsgər Gürcüstanda olmayıb. Yalnız Ələsgər adına görə ptof. Qara Namazov həmin adamın məhz Göyçəli Aşıq Ələsgər olduğunu iddia edir. Professor titulu daşıyan adam belə məsuliyyətsiz mühakimə yürüdə bilməz. Hələ mən doğum tatixinə toxunmuram.

Şahlar Haciyev: Aşıq Ələsgərin Borçalıda olub olmadığını bilmək üçün ancaq o zamanlarda yaşamaq lazımdır. Heç bir təd-

qiqatçi Aşıq Ələsgəri addım-addım "izləyə bilməz". Kişinin 31 ilini "yemisiniz" bəs deyil, indi də olduğn məkanları təhrif etməyin. Necə olur ki, səsi Anadoludan gələn Aşıq Borçalıda "görünmür"

Niftali Goyceli: Nazir Ahmedli, Ay tarixin "ensiklopediyası" İnternetdə hər kəs istədiyi tarixi məlumatı proqramlara müraciət etməklə ala bilər...indi hansı zamandı? "Qacarlar" sulalədir, dövlətin adı Səfəvilər dövləti idi...nəyi isə analiz etmədən əzbərləyib atırsan ortaya... "Romanovlar" sülalə idi, dövlət isə Rusiya çar dövləti adlanırdı....

Nazir Ahmedli: Niftalı Göyçəli, son yazdıqlarını sil. Halına acıyır və başqa şey yazmıram.Sənə izah etdilər.

Don Kixot iki gün əvvəlki "kəşfini" yenə təkrar edir: "Qacarlar" sulalədir, dövlətin adı Səfəvilər dövləti idi...nəyi isə analiz etmədən əzbərləyib atırsan ortaya..." . Bu ağılın sahibi olan adam Şəki rayonunda Şəki şəhər Mədəniyyət Evinin direktoru işlədiyini deyir.. Hansı ağılla??

Bakı Dövlət Universitetini bitirib...

Çapay Qasımov: Nazir Ahmedli Salam. 1842-ci il siyahısında 18 yaşında olan Almənmədi adı niyə yoxdur?

Zaur Aliyev: Mən hazırda Füzuli və Nazir müəllim. Rusiya arxivində, Gürcüstan arxivində çalışanlara sifariş etmişəm Aşıq barədə sənədləri. Gətizdirəcəm Bakıya. Rəsmi müraciət etmişəm

Elbrus Caferov: Teşekkür ederiz.

Niftali Goyceli: Zaur bəy, artıq saxtalaşma ermənilərin nufuzlu olduğu Rusiya arxivlərində də getmişdir...Oradan olan məlumatlar Azərbaycanın xeyirinə gəlməsinə nə ermənilər, nə də burada olan məmur ermənipərəstlər imkan verməzlər... Başımıza gələn bu qədər müsibətlər arxasında Rusiya irticasının durduğu təcəvüzkar erməni millətçilərinin əməlləri deyilmi?..

Murvet Yusifov: Zaur Alıyev, Nizami Cəfərov deyir Azərbaycan arxivlərində də var)

Zaur Aliyev: Yoxdur, axtarmışam

Murvet Yusifov: Həqiqətən axtarırsınızsa Moskvada saxlanan Rusiya Dövlət Arxivində var!

M.Yusifovun bu cümləsini də yadda saxlayın:"Moskvada saxlanan Rusiya Dövlət Arxivində var!"

Gələcəkdə edəcəkləri məşhur bir fırıldağı Rusiya Dövlət Arxivinin adından törədəcəklər.

Ali təhsil diplomu olan bu adam ikinci dəfədir ki, "Moskvada saxlanan Rusiya Dövlət Arxivi" yazır!

Zaur Aliyev: Murvet müəllim bilirəm. Sankt Peterburqdadı əsas arxivlər.

Niftali Goyceli: "Sankt-Peterburq arxivi"erməni nümayəndələrinin əlindədir...Ermitaj da indi onların əlindədir...

"N.Göyçəli Z.Əliyevə hər vəchlə mane olmaq istəyir ki, Ruiyadakı arxivlərə müraciət etməsin. Tutuquşu kimi əzbərləyib ki, Rusiya arxivlərindəki btün sənədlər ermənilərin xeyrinə saxtalaşdırılıb.

Yalançının boyunu yerə soxum" deməkdən başqa ayrı bir söz tapa bilmirəm!

Zaur Aliyev: Niftali Goyceli mənim öz adamlarım var. Pulnan hər şey almaq olur

Şahlar Haciyev: Elə bir fakt olsaydı çoxdan "gözümüzə dürtmüşdülər"

Xatai Aleskerli: Cox gülünc veziyyetle qarşılaşmışıq bele bir el meseli var "bir deli quyuya daş atır yüz aqıllı çıxara bilmir" menim ezizlerim arxivden sened gelsede gelmesede men ümumiyyetle bele bir söz söhbeti ancaq texribat adlandırıram. Men yene deyirem öz babalarımı arxivden gelen hansısa bir parca kaqıza göre tanıyası deyilem .

Xətai ələsgərli qorxur ki, Zaur Əliyev doğrudan da arxivdən sənəd gətirər və həmin sənədlər də mənim istinad etdiyim sənədlər kimi Aşıq Ələsgərin 1821-ci ildə deyil, 1852-ci ildə doğulduğunu göstərər. Ona görə də Zaur Əliyevin təklifini süngü ilə qarşılayır: "menim ezizlerim arxivden sened gelsede gelmesede men ümumiyyetle bele bir söz söhbeti ancaq texribat adlandırıram .Men yene deyirem öz babalarımı arxivden gelen hansısa bir parca kaqıza göre tanıyası deyilem".

Göründüyü kimi, Xətai Ələsgərli Aşıq Ələsgərin 1821-ci il kimi yazılan doğum tarixinin doğru olmadığını artıq başa düşüb.

Bunu deyəsən, çoxları, o cümlədən professor Elbrus Cəfərov da başa düşüb və Xətaini dəstəkləyir.

Qurbetde Parlayan Qigilcim: Halal olsun! Ehsen sene!!!

Araks Haci: Füzulı, müellim, teshekkurler!!! Bu cur tek-zibolunmaz faktlarla hemisheki kimi orjinal ve deqiq cavab verdiniz veten xainlerine! Eshq olsun!!!

Elbrus Caferov: Teşekkür ederiz. Devamı da kolay gelsin.

Emin Piri: Nizami Cəfərov bəs necə redaktor olub?

Şahlar Haciyev: Burcə faktı yadınızdan çıxarmayın ki, Konstitnsiyada dəyişiklik edib TÜRK dilini Azərbaycan dili ilə əvəz edilməsində Nizami Cəfərovun çox böyük rolu olmuşdur. Bu günaha görə o gərək ömürlük ağzına söz almasın.

Nazir Ahmedli: Nizami Cəfərovun o məsələdə rolu olmayıb. Canfəşanlıq edənlər Qərbi Azərbaycanlı Afat Qurbanov və başqaları idi. N.Cəfərov həmişə türkçü olub.

Şahlar Haciyev: O böyüklükdə insanın, türkçünün susmasından böyük günahmı olar. O zamanlarda cəmiyyətin bir az məlumatsız olduğu zaman idi. Hamının gözü Alimlərin ağzında iddi. Onlar isə susurdu... Mən onu bağışlaya bilmirəm

Xatai Aleskerli: N.Ceferov türkçülüyünü sübut eledi sizin kimi

Nazir Ahmedli: Heç şübhəniz olmasın mənim türkçülüyümə. 1992-ci ildə türk dilinin dövlət dili kimi qəbul edilməsində mənim böyük xidmətim olub.

Bu, mənim Xətai Ələsgərliyə verdiyim yeganə cavabdır..

Murvet Yusifov: Heç o proseslərdə yaxından iştirak edənlər sinəsinə belə döymür eyy)))

Nazir Ahmedli: Mən ən yaxından iştirak etmişəm. Türk dilinin əleyhinə səs verənlərin siyahısını "Millət" qəzetində çap eləyib yazdım ki, bunlar türkün düşmənləridir. Qınağa məruz qaldılar, növbəti iclasda lehinə səs verdilər və qanun qəbul edildi.

Deyəsən, Mürvət dediklərimin həqiqət olduğunu başa düşdü və etiraz etmədi:

Murvet Yusifov: "Millət" qəzetində işlədiyin üçün səni dost qəbul etmişdim.Son fəaliyyətinlə bütün fəaliyyətini qaraladın.

Nazir Ahmedli: Bütün ömrüm boyu mənim bir sifətim və bir mövqeyim olub, heç vaxt dəyişməyib. Həmişə xalqıma və Vətənimə xidmət etmişəm və ölənəcən də edəcəyəm.

Murvet Yusifov: xidmətin budu!!

Qafar Chaxmaqli: Nə baş verdiyini anlamıram. Nazir Əhmədli ciddi adamdır. Onun deyilən kitabını oxumaq istərdim. Nazir, oxuyursansa kitabı istəyirəm.

Murvet Yusifov: Qafar müəllim, ciddi məsələdi. "Ciddi Nazir" mövcud tariximizi "Şopenin kameral təsviri" ilə yalanlama cəhdi göstərir.....

Nazir Ahmedli: Salam, Qafar bəy! Mən arxiv sənədləri əsasında 6 məşhur aşığımızın doğum tarixini dəqiqləşdirmişəm. Bu cür hay-küy kampaniyası aparırlar. Əgər Bakıdasansa, mən 10 gündən sonra Bakıya qayıdacam və görüşüb kitabı verərəm. İnternetdə oxumağa həvəsin olsa, ***turuz.com*** saytında oxuya bilərsən.

Xatai Aleskerli: Meqsedden uzaqlaşmayın esas insanin milletine onun tarixine yaxşı emelleriyle xidmetidir N .Ehmedli siz ise emelinizle ermeniye işlemenizi acıq aşfar gösterdiniz

Murvet Yusifov: Xətai bəy, qoy arada nəfəsini dərsin də.

Xatai Aleskerli: Yeqin boqazı quruyub

Qabil Zimistanoglu: Təşəkkür sizlərə Füzuli Sabiroğlu, bu yolda, Haqq işində uğurlar arzu edirəm! Kim nə özündən uydurur uydursun, əvvəl-axır haqq özü yerini tapacaq. Ustad demişkən: "Bu dərd qaldı Ələsgərin canında, Haqq-nahaqq seçilər Haqq divanında, Gövhər zibil oldu nadan yanında, Dünya mənə tara döndü, nə döndü"

Qafar Chaxmaqli: Nazir bəy, mən Bakıdayam Gələndə telefon aç görüşək. belə bir durum milli işimizə zərər vurur. Telefonum həminkidir

Qabil Zimistanoglu: Qafar bəy, hələ qarşıda Ağbaba tarixinin saxtalaşdırlcağı ilə bağlı kitabın da işıq üzü görəcəyi gözlənilir, Ermənistan Milli Arxivinə istinad olunaraq. Qərbi Azərvaycanın 16 mahalı da daxil olmaqla

Murvet Yusifov: Qafar müəllim, bir ziyalı kimi məsələyə Nazirsiz müdaxilə edə bilməzsinizmi???

Qafar Chaxmaqli: Mürvət bəy, mən kitabı görmədən heç nə deyə bilmərəm. Nazir bəyi kifaəyət qədər yaxşı tanıdığımdan onunla görüşmək, kitabı alıb oxumaq istəyirəm. Əvvəlcədən mühakimə yürütmək yersiz olardı, həm də yanlışlığa yol verə bilərəm.

Murvet Yusifov: Milli məsələdə dostluq, qardaşlıq arxa planda olmalıdı.Atalarımızın, babalarımızın rus-erməni qəsbkarlarından canı, qanı bahasına qoruyub, bizə ötürdükləri tariximizi, milli dəyərlərimizi kiminsə bazara çevirməsinə yol verə bilmərik!!

Qafar Chaxmaqli: Mən də eyni fikirdəyəm.

Nazir Ahmedli: Qafar bəy, sən bəzilərinin boş və pafoslu sözlərinə fikir vermə. İnşallah görüşəndə hər şeyi təfsilatı ilə izah edəcəm.

Şebnem Bunyadzade: Senin yalan ve iftiraların baş tutmaz artkq

Ramil Zeynalov: Nazir m eger siz bir arxiv araşdırmaçısı kimi fəaliyyətinizi davam etdirmək isteyirsizse onda Goyce mahali haqqında yazdiginiz kitabı sehf olaraq deyerlendirin ve növbəti ugurunuz davamı gelecek.. Eks halda bu etdiyiniz yalnişliq sizin karyeranizda irellemenize ciddi mane ola biler. Heyatdi da hamı sehf ede biler etiraf etmeyin özude böyüklük hesab olunur.

Yaşını, sənətini, təhsilini bilmədiyim Ramil Zeynalov mənə "müdrik" məsləhət verir:"eger siz bir arxiv araşdırmaçısı kimi fəaliyyətinizi davam etdirmək isteyirsizse onda Goyce mahali haqqında yazdiginiz kitabı sehf olaraq deyerlendirin"!

Xətai Ələsgərli isə Mürvətdən, Eldar İsmayıldan və başqa qaraguruhçulardan fərqli olaraq, məni təhqir etdiklərini etiraf edir:"bu öhdeliyi heyata keçirmek ücün bütün tehqirlere dözürler".

Xatai Aleskerli: Cenab Ramil m onu bilinki N Ehmedli de N.Ceferov da bizden de yaxşı bilir çöyceni de Dede Elesgerin yaşını da sadece bu bedbextler küllü miqdaqda ermeni mafiyasından pul alıblar. Odur ki bu öhdeliyi heyata keçirmek ücün bütün tehqirlere dözürler.

"bu bedbextler küllü miqdaqda ermeni mafiyasından pul alıblar".

Budur X.Ələsgərlinin şüur və ağıl səviyyəsi! Doğma ana dilində fikrini ifadə edə bilmir. Demək istəyir ki, erməni mafiyasından külli miqdarda pul alıblar.

Bu adamın ali təhsil diplomu var!

Ramil Zeynalov: Hormetli Xetai muellim, gör bu millet ne güne qalibki pulla alınmış tarixçilərin yazdıqları yalniş tarixdən tarix oxuyacaqlar....Azərbaycan vetandaşi olaraq bu tarixdən xebersiz körpələre yazığım gelir.. Bu yeniyetmələr ındi yazılmış tarixi oxusunlar, yoxsa gelecekde indiki çirkin emellerle elde

olunmuş menfetler hesabına yazılmış saxta tarix yazarlarının sehflerinin qurbanı olsunlar???

Goyce Mahali Dere Kendi-Basarkeçər: ermeni dramini onlar gan gysacaglar ekrem eltisli kimi

Kerim Dunyamali: Füzuli Sabiroğlu, sizə təşəkkürümü bildirirəm .

31 iyul 2017.
F. Sabiroğlunun səhifəsində söhbət

Zaur Əliyev adlı bir nəfər Aşıq Ələsgərin vəsf elədiyi Güləndamın şəklini paylaşıb.

Füzuli Sabiroğlu: Var ol Zaur Aliyev! Nazir Əhmədlinin məntiqiylə götürsək Aşıq Ələsgər bu şeiri özündən 18 yaş böyük qadına yazıb :) Həqiqətdə isə Güləndam ondan 13 yaş kiçik olub. Əlbəttə ki, indi deyəcəklər ki, bu qadının da yaşı saxtalaşdırılıb.

Zaur Aliyev:Siz sağ olun müəllim, motivasiya verdiz mənə

Nazir Ahmedli: Füzuli Sabiroğlu, şifahi söz keçməz. Güləndamın 1834-cü ildə doğulduğunu sənədlə sübut etməyə mükəlləfsiniz. Öz şəcərəmdən sizə bir misal gətirim. Bütün qohumlarım, yaşlı adamlar babamın babası Fətəlinin 156 il yaşadığını söyləyir və israr edirdilər. Mən sənədlərlə sübut etdim ki cəmi 87 il yaşayıb. Bəzi qohumlar yenə də etiraz edirlər. Qoy etsinlər. Mən xatirələrə deyil, sənədlərə inanıram. Tarix sənədlərlə yazılır, xatirələrlə yox. Əminəm ki, siz də bu fikirdəsiniz, sadəcə olaraq qaranlıq otaqda olmayan qara pişiyi axtarırsınız. Qaraguruhçuların sonuncu ümid yeri, pənahı olmaq düşünmürəm ki, sizə hansısa məmnunluq gətirsin.

Zaur Aliyev: Müəllim gəlin Sizə Matendarandan sənəd verim ki, Qarabağ erməni torpağıdır. İnanacaqsız?

Qabil Zimistanoglu: Hər şey yalandır, təkcə ermənilərin ötürdüyü məlumatlar düzdür

Nazir Ahmedli: Füzuli Sabiroğlu, mənim 2-ci Ağkilsə kəndi ilə bağlı suallarımı da hələ cavablandırmamısınız. Yazmışdınız ki 1831-ci ildə orada yaşayış olub və 1840 cı ildən başlayaraq həmin əhali başqa yerlərə köçüb. Suallarım belədir:

1. Həmin kənddə 1831 ci ildə yaşayış olduğunu təsdiq edən mənbə.
2. Kənd əhalisinin siyahısı.
3. Onların köçməsi və hara köçməsini göstərən mənbə.
4. Köçənlərin siyahısı.

Mən bu suallara verəcəyiniz cavabları maraqla və səbrlə gözləyirəm. Sayğılarımla.

Vəlişan Qocayev: Nazir Əhmədli iki defe sual verdim cavab vermedin sen hele menim suallarima cavab ver qalsin fizuli muellim

Murvet Yusifov: Fəxrlə öz babanın da yaşını kiçiltməyini qeyd edirsən. Çox güman ki, onu da "Şopenin kameral təsviri"nə əsasən etmisən. Babasını "Şopen"lə təyin etmək özü cahillikdi. Güləndam isə 140 il yox, 150 ildən çox yaşayıb!

Allah, sən özün bu adama ağıl ver! Güləndamın yaşını 150-yə çatdırdı! Onun "hacı" dostu isə Mürvətin rəqəminin üstünə 3 də gəlir:

Haci Nusret Kamilov: Sehv etmiremse 153 il yaşayıb

Zaur Aliyev:Nazir müəllim, Güləndam xanım dünyanın ən uzun ömürlülər siyahısındadır. Bunu sovet zamanı Rusiya elmlər akademiyası qeyd edib. Ora da ciddi mənbədir Bu yaxınlarda Füzuli müəllim Ağkilsə kəndinin əhalinin siyahıyalınması sənədlərin də üzə çıxaracam.

Nazir Ahmedli: İnşallah. Gözləyirəm.

Dostunu xilas etmək istəyən Z.Əliyev də sözünü tutmadı. Hələ də söz verdiyi sənədləri təqdim etməyib!

Şebnem Bunyadzade: Yaxın günlerde biz de çıxaracağıq.

Sabutay Hacıyevin edəcəyi saxtakarlıqdan deyəsən, bunun da xəbəri var.

Ramil Zeynalov: Hormetli Göyce caamati, bu nece vaxtda Nazir m bu qeder Goyce ziyalılarının fikirlərine hormetsizlik edib Göyce haqqında kitab zad yazırsa.. Sade bir məntiqlə düşünün bu insan qərəzli mövqedədir ve bu yazı bu araşdirma sifarişlidi.!! Her şeyi qoyaq bir kənara arxiv zad bu insan bu hereketiyle ölke başçısının qərarına hormetle yanaşmır... Maraqlı odur ki, bu haqsızlığa ve özbaşınalığa hele de resmi dovlet qurumları terefinden reaksiya verilmir..

Nazir Ahmedli: Füzuli Sabiroğlunun yazdığından belə çıxır ki, Güləndam qarı 1974-cü ildə vəfat edib(140 yaşında). O birilər "düzəliş" edib onu 150-153 yaşa çatdırdılar. Onun ölüm tarixini qüvvədə saxlasaq, belə çıxır ki, onu da Aşıq Ələsgər kimi 1821-ci ildə "dünyaya gətirdilər". Ay maşallah! Bir az da artırsanız Ağ Aşığa çatdıracaqsınız!!

Murvet Yusifov: Şopendə onu da tap!!

Nazir Ahmedli: Füzuli müəlİim, təqdim etdiyiniz şəkillər etiraf edirəm ki, çox qiymətlidir, yeni kitabımda onlardan istifadə edəcəyəm və bəri başdan Sizə təşəkkür edirəm.

Füzuli Sabiroğlu: Əlbəttə. Ermənilərin verdiyi materiallarındansa bunlar daha yaxşıdı 🙂

Nazir Ahmedli: Mən o sözləri istehsasız yazmışam. Aşıq Ələsgərdən kitab yazan adam Güləndamın, Aşıq Alıdan yazan onun nəvələrinin şəklini kitaba versə çox yaxşı olar. Onları isə axtarıb tapmaq həm vaxt aparan işdir, həm də çətindir. Amma Siz niyə mənim hər sözümü düşməncəsinə qarşılayırsınız, onu anlamaqda çətinlik çəkirəm.

Murvet Yusifov: Ağlını bizə vermə humanist olaq, kəlbəcərlilər səni yarandığına peşman edərlər!!

Nazir Ahmedli: Get indidən onları qızışdır, kitab çıxana qədər emosiyaları coşsun! Vaxt itirmə! Kəlbəcərin də liderliyinə can at.

Murvet Yusifov: Mənim fəaliyyətim şəffafdı. Mənə minnətdar olmalısan ki, bəzi variantlar sona saxlanılıb.

Vəlişan Qocayev: Füzuli Sabiroğlu salam fizuli muellim uzr istiyirem done done uzr istiyirem ozumu ele itirdim ki hec bilmedim neyniyirem

Füzuli Sabiroğlu: Belə şeylərə gərək yoxdu qadası. Mən silirəm o şərhini icazənlə

Vəlişan Qocayev: Füzuli Sabiroğlu siz bilen bu işderin axiri nece olacax fizuli muellim bes yuxarda oturannar ne deyir bunun yazdigina

Deyəsən, Vəlişan ağlayır, abisi F.Sabiroğlu ona təsəlli verir:

Füzuli Sabiroğlu: Vəlişan səbrli ol qadası. Hər şey öz yerini tutacaq

Ramil Zeynalov: Murvet muellim bu kitabı harda çap etdirmək olar birinde Men yazacam day. Görun bu dünyanın tarixini ne hala salıram sizde baxın)) onsuzda kim ne geldi tarix yazır şopen Men birde şopenin qohumları))(()))

Niko Yeraz: Yuxarlardan cavab gelmese ozum bir kitab yazacam adida veten xainleri

Qabil Zimistanoglu: Mən bilirəm ki, sən daha yaxşısını yaza bilərsən, Ramil bəy)))

Ramil Zeynalov: Yaxşi pis onsuzda bunun ferqine varan yoxduki. Ağlıma geleni yazim birazda görüm sponsor zad birde bir ingilis arxivi tapimki ora hamı inansinda))))

Nazir Ahmedli: Bəlkə bir savadlı, dərəcəli tarixçi alim qabağa çıxarasınız, onunla söhbət edək? Hər halda o məni daha tez başa düşər.

31 iyul 2017.

Füzuli Sabiroğlunun statusu

Füzuli Sabiroğlu: Bunu bilmək vacibdir!!!

Vüqar müəllimə minnətdarlığımı bildirirəm. Məhz bu məsələdə peşəkar sözünə ehtiyac var idi. "Arxiv sənədi o halda rəsmi mənbə hesab olunur ki, o tarixdə mövcud olan predmetlər, informasiyalar, hadisələr haqqında dolğun və dürüst məlumat çatdırır. Bundan sonra salnaməçilər sənədli ədəbiyyatın nəşrində ona mötəbər "hüquqi sənəd" kimi istinad edirlər. Yaradıcılıqda arxiv sənədinin surətindən o halda istifadə etmək olar ki, sənədin əslinin daimi saxlanıldığı arxiv təşkilatı sənədin surətini rəsmi qeydiyyatdan keçirir və onu öz möhürü ilə təsdiq edir. "Yəni əsli ilə düzdür" sözləri arxiv sənədində, arxiv arayışda mütləq öz əksini tapmalıdır".

P.S. Dünyada belə bir praktika var. Sənədli ədəbiyyatın nəşrinə nəşriyyat o halda icazə verir ki, istifadə olunmuş arxiv sənədləri, arxiv fotoları haqqında arxiv təşkilatından rəsmi arayış alınmış olsun. Bu qaydaya Avropa ölkələrində, ABŞ -da mütləq riayət edirlər.

Göründüyü kimi, əli yerdən-göydən üzülən "baş ideoloq", qaraguruhun "son ümid yeri" hədəfə çata bilməyəcəyini başa düşüb və indi də suda boğulanın etdiyini edir-saman çöpündən yapışır!

Amma bizim "diplomat" bir şeyi nəzərdən qaçırır-həmin sənədləri cidd-cəhdlə kənara itələmək cəhdi onların doğruluğunu qəbul etmək deməkdir! İndiyə qədər deyirdilər ermənilər o sənədləri saxtalaşdırıb N.Əhmədliyə ötürüblər. Son təşəbbüsləri isə o deməkdir ki, sənədlərdə yazılanlar doğrudur,

amma onların hüquqi statusu yoxdur. Elə X.Ələsgərli və N.Göyçəlinin də Z.Əliyevin Peterburqdan sənədlərin surətini gətirmək təşəbbüsünə etiraz etmələri bunun göstəricisidir.

Yorumlar:

Nazir Ahmedli: Yaxşı təsəllidir😊

Murvet Yusifov:))) Bunlar yuxarıda göstərilən maneələrin hamısını aşıblar.

Vəlişan Qocayev: salam elli indi men buna iki kelme duzdu soz yazimmi ya yox

Murvet Yusifov: Yox Vəlişan!

Qabil Zimistanoglu: Bunun hüquqi tərəfi budur. Neçə vaxtdır mənim dediyim də budur. Hüquqi sənəd olmayan bir məsələnin müzakirəsi də mənasızdır, saman çöpü kimi bir şeydir!!!

Qabil Zimistanoğlu elə danışır ki, biz hansısa mülkiyyət üstündə məhkəmədəyik və mənim təqdim etdiyim mülkiyyət kağızının, qara camaatın dediyi kimi "kupçanın" hüquqi əsası yoxdur.

Niftalı Göyçəli gurultulu bəyanat verir:

Niftali Goyceli: Nazir Əhmədli erməni yalanlarını ən "mötəbər mənbə" hesab edir və hələ indiyə qədər bir məntiqli cavabı da yoxdur... Yaxşı "dil pəhləvanı" -sözgüləşdirmə qabiliyyəti var... Ümumiyyətlə, ***Nazir Əhmədlini hamılıqla blok edib yazışmaları dayandırmaq lazımdır ki, öz yazdığını özü və bir-neçə dostları oxuyub qürrələnsinlər...***Onun bədnam yazdıqlarının ömrü beşikdə ikən boğuldu, xalq qəbul etməyən bir kitab az zamanda "maklatura"ya çevrildi...

Bu da yaxşı "təsəllidir", N.Göyçəli, sən elə hesab elə! "Haqq-nahaqq seçilər Haqq divanında" kitabım qısa müddətdə 2 dəfə- birinci dəfə "Elm və təhsil", ikinci dəfə isə "Nurlar"

nəşriyyatında çap edildi və qurtardı.Çox güman ki, bir müddətdən sonra 3-cü nəşrinə ehtiyac yaranacaq.

Murvet Yusifov: Onsuz da bir azdan o özü özünü blok edəcək Niftalı müəllim

Füzuli Sabiroğlu: Nazir Ahmedli bu təsəlli deyil. Nə olduğunu inşallah hamımız görəcəyik. :)

Abbasqulu Najafzade: Firudin Şuşinski də xalqımızı aşağılayan bir kitab yazmışdı. Həmin kitab məhkəmənin qərarı ilə yandırıldı. Deyilənə görə sonradan bu kitab İrəvanda ermənicə nəşr olunub. Nazir Əhmədlinin yazdıqlarının uydurma olduğu (əgər həqiqətən belədirsə) məhkəmədə ona sübut olunmalı və cəza tədbirləri görülməlidir. Burada nəinki göyçəlilərin, ümumilikdə xalqımızın heysiyyatına toxunulur.

Nazir Ahmedli: Abbasqulu Nəcəfzadə, üçüncü dəfədir əleyhimə yazdıqlarını oxuyuram və köhnə salam-kalamı nəzərə alaraq başqa cür cavab yazmıram. Mənim nə yazdığımı əvvəlcə oxu, sonra hökm ver. Kitab internetdə var.

Abbasqulu Najafzade: Nazir bəy, Sizin opponentlərinizə ünvanladığınız bəzi suallar cavabsız qaldığından və Siz tərəfdən də cavablandırılmalı olduğunuza suallar hələləlik həllini tapmadığından bu qənaətə gəlmişəm. Ona görə mötərizədə "(əgər həqiqətən belədirsə)" fikrimi bildirmişəm. Əslində mənim üçün sizin kimi millətçi bir alimin şübhə doğuracağı məqamlara toxunması gözlənilməz oldu. Ancaq həqiətin qalib gəlməsini istəyirəm. Onu da ortalığa qoyulan faktlar göstərəcək. Bilirsiniz ki, mənbə yerliyataqlı göstərilmədikdə belə suallar yaranır.

Murvet Yusifov: Abbasqulu Nəcəfzadə, onun hansı sualına cavab verməmişik?Əslində o, sual vermək yox, sualları cavablandırmaq durumundadı!Müzakirələr başlayandan bu günə qədər qoyulan haqlı sualları cavablandırmaq əvəzinə insanları qaralamaq, şər atmaq, söyməklə məşğuldu!

Nazir Ahmedli: Abbasqulu bəy, siz diskussiyalara təxminən 1 aya yaxın olar qoşulmusunuz, mən 4 aya yaxındır onların bütün suallarına ətraflı və dəfələrlə cavab vermişəm, sadəcə olaraq

“çevir tatı, vur tatı” alındığına görə görürəm ki, daha onlara izahat da lazım deyil.

Murvet Yusifov: 1831-ci ildə Göyçə mahalında kəşf etdiyin erməni kəndlərindən və erməni ailələrindən yaz!

Abbasqulu Najafzade: Bilirsiniz ki, mən Xızıdanam. Həmin siyahı bizim rayonda da tutulub, rəqəmlərin bir çoxu səhv yazılıb. Amma bir fakt doğrudur ki, babalarımızın milliyyəti türk kimi qeyd olunur. "Kameral siyahı" əstəfurullah Quran ayəsi deyil ki, nöqsansız olsun. M.M.Nəvvab “Vüzuhül-Ərqam” əsərində həkim Ərəstunun 70 yaşında bərbət çalmağı öyrənməsindən söz açır. Bir çox alimlər də Nəvvaba istinadən əsərlərində yanlış olaraq bu məsləyə toxunurlar. Halbuki, Ərəstun cəmi 62 il ömür sürüb. Yəni, aşıqşünasları apropasiya olunmuş əsərlərində Aşıq Ələsgərin 1821-ci il doğumlu olduğu faktlar əsasında sübuta yetirilirsə, buna nə ad vermək olar?

Nazir Ahmedli: Sizinlə razıyam ki, kameral siyahı Quran ayəsi deyil, səhv ola bilər. Amma daha bu qədər də yox . Olsun 1 il, 3 il. Məsələ burasındadır ki, Rusiya qanunlarına görə qadınlardan və 15 yaşdan aşağı oğlan uşağından vergi almırdılar. Uşaq 15 yaşına çatanda indiki pulla 120 manat ***başpulu*** deyilən vergi alırdılar. Ona görə də dövlət məmuru uşağın yaşını kiçiltməyə yox, böyütməyə meyilli ola bilərdi. Həm də uşağın yaşını atadan soruşub yazırdılar. Ələsgər ilk dəfə 7 yaşında siyahlya düşüb-1859 cu ildə. Tutaq ki atası vergidən yayınmaq üçün 38 yaşlı kişini 7 yaşında yazdırırdı.Siyahını yazan dövlət məmuru gic idi ki, elə yazsın? İş onunla da qurtarmır. 1873-cü ilin siyahısında da 21 yaşında göstərilib.

Murvet Yusifov: 1879-cu ildə Çarın fərmanı ilə keçirilən siyahıyaalmada Ələsgər Alməmməd oğlu 58 yaş göstərilib!

O vaxt M.Yusifovun Sabutay Hacıyevlə ortaya atdıqları bu söhbəti qeyri-ciddi hesab etmiş və bu barədə onlara bildirmişdim. Bu adamlar o qədər savadsızdırlar ki, birinci Ümumrusiya siyahıyaalmasının 1879-cu ildə deyil, 1897-ci ildə keçirildiyini də bilmir və bunu internet vasitəsilə dəqiqləşdirməyi ağıllarına

gətirməyəcək qədər kütbeyindirlər. Heç olmasa, Ələsgəri 1821-ci ildə "dünyaya gətirmək" üçün həmin siyahıyaalma zamanı onun 76 yaşında olduğunu uydurmalı idilər.

Üstündən xeyli keçəndən sonra 2018-ci ilin 4 fevralında M.Yusifov Q.Zimistanoğlu ilə qurğu qurub həmin sərsəm ideyalarına bir daha qayıdıb ictimaiyyəti çaşdırmağa çalışdılar. Amma rəzil oldular...

Imdad Kazim: Mürvət Murvet Yusifov müəllim mən Toxlucadanam Nazirin "kəşv" etdiyi kəndlərdən biri də guya bizim kəndin yaxınlığında olan komasor kəndidir Belə bir kənd olsa idi mən onu kəndimizdəki yaşlı adamlardan eşidirdim Kəndin tarixini bilənlər çox idi bizim kənd də Bu saxtakarlıqda başqa bir şey deyil

İmdad Kazım "xaç atası" E.İsmayılın "tezisini" təkrar edir: "Komaser" adlı kənd olmayıb. Məsələ burasındadır ki, Göyçə mahalının 1831-ci ilə aid Kameral təsvirində həmin kənd boş və xaraba kəndlərin siyahısında göstərilib. İndiki göyçəlilərin o adda kəndi tanımamaları onu göstərir ki, həmin kənd elə xaraba olaraq qalıb və məskunlaşmayıb, yaxud da 1831-ci ildən sonra türklər tərəfindən məskunlaşdırılıb və ona başqa ad qoyublar. Məsələn, 1831-1842-ci illər arasında Göyçədə 10 yeni kənd məskunlaşdırılıb, onlardan 9-nu türklər, 1-ni isə ermənilər məskunlaşdırmışdı. Amma bu nadanlara ha de! Söz təsir etmir ki, etmir!

Nazir Ahmedli: Mürvət Yusifov, o cür sənəd yoxdur, bir nəfər onu özündən uydurdu, o da keçmədi.

Murvet Yusifov: Sən sənəd dediklərinin hamısı uydurmadı! Biz arqumentlərsiz danışmırıq. İnternet vasitəsilə sənə ötürülən yazı toplumu sənəd ola bilməz!!!

Niko Yeraz: Nazir Ahmedli ucun bizim senedler hamsi uydurmadi bir ermeniynen rusun senedinen basqa. Men her şeyi allaha tapşiriram allah her şeyi gorur axirina baxariq bularin sebr edin her şey yaxşi olacaq

Füzuli Sabiroğlu: Nazir Ahmedli siz dediyiniz vergi sistemi, yəni adambaşına vergi 1862-63-cü illərdən tətbiq olunmağa başladı. Həmin dövrə qədər isə vergi "tüstü sayı"na görə yığılırdı. Ona görə də "kameral"ı tərtib edənlər evdə adam sayına, onların yaşına heç bir əhəmiyyət vermirdilər. Yalnız 1886-cı ildən adambaşına görə siyahılar tərtib olunmağa başladı.

Bu da "ideoloqun" "yeni kəşfi"!

Murvet Yusifov: Nazir və himayədarları elə danışır ki, elə bil qanun verici orqandılar. "Qəbul edilmir", "qəbul etmirik" və s. Siz kimsiniz ki, xalqın folklorunu, tarixini xalqsız dəyişirsiniz. Bunu biz qəbul etmirik!Zəhmət çəkin düz yolda olmadığınızı etiraf edin, işiniz yüngülləşsin!

Nazir Ahmedli: Füzuli Sabiroğlu, elə deyil. Tüstüyə görə alınan vergi ***"evpulu"*** adlanlrdı və hər evdən 2 gümüş rubl alınırdı. ***"Başpulu"*** deyilən vergi isə adambaşına 1 rubl 20 qəpik idi və hər ikisi də işğaldan sonra alınırdı. Ona görə də 1842-ci ilin kameral siyahısında məlumat verən şəxslərdən və kəndxudadan iltizaam alıblar ki, kənddə heç kimi gizlətmədik. Əgər kimisə gizlətsəydilər, kəndxuda 100 rubl cərimə olunur və ona falaqqa cəzası verirdilər. Müqayisə üçün deyim ki, 100 rubl 50 qoyunun qiyməti idi. 1886-cı ildə tərtib olunan kameral siyahı sonuncu oldu, ondan sonra kameral siyahı tərtib olunmadı. Həmin kameral siyahı həm də ***"Əyal dəftəri",*** yəni "ailə dəftəri" adlanırdı.

Abbasqulu Najafzade: Nazir bəy, rəqəm səhfi ola bilər. Yenə öz sahəm üzrə bir məqama toxunmaq istəyirəm. Böyük tarzən Mirzə Fərəc (XIX əsr) muğam cədvəllərində yanlış olaraq "Üç Mahur", "Üç Həzin" adlı şöbələri təqdim edir. Bir sıra başqa alimlərin də əsərlərində bu adlar hallanır. Bir İddiaçının elmi rəhbəri rəhmətlik ***Ramiz Zöhrabov*** idi. Ona sual verdim ki, rəqəmlərlə (3, 5 və s.) heç bir muğam şöbəsi yoxdur. O da dedi ki, elmi rəhbərim də belə yazıb. Sonra bəlli oldu ki, Mirzə Fərəc "Övc" deyib, yazıya alan "üç" eşidib. Akademik Vasim Məmmədəliyev isə bildirdi ki, əski əlifba ilə bir nöqtə olmasa övci üç kimi də

oxumaq olar. Yəni bildirmək istəyirəm ki, belə məsələlər şübhə yaratmasın deyə dərindən araşdırılmalıdır.

Nazir Ahmedli: Abbasqulu bəy, təşəkkür edirəm. Gətirdiyiniz misallar yerindədir. Dediyimiz kimi, kameral təsvirlər də Quran ayəsi deyil, müəyyuən yanlışlıqların olması mümkündür. Amma orada təkcə Aşıq Ələsgərin yaşı deyil, atasının, qardaşlarının, əmisinin və əmisi oğlanlarının da yaşı göstırilib və hamısı eyni zamanda o qədər kiçildilə bilməz. Məsələn, 1859-cu ildə Ələsgər 7 yaşında yazılanda, atası Alməmməd 35, əmisi Allahverdi 45 yaşında göstərilib. Əmisi oğlanları da münasib rəqəmlərlə göstərilib. Eləcə də Ələsgər 1873-cü ildə 21 yaşında göstərilib və o biri qohumlarının hamısında da yaş artımı 14 ildir. Hətta əmisi Allahverdi və onun uşaqları da 1852-ci ilin kameral siyahısında da müvafiq rəqəmlə göstətilib. Təkcə onlar da deyil, həmin tarixçilər üçün bütün kənd camaatının da siyahısını vermişəm. Hamıda hər şey qaydasındadır. Sizcə düşünə bilərikmi, məmur bütün kənd camaatını düzgün yazıb, circə Alməmməd və Allahverdi qardaşlarının BÜTÜN AİLƏ ÜZVLƏRİNİ BÜTÜN SİYAHILARDA səhv yazıb? Həm də 1852 ci ili ayrı məmur, 1859-u ayrı məmur, 1873-ü də ayrı məmur yazıb. Bu məmurların hamısı rusdur. Düşünə bilərikmi, hamısı bu 2 qardaşın və ailə üzvlətinin yaşını qəsdən kiçildiblər? Həm də axı niyə??? Onların və ya başqasının yaşını kiçiltmək kimin nəyinə lazım idi? Bunun hansı əhəmiyyəti, xeyri-ziyanı var idi Rusiya dövləti üçün? Onlar əhaliyə ancaq vergi ödəyiciləri kimi, gəlir mənbəyi kimi baxırdılar, vəssalam!

Abbasqulu Najafzade: Nazir Ahmedli, bu barədə düşünməyə dəyər. Onda belə çıxır ki, Heydər Əliyev 1971-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyini dövlət səviyyəsində qeyd etdikdə yanlışlığa yol verib?

Nazir Ahmedli: Abbasqulu bəy, bu barədə heç bir mülahizəm yoxdur. Mən dövlət işlərinə şərh vermirəm, mənimki yalnız tədqiqatdır, qalan işlər mənlik deyil.

Murvet Yusifov: Abbasqulu bəy, bunun üçün "Şopen"dən başqa heç nə yoxdu!

Abbasqulu Najafzade: İstəsəniz də, istəməsəniz də nəinki dövlət səviyyəsində qeyd olunan yubileylərə, hətta qeyd etdiyim kimi bu gün bir çox professorların, hətta akademiklərin yazdığı elmi əsərlərinə kölgə salmış olursunuz. Mənim fikrimcə, ən yaxşı halda dediklərıniz ehtimal kimi təqdim olunmalıydı ki, bunun da məsuliyyətini daha çox kitabın elmi redaktoru daşıyır. Mənim namizədlik dissertasiya işimdə bir tarixçi akademik çalğı alətlərindən yazarkən böyük təhrifə yol vermişdi (məsələn 2+2=5 yazmışdı). Mən də münasibət bildirmişdim ki, bu problem dərinləşməsin. Mənə ilkin müzakirədə dedilər o böyük alimdir, bu məsələyə toxunma. Mən də bildirdim ki, hər kəs ona istinad edir, yanlışlıq aləmi bürüyür. Sonra elmi rəhbərim işə qarışdı, dedi ki, heç nəyi çıxartma, düz yazmısan. Yanlışlığa yol verən musiqiçi deyil, tarixçidir, onda belə səhv ola bilər. Sənin isə bu səhvin üstündən keçməyə ixtiyarın yoxdur. İndi siz də kimyaçı olduğunuzdan belə qüsurlar (əgər belə ciddi səh varsa) bağışlanılandır. Ona rəy verən ixtisas üzrə mütəxəsslər böyük məsuliyyət daşıyırlar.

Murvet Yusifov: Bunların "Şopen"in üzərində əsməsini təsadüf hesab etməyin."Şopen"ə görə onlarla dəyərli tədqiqatçıların əməyini, hətta hər bir məsələnin xırda detallarına müdaxilə edən görkəmli dövlət başçısı Heydər Əliyevin sərəncamlarını yalanlamaq tapşırığını haradan aldıqları araşdırılmalıdı!

Nazir Ahmedli: Bax, Abbasqulu bəy, özünüz təsdiq edirsiniz ki, hələ müdafiə etməzdən qabaq, dissertasiya işinizdə(!) pəl vuracağından çəkinməyərək, akademikin səhvini üzə çıxartmısınız, yəni prinsipiaılıq göstərmisiniz. Elmi rəhbəriniz də Sizin kimi.İndi mən həmin işi görəndə məni qınamağa necə diliniz gəlir? Mən də indiyə qədər ustadlarımızın yaşını, doğum tarixini düz yazmayan ədəbiyyatçıların, folklorşünasların səhvini düzəldirəm. Kitabın elmi tedaktoru ak. N. Cəfərov da sizin elmi rəhbəriniz kimi haqqın yanında durub. Məsələ bu qədər bəsitdir.

Murvet Yusifov: Bu səhvi etməkdən əlavə 3 aydı insanları təhqir etməklə məşğuldu.

Füzuli Sabiroğlu: Nazir Ahmedli siz haradan bildiniz ki, bütün Ağkilsə camaatının hamısının təvəllüdü düzgün yazılıb? Qapa-qapı düşüb soruşmusunuz? :) Nağıl danışırsınız.

F.Sabiroğlu A.Nəcəfzadə ilə dialoqumda heç nə tapa bilməyib artıq cüvəllağılığa keçir.

Murvet Yusifov: Folklor İnstitutunun direktoru Muxtar İmanov hansısa sayta müsahibəsində deyir: Müəllif dediyinə görə Dədə Ələsgərin ailəsi ilə yaxın münasibətləri var).Dədə Ələsgərin bütöv şəcərəsi bu gün səbrsizliklə prosesin sonunu gözləyir. Nazir düşünür ki, yalanı yeridəcək)

5 avqust 2017.

F. Sabiroğlunun səhifəsi

Füzuli Sabiroğlu: Belə çıxır ki, Nazir Əhmədli öz yazdığı kitabı oxumayıb.

Nazir Ahmedli: Əgər hesab edirsiniz ki, heç o kitabı da mən yazmamışam, daha nə istəyirsinuz məndən?

Mahmud Memmedov: En yaxşı variant deyim. Şikayet verin ki Mürvet Yusifov yazıb.

Füzuli Sabiroğlu: Siz niyə bu suala cavab vermək istəmirsiniz?

Murvet Yusifov)))))Əziz dostlar, bunlar elə bilir ki, camaat bunlara borcludu. Nizami Cəfərovun "iki yüz nəfər olmurlar, min nəfər olsunlar. Lap mitinq etsinlər" fikrini oxumusunuz.Bunun şər şamatalarının dəfələrlə şahidi olmusunuz.indi biz tələb edirik: ermənistan mənbəsinə istinadən yazilmiş, böhtan və iftiralardan ibarət kitabiar yiğişdirilaraq yandirilsin!bu kitabin nəşrində, ərsəyə gəlməsində iştirak edənlərin hər biri məsuliyyətə cəlb olunsun

Polad Poladov: Nizami Ceferov bu yaxinlarda televizyada deyir Azerbaycanda bir xarici dil tedris olunur.Bu adam dilci olsa da rus dilinu deyesen ana dili hesab edir

Polad Poladov: Görəsən niyə hər kəs öz peşəsi ilə məşğul olmur.

Polad Poladov: Tarix — mənbələr üzrə insanın meydana gəlməsi və inkişafını, müxtəlif xalqların ən qədim zamanlardan bizim dövrümüzədək necə yaşamaları, onların həyatlarında hansı hadisələrin baş verməsi, insan cəmiyyətlərinin həyatı necə və niyə dəyişib indi mövcud olduğu hala düşməsini öyrənən elmdir.

Pah! Sağ ol, hörmətli Polad Poladov! Bütün bu dava-dalaşda çatışmayan şey tarix elminə verdiyin tərif idi! O boşluğu da sən doldurdun!

Göründüyü kimi, fb iştirakçıları onun yorumlarından sonra heç nə yazmayıblar. Yəqin hesab ediblər ki, P.Poladov hər şeyi "yerinə qoydu".

Füzuli Sabiroğlunun statusu
6 avqust 2017

Nazir Əhmədlinin dəqiqliyinə şübhə etmədiyi "Kameral təsvirlər" necə hazırlanırdı... Burada söhbət İrəvan quberniyasından gedir :)

F.Sabiroğlunun hücumları davam edir. İndi də rus dilində bir material tapıb yerləşdirib. Həmin yazıda kameral siyahıları tərtib edərkən qarşıya çıxan çətinliklərdən, vergidən yayınmaq üçün bəzi ailələrin bütövlükdə, bəzilərində isə ailə üzvlərinin bəzilərinin siyahıdan kənarda qalmasından söz gedirdi. Və F.Sabiroğlu özü sübut etmiş olurdu ki, əgər kimsə siyahıdan kənarda qalıbsa, yaxud da yaşı kiçik göstərilibsə, burada siyahını tərtib edən çar məmuru deyil, əhalinin özü maraqlı tərəf olub.

Elbrus Caferov: Kameral tesvirin hata faizinin en azı yüzde 50 olduğunu memurlar itiraf edir.Hatta yüzde yüz gelet olduğu kayd olunur.Ben Kerkibaş 1842 tesviri çok dikkatle inceledim bunun böyle olduğunun farkına varmıştım.

Bu başabəla texnika elmləri dotorunun yazısına baxın! Xəta faizinin 50 olması o deməkdir ki, kənd sakinlərinin tam yarısı siyahıyaalmadan kənar qalıb! Ürəyi bununla da soyumayıb, xəta faizinin 100 olduğunu da iddia edir! Bu isə o deməkdir ki, kənd sakinlərindən 1 nəfərin də adı yazılmayıb! Bu ağılla onu İstanbul Texniki Universitetinə nə cür professor vəzifəsinə qəbul ediblər, lap məəttəl qalınası işdir!

Elbrus Caferov: Kızilvenk'li Alı'nın Şişkayada, Sulduzdan Kerkibaşa gelmiş ve orada babalarımın mehlesinde meskunlaşmiş yüzde yüz saf kanlı oğuz türkü Ağ Aşıgın Keyti'de peyda oldurulması, Elesgerin yaşının 32 il azaldılması, cayların mecrasının tersine akıttırılması, Gökçenin 75 sene boş kalması, Alının Almedet oldurulması palavrası. Gökçelilerin terekeme karapapak oldurulması, vs bu gebilden olan ağ yalan, böyük oranlı hatalardır, gelettir, cefeng sonuclardır.

Texnika elmləri doktoru olan bu adam 1852-dən 1821-i çıxanda 32 alıb və Ələsgərin yaşını 32 il kiçiltdiyimi yazır! Elə Göyçənin boş qaldığı illərin sayını da 1814-dən 1735-i çıxanda 79 əvəzinə 75 alıb. Bu o boyda İstanbul Universitetində necə dərs deyir? Dərs dediyi tələbələrin, E.Cəfərovun təbirincə desək, öyrəncilərin halına acımamız gərəkdir!

Elbrus Caferov: Bir mübarekden bir kaç soruya cevab istedim.10 günden sonra 2.cevab geldi.Dendi ki Allahverdinin oğlu Almemmed kişidir.Talıb kişi babasının ismini doğru bilirmiş. Şopen gelet yazıb.

Elbrus Cəfərov, soru sorduğun "mübarək"in adını niyə məxfi sirr kimi saxlayırsan? "Mübarək"in biri də sən ol! Allahverdinin oğlu Almәmməd kişidirsə, bəs Allahverdinin doğma oğlanları Kərim, Haxverdi və Hüseyn onun nəyidir? Bəs Allahverdinin öz nəvələri Mehdi, Yolçu və Qərib necə olsunlar? Həmin "mübarək"dən onu niyə sormadın? O "mübarək"dən niyə sormadın ki, bəs Allahverdi ilə Almәmmədin atası Haxverdi necə olacaq? O mübarək"dən niyə sormadın ki, Almәmməd kişidən cəmi 10 yaş böyük olan Allahverdi necə onun atası ola bilər? Əgər sən o "mübarəkdən" sora bilmədinsə, onu bizə tanıt, biz soruşaq!

Elbrus Caferov: Füzuli beye teşekkür ederiz.

Füzuli Sabiroğlunun statusu
9 Ağustos,s 22:36

Nazir Əhmədlinin Ermənistan Milli Arxivindəki dostlarından əldə etdiyi sənədlər əsasında "Nurlar" nəşriyyatında çap etdirdiyi "Göyçə mahalının kameral təsvirləri" kitabına ötəri də olsa nəzər yetirə bildim. Təkcə bu iki kəndin timsalında təqdim olunan "mötəbər" sənədlərdən belə aydın olur ki, Türk əhalinin əksəriyyəti Göyçə gölü vadisində 1831-ci ildən sonra, yəni ermənilərdən bir neçə il sonra məskunlaşmağa başlayıblar.Həmin vaxta qədər isə burada əsasən "Milli" və "Buruki" adlı kürd tayfaları yaşayıblar. Neçə aydır özünü görməməzliyə vuranlar və yaxud milli maraqları şəxsi münasibətlərə qurban verənlər, indi anladınızmı təhlükənin mənbəyini...

F.Sabiroğlu da get-gedə Niftalı Göyçəliyə oxşamağa başlayır. Həm kitabımın, həm də onu çap edən nəşriyyatın adını təhrif edir. Və bu "ağılın" yiyəsi mənimlə guya elmi mübahisə aparır, məni sıxışdırmağa, çaşdırmağa çalışır... Mən də bunu ciddi adam sayıb "Göyçə mahalının Kameral təsviri. 1831-ci və

1842-ci illər", ("Elm və təhsil", Bakı, 2017) kitabımı ona göndərmişdim ki, babalarını tapsın...

Səhv etdiyimi buradan etiraf edirəm.

Əmin oldum ki, F.Sabiroğluna həqiqət lazım deyilmiş, onu qaza gətirib ortaya atanların etimadını doğrultmalı, ümid işartılarını alovlandırmaq imiş...

Bu adam necə də vicdan əzabı duymadan bu cür yalan uydura bilir! Mən Şopenə istinad edərək kitablarımda da, elə dava-dalaş çıxartdıqları bu sosial şəbəkədə də yüz dəfələrlə yazmışam ki, qarapapaq türkləri Göyçə mahalına 1814-cü ildə köçürülüblər, millilər və qaraçorlular isə qarapapqlardan sonra Gərnibasar mahalından buraya köçüblər, amma onların köçdüyü tarix bəlli deyil. Saya gəldikdə isə, 1831-ci ildə Göyçədə 577 qaarapapaq, 227 milli ailəsi qeydə alınsa da, qarapapaqların sayı daha çox olub, çünki onlar müharibə zamanı döyüşə 1.000 nəfər atlı döyüşçü çıxartmağa mükəlləf idilər. Sənədlər də göstərdi ki, 1827-ci ildə 800 qarapapaq ailəsi başçıları Nağı xanla İrana qayıdıb.

Millilərin Göyçə mahalına gəlişini general Paskeviçin Rusiya Xarici İşlər naziri qraf Nesselroda məktubundan öyrənirik. 1826-1827-ci illərdə ərazidə hərbi əməliyyatlar başlayanda onlar nisbətən uzaqda yerləşən Göyçə mahalına gedib müharibənin ona çatmasını gözləmişlər. Hər şey sakitləşəndən sonra isə, 1834-1835-ci illərdə millilər və qeyri-qarapapaqların əksəriyyəti Göyçəni tərk edib Vedibasar mahalında məskunlaşıblar və bütün bunlar arxiv sənədlərində təsbit olunub. Göyçə mahalında cəmi 16 milli ailəsi qalıb ki, onlar da yeni məskunlaşdırılan Qızılvənk kəndinə köçüblər. Aşıq Alının qayınatası Niftalı Şahəli oğlu da həmin 16 ailədən biridir.

1831-ci ilin kameral siyahısında Daşkənd kəndində yaşayanlardan 13 ailə kərkibaş türk tayfasına mənsub idi. Sonradan həmin ailələr Daşkənddən ayrılaraq yaşayış olmayan başqa bir kənddə yerləşiblər və kəndin adını da Kərkibaş qoyublar. 1831-ci ildə Aşağı Keyti kəndində qeydə alınmış, milli tayfasından olan Ağ Aşıq Allahverdi Vedibasara köçən millilərdən ayrılıb və Kərkibaş kəndinə köçüb.

Məsələni bu qədər təmiz və sadə Azərbaycan dilində bu qaraguruhçu dəstəyə 100 dəfələrlə başa salmağa çalışsam da ya başa düşmürlər, ya da düşmək istəmirlər.

Burada adamın yadına böyük Mirzə Cəlil düşür: "Necəsən qanmayım, atan yansın?"

Yorumlar:

Noyzali Ali: Təhlükənin mənbəyi elə təhlükəli adamlardı. O adamlar ki, şəxsi maraqlarını milli maraqlardan üstün tutub. Belələrinin ilk hədəfi deputat olmaqdı. Bilirəm ki, aynaya baxanda vicdanını görən deputatlarımız da var, amma yenə də məndən deməsi. İnanmırsız?

Fazil Ellazov: N. Ehmedli daha çox mübahisəni bir çox sənətkarın, xüsusən Aşiq Elesgerin yaşı ilə bağlı məsələlərə çəkir. Əslində bu yaş məsələsi çox da prinsipial məsələ deyil. Fərqi nədir, 105 olmasın, 74 olsun. Ancaq digər əks arqumentlərdən qaçır

Məələn, hansı əks-arqumentlərdən "qaçmışam?"

Elbrus Caferov: Ermeniler milli tayfasını 1831'den Ağ Aşık ve Kerkibaşa, Zağalı, Yarpızlı, və s. yerlere bulaştırarak kameral düzüb koşublar. Ben o "kitabı" okuyan gibi fark ettim. Açiğı çıldırdım. Lanet olsun keşiş Nersese ve onun sahtakar Şopenine. Benim çocukluğum bak o kadim Kerkibaş'da, Zağalı'da, Yarpızlı'da, Kızılvenk'de, Taşpilleken dağında Gökçe'de geçti.Biz

oraları karış karış hiss ediyoruz.Nabeled gelmeler nasıl tarih yaza bilerdiler? Mekirli siyasetten başka. Fizuli Beye teşekkür ederiz. Füzuli Bey.

Qafar Askerzade: Fizuli əhsən sənə. bir film hazirla sənədlərlə ifşa elə onu

Füzuli Sabiroğlu: :) Dəyər səncə?

Qafar Askerzade: dəyər.bəlkə başqalarina dərs olar

Şahlar Haciyev: Çox dəyərli təklifdir

Kerim Dunyamali: Alqışlayıram, sizi.

10 avqust 2017.

Füzuli Sabiroğlu

:) Bu da Erməni Milli Arxivindən "əldə edilmiş" sənədlərlə bağlı həftələrdir davam edən mübahisələrimizin nəticəsi. Nazir Əhmədli hesab edir ki, mən sən demə hansısa qaragüruhçu dəstənin lideriyəmmiş və eyni zamanda Azərbaycanda milli ayrı-seçkilik salmaqla məşğulammış. Eybi yox... Qoy olsun...Ancaq bu adam nəhayət ki, əsl məqsədini açdı. Sən demə 1988-ci ildə Göyçədən deportasiya olunan türk əhali buranın yerli əhalisi deyilmiş. Göyçədə yaşayan türklər də ermənilər kimi buraya gəlmədilər. Özü də nə az, nə çox cəmi cümlətani 16 il fərqlə. Daha dəqiqi 1814-cü ildə :) Nə isə... bu "qiymətli" fikirləri özünüz oxuyun...

Füzuli Sabiroğlu mənim 10 avqust tarixli statusumu skrinşot edib (yəni şəklini çəkib) paylaşıb:

“Nazir Əhmədli

10 avqust 2017

Hazırda mənə qarşı çıxış edən qaraguruhçuların lideri roluna "Lider" tv-nin əməkdaşı Füzuli Sabiroğlu yiyələnib və

mıllı ayrı-seçkilik salmaqla məşğuldur. Əvvəlki yazılarının məlumatsızlıqdan qaynaqlanacağını düşünərək ona "Göyçə mahalının kameral təsviri" kitabımı da göndərdim. Amma son statusunda məni ittiham edir ki, mən türklərin guya Göyçəyə kürdlərdən sonra gəldiyini yazmışam. Və buradan da faciəli nəticələr törəndiyi qənaətindədir.

Mən bu qərəzli adamlara təmiz Azərbaycan dilində yazdıqlarımı bir daha yazmaq məcburiyyətindəyəm:

1.Qarapapaqlar 1735-ci ildən sonra boş qalan Göyçəyə 1814-cü ildə İrəvan Sərdarı Hüseynqulu xan Qacar tərəfindən İrandan gətirilib. Göyçədə əsrlər boyu türklər yaşayıb, amma onun 1988 - ci ildə deportasiya olunan sakinləri əvvəlki türklərin varisləri deyil.

2.Milli kürdləri onlardan sonra, Gərnibasar mahalından gəlib. Dəqiq tarixi bilinmir.

3.Ermənіləri 1830-cu ildə Türkiyənin işğal olunmuş Bəyazid Paşalığından köçürüblər. 1485 ailə.

4.1831-ci ildə Göyçədə 577 qarapapaq, 227 milli ailəsi yaşayırdı.

5.Türkləri incitdiklərinə görə 1831-ci ilin siyahıyaalmasından 3 il qabaq - 1828- ci ildə 800 qarapapaq ailəsi İrana, 100 ailə isə Türkiyəyə gedib.

6.1842-ci ilin siyahıyaalmasına görə Göyçədə cəmi 16 milli ailəsi qalıb ki, onlardan biri-Niftalı Şahəli oğlu Aşıq Alının qayınatasıdır. Millilər Vedibasar mahalına köçüblər.1842-ci ilin siyahısında Göyçə əhalisinin qalanı qarapapaqdır və onlar 9 yeni kənd də salıblar.

8.Bu qaraguruhçular hazırda Göyçənin ermənilərin tapdağında qalmağından o qədər narahat olmurlar, nəinki orada nə zamansa milli kürdlərinin yaşamasına belə sərt etiraz edirlər.

9.Kürdlər bizim qardaşlarımızdır, xeyrimiz bir, şərimiz birdir, minlərlə qohumluq əlaqələrimiz var. Onlar Azərbaycanın ərazi bütövlüyü uğrunda türklərlə daim çiyin-çiyinə vuruşmuş, minlərlə şəhid vermişlər.

10.Milli ayrı-seçkilik salmaq hazırda ən böyük təhlükə mənbəyi sayıla bilər və dövlət qurumlarını mənə qarşı qaldırmağa cəhd edənlərin özləri onlara cavab verməli və təxribat əməllərindən əl çəkməlidirlər".

Qabil Hacıyev: Biz deportasiya olunmuşlar bəs onda kimin varisləriyik? Bu ağıllı deyəsən qafasını itirib, Kürdə kürd deməkdə hansı təxribat var ki?Türkə kürd demək əsl təxribat deyilmi? nazirin yavaş yavaş iç üzü açılır və deyəsən kürd olduğunu boynuna almağa başlayır!

Nazir Ahmedli: Füzuli Sabiroğlu, məndən gətirdiyiniz uzun və təhrifsiz sitata görə təşəkkür edir və yuxarıda dediklərimin üstündə də dururam. Bunlar tarixi həqiqətlərdir. Mənsub olduğum Dərələyəz mahalının kameral siyahısına yazdığım ön sözdə qaraçorlu türklərin Dərələyəzə 1811-ci ildə gəldiyini yazmışam. Bu da tarixi həqiqətdir. Bu məsələnin tarixi belədir ki, ruslara satılan Qarabağ xanı Mehdiqulu xanla o vaxt Qarabağda yaşayan qaraçorluların bəyi Nəbi bəyin arası dəyir , çünki qaraçorlular indi olduğu kimi o vaxt da öz dövlətinə sadiq olublar.

İran şahzadəsi Abbas Mirzə uzun illər boş qalan Dərələyəz mahalını qaraçorlulara bağışlayır, bütün vergilərdən azad edir və əvəzində ruslara qarşı mübarizədə ona kömək etmələrini istəyir. Bu baxımdan Göyçəyə köçürülən qarapapaqlarla qaraçorluların taleyini oxşar saymaq olar. Göyçəyə köçürülən qarapapaqlar da vergilərdən azad edilmələrinin müqabilində ruslara qarşı müharibə

başlayacağı halda döyüşə 1000 nəfər atlı döyüşçü çıxartmalı idilər.

Göyçə qarapapaqlarının xanı Nağı xan da dövlətinə sədaqətli olub və məğlubiyyətdən sonra İrəvan Sərdarı ilə İrana gedib.Onun oğlu Kazım ağa isə ruslara satılıb, 1828-1829-cu illər rus-türk müharibəsində türklərə qarşı vuruşub və poruçık rütbəsi alıb.Tarixi öyrənin, Füzuli Sabiroğlu, çox maraqlı elmdir. Xüsusən öz yaxın keçmişinizin tarixini. Bəzi tərəfdaşlarınız Göyçədə hələ 7 min əvvəl oğuz türklərinin yaşadığını yazanda onlara deyin aləmi özlərinə güldürməsinlər. Tarix ciddi elmdir.

Füzuli Sabiroğlu: Siz bu statusla özünüzü biabır etdiyinizin fərqində belə deyilsiniz. Yazırsınız ki. Göyçə osmanlı işğalından sonra boşalmışdı eləmi? :)

Nazir Ahmedli: Füzuli Sabiroğlu, bir daha təkrar edirəm, bir az tarixi öyrənin. Osmanlılar 2 dəfə-1583-cü və 1724-cü illərdə Göyçə mahalının da daxil olduğu əraziləri işğal və istila ediblər. Birinci dəfə oranı 1604-cü ildə I Şah Abbas, ikinci dəfə isə 1735-ci ildə hələ Təhmasibqulu xan adını daşıyan Nadir işğaldan azad etmiş, hər iki halda Göyçə böyük dağıntılara məruz qalmış və uzun müddət boş qalmışdır. Nadirdən sonra 79 il boş qalan Göyçəni 1814-cü ildə İrəvan Sərdarı İrandan gəyirdiyi qarapapaqlarla məskunlaşdırmışdır. Aydın oldu, yoxsa bir daha təktarlayım??

Çapay Qasımov: Qarabağın kameral təsvirini 1823 cü ildə olmuşdur. Mogilyovski və Yermolov 1823-cü 2 may il tarixli, 22 saylı raportlarında yazırdılar: «Nə qədər çalışsaq da Qarabağın əhalisinin dəqiq sayını müəyyən etmək mümkün deyildir... Bir mahala məxsus olan əhali tamamilə başqa mahallara səpələnmişdir» (АКАК.т.VI часть I. sənəd 1308, с.857). Yəni Kameral təsvirlərdə bəzi yanlışlıqlar olur.

Füzuli Sabiroğlu: Nazir Ahmedli "İrəvan əyalətinin icmall dəftəri" ilə yəqin ki, tanışsınız. Siz, DƏRƏÇİÇƏK nahiyəsinin kəndlərini saymasaq, GÖYÇƏ və MƏZRƏ nahiyələrindəki təxminən 86 kəndin hamısının 1735-ci ilə qədər boşaldığını iddia edirsiniz. Və belə çıxır ki, 1814-cü ildə buraya köçürülən "başqa"

türklər, dağ, çay və başqa adları nəzərə almasaq 79 il əvvəl boşalmış və tanımadıqları kəndlərə onların 100 il əvvəlki adlarını (Adıyaman, Uzunxaç (Zolaxaç), Qırxbulaq, Basarkeçər, Məzrə, Zod, Ərdanuc (Ardanış), Ağkilsə (2 kənd), Gölkənd, Dəliqardaş, Kolanı (Kolanıqırılan), Delican, Böyük Ördək, Kiçik Ördək (Ördəkli) və s.) veriblər.Düz deyirsiniz. Tarix maraqlı elmdir. Maraqlı olmaqla bərabər həm də analitik təfəkkür, yaradıcı yanaşma və xüsusi istedad tələb edən elmdir. Bunlar olmadıqda bu elmə burnunu soxan adam İbrahim- Xəlil Kimyagərə bənzəyir.

Bir neçə gün əvvəlki yazışmalarımızda, Göyçədəki başqa bir Ağkilsə kəndinin də olduğuna onu inandırmaq üçün sübut kimi "İrəvan əyalətinin icmal dəftəri" (Bakı, 1996) kitabını ona tövsiyyə etmişdim. Yazmışdı ki, kitabla tanış deyil, tapıb həmin faktı yoxlayar. Kitabla tanış olub dediyimin doğru olduğunu gördükdə savadsızlığını etiraf etmək əvəzinə, yekəxanalıqla mənə "Nazir Əhmedli, "İrəvan əyalətinin icmall dəftəri" ilə yəqin ki, tanışsınız" yazır, hətta təhqirə əl atır.

Ustad Əlağa Vahidin

Zahirin düz görünsə də, amma
İçərin əyridir minarə kimi.

Ney kimi nalə etməyin xoşdur,
Atılıb düşmə boş nağara kimi!-sözləri burada tam yerinə düşür...

Füzuli Sabiroğlu boş nağara kimi atılıb-düşməkdən, səs salmaqdan həzz alır...

Mən bu kütbeyinə neçənci dəfədir deyirəm ki. Göyçə 1735-ci ildə boşalıb, bu deyir 1735-ci ildən əvvəl boşaldığını deyirsən! Zırrama ki, zırrama!

Nazir Ahmedli: Füzuli Sabiroğlu, haqsızlığını göstərib ədəb qaydalarını pozma. İkincisi isə, 1735-ci ilə qədər yox, 1735-ci ildən sonra o kəndlər boşalıb. Öz yazdığım kitabdan mənə

sitatlar gətirirsən?Yenə deyirəm, öyrənmək heç vaxt gec deyil.Qarapapaqların oralara məhz 1814-cü ildə gəldiyini sübut edən çox sadə məntiqi dəlil var: oranın yeni sakinləri bir çox kəndləri kəndxudaların adı ilə adlandırmışdılar, məsələn, Rəhman kəndi, Salman kəndi, Abul kəndi, Hüseynquluağalı kəndi, Sarı Yaqub kəndi və s.

Füzuli Sabiroğlu: Siz sualın əsas hissəsindən yayındınız :)

Daha bir "dahi tarixçi" peyda olur:

Eldaniz Jafar: Nazir bey, sizin yazdiginiz fantaziyadir. Turk ehalisi Goycede Peceneq tayfalarinin gelishi ile formalashib,meskunlashib. Bu ise eramizin 4 esrinde bash verib. Eger turkler o eraziye 18 ci edrde gelibse, bes nece olur ki, o tayfalarin adlari Qaradagli,Aticili ve s .?

Eldaniz Jafar: Bir daha oxudum. Statusunda aciqlama veren alim ozu ozunu tekzib edir. Yazir ki,Goycede esrler boyu turkler yashayib. Amma indiki Goyceli turkler\ o qedim turklerin neslinden deyil. Absdurd)))))))

Səbrimi basıb bu zırramanı da qandırmaq istəyirəm:

Nazir Ahmedli: Eldəniz Cəfər, mən türklərin Göyçəyə ilk dəfə 1814-cü ildə gəldiyini demirəm, son türklərin həmin tarixdə gəldiyini deyirəm. Göyçədə türklər uzun əsrlər boyu yaşayıb. Dəfələrlə oradan didərgin düşüb yenidən məskunlaşıblar. Ümid edirəm ki, o torpaqlara yenidən qayıdacağıq. Göyçəyə də Dərələyəzə də, Zəgəzura və başqa torpaqlarımıza da

Bahtiyar Alirzayev: Son türklər?

Nazir Ahmedli: Sonuncu dəfə Göyçə mahalında məskunlaşan və yaşayan türklər mənasındadır.

Qabil Zimistanoglu: N.Əhmədli Göyçədə yaşayan müsəlmanları tayfalar şəklində verir, Amma Türkiyədən, İrandan köçürülmüş, hətta öz dilini yaxşı bilməyən ermənіləri isə taydfalar

şəklində verim. Məgər ermənilərdə tayfalar olmayıb? Təsəvvür edirsinizmi, türkləri qarapapaq, ayrımlı, dəmirçilər və s. kürdləri milli, bruki və s şəklində göstərir. Hətta müsəlmanların hansı məzhəbdə olduğunğuna qədər gedib çıxır. Buna irad bildirənlərə "qaraguruhçu, milli təfriqəni salan" damğasını vurmaqdan da çəkinmir. . "Ermənistan Milli Arxivinin məlumatlarını necə əldə etmisən?" sualını verənlərə deyir ki, mənimlə prokuror kimi danışmayın. Özü isə ürəyi istədiyi kimi ustadlarla bağlı məsələlərdə qərar qəbul edir, tariximizi, coğrafiyamızı və. s saxtalaşdırır, Msələ ilə bağlı səhifəsində irad bildirənlərin "arzuolunmaz şəxs" adı ilə statusunu silir. Bəs ona kim haqq verib ki, ustadların adından qərar versin?Özü məgər bu hərəkətləri ilə milli və dini təfriqəni qızışdırmağa xidmət etdiyininin fərqindədirmi?

Q.Zimistanoğlunun yazdığı "N.Əhmədli Göyçədə yaşayan müsəlmanları tayfalar şəklində verir, Amma Türkiyədən, İrandan köçürülmüş, hətta öz dilini yaxşı bilməyən ermənilər isə taydfalar şəklində verim. Məgər ermənilərdə tayfalar olmayıb? Təsəvvür edirsinizmi, türkləri qarapapaq, ayrımlı, dəmirçilər və s. kürdləri milli, bruki və s şəklində göstərir"-ifadələri haqqımda yazılan donosda da var. Bu fikri xaç atası Eldar İsmayılla fikirləşib tapıblar və indi burada da yazır.

Murvet Yusifov: Bu, aylardı erməni üsullarından istifadə edir...

Eldaniz Jafar: Son turkler ve ya ilk turkler anlayishi yoxdur. Goycede Ceferli tayfasi var. Bu tayfa Kengerlilelerin bir qoludur. Kengerliler ise Peceneq tayfasidir. Peceneqler de turk tayfalari olaraq Goyceye Qaradeniz etrafindan gelibler. Bu tayfanin en azi 1000 il tarixi var. Nece israr ede bilersiniz ki,muasir goyceliler o qedim goycelilerin varisi deyil?

Füzuli Sabiroğlu: Eldəniz qadan alım xeyri yoxdu... dedığım dedıxdı :) anladın da nə demək istədiyimi

Eldaniz Jafar: Mesele bele qoyula bilmez. Bele cixir Goycede Qarspapaqlardan bashqa tayfa olmayib. Bes 11 esrde gelen Selcuqlar,16 ci esrde Qarabagdan kecib Goyceye Qizilbashlarla gelen Qaradagli tayfalari...

Eldəniz Cəfər sonuncu yorumu ilə açıq-aşkar özünü qanmazlığa qoyur. Neçənci dəfədir təkrar edirəm ki, Göyçənin türk tarixi 1814-cü ildən başlamır, əvvəllər də Göyçədə türklər yaşayıb. Söhbət 1735-ci ildə tamam boşalan Göyçəyə 79 ildən sonar, 1814-cü ildə gələn qarapapaqlardan gedir.

Bundan sonra bu səfeh adama nəyisə izah etməyin faydasız olduğunu görüb daha ona cavab yazmadım.

Füzuli Sabiroğlu: Mən o özünü və sözünü bilməz tərbiyəsizi blokladım. Onunla diskusiya aparmağın mənası yoxdu. Ancaq biz işimizi görəcəyik. Hər səviyyədə bu adamın və onun havadarlarının əməllərinə münasibət bildiriləcək. Bu payızda onlar yaydakından da çox tər tökəcəklər.

Bu tərbiyəziz adam səhifəsində məni təhqir edənlərə heç bir etiraz etmədiyinə görə mən də onlardan birinə sərt cavab qaytarmışdım. Verdiyim suallar qarşısında aciz qaldığından, həm də milli təfriqə yaratdığı barədə ona irad tutduğumdan qorxduğuna görə fürsətdən istifadə edib məni blok etdi və göründüyü kimi arxamca söyüş də yazıb. Mən onun bu yorumunu görməmişdim.

Ramin Zamanov: Salam, beli yoldashlar by cur "alim" ve "alimeler" hesabina tariximizi unutdurdular. Demek olarku ehalinin 40% indiki erazilerimizi hec bilmir. Bu illernen icimizde yetishdirilen bu cur "alim" kimilerin hesabinadir. Tessuf! Füzuli Sabiroğlu olar varsa siz ve sizin kimi insanlarda var, men inaniramki olar ter tokmeye mehkumdular.

Füzuli Sabiroğlu: İnşallah qardaş!

Elə bu zaman yeni "Ələsgər" meydana atılıb cövlan edir:

Abulfat Heydar: Nazir Əhmədliyə yazar kimi yox, bir şəxsiyyət kimi böyük hörmətim var. İnsaf da yaxşı şeydi nə düşmüsünüz bu kişinin üstünə. Nazir bəyin kitabı rus-erməni və fars mənbələrinə istinadan yazılıb.Yaxşı olardı ki, Nazir bəy Türk mənbələrindən də istifadə edərdi..

Lətifəsi hamıdan uzaq bir zamanlar Şair Nağı adlı birisi bizlərə sataşmışdı, amma onun dərsini ustad dədə Ələskər yaxşı vermişdi. İndidə Nazir Əhmədli bizə sataşır. Heç olmasa ustada xitabən bir iki söz deyim, özümdə bir təsəlli tapım.

Yazırsansa, həqiqəti düzgün yaz,
Mahalı incidib, eldən danışma!
Ara qarışdırma, meydan sulama,
Kar çıxmaz qovğadan, qaldan danışma!

Göyçənin qonağa çoxdu hörməti,
Göyçənin Göyçədə qaldı ləzzəti.
Peşiman eyləmə sən bu milləti,
İnsaf eylə o mahaldan danışma!

Çox yazar görmüşəm, qaçıb meydandan,
Öldürsən zənburu, əl çəkməz şandan.
Gəmirib sümükdən, içib çaxırdan,
Coşub kərgədandan, fildən danışma!

"Turan" dərdimizdir, bu bizə bəsdi,
Türkə Kürd demə, daha bəsdi, bəsdi.
Görürəm danışmaq artıq əbəsdi,
"Zənbur mənəm" deyib baldan danışma!

Tabe olub nəfsə, uyma şeytana,
Yaralı aslanla girmə meydana.
Əbülfət Heydəri gəl salma qana,

Ələskər tək əhli-dildən danışma!

Bəh, bəh, bəh...

Gorun çatdasın, Aşıq Ələsgər, gör necə "davamçıların" var! Gör kimlərin ümidinə qalmısan!

Qurbetde Parlayan Qigilcim: Ehsen size! Teşekkür edirem! Nazir Ehmedli öz ixtisası üzre, kimya elminde yeni bir ixtira elde etmiş olsaydı, Çarlz Darvin nezeriyyesini inkar edib, "insanların meymundan emele geldiyini" yox, mehz Allah terefinden yarandığını be'zi "qelbi möhürlü", "gözü bağlı" "insanlara" sübut edəydi..

Qurbetde Parlayan Qigilcim: Tamamile doğrudu! Bar verib , behre elde etmek üçün her pöhre gerek öz kökünden gövdesine, gövdesinden budağına, budağından da pöhreye şaxelenib, çiçek açsınki, bar verib, behre götürsün... Eks teqdirde, o pöhre yarı yolda quruyub, mehv olar!!!

Telman Ali Qasimov: hörmətli Nazir mellim sizcə ruslarin yazdiqlari mənbələri israrla fakt kimi qəbul etmək düzgündürmü? məncə belə məsələlərdə tarixçi alim qədim türkün tarixini və üstəlik də qərbi azərbaycanin toponimlərini bilən firudin cəlilovlada bir məsləhətləşmə aparsaydiniz ziyani olmazdi. bütün hallarda oturub bir arada müzakirələr aparmaq olar amma bir-birinizə qarşi kinli münasibətsiz. sağlam müzakirələrə sizi dəvvət edirəm. mehriban olun bir-birinizin qədrini bilin. onsauzda vətənsiz əriyib yox oluruq

Həmişə mənə "Qaloş" obrazını xatırladan Əbülfət Heydər özünü Aşıq Ələsgərin yerində gördü. Amma onun işi çətin olacaq, çünki həmin yerə artıq 2 iddiaçı var: Niftalı Göyçəli və onun qohumu Loğman Məhəmmədoğlu.

Mənim statusum

30 iyul 2017.

Qaraguruhçuların aldatma, şər-şamata yolu ilə "saxtakarlığa etiraz edirəm" kampaniyasına qoşa bildiyi adamların sayını artıq görüb "gözləri yaşaran" nümayəndəsinə və onların xaç atasına üzümü tutub deyirəm:

1.Saxtakarlığa hamıdan çox mən etiraz edirəm.

2.Saxtakar mən yox, indiyə qədər Ustadlarımıza sənədsiz-sübutsuz saxta doğum tarixləri yazan saxta alimlər və onları kor-koranə müdafiə edən sizlərsiniz.

3.Sizin bu mürtəce, geriçilik təşəbbüsləriniz məni yolumdan döndırməyıcək və heç nəyi dəyişməyəcək.

4. Aşıq Ələsgəri saxta doğum tarixindən qurtarıb özünə qaytardığım kimi, yaradıcılığını da yerli-yersiz təhriflərdən xilas edib özünə qaytaracağam. Bu məqsədlə 2 kitab nəşr etməyi planlaşdırıram: a)Ələsgərin təhriflərdən xilas edilmiş şeirlər kitabı; b)Ələsgərim yaradıcılığına həsr edəcəyim monoqrafiya.

Mən iş görəcəyəm, siz isə danışmaqda, geriçilikdə, irtica fəaliyyətində, donosbazlıqda, işverənlikdə davam edin. Zaman inşallah hər şeyi öz yerinə qoyacaq ən adil hakimdir!!

Yorumlar:

Agakisi Seferov: Sizə yaradıcılıq uğurları və cansağlığı arzulayıram.Allah köməyin olsun

Teyyub Memmedli: Əziz dostlar, bu yersiz mübahisələrlə özünüzü yormayın,istər Nazir müəllim olsun,istərsə də qarşı tərəf. Bu gün mübahisə predmeti olan o doğum tarixlərinin xalqımız üçün bir zərrə də olsa, əhəmiyyəti yoxdur.Çünki o tarixi şəxsiyyətlər doğum tarixlərindən asılı olmayaraq neçə ki, qədirbilən Azərbaycan xalqı var onlar da yaşayacaq. Gəlıin, elə

məsələlərdə mübahisəyə qoşulaq ki,düşmən vahiməyə düşsün. Gəlin birləşək,bölünməyək. İxtilaflardan uzaq olaq!

Kazim Salimov: Nazir bəy, yəni, Aşıq Ələsgərin faktik doğum tarixi əsas deyil ey, nə vaxt doğulub, doğulub da, nə fərqi var... əsas olan fərmandır! 😂

Ramil Zeynalov: Kazım m siz neye şubhe edirsiz vaxtında verilən fərmana? O ferman veriləndə onu ziyalı tarixcilerle meslehetleşib qerar veribler

Əli İbrahimov: Uzun müddət bu yazılanları izlədim. N.Əhmədliyə qarşı tutarlı bir arqument görmədim.Yazdılar kürddür məlum oldu ki, deyilmiş. Şər atdılar ki,iki aşığımızın kürd olduğunu yazıb. Kitabı oxuyuram onıarın türk oğlu türk olduğu yazılıb. Deyirlər ki,niyə Dərələyəzli Göyçədən yazıb. Bu lap gülüncdür. Bu məntiqlə ğərək qazaxlılar şəkili B.Vahabzadəni qınayaydılar ki, Səməd Vurğundan niyə məhz o dissertasiya yazıb. Nə isə.Hər iki tərəfdən xahiş edirəm vaxt və enerjilərini bu cür yazışmalara sərf etməsinlər.Mübahisələr dayandırılsın

Kazim Salimov: Ramil Zeynalov bəy, ona görə mənə gülməli gəlir ki, tarixi faktı elmi metodla təsdiq və ya təkzib edərlər, daha fərmana istinadla yox. Nazir Ahmedliyə guya opponentlik edənlərin heç bir ciddi arqumentini görmürəm. Yazılanı bir kənara qoyub müəllifi qaralamaq isə qədimi və bizdə çox yayılmış metoddur, hələ heç kimə hörmət qazandırmayıb...

Kazim Salimov: Mənim babam haqda yalan yazılsa idi, tarixi sənədlə, faktla sübut edərdim ki, yazılan doğru deyil. Daha onu yazan haqqında hədyan yazmaqla məşğul olmazdım. Özümə yaraşdırmazdım belə hərəkəti.

Ramil Zeynalov: Men o senedi gostermişem özude bir başa o sened Azərbaycanin tarixidi ona baxmaq ıstemir bu insan resmi minlərlə sübut stat gətirilir qebul etmirem ve yaxud yayınır ancaq dava dava deyir. Durub yalvarmaliyiq?

Ramil Zeynalov: Birdeki ne hədyan yazılıb? Kişiyik heç kim şər danişmasin ayibdi. ***Bu mesele bele feyzde təhlil olunan sohbet deyil buna dovlet seviyyesinde baxılacaq İnşAllah.*** Onda çoxunuz profilinizi deyişib gül şekli zadi qoyasiz...

Kazim Salimov: Yox, niyə yalvarırsınız ki, sizin o Azərbaycan tarixi olan sənədləri toplu şəklində nəşr edirsiniz, bu da olur Nazir Əhmədlinin yazdıqlarına cavab. Oxucu da oxuyur hansının daha sanballı və etibarlı olduğuna özü qiymət verir. Vəssalam. Yoxsa, sizin ki...

Ramil Zeynalov: Kazım Səlimov bizim tariximizi ındi yazmağa ehtiyac yoxdu. O tarix Şah İsmayıl Xetainin dövründən de qabaq yazılıb siz oxumamısız o sizin gunahinizdi. Ele fikirleşmeyin biz burda yerlibazlıq edirik yox esla. Burdaki rey yazanların ekseriyyetinin bu sohbete aidiyyatı olmasada onlar qebul etmədikləri bir şey var tariximizi saxtalaşdırmaq isteyenlere etiraz....

Kazim Salimov: çömçə, yemək qabı, və s. bu kimi ali səviyyələrdə mükalimə mənim işim deyil, bir azdan söyüş-filan da yəqin yazacaqsınız...mən təslim oldum...

Ramil Zeynalov: Kazım Səlimov soyuş soymek bizim xisletimizde deyil bizi bele terbiye etməyiblər. Xatırlatma edimki haqqında danışdığımız Dede Elesgerin ovriyeleriyik biz. Hansıki o Elesgerin şerlerini sizli bizli hamımız oxuyub ziyalı olmuşuq. TessufLer olsunki çoxları ındi bunu yadından cixarib

Nazir Ahmedli: Qardaş, mənim öz statusumda bir nəfər neytral adamın müstəqil və obyektiv fikrinə niyə bu qədər aqressiv yanaşırsınız? Yerli-yersiz hamıya dəstə ilə hücum etmək cəhdiniz haqsız olduğunuzun əlaməti deyilmi? Ramil Zeynalov, haqqında danışdığın sənəd deyirsən Xətayinin dövrünə aiddir. İndi deyirsən XIX əsrə aid sənədi cırıb ataq ki Xətayinin dövrünə aid sənəd var? Bu nə düşüncə tərzidir? İkincisi də həmin sənədi çap etdirin ki XVI əsrdən yazanlar ondan istifadə etsinlər. Mənim səhifəmdə də adamlara qarşı aqressivlik etməyin.

Kirman Rustemli: Allah köməyiniz olsun.

Fəqan Əmi: Bu başıbəlalı kitabı Nazir Ahmedli müəllim inanıram ki öz imzası ilə mənə də hədiyyə edəcək.

Maarifçi Qadınlar: Mence Siz emeyinizi ve vaxtınızı daha faydalı işlere hesr edin. Aşıq Ələsgərin yaşı ele olsun, ya bele olsun onun xalqa hec bir faydası yoxdur. Yazmağa o qeder

mövzu var ki!...bu günün menzeresini sabah ücün yaratmaq mence daha önemlidi. V.Hüqo Jan Valjan obrazını dünya ədəbiyyatına qızıl hərflerle yazdı. Cemiyyetin Jan Valjana cevirdiyi o qeder insanlar var, onlardan yazın.

Nazir Ahmedli: Təşəkkür edirəm, Şərqiyyə xanım! Mənim planımda var ki, Aşıq Ələsgəri təhriflərdən xilas edib özünə qaytarım. İnanın ki bu məsələ çox vacibdir. Jan Valjan haqqında dediyinizlə də tamamilə razıyam. Doğrudan da, Hüqo möhtəşəmdir!!!

Maarifçi Qadınlar: Men onu vacib mesele saymıram. Daha vacib işlerimiz var. Kicik tehrifler Aşığn evezsiz yaradıcılığına xelel getire bilmez.

Vagif Jabbarzade: Belələrinə Bəxtiyar Vahabzadə gözəl cavab vermişdir:

Bəxtiyar Vahabzadə

Babək söy köküylə bizdən deyilmiş,
Xətai islamı ikiyə bölmüş,
Fətəli Allahsız, Vaqif baz idi,
Filankəs azacıq qumarbaz idi,
Gecəli gündüzlü Hadi dəm idi,
O əyyaş, bu fərsiz, o bigam idi,
Biri qərəzkardır, biri xəsisdir,
Bu ondan yaxşıdır, o bundan pisdir,
Natəvan beləydi, Həcər eləydi,
Böyüklər önündə o bir köləydi,
Rəhmət demirik amma bir kərə,
Milləti ucaldan rəhmətlilərə
Bir deyən yoxmudur, pəki SƏN KİMSƏN?!
Danış, bu Millətə nə gətirmisən?!
Sən böhtan atdığın bu böyüklərin,
Yüzdə biri qədər nə iş görmüsən?!

Mənim statusum

10 avqust 2017.

Hazırda mənə qarşı çıxış edən qaraguruhçuların lideri roluna "Lider" tv-nin əməkdaşı Füzuli Sabiroğlu yiyələnib və mıllı ayrı-seçkilik salmaqla məşğuldur...

Mənim yazdığım bu statusu F.Sabiroğlu da avqustun 10-da paylaşmışdı və onun ətrafında diskussiyalar getmişdi. Onları yuxarıda təqdim etdiyimə görə, həmin statusumun mətnini yer tutmasın deyə, burada ixtisar etdim.

Füzuli Sabiroğlu:))) Hələ bu hamısı deyil. Payızı gözləyin.

Füzuli Sabiroğlu: Bu sənədlər Ermənistan Milli Arxivindən sizə necə ötürülüb? Bu sualın cavabı olacaqmı?

Cavanşir Sadiqov: Nazir müəllim milli kürtlər deyəndə nəyi nəzərdə tutmusunuz?Kürd kürtdüdə onun millisidə olur?

Nazir Ahmedli: Milli tayfanın adını bildirir

Qabil Zimistanoglu: Həqiqəti deyənlər qaragürühçudurlar-sa? Görəsən erməni saxtakarlığına şərik olanlar nə güruhçudurlar, onlara nə ad verək? Yəqin onlar da ermənigurühçudurlar!!! Gərnibasar mahalı nə böyük mahal idi ki, oradan 227 milli kürdü ailəsi Göyçəyə köçsün? Boş-boş söhbətlərlə camaatın başını aldatmayın

Q.Zimistanoğlu son dərəcə savadsızlığını göstərir: "Gərnibasar mahalı nə böyük mahal idi ki, oradan 227 milli kürdü ailəsi Göyçəyə köçsün?"

Bəyəm bir mahal üçün 227 ailə çox böyük rəqəmdir? Müqayisə edə bilərik: 1831-ci ildə Göyçə mahalında 999 müsəlman ailəsi, oradan Göyçəyə köçən 227 milli ailəsindən

başqa, Gərnibasarda 753 müsəlman ailəsi qeydə alınmışdır.Əgər həmin 227 milli ailəsi Gərnibasarda qalsaydı, orada (753+227)=980 müsəlman ailəsi, Göyçə mahalında isə (999-227)=772 müsəlman ailəsi yaşamış olacaqdı. 1834-1835-ci illərdə Göyçədən Vedibasara köçən qaraçorluları, əliqanlıları, birukiləri də nəzərə alsaq, Göyçənin müsəlman əhalisi daha az ola bilərdi.

Onun bu cür sadə həqiqətləri bilmədiyi bir yana, yerli-yersiz hücumlarını, ədəbsizliyini nəzərə alıb ona deyirəm:

Nazir Ahmedli: Qabil Zimistanoğlu, mənim üçün arzu-olunmaz adamsan, səhifəmə yazma

Maarif Piraliyev: Cavanşir bəy, kürdün mıllısı var,zilanisi var və s.

Cavanşir Sadiqov: Maarif bəy mən əcəmi, yezidi kürd eşitmişəm, zilanı eşitməmişəm ola bilsinki

Maarif Piraliyev: Cavanşir Sadiqov, mən onları "və s."ilə ifadə etdim,hətta cəlalilər də var.Sizin"kürdün mıllısı da olur?" sualınıza görə qeyd etdim.

Cavanşir Sadiqov: Mən nə deyirəm qardaş bu barədə bilğim azdı.

Aslan Azadaliyev: Fizuli Sabiroglu, sizin yazilariniza istinaden bildirmek isteyirem ki, meqsediniz Nazir beyin erseye getirdiyi kitabin ve orada derc edilmis tarixi hadiselerin muzakiresi deyil, daha cox qerez ve santaj xarakteri daşimaqdadir. Xususile de, Ermenistan Milli Arxivinde olan melumati nece elde etdiyi barede sualiniz. Men qeyd etmek isteyirem ki, eger heqiqeten de, bu melumatlar Ermenistan Milli Arxivinden elde edilibse, demeli Nazir bey boyuk zehmet ve bacariq serf edib. Bunun ucun onu santaj etmek yox, tesekkur etmek lazimdır. Belke siz Nazir beye unvanladiginiz hemin sualin evezine, son zamanlarda ermenileri Azerbaycana, Bakiya devet eden ve Bakida milletin gozu onunde serbest istirahet etmek, gezib-dolasmaq seraiti yaradan cenablara unvanlayasiniz...

Nazir Ahmedli: Təşəkkür edirəm, Aslan bəy!

Adını ilk dəfə bu yorumda eşitdiyim Aslan Azadəliyevə bir daha minnətdarlıq etməyi özümə borc bilirəm, çünki F.Sabiroğlu və onun xislətini sərrast şəkildə açır, gördüyüm işin qiymətini dəqiq verir!

Ramil Zeynalov: 1988-ci ilde Göyce mahalindan ehali deportasiya olunmayıb..!! Didərgin, qacqin köçkün duşub. Deportasiya sözünü yeqin sehfen yazmisiz.. Öz ata baba torpağından deportasiya olmaq olmaz. Tarix araşdirmacisi olaraq bu cür sehflere yol vermeyin..

Özünün dediyinə görə orta məktəbi qurtaran bu gədə zəvzəməkdən yorulmayıb tarix üçün yeni-yeni "terminlər" uydurur.

Şahlar Haciyev: Birdəfəlik biləliyik ki, Erməni Milli Arxivində Türklərin xeyirinə olan sənədlərin hamısını məhv edib, və ya özlərinin xeyrinə dəyişdiriblər. Əgər o sənədi Nazir Ahmedli oradan götürübsə, deməli sevincək "ötürüblər". Birdə ki, Göyçənin ağsaqqallarını təhqir edən Nazir Əhmədli ilə nədən danışa bilərik.

Maarif Piraliyev: Füzuli Sabiroğlu, qardaşım,söhbət rəsmi sənəddən gedirsə, o milli mənafeyə uyğun gəlməyə də bilər, qaldı araşdırmaçının onu "tələm-tələsik "çap etdirməsinə,heç də tələsik çapa oxşamnır.

Nazir Ahmedli: Maarif müəllim, mən min bir zəhmət bahasına Göyçə mahalının 1831 və 1842-ci illərə aid kameral siyahılarını əldə edib öz vəsaitimlə çap eləmişəm, bu insanların ata-babalarını və onların doğum tarixlərini onlara hədiyyə etmişəm. 1831 ci ildə Göyçədə 5.607 nəfər müsəlman yaşayırdı və hamısını tapıb üzə çıxartmışam. İnsan nə qədər nankor olarmış??? Üstumə dəstə ilə gələnlər qoy hamısı birlikdə 10 nəfər tapıb üzə çıxarsınlar, sonra belə hikkələnsinlər.Məndən yazmadıqları idarə qalmayıb, işverənlik və donosçuluqla məşğul olurlar. Qoy onlar

donos yazsın, mən də öz işimi davam etdirim. Tarix hər kəsi gec-tez layiq olduğu yerə qoyur.Növbədə İrəvan şəhəri və başqa mahallarımız var.Mən güman edirdim ki, göndərdiyim kitabı görəndən sonra(kameral təsviri) Füzuli Sabiroğlu haqq yoluna dönəcək. Təəsüf edirəm ki o başqa yol seçdi. Olsun. Hər kəs seçimində azaddır və tarix hər kəsin qiymətini verəcək.

Salam Salamzade: Çar Rusiyası sənədləri niyə bəzi adam-lar tərəfindən "erməni sənədləri" kimi qələmə verilir? İkincisi, Dəyərli arxiv sənədi istənilən arxivdə ola bilər. O sənədlər bu gün yazılmır ki. 200 ildən qalmış sənəddi.

Ramil Zeynalov: Çarın nevelerine eşq olsun.. Azerbaycan tarixine aid önəmli arxiv senedleri tiblisde ve tebrizdedi.. Orada bezi tarixcileri buraxmırlar))))

Salam Salamzade: bildiyiniz arxivlər və daha səhih sənədlər varsa niyə açıqlamırsız ? Gedin, yazın, göstərin. Sübut edin ki, bunlar da var.

Ramil Zeynalov: Bizim tariximize şubhe edenler getsin düzgün menbelerden axtariş aparsınlar.. Duşmen arxivi esas götürüb yazmaq qərəzli movqedi

Nazir Ahmedli: Təşəkkür edirəm, Salam müəllim!

Ramil Zeynalov: Salam m de davamını getire bilmedi)))

Nazir Ahmedli: Füzuli Sabiroğlu son yazıları ilə tədqiqatçı statusunu itirdi və prokuror kimi ittihamlar irəli sürür. Bu isə təsa-düfi deyil. Atalar demiş, aşığın sözü qurtaranda “neynim-neynim” çağırar. Ona görə də onunla diskussiyalarımı bitmiş sayıram.

Füzuli Sabiroğlu: Heyf o statusdan :)

Nazir Ahmedli: Çox heyif

Taleh Sahsuvarov: Nazir bey salam. Sözün dogrusu, men Goycenin tarixini arasdirmamisam xusisi olaraq. Amma Zengezurun tarixini arasdirdigim ucun movzu mene tam yad deyil. Bildiyim qeder ise Goycede ve indiki Ermenistan erazisinde mehz indiki insanlarin yani 1988-ci ildə kocurilenlerin ecdadlari yasayib. Kitabinizi mene gondere bilersiniz?

Nazir Ahmedli: Salam, Taleh bəy. Mən bir neçə gündən sonra Bakıya qayıdacağam. Görüşüb verərəm.

Ibrahim Huseynquliyev: Bu qaraguruhçular hazırda Göyçənin ermənilərin tapdağında qalmağından o qədər narahat olmurlar.

Nazir Ahmedli: Tamamilə doğrudur, qardaş. Mənim üstümə hücuma keçdilkləri kimi Göyçəni də belə müdafiə etsəydilər, bəlkə də Göyçə bizdə idi.

Mamedali Hesenov: Füzuli bey,düşmüsünüz Nazir beyin üstüne ki,bu senedleri necə elde etmisiniz.Nazir bey hansı yolla elde edibse ancaq ona "cox sağ ol" düşür.İndiki şəraitde bu senedleri elde etmek cox çetindir.Men Nazir beyi cox yaxından tanıdığım ücün onu bilirem ki, o senedlerin üzerinde 8 ilden cox işleyib. Özü də özünüz görürsünüz cox böyük uğur elde edib.

D O N O S

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə

Surəti vitse-prezident Mehriban xanım Əliyevaya

Surəti Milli Məclisin spikeri cənab Oqtay Əsədova

Surəti Dövlət Təhlükəsizlik Xidmətinin rəisi cənab Mədət Quliyevə

Surəti AMEA Tarix İnstitutunun direktoru ak.Yaqub Mahmudova

Möhtərəm Prezident cənab İlham Əliyev!

Əvvəla, dəyərli vaxtınızı aldığımız üçün üzr istəyirik. Amma biz bir qrup Göyçə mahalından olan ziyalıların Sizin vaxtınızı almağa vadar edən son günlər Nazir Əhmədlinin işıq üzü görmüş "Haqq

nahaqq seçilər haqq divanında" kitabında tariximiz, folklorumuz, tanınmış saz-söz sənətkarları və mahalın coğrafiyası, yer-yurd adları ilə bağlı özünə yer tapan saxta və təhrif olunmuş informasiyalardır. Kitabda göstərilən faktların 90 faizi "Ermənistan Milli Arxivi"nə istinad kimi verilib. "Mötəbər" mənbə adı ilə istinad olunan kitabda tarixi Azərbaycan torpaqları olan Göyçə mahalının tarixi şəxsiyyətləri-Ağ Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər və digərlərinin haqqında məlumatlar saxtalaşdırılıb, mahalın tarixi, yer-yurd adları təhrif olunub və erməniləşdirilibdir. Erməni mənbəyindən istifadə etməklə kitab başdan-başa saxtakarlıqla doludur və biz bunu tariximizə, folklorumuza, ədəbiyyatımıza ciddi zərbə kimi dəyərləndiririk.

Kitabda, guya tanınmış ustad sənətkar Aşıq Ələsgərin anadan olduğu kənddə 1821-ci ildə yaşayış olmadığı qeyd olunub. Müəllif bunu əsas götürərək qeyd edib ki, əgər adı çəkilən kənddə yaşayış olmayıbsa, onda Aşıq Ələsgər 1821-ci ildə həmin kənddə anadan olmayıb. Amma dövlət səviyyəsində təşkil olunmuş ekspedisiya qrupları, tanınmış tədqiqatçılar, ustadın övladları, həmyaşıdları Aşıq Ələsgərin 1821-ci ildə anadan olduğunu qeyd etmişlər. Amma N.Əhmədli "Ermənistan Milli Arxivinə" istinad edərək Aşığın anadan olduğu tarixi 1852-ci il kimi göstərir. Bununla da böyük saxtakarlıq etmiş olub. (İstinad mənbəyi kimi: Ermənistan Milli Arxifi, F.227, siy.1, sax.vah.20). Bu, kitabın 32-ci səhifəsində öz əksini tapıb. N.Əhmədli Aşıq Ələsgərin yaşını kiçiltməklə kifayətlənməyib. Həmçinin ustadın qardaşının, övladlarının hamısının doğum tarixlərini saxtalaşdırıb. Hətta Ulu Öndərin 1972-ci ildə Aşıq Ələsgərin 150 illik Yubileyinin İttifaq səviyyəsində keçirilməsinin üstündən belə xətt çəkməkdən belə çəkinməyib. Kitabın elmi redaktoru olan Atatürk Mərkəzinin rəhbəri, millət vəkili, akademik Nizami Cəfərov ekspedisiya qrupunun üzvlərini, yubiley keçirənləri "qələti-məşhur" adlandırıb. Hər şeyi yalanlamaqla tədqiqatçıların çəkdiyi zəhməti və dövlət tədbirlərini heçə sayıb.

1979-cu ildə Aşığın kiçik oğlu Talıbın yaşını təhrif edib. Onun nəşr etdirdiyi kitabı oxuyan və tarixi bilməyən nabələd adam elə bilər ki, qədim Göyçə mahalında yerli azərbaycanlılar yaşamayıb və ya haradansa gəlmə olub. Və yaxud da burada yerli əhali ermənilərdən ibarət olub. Azərbaycanlılar tayfalar şəklində göstərildiyi halda, Suriyadan. İrandan köçürülən və öz dillərini doğru danışa bilməyən ermənilərin milli mənsubiyyəti erməni kimi göstərilib. Göyçədə mövcud olmayan erməni kəndlərinin adı kitabda öz əksini tapıb. Məsələn: Dəmirçi Poğos, Dəli Arutyun, Komaser kəndləri və s. (səh.79-81). Bu kimi siyahını daha da artırmaq olar. Digər tarixi şəxsiyyətlərlə bağlı məlumatlar da həmçinin eyni vəziyyətdədir. Aşıq Alının adını belə dəyişərək Almədəd olduğunu qeyd edib. Onun ustadı Ağ Aşıq Allahverdin milli mənsubiyyətini başqa cür yazır. Ustadların həyatı və yaradıcılığı ilə bağlı öz fantaziyasına uyğun şərhlər verib. Tarixi şəxsiyyətlər barəsində aşağılayıcı ifadələr işlədib.

Möhtərəm Prezident! Siz İrəvan torpaqlarının Qədim Azərbaycan torpaqlarının olduğu barədə dəfələrlə dünyaya bəyan etdiyiniz bir ərəfədə xalqımızın tarixinə kölgə salan və heysiyyatımızla oynayan belə bir kitabın işıq üzü görməsini təxribat kimi dəyərləndiririk.

Xahiş edirik, bu mənbənin haradan və hansı yolla əldə edildiyi araşdırılsın və xalqımızın təhqirinə yönələn kitab müəllifi barədə qanunvericiliyi tələblərinə uyğun tədbir görülsün.

İmzalar:

1.Ələsgərov Xətai İslam oğlu

2.Məsimov Üzeyir Aslan oğlu

3.Məmmədov Xəlil İlyas oğlu

4.Süleymanov Məhəddin Baxış oğlu

5.Süleymanov Elçin Məhəddin oğlu

6.Zeynalov Səməddin Vəli oğlu

7.Məmmədov Gündüz Azad oğlu

...

57.Ələsgərzadə Nizami İslam oğlu

58.Ələsgərzadə Abid Nizami oğlu.

...

68.Ələskərov Füzuli İslam oğlu

...

70.Ələsgərov Nəsimi İslam oğlu

71.Ələsgərov Sahil Fizuli oğlu

72.Ələsgərov Şəhriyar Xətai oğlu

75.Süleymanov Ziyəddin Musa oğlu

79.Aşıq Ələddin Musa oğlu Süleymanov

118.Əliyev Təvəkkül Cəbrayıl oğlu

119.Əliyev Tofiq Cəbrayıl oğlu

157.İsmayılov Eldar Ələsgər oğlu, şair

158.Yusubov Niftalı Puta oğlu

Başdan-başa səhvlərlə dolu olan bu müraciətin səhvlərini özüm bilə-bilə düzəltmədim ki, qoy oxucu bu şəxslərin hansı savadın yiyəsi olduğunu özü görüb qiymətləndirsin. Müəllifi E.İsmayıl. N.Göyçəli, Q.Zimistanoğlu, M.Yusifov olan

bu kiçik mətndə xeyli imla səhvləri var. Bu adamlar öz ana dilini hətta 4-cü sinif səviyyəsində bilmirlər, amma vətənpərvərlikdən dəm vurur, "qoymayın, Vətən əldən getdi" –deyə səs-küy qoparırlar.

Müraciət "Xahiş edirik, bu mənbənin haradan və hansı yolla əldə edildiyi araşdırılsın və xalqımızın təhqirinə yönələn kitab müəllifi barədə qanunvericiliyin tələblərinə uyğun tədbir görülsün"-sözləri ilə başa çatır.

Şikayətin göndərildiyi ünvanlar arasında DTX-nın rəisi general M.Quliyevin də adının olması bu məktuba donos xarakteri verir. Şikayətçilər DTX, əvvəlki adı ilə MTN, DTK olan, xalq arasında əsasən KQB kimi tanınan qurumun sədrindən xahiş edirlər ki, kitabın "müəllifi barədə tədbir görülsün". KQB-nin "tədbir"inun nədən ibarət olduğunu isə oxucuya izah etməyə ehtiyac duymuram. Bu cümlə, "kitab müəllifini həbs edin" deməkdir. Bu insanlar nəyə imza atdıqlarını, öz adlarını tarixə "işverən" kimi saldıqlarının mənəvi məsuliyyətini hələ dərk etmirlər. Bu donosbazların rəhbəri siyahıda 157-ci yerdə duran İsmayılov Eldar Ələsgər oğludur! Təxəllüsü Eldar İsmayıldır! Son vaxtlar "zəhmətkeşlərin xahişi ilə" təxəllüsünə "Böyüktürk" sözünü artırıb. İndi olub Eldar İsmayıl Böyüktürk! Donosdakı imzasından sonra "şair" sözünü yazmağı da unutmayıb.

*Eldar İsmayıl Azərbaycan ədəbiyyatı tarixində başqa bir xəcalət gətirən "yeniliyin" də müəllifidir. Əhatəsində olan indiki havadarlarının köməyi ilə imza toplayıb Prezidentə göndərmişdi ki, ona "Xalq şairi" fəxri adı versin... Amma verm*ədilər, *arzusu gözündə qaldı...*

Donosdakı "Azərbaycanlılar tayfalar şəklində göstərildiyi halda, Suriyadan. İrandan köçürülən və öz dillərini doğru danışa bilməyən ermənilərin milli mənsubiyyəti erməni kimi göstərilib" absurd fikir də ona məxsusdur. Guya mən

Azərbaycan türklərinə "tayfa adları qoyduğum" kimi, ermənilərə də bu cür adlar qoymalı imişəm. Yaxud da ermənilərdə tayfa adı olmadığına görə, türklərdəki tayfa adlarını ləğv etməli imişəm! Bu adam bu cür absurd fikri yuxarıda adı çəkilən yüksək ünvanlara göndərməklə ağıl səviyyəsinin çox aşağı olmağından da utanmır!

"Aşıq Alının adını belə dəyişərək Almədəd olduğunu qeyd edib" fikri isə donosun mətnini qələmə alan Qabil Zimistanoğluna məxsusdur. Q.Zimistanoğlu bir zamanlar jurnalistika ilə məşğul olub. Həm də çörək pulu qazanmaq üçün kafelərdə, ucuz aşxanalarda yemək yeyənlərin sifarişi ilə saz çalıb oxuyurdu. Azərbaycan pulunun indiki kursu ilə 20 qəpiyə! İndiki 20 qəpik o vaxtlar 1000 manat idi və sadə, mağmın əhali həmin əskinasa üstündə Məmmədəmin Rəsulzadənin şəkli olduğuna görə "bir Məmmədəmin" deyirdi. Qabilnən də o vaxtdan, balabançısının evində tanış olmuşdum. Həmin adam mənim qohumum idi.

Mən aşxanalarda çalıb-oxuduğuna, yaşayış üçün vəsait qazandığına görə, əlbəttə, onu qınamaq fikrində deyiləm. Qeyri-kriminal yolla qazanılmış pul halal puldur. Amma insan gərək keçmişini unutmasın və kəsdiyi çörəyə, su içdiyi qaba tüpürməsin. Həmin qohumumuzun evində Qabillə çörək də kəsmişdik, elə haqqında söhbət gedən kitabım nəşr olunanda onu almaq üçün mənimlə görüşəndə də çörək kəsdik. Demək istəmirəm ki, çörək kəsdiyimizə görə yazdıqlarımı mütləq qəbul etməlidir. Onları qəbul etməyib tənqid də edə bilər, amma bütün bu dava-dalaş dövründə yaşca məndən xeyli cavan olmasına və mənim ona heç bir təhqir yazmamağıma baxmayaraq, yarındığı E.İsmayıla və M.Yusifova xoş gəlmək üçün canfəşanlıq edən, mənə təhqiramiz ifadələr yazan, məndən donos yazmağa qaraguruhçuları təhrik edənlərdən ən fəalllardan da biri idi. Mən onun əksəriyyətinə cavab vermədiyim yorumlarını bu kitaba daxil etdim ki, qoy oxucunun özü nəticə çıxartsın. Bütün

bunlar bir yana, evində çörək yediyi həmin qohumumu da aşağılayan ifadələri vardı...

Nə etmək olar, Qabil öz adını tamamilə doğrultu, paxıllığın və şərin simvolu olduğunu təsdiq etdi. Oxuculara məlumdur ki, Adəmin oğlu Qabil də qısqanclıqdan doğma qardaşı Habili öldürmüşdü.

Qabil bütün bunları nəzərə almaya da bilərdi, amma ən azından Aşıq Ələsgərin şeirlər kitabını nəşr etdiyinə görə aşığın nəvəsi İslam Ələsgərin onu məhkəməyə verməsini unutmamalıydı, axı İslam müəllim onu nahaqdan incitmişdi, çünki hesab etmişdi ki, kimsə onun şəxsi mülkiyyətinə girib, inhisarında olan əmlaka təcavüz edib.

Mən onun nəşr etdirdiyi Aşıq Alının şeirlər kitabı haqqında da "Haqq-nahaqq seçilər Haqq divanında" kitabımda müsbət şeylər yazmışdım. Yaradıcılığına görə məhkəməyə çəkilən birinin yaradıcılığına görə başqa birini tutdurmağa cəhd etməsi görünür, ancaq Qabil Zimistanoğluna, qardaşını öldürən Qabilin adaşına xas olan cəhət ola bilər!

Donosun müəlliflərindən biri də Mürvət Yusifovdur. Qabil öz adını hansı səviyyədə doğruldubsa, Mürvət tamamilə bunun əksini etdi. Yəni bu adamın nə mürvəti, nə insafı, nə ədaləti var. Müzakirələrin əvvəlində təkidlə kitabımın nəşrini dayandırmağı, arxiv sənədlərinin "üzərində işləməyi", yəni onları saxtalaşdırmağımı istəyən Mürvət, təbii ki, mənim bunu qəbul etmədiyimə görə açıq-aşkar düşmənçilik xətti tutdu, səhərdən axşama Göbbelsvari yalan, dezinformasiya və şər püskürdü, fitnə-fəsadın simvoluna çevrildi. Guya "vətənpərvər" olan bu şəxs üçün həyatda heç bir müqəddəs şey yoxdur. Mənim tapıntılarımı şübhə altına almaq üçün hətta Qərbi Azərbaycandan deportasiya edilənlərin ruhlarını belə incitməkdən çəkinmədi. 2018-ci ilin fevral ayının 4-də Qərbi Azərbaycandan olan bir qrup adamı toplayıb həmkəndlisi olan

Sabutay Hacıyev adında bir nəfərin "Fotoşop" proqramı ilə Rusiya Dövlət Arxivinin adından düzəltdiyi, savadsız tərtib edilmiş saxta bir "sənədi" ictimaiyyətə təqdim etdi, həm özünü, həm S.Hacıyevi, həm də havadarlarını xar etdi. M.Yusifovun bu "xidməti" sayəsində Rusiya ictimaiyyəti də bu saxtakarlıqlardan xəbər tutdu.

M.Yusifov həm də qarşısıalınmaz "liderlik" xəstəliyinə mübtəla olub. Ünsiyyətdə olduğu adamları şər, təhdid və şantaj yolu ilə özünə tabe etdirərək, hamını onun barmağının işarəsi ilə durub-oturmasını istəyəcək qədər ağılsızlığa düçür olmuş birisidir.

Donosda M.Yusifovun və Q.Zimistanoğlunun adlarını görmədim. Bəlkə də gələcək nəsillərin yaddaşında "işverən" damğası daşımaqdan çəkindikləri üçün imzalarını qoymayıblar. Çünki Aqşin Hacızadə adlı bir nəfər tez-tez məndən Milli Təhlükəsizlik Nazirliyinə (guya "şair" olan bu adam həmin qurumun adını da bilməyən bir savadsızdır) şikayət etmək lazım olduğunu yazanda xəbərdarlıq etmişdim ki, tarixə "işverən" kimi düşəcəklər və nə istəyirlər, eləsinlər. Beləliklə, Mürvətlə Qabilin mənsub olduqları dəstəyə "atdıqları" üzə çıxdı.

Syahıda 158-ci yerdə duran Yusubov Niftalı Puta oğlu isə oxuculara yaxşı tanış olan Niftalı Göyçəlidir. BDU-nun kitabxanaçılıq fakültəsini qiyabi yolla bitirib, dediyinə görə Şəki rayonunda bir müddət Mədəniyyət evini direktoru da olub. Məşhur ispan yazıçısı M.Servantesin yaratdığı Don Kixot obrazının prototipidir.Qaraguruhçu dəstə mənim qeyzimdəm "Göyçə Ustadları" almanaxını çap etmək qərarına gəlmiş və onu hazırlamağı N.Göyçəli ilə Q.Zimistanoğluna həvalə etmişdilər. Qısa müddət ərzində Niftalı elə heyrətamiz hərəkətlər etdi ki, qaraguruhçular iki yerə parçalandı, Qabil müəlliflikdən imtina etdi. Göyçənin böyük saz-söz ustadlarının əksəriyyətini, məsələn, şair Məmmədhüseyn kimi böyük söz sahibini kitaba salmayan Niftalı Göyçəli 5 "şeir"lə özünü həmin kitaba salıb!

Böyük Füzulu demişkən,

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni!

Diskussiyalar Vaxtı N.Göyçəlinin hətta 5-ci sinif səviyyəsində savadının olmadığına dəfələrlə ona göstərmişəm. Məsələn, bu adam yazırdı ki, İran ərzisində mövcud olan dövlətin adı 1936-cı ilə qədər Səvəfilər dövləti olub, onu idarə edən sülalər isə Əfşarlar, Qacarlar sülüləsi olub. Yalnız 1936-cı ildə dövlətin adı İran olub. İndi bu adam bəzi saytlarda Səfəvilər dövlətinin haqqında "elmi məqalələr" yazır, yaşadığı Tüstülü (Kameral təsvirlərdə "Tüskülü") kəndinin adından "tüstülü" adlı bir "türk tayfası" düzəldib iddia edir ki, bu "tayfa" digər türk tayfaları ustaclı, rumlu, şamlı, qacar, əfşar, təkəli, zülqədər tayfaları kimi Səfəvilər dövlətinin qurulmasında müstəsna rol oynayıb!

N.Göyçəli Şah İsmayılın müəllimi, lələsi, onu dövlət işlərinə hazırlayan, Lələ Hüseynin Miskin Abdal olduğunu, özünün isə ana tərəfdən Miskin Abdalın qohumu olduğunu yazır!

Bir nəfərin "bu məlumatları hansı mənbədən götürmüsüz?" sualına N.Göyçəli cavab verir ki, mənbələri sonra açıqlayacağam!

Filologiya elmlər namizədi olan mərhum İslam Ələsgərin elmi dərəcəsini filologiya elmləri doktoru yazır, ona irad tutan adama, "əcəb eləyirəm, mən İslam müəllimi akademikdənn də üstün bilirəm" cavabını verir.

Aşıq sənətində özünü Aşıq Ələsgərdən sonra ikinci, eposda isə Homerdən və Dədə Qorquddan sonra üçüncü sayır!

Qafqaz Albaniyası dövlətinin ömrünü düz 3 əsr "uzadıb" X əsrə kimi yaşadır!

Milli Qəhrəman adı olmayan bir adamı Milli Qəhrəman kimi təqdim edir, irad tutanda, mən belə hesab edirəm, vəssalam,-deyir.

Əgər bu adamın bütün bu komik hərəkətlərini yazsam, ayrıca bir kitab yazmalı olardım.

Əgər bu adam günlərin birində iddia etsə ki, mən Napoleon Bonapartam, mən heç təəccüblənmərəm!

Servantesin yel dəyirmanını düşmən cəngavər bilb hücum edən məşhur qəhrəmanı Don Kixota bənzəyən bu adam, Don Kixotun öz yavərinə verdiyi "Sançо, sən qəhrəman deyilsən, ona görə sənin gözünə elə görünür" kimi cavablar verir.

Amma bu adam müsbət auraya malikdir, çünki bu qədər dava-dalaşın, qanqaraçılığının içində öz hərəkətləri ilə bizi güldürür, gərginliyimizi azaldır. Əslində biz ona bir "sağ ol" da borcluyuq!

2017-ci ilin iyul ayında Ukraynada istirahətdə idim. Atatürk Mərkəzinin müdiri, millət vəkili, haqqında söhbət gedən kitabımın elmi redaktoru, akademik Nizami Cəvərov mənə zəng vurdu.Bildirdi ki, Nizami adına Ədəbiyyat Muzeyinin direktoru, millət vəkili, akademik Rafael Hüseynov "Haqq-nahaqq seçilər Haqq divanında" kitabımı istəyib ki, kitaba rəy yazmalıyam, Akademiyanın rəhbərliyindən istəyiblər. Məlum oldu ki, yuxarıdakı şikayəti-donosu Prezident Aparatından Akademiyaya göndəriblər ki, onlar Dövlət Təhlükəsizlik Xidmətinə mənim və kitabımın haqqında arayış göndərsinlər.

Nizami müəllimin vasitəsi ilə kitabı akademik R.Hüseynova göndərdim, amma açığı, Nizami müəllimin zəngindən sonra məndə bir nigarançılıq yarandı. Amma mənə təsəlli verən bir şey vardı: repressiya qurbanı olmuş böyük şairimiz Hüseyn Cavid haqqında "Vaxtdan uca" kimi qiymətli

bir romanın müəllifi olan Rafael Hüseynov ən azı öz adının tarixdə ləkələnməməsi üçün məni donosbazlara yem etməz. Axı 1937-ci ildə baş verənlər indi müxtəlif arxivlərdə durur, tədqiqatçılar onları gün üzünə çıxarır. Həm də Rafael müəllimi filologiya sahəsində Azərbaycanın ən savadlı, ən çox hörmət bəslədiyim bir neçə alimindən biri hesab etdiyimə görə, mənim yazdıqlarımı oxuyanda onların həqiqət olduğunu görəcəyinə və ağa qara deməyə insafının yol verməyəcəyinə inanırdım.

Akademik Rafael Hüseynovun nə cür rəy yazdığını bilmədim, amma məni arayıb-axtaran olmadı.

Bir neçə ay sonra Folklor İnstitutunun direktor müavini Oruc Əliyev mənə zəng vurub bildirdi ki, haqqımda Akademiya rəhbərliyinə arayış göndərməlidirlər, onu hazırlamaq üçünsə, kitabda istifadə etdiyim arxiv materiallrının surətini onlara aparmalıyam. Arxiv materiallarını hamısının surətini özümlə götürüb İnstituta getdim, Oruc müəllim İnstitutun elmi katibi Elçin müəllimi də dəvət etdi, hər ikisi ilə ətraflı söhbətimiz oldu, donosla orada tanış oldum və sənədləri onlara verdim.

Yəqin ki, başqa İnstititlardan da AMEA rəhbərliyinə arayışlar getdi, amma məni dəvət edib sənəd istəyən başqa biri olmadı. Məni nə Dövlət Təhlükəsizlik Xidmətinə, nə də başqa yerə çağırıb sorğu-suala tutan da olmadı. Görünür, həmin idarələrdə işləyənlər aldıqları cavablardan mənə qarşı irəli sürülən ittihamların absurd və mənasız olduğunu gördülər. Doğrudan da, "niyə ermənilərdə tayfalar yoxdur, türklər isə tayfalar şəklində göstərilib?" ittihamının acı gülüş doğurmaqdan başqa nə cavabı ola bilər? Axı oralarda işləyənlər, aydın məsələdir ki, Eldar İsmayılın, Mürvətin, Qabilin, Niftalının tayı deyillər.

Bütün bu hadisələrdə müsbət tərəf də var idi: bütün elmi müəssissələrin rəhbərləri, əməkdaşları da kitabımla, tədqiqatlarımla, elmi tapıntılarımla tanış oldular. Aşıqların

yaşının şişirdilməsini Azərbaycanın bütün elmi mühiti bildi. Başqa cür olsaydı, kitab oxumağa vaxtı olmayan akademiklər, İnstitut rəhbərləri mənim kitabımdan bəlkə də xəbərsiz qalacaqdılar.

AMEA Folklor İnstitutu "Haqq-nahaqq seçilər Haqq divanında" kitabı haqqında belə rəy verdi:

"Nazir Əhmədlinin "Haqq-nahaqq seçilər Haqq divanında" kitabına rəy

Göyçə mahalından olan bir qrup ziyalının Atatürk Mərkəzinin şöbə müdiri Nazir Surxay oğlu Əhmədlinin yeni çapdan çıxmış "Haqq-nahaqq seçilər Haqq divanında" (Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017) kitabı barədə Azərbaycan Respublikasının Prezidentinə ünvanladığı məktubla tanış olduq.

Öncə qeyd edək ki, Nazir Əhmədli öz kitabında XIX əsrdə Göyçə mahalının tarixi, demoqrafiyası və təsərrüfat həyatı barədə məlumatlarla yanaşı, həmin dövrdə orada yaşayıb-yaratmış bir çox ədəbi şəxsiyyətlərin bioqrafiyası ilə bağlı yeni, bəzən hətta artıq qəlibləşmiş təsəvvürləri təkzib edən sənədlər təqdim etmişdir. Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələri barədə elmi ədəbiyyatda formalaşmış fikirlərin təkzib olunmasının bir qisim ziyalı tərəfindən narahatlıqla qarşılanması anlaşılandır.

Məlumdur ki, qədim və orta yüzillərdə yaşamış şair, alim və filosofların həyatı ilə bağlı faktların ortaya çıxarılması üçün, adətən, onların əsərlərinə yazılmış dibaçədən (ön söz), əsərləri köçürən katiblərin qeydlərindən, saray salnaməçilərinin əsərlərindən, təzkirələrdən istifadə edilir. Təəssüf ki, klassik aşıqlarımızdan çoxunun əsərləri günümüzə yazılı qaynaq kimi deyil, ağızdan-ağıza keçərək gəlib çatdığından həmin klassiklər barədə səhih bioqrafik məlumatlar əldə etmək çətindir.

XVII yüzildən sonra tərtib edilən cünglərdə aşıq şeirlərinə rast gəlinsə də, cüngü tərtib edənlər şeirini verdikləri aşığın nə vaxt

doğulduğu, nə vaxt öldüyü barədə məlumat verməmişlər. Buna görə də Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Qərib, Kərəm və b. haqqında yazarkən tədqiqatçılar onların haqqında söylənən dastanlara, rəvayətlərə və onların şeirlərində təsvir edilən hadisələrə istinad etməli olurlar.

1920-30-cu illərdən başlayaraq Azərbaycanda aşıq şeirlərinin və dastanların toplanması, nəşri və tədqiqinə diqqətin artması aşıqların həyat və yaradıcılığı barədə informasiyaya tələbi artırmışdı. Tədqiqatçılar çox vaxt əllərində dəqiq yazılı qaynaq olmadığından xatirə və rəvayətlərə əsaslanaraq aşıqların ömür yolunu müəyyənləşdirməyə çalışırdılar. Bu isə bəzən araşdırmaçılar arasında mübahisələrə səbəb olurdu. Nazir Əhmədlinin "Haqq-nahaqq seçilər Haqq divanında" kitabı ətrafında gedən söz-söhbəti belə mübahisələrin zirvə nöqtəsi hesab etmək olar. Araşdırıcı XIX yüzildə çar Rusiyasının vergi məmurlarının tərtib etdikləri sənədlərdə Aşıq Alı, Aşıq Ələsgər, Ağ Aşıq, Şəmkirli Hüseyn və b. haqqında olan məlumatları gündəmə gətirir. Bu məlumatlar da həmin aşıqların yaşları ilə bağlı indiyədək İ.Ələsgər, H.İsmayılov, Q.Namazov, M.Həkimov, Z.Məhərrəmov və başqa tanınmış aşıqşünasların əsərlərində göstərilən tarixlərlə uyğun gəlmir.

Nazir Əhmədlinin istifadə etdiyi sənədlər çar Rusiyası vergi məmurlarının tərtib etdikləri kameral siyahılardır. Məlumdur ki, XIX yüzildə Rusiya işğal etdiyi güney Qafqazda Tbilisi Canişinliyi yaratmışdı kı, bu çanişinliyə də Tbilisi, Kutaisi, Bakı, Yelizavetpol, Qars, İrəvan quberniyaları və bir neçə dairə daxil idi. İşğal altında olan bölgələrdə vergidən yayınma halları olmasın deyə, məmurlar kameral təsvirlər hazırlayırdılar. Kameral təsvirlərə bölgədəki kəndlər, kəndlərdə yaşayan əhali, əhalinin yaşı, məşğuliyyəti və mal-mülkü, onlardan ildə nə qədər vergi alınacağı göstərilirdi.

Nazir Əhmədli Ağ Aşıq ləqəbli Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Musa, Aşıq Hüseyn Şəmkirli, Daşkəndli Şair Məmmədhüseyn və başqa aşıqların doğum və ölüm tarixlərini müəyyənləşdirərkən həmin sənədlərdən istifadə edir. Belə

məlumatları yoxlamaq üçün bu yöndə XIX yüzilə aid başqa mənbələr əldə yoxdur.

İndi Ermənistan Respublikası adlandırılan ərazidə tarixən yaşamış türk-müsəlmanlardan, bölgənin etnoqrafiyasından və toponimlərindən bəhs edən tədqiqatçılar – H.Rəhimoğlu (Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997), Ə.Ələkbərli (Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı. Bakı, 2002; Qərbi Azərbaycan, II cild, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları. Bakı, 2002), İ.Bayramov (Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002); V.Arzumanlı, N.Mustafa (Tarixin qara səhifələri: deportasiya, soyqırım, qaçqınlıq. Bakı, 1998), B.Budaqov, Q.Qeybullayev (Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998) və b. əsasən İ.Şopenin 1852-ci ildə Sankt-Peterburqda nəşr olunmuş 1231 səhifəlik "Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə aid tarixi abidə" (İmperator Elmlər Akademiyasının Tipoqrafiyası), S.N.Qlinkanın "Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri" (Moskva, 1931), Z.Qorqodyanın "1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi" (Yerevan, Melkonyan fondu, 1932) və "Qafqaz təqvimi" (müxtəlif illərdəki nəşrləri) kitablarından istifadə ediblər. Bu baxımdan Nazir Əhmədlinin də həmin faktlardan, məlumatlardan istifadə etməsi normaldır. Ümumiyyətlə, arxiv sənədləri hansı ölkədə olmasından aslı olmayaraq, tədqiqatçılar ondan istifadə edirlər. Həmin sənədlərdəki faktları başqa sənədlərlə müqayisə edərək nəticə çıxarmaq araşdırıcının biliyindən, peşə hazırlığından asılıdır.

Azərbaycan SSR dönəmində Göyçədən, eləcə də Ermənistan SSR-in digər bölgələrindən azərbaycanlıların folklorunun toplanması, əsasən, elmi ezamiyyələr, bölgə ziyalılarının şəxsi təşəbbüsü, bəzən də şəxsi işləri ilə bağlı orada olan alimlər tərəfindən həyata keçirilmişdir. Onların bəziləri peşəkar folklorçu olmadıqlarından aşıq şeirlərini toplayarkən folklorşünaslığın əlifbası olan pasportlaşdırmaya diqqət yetirməmişlər. Xüsusən aşıq şeirlərini toplayarkən həmin nümunələri hansı aşıqdan, nə vaxt topladıqlarını qeyd etməmiş, pasportlaşdırmaya ciddi əməl etməmişlər. Bəzən də aşıqları savadsız sayaraq onların söylədiyi şeirlər üzərində düzəliş

aparmışlar. Buna görə də həmin sahədə bəzən təhriflərə yol verilmişdir.

Nazir Əhmədli bəzi aşıq şeirlərini təhlil edərkən özünün bildiyi, eşitdiyi variantları əsas götürmüşdür. Əslində araşdırıcı folklor örnəyinin qeydə alınmış bütün variantlarını gözdən keçirdikdən və müqayisə etdikdən sonra müəyyən nəticəyə gəlməlidir. Alimin dastan və aşıq şeiri mətnlərində "təhrif" dediyi hallar, əgər toplayıcının və ya naşirin mətnə "düzəliş verməsi" – müdaxiləsi deyilsə, folklor mətni üçün normal variantlaşma hadisəsidir və elmi dəyər daşıyır.

Kitabda tarixi, demoqrafik, iqtisadi (təsərrüfat) məlumatlara gəldikdə, bu sahələrin mütəxəssisləri məsələlərə daha düzgün qiymət verə bilər. Orta yüzillərdə, xüsusən, Osmanlı-Səfəvi müharibələri zamanı iki imperiyanın sərhəddində qalan əhalinin kütləvi köçləri olmuşdur. Bu da tarixi qaynaqlarda öz əksini tapmışdır. Nazir Əhmədli öz kitabında istifadə etdiyi qaynağın Göyçəyə köçürülən əhali haqqında verdiyi bilgini təkrarlayıb. Əsərdə adı keçən bölgənin tarixi və orada baş vermiş demoqrafik proseslər barədə AMEA-nın müvafiq elmi qurumlarında çalışan tədqiqatçılarının dolğun elmi araşdırmaları mövcuddur.

AMEA Folklor İnstitutunun direktor müavini: Oruc Əliyev filologiya üzrə fəlsəfə doktoru"

SAZANDƏLƏR

Eldar İsmayılın qaraguruhçu dəstəsi isə donosla kifayətlənməyib, mənə "elmi" cavab vermək üçün də hərəkətə keçmişdilər. Onlar "Göyçə ustadları" adlı almanax hazırlamağı qərara alıb, bu işi Niftalı Göyçəli ilə Qabil Zimistanoğluna

həvalə etmişdilər. Bu barədə onların Facebook səhifələrində bir-birləri ilə didişmələrindən xəbər tutdum. Və hadisələr mənə böyük rus şairi İ.Krılovun "Sazandələr" satirasını xatırlatdı.

Siz də tanış olun.

İvan Krılov

Sazandələr

(*Tərcümə edən Abbas Səhhət)*

Dəcəl Meymun, çolaq Ayı, çəp Keçi

Bir ulağa yoldaş oldu hər üçü.

Dörd səslicə bir musiqi nəğməsi,

Çalmağa həmahəng oldu cümləsi.

İki kamança, iki tar tapdılar.

Oturdular, tərəb bəzmi qurdular,

Mizrabı tara nə qədər vurdular...

Sürtdü kamançaya Ayı əllərin,

Az qaldı ki, lap qopara tellərin.

Heyif ki, çıxmadı tarın sədası,

Ucalmadı kamançanın nəvası.

Meymun dedi: -Bir dayanın, qardaşlar,

Bu növ ilə oturmazlar, yoldaşlar!

Kaman çalanlar üz-üzə otursun,

Qoy tarçılar qalxıb ayağa dursun.

Gəlin indi nəğməni başdan çalaq,

Dağa-daşa, səhraya suriş salaq.

Başladılar nəğmələri çaldılar,

Yenə səs çıxmadı, heyran qaldılar.

Eşşək bağırdı: -Qardaşım! Toxta, dur;

Mən duymuşam illətini bax budur:

Bizim böylə oturmamız qələtdir,

Cərgə ilə duraq, o məsləhətdir.

Tabe oldu tamamısı ulağa,

Amma yenə səs getmədi uzağa.

İştə, yenə mübahisə başlandı,

Oturmaq üstə sözləri uzandı.

Bu əsnada keçdi ordan bir Bülbül,

Yalvardılar, sən et bizə təəmmül.

Biz bir neçə kamança, tar tapmışıq,

Burda bir işrət məclisi yapmışıq.

Xahişimiz budur, bir azca zəhmət

Çəkib bizə oturmağı gəl öyrət.

Bülbül dedi: -Bunlar ilə kar aşmaz,

Bu baş-qulaq kamançaya yaraşmaz.

Musiqi-bir zövq istəyir bu sənət,

Bir də gərək elmlə qabiliyyət.

Sizdə ki, yoxdur bunlardan bir əsər,

Boş yerə zəhmət çəkməyin müxtəsər.

Niftalı Göyçəlının satusu

27 avqust 2017.

Kitab **("Göyçə ustadları" kitabı-N.Ə**.) bir həftəyə hazır olacaq...mənim kompüterim xarab olduğu üçün və təmiri beş-altı gün çəkəcək, bu səbəbdən FB də hələlik (bir həftə)olmaq imkanım yoxdur...indi qonşunun kompüterindən istifadə etdim... Allahın köməyilə yaxın vaxtda görüşəcəyik...

Yorumlar:

Ədalət Ələsgərov: ALLAH yardimciniz olsun.

Firdovsi Qenberov Şukurler olsun ki gunumuzu şad xeberle acdiq. Kitabin hazir olmasi xeberi...

Abulfat Heydar: Allah başinizi uca eləsin

Qərbli Əlvi: Haqq işində Allah yardımçınız olsun.

Abulfat Heydar: Niftalı müəllim Sizə kömək hazırıq. komputeri düzəltdirə bilərik

Mensure Qaçayqızı: Ugurlar!

TelliSenem Borcali: Tebrik edirem...Axarli baxarli olsun...

İntiqam Yaşar: Uğur olsun.

Jala Ahmedova: Təbrik edirəm,dəyərli və əziz Niftalı müəllim! Ömrunüz üzün,uğurlarınız bol olsun!

Fəridə Qədimova: Uğurlu, xeyirli olsun, hörmətli Niftalı müəllim!

Xuraman Camalqızı: Tebrik edirem

Xaliq Rehimli: Təbriklər

Besti Berdeli: təbrik edirəm.

Ələmdar Rəsulov: Təbrik edirəm

Rafiq Goyceli: Günaydın.dəyərli.mehriban şair dostum .qardaşım Niftalı müəllim. Təbrik edirəm. Axarlı .baxarlı olsun

Sefa Veliyeva: gözəl təşəbbüsdü var olun

Mina Əliyeva: Gözlüyürük ,Niftalı müəllim...Xeyirli-uğurlu olsun.

Salman Novruzov: Niftalı müəllim, çox sağolun ki,göyçə və göyçəlilər haqqında yazırsınız. Kitabın çıxmağını səbrsizliklə gğzləyirəm.Sizə can sağlığı!

Telman Abilhasanov: Uğurlar əziz dost!

Adil Cefakes: Uğurlar arzulayıram

Rehman Hesenov: Ugurlar ugurlar vetenperver insan davamli olsun

Sevinc Məmmədova: Uqur olsun, Sair!

Qılman İman: Mübarəkdi

Asdan Qasimov: Allah köməyin olsun.

Məhərrəm Hüseynov: Eşq olsun qeyrətinə!

Uzeyir Hacizade: Inşallah

Sevil Ibrahimqizi: Uğurlar olsun, dəyərli ziyalımız

Almaz Ulvi Binnatova: Mübarəkdir, xeyirli olsun!

Rəsul Murovdağlı: Uğurlar dileyirem.

Medine Veliyeva: Xeyirli və uğurlu olsun!

Ələmdar Rəsulov: Uğurlar olsun ay eloğlu...

Huseyn Memmedov: Niftali Goyceli Sizi yeni kitabnızın işıq üzü görməsi münasibəti ilə təbrik edirəm . Belə deyərdim axrıncı yox axarıncı olsun .Xeyirli olsun .

Mirheydar Abbasov: təbrik edirəm şair, xeyirli, uğurlu, axarli olsun...

Ashiq Farzullah Omidi: xeyirli olsun

Murvet Yusifov: Diqqət! Dostların nəzərinə çatdırmaq istəyirəm ki, bu kitab bizlərin iştirakı ilə yox, Niftalı Göyçəlinin öz fikirlərinin məhsuludu.Bunu nəzərə almağınızı vacib hesab

edirəm.Kitabda yazılanlar haqda bütün məsuliyyət də Niftalı Göyçəlinin üzərindədi!

Başlandı!

Yusif Mirzeyev: Mürvet müellim inboxda cavab yaz gözleyirem

Aqşin Hacı Zadə: nə yazib ki, məsuliyyət söhbəti gedir????

Aqşin Hacı Zadə: Bəli, məhz belə olmalıdır.

Araz Yaquboğlu: Murvet Yusifov hər halda məndən az da olsa inciklisiz (eşitdiyim qədəri). Amma görürsüzmü özümüzünkünə nəyisə düzəliş etdirə bilmirik. Özgəsindən necə tələb edək? Tarix və zaman hər şeyi ayırd edəcək.

Murvet Yusifov: Araz Yaquboğlu, müzakirələrin burada çözülməsinin tərəfdarı deyiləm. Antologiya kitabının nəşr olunacağı ilə bağlı mən də status qoymuşdum. Kitaba daxil olacaq materiallarla tanış olandan sonra tam olaraq etiraz etdim. Niftalı Göyçəli öz bildiyində qaldığından ilk olaraq mən kitabın nəşrinin əleyhinə oldum.Burda da münasibət bildirməyi özümə borc hesab etdim ki, dostlar bilsinlər ki, bu kitabda biz yoxuq!

Murvet Yusifov: Buna məcburam. Bu statusun yeri deyildi!

Mürvət Yusifovun xəbərdarlığına baxmayaraq təbriklər davam edir. Bu o deməkdir ki, onlar M.Yusifovu dəstəkləmirlər. İşverən Aqşin Hacızadənin Mürvətə əks cəbhədə yer alması isə maraqlıdır. Sonra məlum oldu ki, burada maraqlı tərəfdir.

Metleb Humbetov: Təbrik edirəm Nifdalı müəllim uğurların davamlı olsun

Aqşin Hacı Zadə: Xeyirli və uğurlu olsun Niftali Goyceli. Bu el istəyindən, sevgisindən irəli gələrək çəkmiş olduğunuz əziyyətin məhsulu olar yəqin. Mən belə düşünürəm

Flora Mikayilova: Yorulmayasiz .

Naile Novruzova: Sevincinizə goşulub təbrik edirəm.

Təvəkkül Goruslu Məmmədov: In şə Allah! Uğurlar arzulayıram!

Zohrab Shirinov: Uğurlar!

Puste Sahibqizi: Ugurlar

Rafiq Mammed: Uğurlar davamlı olsun, Ustad. Allah cansağlığı versin...

Kamandar Zeynalov: Tarixi həqiqətlərə söykənən, şəxsi yox ümummilli meyarları özündə cəmləşdirən bu işinizdə Sizə ulu Tanrıdan uğurlar, sağlam ömür və davamlı yaradıcılıq nailiyyətləri arzulayıram. İnşallah xeyirli, uğurlu və düşərli olar. Var olasız.

Ebulfet Adil Oglu: Niftalı müəllim təbrik edirəm. Xeyirli, uğurlu olsun.

Araz Yaquboğlu: Təbriklər Niftali Goyceli.

P.S. Qabil Zimistanoglu həmmüəlliflikdən niyə çıxdı?

Qabil Zimistanoglu: Niftalı Göyçəli kitaba aid olmayan və həqiqətə uyğun olmayan məlumatlar daxil etdiyi üçün müəlliflik hüququndan imtina etdim. Kitaba daxil edilmiş mən tərəfdən təqdim olunmuş Ağ Aşığın 40-a yaxın, Aşıq Alının 10 dan artıq şeirini çıxarılmasını tələb etdim. Hesab edirəm ki, Niftalı Göyçəli mənim təqdim etdiyim materialları bu kitaba salmayacaq. Hazırda ***əsl Antologiya*** üzərində işləyirik, Ustadlarla bağlı yeni məlumatlar və şeirlər əldə etmişik. Mükəmməl bir şəkildə Ustadların Antologiyası kitabı oxuculara tərəfimizdən təqdim olunacaqdı.

Araz Yaquboğlu: Qabil Zimistanoglu antalogiya adlananda kitab gərək o ada uyğun ola. Dediklərindən də belə anlaşılır ki Niftali Goycelinin yeni ktabı mübahisəli bir kitab olacaq.

Araz Yaquboğlu: Yazılan kitablar bu gün adi görünsə də 50 il sonra bir tarixi mənbə olacaq. Ona görə də diqqətli olmaq lazımdı. Keçən dəfə də Niftali Goycelini kitabının adında səhv vardı. MİLLİ QƏHRƏMAN PƏNCƏLİ.

Qabil Zimistanoglu: Araz Yaquboğlu Eger kitab detallara etiraz etdiyim shekilde ve antologiyanin adina uygun olmayan

materiallar daxil edilmekle chap olunacaqsa ***menasiz bir kitab olacaq.***. Kitab chixirsa bu tekrar-tekrar oxunmalidir ki sehvler tutulmasin.Tez-telesik chixan kitabda qusur da chox olur.. Siz nece sehv tutursunuzsa bu kitbda da sehv tutmaq isteyenlerin sayinin chox olacagini nezere alaraq kitabin uzerinde mesuliyyetle ishlemek lazimdir.O dur ki bashqa formatda kitabin hazirlanmasi istiqametinde ciddi ish gedir. Niftali Goychelinin derc edeceyi kitabla bagli hech bir aidiyyetimiz yoxdur. Dede Elesger haqqinda meshur soz ustadlarinin dediyi sheirler de kitabda oz eksini tapacaq. Tamamile zengin bir kitab olacaqdir.

Araz Yaquboğlu: Qabil Zimistanoglu Niftali Goyceli öz eloğlumuzdu. Versin lap mən də oxuyum. Bəlkə ağıllı bir təklifimiz oldu elə. Çap olunmamışdan öncə iki üç adamın oxuması məsləhətdi.

Qurbetde Parlayan Qigilcim: Tebrik edirik, Niftalı müellim! Yolunuz aydın, her işiniz uğurlu olsun ! Amin.

Bu adla yazan İslam Ələsgərin qız nəvəsi Sima xanımdır. Məlum olur ki, o da Mürvətin yox, Nftalının tərəfindədir, yəni Aşıq Ələgərin qohumları N.Göyçəlini dətəkləyirlər. Bu, Mürvətin və Qabilin Niftalıya uduzduğunu göstərir.

Zarifa Cabiyeva: In Şa Allah

Nazila Karimova: İnşallah

Ilham Qazaxli: Salam,Niftalı müəllim.Yeni-kitabı nız xeyirli-uğurlu olsun,!

Sudabe Irevanli: Çox gözəl. Allah sizi qorusun eloğlum.

Sadaqet Seyidzade: İNŞALLAH

Memmed Qedir: İnşallah!

Lilpar Cəmşid Qızı: Uğurlu olsun

Memmed Merzili: Uğurlar olsun!

Ferqane Mehdiyeva: Təbrik edirəm gözəl Şair!

Leyla Macidova: Axarli olsun :) ugurlar dileyirem!

Zodlu Maarif Bextiyarov: Xeyirli uqurlu olsun

Haci Nusret Kamilov: Qabil bey sözünüzden bele çıxdıkı narazılıq indiden var. Narazılıq olan yerde bın bereket olmur. Ustadların adına layiq olmayan kitabı heç kim qebul etmeyecek. Niftalının paylaşdığı paylaşmadan gördüm o yalan danışır

Mahmud Memmedov: Niftalı beyi sedaqeti itirmemeye çağırıram. Aldığım melumata göre ***Niftalı bey etibardan sui istifade edib.*** Bu yaxşı hal deyil.Zererin yarısından qayıtmaq xeyirdi.

Xazanqul Huseynova: KitabınıZ uğurlu, xeyirli olsun. Yeni yollu, sağlı sollu olsun. Təbrik

Elman Israfiloglu: Allah köməyiniz olsun ki, belə bir xeyirxah iş görürsünüz. Uğurlar arzulayıram, eloğlu.

Macid Namazov: Ugurlar olsun. tam mukemmel iş aparacaginizla sevinirem

Vuqar Kamilli Quliyev: İnşallah.

Qurbetde Parlayan Qigilcim: Ne baş verir, neden fikir ayrılığı yaranıb? Tekrar sehvlere yol vermeyin, onsuz da bu milletin daşıdığı "ağır derd yükü" özünden defelerle böyükdü...

Fazil Elioglu: Uğurlar

Miraslan Bekirli: TƏBRİKLƏR

Nezaket Memmedova: Təbrik edirəm.Uğurlar!!!

Imdad Kazim: Təbrik edirəm Niftalı müəllim! Uğurlar!

Qabil Zimistanoglu: Artiq men muelliflik huququndan imtina etdiyim uchun . Niftali Göycheli ile kitabla bagli hech bir .muzakire aparmiram ve elaqem yoxdur.. Bashqa formatda Kitabin uzerinde dostlarla birge terefimden ish gedir. Islediyimiz kitaba Dede Elesgerin neticesi Xetai Elesgerlinin teqdim etdiyi marqali materiallar da salinacaq.

Şebnem Bunyadzade: Ayıb olsun. Seher yazdığını axşam olmamış pozan adam ne kitab yazacaq.

Qabil Zimistanoglu: Hazirda kitabin chapa hazirlanmasi uchun Murvet bey Xetai Elesgerli ve men terefden ciddi ve lazimi ishler gorulur.

Q.Zimistanoğlu bir neçə dəfə N.Göyçəlidən ayrılıqda bir kitab hazırladıqlarını bəyan etsə də, bir az irəli gedib bildirməliyəm ki, həmin işi görə bilmədilər. "Göyçə aşıqları və el şairləri" 2 cildliyini tərtib edən professor H.İsmayılovun 2-ci cildə Aşıq Ələsgərin yaradıcılığı haqqında yazdığı 103 səhifəlik məqaləni "Aşıq Ələsgər" haqqında monorafiya adı ilə çap etdirdilər. N.Göyçəlinin çap etdirdiyi "Göyçə Ustadları" kimi bu kitab da həddindən artıq qüsurlu kitab idi və hər ikisi haqqında tənqidi məqalələr yazdım, onların yararsızlığını sübut etdim. Bütün bunlar haqqında oxucuların məlumatı olacaq.

Qabilin Xətai Ələgərlə bağlı ümidləri də boşa çıxdı. Xətai də Niftalının tərəfinə keçdi.

Qabil Zimistanoglu: Şebnem Bunyadzade statusda ne yazilmishdir ele? Internete yeni daxil oldugumdan xeberim olmayib.

Şebnem Bunyadzade: Oxuyanda gözüme inanmadım. Ele bildim söyüş qehremanı yazıb. Sizin ve Mürvet beyin ünvanına yazılan böhtan olduğu açıq görünürdü. Neçe aydı bu işin içinde olduğumdan gün kimi aydın görürdüm. Hazırladığım qezeb dolu reyi yazınca sildi. Burdakı adamlar özlerini şirin salmaq evezine onu başa salsalar yaxşıdı

Qabil Zimistanoglu: Umumuiyetle bohtan danishmagi sevmirem. Bohtan danishanlarla da aram yoxdur. Amma bu mesele umumxalq meselesi oldugu uchun kimse sehve yol verib bohtana yol vermemelidir

Mahmud Memmedov: Niftalı bey allah xatirine bu yazını da sil get istirahet ele. Kifayet qeder yaşın var. Bu biabırçılıq lazım deyil

Abbas Bağırov: Bir dəmir çarıq geydim ki, altı deşilməsin dost axtarışında. Çarıqlarımın altı deşildi cəmi 4 ya 5 dost tapdım. Fb-də isə çarıqsız zadsız 5000 dən çox dost tapdım. Kaş tapmaz olaydım təəssüf. ***Səhnəyə çılpaq çıxan artistlərin şousu lazım deyil.*** İnsan halı olduğu gördüyü şeyi mütləq sayar eşitdiyi yox. Qulaq aldadar, dil aldadar amma göz nə görürsə o düzdür. İndi

hörmətli Niftali Goyceli hörmətli Qabil Zimistanoglu ilə bir kitab yazmaq istədi sonra da fikir ayrılıqlar oldu pozuldular. İndi də hərəsi ayrı ayrı yazsın. Kim kitab həvəskarıdır o da yazsın. Amma özünə hörmət qoyan kəs başqasını bihörmət etməz. Dərd budur ki aylardır saxta profillər öyrədilmiş adamlar içərinizdə işləyir xəbəriniz olmadan indi də açıq ekranda rüsvayçılıqla məşğulsunuz. Haqqımızda girdimsə bağışlayın hər kəsi blok edəcəm. Heç görmək istəmədiyim məsələləri gördüm.

Elchin Ahmedov: Goyce tarixi vaxtile deyerli ziyali tedgigatcilarin intellektual emeyi neticesinde tedgig olunub obyektiv formada ve mezmunda tariximize hekk olunub.Ona gore tarixe toxunmag olmaz .Etnografiyani pozmag olmaz..Tebii ki Goycenin Gizil fonda layig ziyali yaradici lari olub Asig Elesger Asig Ali Misgin Abdal ves. Yaxsi olar ki bizim Goyce mahalinin tarixine marag gosteren tedgigatcilarimiz klassik Goyce Ziyalilarinin felsefi bedii mezmunly eyni zamanda beseri deyerleri ozynde eks etdiren poetik eserleri tehlil edib ordan cixan bu gynyn realligini eks etdiren myddealar dovriyyeye bir daha daxil etsinler. Bu yanasma daha faydali ve daha myasir ola biler.

Бабек Абушов: uğurlar diləyirəm!

Nüyvər Şərifova: Təbrik edirəm əziz insan dostumVar ol daima.Amin. Davamlı olsun. Amin

Ramil Zeynalov Axirki, Nazir Ehmedlinin ölənlərine rehmet oxutduz... Bu nedi ne olan şeydi ne biabırçılıqdi.....biz neyi bole bilmirik goresen? Allah bizim tekkeburluk ve şohretpereslik hisslərini ikrah[9] ele... Amin...

Murvet Yusifov: Ramil Zeynalov, burada müzakirə tərəfdarı olmasam da sənin ağır ittihamına cavab vermək məcburiyyətindəyəm.

Niftalı Göyçəlinin hansı fikirlərinə irad tutduğumu açıqlayıram.

1. Kitabda öz babası haqqında yazdığına irad tutmuşam ki, kitab bəşəri idea daşıyıcıları olan 4-5 ustaddan bəhs etdiyi üçün

[9] Yəqin "islah elə" mənasında demək istəyib. Amma o qədər savadsızdır ki, bu cür yazıb, çünki mənasını bilmir.

mübahisə yaradacaq bir işdi.
2. Adil Cəfakeş, Aşıq Cahangir və digərlərinin şeerlərini kitaba salmağını qeyri məqbul hesab etmişəm. Hansı ki, bu şeerlərin ustadlara heç bir aidiyyatı yoxdu.
3. Dədə Ələsgərin şeerlərini redaktə adı altında dəyişdirilməsinə etiraz etmişəm. Dədə Ələsgərin toxunulmaz olduğunu bildirmişəm.
4. Dədə Ələsgərin məlum bağlamasını açmasını yenidən işləməsini təklif etmişəm. Çünki, bu aşmaya bir nəfər dini fəlsəfi elmlər doktoru ciddi irad bildirmişdi.
5. Kitabda Göyçə mahalının qədim adının Sevan olduğuna aid yazının çıxarılmasını tələb etmişəm. O iddia edib ki bu barədə faktları var. Söhbətin 18-19 -cu əsrlərdən getdiyini xatırladıb yazını çıxarmağı tələb etmişəm.
Bəli, Dədə Ələsgər Ocağı yaradılmasını, əgər effekt verərsə maliyyə məsələlərində mən olmamaq şərti ilə ***fond yaradılmasını təklif etmişəm.***
Bütün bunlar dördümüz- Niftalı, Qabil, Xətai və mənim aramızda müzakirə edilib.
İndi sözlərinizin ünvanını müəyyənləşdirin!

Ramil Zeynalov: Metanet Amirli diqqetinizden dolayı tşk.

Ramil Zeynalov: İkinciside Murvet Yusifov ünvanlı yazı deyil o müzakirənin indiki veziyyetde burda müzakirə olunmasının terefdari deyilem!!!!

Murvet Yusifov: Üç həftə məsələni kənara çıxarmamağa çalışmışıq. Sən özün də şəxsidə yazıb vəziyyətlə maraqlanmısan. Şahidsən ki, sənə də heç nə deməmişəm. ***Amma bu üç həftədə çəkdiyimi çəkmişəm.***Hər kəs bilir, bilməyənlər də bilməlidi ki, mən el uğrunda təmənnasız mübarizə aparıram, heç bir şəxsi marağım, şəxsi iddiam yoxdu. Kitab məsələsində də istəyim mükəmməl kitab ortaya çıxmağıdı. Amma etdikləri ilə kifayətlənməyib, sosial şəbəkədə müzakirəyə çıxartdı((.Dəfələrlə izah etmişəm bu kitab sıradan bir kitab deyil. Bu kitaba on minlərlə maraq var. Həm müsbət, həm mənfi mənada. Ona görə də təklif etdim ki, 5-

10 nəfər tanınmış ədəbiyyatçı və tənqidçilər kitabı oxuyub rəy yazsınlar.Bu təklifləri səhv etmişəmsə buna münasibət bildirin!

Ramil Zeynalov: Eger kitabdan gedirse sohbet eslinde geniş ve deqiq müzakirə olunmalıdı. Fikrinizle razıyam...

Murvet Yusifov: Mən kitab barədə danışıram. Bəlkə sən başqa bildiklərin var?

Qabil Zimistanoglu: Ramil Zeynalov Murvet bey tamile duz deyir. H'min teklifleri men ve Xetai Elesgerli de Niftali muellime etmishik. O ise evvel razilashib sonra ise birden-bire kitabin ishiq uzu goreceyi ile bagli informasiya yayimlayib. Kitabin olduqca qusurlu olacagini nezere alib müelliflikden imtina etmishem. Ona gore kiminse bilmediyi mesele ile bagli hansise fikir yurutmesi yolverilmezdir. Odur ki Ustadlarla bagli kimse hansise tehriflere yol verecekde kimliyinden asili olmayaraq arqumentler qarshisinda qalacaqdir.

Ramil Zeynalov: Eslinde biz eyni fikirləri dikte edirik. Men bu müzakirənin burda olmağının elehineyem..

Ramil Zeynalov: İttiham deyil ureyimden geldi sadece

Etibar Etibar: Uğurlar

Murvet Yusifov: Niftalı Göyçəli fbda ***məni dostluqdan çıxarıb. Yəqin bundan sonra blok da edəcək!***Mən buradan dolayısı ilə ona dəstək verənlərə səslənirəm:Söhbət eldən gedir. Kiminsə iyrənc hərəkəti mənim vətən, el-oba sevgimi əngəlləyə bilməz! Mən mənliyimdə qalacam! Əgər onu istəyirsinizsə əyri yoldan çəkindirin!Bu dəstəyiniz onu uçuruma aparır....

Elbrus Caferov: Temkinli olun.

Mahmud Memmedov: Yeqin bu oyunu başlayanlar peşman olacaq

Murvet Yusifov: Mənə təsir edən sildiyi statusunda ünvanıma işlətdiyi sözlərdi. Oğru çığırıb doğrunun səsini batırmaq buna deyirlər!!!!

Niftali Goyceli: Məni təbrik edən dostlara təşəkkürlərimi bildirirəm və hər birinizin qarşısında ehtiram edirəm!

Kompüterimi təmir elətdirdiyim müddətdə sizinlə əlaqəm imkansız oldu....

N.Göyçəlinin xeyrinə başa çatan birinci raunddan belə məlum oldu ki, Mürvət Aşıq Ələsgərlə bağlı fond yaratmağı təklif edib, Niftalı onun bu təklifindən məharətlə istifadə edərək Mürvətin maddi maraq güddüyünü bildirir. Bu isə adamları Mürvətdən uzaqlaşdırıb. Əslində buradakı dil pəhləvanları fonda pul vermək istəmədiklərinə görə, həmin fondu da, onun yaradılmasını təklif edən Mürvəti də boykot edirlər.

Yadınızdadırsa, Mürvət bir vaxtlar məni boykot etməklə hədələyirdi.

Daha bir "qəhrəmanımızı", Hamletsayağı monoloqları ilə yadda qalan Babək Cəfərovu da xatırlamağınızı təklif edirəm. Demişdi ki, dünya fırlanır! Onun dediyi kimi oldu, boykot Mürvətin öz başına gəldi.

Niftalı Göyçəlinin statusu
28 avqust 2017.

GÖYÇƏ USTADLARI KİTABINA QARŞI ƏSSASIZ İRADLARA CAVAB

Dostlar, kitab haqqında Qabil Zimistanoğlunun dediyi həqiqət deyil. Aşıq Allahverdinin kitaba daxil olan şeirləri Şair Məcnun Göyçəlinin ona verdiyi şeirlərdir və neçə illərdi ki, saxlamışdı. İndi kitabda da istifadə olunan mənbə "Şair Məcnun Göyçəlinin arxivindən" göstərilmişdir. Aşıq Alının da şeirləri "Şuşa qəzeti"ndə nəşr olunanlardır və qəzetin adı, tarixi şeirlərin altında qeyd olunur... "Göyçə Ustadları antologiyası" layihəsi mənim ideyam olub və A-5 formatında(kitab formatı) Qabil Zimistaoğluna vermişdim ki, üzərində işləsin və ikinci müəllif kimi adını da qeyd edək. Əvvəlcə razılaşmışdı, sonradan ***birinci mübahisəmiz İslam Ələsgərlinin tərtib etdiyi kitabda "olmaz-***

olmaz" şeirinin "namərd ilqarı" sözü üzərində başladı. Mənim fikirim İslam Ələsgərlinin tədqiqatını müdafiə etmək oldu...Qabil Zimistanoğlu mənim əleyhimə getdi...İslam Ələsgərli nə zamansa Qabil Zimistanoğlu barəsində məhkəməyə müraciət etməsini danışdı...İslam Ələsgərli Qabil Zimistanoğlunu ona görə məhkəməyə vermişdi ki, Qabil Zimistanoğlu Aşıq Ələsgərin mükəmməl işlənməmiş kitablardakı şeirlərindən istifadə edib kitab nəşr etdirmişdir...İslam Ələsgərli bütün həyatı boyu Aşıq Ələsgər irsini toplayıb, bəzi təhrif və qərəzlərdən təmizləmiş zəka sahibi filoloq alimdir...Mən kitabda İslam Ələsgərlinin şəkilini ehtiram və qürür əlaməti olaraq yerləşdirmişəm. ***Mürvət Yusufovun da indi nə işlə məşğul olması artıq mənə çatdırılır...Adam özünə aid olan işlə məşğul olsa, yaxşı olar..***.Onun narazılığı: Kitaba on-on beş tanınmış adamlardan rəy toplamaq, ***fond yaratmaq*** və s. siz kitabın üz qabığının paylaşmasında onun rəyini xatırlayın...Mən bu kimi fikirlərin əleyhinə getdim...Göyçənin xeyirxah oğullarından olan Akif Nəbiyev maddi yardım göstərməsi bəs edər...Kitabda Hörmətli şairimiz Eldar İsmayılın rəhbərliyi ilə çap olunan Qərbi Azərbaycan-Göyçənin işğalı" kitabından Göyçə tarixinə aid xülasə ön söz yerində verilmiş və kitabın adı da qeyd olunmuşdur. Kitabda Özan Heydər, Miskin Abdal, Aşıq Alı, Aşıq Ələsgər şeirlərindən seçmələr verilmiş, "I hissə" adlandırılmışdır və yekunlaşdırılmışdır. Başqa məsələlər haqqında kitabın bir on günə əldə edilməsindən sonra bəhs olunacaq. Qeyd edim ki, elmi məsləhətçi: ***Eldar İsmayıl Böyüktürk,*** fəlsəfə üzrə məsləhətçi: Doktor ***Hacı Abbas,*** arxiv üzrə materialların araşdırıcı jurnalist: ***Füzulu Sabiroğlu,*** şəcərə məlumatları təqdim edən: ***Xətai Ələsgərli.*** Bundan əlavə, ***Aqşin Hacızadənin*** Aşıq Ələsgər haqqında çox dəyərli şeirindən bir bənd də başlıqda verilmişdir..İndi kompüterim təmirdədir və "internet klubda" bu yazını yazdım...iki günə kompüterimi əldə etdikdən sonra yazışmaları davam etdirərik...Allah haqqı nahaqqa verməsin!.

Yorumlar:

Mirheydər Abbasov: təbriklər niftali müəllim, xeyirli, uğurlu, axarli olsun...

Qılman İman: Niftalı müəllim yaxşı olardı siləsən bu statusu

Mahmud Memmedov: Sadece ayıb olsun. Kitabı da statuslarını da sil işinle meşğul ol.

Ilqar Velibeyli: İşiniz uğurlu olsun eloğlu

Suleyman Semedoglu: Xeyirli olsun.

Elbrus Caferov: Niftalı m. müzakireleri dostlar kendi aralarında yaparsa güzel olur.Gabil beyi çağır konuş.

Mirze Mirimli: Sizə uğurlar əziz Niftalı müəllim!!

Aqşin Hacı Zadə: yordu bizi bu yeri olmayan mübahisələr.((

Rehman Hesenov: Bu mubahisseler davam etse "duşmenlere" ehtiyac yoxdur ?

Abbas Bağırov: Hörmətli yoldaşlar, kitabın PDF formatında sizlərin müzakirəsinə verilməsi təklif olunmuşdur. Maraqlananlar müzakirə etsin, ehtiyac olmasa çapı dayandırılsın, düzəliş verildikdən sonra yenidən çapa verilər! Amma lazımsız müzakirələr yox, haqlı iradlarımızı bildirək!

Mürvət Yusifov: Niftalı Göyçəli, məni məcbur etmə ki, olan söhbətləri açıqlayım. Bura qədər etdiklərin bəs edər! Ortada olanlar açıqlansa sənin üçün yaxşı olmaz!

İsmayil Hasanov: Bu qədərdə yox çənablar dayanin ayilin özünüz özünüzlə yox düşmənlərlə mübarizə aparin bu mümkün deyilsə Göycə haqda yazmağı özünüz özünüzə qadağa eləyin.

Murvet Yusifov: Niftalı Göyçəli, Mürvət Yusifovun şəffaflığı göz qabağındadı. Elin belə məqamında ortada olan 5-10 nəfərin də arasını vurub pozuculuqla məşğul olma!Mürvət Yusifovun iradları 3 həftə dördlükdə səslənib. ***Sən, Qabil Zimistanoğlu, Xətai Ələsgərli və mənim aramda.*** 3 həftə sənin nazınla oynamışıq. Hərəkətlərinin qarşısı alınmadığını görüb bəzi dostları məlumatlandırmışam. Bunu da haqq etdiyimin

fərqindəyəm.Bir daha təkrarlayıram. Müzakirəni burda yox realda etmək lazımdı. Üz-üzə! Eli bizə güldürmə!!!

Murvet Yusifov: Burda çözməyi o seçibdi. Fikrimcə burada səsləndirilməsi mümkün olmayan məsələlər var. Qeyd etdiyim kimi ***bu məsələləri dördlükdə çox müzakirə etdik.*** Niftalı Göyçəli sanki qarşısına pozuculuğu məqsəd qoydu.İndi də aktivlərin iştirakı ilə hər hansı diskussiyaya hazıram

Hadisələr heyrətamiz dərəcədə oxşardır. Krılovun "Sazandələr" təmsilində olduğu kimi, burada da 4 personaj işdirak edir:

Dəcəl Meymun, çolaq Ayı, çəp Keçi,
Bir ulağa yoldaş oldu hər üçü.

Mahmud Memmedov: İşin bu dereceye gelmesinin baiskarı ola ola hoqqabazlıq eleme Niftalı Göyçeli. El işini pozmağın yaxşı hal deyil.Lazımsız hereketlerini saxla sonra gec olar

Murvet Yusifov: Niftalı Göyçəli, ***"Mürvət Yusifovun da nə işlə məşğul olduğunu mənə çatdırırlar"*** deməklə özünü nə kimi təqdim etmək istəyirsən? Mürvət Yusifov çoxlarından fərqli olaraq sözü konkret və üzə deməyi bacarır. İlkin iradlar da tərəfimdən səslənibdi.Gəl, detalları burda açıqlamağa məni məcbur etmə! Bir daha bildirirəm ki, çap etdirəcəyin bu kitab sənin beyninin məhsuludu və onun bizlərə aidiyyatı yoxdu!

Kitabınla bağlı yazıb sildiyin statusuna isə Mürvət Yusifov rəy yazmayıb. O səhvlərini də üzünə söylədi. Fikrini topla, eli bir birinə vurma!

Saat 16 radələrində Niftalı təzyiqlərə davam gətirməyib statusunu sildi. Amma növbəti gün yenidən meydana çıxdı:

29-30 avqust 2017
Niftalı Göyçəlinin statusu

"Göyçə ustadları" antologiyası Kitabının başlanğıcı.... ERMƏNI MILLƏTÇILƏRININ SAXTAKARLIĞI HAQQINDA QEYD

1828-42-ci illər İrəvan xanlığının Çar Rusiyası tərəfindən işğal olunması ilə xanlığın ərazisində İ.Şopen tərəfindən "kameral" vergi siyahısı tərtib edilmişdir. Bu siyahıda Göyçə mahalında o zaman adları qeyd edilən bəzi erməni əhalisinə aid kəndlər movcud olmamışdır. Burada İ.Şopenin xaçpərəst missioneri kimi fəaliyyəti nəzəri cəlb etmişdir və SSRİ dovründə də ciddi qəbul olunmayıb... Əsas mübahisəli məsələ Ağ Aşıq Allahverdinin, Aşıq Alının, Aşıq Ələsgərin doğum tarixlərinin təyin olunmasından ibarətdir. Kameral siyahıda Ağ Aşıq Allahverdi haqqında yazılı məlumat ailə tərkibinə tamamən uyğun gəlmir, fəqət uyğun gələn bir ailəni "Göyçə mahalının kameralı" müəllifi təkidlə əsassız sübuta yetirmək istəyir. Aşıq Alının da ailə tərkibi- atası, anası və bir bacısının olduğu tarixə məlumdur. Müəllif kameralda guya Aşıq Alının adının Almədət olmasını deyərək, eyni zamanda ailəyə heç uyğun gəlməyən bir siyahını təqdim edir... Aşıq Alı bütün şeirlərini "Alı, Aşıq Alı" adı ilə yazması hamıya məlumdur. Aşıq Ələsgər ailəsiə aid kameral siyahıda erməni millətçiləri ***1842-ci il siyahısını 1873-cü ilə saxtalaşdıraraq meydana buraxmışlar.*** Bu Göyçə ustadları səh.5 kameralda da hələ o zaman səhv olaraq Aşıq Ələsgərin babası Allahverdini atası Alməmmədə böyük qardaş yazmışlar... Antologiyada 1849-cuildə "Qafqaz" jurnalının ***redaktoru*** Polonski tərəfindən Aşıq Ələsgər haqqında məlumat verildiyi qeyd edilir. ***1925-ci*** il "Dan ulduzu"jurnalında da ustadın yaşının yüzü keçdiyi yazılır və digər tarixi mənbələr də antologiyada öz əksini tapmışdır, usdadlar ömür yaşlarını: səhifə-122, 129,156, 174 şeirlərdə bir daha demişlər...

GÖYÇƏ MAHALINA AİD TARİXİ XÜLASƏ

Müəllifləri Eldar Ismayıl və Gündüz Əhmədli: "QƏRBİ AZƏRBAYCAN, GÖYÇƏ-ERMƏNİ İŞĞALI" kitabında Göyçə mahalının bizim eranın əvvəlindən 1988-ci ilə kimi tarixi

ardıcıllıqla əlamətdar hadisələrlə, etnonim, toponim, hidronimlərlə əlaqəli yetərincə məlumatlar verilmişdir.

Tarixə məlum olan, ərazisi Böyuk Qafqazadan və Kiçik Qafqaz, indiki Cənubi Azərbaycan da daxil olmaqla,qüdrətli ***Alban dövləti hələ eradan əvvəl təşəkkül tapmaqla eramızın X əsrinin ortalarına kimi ictimai-siyasi-mədəni tarixi mərhələlər keçmişdir.*** Göyçə mahalı da Alban dövləti ərazisində yaşayış məskəni - el-oba kimi mövcud olmuşdur. Göyçə gölünün bütün sahili boyu sağ-sol Şahdağı silsiləsi, Şiş piləkən, Qırmızı dağ silsilələri dairəsində yerləşən müasir kəndlərin ərazilərində qədim dini-mədəniyyətə aid oğuz qəbirləri, V-VI-IX əsrə aid alban xaçlı qəbir daşları indi də qalmaqdadır. Tarixi qədim dövrlərə gedib çıxan "Dədə Qorqud dastanları" nda da Göyçə ustadları səh.6 Göyçə gölü (Göyçə dənizi) hidroniminin adı çəkilir. Göyçə mahalnda Babacan-Baybecan etnonimi kimi kənd adı 1988-ci ilə kimi qalmaqda idi.XII əsr Atabəylər dövlətinin (1136-1225) başçısı Şəmsəddin Eldənizin hakimiyyəti altında olan cöğrafi ərazidə, Qaraqoyunlular hakimiyyəti ərazisində Göyçə mahalı da movcud olmuşdur. Göyçə mahalında Qaraqoyunlu kəndi etnonim kimi buna bir dəlildir. ***XV əsr Səfəvilər dövlətinin*** tərkibinə daxil olan Göyçə mahalında Şah İsmayılın bu ərazidə olması ilə bağlı "Şahmeydanı" toponimi də vardır. ***XIV əsrin əvvəllərində Şah İsmayılın sərkərdələrindən*** olan Rəvanın başçılığı ilə"İrəvan qalası"nın tikilməsi də gerçək bir tarixi hadisədir. Nadir Əfşarın hakimiyyəti illərində ***(1735-1747***) şah qoşunu Göyçə ərazisindən keçməsi və bu hadisə ilə bağlı "Topaşan", "Nadir qayası" və s. toponimlər yaranmışdır.***1828-ci*** il Çar Rusiyası tərəfindən İrəvan şəhəri işğal olunandan sonra İrəvan xanlığının Göyçə mahalı inzibati ərazi baxımından Nor Bayazet bölgəsinə daxil edilmişir.

1921-ci ildə Ermənistan SSR yaranması ilə ***Göyçə mahalı Ermənistan torpağı adı ilə haqsız bir tarixə çevrilmişdir*** və1988-ci ildə erməni millətçilərinə havadarlıq edən rus ordusu tərəfindən müsəlman əhalidən tamamən boşaldılmışdır***....."Göyçə ustadları" (əks tərəf aşıqlar deyirdi) sözünü birinci dəfədir ki, mən işlədirəm.*** Göyçə haqqında "Antologiya" ədəbi formaya da mən

müraciət edtmişəm. Antologiyada hər bir şeirə toxunulmadan seçmə yolu ilə verilib və əsas məqsəd dörd şeirdə ustadların dili ilə ömür yaşların verilməsini bədnam kitab yazana çatdırmaqdır... ***Füzuli Sabiroğlunun günlərlə işdən sonra zəhmətilə araşdırıb təqdim etdiyi materialların fotolarını*** da kitab səhifəsində bədnam kitab müəllifinə dəlil kimi çatdırmaq üçün yerləşdirmişəm... Aşıq Alının "dodaqdəyməz" şeir növünü icad etməsinin dünya bəddi təfəkkür formasında fəlsəfi baxımdan üstünlüyünü və Aşıq Ələsgərin həmin formanı daha da inkişaf etdirməsini kitabda ***önəmləmişəm...*** Kitab Ozan Heydər, Miskin Abdal, Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgərlə tamamlanır...Mürvət bəyin yazdıqlarının böhtan olduğunu paylaşmalarda görəcəksiz. Kitabda mövzudan ***əvvəl filologiya elmlər doktaru İslam Ələsgərlinin*** Aşıq Ələsgər irsinin tədqiqatçısı olduğu kiçik ölçüdə fotosunun altında qeyd olunur. Jurnalist tədqiqatçı Qabil Zimistanoğlunun da kiçik fotosunun altında Aşıq alı yaradıcılığının son tədqiqatçısı olduğu qeyd olunur. Mən ixtisasca kitabxanaçı-biblioqrafam, iki epos***,(min illədir ki, eros ədəbi janırına birinci mən müraciət etmişəm)*** yeddi poema müəllifiyəm,neçə ktabların redaktoruyam, Az YB -nin üzvüyəm...

N.Göyçəlinin bu statusunda o qədər səvlər. uydurmalar var ki, ondan irihəcmli məqalə yazmaq olardı. Məsələn, müəllif elə ilk cümləsində İrəvan xanlığının 1828-1842-ci illərdə ruslar tərəfindən işğal olunduğunu, Səfəvilər dövlətinin XIV və XV əsrlərdə, Albaniyanın X əsrdə mövcudluğunu, Nadirin 1735-ci ldə şah olduğunu, İslam Ələsgərin Filologiya elmləri doktoru olduğunu və s. uydurur! Səhvləri, sayıqlamaları bir deyil, iki deyil, hansını göstərəsən, hansını yazasan?

Özü ağılda olanlardan isə təbrikləri qəbul etməkdədir!

Yalnız Mürvətin dəstəsindən olan Yusif Mirzəyev "Allahı sevirsinizse bu vaxtda Göyçe haqqında heç ne yazmayın",-deyir.

Rəylər:

Faxraddin Bagirov: allah size can saqliqi versin. qeleminiz var olsun. siz boyuk savab yiyesiniz cunki yazilarinizdan xalq benrelenir.allah sizi bizlere cox gormesin.

Faxraddin Bagirov: aqac behresini ehsan eder.

Azer Goycelı: cox sax olun nifdali muellim.etrafli izah etmisiz men babamdan esitdiyim.bir sozu xatirladim ki o zamanlar goycede bir denede ermeni olmayib ancax ermeni ora car rusyasindan sonra ermenisdan respulikasi yarandixdan sonra ermeni gelib goyceye

Cefer Ceferli: Şah Ocağı, Nadir bulağı toponimləri unudulub. Birdə ki, Gòyçəyə kòçən ermənilərə "qaxdağan" deyirdilər. Aşıq Ələsgər də o gavurları belə adlandırmışdır.

Ebulfet Adil Oglu: Niftalı müəllim təşkkür edirəm.Allah köməyiniz olsun.

Yusif Mirzeyev: Niftalı Göyçeli ne qeder adam sizden xahiş eledi buraxın bu işleri. Sizin kitab dediyiniz iki praşuranızı oxudum dünen. Gedin o cür yaradıcılığınızı davam edin.

Allahı sevirsinizse bu vaxtda Göyçe haqqında heç ne yazmayın. Sildiyiniz 60 reyden netice çıxarın.Siz allah camaatı parçalamayın

30 avqust 2017.
Q.Zimistanoğlunun statusu.

Ermənilərin saxtalaşdırdıqları informasiya toplusu əsasında tarixi Azərbaycan torpağı olan Göyçəmizin tarixi, coğrafiyası, mədəniyəti, tarixi şəxsiyyətlər haqqında məlumatlar təhrif olunduğu üçün dəyərli ziyalıların əsaslı ciddi narazılığına səbəb oldu. Bu anoloji saxtakalrlığın Qərbi Azərbaycanın 16 mahalının da üzərində aparılacağı barədə də mətbuatda həyacan təbili çalındı. Bu öz yerində. Dəyərli ziyalıların təklifi ilə Göyçə mahalında yaşayıb-yaradan ustad sənətkarlarla bağlı mükəmməl bir kitabın araya-ərsəyə gətirilməsi və işıq üzü görməsi təklif olundu. Bu təklif yekdilliklə bəyənildi və kitabın üzərində işləmək

həmmüəlif kimi Niftalı Göyçəli və mənə həvalə olundu. Bu barədə xeyli iş görüldü. Tərəfimdən Ağ Aşığın 40-a yaxın çap olunmayan və Aşıq Alının xeyli şeirləri kitaba daxil edildi. Amma Niftalı Göyçəlinin birdən-birə kitaba dəxli olmayan təkliflərlə, Göyçə mahalına və ustadlara aid olmayan materialların salınması təklifi ilə çıxış etməsi dostların və bir müəllif kimi mənim də etirazıma səbəb oldu. Ona iradlarımızı bildirdikdə qüsurları aradan qaldıracağına söz versə də buna əməl etmədi. Birdən-birə yekun qərar olmadan, həmmülliflə məsləhətləşmə aparmadan, kitabın çapının mətbəədə razılaşması etirazıma səbəb oldu. Buna görə müəlliflikdən imtina etdim. N.Göyçəlinin çap etdirəcəyi kitabın bizlərə heç bir aidiyyəti yoxdur. Kitabda gedəcək hər hası qüsurlarla bağlı ediləcək tənqidlər bizə qarşı yönəlməməlidir. ***Hazırda ustadlarla bağlı mükəmməl bir kitabın nəşri üçün dostlar və mənim iştirakım ilə ciddi iş gedir.*** Əlimidə maraqlı və yeni materiallar var. Göyçə ustadları ilə bağlı kimdə çap olunmayan şeirlər və məlumatlar varsa, təqdim edə bilər. ***Hesab edirəm ki, bu yaxınlarda mükəmməl bir kitabla dəyərli oxucuların görüşünə gələcəyik.***

Yorumlar:

Sahib Musayev: Qabil bəy, sizin dediyinizdən məlum olan sizin məlumatınız olmadan kitaba nələrinsə artırılması olub ki, bu da bir yerdə danışılıb həll ediləcək məsələdi. Biz axı danışdıq ki, ikinizlə də görüşək və narazılığı aydınlaşdıraq. ***Niftali Goyceli də başqa şey--kiminsə fond yaratması və pul toplaması məsələsini vurğulayır.*** Bu yazışmaları saxlayın, iki günə birlikdə həll edilsin.

Sahib Musayev Mürvətin yarasına duz basır: "Niftali Goyceli də başqa şey--kiminsə fond yaratması və pul toplaması məsələsini vurğulayır". Mürvət cavab verir:

Murvet Yusifov Kiminsə yox, Statusunda mənim adımı çəkmişdi).Bəli, mən təklif etmişdim ki, ***Dədə Ələsgər ocağı***

yaradılsın. Əgər bu effekt verərsə gələcəkdə fond da yaradılar. Hələ təklifim də olmuşdu ki, maliyyə məsələsi ümumi müzakirənin qərarı ilə bir ağsaqqala həvalə olunar. ***Bütün bunlar dördlükdə müzakirə olunub.*** Yaxşı ki, şahidlər var. Çürük vasitələrlə ara vurmaq yaxşı nəticəyə xidmət etmir....Həmin vaxt isə mənim təklifimə iki əlli "hə" deyirdi...

Niftalı Göyçəli, sən demə özünü avamlığa qoysa da Mürvətdən daha siyasətcil imiş. Mürvətin fond yaratmaq təklifindən istifadə edərək ona güclü zərbə vurmağı, F.Sabiroğlunun, Abbas Bağırın və Aqşin Hacızadənin və Xətai Ələsgərlinin də adlarını müxtəlif statuslarda kitaba salaraq onları öz tərəfinə çəkir. Adları kitaba salınanlardan yalnız Eşİmayıl və Q.Zimistanoğlu onun tərəfinə keçməyib.

Mənə qarşı vahid cəbhə ilə çıxış edən qaraguruhçular indi iki yerə bölnblər. Çoxuı N.Göyçəlini təbrik edib ürəkləndirir, bəziləri isə Mürvət başda olmaqla onu söyür. Mən isə hadisələrin gedişinə heç bir müdaxxilə etmədən prosesi izləyirəm. Hər hansı müdaxiləmdən istifadə edib yenidən vahid cəbhə ilə mənə qarşı hücum edəcəklərini bildiyim üçün İveçrə dövləti kimi tam neytralitet nümayiş etdirirəm.

Sahib Musayev: Gəlin söz davasını uzatmayaq, Qabil bəy Gəncədən gəlsin birlikdə aydınlaşdırılsın.

Flora Mikayilova: Bir daha birleşe bilmemeyimizi tesdiq etdik. Göresen ne vaxtsa bir olub, umumi meqsed ucun calisa bileceyikmi? Naraziliqlari en azi, bedxahlarin gulmemesi ucun sakitce aradan qaldirmaq yaxsi olmazdi?

Murvet Yusifov: Üç həftə buna cəhd etdik [10]. Amma müzakirəyə Niftalı Göyçəli çıxartdı. Bizim rəylərimizi də sildi. Məni narahat edən tərəfini həm statusumda həm də rəylərimdə izah etdim. Niftalı Göyçəliyə isə yaradıcılıq uğurları arzulayıram.

[10] M.Yusifovun dediyindən məlum olur ki, haqqında söhbət gedən kitabın hazırlanmasına avqustun əvvəllərində başlayıblar.

Hilal Nabiyev: Teessüf, Göyçeliler de biri -biri dil tapa bilmirşer .Sebeb?

Sahib Musayev: Hər yerimizin hər cür insanı var, Əli Şamil kimi xəyanətkarı da, səhv edəni də.

Araz Yaquboğlu: Qabil Zimistanoglu kitabın hazır olanda ver bir gün mən də baxım. Məsləhətli don gen olar.

Murvet Yusifov: Araz Yaquboğlu indi də baxa bilərsən. Bir gün vaxt ayır

Araz Yaquboğlu: Qabil Zimistanoglu, məndə Yarpızlı bir aşığın şeiri var. Heç zaman çap olunmayıb. Böyük istedad sahibi olub.

Sahib Musayev: Sizlərin planlaşdırdığı bu antologiya bütöv göyçənimi əhatə edir, ya təkcə ellikcə qəbul edilmiş ustadlarimi?

Murvet Yusifov: Yox, Ustadları. Bütün Göyçəni bir yox, bir neçə kitaba sığışdırmaq olmaz.

Sahib Musayev: Eləysə tək--tək şair--aşıqların şerlərini toplamaq...

Araz Yaquboğlu: Mənim Niftalı Göyçəlinin statusuna yazdığım rəy də silindi. Biz yaxşılığı üçün deyirik.

Füzuli Sabiroğlu: Araz, qardaş Niftalı müəllimdən mən xahiş elədim ki, mən özüm də daxil olmaqla bu işə kölgə salan rəyləri silsin.

Araz Yaquboğlu: Füzuli Sabiroğlu mən çap olunacaq kitabdan paylaşdığı yazıdakı 3-4 səhvi qeyd etmişdim.

Qaraguruhun "son ümidgahı" qeyzlənir:

Füzuli Sabiroğlu: Bu iş o qədər gözdən salındı ki, nə Niftalı müəllimin, nə də sizin çap edəcəiyniz o kitab artıq məni maraqlandırmır. Məni maraqlandıran bircə şeydi... ***Bu qədər arxivlərdə, kitabxanalarda axtarış aparıb Nazirin üzdəniraq kitabına qarşı bacardığım qədər faktlar topladım, məsələnin***

payızda yüksək səviyyədə müzakirəsi razılaşdırılıb[11]**.** Mən sizə güvənirdim. Bunun yeriydimi? Beş şeiri bir yerə toplayıb çap eləməkdə ortaq rəyə gələ bilmirsiniz. Məndən inciməyin. Mən iyrəndim bu qeybət səviyyəli söhbətlərdən.

Sahib Musayev: Bəla burasındadı ki, hər iki tərəf ağına-bozuna baxmadan hara gəldi toxmağını çalır. ***3-5 nəfərlə həll olunacaq məsələni dünya səviyyəli gülüş hədəfinə çevirdilər.***

Qabil Zimistanoglu: Füzuli Sabiroğlu bəy, siz yenə də bizə güvənə bilərsiniz. Heç bir faciə baş verməyib. Lap kitab çıxmasa da belə, dünya dağılası deyil. ***Əsas mübarizəmiz qarşıdadır.*** Hələ cəmiyyətə deyiləcək çox sözlər və faktlar var. İşinizdə də heç zaman ruhdan düşməyin və bu Haqq İşimizdə hamımıza uğurlar!!!!

Murvet Yusifov: Əziz qardaşlar, dostlar, xahiş edirəm bir qədər diqqətli olaq. ***Əslində hərə əlinə bir toxmaq götürüb hər iki tərəfə çalmaqla üçüncü tərəf yaradır.*** Bu işdə inciyən, küsən, diksinən dostları anlayıram. Amma sizin də məni anlamağınızı rica edirəm. ***Onun istədiyi kimi kitab çap ediləndə də hədəf bizlər olacaqdıq.*** Kitabda iradların düzələcəyini gözlədiyimiz halda, ümumiyyətlə kitabın hazır olmadığı halda birdən birə sosial şəbəkədə artıq bir həftəyə kitabın çap olunacağını bildirməklə Niftalı Göyçəli bütün gözləntiləri yarımçıq qoydu.Məcburiyyət qarşısında qalıb münasibət bildirdim, başqa yol qalmırdı.Təsəvvür edin. Mənim keçirdiyim həyəcan əslində onun təmizliyi üçündü. Bir tərəfdən də el uğrunda mübarizəyə qoşulan insanların etimadını itirməyimiz yaxşı hal deyil.Onun statusunda bir rəy diqqətimi çəkdi. ***"Biz neçə aydı özümüzü öldürmürdük ki, bundan sui istifadə edəsiniz"*** təxminən belə fikir idi.Orada sildirdiyiniz rəylər əslində tənqidi rəylər idi. Mənə yönəlik

[11] F.Sabiroğlu neçənci dəfədir ki, məsələnin payızda, yüksək səviyyədə müzakirə olunacağını bəyan edir. İşlədiyi "Lider tv"-də F.Sabiroğlu doğrudan da bir provokasiya törətməyə cəhd etdi: bu kanalda yeni nəşrlərlə bağlı gedən verilişlərin birində "Haqq-nahaqq seçilər Haqq divanında" kitabımla bağlı müzakirə açmaq, onu qaralamaq cəhdi verilişin digər iştirakçıları tərəfindən etirazla qarşılanmış və və çəkiliş dayandırılmışdı.

ittihama mənim cavab verməməyim ədalətdimi?Orada üzbə üz söylədiyim iradları aydın şəkildə yazmışdım. Bu gün Sahib bəy yenə yazıb ki, dərdinizi açıq şəkildə bildirin).Bir daha bildirirəm. Mənim nə şəxsi marağım, nə şəxsi iddiam yoxdu. Bu kitab on minlərin marağında olduğu üçün (həm müsbət, həm mənfi mənada) müzakirəyə açıq olmalıdı. Niftalı Göyçəli bu müzakirəni fb-a gətirdi.Münasibətimi bildirməli idim və bildirdim. Niftalı Göyçəliyə də yaradıcılıq uğurları arzulayıram.

Füzuli Sabiroğlu: Biz Niftalı müəllimdən xahiş elədik öz yazdığı statusu sildi. Qabil Zimistanoglu, Murvet Yusifov Siz də belə addım ata bilərsinizmi?

Murvet Yusifov: Füzuli müəllim, el üçün canımdan belə keçməyə hazıram və bunu edirəm. Amma Niftalı Göyçəli mənə yönəlik yersiz və böhtan xarakterli ittihamlarına aydınlıq gətirməlidi.

Füzuli Sabiroğlu: İnşallah onu hamımız yığılıb bir yerdə həll edəcəyik Var ol qardaş

Niftali Goyceli: Kitab haqqında məlumat: Tituldan sonra 1.İslam Ələsgərlinin kiçik fotosu altında "Aşıq Ələsgər irsinin tədqiqatçısı və təqdim edən ***filologiya elmləri doktaru-İslam Ələsgərli"*** 2.Kiçik foto ilə...Aşıq Alı yaradıcılığının son tədqiqatçısı jurnalist-Qabil Zimistanoğlu...Sonrakı səhifədə... "Məlum bədnam kitabda Aşıq Allahverdi haqında "kameral" məlumat tamaıilə uyğun deyil. Aşıq Alının ailə tərkibi tamaıilə yanılışdır və Aşıq Alının adı "Almədət deyil...Aşıq Ələsgərin babası Allahverdi atasının qardaşı kimi göstərilməsi böyük səhvdir...kameralda erməni millətçiləri tərəfindən 1842-ci il 1873-cü ilə saxtalaşdırılıb...Ustadlar (dord) şeirlərində (səhifələri göstərilməklə) qeyd edirlər ki, onların ömür yaşları 80-90-dan keçib "yüzə nə qaldı"...Sonra Füzuli Sabiroğlunun araşdırıb təqdim etdiyi arxiv materiallarının fotoları altında qeydlər...Eldar İsmayıl və Gündüz Əhmədovun "Qərbi Azərbaycan-Goyçənin işğalı" kitabından bir səhifəlik Göyçə tarixi haqqında xülasə...Ozan Heydər, Miskin Abdal, Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgərin antologiya üçün münasib seçmə şeirləri, müəyyən

izahatlarla və son...indi ***Mürvət bəyin dediyi "qarşı tərəf" buradan bizim əleyhimizə necə istifadə edəcəkdir?*** Mürvət bəy müzakirələr zamanı gedən mövzuların kitaba salınmasını güman edirsə, yanılışdır. ***O söhbətlər ki, Qabil bəylə razılaşmamışıq, heç biri kitaba salınmayıb...*** Səbr etmək lazımdır ki, kitabın hamsını əldə edim və sizə də baxmaq üçün təqdim edim... ***Mürvət bəy, bəzi adamları mənim əleyhimə vulqar sözlü yönləndirməyini vicdanının öhdəsinə buraxıram...Hər -halda mən Nazir Əhmədli deyiləm...Mənə bu cür qiymət vermək?***..Nə bilim, Allah hər şeyi görən və biləndir... Araz Yaquboğlu da bilsin ki, mənim üçün Pəncəli və hər bir Şəhid MİLLİ QƏHRƏMANDIR... ***İslam Ələsgərli elmlər namizədi yox, elmlər doktorudur və mənim üçün akademikdən də yuxarıdır...***Sərraf Şiruyə, Eldar İsmayıl da mənim nəzərimdə "xalq şairi"ndən də yüksəkdirlər...

Niftalı Göyçəlinin bu monoloqunda 4 şey diqqəti cəlb edir:

1.”Qarşı tərəfin”, yəni mənim kitabdakı səhvlərdən, uyğunsuzluqlardan onların əleyhinə istifadə edəcəyim ehtimalı.

2.Kitaba salınanların Qabillə razılaşdırıldığı.

3.Mürvətin bir qrup qaraguruhçuya onu söydürməsi. Burada yazır: “Mürvət bəy, bəzi adamları mənim əleyhimə vulqar sözlü yönləndirməyini vicdanının öhdəsinə buraxıram.Hər halda mən Nazir Əhmədli deyiləm”. Bununla da məni söyənlərin Mürvət tərəfindən idarə olunduğunu etiraf edir.

4.”İslam Ələsgərli elmlər namizədi yox, elmlər doktorudur və mənim üçün akademikdən də yuxarıdır...Sərraf Şiruyə, Eldar İsmayıl da mənim nəzərimdə "xalq şairi"ndən də yüksəkdirlər...”.

Vəssalam! N.Göyçəli etiraz-filan qəbul etmir!

Araz Yaquboğlu: Niftalı Göyçəli İslam müəllim, elmlər namizədi idi, elmlər doktoru yox.

Niftali Goyceli: Araz Yaquboğlu Xətai Ələsgərlidən soruşa bilərsiz...

Qabil Zimistanoglu: Doğurdan, mən də təəccüblənirəm. Niftalı müəllim, bir halda ki, müzakirə olunan və irad bildirilən məsələləri kitaba salınmayacaqdısa, nə üçün yekun qərar olmadan kitbın çapının mətbəədə nəşr olunmasına razılıq vermişdi? Mən əvvəlcədən də o kitabda öz şəklimin verilməsinin əleyinə olmuşam. Çalışmışam iş keyfiyyətli olsun, şəkil önəmli deyil. Bizim də dediyimiz iradlar işin keyfiyyətli şəkildə olmasına yönəlmişdi. Amma çox təəssüf ki, bu məsələ bu müstəviyədək qalxdı. Çox təəssüf.. Araz Yaquboğlu, sizin Şair Məhəmmədhüseynin[12] şeirlərinin toplanıb çap olunmasında xeyli zəhmətiniz olub, onun həyatı ilə bağlı dəqiq məlumatları vermənizi xahiş edirəm. Bir daha dəyərli oxuculardan ustadlarla bağlı məlumat və şeirləri təqdim etməyinizi xahiş edirəm. Kitab hər bir elm adamlarının üzünə açıqdır. Dəyərli məsləhətləri qəbul etməyə hər zaman hazırıq.

Araz Yaquboğlu: Hansısa alimin elmi dərəcəsini oğuldan (Xatai Aleskerli) soruşmaq lazım deyil. Bunu hamı bilir. Onun şöbə müdiri olmuş Elxan Məmmədlidən də soruşa bilərsiz.

Şebnem Bunyadzade: Niftalı müellim neçe paylaşım etdiniz hamısında da ayrı şeyler yazdınız. Ele bil qesden çaşqınlıq yaratmaq isteyiniz vardı. Eger beleydise yazılan reyleri silmez açıqlama vererdiz.

Niftali Goyceli: Qabil bəy, mən iki ay kitablarla "yatıb-durdum"[13] dörd ustadın şeirlərini təkrar oxudum, toplum etdim... fikirləşirdim ki, elə bir ədəbi forma tapım ki, ustadları o formada təqdim etmək olsun. Nəhayət, "antologiya" ədəbi formasının tələblərini öyrənib qəbul etdim və düşündüm ki, bu ədəbi formaya bədii ədəbi janr kimi rəylər gərək olmadığından iki müəllif bir redaktorun fəaliyyəti ilə başa gələr... Kitabın adını da "Göyçə ustadları" adlandırmaqda ***məqsədim birinici olaraq ədəbiyyata yeni ad təqdimatı gətirmək oldu.*** Son zamanlar xatırla: bədnam

[12] Q.Zimistanoğlu neçənci dəfədir ki, Şair Məmmədhüseynin adını təhrif edib "Məhəmmədhüseyn" yazır.

[13] N.Göyçəlinin bu cümləsi onu göstərir ki, bu işə 2 ay əvvəl başlayıblar.

kitabla bağlı yazılarda "Aşıqlar" yazırdılar...Aşıqlıq sənətinin zirvəsi ustadlıqdır və bu zirvəyə qalxan Göyçə aləmində kimlərin olduğu hamıya məlumdur...Əsas məqsəd antologiyada əldə olunan arxiv materiallarının fotolarını və altında şərhlərini vermək, Aşıq Alının icad etdiyi dünya ədəbi bədii təfəkkürünə töhfə verdiyi, Oğuz idrakına məxsus "dodaqdəyməz" şeir növünü ***önəmləmək*** oldu. ***Bu şeir növünün deyərdim ki, möcüzəsi ondadır ki, burada olan fəlsəfə, dini anlayış başqa şeirlərdən hər zaman yüksəkdə durur...***Eləcə də, Aşıq Alının, Aşıq Ələsgərin "dodaqdəyməz" şeirlərini bir daha oxuyub bir yerə topladım, kitaba daxil etdim. Kitabın ilkin elektron variantını "A-5" kitab formatında gətirib sənə təqdim etdim və dedim ki, birlikdə davam edək. Sənə ikinci müəlliflik təklif edəndə əvvəlcə heç cürə razılıq vermədin. Mən də təkid elədim ki, məndən cavansan, bu iş ümumi xalqımız üçün bu günün tələbi baxımından zəruri olduğundan əziyyət çək, sən də bir iş gör... Allah razı olsun! Vaxtı ilə Məcnun Göyçəlinin sənə verdiyi, "Ozan " jurnalında nəşr olunmuş Aşıq Allahverdinin şeirlərini xatırladın, həmin şeirləri antologiyaya yerləşdirdin və bu da bir yenilik oldu... Mən bədii söz tarixilə və Göyçə tarixilə bağlı etnoqraf alim Qiyasəddin Qeybullayevin kitabından antologiyaya hazırladığım başlığı qəbul etmədin və mən də razılaşdım, bəzi müzakirə olunan mövzularda da ***həmişə sənin razılaşdım...*** Materiallar kitabda tam oturandan sonra təcili mətbəədə yığıma verdim ki, tezliklə çap olunsun... Üz qabığı hazırlanıb "dizakl" dəmirə köçürüləndən sonra bir FB elanı verdim orada sənin və mənim bildiyim bir səhv oldu, sənin zənginlə o elanı təcili ləğv elədim... sənə zəng edib dedim ki, yazını sildim...Sən də qəzəblənib təkidlə dedin: "...ümumiyyətlə, mənim yazımı da, adımı da sil!" ...Kitabın başlığında sənin ozan yaradıcılığı ilə bağlı 4 səhifəlik yazının, üz qabığının(dəmirə köçürülmüş) dəyişməsi əlavə xərc apardı...Artıq sifarişlə bağlı mətbədə çap olunmuş kitabın içliyindən geri dura bilməzdim...***Fikirləşdim ki, kitabın dəyərini ödəyim və materialları da yandırım, kitab məsələsindən əl çəkim... Bir gün key kimi gəzdim, boğazımdan yemək də keçmirdi... yoldaşım mənim halıma fikir verirmiş, Hacı***

Loğmana zəng edibmiş ki, bu dayın oğluna nə isə olub, bir gəl gör, bəlkə dərdini sən biləsən...Hacı Loğmanla 6 ay idi ki, danışmırdıq (məsələni bilirsən). Hacı Loğman bizim evə gəldi, evə gələn qonaq kimi qarşılamalıydım...nəhayət, vəziyyətdən halı olandan sonra, kitabın elektron variantına (bir günə oxuyub) baxandan sonra dedi: -Burada elə bir faciə baş verməyib, müəlliflikdən imtina edibsə, tədqiqat əsəri- "Aşıq Alı"dan da imtina edə bilməz ki, o kitabdan bura yeddi divan yazmısan. Müəllif kimi onun adı bu kitabda qeyd olunmalıdır...Belə bir ideya da verdi ki, tituldan sonra birinci filoloq alim İslam Ələsgərlinin kiçik fotosu və altında yazı- Aşıq Ələsgər irsinin tədqiqatçısı, təqdim edəni, ikinci Qabil Zimistanoğlu və şəkilin altında yazı- Aşıq Alı yaradıcılığının son tədqiqatçısı. Bu yazını hər bir kitab müəllifi mövzu ilə əlaqədar yaza bilər...bu söhbətdən sonra Doktor Hacı Abbasın yanına getmişdim ki, birlikdə Eldar müəllimi xəstəxanada ziyarət edək. Orada Mürvət bəylə rastlaşdıq və Xətai, doktor, Mürvət bəy, mən kitabın müzakirəsini edərkən Mürvət bəy dedi: ***"...on nəfər, on beş nəfərdən kitaba rəy almalıyıq" bu o deməkdir ki, 5-6 ay qapı-qapı gəzməli, hər alimin də bir "nazı"... bundan sonra səbrim çatmad, dedim: "Qardaş, mən sənlə danışa bilmərəm..." deyib otaqdan çıxıb evə gəldim*** ...nəhayət, sonrası da sizin bildiyiniz...

Niftali Goyceli: Araz Yaquboğlu Xətai Ələsgərli ali təhsilli ziyalıdır və atasının da hansı elmi dərəcəsi olduğunu bilir... İslam müəllimin evində arxiv sənədləri var...

Araz Yaquboğlu: Onda Xatai Aleskerli fəlsəfə doktoru ilə elmlər doktorunun fərqini bilmir. Amma dediyinizə inanmıram.

Araz Yaquboğlu Niftalı Göyçəli ilə Xətai Ələsgərlinin səhvini düzəltməyə çalışsa da, xeyri olmur, çünki hər ikisi də fəlsəfə doktoru ilə elmlər doktorunun fərqini bilməyəcək qədər savadsızdırlar. N.Göyçəlinin əsas arqumenti budur: "Xətai Ələsgərli ali təhsilli ziyalıdır və atasının da hansı elmi dərəcəsi olduğunu bilir... İslam müəllimin evində arxiv sənədləri var"... N.Göyçəli hökm verir: İ.Ələsgərovun oğlu deyirsə, qurtardı.

Amma digər yandan da iddia edir ki, "İslam müəllimin evində arxiv sənədləri var". Niftalı Göyçəli, hansı arxiv sənədindən söhbət gedir?

A kişi, İslam müəllimin diplomunun əsli evində olmalıdır, niyə ondan danışmırsan? Niyə üzə çıxarıb surətini paylaşmırsan? Düzdür, orada "filologiya elmləri namizədi" sözləri olacaqdı, həmin elmi dərəcənin adını Avropa və dünya təsnifatına uyğunlaşdırmaq istəyən Ali Attestasiya Komissiyası "elmlər namizədi" sözlərini "fəlsəfə doktoru" ilə dəyişib. Amma İslam müəllimin diplomunda filologiya üzrə fəlsəfə doktoru yazılmayıb ki, heç olmasa, Niftalı ilə Xətai savadsızlıqdan onu elmlər doktoru ilə dəyişik salsınlar. Bizim misalımızda onlar bilə-bilə İ.Ələsgəri "elmlər doktoru" edirlər. Yəni dastanvari, Aşıq Ələsgər haqqındakı uydurulmuş rəvayətlərdə olduğu kimi edirlər. Bilmək olmaz, bəlkə "işə keçdi"..

Don Kixot hamıya öz yaveri Sançoya verdiyi cavabı verir: "Sançо, sən qəhrəman deyilsən, ona görə sənin gözünə yel dəyirmanı kimi görünür, əslində o cəngavərdir!"

Və bizim Don Kixot söhbətin mövzusunu başqa səmtə. Öz "şedevrlərinə" yönəltməyə cəhd edir.

Niftali Goyceli: Araz Yaquboğlu Bu şeir ədəbiyyatda yeganə şeirdir. Görürəm, elmi potensialınız böyükdür, buna da bir tənqidi yanaşma edin..... DİLƏYƏR

(dodaqdəyməz gəraylı cığalı təcnis)

Can hayında qalan insan,.

Araz Yaquboğlu: Mən tənqid etmirəm Niftali Goyceli. Səhvləri deyirəm ki düzəlsin.

Qabil Zimistanoglu: Niftali Goyceli müəllim. Əvvəla bu kitaba həmmüəllif olmağımla bağlı tək siz yox, dostlar da təklif etdi. Mən bu yükün məsuliyyətinin ağırlığını yaxşı dərk etdiyimdən öncə etiraz etdim.

Niftali Goyceli: Qabil bəy, bu kitabı ikimiz işləyirdik...dostların hansı bu kitaba bir söz, cümlə yazıb və ya

maraqlanıb oxumuşdu? Bostan əkmirdik ki, barını bölək, bir məntiqə də baxın...

Mahmud Memmedov: Qabil Zimistanoğlu bu işe tanıdığım ve hörmet beslediyim Mürvet Yusifova göre qoşuldum. Onun sayesinde sizleri de virtual tanıdım. Niftalı Göyçelini Mürvet beyin dediyiyle çox hörmetle tanımışdım. Son hereketleri meni de narahat etdi. Neçe defe Mürvet beye şexside yazdım cavab almadım. ***Dünen Yusif beyle gedib Mürvet Yusifovla görüşdük. O çox gergin veziyyetdedi.*** Hadiselerin bele olmasından çox narahatdı. Biz orda olanda kimse zeng vurmuşdu. Bu işle bağlı nese soruşurdu. Onunla da narahat danışdı.

Niftalı Göyçeli qabaqkı yazısında Mecnun Göyçelinin Şuşa qezetinde geden sözleri yazmışdı indiki yazısında Ozan jurnalı yazır.

Görünür bu istinad etdiyi menbeni heç bilmir. Kitab bele yazılmır ezizlerim.

Mürvet beyin çağırışıyla maliyye ile bağlı Niftalı Göyçeliyle şexsi yazışmalarımız olub. ***İndi Mürvet beyin adını maliyye meselesinde hallandırır.*** Onu şer işe qoşan kimdi onu öyrenin. Meni de melumatlandırın.

Şebnem Bunyadzade: Loğman Niftalı göyçelinin qohumu imiş?

Metanet Mikayil Amirli: Men 2-3 gün evvel özüme söz verdim ki daha heç yerde heç bir rey yazmayacağam ama yazilanlari oxuyub veziyyetin bele cereyanindan sonra yeniden bu işe qoşulmağa ehtiyac duydum.

Niftali bey, men sizden statusunuzda yazdiğim reyde xahiş etdim bir vaxt dost dediyiniz insanlarin haqqinda yazdiğiniz statusu silin. Şexside yazib xahiş etdim böyüklüyünüzü edin, bu kimi söhbetlere yol vermeyin.

Size “müellim” deye müraciet etdim. Çünki o ad menim üçün müqeddesdir.Sizi sülhe çağirdim. Amma siz yene de müqessir axtarirsiz, kimese qara yaxib böhtan atmaq isteyirsiz.Bes deyilmi bu olanlar?!Mürvet müellimi taniyanlar yaxşi taniyir. Eger sizin bu işle bagli başqa derdiniz varsa deyin. Yalan deyib el

gözüne kül üfurmeyin. Yalan ayaq tutur ama yerimir. ***Nazirin kitabina nezire yazmağa ehtiyac yoxdur.***

Xatırlayırsınızsa, bir müddət əvvəl həmin Mətanət Əmirli N.Göyçəli haqqında pafoslu sözlər yazmışdı və onun bu sözlərini yadda saxlamağı oxuculara tövsiyə etmişdim.

Mətanət Əmirli maraqlı ifadə işlədir və N.Göyçəlinin hazırladığı kitabı "Nazirin kitabına nəzirə" adlandırır. Maraqlı ifadədir..

Murvet Yusifov: Dəyərli dostlar, hadisələri ürək ağrısı ilə izləyirəm. ***Niftalı Göyçəlinin yazdıqlarını oxuyanda şok oluram. Bəlkə də xarakterimə bələd olduğundan bu cür qarayaxmalarla danışır ki, mənim əsəblərimi korlasın***.Hələ əvvəllər ***Niftalı Göyçəli təkidlə kitab nəşr etdirmək təklifi etdikdə qətiyyətlə yox demişəm.*** Sonra bu məsələ aktuallaşdı. Ümumilikdə razılaşdıq. Amma şərtlər daxilində.Kitabda ümumi razılaşdırılmış məlumatlar olacaq. Buna da əsasım vardı....İndi elə danışır ki, sanki Qabil Zimistanoğlu ilə ikisi olub. ***Qabil Zimistanoğlu isə ehtimal edirəm ki, söhbəti bizim bildiyimizə görə üstündən səthi keçir.*** Amma rəylərdən hiss edirəm narahat olan dostlar məsələnin mahiyyətini bilmirlər və bilməyə çalışırlar. Ona görə də xahiş edirəm Qabil bəy mümkün qədər aydınlıq gətirsin. Bir nüansı da açıqlamağa məcburam ki, Niftalı bəyin Qabil Zimistanoğluna təqdim etdiyi kitab formatına baxış keçirdik. Ağ Aşıq və Aşıq Alının təcnislərindən başqa hər şeyin dəyişdirilməsini qərarlaşdırdıq. Bu da Niftalı Göyçəlinin xoşuna gəlmədi. Məndən sonra bir gün Qabil bəylə müzakirələri olub. Yenə əvvəlki iddiasında qaldığına görə Qabil bəy etirazını bildirib.Qabil bəyin bizə verdiyi informasiyaya görə Niftalı Göyçəli qəzəblənib gedib.Bundan sonra fb-da status paylaşıb kitabın bir həftəyə işıq üzü görəcəyini bəyan edib. Ona görə Qabil bəy Niftalı Göyçəlinin rəyinə aydınlıq gətirsə yaxşı olardı.

Murvet Yusifov: Bəli Şəbnəm xanım, qohumdular.Allah onları mehriban eləsin

Qabil Zimistanoglu: Dostlar iki gündür internete girmek imkanim olmadigi ve sizi intizarda saxladigim uchun uzr isteyirem. Bu meselede narahat olan dostlari ve deyerli ziyalilari da basha dushurem. Mahmud Memmedov muellim menden daha dolgun arayish vermeyimi xahish etdiyinden ve diger yazilan reylerden de bele basha dushdum ki hele chox dostlarimiz meselenin mahiyyetinden xeberdar deyil. Niftali muellim eger Ag Ashiqin sheirlerinin Shusha qezetinde chap olundugunu yazibsa chox boyuk yanlishliga yol verib. Tek o yox dostlar da bilirdi ki Shusa qezetinde Ashq Alinin sheirleri chap olunub. Dogrusu men Niftali muellimin evvelki statuslarini sildiyinden oxumaq imkanlarim olmadi. Gah yazir ki Ag Ashqin .herleri "Ozan" jurnalinde (eslinde bele bir jurnal olmayib. Ashqlar Birliyinin orqani olan bu adda qezet olub) chap olunub. ***Bunlar hamisi yalandir.*** Heqiqeten de kimse istinad edeceyi menbeni bilmeden her hansi kitab chap ederse> tebii qusurlarla dolu olacaq. Niftali muellim deyir ki kitabi menden bashqa kimse oxumayib. Hele uzerinde ishlenen ve cahapa hazir olmayan bir varianti kim oxumalidir ki.... Dostlarla bele razilashmishdiq ki kitab hazir veziyyete getirilenden sonra vaxtimizi korrekte etmeye serf edek. Kitabda olnan qusurlar umumi muzakirede seslendi biryerde de dostalrla etiraz etdik, Birde sen kime imkan verdin ki kitabi kimse oxusun! Tezbazar cahpa imzalandigini elan etdi.Men diqqet edirem bu meselede Murvevet bey heqiqeti oldugu kimi qeyd edib. Niftali bey vaxtin uzadilmasi meselesini sadece behane edir. Belkede uch hefteden artiqdir vaxt gedib. Bu muddete kitab choxdan chapdan chixardi. Sadece onun inadkarligi meselen gecikdirdi. Dogrusu men fikirlrshmishdim ki Bakiya donunce deyerli ziyalilarin ve agsaqqallarin tekliflerini nezere alim. Niftali muellim qüsularari qaldirarsa birge kitabi chapa verek. Amma onun son yazdigi reyden sonra qerara geldim ki sehv addim atmish olaram. Chunki ***eger kitabin chixarilmasi meselesinde Logmana uyubsa o kitabin ne gune dusheceyini tesevvur etdim. Chunki xeberdar olanlar yaxshi bilir ki o Dede Elesgerin kitabinin nece veziyyetde chixarib.*** Buna gore metbuatda bu

kitabi ilk tenqid edenlerden olmusham. Niftali muellimin ozu de onun neshr etdirdiyi kitabda yol verdiyi noqsanlardan xeberdardir ve bunu yeri geldikce sohbetlerinde qeyd edir. Ve bununla da deyerli dostlardan xahish edirem ki Niftali muellimin gunde uydurdugu kiminse haqinde bohtanli fikirlere inanmasinlar. Butun meseleler hemishe 4-5 neferin ishtiraki ile muzakire olunub. Ona gore de kimseye atdigi bohtan ishtirakchi olan digerimiz terefinden ikrahla qarshilanir. O cumleden Murvet bey barede yazdigi bohtan terefimden hech cur qebul olunmur. Bir daha qeyd edirem deyerli dostlarin komeyi ile ustadlarla bagli kitab hazirliq merhelesindedir. ***Oxuculara bir mujde de verim ki kitabda Dede Elesgerle de bagli yenilikler olacaq.***

Q.Zimistanoğlu maraqlı açıqlamalar verir: "Əger kitabin chixarilmasi meselesinde Logmana uyubsa o kitabin ne gune dusheceyini tesevvur etdim. Chunki xeberdar olanlar yaxshi bilir ki o Dede Elesgerin kitabinin nece veziyyetde chixarib".

Arada Loğman qazandı. Həm dayısı oğlu Niftalı ilə barışdı, həm də haqqında söhbət gedən həmin şikəst "kitabın" redaktoru oldu.

Q.Zimistanoğlu Aşıq Ələgərlə bağlı yeniliklər edəcəyi haqqında oxucuları müjdələsə də bu "yeniliklərin" nədən ibarət olduğunu hələ də öyrənə bilməmişik.

Şebnem Bunyadzade: Qabil bey olanları niye açıqla-mırsınız?

Qabil Zimistanoglu: Şebnem Bunyadzade xanim hansi olanlari deyirsiz?Bu yazdiqlarim ele olanlar deyilmi?

Şebnem Bunyadzade: Mürvet bey de siz de olanlar deyirsiniz açıqlamırsız. Niftalı Göyçeli deyir Qabille razılaşıb kitabı çapa vermişem

Qabil Zimistanoglu: Şebnem xanim xahish edirem diqqetle oxuyun yazdigim statusu. Men hemishede qeyd etmishem ki ortaq raziliq olmadiği ve tekbashina kitabin chap olunmasina qerar verdiyi uchun men Niftai beye etiraz etdim ve muelliflikden

imtina etdiyimi soyledim. Yaxshi razilashmishdimsa deli idim ki muelliflikden imtina edim?!!!

Şebnem Bunyadzade: Bes Mürvet beyin dediyi nedi?

Qabil Zimistanoglu: Murvet beyin yazdigindan bele basha dushdum ki, bu kitab meselesi yalniz ikimiz arasinda muzakire olunub. Amma esas meseleler 4-5 neferin ishtiraki ile olub. Bunu hech kim dana bilmez.Sonuncu gun ise Niftali beyle etdiyimiz sohbetde bildirdi ki qusurlari aradan qaldiracaq. Ciddi naraziliq etmeden de ayrildiq. Amma qefilden feysde onun kitbi chapa verdiyi ile bagli achiqlama vermesi etirazima sebeb oldu. Chunki kitab hazir olandan sonra terefimizden birlikde gozden kechirilmeli ve korrekte olunmali idi. O da ***Niftali bey Logmanin mesleheti ile kitabi çapa verdiyinden bu mumkun olmadi.*** Yoxsa Niftali bey demishken aramizda bolunmeyen ne ise yox idi ki bole bilmeyek!!!!

N.Göyçəlinin və Q.Zimistanoğlunun dediklərindən bu qənaətə gəlmək olar ki, kitabın çapa verilməsi barədə Niftalı ilə razılığa gəliblər, lakin Mürvətin kəskin reaksiyasını görəndən sonra onun qorxusundan sözündən qaçıb və müəlliflikdən imtina edib.

Murvet Yusifov: Əgər belə idisə narazılıq nədə idi?!

Mürvət bəyin kimisə sənin üstünə yönləndirməyi söhbətini də buraxıram sənin öhdənə. Necə fikirləşirsən o cür də qəbul et. Yəqin bundan sonra baş verəcək hadisələr hər şeyə aydınlıq gətirəcək. Əslində bu məsələdə Mürvət Yusifov sənin imzanla gedəcək kitabın mükəmməl olmasına çalışıb....

İndi sığallı sözlər yazmağın sual qoyur. Bəs narazılıq nədə idi? Nə isə bundan sonra sənin nə yazacağın məni maraqlandırmır. Münasibətimi də aydın şəkildə bildirdim. Sənin yazdıqlarının mənə və mənə hörmət qoyanlara heç bir aidiyyatı yoxdu.Sənə yaradıcılıq uğurları arzulayıram.Səndən fərqli olaraq səhifəmdə sərbəst olmağın üçün sərbəst şərait yaradıram Niftalı müəllim!

Niftali Goyceli: Narazılıq son söhbətdə: Hacı Abbas, sən, Xətai və mən...Düşüb qapı-qapı 10-15 formal rəy toplamaq nə verərdi? Mən çalışıram ki, tezliklə kitab ərsəyə gəlsin...4-5 aydan sonra "toydan sonra nağara"...***Antologiya ədəbi formadır, janr deyil...*** nəzəri rəylərə ehtiyac yoxdur, çap olunmuş əsərlərdən il tarixilə bir neçə yaradıcıların seçmə şeirləri...Anarın "Min beş yüz illik Oğuz şeiri" antologiyasında yalnız özü... Əsas məqsəd əldə olunan arxiv materialları və ustadların (dörd) şeirlərində ömür yaşlarını göstərməsini ***önəmləmək...*** Bundan əlavə, Ustadları bir kitabda təqdim etmək, dünya bədii təfəkküründə üstülüyü ilə seçilən və türk şeirinə aid olan Aşıq Alının, Aşıq Ələsgərin "dodaqdəyməz" şeirlərini kitabda nəzəri qeydlərlə əks etdirmək... və s.

Murvet Yusifov: Buna "daldan atılan daş topuğa dəyər deyiblər". Mən öz mövqeyimdə qalıram. Sənə isə yaradıcılıq uğurları arzulayıram. ***Kiməsə sənə vulqar söz yazdırmağım isə haqqımda dediyin yersiz və əsassız ittihamlardan biridi.*** Allah şahiddi ki, özəldə yazıb soruşduqlarını belə cavablandırmamış əksinə məni müdafiə edən sözlər yazmamağa çağırmışam.Mən nə olsa belə mənliyimdə qalacam. Bu aksiomadı!

Mahmud Memmedov: Niftalı bey eger meni nezerde tutursunuzsa sizinle beraber bu işin içindeyem. Şexside menimle neçe defe yazışmısınız. Etdiyiniz hereketden sinirlenib nese yazmışamsa özüm yazmışam. Bunu Mürvet beyin üstüne atma.El işini şexsi oyuncağa çevirib insanları ***udar***[14] altda qoymaq lazım deyil. Neçe defe status yazdın hamısı da ferqli. Hamımızın marağımızda olan işi öz messevinizce ora bura çekmek yaramaz.

Taleh Əlioğlu Vəliyev: Qabil Zimistanoglu əziz qardaşım sizin və el oğlularımızın bu xeyirxah işinə məndə dəstəyəm.Ancaq bu fikir ayrılıqları mənidə təcübləndirir.Aşıq Alı babanın cap olunmayan təcnislərinidə o Antologiyaya salmaq olarsa mən hazır.

[14] Rus dilindən tərcüməsi “zərbə” deməkdir.

Qaraguruhun "son ümidgahı" amiranə tərzdə söhbətə qoşulub Mürvətə təsir göstərmək istəyir. Mürvət isə Niftalı Göyçəli ilə yollarının birdəfəlik ayrıldığını elan edir:

Füzuli Sabiroğlu: Mən belə başa düşdüm ki, kitab barədə olan fikir ayrılıqları əsasən həll olundu. Elə deyilmi? Niftali Goyceli, Qabil Zimistanoglu, Murvet Yusifov

Murvet Yusifov: Mənim üçün Niftalı Göyçəli səhifəsi bitib! Bu gün də səmimiyyətdən uzaq fikirləri ilə bir daha təsdiq etdi.***Yaxşı olardı ki, boş sözlərlə pərdələnməkdənsə əsl səbəbi açıqlayardı.*** Onda nəyisə düşünməyə yer qalardı.Yaxşı olar ki, guya "düzəliş" edirmiş kimi manevrlərdən istifadə etməsin. Məqsəd çılpaqlığı ilə məlumdu...

Gabil Sayadov: Bir göyçəli kimi, ərsəyə gətirəcəyiniz kitabın çox dəyərli olacağına inanıram və öz adımdan, göyçəli idmançılar adından yumruğu bir hədəfə vurmaqla ortaq məxrəcə gəlməyinizi, gələcək nəsillərin həqiqi mənada yararlana biləcəyi bir məhsulun əldə edilməsi üçün müəlliflərdən qarşılıqlı adımlar atmasını xahiş edərdim. Sizlər Göyçə mahalının qaymaqlarısız.

Qabil Zimistanoglu: Eziz adash! Gabil Sayadov siz tekce Goychemizin deyil Xalqimizin qururu ve fexrisiniz. Men senin timsalinda Dovletimizin Bayragini olkenin hududlarindan kenarda dalgalandiranlarla qurur duymusham. Deyerli toviyyelerinize gore teshekkur. Bu meselede ele bir facie bash vermeyib. Bir yerde olmaga ve sozunu demeye qadir olan ogullarimiz var.

Gabil Sayadov: İnşallah. Mənim buna heç bir şübhəm yoxdu.

Sahib Musayev: Mən üçüncü tərəf filan deyiləm! Dünən həm QABİLLƏ həm də NİFTALI ilə danışdım hər ikisindən xahiş etdim ki, Qabil Gəncədən gəlincə səbr edin, bu razborkanı FB-də dayandırın. İKİ gündən sonra birlikdə iki--üç nəfərlə oturaq çatışmayan nədir həll edək. Mənimlə danışandan 7 dəqiqə sonra başladınız yenə qızışmağa. QABİL gəlibsə gəlin birlikdə oturun hər şeyi həll edək. Saxlayın bu biabırçılığı.

Füzuli Sabiroğlu, Niftali Goyceli, Qabil Zimistanoglu, Mürvət Murvet Yusifov, Araz Yaquboğlu və kim istəyirsə Qabil gələn kimi bir yerdə bu məsələni müzakirə və HƏLL edəyin.

Yusif Mirzeyev: Niftalı Göyçeli müellim bütün ***yazılarınızı oxuyub analiz edende adamı eseb titredir.*** Sizi kim öyredir kim idare edir. Size ne oldu. Men de nese yazmışdım hirsli. Zer atan kimi eliyirsiniz. Sizin ne yazmağınız sizin işinizdi elin adından danışmayın. Birde ayrı ayrı adamların kitabını tezden köçürüb yazmaq kitab çıxarmaq deyil. Bu meseleni lap çürütdünüz. Lap meni blok edin görmeyim. Gördümse yazacam. İncimeyin. Sert sözler de yazacam.

Niftalı Göyçəli Mürvəti və tərəfdarlarını ələ salırmış kimi onların qəzəbli iradlarını qulaq ardına vurub sanki onları ələ salır, dastan qəhrəmanları, deyişən aşıq kimi hərbə-zorba gəlir:

Niftali Goyceli: Bu şeir ədəbiyyatda yeganə şeirdir. Görürəm, elmi potensialınız böyükdür, buna da bir tənqidi yanaşma edin..... . **DİLƏYƏR**

(dodaqdəyməz gəraylı cığalı təcnis)

Can hayında qalan insan,
Tanrıdan əlac diləyər.
Aşıq deyər diləyər,
Şər xeyirə dil əyər.
Aranı qarışdırar
Acıdırsa, dil əyər. (şivə...əgər)
Yalan eşqə aldananı
Hiyləgər, şeytandil əyər.

Yazını da yazan yazar
Hər insana ayrı yazar.
Aşıq, yazan nə yazar?
-Sağlıq yazar, ya azar.
Diləyini dilə sən,

Haqqa çatar, ya azar.
Şərə sinə gərən igid
Yaradana sığın əy, ər!

Göyçəli, eşqin istəkdi,
İçindəki xalis, təkdi.
Aşıq, necə istəkdi?
De, anlayaq yartək, di!
İstəyi istəsə yar,
Iki cana istəkdi.
Eldə yaxşı yar axtaran
Arayar, seçər, ələyər.

Niftalı Göyçəlinin bu vur-çatlasında bu "şeirini" yenidən paylaşması çox qəribə təsiz bağışlayır və gülüş doğurur. Məşədi İbad demişkən. "heç hənanın yeridir?" Amma yox! Yəqin həmin "şeiri" "Göyçə ustadları" almanaxına (N.Göyçəli ona möhtəşəmlik qazandırmaq üçün "antologiya" deyir) salacaq və indidən də zəmin yaradır ki, onun bu qızızmaqarası lap Aşıq Ələsgərin yaradıcılığı səviyyəsindədir! O, bunu heç gizlətmir də: "Bu şeir ədəbiyyatda yeganə şeirdir".

"Əhsən", Niftalı Göyçəli! Papaq altda oğullar yatıbmış, bizim də xəbərimiz yox!

Yusif Mirzeyev: Özünü Nazir Əhmədə benzetme, hayıfsan

Mahmud Memmedov: Niftalı Göyçeli yazır kı, Antologiya edebiyyata yeni getirdiyim teqdimatdı)). Yazır kı Nazirin kitablarında aşıq yazılanı men ustad yazmışam. Ayıbdı. Ne tez bednam kitaba istnad elediniz. O dahilerin ustad olduğunu hörmetli alimlerimiz yüz ile yaxındı yazırlar. Mence heç ne yazmasanız daha yaxşı olar Niftalı Göyçeli. Qaşıdıqca şoru çıxır

Şebnem Bunyadzade: Loğman öten il böyük biabırçılıq töretmişdi. Aydınlıq olur inşallah

Niftali Goyceli: Bu sualları yazım, bəlkə mənə qarşı narazılığınızı anlaya bildim. 1.Ustadlarımızın doğum tarixini

saxtalaşdıranlara qarşı bu kitabda Füzuli Sabiroğlunun arxiv materialları izahlı fotolarla verilib. 2.Ustadlarımızın 4 ədəd şeirlərində ömür yaşlarının 80-90-100-dən keçməsini göstərmələri və qarşı tərəfə dəlil kimi təqdim etmək. 3.Bədii təfəkkür tarixində yalnız Oğuz türkünə aid Aşıq Alının icad etdiyi "Dodaqdəyməz" şeir növünün(janr) şeriyyət zirvəsində fəlsəfi anlamda təqdimi. Aşıq Ələsgərin bu "Dodaqdəyməz" şeir növünə divani də əlavə etməsi, "Dildönməz" şeir növünü icar etməsi. Qeyd edim ki, hörmətli şairimiz Məcnun Göyçəlinin arxivindən Aşıq Allahverdinin çap olunmamış şeirlərinin yerləşdirilməsi və ustadın Sulduzdan Şərura gəlməsini (Elbrus müəllimin-kötücəsi) əsas tutub əvvəlki səhv yazılara düzəliş edilməsi...Ağ Aşıq Allverdinin Dədə Qorqud kimi tüklərinin ağ olması, dərisi isə adi insanların dərisi kimi olmasını qeyd etməklə "albinos" əlamətini təkzib etmək və s... İndi deyin görək, sizin iradlarınız nədən ibarətdir? Kitabın bu yönü sizə lazımdır, yoxsa başqa nə isə?

N.Göyçəlinin sonuncu sualı adamların zarafatla bir birinə dediyi "Sənə balıq lazımdır, yoxsa balıq başı?"-deyimini xatırladır və təbəssüm doğurur.

Niftalı Göyçəli heç bir dəlilə, sübuta, mənbəyə əsalanmadan artıq neçənci dəfədir ki, dodaqdəyməz şeir növünü Aşıq Alının icad etdiyini yazır. Halbuki onu təcni utası kimi tanıyan və "Təcnis Alı" deyənlər olub və yenə də var. Aşıq Ələgərin onu "A yağa-yağa" dodaqdəyməz təcnisi ilə bağladığı da məlumdur. Aşıq Ələsgərə təcnislə cavab vermək yəqin ki, Alı üçün çətin olmazdı, yəqin ki, həmin təcnisin həm də dodaqdəyməz olması onu çətinə salıb. Əgər Alı doğrudan da Niftalının tez-tez təkrar etdiyi kimi dodaqdəyməz şeir növnn ilk yaradıcısıdıra, onda Ələsgərə niyə cavab verə bilməyib məğlub olurdu?

Amma mənim sualım normal adamlar üçündür, Niftalıya ha de!

Şəxsi münasibətləri ümumi mənafedən üstün tutursuzsa, bu başqa söhbət...Bir məsələni də deyim ki, ***mənim heç bir maddi marağım olmayıb və bu mənim varlığıma yaddır***. Bu ifadələri də atın kənara: "ayıbdır" "arxadan vurulan zərbə","Nazirə nəzirə"-filan...Yalançı bədnam kitabla mənim yazdığım kitaba eyni yanaşırsızsa, o da sizin vicdanınızın öhdəsinə.... əgər elmi iradınız varsa, bildirin...Mən on kitab müəllifiyəm, AzYB-nin üzvüyəm, nə yazdığımı bilmirəmmi? Mən Göyçə ustadlarından dərs almışam: söhbət elmdən, bədii təfəkkürdən gedir...***Aşıq Ələsgərin "Ay nədən oldu" bağlamasına şeirlə deyişmə formasında cavab verən də hələlik birinci mənəm,*** "ƏLİF, LAM" şeirinə də izahıma FB-də paylaşmada kimlərin rəy yazmalarına baxa bilərsiz... nə üçün qəbul etmək istəmirsiz ki, bu kitabın əsas əziyyətini çəkən mənəm və müəllif kimi məsuliyyəti də mənə aiddir...***Hələlik Nazir Əhmədli tərəfdən bir münasibət bildirilməmiş "necə gəldi..." hücuma siz başlamısız***..... Axırda da bir sözüm: -Əgər elmi gücünüz varsa, bu şeiri "yıxın-sürüyün":

Bu şeir ədəbiyyatda yeganə şeirdir..

Niftalı Göyçəli üçüncü dəfə həmin "şeir"ini hərbə-zorba üslubunda paylaşır:" Əgər elmi gücünüz varsa, bu şeiri "yıxın-sürüyün": Bu şeir ədəbiyyatda yeganə şeirdir".

Əsas opponent isə məni sayır:"Hələlik Nazir Əhmədli tərəfdən bir münasibət bildirilməmiş "necə gəldi..." hücuma siz başlamısız".

Sağ ol, Niftalı Göyçəli!

Mən, əlbəttə münasibət bildirəcəyəm. Amma birincisi, qoy "kitabınız" çıxsın, ikincisi də oxuyub münaibət bildirim. Sizlərdən fərqli olaraq mən oxumadığım şeylərə münasibət bildirmirəm.

..... DİLƏYƏR

(dodaqdəyməz gəraylı cığalı təcnis)

Can hayında qalan insan,

Tanrıdan əlac diləyər.

Aşıq deyər diləyər,

Şər xeyirə dil əyər.

Aranı qarışdırar

Acıdırsa, dil əyər. (şivə...əgər)

Yalan eşqə aldananı

Hiyləgər, şeytandil əyər.

Yazını da yazan yazar

Hər insana ayrı yazar.

Aşıq, yazan nə yazar?

-Sağlıq yazar, ya azar.

Diləyini dilə sən,

Haqqa çatar, ya azar.

Şərə sinə gərən igid

Yaradana sığın əy, ər!

Göyçəli, eşqin istəkdi,

İçindəki xalis, təkdi.

Aşıq, necə istəkdi?

De, anlayaq yartək, di!

İstəyi istəsə yar,

Iki cana istəkdi.

Eldə yaxşı yar axtaran

Arayar, seçər, ələyər.

Sahib Musayev: kimlərsə bizi biri-birimizə toqquşdurmağa çalişir. dünən dedik ki, qabil gəlsin birlikdə adlarini sadaladiğim adamlar görüşüb aydinliq gətirsin. Nə vaxt ki, razılaşmaq haqda söz gedir kimsə burnunu soxub hər şeyi korlamağa çalışır. Hövsələnizi basın görüşək birlikdə həll edək. Kitabda nə olduğunu bilməyən təhqiramiz sözlərlə kimisə günahlandırmasın.

Niftali Goyceli: Sahib bəy, mən də sizinlə razıyam...amma bu adamlar bilmirlər ki, nəyi tənqid edirlər, kitabı görməmiş, içindəkinə baxmamış "necə gəldi" yazırlar...

Sahib Musayev: Hamınıza deyirəm--iki müəlliflə dediyim insanlar bir yerdə görüşmüyüncə kim aranı qarışdırsa ifşa edəcəm.

Sahib Musayev hədə-qorxu gəlir.

Murvet Yusifov: Niftalı Göyçəli, yaxşı olar ki, sən yazmayasan. Onda sakitçilik olar, nəinki sən yazanda.

Sahib bəy, hələ ki burda fikir bildirənlər proseslərdə fəal iştirak edən adamlardı. Onların fikir bildirmək haqqıdı. Onların haqqını əlindən almayaq!

Metanet Mikayil Amirli: Sahib bey kim ara qarişdirir ki? Sülh terefdarinin biri de menem. Neçe günde dinmez halda kenardan prosesleri izleyirdim. ***Ama söhbet maddiyyatla bağli Mürvet müellime atilan şer ve böhtanin üzerinde cemlenende haqsizliğa dozmedim***.Mürvet müellim sebirsizdir, tez coşandir ama teessubkeşi olduğu elin qepiyine bele göz diken deyil. Bunu hetta xaricde yaşayan soydaşlarimizin biri mene dedi

Murvet Yusifov: Niftalı Göyçəli böhtanlarına niyə aydınlıq gətirmir? Bəlkə bu böhtanı deməkdə haqlı olduğunu iddia edir?

Elbrus Caferov: Aziz yurttaşlarım, sabırlı olun, uzlaşın. Evin çölüne bakmak lazım.

Mahmud Memmedov: Niye bizim sözlerimiz tehqir kimi başa düşülür?

Murvet Yusifov: Sahib bəy, Niftalı Göyçəliyə uğurlar dilədim və bildirdim ki, onun nə yazacağının mənə və mənə hörmət göstərənlərə heç bir aidiyyatı yoxdu.Bundan sonra nə istəyir?

Sahib Musayev: Qabil cavab vermir, bilmirsən gəlibmi?

Murvet Yusifov: Bilmirəm.

Niftali Goyceli: Sahib bəy, bu adamlar getdikcə böhtanlara keçir, kim deyib ki, kimsə maddi bir şey güdür...Bu maddi nədir axı, onu kim verib ki, bölə bilməmişik? Ayıbdır! ***Bu Şəbnəm xanımla, Mətanət xanımın istəkləri nədir, anlaya bilmirəm... Nazir Əhmədli Ustadlarımızın ömür yaşlarını saxtalaşdırıb, mən də ona qarşı kitab yazmışam... Bununla da mən son verdim və daha heç nə yazmayacağam...*** Kimin əxlaqı yol verirsə, məni söysün, təhqir etsin, böhtan atsın...Şəbnəm xanım bilsin ki, 1985-86-cı illərdə Səməd Vurğun adına Şəki rayon mədəniyyət evinin direktoru işləmişəm və məni tanıyanlar necə insan olduğumu deyərlər...

N.Göyçəli artıq "antologiyanın" tərtibçisi statusu ilə razılaşmayıb bəyan edir: "Nazir Əhmədli Ustadlarımızın ömür yaşlarını saxtalaşdırıb, mən də ona qarşı kitab yazmışam. "

Sahib Musayev: Razılaşdıq axı bir az səbr edək.

Murvet Yusifov: Sahib bəy, siz oxumamışdınız o statusu?

Metanet Mikayil Amirli: Oğru ele bağirir ki doğrunun bağri yarilir.

Bir vaxtlar N.Göyçəlini "Siz bizim fəxrimizsiniz" adlandıran Mətanət Əmirlinin sözlərini yadda saxlamağı oxuculara tövsiyə etmişdim. İndi həmin Mətanət Əmirli həmin Niftalı Göyçəlini "oğru" adlandırır!

Murvet Yusifov: Bunu kimin yazısına görə yazmışdınız Sahib bəy?

Metanet Mikayil Amirli: Niftali bey! Ister Metanetin, ister Şebnemin sizden isteyecekleri ve umacaqlari heç ne yoxdur. Men unutmamisinizsa sizinle şexside yazişdim. Sizden xahiş etdim bir böyüklük edib ağsaqqal kimi hereket ederek mübahiselere son qoyaq.Sizinle semimi söhbet edib sağollaşdiq.Sizinle yazişdiğim anda eyni zamanda Füzuli müellimle de yazişirdim. Bir çözüm taparaq bu mübahiseni hell etmeyini xahiş etdim. O da sizinle elaqe saxladi.Sizin statusu silmeyinizden çox sevindik ve Füzui müellim qeyd etdi ki artiq mesele hell oundu. Sonradan yeni status yazaraq Qabil ve Mürvet müellimi nelerdese günahlandirdiz. Menim bilmek istediyim bu hereketinizin sebebidir

Murvet Yusifov: Düz yazışmamısınız). Deməliydiniz ki, necə başlamısınızsa elə də son verin).Belə çıxır ki, Niftalı Göyçəli statusunu siləndə yaddaşlardan da silindiyini düşünür)!?

Murvet Yusifov: Mətanət xanım, sizin və çoxlarının bilmədiyi çox şeylər var. Mən özümə yaraşdırıb xırdalıqlara getmirəm. Niftalı müəllimə də məsləhət görürəm ki, davam etməsin. Davam etdikcə özü özünü ifşa edir.

Metanet Mikayil Amirli: Niftali bey!

Niye özünüze sual vermirsiz ki, niye Metanet ve Şebnem dünene kimi meni destekleyirdi bu gün ne oldu bes? Belke günah özümdedir. Şebnem de, Metanet de bir amal uğrunda mübarize aparir HAQQ, EDALET, DÜZGÜNLÜK.Metanet de, Şebnem de haqqi müdafie ederken Nazir kimi, Fexri Qocayev kimi ***mirdarlarin*** söyüşüne hedef oldular. Lakin haqq uğrunda mübarize aparmaqla fexr edirler!

Murvet Yusifov: Niftalı Göyçəli çox şeyləri unudub.. Yaddaşını yeniləyibdi.

Qabil Zimistanoglu: Niftali Goyceli muellim size hech kim bohtan atmir. Ona gore de Şebnem Bunyadzade xanim, Metanet Amirli xanim kimi heqiqeti yazanlari bohtanchiliqda gunahlandirmayin. Cunki bu meselede onlarin nece ardicil ve donmez mubarize apardiqlarinin shahidi olmusham. Ona gore de yazdiginiz reylerin ferqinde olun.

Yusif Mirzeyev: Yazdıqlarınız kimliyinizin göstericisidi Niftalı Göyçeli. ***Men Nazir deyilem, mene şeir yazırsınız. Bir vaxt Loğmanla bir-birinize söymediyiniz yer qalmadı. İndi Loğmanın mesleheti ile ara qatırsınız. Ayıbdı vallah.***

"Mən Nazir deyiləm, mənə şeir yazırsınız".

Bu cümlə bir hadisə ilə bağlıdır.

2017-ci ilin iyununda, dava-dalaşın təzə qızışdığı vaxtlarda, Niftalı Göyçəli adımı çəkməsə də bostanıma daş atdı-ünvanıma təhqirlərlə dolu bir "şeir" yazdı. Ona yazdım ki, əgər onu silməsə, onun üçün yaxşı olmayacaq. Yekəxanalıqla "Siz niyə onu üstübüzə götürürsünüz?" deyə məni lap qıcıqlandırdı. O vaxt araçıların vasitəsilə onu başa saldım ki, o "şeiri" silsin. Özünü xeyli naz-qəmzəyə qoyandan sonra sildi, sonra inboxuma mesaj yazdı, xeyli fikir mübadiləsi etdik, başa salmağa cəhd etdim, amma görünür nəticəsi olmadı.

Üstündən bir neçə gün keçmişdi, gördüm N.Göyçəli ünvanıma yeni bir "şeir" həsr edib və fb-də paylaşıb. Daha onu başa salmağın başqa üsulu lazım idi və mən də adını çəkmədən onun ünvanına kəskin bir həcv yazdım. Dost-tanışın, abırlı

adamların təkidindən sonra onu sildim, Niftalı da sildi və bir daha qatırçının qatırını ürkütmədi.

Yusif Mirzəyev həmin hadisəyə işarə edir.

Şebnem Bunyadzade: Mürvet Yusifov, niye açıqlamırsınız ne gözleyirsiniz? Bezi adamlar şantaja keçir. İki qadını söyenlere beyenme qoyanları söyüş qehremanı ile zarafatlaşanların paxırını qoruyursunuz?

Şebnem Bunyadzade: Allah mene sebr ver.

Murvet Yusifov: Səbrli ol Şəbnəm xanım!

Yusif Mirzeyev: Şebnem xanım nece sebrli olsun? ***Niftalı Göyçeli qohumu Loğmanla iyrenc şeerler yazır irgençilik ediller.*** Siz de sebr dileyirsiniz. Eger bunun nöqsanlarını açıqlamasanız bizim sebrimiz qutaracaq

Metanet Mikayil Amirli: Ne Şebnem xanimin, ne menim, ne de digerlerinin sebri qalib.Ağsaqqal dedik, müdruk dedik, qoltuqlarinin alti qarpizlanan Niftali Göyceli bir sira insanlari içi men daxil olmaqla bloklayib. ***Men öz növbemde hazirki veziyyetde Niftali Göyceliye Nazir Ehmedliden de tehlükeli şexs kimi baxiram.***

Niftali bey qohumu Loğmanla birleşib ümumi işe zerbe vurmağa çalişirlar.

Aylardir davam eden mübarizenin son meqamlarinda dostlarina arxadan zerbe vuran insana ne ad vermek olar sizce?!

Murvet Yusifov: Nazir Əhmədli yeni taktikaya keçib. Yeni profillərlə təxribat yaratmağa çalışırlar. Hamınızdan xahiş edirəm ümumiyyətlə onun səhifəsinə girməyin.

Murvet Yusifov: Bu profil provakasiya ilə məşğuldur. Rəyləri ilə əsəbləri korlayıb provakasiyaya çəkir.

Mürvət Yusifov burada Asif İsrafilovun yorumlarını scrinshot edərək yayıb və onu mənim saxta profilim adlandırıb. 5-ci sinifdə Azərbaycan dilindən mənə dərs deyən böyük

qardaşım İlyas Şahquliyevin profilini də bir müddət əvvəl mənim saxta profilim adlandırmışdı.

Təpədən dırnağa qədər saxtakar olan bu şəxs elə bilir hamı onun elədiklərini eləyir. Necə deyərlər, "oğru elə bilir hamı onun kimi oğrudur".

İntellektual səviyyəsi kifayət qədər yüksək olan Asif İsrafilovla kitabım çapdan çıxdıqdan sonra tanış olmuşdum və kitablarımı ona bağışlamışdım. Hazırda Moskva şəhərində yaşayan Asif bəy əslən Tovuz rayonundandır.

Mahmud Memmedov: Nazir Ahmedli her cür iyrencliye el atır. Her şey gözlemek olar.

Haci Nusret Kamilov: Onun adını görende nifret hissim aşıb daşır

Xatai Aleskerli: Əziz dostlar insan dünyaya gelen günden öz şeref ve leyaqetini qoruyub saxlamalıdır.Bele bir el misalı var biri quyuya daş atır -yüz aqıllı çıxara bilmir.Men eşitmişem ki, Nazir Ehmedli ictimayetde tanınan adamdır.Göresen Nazir Ehmedli niye Ermeni milli arxivine arxalanaraq kitab çıxartdı? Onu vadar eden neyiydi? Bu el tesifi deyildi, ne de ki xalqımızın xeyrine cıxan bir iş deyil, göresen bu suala kim nece cavab tapacaq?

Bayram Mammadov: Axir ki, Nazir Ehmedlinin dediyi oldu: Goyce ziyalilari arasinda nifaq toxumunu sepe bildi.

Mürvət Yusifov Niftalı Göyçəli ilə aralarındakı nifaqın ona sərf etmədiyini görüb məsələni ustalıqla başqa səmtə, yəni mənə yönəldir. Niftalı Göyçəli Mürvətin Aşıq Ələsgərin adıyla bağlı hansısa fond yaratmaq təşəbbüsündən bəhs edir və onun qeyri-sağlam maddi maraqlarına eyham vurur. Bu isə Mürvəti son dərəcə əsəbləşdirib hövsələdən çıxardır.

Əslində bu adamların yazışmaları ortaya olduqca maraqlı mənzərələr çıxardır. Məsələn, N.Göyçəlinin Don Kixot kimi yel dəyirmanına hücum etməsini, "Sanço, sən qəhrəman

deyilsən, sənin gözünə düzgün görünmür" psixologiyasını qeyd etmişdim. Həmin xasiyyəti burada da özünü büruzə verir: Araz Yaquboğlu ona irad tutur ki. İslam Ələsgərov elmlər doktoru deyil, düz yazmamısan, cavab verir ki, mən onu akademikdən üstün bilirəm və əcəb eləyib yazmışam. Yəni ona da deyir ki, sən qəhrəman deyilsən, İslam Ələsgərov sənin gözünə elmlər namizədi kimi görünür...

Niftalı Göyçəli istədiyinə nail oldu. Kitabı nəşr etdirib dostlarını müjdələyir və onları təqdimata dəvət edir:

Niftali Goycelinin statusu
18 sentyabr2017 ·

Dostlar, 25. 09. 2017-ci il tarixində, saat 14-00-da AzYB-nin Natəvan klubunda "GÖYÇƏ USTADLARI (antologiya)" kitabının təqdimat mərasimi olacaq... Dostlar hamılıqla dəvətlidir.

Və təntənəli şəkildə təbrikləri qəbul edir:

Yorumlar:
Habil RzaNur Mustafayev: Təbrik edirəm Ustad!
Niftali Goyceli: Cənc şairimiz- Habil bəy var olsun!
Xalide Ilyasqizi: Təbrik edirəm.Axarlı olsun .Uğurlar!
Təvəkkül Goruslu Məmmədov: Təbrik edirəm, uğurlar arzulayıram, dəyərli şair eloğlum!
Huseyn Memmedov: təbrik edirəm !!! xeyilisindən olsun .axrinci yox axarinci olsun.
Jala Ahmedova: Dəyərli və əziz insan Niftalı üəllim,belə geniş şaxəli bütün yaradıcılıq işlərinizdə sizə uğurlar və geniş imkanlar diləyirəm!
Niftali Goyceli: Göyçə elinin zəkalı və gözəl xanımı Jalə müəllimə var olsun!..

Memmed Merzili: Uğurlar olsun!

Nazir Ahmedli: Niftalı müəllim, təqdimat zamanı opponentlərə söz veriləcəkmi, hazırlaşım?

Niftali Goyceli: Bəli...

Nazir Ahmedli: Tənqid etsəm, inciməzsiniz ki?

Niftali Goyceli: Mövzu ilə əlaqədar, yəni ustadların şeirlərindəki ömür yaşları və əldə olunan arxiv materialları əsasında... buyurun!..

Nazir Ahmedli: Mən təkcə ustadların nəzərdə tutduğunuz ömür yaşları ilə bağlı yox, kitabda yer alan hər bir şey haqqında danışacam. O cümlədən sizə ünvanladığım və cavab vermədiyiniz sualları bir də verəcəm. Hazır olun!

Nazir Ahmedli: Yeri gəlmişkən, E.İsmayılın kitabınız haqqında fikri necədir? O hansı cəbhədədir? Sizinlədir, yoxsa sizə qarşıdır??

Niftali Goyceli: Bizim ustadlar haqqında fikir ayrılığımız yoxdur...

Nazir Ahmedli: Mən ustadları demirəm, kitabınızı deyirəm

Nazir Ahmedli: Məhəmməd Bayramov da Məmmədhüseyni deyil, öz şeirlərinizi kitaba salmağınıza görə sizi tənqid etdi. Xəbəriniz varmı??

Niftali Goyceli: Eldar müəllimin ayağındakı yara tam müalicə olmadığı üçün gələməyə də bilər...

Nazir Ahmedli: Mən gəlməyini demirəm, sizin kitabı müdafiə edib-etmədiyini soruşuram.

Niftalı Göyçəlinin bəsit cavablarından Eldar İsmayılın kimin tərəfində olduğu, əlbəttə görünür. Amma arxasını yerə vermək istəmir, "Eldar müəllimin ayağındakı yara tam müalicə olmadığı üçün gələməyə də bilər..." gülməli cavabını yazır.

Niftalının tərtib etdiyi kitaba münasibətdə donosbaz dostların arasında mövqe ayrılığının şahidi oluruq...

Niftali Goyceli: Burada mənim sonda "Əlavə..." bölməsindəki 4 şeirimi bəhanə etməyin, müəllif kimi son-epiloq əvəzi yazım kimi qəbul edilməlidir...kitab yazı mədəniyyətini qəbul edə bilmirsizsə, nə deyim? Mətləb ustadların ömür yaşları və arxiv materialları üzərində olmalıdır..."Söz güləşi" sivil polemika deyil...

Nazir Ahmedli: Mən təmiz Azərbaycan dilində sonuncu dəfə sizdən soruşuram: Eldar İsmayıl bu kitabı qəbul edir. yoxsa yox? O hansı tərəfdədir. Sizinlədir. yoxsa Sizə qarşıdır?

Niftali Goyceli: Nazir bəy, mən də Azərbaycan dilində sizə bildirirəm ki, qurduğunuz "söz diplomatiyası" gərəksizdir... Siz öz fikirinizi deyin, məntiqli olun, başqası sizin üçün önəmlidirmi?..

Qurbetde Parlayan Qigilcim: Tebrik edirik Niftalı müellim! Axarlı olsun, uğurlarınız bol olsun! Kitabda olan bezi sehvlere düzeliş edilse, gözel olardı...

Niftali Goyceli: Hansı səhvlər? Kitabın elektron variantını Araz Yaquboğlu internetə yerləşdirəcək...o zaman iradları da yazarsız...

Qurbetde Parlayan Qigilcim: İnşaallah Niftalı müellim. Men sadece fb.-den oxuduğum üçün deyirem, "ziyalımızın" iradını nezerde tutmuram. Çap üsulunda geden sehvleri deyirem. Oxuyandan sonra fikir bildirerem. Yene de tebrikler Niftalı müellim.

Niftali Goyceli: Əlbəttə, mən kitabı idial kimi təqdim etsəm, doğru olmaz...qüsurlar varsa da, əsas məsələ təkzib-olunmaz 4 şeirlərdə ustadların ömür yaşlarını deməsi və son arxiv materiallarıdır ki, onlar da kitabın ideyasını əhatə edə bilir...

Nazir Ahmedli: Niftalı bəy, neçə gündür "əlavələr" bölməsində sizə məxsus 4 şeirin olmasından danıırsınız. Oradakı 5-ci şeir kimindir? "Göyçə ustadları" sözü Sizə də aiddir? Özünüzü Göyçənin sonuncu ustadı hesab edirsiniz?? Bu qeyri-təvazökarlıq hesab edilməzmi??

Nazir Ahmedli: Deməli, özünüzü Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı və Aşıq Ələsgərlə bir sıraya qoyursunuz? Halbuki şeirləri

Aşıq Alının və Aşıq Ələsgərin yaradıcılığına ciddi təsir edən Şair Məmmədhüseyn kimi nəhəngə bir neçə səhifə rəva görməmisiniz! Burada da "Vatikanın missioneri" Şopen Sizə mane oldu??

Niftali Goyceli: Bu yöndə mənasız suallarla özünüzü "cığal rəqib" kimi aparmağınız sizə bir üstünlük yox, acizlik gətirir. Təqdimatda da belə boş-boş sözlər işlədəcəksizsə, yəqin ki, sözünüz kəsiləcək...

Nazir Ahmedli: Ümumiyyətlə antologiya ilə almanaxın fərqi nədir və bu kitabı niyə almanax yox. antologiya adlandırmısınız??

Niftali Goyceli: Yenə başladız də, indi sizə ədəbi formalar haqqında dərsmi keçim?... Mənim yazdığım kitabları nüsxə hesabı ilə tərəziyə qoysalar sizin çəkinizdən ağır gələr...Görün kimə nə sual verib mətləbdən qaçırsız...

Nazir Ahmedli: Niftalı Göyçəli, mənim iradlarımı burada hamı oxuyur, heç o yan-bu yan etməyin! Suallarıma cavab istəyirəm. Filologiya elmləri namizədi, indiki terminologiya ilə desək, filologiya üzrə fəlsəfə doktoru İslam Ələsgərovu kim Sizə ixtiyar verib ki, elmlər doktoru kimi təqdim edirsiniz??

Niftali Goyceli: Nazir Ahmedli köhnə cavablandırılmış sualları təkrarlamayın...Mənim üçün və çoxları üçün İslam Ələsgərli akademikdən də üstün elmi təfəkkürə malikdir, xoşunuz gəlmir, qəbul etməyin...

Nazir Ahmedli: Niftalı Göyçəli, cığallıq etməyin heç bir xeyri yoxdur. Xətai Ələsgərlinin təqdim etdiyi şəcərəyə görə Ələsgəri Allahverdinin oğlu kimi göstərmisiniz. Buna nə ad verək? Allahverdini İ.Ələsgər Aşıq Ələsgərin babası, mən isə əmisi kimi göstərmişdim. Oxucular bu 3 variantın hansına inansın? Başqa vaxt deyirdiniz insan öz babasını hamıdan yaxşı tanıyar. Xətai beləmi tanıyır Ulu Ustadı??

Nazir Ahmedli: Birincisi, akademiki kiminsə xoşuna gəlib gəlməməyə görə vermirlər. ikincisi də əgər İslam müəllim Sizin üçün akademikdən də üstündürsə, kişini niyə elmlər doktorluğunda saxlayıbsınız, elə akademik yazaydınız da!!!

Nazir Ahmedli: Sizə məsləhətim budur ki, bu cür kitabı el içinə çıxarıb oraya daxil etdiyiniz və etmədiyiniz Ustadların ruhunu incitməyəsiniz! Yoxsa bunun vəbalı bütün ömrünüz boyu boynunuzda qalar!!!

Niftali Goyceli: Çox dəhşətli inadkarlığınız var! İslam müəllim öz babasını tanımırmı... Bu erməni yazan çərənləmələri yenə irəli sürürsüz! İndi mən yazım, siz yazın və keçən aylar kimi saat ikiyə kimi "vuruşaq" . nə faydası? yaxşısı budur ki, son... "Qozbeli qəbir düzəldər"...

Qurbetde Parlayan Qigilcim: İslam Elesger dede Elesgerin qanını daşıdığı üçün onun heç bir ada ehtiyacı olmayıb. Heç vaxtda babasının adından istifade edib, ad nemine , vazife namine saxta tarixler yaratmayıb.Esası odur ki babam xalqın gözünde en yüksek zirvededir, bizim üçün de PİRDİR! Niftalı müellimin kitabında o cür yazılmağı onun doğum tarixini ve kim olduğunu deyişmir, o sehvlere düzeliş etmek asandır. Size verilen sualları cavablandırın!

Nazir Ahmedli: Xətai Ələsgərlinin "şəcərəsi" necə olsun? Axı onu kitaba salan sizsiniz. mən deyiləm, Niftalı Göyçəli!

Niftali Goyceli: Mənim yazdığım varisin dilindəndir, sizin yazdığınız ermənin dilindəndir...yenə də öz yalanınızı müdafiə edirsiz...Son! Deyirəm də:"Qozbeli qəbir düzəldər"

Nazir Ahmedli: Mən də deyirəm qozbeli qəbir düzəldər, amma Xətainin təqdim etdiyi şəcərə məsələsinə aydınlıq gətirin, təhqirə can atmağın heç bir faydası olmayacaq.

Qurbetde Parlayan Qigilcim: Milletin tarixini saxtalaşdıran "akademikiniz" sizin gözünüzde zirve ola biler, xalqın gözünde yox! Akademik olmaq asandır, insan olmaq çetindir! Sizin dediyiniz şecere meselesine geldikde ise, İslam Elesgerin yazdığı doğrudur. Allahverdi Aşıq Elesgerin babasıdır.

Qurbetde Parlayan Qigilcim: Teşekkür edirem Niftalı müellim! Babama verdiyiniz deyeri göre çox sağ olun!

Niftali Goyceli: Nazir Ahmedli Nə isə, yenə saat ikiyə işlədi...polemika qaldı sabaha,..Gecəniz xeyrə qalsın!

Qurbetde Parlayan Qigilcim: Ola bilsin ki çap üsulunda sehve yol verilib, çünki Xatai Elesgeri öz şeceresini sizden ferqli olaraq çox gözel bilir!

Nazir Ahmedli: Niftalı bəy, hələ saat 1 olamayıb. heç olmasa bir iradımı da dinləyin. Kitabın 6-cı səhifəsində Nadir şahın hakimiyyəti illərini 1735-1747 kimi göstərmisiniz, halbuki 1736-1747 olmalıdır. Bu kimin xətasıdır?? Sizin, mətbəənin, yoxsa istinad etdiyiniz "Qərbi Azərbaycan, Göyçə-erməni işğalı" kitabının müəllifləri Eldar İsmayılla Gündüz Əhmədlinin??

Nazir Ahmedli: Bir eloğlu kimi deyirəm-bu keyfiyyətdə olan kitabı el içinə çıxartmayın!! Ziyanın yarısından qayıtmaq da xeyirdir!!

Füzuli Sabiroğlu: Niftali müəllim bu adamı bloklayın getsin.

Bu da, "haqq-ədalət carçısı", E.İsmayılın "yeni silahı" Füzuli Sabiroğlu! N.Göyçəlini öz səhvlərini, qəbahətlərini düzəltməyə deyil, məndən canını qurtarmağa çağırır!Başqa çarəsi də yoxdu, Niftalının suallarım qarşısında aciz qaldığını görür və hikkələnir. Mürvətlə olan dava-dalaşda da N.Göyçəlinin tərəfini saxlayır. Bəs necə, axı Niftalı bu "kitaba" onun da adını salıb! Guya F.Sabiroğlu arxiv materialları tapıb ona verib!

Niftali Goyceli: Füzuli bəy, fikirləşirəm ki, bəlkə Haqq yoluna üz çevirə...amma deyəsən heç dönənə oxşamır...

Rövşən Məmmədov: Tebrik Edirem deyerli Eloglumuz. Ugurunuz davamli olsun!

Suleyman Semedoglu: Təbrik edirəm gözəl insan. Əslində sizin kitabınız ya ən böyük sarayda ya da stadionda olmalıdı.

Bəh, bəh, bəh! S.Səmədoğlu bu "kitabın" təqdimatını stadionda keçirməyi təklif edir. Amma konkret olaraq hansı stadionu təklif etdiyini demir.

Çox "təəssüf!"

Edalet Elesgerov: Deyerlerimize xidmet eden insanlara, ebedi heyat seadeti arzu edirem.

Beyim Qaibov: təbrik edirəm uğurlar olsun

Abulfat Heydar: Tebrik Edirem hörmətli Niftalı müəllim Ugurunuz davamli olsun!

Faxraddin Bagirov: tebrik edirem. inшаллан davamli olsun.

Elbeyi Celaloglu: Təbrik edirəm, şair qardaşım!

Firuz Abdullayev: Xeyirli, uğurlu olsun.

Gunduz Azadoglu: Çox saqolun Niftali müellim .Tebrik edirem ,uqurlu olsun !Amin.

Niftali Goyceli: Bu kitab(1999-cu il) Xətai Ələsgərli tərəfindən nəşr etdirilmiş filoloq alim İslam Ələsgərin sonuncu tədqiqat əsəridir. Kitabda 32 saz-söz sənətkarlarının şeirləri və Göyçə mahalında aşıq sənətini davam etdirən 29 nümayəndədən məlumat verilir. Kitab zəngin bir yanaşma kimi çox dəyərlidir...bu kitabda Nazir Əhmədlinin özündən uydurduğu kiminsə adına ... "Ayə məndədir" şeiri haqqında məlumat yoxdur. Dədə Ələsgərin "A YƏMƏNDƏDİR" təcnisi də Aşıq Ələsgər şeirlərinin sırasındadır və Ağ Aşıq Allahverdinin şeirindən tam fərqlidir..

Deyəsən Niftalı Göyçəli "ağıllanıb" axı: İslam Ələsgəri daha elmlər doktoru yox, "filoloq alim İslam Ələsgər" yazır.

Gunduz Azadoglu: Niftali müellim, axshaminiz xeyir olsun ! Íslam Elesgerlinin demek olar ki ,bütün kitablari biz de var. En sonuncu kitab budur :"Asiq Elesger"(Sherler ,dastan-revayetler,xatireler ,Baki ,"ÇÍNAR-ÇAP"müessisesi,2003,-496 seh,tiraj-700)Ola bilsin bu kitab Sizde yoxdu,men sadece xatirlat-maq istedim .

Niftali Goyceli: "Sazlı-sözlü Göyçə" bütün Göyçə mahalının saz-söz-şeir və aşıq sənətinin nümayəndələri haqqında tədqiqat əsəridir. Başqa kitablar da çox dəyərlidir, amma ümimi

Göyçə haqqında "Sazlı-sözlü..."kitabında zənginlik başqa yöndədir...

N.Göyçəli tərtibçisi İ.Ələsgər olan "Sazlı-sözlü Göyçə" kitabını da mağmın etdi. Yalandan şayiə buraxdı ki, 1999-cu ildə kiril qrafikası ilə çıxan kitabı biz ilk dəfə latın qrafikası ilə buraxırıq. Bu yolla X.Ələsgərlidən yenə də pul qopartdı. Halbuki, həmin kitabı İslam müəllimin özü 2002-ci ildə latın qrafikası ilə nəşr etdirmişdi. Niftalı Göyçəli isə İslam müəllimin adı ilə 2018-ci ildə nəşr etdirdiyi "Sazlı-sözlü Göyçə" kitabının həcmini 2 dəfə artıraraq çap etdirdi. Ona deyəndə ki, rəhmətə getmiş müəllifin razılığı olmadan, onun adı ilə nəşr etdiyin kitaba niyə bu qədər yeni şeirlər salmısan, bəlkə rəhmətlik İslam müəllim özü sağ olsaydı sənin əlavə etdiyin şeirləri kitaba salmayacaqdı? Deyir əcəb eləyirəm, vəssəlam. Anam mənə kor deyib, gəlib-gedəni vur deyib!

"Bizim Niftalı" da belə Niftalıdır, nə edək? Özünün dediyi kimi qozbeli qəbir düzəldər!

Hə, deyəsən unutdum. N.Göyçəli qozbel yox, tariximizi, ədəbiyyatımızı, incəsənətimizi şumlayan K-700 traktorudur. Oxuculara xatırladım ki, adamlar onun adını rusca deyirdilər: "Ka semsot", yəni "Ka 700".

Gunduz Azadoglu: Çox saqolun Niftali müellim. Índi hami üçün aydin oldu.

Gazanfar Masimoglu: Uğurlu olsun!

Бабек Абушов: İnşallah!

Sudabe Irevanli: Uğurlar olsun eloğluma. Təbrik edirəm.

Rafiq Abdulla Abışov: Təbrik edirəm əziz dost.yeni uğurlarla

Ismayil Ismayiiob: Təbrik edirəm Hörmətli eloğlum Niftalı müəllim uğurunuz biz göyçəliləri hər zaman sebindirir davamli olsun.

Kitabın təqdimatına getməyəcəyim haqqında məlumat verərkən Niftalı Göyçəli çox sevindi və mənə dərin təşəkkürünü bildirdi.

"GÖYÇƏ USTADLARI"

"Antologiya janrını Azərbaycana gətirdiyini" iddia edən N.Göyçəli kitabın içərisində "Tərtib edəni: Niftalı Göyçəli" statusuna qane olmayıb kitabın üzərinə öz adını yazıb, sanki kitabın müəllifidir. N.Göyçəli. "Göyçə ustadları (Antologiya)". Bakı,2017.

1-ci səhifədə kitab müəllifi yerində göstərilən Niftalı Göyçəli sözlərinin altında Az.YB üzvü yazılıb. Bu, aşkar görməmişlikdən başqa bir şey deyil.

Titul səhifəsi.

Redaktor: Şair Hacı Loğman Babacanlı

Arxiv sənədləri üzrə araşdırıcı jurnalist:

Füzuli Sabiroğlu

Şəcərə haqqında məlumatları təqdim edən A.Ələsgərin nəticəsi: Xətai Ələsgərli

Kitabın 3-cü səhifəsi

İslam Ələsgərli: Filologiya elmləri doktoru, Aşıq Ələsgər yaradıcılığının tədqiqatçısı

(şəkil)

Qabil Zimistanoğlu, jurnalist-Aşıq Alı yaradıcılığının son tədqiqatçısı. (şəkil)

Kitabın üz qabığının son səhifəsində isə şəkli ilə birlikdə özünü belə təqdim edir: Niftalı Göyçəli 21 mart 1950-ci ildə Göyçə mahalının Babacan kəndində anadan olmuş, ADU-nun kitabxanaçılıq fakültəsini bitirmişdir. Üç epos, beş poema müəllifidir. Aşıq Alını özünə mənəvi ustad bilərək, ideyaca H.Cavid yaradıcılığından bəhrələnmişdir".

Təkcə bu kitabın tərtibatı "kitabxanaçılıq fakültəsinin məzunu" olan Niftalı Göyçəlinin kitabçılıq sənətinə necə divan tutmasının əyani sübutudur.

1-ci səhifədə müəllifin adından sonra onun Yazıçılar Birliyinin üzvü olmasının yazılması təəccüb doğurur. Bunu heç olmasa, kitabın cildinin son səhifəsində, tərcümeyi-hal şəklində verdiyi məlumat yazısında verə bilərdi.

Redaktor Loğman Babacanlının adının qabağındakı "şair" epiteti isə insanda heyrət doğurur. Açığı, indiyə qədər kitab redaktorunun adının qabağında o cür ifadəyə rast gəlməmişəm. Görünür, N.Göyçəli 6 ay küsülü qaldığı və tərtibçisi olduğu kitaba güclü mənəvi dəstək verən yaxın qohumuna belə təşəkkür edir, başqa sözlə, hamam suyu ilə özünə dost tutur.

Tədqiqatçı Araz Yaquboğlunun iradlarına baxmayaraq, 3-cü səhifədə İslam Ələsgəri filologiya elmləri doktoru kimi təqdim edir, bu azmış kimi onun soyadını "Ələsgərli" kimi yazır. Halbuki, oxucular yaxşı bilir ki, o əvvəlcə "Ələsgərov", ömrünün son illərində isə "Ələsgər" soyadını daşıyırdı. Təkcə bu iki fakt- hamının gözü qarşısında olan həqiqəti təhrif etməsi onun rəsmi sənədlərə, məlumatlara hansı dərəcədə hörmət, daha doğrusu, hörmətsizlik göstərməsini göstərir. Bu cür adamın rəsmi dövlət məmurları tərəfindən tərtib edilmiş rəsmi sənədlərə-kameral siyahılara münasibəti təəccüb doğurmamalıdır.

“Kitab”ın əvvəlində müəllifləri Eldar İsmayıl və Gündüz Əhmədli olan “Qərbi Azərbaycan, Göyçə-erməni işğalı” kitabının əsasında “Göyçə mahalına aid tarixi xülasə” adlanan hissədə Azərbaycan tarixçilərinə “məlum olmayan” kəşflərlə insanı heyrətləndirir. Məsələn, 5-ci səhifədə Albaniya dövlətinin X əsrin ortalarına qədər “ictimai-siyasi-mədəni-tarixi” mərhələlər keçdiyi qeyd edilir, yəni varlığına 705-ci ildə Ərəb Xilafətinin son qoyduğu Qafqaz Albaniyasının ömrü X əsrin ortalarına qədər, 250 il uzadılır! “Göyçə tarixinə aid 40 kitabın müəllifi olan” Eldar İsmayılın və Niftalı Göyçəlinin şüur səviyyəsi budur!

“Dədə-Qorqud” dastanlarında “Göyçə dənizi” hidroniminin yer alması qeyd edilsə də, nədənsə “Göyçə dağı” unudulur, tarix elmi üçün qiymətli mənbə olan Həmdullah qəzvininin “Tarixi zeyle-qozide” əsərində həmin ifadələrin yer almasının 1343-1344-cü illəri təsadüf etməsindən bəhs edilmir, bunu əvəzində isə “XII əsr Atabəylər dövlətinin (1136-1225) başçısı Şəmsəddin Eldənizin hakimiyyəti altında olan coğrafi ərazidə Göyçə mahalı da mövcud olmuşdur” (səh.6) kimi savadsız ifadəyə yer verilir. Sonradan “Göyçə mahalı” kimi tanınan ərazinin Atabəylər dövlətinin tərkibində olmasına etirazım yoxdur, amma həmin vaxt o ərazinin “Göyçə mahalı” adlanması, yaxud həmin dövrdə Göyçə mahalı adında inzibati ərazinin mövcudluğu haqqında hələlik tarix elmi heç bir məlumat verməyib.

Bu fakt həmin adamların vecinə deyil, tarix elminə məlum deyil, özləri bilərlər, biz deyirik, vəssalam!

Yenə həmin səhifədə Şah İsmayılın sərkərdəsi Rəvan xandan (Rəvanqulu xan olmalıdır) bəhs edilir, Nadir şah Əfşarın hakimiyyət illəri kimi 1735-1747-ci illər göstərilir. Halbuki, özlərinə bir balaca əziyyət verib internetə baxsaydılar, yaxud bunu etməyə həvəsləri olsaydı, görərdilər ki, onun hakimiyyəti 1735-ci ildən deyil, 1736-cı ildən başlayır.

Amma bu, Niftalı Göyçəliyə lazımdırmı? Axı onun dəqiq tarixə, sənədə-sübuta allergiyası var!

Açığı, müəllifi N.Göyçəli olan bu çap məhsulunda (ona kitab deməyi günah sayıram) təqdim etdiyi ilk müəllifdən-Ozan Heydərdən başlayaraq o qədər cəfəngiyyat, uydurmalar, saxta şeirlər var ki, adamı heyrət bürüyür. Məsələn, o çox inamla Ozan Heydərin 1415-ci ildə doğulduğunu yazır, ölüm tarixinin bilinmədiyini qeyd edir. Məntiqlə düşünsək, Heydər anadan olan vaxt adi bir uşaq olduğuna görə, doğum tarixini kimsə əhəmiyyətli şey hesab edib yadında saxlamazdı, öləndə isə artıq məşhur "ozan" olduğuna görə bu tarix yaddaşlarda həkk olunmalı, yazılara köçürülməli idi. N.Göyçəli 1415 rəqəmini hansı mənbədən, hansı sənəddən, salnamədən və ya cüngdən götürüb? Heç birindən! Dedik axı, bu adamın sənədlərə qarşı allergiyası var. Bəs həmin tarixi necə dəqiqliklə müəyyən edib? Heç olmasa, "XV əsrin əvvəllərində doğulub" da demir, dəqiq rəqəm göstərir-1415! Buna deyərlər Niftalı Göyçəli üsulu! Yaxşı, necə olur, nəvə-nəticələri indi də yaşayan bir çox sənətkarların-Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin, Aşıq Cəlilin və başqalarının doğum tarixlərini indi-indi sənədlərlə müəyyən edirik, halbuki bizi onlardan cəmi 100-150 il ayırır, 600 il əvvəl yaşadığı zənnedilən Ozan Heydərin isə dəqiq doğum tarixi irəli sürülür! Halbuki, Azərbaycan Aşıq sənətinin korifeyləri olan Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın doğum və ölüm tarixlərini hələ də düz bilən yoxdur və onların haqqında yazanda "filan əsrin əvvəlində" və ya ortasında, sonunda yaşadıqlarından və vəfat etmələrindən bəhs edirlər.

Ümumiyyətlə, bu çap məhsulundakı bütün səhvləri qeyd etmək üçün onun özündən daha irihəcmli bir kitab yazmaq lazım gələrdi.

Niftalı Göyçəli Ozan Heydər haqqındakı uydurmalarını Miskin Abdal haqqında da davam etdirir. Onun 1430-cu ildə

Göyçə mahalının Sarıyaqub (Zərgərli) kəndində anadan olduğunu və Aşıq Ələsgərə verdikləri yaş qədər-105 yaşında öldüyünü yazır. Belə bir "tarix" uydurur: "1524-cü ildə sarayla birdəfəlik vidalaşaraq doğma yurduna, Göyçə mahalına qayıdır. Ömrünün ahıl çağlarında Sarıyaqubda açdığı ilk məktəb Göyçənin elm, irfan, sənət dünyasında mühüm rol oynayır" (səh.12).

"Miskin Abdal... 1535-ci ildə Göyçə mahalının Sarıyaqub kəndində vəfat edib" (səh.13).

Yenə də heç bir mənbəyə əsaslanmadan Miskin Abdalın 1524-cü ilə qədər Səfəvi sarayında yaşadığını, 94(!!) yaşında saraydan ayrılaraq Göyçə mahalına qayıdıb məktəb açdığını uyduran N.Göyçəlinin bu cür gopları, fantaziyaları yəqin gopçuluq üzrə keçirilən dünya çempionatında 1-ci "mükafata" layiq görülərdi. Göyçənin cəmi-cümlətanı 170 il əvvəlki tarixindən xəbəri olmayan N.Göyçəli 600 il bundan əvvəl doğulduğunu iddia etdiyi adam haqqında çox əminliklə hökmlər verir! Bu adamın Göyçə haqqında ən bəsit bilgisi olsaydı, bilməli idi ki, "Sarıyaqub" adlı kənd Göyçədə ilk dəfə 1842-ci ildə qeyd edilib. 1831-ci ildə "Daş keyti" kimi qeyd edilən kəndin adı 1842-ci ilin kameral siyahısında "№39. Daş Keyti və ya Sarı Yaqub kəndi" kimi qeyd edilib. Sarı Yaqub kəndin kəndxudasıdır və 50 yaş var, yəni 1792-ci ildə doğulub. Ağabalı, Qasım, Mirzəli və Abbas adında 4 oğlu var. Kəndin əhalisi ayrımlı tayfasına mənsubdur ("Göyçə mahalının kameral təsviri". Bakı, 2017, s.174). "Sarı" onun ləqəbidir, əsil adı Yaqubdur. Sonradan ləqəblə adı birləşdirərək kəndin adına "Sarıyaqub" deyiblər. Niftalı Göyçəli bunları hardan bilsin? Axı onun rəsmi sənədlərə qarşı allergiyası var!

Qeyd etmək lazımdır ki, ümumiyyətlə mövcudluğuna ciddi şəkildə şübhə etdiyim Ozan Heydərə və Miskin Abdala aid edilən "şeirlər" onlara aid olmayan, sonradan kimlər tərəfindənsə düzülüb-qoşulan söz yığınından başqa bir şey deyil.

Bunu, həmin şeirlərin üslubu da təsdiq edir və həmin "şeirlərin" üslubu XXI əsr Azərbaycan şeirlərinin üslubundan fərqlənmir. Düzdür, deyə bilərlər ki, onlar şifahi şəkildə gəlib bizə çatdıqlarına görə, dəyişikliklərə məruz qalıb və müasirləşib. Amma bu bəhanə, ədəbiyyat dələduzlarının özlərinə bəraət vermək cəhdindən başa bir şey deyildir.

Məsələn, Miskin Abdala aid edilən "Qaldı" rədifli "şeirdə" belə bir bənd var:

Savah-savah yarpaxlara şeh düşür,

Gül bülbülnən, bülbül gülnən öpüşür.

Asimanda ulduzları sayrışır,

Tufan qaldı, şimşək qaldı, sel qaldı.

Bu söz yığınını yazanlar elə hesab edir ki, "sabah" sözünü "savah", "yarpaq" sözünü isə "yarpax" yazmaqla həmin ifadələrin doğrudan da XV əsrə aid olduğuna sadəlövh oxucunu inandıra bilərlər!

"Asimanda ulduzları sayrışır" ifadəsi bu şeirin saxtalığını və XV əsrdə yaşamış bir adama məxsus ola bilməyəcəyini asanlıqla göstərir.

Bu "şeir" ovet dövrnün aşıqlarından olan Aşıq Pənahın

"İşıqlıdır lampaları kolxozun" –miralarını xatırladır!

Ağ Aşıq Allahverdinin tərcümeyi-halını yazarkən köhnə bayatıları təkrar edən N.Göyçəli belə bir qeyd edir: "Qeyd: Ağ Aşıq Allahverdini burada verilən yeni şeirləri Şair Məcnun Göyçəlinin arxivindən götürülmüşdür".

Onları haradan götürürsünüz, götürün, onlar Ağ Aşıq Allahverdinin deyil, onları Məcnun Göyçəli özü yazıb və indi

qohumu olduğunu deyən böyük sənətkar, Göyçə aşıq mühitinin banisi olan Ağ Aşıq üçün "yaradıcılıq" düzəltməyi özünün mənəvi borcu bilib! Burada yalnız bir söz deyə bilərəm: ayıbdır, ciddi işlərlə məşğul olun, Allahın bəxş etdiyi bütün ömrünüzü saxtakarlıqlara həsr etməyin!

N.Göyçəli yazır: "Allahverdiyə Allah vergisi verildiyindən, çalıb-çağırmağı xəstələri sağaldırmış. Həmin xəbər Şərqi Anadolu hakimlərindən Sərdar Hüseyn paşaya çatır. Yuxusuzluqdan əzab çəkən Sərdar Hüseyn paşa əmr edir ki, aşığı nəyin bahasına olur-olsun, tapıb gətirsinlər. Göndərilən silahlı dəstə onu Şərurda (Şərildə) çox axtarır, sonra Göyçəyə keçib tapır və Ruma aparırlar.Ağ Aşıq 5 ilə yaxın Rumda qalır. Deyilənə görə, ilk çalıb-çağırması ilə Sərdar Hüseyn yuxuya gedibmiş. Yaxın adamları onu ölmüş bilib, Allahverdini öldürmək istəyirlər, lakin çağırılan həkim paşanın nəbzini yoxlayıb, yuxuya getdiyini bildirir. Sərdar Hüseyn 2 gün 2 gecə yatıb oyanır və həmin andan Ağ Aşığı yanından buraxmır, hara getsə, onu da özüylə aparırmış. Günlərin birində Sərdar Hüseyn paşa böyük bir məclis yığır. Qonaqlar soruşurlar:- Bu aşığı hardan tapmısan? Sərdar Hüseyn deyir:-Mən onu Göyçə mahalından gətirmişəm. Yuxum tamam çəkilmişdi, o isə sağaldıb. İndi 5 ilə yaxındır ki, yanımdadır. Qonaqlar deyirlər: - Yazıqdır, onun da ailəsi var. Burax getsin. Sərdar Hüseyn Allahverdiyə qızıl yəhər-yüyənli at və çoxlu pul bağışlayıb, yola salır. Ağ Aşıq Göyçəyə üz tutur, yolda dediyi:

Durnam, gedər olsan bizim ellərə,

Qatıq söylə, qaymaq söylə. Yağ söylə.

Əgər soruşsalar Ağ Aşığıa halını,

Boynu armud saplaq, canın sağ söylə.

Bu şeirin hələlik bizə bir bəndi gəlib çıxıb". (səh.37).

Adını çəkmədiyi müəlliflərdən götürdüyü bu bir abzaslıq yazısında o qədər səhvlər və savadsız ifadələr var ki, bu cür adi şeyləri bilməyən adamın kitab buraxmağa cəsarət etməsi insanın qanını dondurur. Onlardan bəzilərini qeyd edək:

1.Sərdar Hüseyn paşa kimi təqdim olunan şəxs İrəvanın sonuncu və məşhur xanı Hüseynqulu xanın təhrif olunmuş adıdır. "Hüseynqulu" "Hüseyn" şəklinə salınıb.

2.Arazboyu, yəni İrəvan və Naxçıvan xanlıqlarındakı bütün qoşunların komandanı vəzifəsini də daşıdığına görə ona çox vaxt "Sərdar" və ya "Sərdar Hüseynqulu xan" deyilirdi.

3."Sərdar" İranda, "paşa" isə Osmanlı imperatorluğunda işlədilən hərbi rütbə idi və "Sərdar Hüseyn paşa" ifadəsini yazan adamın həddindən artıq savadsızlığını göstərir.

4."Şərqi Anadolu hakimi Sərdar Hüseyn paşa" başqa bir ölkənin, yəni Osmanlı dövlətinin paşasıdır. Osmanlı dövlətinin hansısa paşası İran Qacarlar dövlətinin ərazisinə-əvvəlcə Şərur mahalına, oradan isə Göyçə mahalına bir qrup silahlı adamı necə və hansı yolla göndərib oradan Ağ Aşığı gətirdə bilərdi? Bəlkə N.Göyçəli fikirləşir ki, onlar gözəgörünməz uçan aparatlarla gəliblər? Başqa sözlə, "Uçan naməlum obyektlərlə"! Gərək düşünək ki, "Hüseyn Paşa"nın adamları Göyçəyə vertolyotla, və ya indiki terminologiya ilə desək helikopterlə gəliblər? Özü də "Atak" helikopteri ilə! N.Göyçəli onların təyyarə ilə gəldiyini deyə bilməz, gərək onda həm də desin ki. XVIII əsrdə Göyçədə aerodrom və aeroport da olub! Bu lap ağ olardı, elə helikopter yaxşıdır!

5."Sərdar Hüseyn paşa"nın Ağ Aşığa qızıl yəhər-yüyənli at bağışladığını və bu azmış kimi çoxlu pul da verdiyini iddia edən N.Göyçəli başa düşmür ki, qızıl yəhərin dəyəri bir yana, 1 litri 16 kq-dan ağır olan qızıldan düzəldilmiş yəhəri heç bir at

apara bilməz, hələ onun üstündə bir adam da otura! "Sərdar Hüseyn paşa"nın heç özündə də qızıldan yəhər ola bilməzdi ki, birini də Ağ Aşığa ya bağışlaya, ya da bağışlamaya!

6.Ağ Aşığın çalıb-oxumasından "Sərdar Hüseyn paşa"nın 2 gün 2 gecə yatmasını uydurmaq ancaq primitiv düşüncəli adamların işi ola bilər! Bu cümləni hansısa dastanda işlətmək olar, amma onu aşığın rəsmi tərcümeyi-halında yazmaq cahillikdir!

7.Ağ Aşığın 5 il qürbət eldə qaldığı zamanlarda deyil, yalnız Göyçəyə doğru yola çıxarkən o cür şeir deməsi gülüş doğuran məntiqsizlikdir. Axı, ən geci 3-4 günə Şərqi Anadoludan Göyçə mahalına çatacaqdı.

8.Üçüncü misrada "əgər" sözünün artıq olduğunu görmək üçün doğrudanmı insana qeyri-adi istedad lazımdır? Həmin şeir yazılı mənbələrlə də gəlib bizə çatmayıb ki, deyələr müəllifin yazdığına toxuna bilmərik.

9.Dördüncü misrada "boynu armud saplaq" nə deməkdir? Axı normal halda "boynu armud sapı" olmalıdır. "armud saplaq" ifadəsi varmı?

10.Niftalı Göyçəli yazır ki, "Bu şeirin hələlik bizə bir bəndi gəlib çatıb". Məntiqlə belə düşünməliyik ki, qalan bəndlər yoldadır və nə vaxtsa "gəlib çatacaqlar". Azərbaycan dilini bilməyən N.Göyçəli burada "hələlik" sözünü artıq yazmaqla ifadə etdiyi fikrə o cür məzmun vermiş olur.

Həmin səhifədə (səh.37) əvvəlcə "Təəssüf ki, onun ədəbi irsindən çox az bir qismi gəlib dövrümüzə çatmışdır",-yazır (bu, doğru fikirdir), elə həmin səhifədə də şair Məcnun Göyçəlinin "arxivindən" götürdüyü Ağ Aşığın şeirlərini təqdim edir. Görəsən, Məcnun Göyçəli onları indiyəcən niyə arxivində həbs edibmiş və N.Göyçəli onu necə yola gətirb ki. M.Göyçəli onları həbsdən azad edib N.Göyçəliyə verib? Bəlkə həmin şeirlər

N.Göyçəlinin dediyi "yolda olan" şeirlərdir? Ünvanı yaxşı tanıyırmışlar, birbaşa M.Göyçəlinin "arxivinə" gedibılər?!

Məcnun Göyçəlinin Ağ Aşığın adından uydurduğu "şeirlərlə" haqqında söhbət gedən "kitabı" dolduran N.Göyçəli onun halal şeiri olan "Bu gün seyraqubdan bir söz eşitdim" misrası ilə başlayan təcnisini onun adından verməmişdir. Çünki bu, kitabın çap xərcini ödəyən Xətai Ələsgərlinin-N.Göyçəlinin patronunun narazılığına səbəb olardı.

Yeri gəlmişkən, bir şeyi qeyd etməliyəm ki, bu çığır-bağır kampaniyasında hamıdan irəli düşən elə Niftalı Göyçəli oldu. "Göyçə Ustadları" antologiyasına özünün "şeir" adlandırdığı cızmaqaralarını daxil etməklə, bütün təvazökarlıq, ədəb-ərkan qaydalarını pozaraq özünü də həmin ustadlarla bir sırada təqdim etdi, həm də Patron ona iş yeri də yaratdı. Yeni açdığı "göyçə.az" saytına direktor təyin edib maaşla təmin etdi. Mübahisələr vaxtı N.Göyçəli çox gileylənirdi ki, cəmi 200 manat pensiya alıram, kasıbam.

Görəsən X.Ələsgərli mübahisə edən tərəflərdən niyə M.Yusifovun deyil, N.Göyçəlinin tərəfini tutdu? Bu haqda şəxsi qənaətim belədir. Eldar İsmayılın rəhbərliyi ilə mətni Q.Zimistanoğlu tərəfindən qələmə alınan donosda E.İsmayılla yanaşı, Niftalı Göyçəlinin də adı var, belə yazılıb: "Yusubov Niftalı Puta oğlu". Amma M.Yusifovla Q.Zimistanoğlunun adlarını həmin donosda tapa bilmədim, çox güman ki, mənim şair Şiruyənin "işverən" oğlu Aqşinə yazdığım tənəli sözlərdən sonra onlar öz adlarını tarixə donosbaz salmamaq üçün imza atmayıblar və bu da X.Ələsgərlinin xətrinə dəyib və donosa imza atan N.Göyçəlini seçib.

Aşıq Ələsgərin tərcümeyi-halında onun şəcərəsini təqdim edən N.Göyçəli (şəcərəni X.Ələsgərlinin təqdim etdiyini bildirir) burada Alməmməd kişini ixtisara salmış və belə alınır ki. Ələsgər Allahverdinin oğludur (səh.139). Sonrakı səhifədə isə

yazır:"O (Aşıq Ələsgər-N.Ə.) bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmişdir" (səh.140).

Bu da N.Göyçəlinin daha bir "kəşfi"! Biz indiyəcən onun Aşıq Alıdan dərs aldığını eşitmişdik, N.Göyçəli isə nə az, nə azacıq, onun "bir sıra" aşıqdan da dərs aldığını iddia edir! Amma çox güman ki, dediyinə özü də inanmadığına görə həmin sıraya daxil olanlardan Aşıq Alıdan başqa heç kimin adını çəkmir!

Özünü Aşıq Ələsgərin "Ay nədən oldu" bağlamasına cavab verəcək gücdə sayan N.Göyçəli yazır: ""Ay nədən oldu" bağlaması 150 ildən çox müddətdə birinci olaraq nəzmlə cavablandırılmışdir, digər bağlamalarına səthi formada bəzi izahatlar verilmişdir" (səh.177).

Oxucu gərək buna təəccüblənməsin. Bir halda ki, Niftalı Göyçəli də Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgərlə bərabər Göyçə ustadları ilə bir sıradadır, nədən olmasın?! Axı Niftalı Göyçəli heç Şair Məmmədhüseyni bu sıraya aid etməyib?! Şair Məmmədhüseyn Niftalı Göyçəli ilə müqayisədə, əlbəttə ustad "deyil"!

Dava etdikləri vaxt M.Yusifov da ona yazmışdı ki, mütəxəssislər həmin "cavab"ın çox zəif olduğunu demiş və onu yenidən işləməyi tövsiyə etmişlər.

Facebook-dakı müzakirələrimizdə dəfələrlə tənqid etdiyim, şeir sayıla bilməyəcək cızmaqarası-özünün dediyi kimi "Diləyər" "dodaqdəyməz gəraylı cığalı təcnisində" N.Göyçəli deyir:

"Göyçəli, eşqin istəkdi,

İçindəki xalis, təkdi.

Aşıq, necə istəkdi?

De, anlayaq yartək, di!

İstəyi istəsə yar,

İki cana istəkdi.

Eldə yaxşı yar axtaran

Arayar, seçər, ələyər" (səh.188)

Dəfələrlə yazıb başa saldım ki, Niftalı müəllim, eşq istəkdən daha ülvi, daha üstün anlayışdır, fəlsəfi kateqoriyadır, ali duyğudur, niyə öz eşqinizi istək səviyyəsinə endirirsiniz? Axı istəklər çox ola bilər və onlar eşqə çevrilməyə bilər. İstəklər təsadüfi, keçici ola bilər. "İçindəki xalis, təkdi" ifadəsində nəyin içindəkindən söhbət gedir? Eşqin içindəki? Nədir o xalis və tək olan? Eşqin içindəki sevgilinizmi? Demək istəyirsiniz ki, o mənin xalis və tək sevgilimdir? Vallah, kim məni qınayır, qınasın mən indiyə kimi "xalis sevgili" ifadəsinə rast gəlməmişəm. Bu cür ifadə məqbul olsaydı, o cür dahi aşıqlarımız işlədərdi. Amma yox! Bir halda ki, N.Göyçəlinin də "Göyçə Ustadı" statusu var, o belə ifadə yaratmaq hüquauna malikdir! Lap Azərbaycan dilinin anasını ağlatmaq hesabına olsa belə! Necə ki, "De, anlayaq yartsək, di!" ifadəsində olduğu kimi!

"Dodaqdəyməz təcnis gəraylı" kimi təsnif etdiyi "Yaradana" adlı 8 hecalı "şeiri" belə bitir:

"Yeddi işıq-hər rəng də

Şaxələnir ağ rəngdə.

Ay Göyçəli, hər rəngdə

Aşiq dilər yar ad ana".

Əvvəla deyim ki, bəndin ilk 3 misrası 7 hecalı. Yalnız sonuncu misrası 8 hecalıdır. İkincisi,

"Yeddi işıq-hər rəngdə

Şaxələnir ağ rəngdı"

misraları ilə çox güman ki, işığın prizmada sınaraq spektrə ayrılmasından söhbət gedir. Amma spektrin həmin 7 rəngi ağ rəngdə şaxələnmir, ağ rəngdən şaxələnir. Üçüncüsü isə, bu fiziki hadisənin buraya nə dəxli var? Görəsən, N.Göyçəli məhəbbətə fizika gətirir, yoxsa fizikaya məhəbbət?

Nəhayət, "Aşıq dilər yar ad ana" nə deməkdir? Başa düşən varmı? Bəlkə demək istəyir ki, aşiq bütün rənglərdə yarının adını görməyi diləyər? Əgər bunu demək istəyibsə, heç olmasa, elə ifadə eləsin ki, nə demək istədiyini oxucular başa düşsün! Amma ortaya yenə sual çıxacaq: yarın adını hər rəngdə necə diləmək olar?

Nə isə... Açığı, oxucunu N.Göyçəlinin bu "tap tapmaca, gül yapmaca"ları ilə yormaq istəmirəm. Amma maraqlıdır, N.Göyçəlinin qohumu, kitabın redaktoru "şair Loğman" bu məsələlərə baxmayıbsa, baxıb həmin nöqsanları qohumuna deməyibsə, bəs onun "redaktorluğu" nədən ibarət imiş?

"Arxiv sənədləri üzrə araşdırıcı yurnalist" kimi təqdim olunan F.Sabiroğlunun təqdim etdiyi "Kavkaz" qəzetinin 1851-ci ilə id 1-ci nömrəsinin şəklinə N.Göyçəli belə şərh yazır:

"Aşıq Ələsgərin sağlığında onun haqqında yazılı məlumatlar...

Məqalənin müəllifi Polonski 1849-cu ildə 28 yaşlı Ələsgəri gördüyünü və gözəl, məlahətli, gur səslə oxuduğunu qeyd edir... Həmin vaxtlar Aşıq Ələsgər Göyçə, Tiflis, Borçalı və s. bölgələrdə səs-sədası yayılan el sənətkarı olmuşdur. "Ələsgər

və Səhnəbanı" nakam eşq dastanı da artıq xalq arasında dildən-dilə gəzməkdə idi" (səh.134).

Polonskinin istinad edilən həmin məqaləsini tapdım. Xatırladım ki, bu məqalə haqqında mərhum professor 1962-ci ildə ilk dəfə bir qəzet məqaləsində təntənə ilə xəbər verərək, şöhrət qazanmış, sonralar İ.Ələsgərov babası haqqında yazdığı kitab və məqalələrdə ondan ruh yüksəkliyi ilə istifadə etmiş, kitabımda haqqında Polonskinin söhbət açdığı Ələsgərin Göyçəli Ələsgər ola bilməyəcəyi haqqındakı mülahizələrim opponentlərimi qızdırmış və onların son ümid yeri, sənədli filmlər yaradan F.Sabiroğlu meydana atılaraq məni təkzib etməyə uğursuz cəhdlər etmiş, elə ilk cəhdində də 2-ci Ağkilsə haqqındakı mülahizələri ilə özünə iş açan, verdiyim suallara cavab verə bilməyib meydandan qaçmağına səbəb olmuşdu. Bu da onun bəh-bəhlə mənsub olduğu düşərgəyə gətirdiyi sənəd:

Haqqında söhbət açdığımız irihəcmli məqalən "Sayat Nova" məqaləsi "Kavkaz" qəzetinin 1851-ci il, 1-ci və 2-ci nömrələrində dərc olunub. "Ələsgər əhvalatı" qəzetin 1-ci nömrəsində, 3-cü səhifədədir.

"Bir dəfə, iki il bundan əvvəl Tiflisin 40 verstliyindəki Dəmirçisalı kəndində, qızmar bir gündə, daxmamın çardağının altında dayandım, burkamı (üst geyiminin adıdır-N.Ə.) sərdim və atla uzun yol gəldikdən sonra yorulduğuma görə, bir qədər mürgüləmək arzusu ilə uzandım: qəfildən çunquri səsi və pəsdən oxunan nəğmə eşitdim, sonra bu səs ürək parçalayan naləyə döndü və başımı qaldırmağa məcbur etdi. Həmin çardağın altında, mənim on metrliyimdə, üç qoca uzanmışdı. Onların qarşısında, dirəyin yanındakı daşın üstündə gənc bir tatar-aşıq oturmuşdu və metal simləri qarışdırırdı. Mən həmin qocaların sifətlərindəki ifadəni heç vaxt unutmayacağam: adama elə gəlirdi ki, onlar yuxuya gediblər, ancaq hərdənbir kipriklərini qaldırıb mənə baxırdılar ki, bu cür gözəl oxuyan aşıqdan, belə gözəl musiqidən mən də onlar kimi zövq alırammı?

Bir aydan sonra, Trapavan gölünün yaxınlığında, şubama bürünüb uzandığım könhə çadırımın qarşısında çunquri səcinin müşayiəti ilə ətrafa mahnı səsi yayılırdı. Oxuyanın adı Ələsgər idi. İyirmiyə yaxın adam Əlinin ətrafına toplaşmışdılar. Onların hamısı bardaş quraraq nəm otun üstündə oturmuş və hansısa hüzn, təntənəli sükut içərisində, sayrışan ulduzların işığında onun boğazndan çıxan ağıya qulaq asırdılar.

Ayaq üstündə duran aşıq Kərəmin toy gecəsindəki iztirablarını belə izhar edirdi ki, o nə öz kəmərini, nə də sevgilisinin əfsunlanmış paltarının düymələrini açа bilmir, sevgilisinin ehtirasdan alışıb yandığını görən Leyla onun odunu söndürmək üçün kuzəni götürüb üstünə su səpmək istəyir. Lakin, əfsuslar olsun ki, qızının sevgilisini nədənsə xoşlamayan Leylanın cadugər anası kuzəni neftlə doldurub onların yanına qoyubmuş. Kərəm həmin vüsal gecəsində od tutub yanır və külə dönür. Kərmin qəmli hekayəti belə idi.

Mahnının mənasını mənə belə tərcümə etdilər. Etiraf edim ki, meydanlarda və Tiflis toylarında sazandaların qışqıraraq oxumalarından heç vaxt zövq almayan və bu cür melodiyaları sevməyən mən, buludlarla qonşuluq edən intəhasız çöllər, həmin dağların ətəyində mənim kimi dincəlməyə toplaşan vəhşi köçərilərin, bəlkə də qaçaq-quldurların, çox güman ki, təbiətin övladlarının əhatəsində həmin gecə bundan daha yaxşı musiqi və bundan daha yaxşı müğənniyə qulaq asmağı arzu etmirdim. Çağrılmamış qonaqlarımın çadırımın geniş qapısından görünən sərin havadakı tüklü papaqlarını, ağızlarında qəlyan olan tünd-göy siluetlərini indiyə qədər də unuda bilmirəm.

Həmin 1847-ci ilin avqustunda, Manqlisidən Tiflisə qayıdarkən, Kocorlarda gəzərkən, çox güman ki, həmin əyalətin vəba epidemiyasından qaçan bir gürcü sakininə rast gəldim. Əllərini arxalığını ciblərinə salan gürcü başını aşağı salıb sazandəyə qulaq asa-asa gedirdi. Çox güman ki, bu onun ailə sazandəsı idi, çalıb-oxuyaraq hörmətlə onun arxasınca gedirdi.

Bir şeyi də əlavə edim ki, Tiflisdə hətta ortababların və kasıbların bir toyu da sazandəsiz[15] keçmir, bir gün oxutmaq üçün onlara 60 gümüş rubl ödəyirlər.

Şərqlilərin həyat tərzinə ciddi şəkildə öz damğasını vuran sivilizasiyanın indiki şəraitində, xalqın alay musiqisinə və əsgər mahnılarına öyrəndiyi, şarmanka səsinin bütün Tiflisdə və bütün aşxanalarda yayıldığı bir vaxtda, sazandələr əvvəlki kimi Gürcüstanda fəxri mövqeyini qoruyub saxlayır, xalq içərisində saysız-hesabsız dinləyicilər tapırlar. Tiflisin mədəni cəhətdən bu qədər uzaqlaşdığı keçən əsrdə görün, nələr olurdu".

Y.Polonski burada 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərini alan vaxt öldürülən Sayat Novanın yaşadığı dövrdə sazandələrin daha üstün mövqeyə malik olduqlarına işarə edir.

İndi Yakov Polonskinin həmin məqaləsinin şərhinə keçək.

1.Sənədlə tanışlıq göstərir ki, Niftalı Göyçəlinin dırnaqsız yazdığı ***"Məqalənin müəllifi Polonski 1849-cu ildə 28 yaşlı Ələsgəri gördüyünü və gözəl, məlahətli, gur səslə oxuduğunu qeyd edir... Həmin vaxtlar Aşıq Ələsgər Göyçə, Tiflis, Borçalı və s. bölgələrdə səs-sədası yayılan el sənətkarı olmuşdur. "Ələsgər və Səhnəbanı" nakam eşq dastanı da artıq xalq arasında dildən-dilə gəzməkdə idi" ifadələrinin heç biri burada öz əksini tapmayıb"*** ifadələri dırnaqsız verdiyinə görə, onları Polonskiyə aid etmək olmaz. Amma bununla belə, o şəkildə verilməsi oxucunu aldatmağa yönəldilmişdir, yəni oxucu həmin sözləri Y.Polonskinin dediyini düşünüb onların tələsinə düşsün, iş bərkə dirənəndə isə desin ki, "mən həmin sözləri Polonskinin adından verməmişəm".

[15] Polonski tatarların sazandəsindən bəhs edərkən, bu sözü aşıq kimi başa düşmək lazımdır.

2.Göründüyü kimi, Polonskinin yazısında nəinki Ağkilsə, Göyçə söhbəti də yoxdur.

3.Polonski aşığın adını birinci dəfə Ələsgər, ikinci dəfə isə Əli yazır.

4.Trapavan gölünün yaxınlığında Ələsgər adlı aşığın məclisində gördüklərini nəql edən Yakov Polonski iki abzasdan sonra yazır: ***"Həmin 1847-ci ilin avqustunda, Manqlisdən Tiflisə qayıdarkən, Kocorlarda gəzərkən, çox güman ki, həmin əyalətin tif epidemiyasından qaçan bir gürcü sakininə rast gəldim".*** Bu isə o deməkdir ki, Polonskinin Ələsgər adlı aşıqla bağlı təsvir etdiyi hadisələr professor Q.Namazovun, İ.Ələsgərin, F.Sabiroğlunun, N.Göyçəlinin və başqalarının dediyi kimi 1849-cu ildə deyil, 1847-ci ildə baş vermişdir. ***"Bir dəfə, iki il bundan əvvəl Tiflisin 40 verstliyindəki Dəmirçisalı kəndində"*** ifadəsi göstərir ki, Polonski həmin hadisəni 1849-cu ildə qələmə almış və yalnız üstündən daha 2 il, daha dəqiq desək, il yarım keçəndən sonra, "Kavkaz" qəzetinin 1-ci və 2-ci nömrələrində dərc etdirmişdir.

5.Polonskinin gördüyü aşığın danışdığı dastanla "Əsli və Kərəm" dastanı arasında müəyyən fərqlərin olduğu üzə çıxdı, bu variantda Əsli Leyla ilə əvəz olunub, Qara Keşişin yerinə isə onun arvadı qoyulub. Amma bizim araşdırmalarımız üçün bunun elə əhəmiyyəti yoxdur və öz problemimizə qayıdaq.

Açığı, Polonskinin təsvir etdiyi Ələsgər məsələsinin 1849-cu ilə deyil, 1847-ci ilə aid olması məni təəccübləndirdiyindən, həmin məsələni yazmazdan qabaq bir daha dəqiqləşdirmək qərarına gəldim və axtarışlarım öz nəticəsini verdi: hadisələr doğrudan da 1847-ci ilə aiddir və adını yuxarıda çəkdiyim şəxslər doğrudan da səhv ediblər.

Opponentlərimlə mübahisədə, hətta 1821-ci ildə doğulsaydı belə, Aşıq Ələsgərin 28 yaşında artıq bürtün Qafqazda

məşhur ola biləcəyini şübhə altına almışdım. Həm də demişdim ki, Polonskinin təsvir etdiyi hadisədə toydan da bəhs edilmir ki, Ələsgəri toya çağırılmış kimi zənn edək. ***Hadisənin 1847-ci ildə baş verməsi isə mənim həmin qənaətimi daha da gücləndirdi*** və ağlı başında olan əleyhdarım bundan sonra heç etiraz etməməlidir: əgər Aşıq Ələsgər hətta 1821-ci ildə doğulsaydı belə, 26 yaşlı Ələsgərin Trapavan gölü yaxınlığında yerli qarapapaqların (Polonskinin təsvirindən dinləyicilərin qarapapaq olması anlaşılır) arasında, çölün düzündə gecə məclis qurub, dastan danışması qeyri-ciddi təsir bağışlayır. Hətta 1852-ci doğulan Ələsgərin 1878-ci ildə bunu etməsi də inandırıcı deyil, nəinki anadan olmamışdan 5 il qabaq Trapavan gölünün yaxınlığında məclis qurması.

Beləliklə, mərhum professorun bu məsələdə ikinci səhvinin şahidi oluruq: əvvəla, heç bir dəlilə, sübuta söykənmədən Polonskinin gördüyü Ələsgər adlı aşığın məhz Göyçəli Aşıq Ələsgər olduğunu iddia edir, ikincisi isə Polonskinin yazdığı məqalənin tarixini də səhv salır.

Oxucu üçün maraq doğuracağını nəzərə alıb Yakov Petroviç Polonskinin Qafqaz həyatı və o cümlədən təsvir etdiyi "Ələsgər olayı" ilə bağlı ətraflı məlumat vermək qərarına gəldim.

YAKOV PETROVIÇ POLONSKI

1845-ci ilin yazında Odessaya bir xəbər yayıldı-Odessanın qubernatoru Vorontsovu Qafqaza canşin təyin etmişdilər. Bundan bir qədər əvvəl Moskvada yaşayan, tələbəlik illərindən tanış olduğu bir xanıma "Öz gələcəyimdən heç bir yaxşı şey gözləməyə cəsarət etmirəm və bu, məni qorxudur",-yazan Y.Polonski Vorontsovun canişin təyin olunmasından sonra dostu Orlova artıq başqa əhval-ruhiyyə ilə yazırdı: "Bütün Odessa

həyəcan içindədir, mən çətin ki, burada qalam. Qafqazda olmaq istəyirəm".

1845-ci ilin yayında dostu İvan Zolotaryov Tiflisə gedir. O, Tiflis canişini dəftərxanasında rəisin müavini təyin edilmişdi və Polonskiyə söz vermişdi ki, onun da qayğısına qalıb Tiflisdə müvafiq işə düzəldəcək. Artıq avqust ayında Zolotaryov Polonskiyə cavab məktubunda yazırdı: "Mən Sizin haqqınızda canişin dəftərxanasının direktoru Stepan Safonovla danışmışam. Buradakı mətbəədə nəşr edilən jurnal üçün yeni ştatlar nəzərdə tutulur. Hər şey təsdiq ediləndən sonra, çox güman ki, dekabr ayında Sizi çağıracağam.

Zolotaryov doğrudan da sözünün üstündə durur və 1846-cı ilin iyun ayının 6-da Odessadan yola düşən Polonski iyunun 25-də Tiflisə gəlib Zolotaryovun mənzilində yerləşir. Zolotaryovun özü isə xəstə atasına baş çəkmək üçün Moskvaya getmişdi.

Bir qədər sonra Polonski Odessada qalan dostu A.Bakuninə yazırdı:"Mən Tiflisə gələndə redaktor köməkçisi olduğum "Zakavkazskiy vestnik"in işini yaxşılaşdırmaq üçün yeniliklər etmək istəyirdim, amma təəssüf ki, rəis Safonovun ilk sözü bu oldu: "İndi Tiflis şəhərinin, sonra isə Tiflis qəzasının statistikası ilə məşğul olacaqsınız, "Vestnik" necədirsə, qoy elə də qalsın".

1847-ci ilin yazında ona xidməti tapşırıq verib statistik məlumatlar toplamaq üçün Tiflis qəzasınıa göndərirlər.

Aprelin 11-də Tiflisdən yola düşən Polonski əvvəlcə Gürcüstanın şərqində olan qəzanın Sartiçal nahiyəsinə gəlir, ayın axırında oradan qayıdır və dostu Bakuninə göndərdiyi məktubda Sartiçal nahiyəsini eninə-uzununa gəzərək hər bir kəndə getdiyini və məlumat topladığını yazır. Hətta ac olduğu vaxtların birində Qarayazı çölündə çobanların bişirdiyi göbələk yeməsini qeyd edir.

Tiflisə qayıdaraq orada 3 gün dincələn Polonski mayın əvvəllərində Tiflis qəzasının cənubunda yerləşən Borçalı nahiyəsinə gəlir. Bu dəfə yanında tərcüməçisi də vardı, çünki, Borçalı nahiyəsinin əhalisi azərbaycanlılar idi (qarapapaq türkləri).

Daşqınlara görə Xrami çayını çətinliklə keçən Polonski azərbaycanlılar yaşayan əraziyə gəlir, Debet çayına çatdıqdan sonra çayın axarı ilə onun mənbəyinə doğru xeyli yol gedir və Cəlaloğlu qalasına çatırlar. Ondan sonra Türkiyə sərhəddi başlayırdı.

Həmin səyahəti zamanı başına gələnləri qələmə alan Polonskinin ““Bir dəfə, iki il bundan əvvəl Tiflisin 40 verstliyindəki Dəmirçisalı kəndində, qızmar bir gündə, komamın çardağının altında dayandım, burkamı sərdim və atla uzun yol gəldikdən sonra yorulduğuma görə, bir qədər mürgüləmək arzusu ilə uzandım: qəfildən çunquri səsi və pəsdən oxunan nəğmə eşitdim, sonra bu səs ürək parçalayan naləyə döndü və başımı qaldırmağa məcbur etdi” sözləri ilə başlayan xatirə-qeydləri məhz həmin dövrü təsvir etməklə, “Sayat Nova” adlı yazısına əlavə edilmişdir..

Trapavan gölünün yaxınlığında tatarların məclisinə düşməsi və Ələsgər adlı aşıdan Kərəmin dastanını eşitməsi isə özünün yazdığı kimi bir aydan sonra, yəni 1847-ci ilin iyun ayında baş vermişdir.

İyun ayında Ağbulaq adlı kənddə olarkən, ona xəbər çatır ki, Tiflis şəhərində tif (xolera) epidemiyası yayılıb. Polonski xəstəlik kəsiləndən sonra, yalnız avqust ayında Tiflisə qayıda bilir.

Bir müddətdən sonra Polonski Tiflis şəhərinin yaxınlığındakı Solalak kəndində yaşayan gənc erməni xanımı Sofya Gülgəzlə tanış olur. Sofya ərli qadın sayılsa da, əslində

alkoqolik və yaşlı əri harasa yoxa çıxmışdı və ondan xəbər-ətər yox idi. Polonski onun bütün həyat hekayətini yaxşı öyrənir və sonralar yazdığı "Tiflis saxlısı" hekayəsində təsvir edir. Sofya hekayədə Maqda obrazında təsvir edilmişdir.

Bu ehtiraslı qadının özü Polonskinin mənzilinə gəlmişdi. Qaranlıq yay gecələrində romantik anlar yaşayırdılar, səhər tezdən yataqdan qalxan Polonski, hələ çılpaq şəkildə yatağında uzanan Sofyanın karandaşla şəkillərini çəkirdi. Polonskinin həm də rəssamlığı vardı. Həmin şəkillər indi də durur.

Polonski Sofya ilə evlənməyi ağlından keçirmirdi, çünki ona sədaqətli olduğuna əmin deyildi. Çox keçmədən şübhələri təsdiq olunur və Polonski ondan ayrılır, Sofya isə özünə başqa məşuq tapır.

Polonski 1849-cu ilin axırlarında Tiflis şəhərində "Sazandə" adlı yeni şeirlər kitabını nəşr etdirir, 1850-ci ilin əvvəllərində isə dostu Zolotaryovun məsləhəti ilə məzuniyyət götürüb Krıma dincəlməyə gedir və Yaltaya gəlir, burada dincələn Lev Puşkinlə, Aleksandr Sergeyeviç Puşkinin qardaşı ilə görüşür. Həmin vaxtlar alkoqolozm artıq Lev Puşkinin axırına çıxmaqda idi.

Məlumat çün deyim ki, Lev Puşkin 1827-ci ilin yayında Paskeviçin qoşununun tərkibində bizə qarşı vuruşmuşdu.

İstirahət etdiyi vaxtlar Polonski madam de-Volan adlı qadınla tanış olub macəralar yaşayır, amma onun ucbatından başına iş də gəlir. Madam de-Volanı gəmi ilə Odessaya yola salarkən yubanır və gəmini tərk edə bilməyib, onunla Odessaya gəlməli olur. Cibində nə pulu, nə də bileti vardı.

Odessada yaşayan Lev Puşkini tapıb evinə gəlir, S.Puşkin qardaşı Aleksandrın portfelini ona bağışlayır. Dost-tanışından borc alan Polonski Tiflisə qayıdır.

Polonski sonralar Puşkinin portfelini itirir.

1851-ci ilin may ayının 25-də Hərbi-Gürcüstan yolu ilə Tiflisi tərk edən Polonskinin, beləliklə 4 il 11 aylıq Qafqaz həyatı burada başa çatır.

Onun Peterburq həyatı çox keşməkeşli olur. Zəngin yaradıcılığı Rusiya ədəbi mühitində yüksək qiymət alır, L.Tolstoy, F.Dostoyevski, Turgenev və Rusiyanın bir çox başa nəhəng ədəbi simaları ilə dostluq və yaradıcılıq əməkdaşlığı edir, onlarla bir sırada dayanır, onlar Polonskini yüksək nüfuz sahibi olaraq qəbul edirlər.

Yaradıcılığına verilən qiymət budur ki, A.Puşkindən sonra Tütçevlə birlikdə Rusiyanın ən böyük şairi sayılmışdır. Təkcə şair kimi yox, həm də yazıçı və publisist kimi böyük nüfuzu vardı. 10 cildlik seçilmiş əsərləri çap edilmişdir.

Onu Rusiya Elmlər Akademiyasına müxbir üzv də seçmişlər.

Peterburqun bütün elmi, ədəbi elitası hər cümə günü Polonskinin Peterburqdakı evinə yığışıb fikir mübadiləsi aparır, yaradıcılıq diskussiyaları keçirirdilər. Hətta başqa şəhərlərdə yaşayan tanınmış yazıçılar, şairlər də oraya dəvət edilir və məmnuniyyətlə gəlib iştirak edirdilər. Bu tədbir "Polonski cümələri" adını almışdı.

"Polonski cümələri" onun nə qədər böyük nüfuz sahibi olduğunu göstərir.

1819-cu ildə Ryazanda sıravi məmur ailəsində doğulan Yakov Petroviç Polonski 1898-ci ildə, 79 yaşında Peterburqda ölür və onu Ryazan şəhərinə gətirib Olqa monastrında dəfn edirlər. 1958-ci ildə qalıqalrını Ryazan Kremlinə köçürmüşlər.

Zənnimcə, Aşıq Ələsgər haqqında qaraguruhçu dəstə ilə mübahisələrimizə səbəb olan məşhur Polonski haqqında bu qədər yetər. İndi isə yenidən öz mövzumuza qayıdaq.

QARAGURUHÇULARIN "EYNŞTEYNI".

LOĞMAN MƏHƏMMƏDOĞLU

Müzakirələrin getdiyi bir vaxtda Niftalı Göyçəli ilə dayıoğlu-bibioğlu olan, özünün dediyinə görə, bir vaxtlar nağara, sonra zurnaçalan, nəhayət, "şair-filosof" olan Loğmanı irəli buraxdılar. O, müzakirələri tamam başqa səmtə yönəltməyə çalışaraq, guya kameral siyahılardakı "səhvi" özünəməxsus "metodla" düzəltməyə cəhd etdi. Onun "sekundantı" rolunda çıxış edən qohumu Niftalı Göyçəli məni təntənə ilə Loğmanın meydanına dəvət edir:

Niftali Goycelinin statusu
13 Sentyabr 2017.

Nazir bəy, bu təqdimata niyə münasibət bildirmirsiz?

LOĞMAN MƏHƏMMƏDOĞLU:

"Dədə ƏLƏSGƏRİN və qeyri ustadların yaşındakı fərqin yanlışlığının izahı.

Bu, təkzib oluna və heç cür danıla bilməyən faktdır, və qeyri subutlar əsasız və cəfəngiyyatdır...1828 ci ilə, Türkmənçay müqaviləsinə qədər Azərbaycan ərazisində tarix hicri-qəməri ilə hesablanırdı. Rusiyanın işğalından sonra bu tay Azərbaycanın tarixi, Miladi tarixi ilə hesablanmağa başlandı. Sadə bir hesablama ilə bütün bu yanlışlıqlara izah verim,

Türkmənçay müqaviləsi 1828 ci ildə baş verib.

"Şair-filosof" "Türkmənçay müqaviləsi 1828 ci ildə baş verib",- yazır!

Əslində Loğman öz statusunda həmin tarixi 1827-ci il kimi göstərib. Bu statusdakı söhbətimiz zamanı onu 1828 etsələr də öz statusunda 1827 qalıb.

Onda müsəlman tarixi ilə,

1828-622(hicrət tarixi-hicri qəmər) = 1206-ci il olub..

Daha bir səhv! Mötərizə içərisində "hicrət tarixi-hicri qəmər" əvəzinə "hicri-şəmsi" yazmalı idi. "Şair-filosof" görünür, onları bir-bitindən fərqləndirə bilmir! Əgər bilsəydi, 1206-cı ilin hicri-qəməri yox, hicri-şəmsi ili olduğunu, hicri-şəmsi təqvimi ilə 1206-cı ilin isə hicri qəməri təqvimi ilə 1243-cü il olduğunu bilərdi. Loğman bu cür sadə şeyləri bilmir, amma başı girməyən deşiyə çiynini soxmağa çalışır:

1206 X 365(miladı)=440190 gün : 355,5(hicri-qəməri= 1238

1238 -1206 = 32 il fərq

Miladi tarixi ilə 1 il 365 gündür

Hicri-qəməri tarixi 1 il 355,5 gündür

1206 ili hicri-qəmərinə cevirərkən alınır 1238 ci il,

1238-1206=32 fərq

Yəni Aşıq Əələsgər və digər insanların hamısının yaşları arasındakı 31 ya 32 il fərqi bundan ibarətdir. O dövrün kamerial təsvirini yazan rus və fransız alkaqolikləri, Miladi ili ilə, hicri qəməri ili arasında ki, 10 gün fərqi hesablamadan, bu tarixi sadə,

savadsız insanlardan dilindən şifahi halda soraraq, say xatirinə yazıblar Nazirin dediyimi kimi ki, yalnız vergidən yayınmamaqları üşün, vəssalam!!,

Dədə Ələsgərə gəlincə, onun 1853 il yazılmasının səbəbi budur.

Əvvəla. Aşıqların hamısının yaş fərqi 31 və ya 32 il deyil. Aşıq Alıda bu fərq 34 il, Şair Aydında 40 il, Şair Məmmədhüseyndə 15 il, Aşıq Söyün Şəmkirlidə 27 il və s-dir, ikincisi isə Ələsgərin milady tarixlə 1853-cü ildə yox, 1852-ci ildə doğulduğu yazılıb, Loğman Məhəmmədoğlu isə bir neçə aylıq müzakirələrdən, mübahisələrdən sonra bunu da bilmir!

O hicri-qəməri tarixi ilə 1231 ildə anadan olub, kamerial təsvir zamanı illərdəki 10 gün fərqini hesablamadan 1231-ci ilin üstünə hicrət ilini 622 gələrək

1231+622=1853 yazıblar.

Amma əslində Dədə Ələsgər 1231-32=1199-622=1821 ci ildə anadan olub..

Vəssalam, bu boş söz söhbətə son qoyun...

Loğman burada da elementar səhvə yol verir: 622-ni 1199-dan çıxmalı yox, heç olmasa toplamalı idi.

Aşıq Ələsgərin hicri-qəməri tarixlə 1231-ci ildə anadan olduğunu iddia edərkən, bu rəqəmi haradan götürdüyü isə yəqin ki, özündən başqa hətta Allaha da məlum deyil. Sadəcə olaraq, toplama və çıxma əməliyyatlarının köməyi ilə 1821-ci ili almaq üçün bu rəqəmi uydurur, amma onu da yaxşı uydurmur, çünki sonradan görəcəyimiz kimi, hicri-qəməri tarixlə 1231-ci il milady tarixlə 1821-ci ilə deyil, 1815-ci ilə düşür.

"Əhsən", bizim "Eynşteyn"!

Ələsgərin Miladi tarixlə 1821-ci ildə doğulduğunu "sübut etmək" üçün Loğman yazmalı idi ki, Ələsgər hicri-qəməri tarixlə (1821-622)x365,25:354,3=1236-cı ildə doğulub. Amma Loğman bunu bilmir, 1231-ci il yazır və özünü cəncələ salır, Ələsgərin doğum tarixini miladi tarixlə 1815-ci ilə aparıb çıxarır.

Abulfat Heydar: Bundan sonra yazmağa nə ettiyaç var. Artıq hər şey yerli yerində isbat edilib. Təşəkkürlər.

Yəqin bu adam da "Nils Bordur", "Eynşteynin" hər şeyi "isbat etdiyini" təsdiq edir!

Bundan sonra yazmağa nə ehtiyac olacaq ki, cənab "Nils Bor"?

Nazir Ahmedli: Niftalı bəy, Loğman Məhəmmədoğlu bunu harada yazıb? Xəbərim yox idi, xatırlatdığınıza görə sağ olun. Sentyabrın 3-də şəxsi görüşümüz zamanı da bu şeyləri danışdı, amma onun düşündüklərinin səhv olduğunu izah etdim, görünür, faydası olmayıb, çünki qohumunuz da sizin kimi inad-kardır. Məsələni bir daha izah edirəm. ***Rus məmurlarının miladi tarixlə 1859-cu ildə tərtib etdikləri Kameral siyahıda Ələsgər 7 yaşında, 1873-cü ilin Kameral siyahısında isə 21 yaşında göstərilib və buradan da onun 1852-ci ildə doğulduğunu görürük. Hicri-qəməri, yaxud hicri-şəmsi tarixlərinin buraya nə aidiyyəti var?*** Loğmanın özünü bilikli göstərmək üçün yazdıqlarının bu məsələ ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Bu tarixlərin izahına gəldikdə isə, mən öz kitabımda onların izahına geniş yer vermişəm, həvəsiniz olsa, bir də oxuyun.

Hokuma Hashimova: Nazir müəllim, bu kitabınla məqsədin nədir? Bunu xalqa açıqla.Niyə siz bu qədər inadkarlıq edirsiz. Bir məsəl var yalan ayaq tutar ancaq yeriməz.Necə oldu 1971-ci ildə Aşıq Ələskərin 150 illik yubleyinə hazırlıq keçiriləndə erməni tarıxçıləri, yazıçıları, şairlərinin əlində belə bir

arxivləri var idisə açardılar və məsələni böyük bir müstəvidə qaldırar və sübutla yubleyin keçirilməsinə imkan verməzdilər. Necə oldu ki erməni arxivi birdən-birə sizin yadınıza düşdü və sizə verdilər. Niyə Andiranikin tarıxını araşdırmırsız sapı özümüzdən olan əyri ağız balta Göyçə türklərinin tarıxını araşdırırsan. Sənə verilən malliyyənin miqdarını de bütün Göyçəlilərin uşaqdan böyüyə yığıb pulunu verək. Ancaq bu daşı ətəyindən tök. Ayıbdı və olduqça ayıbdı. Bilmirəm bəlkə də onlara qohumluğun var ona görə qanın belə çəkir. Bəlkə də. Ancaq Təmiz türk oğlu belə özünü ucuz etməz.

Nazir Ahmedli: Hökumə xanım, ayıbdır, xüsusən qadına belə sözlər yaraşmaz. Başqalarını bilmirəm, mənim qanım təmizdir. Sizin əriniz, qardaşınız, oğlunuz yoxdurmu? Mən sizin qadınlığınızı nəzərə alıb işlətdiyiniz təhqiramiz ifadələri özünüzə qaytarmıram. Ancaq səbrimi bir daha zorlamayın!. Bu cür təhqirlər yağdırırsınız, 100-dən birinə cavab verəndə də turpun dalı acı çıxır.

Asif Israfilov: 10 gün ferqi bir esrde 3 il edir.Yaxsi, bu 3 ili edek lap 3x3 ta 33 de yox. Budu "mentiqlə" usyaniniz? Heç yaraşdırmadım. Elementar hesabda da baş-ayaq imiş her seyiniz!(((((

P.S.Tələbə vaxtı əslən Cildən olan və Alabaşlıda yaşayan bir oğlanın atası rəhmətlik Növrəs Imanın şeirlərini oğurlayıb öz adıyla çap etdirən birisindən yana-yana danışırdı. Indi Nazir bəyə qarşı bütün bu hoqqaların kökü yubleyləri əldən çixardan yaş məsələsindən çox bu cür məsələlərə toxunmasıdı.

Nazir Ahmedli: Asif bəy, Loğman 10 gün məsələsində də yanılır. Ərəblərin istifadə etdikləri və ***hicri-qəməri*** adlanan təqvimdə ayların 6-ı 30 gün, 6-ı isə 29 gündür. Yəni 6x29+6x30=354. Günəş təqvimində isə il bildiyiniz kimi 365,25 gündür. Beləliklə, gün təqvimi ilə hesablanan il ay təqvimi ilə hesablanandan 10 yox, 11,25 gün artıqdır.

Asif Israfilov: Nazir bəy, bunu mən əvvəl də oxuyub bilirdim. Əlavə olaraq sizin kitabda da bu var idi və təkrarən oxu-

muşdum. Bu əsas deyil. 3 gün o yan bu yanla 30-40 ili fırlatmaq qeyri mümkündü.

Nazir Ahmedli: Həm də Loğman baza rəqəmi kimi 1231-ci ili haradan götürüb, müəmmadır. Əgər kameral təsvirin tərtib olunduğu 1831-ci ili hicri-qəməri 1231 hesab edibsə, maşallah fantaziyası sərhəd tanımır.

Etibar Etibarli: maraqli mübahisədir. görək axiri hara gedib çixacaq. ancaq aşiq ələsgərin 105 yaş yaşamasini onun müasirləri, nəvə-nəticələri də bilmiş olarlarlar?! yəqin onlardan qalanlar da var...

Nazir Ahmedli: Etibar bəy, bilməyinə bilirlər, amma qəsdən məsələni dolaşdırırlar. Alməmmədin atası kimi qələmə verilən Allahverdi onun qardaşıdır, ondan cəmi 10 yaş böyükdür və 3 oğlu var. Bir oğluna da həyatdan tez köçən atalarının adını qoyub-Haxverdi. Ondan başqa Kərim, Vəli və Hüseyn adında daha 3 oğlu olub. Vəli uşaq ikən ölüb. Bütün bunlar sənədlərdə var.

Niftali Goyceli: Nazir bəy, o zaman xaçpərəst missioner Şopenin əsas məqsədi demoqrafik durumu türklərin ziddinə yazmaq olub və həmin missiyanı kameral yazılarda siz də "milli", "qarapapaq","erməni əhali" və s. olduğu kimi göstərmisiz... söhbər Ağkilsə kəndinin ikinci göstərdiyiniz kameralda- "Ələsgər-21 yaş"dan gedir...Birinci də "Ələsgər-7 yaş" heç uyğun gəlmir... Yasdakı görüşünüzdə Loğman sizə yetərincə izahat verib...Sizin təbirinizcə desək, "inadkarlıq" sizdə də az deyil...Nə isə, hələlik belə polemikalar gedir, ***yaxın vaxtlarda Allahın köməyilə yeni əldə olunan tarixi dəlillərlə sizinlə daha ciddi söhbətimiz olacaq...***

N.Göyçəlinin "yaxın vaxtlarda Allahın köməyilə yeni əldə olunan tarixi dəlillərlə sizinlə daha ciddi söhbətimiz olacaq" özlərini yadınızda saxlayın.

Asif Israfilov: Kimisə erməni elan etməzdən qabaq əldə dəlil olmalıdır.Agrılı 1988-den bu yana olanlar ders olmadimi?

Loğman bəyin gətirdiyi dogum tarixi hansı sənəddən götürülüb? Ikinci bir tərəfdən çar məmurlari hicri-qəməri təqvimdən yox, miladi tarixindən istifadə ediblər. Konkret tarix və rəqəm göstəriblər.

Nazir Ahmedli: Niftalı bəy, həmin söhbətimizdə mənim izahatımdan sonra Loğman hər şeyin mən deyən kimi olduğunu zənnimcə bildi, sadəcə olaraq, məni təkzib edənlərin sırasında durmaq üçün əllaməlik edir. Buradakı hesablamaları da səhvdir. Hicri-şəmsi ili hicri-qəməri ildən 10 gün deyil, 11,25 gün çoxdur və onun hesablamalarını təkrar edəndə fərq 32 yox, 38 il alınır. Üstəlik də 1231 rəqəmini haradan götürüb? Onun düzüb-qoşduğu ***"model"*** kökündən yanlışdır, bunu özü də bilir.

Haci Loğman Mehemmedoqlu: Nazir, sən 1231-i hardan aldiqimi oxuyub başa dusmemisense, bu sohbeti bağlasaq yaxsidi, gor nece bedbext milletik ki oz ambitsiyamiz ucun her seyden kecirik.. Hec de sen deyenleri men qebul etmedim, sadece sene veziyyetden cixiş yolunu gosterdim, Gorunur, hele de catmadi, axiri ne olsun yaxsi, sence bu qehremanliqdimi, vaxtimizi boş mubahiselere serf edir, Allah Zori Balayana rehmet elesin,...))) bize duz edirler...

Nazir Ahmedli: Loğman, əsəbləşmək lazım deyil. Türkmənçay müqaviləsinin hicri-qəməri ilə 1238-ci ildə bağlandığını hesablamısan. Gəl təzdən hesablayaq. Miladi 1828-ci il hicri şəmsi ilə doğrudan da 1828-622=1206 edir. İndi gəl bu tarixi hicri qəməriyə çevirək. Hicri qəməri sənin dediyin kimi 355,5 yox, 354 gündür, yəni hicri-şəmsi il ondan 11,25 gün artıqdır. 1206-nı 365,25-ə vurub 354-ə bölürük, 1244-cü il alınır. 6 ili niyə yemisən? Ələsgərin yaşını düzüb-qoşmaq üçün icad etdiyin 32 rəqəmi alınmadı! Təzə şey fikirləş!

Ali Meherremov: Nazir Ahmedli siz ne demek istiyirsiz yeni asiq Elesger 105 yadında olubse onda onu gorenler olub vardır ele bir adam siz taniyirsiz ?

Asif Israfilov: Siz bu iddianızı hardan götürübsünüz? Umumiyyətlə o iki kitabı oxuyubsunuzmu? Nə vaxt Nazir bəy Aşıq Ələsgər 105 il yaşayıb deyib?(

Zodlu Maarif Bextiyarov: gözel hesablamadir, saq olun. Loqman muallimin hesabi duz netice verir.

Haci Loğman Mehemmedoqlu: Adi riyazi hesablamani bilmirsiz,)) hele mubahise de edirsiz, vallah utaniram sizinle polemika etdiyimcun..)) bekar adamlarsiz, bir yararli iş gorseydiniz, neinki milletin hissi ile oynayirsiz ...

Görəsən Loğmanda doğrudanmı utanmaq hissi var? Adamın inanmağı gəlmir. Əgər olsaydı, yuxarıdakı sərsəmləmələrinə görə doğrudan da utanıb xəcalət çəkərdi, nəinki bizi borclu çıxarardı..

Asif Israfilov: Gösterdiyiniz doğum tarixinin menbeyini ortaya qoyun, zehmet olmasa.Əsaslandirilmis olsun

Fəqan Əmi:

Utanmalı hec nə yoxdur.

1 ildə 10 gün

10 ildə 100 gün

100 ildə 1 000 gün.

105 ildə 1 050 gün.

1050 gün 3 il edər.

3 il hara 31 il hara.

Ən yaxşısı kirimiş durmaqdır. Utanmaq yox

Asif Israfilov: Loğman bəyin 32 ili bütün hicri qəməri tarixi boyu əmələ gəlmiş fərqə görədir. Amma bu 32-i istifadə etdiyi tarixi göstərməyini istəyirəm görəm hardan alıb?Yoxsa "nenemin nağılları" seriyasından kitabdan kitaba salmaqla əldə olunub bu dəiq tarix?)

Haci Loğman Mehemmedoqlu: Asif 5 defe oxu, gorunur, sen orta mektebde de yaxsi oxumamisan, riyaziyyati qavramirsan..

Etibar Etibarli: Elmi polemika həqiqətin ortaya çıxması üçün ən yaxşı vasitədir və hamı üçün maraqlıdır. Ancaq Allh xatirinə bir-birinizi təhqir etməyin. Onda bu, polemika yox, intriqa olur. İntriqanın da keç kimə xeyri yoxdur.

Asif Israfilov: Əldə sənəd var. Bu isə onlara sərf etmir.Sənəd səhvdirsə,bircə göyçəli tapıb göstərsinlər ku, onun babası o kameral kitabda yoxdu. Gizlədilib. Bunu isə əsla bacarmayacaqlar. Piterdəki arxiv də sənədi təsdiq edir. Sözü firlama***. Şopen lap kosmonavtdi, xortdandi, xoxandi, ermenidi, gurcudu bu ayri söhbətdi. Iddiaya elmi cavab vere bilirsen ver.***Veremmirsen vaxt aparma. O biri serhin kimi bunu da sil. Heç bilen olmasin burda olubsan. Bu şərhdən qabaq bir şərh polemikasıyla birgə silinib. Düz yazıbsınızsa cavabınıza verilən sualları aydınlasdırın. Silmək məsələsində nə dediyimin fərqindəyəm. Bizi nə 105 maraqlandirir,nə də 205. Həqiqətin üzü bozdu.Şopenə lağ qoşduğuna 105-ə istinadən göstərdiyiniz doğum tarixiylə Aşıq Ələsgərin doğma qardaş bacılarından 30 yaşdan çox olan fərqini izah et. Deyirəm bəlkə bu möcüzəni izah edə bildin. Nədən bu 30 ildən çox fasilədə onun anası doğmayıb da qocalandan sonra çoxuşaqlı ana olur?

Niftali Goyceli: Asif bəy, "Piter"arxivi də Rusiya xəritəşünaslıq işi da, xarici diplomatiya da çoxdan erməni millətçilərinin əlindədir...mən çox təəccüb edirəm ki, erməni saxtakarlığının bütün dünyaya bəlli olduğunu bilərək nə üçün "Erm. Milli arxivi" sənədlərini "mötəbər" mənbə hesab edirsiz... Nazir bəyə göndərdiyim "Göyçə ustadları" antologiyasında 1.Aşıq Alı: "Nə qaldı" şeirində: "Doxsana yetmişəm, yüzə nə qaldı", "Qocalıq"şeirində:"...doxsan idim, yüz eylədi" 2.Aşıq Ələsgər: "Qoca baxtım" şeirində: "Səksəni, doxsanı ötübdü yaşım", "Çəkirsən" şeirində: "Səksən il qurğuna etdim tamaşa"...Nazir bəyin yazdığı kameralda isə ustadlara 75-dən o yana ömür yaşı verilmir. Nazir bəy Aşıq Ələsgəri yazdığı kimi-dahi hesab edirsə, onun dediyinə şübhə ilə yanaşmamalıdır***... Polonskinin 1849-cu il "Qafqaz",1925-ci il "Dan ulduzu" jurnallarında da Aşıq Ələsgərin ömür yaşı haqqında məlumatlar var.*** Bütün bunlar dəlil deyilmi? Bir mətləbi də xatırladım ki, Loğman orta məktəbi qızıl medalla qurtarmaq durumunda idi, fəqət bizim "milli paxıllıq" xəstəliyimiz ona imkan vermədi... Loğmanın təməl biliyi texniki və hümanitar elmlər sahəsində yüksəkdir, ali məktəbi də

öz biliyi gücünə qurtarıb, başqaları kimi "dayı" -filan səbəbinə yox...

"Eynşteynin" "sekundantı" Niftalı Göyçəli Polonskinin "Kavkaz" qəzetindəki məlum məqaləsini artıq 1851-ci ildən 1849-cu ilə, "Dan ulduğu" jurnalındakı məqlənin tarixini 1926-cı ildən 1925-ci ilə gətirir və iddia edir ki, Polonski Ələsgərin "ömür yaşı" haqqında məlumat verib! Halbuki, 1847-ci ildə yazdığı və 1851-ci ildə çap etdirdiyi məqaləsində Y.Polonski Ələsgər adında bir nəfərin çalıb-oxumasından yazır və mən də onun Göyçəli Aşıq Ələsgər olmadığını sübut etmişəm.

Asif Israfilov: Gözəl insan, indi bu insanlara Nazir bey neyleyib ki, hucuma kecibler? Pislik eyleyib arasdirib ortaya qoyub ki,ermeni o torpaga gelmedi? Özü de öz senedleriyle edib bunu. Indi kiminse yubiley gelirleri elinden çixacaq deye dava etmesi ne derecede dogrudur? Yaxud, indi Nazir bey Aşiq Ələsgər irsinə bunlarin etdiklərini daha genuş ictimaiyyətə çatdirsa nə olacaq? Deyecekler Aşıq Ələsgərin şeirdən başı çıxmırdı? Yoxsa etiraf edəcəklər? Bu cur əhval ruhiyyə ilə onların etiraf edəcəklərinə inanmıram.Şəxsi maraq əmanət və irsdən üstün olub.

Fəqan Əmi: Ay millət, qırmayın bir birinizi. Ox yaydan coxdan cıxıb. Gedin kitabı təkrar oxuyun sona qədər. Onu da bilin ki, kitab yazılıbsa əsası da olub. Sizdə nəsə sübut varsa gətirin ərsəyə.

Asif Israfilov: Subutları olsa feysbuk hədəsi, ironiyası olmaz. Bir dənə havadan rəqəm tapıb pir deyirlər.

Fəqan Əmi: Erməni arxivi dediyiniz sizin öz tarixinizdir.

Asif Israfilov: Ay "ağıllı" indi sənə XX keçmişinlə bağlı bir sənəd lazım olsa, neyləyəcəksən? Lap tutaq ki,gətirdin. Onda gərək qəbul olunmaya? Ikinci bir tərəfdən hoppanıb düşdüyünüzə rəsmi fakt gətirin. Bacarmirsinizsa,ayıbınıza kor olun.

Fəqan Əmi: Sahib Musayev bir az tonunuzu aşagi salın. Axmaq da varsan üstəgəl lap irisindən. Rəylərində etikalı olmanı məsləhət görürəm.

Asif İsrafilovun son cavabı da Sahib Musayaevə ünvanlanmışdır.Mən onu blok etdiyimə görə nə yazdığını görmürəm.Amma görünür, Fəqan bəylə Asif bəyi təhqir edib və Fəqan bəy də onun cavabını verib.

Fəqan Əmi: Nə ilə sübut edirsiniz ermənіyə işləməyi? ermənіyə rəgbəti olan kimdir?

Nazir Ahmedli: Niftalı bəy, Sizə bir neçə sualım var: ***Birincisi:*** rəhmətlik İslam Ələsgərov yazıb ki, Almәmməd kişi 1868-ci ildə ölüb. halbuki, 1873-cü ilin kameral siyahısında Almәmməd sağ-salamatdır və 49 yaşında göstərilib. Bunu necə izah edirsiniz?? ***İkinci sualım:*** Ələsgər Kərbəlayı Qurbanın evindən ayrılandan sonra (İslam müəllim iddia edir ki, onu Pullu Məhərrəm qovdurub) Ələsgərin əmisi qızı Zöhrə Səhnəbanıdan Ələsgərə, Ələsgərdən də Səhnəbanıya söz aparıb gətitrirdi. ***Zöhrənin atası, yəni Ələsgərin əmisi kimdir?***

Niftali Goyceli: Sizin bu suallara dəfələrlə cavab verilib... Yazdığınız baş-ayaq yazıları təsdiqmi edək?.. Yaxşı "söz diplomatiyası" qurursuz...Sizin yazdığınız erməni mənbəyidir, bizim yazdığımız ustadların dilindən və bir neçə yazılı mənbədəndir...

N.Göyçəli iddia edir ki, mənim həmin suallarıma dəfələrlə cavab verilib. Əvvəla, mən bu sualları ilk dəfə verirəmsə, ona necə cavab verib?

İkincisi isə, Aşlq Ələsgərin 105 il deyil, 74 il yaşadığını üzə çıxartdığıma görə qiyamət qopardan adamlar indi hələ 1873-cü ildə sağ olan Almәmmədi 1868-ci ildə niyə uf demədən "öldürürlər?"

Nazir Ahmedli: Niftalı müəllim, görürsünüz ki, hər 2 sitatı erməni mənbəyindən yox, İslam Ələsgərovdan gətirmişəm və sizdən onları şərh etməyinizi xahiş etmişəm.

Niftali Goyceli: Yenə əsas mövzudan qaçırsız...Siz deyin ki, dörd şeirdə ustadlar ömür yaşlarını səhv, ya düz yazıblar...

Niftalı Göyçəli son dərəcə aydın və sadə dillə verilmiş suallara cavab verməkdən yayınaraq, nala-mıxa vurmaqla yaxasını qurtarmağa çalışır.

Nazir Ahmedli: Aşıq Alının misal gətirdiyiniz şeirinə kitabımda toxunmuşam. İzah etmişəm ki, son 2 bənd sonradan artırılıb və onun deyil. Yəni ***"Doxsana yetmişəm, yüzə nə qaldı?" yamaqdır.*** Prof.H.İsmayılovun tərtib etdiyi kitabda var, amma başqalarında, o cümlədən Qabilin tərtib etdiyində yoxdur. Həm də əgər aşıq əvvəlki bənddə ***"Əllini aşırdım, yüzə nə qaldı?"*** deyibsə, elə həmin şeirdə yenidən "Doxsanı aşırdım" deməsi gülünc olardı. Bu, H.İsmayılovun kobud səhvidir. Ələsgərin ***"Səksəni, doxsanı keçibdi yaşım"*** misrası haqqında da kitabda yazdığımdan başqa variantım yoxdur. İndi cavab vermək növbəsi sizindir, Niftalı bəy!

Niftali Goyceli Mənim kitabda yazdığım səh. 122, 129, 156, 174...şeirləri oxumusuzmu? onlar heç cürə təkzib edilə bilməz... bu şeirlər sırasında Aşıq Alının kitablarda çap olunmayan yeni***"Nə qaldı"*** şeiri əvvəlkilərdən fərqlidir... "Pozmaq olmur təqdir yazan yazını, Alı...

Niftalı Göyçəli yenə özünü bilməməzliyə qoyub Almənməd və Zöhrə ilə bağlı verdiyim sualları cavabsız qoyur.

Nazir Ahmedli: Həmin bənd uydurmadır, Niftalı müəllim! Kitabınızı hələ götürməmişəm, amma burada yazdığınızdan başa düşdüm ki, söhbət həmin bənddən gedir. Nəhayət mənim suallarıma cavab verəcəksinizmi?

Niftali Goyceli: Nazir bəy, dedim: "O zaman kim bilirdi ki, siz "Kameral" yazacaqsız?"...Aşıq Ələsgərin "Çəkirsən" "Səksən il qurğuna etdim tamaşa" bu da uydurmadır?

Leyla Nur: Nazir bey Siz çetin bir cavab ala bilesiniz....)))

Alizaman Baxish: Dostlar, davasız-şavasız davam etdirə bilərsinizmi? Çox maraqlıdır! İzləyəcəyəm!

Abulfat Heydar: Axı nə istiyirsinuz Aşıq Ələskərdən. Nə verib ala bilmirsiniz. Ayıbdı. Onun ruhundan ayıbdı.Ustadın yaşını və adını bəyəm Siz qoymusuz.Onun yaşı bir əsr bundan əvvəl bəlli idi.Ustadın şerlərində də bu öz əksini tapır.

Ay başınıza dönüm o qədər kitablar var ki onları çirib yumurtanın və ya digər ərzağın xarab olmaması üçün istifadə edirlər. Belə boş şeylərnən vaxtımızı keçirmək düzgün deyil.

S.Musayev yazır ki, İ.Şopen Göyçədə olmayıb və yazılanları da erməni Nerses diqtə edib. Sadə bir şeyi bilmir ki, İ.Şopenin rəhbərliyi ilə tərtib edilən Kameral təsvir 1831-ci ilə aiddir və Nerses ondan 3 il qabaq indiki Moldovanın ərazisinə sürgün edilmişdi.

Cahilliyin, nadanlığın savadsızlıqdan doğduğunu söyləmək, məncə artıqdır..

Asif Israfilov: Sahib bəy,Göyçə əsla kürd deyil.Hətta milli tayfasınîn necə kurdləşdirmək istədiklərindən də xəbərim var. Bu işdə Şamil Əsgərovun göyçəli NKVD-çi Molla Nebiylə şəxsi düşmənçiliyi olan Kəlbəcər Millisindən Əlini necə tora salmasını da bilirəm. Qızılvəngə getmələrini, Aşıq Alının qaynata tərəfdən qohumluqlarından sui istifadə etmələrini, uzaq qohum kimi isti qarşılanıb, kürdləşmə söhbətinə görə isə qovulmalarî da mənə məlumdu. Bundan başqa köhnə əlifba ilə yazılmış Molla Nəbinin şeirlərini evindən ogurladıb 500-ə qədərini Aşıq Alının adıyla çap etdirdiklərini də eşitmişəm.Yəni mən əsla kürd söhbətinin yanında deyiləm və əksinə bu məsələdə millətimi, türklüyümü hər nəyin bahasına da olsa mudafiəyə hazıram

Elbrus Caferov: Alının adına basılmış kondarma kitab 91-de edebi ictimaiyeti çok incitti.Vatandaşların 26 sene sonra o sahtakarların mekirli niyetlerinden haberdar olmalarına dikkat çekmek istedim. Hatırlayırsınız kitab müsadire olundu, yapanlar da ilahi cezaya muhatab oldular.

Nazir Ahmedli: Loğman Məhəmmədoğlu heç bir sənədə istinad etmədən yazır ki, Aşıq Ələsgər hicri-qəməri tarixlə 1231-ci ildə anadan olub. Farslar demiş, xub. İndi gəlin həmin rəqəmi miladi tarixə çevirək. Bunun üçün 1231 rəqəmini 354-ə vurub 365, 25-ə böldükdən sonra üstünə hicrət tarixi olan 622-ni gəlsək, 1231x354:365,25+622=1815. Deməli Loğman 1821-ci ilə də qane olmayıb Aşıq Ələsgərin 1815-ci ildə doğulduğunu iddia edir. Çalışın, cənablar, aşığı XVIII əsrə keçirməyinizə bir şey qalmayıb!

Nazir Ahmedli: Kitabınızı da götürdüm, Niftalı bəy, tanış oluram. Yaxın günlərdə tənqidi qeydlərimi bölüşəcəyəm.

Fəqan Əmi: Bəlkə tərifə layiqdir. Niyə bəri başdan tənqid fikirləşdiniz?

Nazir Ahmedli: Kitabla səthi tanışlıq göstərir ki, orada tərifə layiq bir şey yoxdur😊😊😊 Niftalı Göyçəli tərtib etdiyi "Göyçə ustadları" adlı kitabı (açığı, bilmədim onu almanax, yoxsa Niftalı müəllim kimi antologiya adlandırım) öz şeirləri ilə bitirir. Bununla demək istəyir ki, Göyçənin Aşıq Alı, Aşıq Ələsgər və başqa ustadları ilə bir sırada duran Ustaddır!

***Niftali Goyceli*:** Nazir bəy, o kitabda hərf səfləri gedib... Əllə düzəltdiyim kitablardan sizə çatmayıb, yanılış olub...Hər-halda bilirsiz, indiki nəşriyyat və kompüter işini...başqa məsələlərdə buyurun, tənqidinizi edin...

Nazir Ahmedli: Niftalı bəy, hərf səhvlərini nəzərə alacam, yəni aşkar imla səhvlərini sizə qüsur tutmayacam. Amma müəllifliyini Xətai Ələsgərliyə aid etdiyiniz şəcərədə ciddi səhv var: ***Ələsgəri Allahverdinin oğlu kimi təqdim edirsiniz. Bu, artıq ciddi məsələdir.*** İslam müəllim deyirdi Allahverdi Ələsgərin babasıdır, mən deyirəm əmisidir, siz də deyirsiniz atasıdır. Bu işin sonu nə olacaq?

Niftali Goyceli: Kitabın sonunda "Əlavə" ...bölməsində bəli, dord "dodaqdəyməz" şeir özümündür...O şeirləri tənqid etmək gücündə olmadığınızdan indidən hay-küy edirsiz...

Nazir Ahmedli: Yadınızdadırsa, "Diləyər" adlı cığalı təcnisinizi vaxtilə sərt tənqid etmişdim, Siz isə səhvlərinizi etiraf edib, "İnsafən, Azərbaycan ədəbiyyatşanaslığında sizdən üstün yoxdur" yazmışdınız. Yadınızdan çıxıbsa həmin iradlarımı yadınıza sala bilərəm: ***"Göyçəli, eşqin istəkd"*** sözləri ilə eşqi aşağılayırsınız. Hamı bilir ki, eşq istəkdən daha ülvi hissdir, yüksək kateqoriyadır. İstək həm də müvəqqəti və keçicidir, eşq isə əbədidir. Beləliklə, öz dilinizlə, öz eşqinizi aşağılamış olursunuz! Dalınca ***"İçindəki xalis, təkdi"*** misrası isə anlaşılmaz olduğu qədər də bəsitdir***. "De anlayaq, yartək, di!"*** kimi ifadəyə Azərbaycan dilində nə ad verək? Guya cinas yaratmaq xətrinə bu dili məhv etməyə heyfiniz gəlmirmi?

"Ocaqqulunun qatırı axsaqdır!"

Niftali Goyceli: Bilirəm ki, bu anlamlar sizin bilik dairənizdən kənardır...Allah xatirinə, şeirə nəzəri yanaşma baxımından fikir bildirməyin! Bu qədər zəif olduğunuzu bilmirdim...

Nazir Ahmedli: Niftalı müəllim, nəzərə alın ki. Sizin də, mənim də yazdıqlarımızı oxuyurlar. Kimin haqlı, kimin haqsız olduğunu da görürlər. Özünüzü getdikcə daha dərinə salmayın, halınıza acıyır və bugünkü tənqidlərimi burada saxlayıram. Gördünüz ki, qohumunuzun da yazdıqlarından daş üstə daş qalmadı!!!

Niftali Goyceli: Bəli, düz buyurursuz, bizim yazılarımızı indi dünyanın hər yerindən izləyirlər...Sizə əvvəldən də bir məsləhətim oldu ki: -Evrika!-deyib, "Erm. Milli Arxivi" ni car etməyəsiz... İndi də gec deyil, yazın ki, "Erm. Milli Arxivi" ni tam doğru hesab etmirəm"...Bu etiraf sizi tənələrdən qismən qoruyar...

Nazir Ahmedli: Biz hələ ki, sizin "xoşnam kitabınızdan" danışırıq, mövzudan yayınmayın! Bəlkə tənqidlərimi davam etdirməyimi istəyirsiniz? Mən humanistəm və burada dayanmaq istəyirəm.

Niftali Goyceli: Düz buyurursuz...İndi yazışmanı davam etdirsək, əvvəlki aylarda olduğu kimi saat 2-yə kimi uzanacaq və siz öz mövqeynizdə, mən də öz mövqeyimda qalacağıq...

Leyla Nur: Loğman bey, 1199 - 622 = 577 olur.

Belke siz eksine hesablamaliydiniz?!

1199 + 622 = 1821

Bunu zehmet olmasa deqiqleşdirin: toplama, yaxud çixma olmalidir?!

Nazir Ahmedli: Loğmanın halına acıdığıma görə onun yalançı ***"modelinə"*** icazənizlə yardımçı olum: hicri-şəmsi 1199-cu ili hicri qəməri ilinə çevirməliyik. Bunun üçünsə 1199-u 365,25-ə vurub 354-ə bölməliyik. 1199x365,25:354=1237. Beləliklə, Loğman Aşıq Ələsgərin doğum tarixi üçün rəqəm uyduranda gərək deyəydi ki, o hicri-qəməri 1237-ci ildə doğulub. O isə 1831-ə oxşatmaq üçün 1231-i götürmüşüdü ki, hər şeyi alt-üst oldu.

Leyla Nur: 1199-u 365,25 vurmaği anladim, bes 354-e niye bölürük?

Nazir Ahmedli: Çünki hicri-qəməri il 354 gündür

Leyla Nur: Teşekkür edirem Nazir bey. Loğman bey, sizin hesablamalarda səhfiniz var. Reylerin birinde hesablanmasini yazmişam. Mümkünse münasibet bildirin.

Loğman Məhəmmədoğlu aradan keçən 1 ildə hələ də Leyla Nura cavab verməyib. Nə cavab verəcək? Dahi Eynşteyn nisbilik nəzəriyyəsində göstərirdi ki, zaman və məkan nisbidir. Bizim "Eynşteynimizin" isə son çarəsi budur ki, o da irəli sürdüyü rəqəmləri, "hesablamaları" nisbi elan etsin, yaxud da onların rezin kimi o tərəf-bu tərəfə uzana biləcəyini söyləsin.

Sonralar facebook-un yaddaşını varaqlayıb kitabım üçün material toplayanda Loğmanın digər yazılarına da rast gəldim. Onlardan biri analoq.az saytında yaydığı məqalədir:

http://analoq.az/medeniyyet/6317-savadszlqdan-edlen-boyuk-sehvn-fshas.html

Tarix: 28.06.2017,

“USTADLARIN RUHUNA HÖRMƏTSİZLİK SAVADSIZLIQDAN EDİLƏN BÖYÜK SƏHVİN İFŞASI

Nöqtəsinə-vergülünə toxunmadan təqdim edirəm ki, bu “elm dəryası”nın savadı oxuculara məlum olsun.

Nazir Əhmədlinin cəfəngiyyat “kitabını” oxuduqca, məni dərin fikir aparmışdı, heç belə də iş olardımı bu qədər yalan ola? Tutaq Ələsgərin tarixi şişirdilib, bəs o birilər?? Mən haqq adamıyam, haqq da bunu mənə bəxş edib, və özü də bu gecəki Namazdan sonra aşkarladı şükr dərgahına, çünki mən o “alimlərdən” fəqli olaraq, şərabla, sərxoş beyinlə düşünmürəm, haqqın nuru ilə düşünürəm.Və elimin fəxrli oğluyam. Əli Şamil bilsin ki, biz, şəxsən MƏN Allahın izni ilə Haqqin özü olan Ələsgərə sahib çıxmasam və çıxmasaq Nazirlə Əli kimilər çox baş aparar. Özünü elm adamı adlandıran Əli Şamilin bu xəyanətini necə qiymətləndirik sizcə?

Bəh-bəh, sən demə, Loğmana vəhy də gəlirmiş! “Mən haqq adamıyam, haqq da bunu mənə bəxş edib, və özü də bu gecəki Namazdan sonra aşkarladı şükr dərgahına, çünki mən o “alimlərdən” fəqli olaraq, şərabla, sərxoş beyinlə düşünmürəm, haqqın nuru ilə düşünürəm.Və elimin fəxrli oğluyam”.

“Elin fəxrli oğlu” Allahın adını bildirən “Haqq” sözünü kiçik, “namaz” sözünü isə böyük hərflə yazır! “Vəhy”in də ona namaz qılan zaman “nazil olduğunu” bildirir! Nözənbillah, əgər Loğman bir gün də ona yeni surələr “nazil olduğunu” söyləsə, mən heç təəccüblənmərəm!

Əli Şamil yazır ki,"Göyçə aşıq məktəbinin yaşını böyütmək istəyən, bu mövzuda dəfələrlə mənimlə mübahisə edən

Hüseyn İsmayılov sakit və mülayimliklə xahiş etdiki, İslam Ələsgərov sənin müəllimin olub, ağsaqqal adamdır, hirslənər, başına bir iş gələr, sən gəl bu məsələni qapat. Mən də mövzudan əl çəkən deyildim, əlimdə də ciddi tarixi sənəd yox idi".

Indi diqqət edin,bu adam nə qədər saxtakar adammış, sözünü məqaminda üzünə demədiyi insanın dünyasını dəyişəndən sonra, Hüseyn müəllim də xəstə olduğu halda, arxasınca belə cəfəngiyyat danışmağı hansı insanlığa, mədəniyyətə, kişiliyə, qeyrətə sığar?

Ən azından Əli Şamil bu işə qarışmamalı idi. Bir insan kimi, kişi kimi, bir Göyçəli kimi. Bu idimi qəhrəmanlığı, bu da onların savadsızlığı. Buna sevinən insanlar da, (çox təssüfki, bunların əksəriyyəti "elm adamı"dır, belə desək) bir az düşənə idilər.

Şəsxən mənim böyük hörmətim olan akademik Nizami Cəfərov bir fikirləşərdi ki, Azərbaycan dövlətinin tanınmış elm və mədəniyyət xadimlərinin, dahi insanların tanınması, təbliği işinin təməlində Ulu Öndərimiz Heydər Əliyevin fikri, düşüncəsi, gərgin əməyi və sonsuz Azərbaycan sevgisi durur,bir dövlət rəsmisi kimi bu işə necə rəvac verməyini anlamıram,özü də harada, ATA TÜRK MƏRKƏZİNDƏ –Türkün tarixinə belə düşünülməz münasibət..

Buyursunlar bu da izahı, sevinclərini tarimar edirəm, öxuyun!!Axır ki səbəb bəllli oldu.Amma çox heyifki bu Nazirin heç yatsa yuxusuna da girə bilməzdi ki, belə bir faktla, və elə ***Ələsgərin özü kimi bir adamla qarşılaşacaq,*** və onun yalanlarını, savadsızlığını ifşa edəcək.

"Nazirin heç yatsa yuxusuna da girə bilməzdi ki, belə bir faktla, və elə Ələsgərin özü kimi bir adamla qarşılaşacaq".

Loğmanın öz fikrini doğma ana dilində ifadə edə bilməməsini bir kənara qoyuram, özünü "Ələsgərin özü kimi bir adam" adlandırması olduqca məzəli görünür! Bu cümləyə cavab vermək özü yersizdir! Bu cümlə Loğmanın ağlının yerində olmadığını göstərən simptomdur, şizofreniya əlamətidir.

Ruhi xəstələrdə bu cür simptomlar olur-bir də baxırsan ki, kimsə özünü Napoleon Bonapart, yaxud şah oğlu Şah Abbas elan edir. Qoy Loğman da elə etsin və oxucuları güldürüb kefini durultsun!

Türkmənçay müqaviləsinə qədər Azərbaycan ərazisində tarix hicri-qəməri ilə hesablanırdı. Rusiyanın işğalından sonra bu tay Azərbaycanın tarixi, Miladi tarixi ilə hesablanmağa başlandı. Sadə bir hesablama ilə bütün bu yanlışlıqlara izah verim, Nazirin "kəşfini" məhv edim. Türkmənçay müqaviləsi 1827 ci ildə baş verib. Onda müsəlman tarixi ilə, 1827-622 (hicrət tarixi-hicri qəmər) = 1205 ci il olub.128 X 365 (miladı) =439825 gün : 355(hicri-qəməri= 1238-(1238 -1205 = 32 il fərq) Miladi tarixi ilə 1 il 365 gündür təxmini Hicri-qəməri tarixi 1 il 355 gündür təxminən 1205 ili hicri qəmərinə cevirərkən alınır 1238 ci il, 1238-1205=32 fərq. Yəni Aşıq Ələsgər və digər insanların hamsının yaşları arasındakı 31 ya 32 il fərqi bundan ibarətdir.

Loğman burada isə "Türkmənçay müqaviləsi 1827 ci ildə baş verib" yazır. Həm Türkmənçay Müqaviləsinin tarixini təhrif edir, həm də "bağlanıb" əvəzinə "baş verib" yazır. Bəli, bizim Loğman belə Loğmandır- "elm dəryası"dır! Müqavilənin tarixini bilməyə bilər, ana dilində "bağlanıb" əvəzinə "baş verib" də yaza bilər, amma doğrusu, 1238-dən 1205-i çıxıb 32 yazması adamı nəinki heyrətləndirir, lap ondan da betər edir və mən insanın keçirəcəyi halı ifadə etmək üçün Azərbaycan dilində söz tapmıram! Özü də 1205 rəqəmini bir neçə dəfə təkrar etdiyinə görə, aydındır ki, onu texniki səhv saya bilmərik.Amma 365-ə vurduğu 128 rəqəmini də 1205 hesab etməliyik, çünki hasili (439825) digər vuruğa, 365-ə bölləndə 1205 alınır.

Loğman artıq "hökmünü" verdi: aşıqların doğum tarixindəki 32 il fərqi buradan alınır! Loğman əminəm ki, kitabımı oxumayıb, oxusaydı bilərdi ki, yaşında 32 il fərq olan aşıq yoxdur və 1238-dən 1205-i düzgün çıxsaydı, 33 alınardı. Aşıq Ələsgərin doğum tarixindəki fərq 31, Aşıq Alıda 34, Aşıq

Söyün Şəmkirlidə 27, Şair Məmmədhüseyndə 15, Ağ Aşıqda isə 37 ildir!

Amma çifayda! Bəyəm Loğman ipə-sapa yatandır?

O dövrün kamerial təsvirini yazan rus və fransız alkaqolikləri Miladi ili ilə, hicri qəməri ili arasında ki 10 gün fərqi hesablamadan, bu tarixi sadə, savadsız insanlardan dilindən şifahi halda soraraq, say xatirinə yazıblar Nazirin dediyimi kimi ki, yalnız vergidən yayınmamaqları üşün vəssalam!!

Bu da sadə və diqqətdən kənarda qalan fakt. Yaxşı bunun biri yalan oldu,ikisi yalan oldu,belə işmi olar,bu boyda tarix yalandırmı?

Heyif ki, bu Nazir Əhmədlinin başı üçün deyil, indi yığsın "heyyəytini" başına otursun hesablasın,..Və!! Dədə Ələsgərin, digər ustadların, şəxsən İslam Əlsəgərin ruhundan və Göyçə mahalından üzr istəsin, etdiyi səhvi etiraf eləsin, kitabı rəsmi şəkildə inkar eləsin, əks təqdirdə məhkəməyə veriləcək.

Uydurduğu cəfəngiyyatları təkzib edəcəyimi bildiyindən, qabaqdangəlmişlik edir, "heyf ki, bu Nazirin başı üçün deyil",- yazır, həm də mənə xox gəlir: "kitabı rəsmi şəkildə inkar eləsin, əks halda məhkəməyə veriləcək". Amma məhkəmə əvəzinə DTX-ya donos yazdılar...

Loğman həm də başqa bir şey deyir: "O dövrün kamerial təsvirini yazan rus və fransız alkaqolikləri Miladi ili ilə, hicri qəməri ili arasındakı 10 gün fərqi hesablamadan, bu tarixi sadə, savadsız insanlardan dilindən şifahi halda soraraq, say xatirinə yazıblar".

Ay Loğman, birincisi sən hardan bilirsən ki, onlar alkoqolik olub?

İkincisi də hicri-qəmərinin nə dəxli var buraya? Adam öz təqvimi ilə, 1859-cu ildə tərtib etdiyi kamaeral təsvirdə Ələsgəri 7, 1873-cü ildə tərtib etdiyi sənəddə isə 21 yaşında göstərib, mən də onun yaşını sənədin tərtib edildiyi ildən çıxanda hər ikisində

1852 rəqəmi alınır. Niyə bu cəfəngiyyatları uydurub özünü bataqlığa, oxucuları da əziyyətə salırsan?

Bunu da qeyd edim ki, bu insanlar ictimai şəkildə səhvlərini etiraf etsələr, onlar yenə bizim dostumuz, qardaşımız, qonşularımız və vətəndaşlarımızdır, elm də mübahisəsiz elm olmaz,vəssalam!

Şair, filosof, Ələsgəşünas, Hacı Loğman Məhəmmədoğlu".

Əslində L.Məhəmmədoğlunun ağıldan məhrum adamların monoloquna bənzəyən bu yazısına cavab vermək artıq bir şeydir, amma oxucunun kefini durultmaq üçün yenə də onun bəzi dediklərinə cavab verməyi lazım bildim.

Onun bu sərsəmləmələrində ən maraqlı fakt sözsüz ki, "Nazirin heç yatsa yuxusuna da girə bilməzdi ki, belə bir faktla, və elə Ələsgərin özü kimi bir adamla qarşılaşacaq" iddiasıdır! Bəli, nə az, nə çox!! Loğman artıq özünü Ələsgərə bərabər tutur! Başqa sözlə, bunu edəcək qədər ağlını itirib!

Loğmanda bu "dərrakə", "talant" hardandır görəsən? Özü bu suala da cavab verir: "Mən haqq adamıyam, haqq da bunu mənə bəxş edib və özü də bu gecəki Namazdan sonra aşkarladı şükr dərgahına, çünki mən o "alimlərdən" fəqli olaraq, şərabla, sərxoş beyinlə düşünmürəm, haqqın nuru ilə düşünürəm.Və elimin fəxrli oğluyam".

Özünü ayətulla elan etmək təəssüf ki, Loğmanın yadından çıxıb, bəlkə də "utanıb". Amma inanmıram ki, onda utanan üz ola!

Loğman Məhəmmədoğlunun yazdıqlarını, buraxdığı adi imla səhvlərini, Azərbaycan dilinin yazı qaydalarından tamamilə xəbərsiz olduğunu əyani şəkildə göstərmək üçün onun yazısına heç bir düzəliş etmir və imla səhvlərini düzəltmirəm, axı özünün yazdığına görə, o "Şair, filosof, Ələsgəşünas, Hacı Loğman

Məhəmmədoğlu”dur! Amma “elimin fəxrli oğluyam” iddiasına gərək düzəliş edək, yəqin o “elimin fəxr ediləsi oğluyam” demək istəyib.

L.Məhəmmədoğlu öz “modelini” təqdim və “izah” edəndən sonra qəti hökm də verir: “bu Nazir Əhmədlinin başı üçün deyil”. Təbii, Loğman müəllim! Belə sayıqlamalar ancaq Loğman Məhəmmədoğlunun o “qiymətli” başına gələ bilər!

İndi keçək namaz qılan vaxt ona “nazil olan” “Loğman modelinə”.

Buna keçməzdən qabaq sadəcə olaraq deməliyəm ki, Loğman “filosofluğa” keçərkən ağlına da gəlmir ki, siyahıyaalmanı həyata keçirən Rusiya hökumətinin məmuru bunu miladi tarixlə 1831-ci ildə, yaxud 1873-cü ildə yazdığını və həmin tarixdə də qeydiyyata aldığı insanın yaşını göstərir, nə hicri-qəməri, nə hicri-şəmsi?

Lap tutaq ki. Loğmanın şübhələndiyi kimidir, baxaq görək Loğman öz “hesablamalarını” necə həyata keçirib?

“Nazirin kəşfini məhv etməkdən” (!) danışan Loğman növbəti cümləsində “Türkmənçay müqaviləsi 1827 ci ildə baş verib(!!)” yazır. Loğman nəinki həmin müqavilənin imzalandığı tarixi bilmir, hətta “imzalanıb” əvəzinə “baş verib” yazır. Yəqin oxucu tam əmin oldu ki, ali təhsil almış bu adama Azərbaycan dilinin nəinki yazı qaydalarını, hətta Azərbaycan dilində danışmağı öyrətmək lazımdır!

Loğmanın “hesablamalarında” da iynənin ucu qədər düz şey yoxdur. O bilmir ki, hicri-qəməri il 355,5 yox, 354, miladi il isə 365,25 gündür. Hətta “1238 -1205 = 32 il fərq” yazır, yəni 1238-dən 1205-i də çıxa bilmir.

Rəqəmlərin izahını N.Göyçəlinin statusuna yazdığım rəylərdə verdiyimə görə, oxucunu təkrar yormaq istəmirəm.

Looğman 1 iyul 2017-ci ildə maraqlı bir status paylaşıb:

Haci Loğman Mehemmedoqlunun statusu
1 iyul 2017

Nazir kişi Cox cevikdi, o Menim ASIQ ESLESGER haqqinda yazdiqim kitabdan da meharetle oqurluqlar ederek oz adina yazib. Bu bir basa o adamin saxtakarliqinin ifşasidir. Etdiyi qeletin boyukluyunu anlamayan bu cahil iddiali sekildi ona noqsan tutanlari qebul etmir..

Alik Qurbanov: Yaqin bu ogruluq adini pulla alan ogrulardandi hala xirda işlardan başlayib…!

Haci Loğman Mehemmedoqlu: Menim kitabim 2013-cu ilde cixib, ilk nusxelerden vermişdim Nizami Ceferova, bele cixir ki bu işe birbasa o gosteriş ve destek verib

Zodlu Maarif Bextiyarov: kiminse şerini al-dille alib, özünkü edenin harami olsun!

Haci Loğman Mehemmedoqlu: Sohbet seirden getmir, elmi arasdirmadan gedir

Zodlu Maarif Bextiyarov: ferqi yoxdur fikir oğurlayirlar

Məni hər cür ədəbsiz sözlərlə təhqir edən bu nadan heç olmasa, ondan nəyi "oğurladığımı" demir ki, mən də, oxucular da bilsin. Həm də əgər mənim yazdıqlarımı o da 2013-cü ildə yazıbsa, onda gərək deyəydi ki. N.Əhmədlinin yazdıqları düzdür, amma həmin şeyləri mən ondan 3 il qabaq demişəm. Bir yandan deyir Nazir məndən oğurlayıb, bir yandan da deyir Nazirin yazdıqları səhvdir. Bu "Loğman müəmmasından" baş açmağa elə Loğmanın özü, bir gün sonra paylaşdığı bir statusla kömək edib:

LOĞMANIN SƏNƏTİ

Hacı Loğmanın statusu
2 iyul 2017

Bu da bir tarixdir, özüm haqqında yazıram. Mən 20 dən çox sənət və peşəni mükəmməl bilirəm.

Bunlar aşağıdakılardır.

İlk sənətim musiqiçilikdir. 4 yaşımdan 9 yaşadak naqarada, 9 yaşımdan qarmon, 13 yaşımdan saz və simli alətlər, 20 yaşımdan nəfəs alərlərində, ***Klarnet, qara zurna,*** balaban kimi alətlərdə, pianoda ifacılıq etmişəm. ***Göyçədə çox aqır toylar eləmişik.*** Bu musiqi sahəsində.7 sinifdə oxuyandan dərzilik sənətini də öyrənmişəm. İnstitut illərində, hərbi xiddmətdə bu sənətlə daim məşqul olmuşam.

Hərbi xidmətdə olarkən Moskva Vilayəti, Kalyazin şəhərində axşam məktəbində modelçi dizayner kursunu bitirmişəm, 6 dərəcəli modelçi Dizayner dərəcəsi almışam.

Mülkü həyatda institut illərində də dərzlilklə mütəmadi məşqul olmuşam. Eyni zamanda Fotoqraf, düşəndə musiqiçi kimi faəliyyətim olub. Zaman tələb etdikcə Qaynaq (svarka) , dülgərlik, bənnalıq, rənsaz kimi işləri də öyrənmişəm,. Tikinti sahəsindəki bütün işləri bacarıram, özü də ustalarından yaxşı..

Geyim istehsalındaki bütün mütəxəssilərin işinin öhdəsindən gəllirəm, dizayn, model, texnoloq, texnoloji sənədlərin hazırlanması, kəsim, normaçı, ülgüçü -əsas proseslər və koməkci tamamlayıcı proseslər. Bütün prosesi sonunancan bilirəm. istər tekstil, istər trikotaj üzrə.

Bütün növdən olan tikiş maşınlarının təmirini bilirəm.

Rəssamlığa meylim çox olub, qrafik əsrlər çəkmişəm, vaxtilə, zaman çatışmamazlığından inkişaf etdirməmişəm.

Elektrik sahəsində də yetərincə bilgi və səriştəm var.

Təbabət haqqında bilgilərim çox həkimlərdən üstündür, mən həmişə həkim dediklərinin əksini etmişəm, nəticəm çox yaxşı olub.

Elm sahəsində OKB Neftimaşda çalışmışam, icad etdiyim avadanlılar da olub. Amma sovetlər dövründə qiymət vermədikləri üçün buraxmışam.

Dinimiz, əxlaqımız, adət və ənnələrimiz haqqında elmi şərhlər, izahlarım varki, ***qanan olsa cahil müsəlmanı aqilliyə çıxarar.*** Bu səbəbdən mülli düşüncəmizin söykənəcəyi elmi izahlar haqqında bir neçə əsr üzərində işləyirəm. Poziyada çoxlarının anlaya bilmədikləri dahilərin, Nizaminin, Ruminin, Şəmsin, Nəsiminin, Miskin Abdalın, Fizulinin, DƏDƏ Ələsgərin fəlsəfi ürfan dünyasına, elm dəryasına qəvvaslıq etmişəm, əliboş qayıtmamışam,.

Yazar kimi də bir iki cızma qaram, var, ...

Nə isə belə,.. dedim mənim kimiliyimi biləsiz,...

Bildik, Loğman, bildik! Sağ ol! Yaxşı ki, bizi zurnaçı olmağın barədə məlumatlandırdın, yoxsa o cür səfeh uydurmaları haradan tapıb yazdıqlarını oxucular anlaya bilməzdilər.

Oxucuların marağına səbəb olacağını düşünüb qeyd edim ki, Naxçıvanda bu tip adamlara "manıs" deyirlər.

Sən demə, "bizim" Loğman belə Loğman imiş.

Onun "mən həmişə həkim dediklərinin əksini etmişəm, nəticəm çox yaxşı olub", sözləri isə yəqin ki, dünyanın hikmət xəzinəsinə "düşməyə layiq ideya" kimi oxucuların yadında uzun müddət qalacaq və onları əyləndirəcəkdir.

Amma yazdıqlarının cızma-qara olduğunu səmimi şəkildə etiraf etməsini nəzərə alaraq Loğmanı çox da küncə sıxışdırmayaq, adam hərdənbir düz danışa bilirmiş…

Kiçik bir yazıda etdiyi qələtləri özüm bilə-bilə düzəltmədim. Qoy oxucular onun "elm dəryası" olduğunu da görsünlər…

2017-ci ilin sentyabrından sonra təxminən 2 ay-oktyabr və noyabr aylarını nisbi sakitlik içərisində yaşadıq və iki ay ərzində "İrəvan şəhərinin Kameral təsviri.1831-ci il" kitabımın üzərində işlədim. Məhz həmin vaxtlarda AMEA Tarix İnstitutu ilə əməkdaşlığımız başlandı. Həmin Kameral təsvir İrəvan əyalətinin 5 cildlik Kameral təsvirinin 1-ci cildidir. AMEA Tarix İnstitutu Elmi Şurasının qərarı ilə nəşr edilən çoxcildliyin elmi redaktoru institutun direktoru, akademik Yaqub Mahmudovdur.

Dekabrın əvvəllərində M.Yusifov yenidən sakitliyi pozdu. Həmin hadisələin təsvirini "İkinci fəsil" və ya "İkinci bölmə" adlandırmadım. Çünki M.Yusifovun törətdiyi əməllər daha çox uşaqların həvəslə baxdığı "davalı filmləri" xatırlatdığına görə, həmin bölməni də "İkinci seriya" adlandırdım.

İKİNCİ SERİYA
MÜRVƏT YUSIFOVUN YENI YALANI

Mürvət Yusifovun statusu
3 dekabr 2017

Nazir Əhmədlinin Göyçə mahalının tarixi və dünya şöhrətli ustadların həyatı ilə bağlı qarayaxmalarına Azərbaycan Aşıqlar Birliyindən sonra Azərbaycan Folklor İnstitutunun direktoru Muxtar İmanovun "Aşıq Ələsər Monoqrafiyası" (H. İsmayılov) kitabının təqdimatındakı çıxışı tərs şapalaq oldu!!!

Yorumlar:

Şebnem Bunyadzade: Hele bu ters şapalaqlar çox deymelidi inşallah deyecek.

Nazir Ahmedli:Mürvət Yusifov, dava-qalmaqalların deyəsən ikinci seriyasını başlayırsan. Mən Göyçənin tarixi və ustadları

haqqında heç bir qarayaxma yazmamışam, yazdıqlarımın hamısı həqiqətdir, müraciət etdiyiniz ünvanlardan da dövlət rəhbərliyinə və DTX sədrinə cavablar getdi. Elə Folklor İnstitutunun özündən də.

Akademik Muxtar İmanov konkret olaraq təqdimatda nə deyib? Deyib ki, N.Əhmədlinin müəyyənləşdirdiyi doğum tarixi saxtadır?? Zənnimcə elə deməz. Əgər prof.H.İsmayılovun monoqrafiyasını tərifləyibsə, həmin kitabı oxumasam da içində təxminən nə yazıldığını, Aşıq Ələsgərin yaradıcılığını təhlil etdiyini və yüksək fikirlər söylədiyini güman edirəm. Əgər monoqrafiyada Ələsgərin 1821-ci ildə Ağkilsə kəndində doğulduğu yazılıbsa, o fikirlə razı deyiləm, həmin rəqəm düzgün deyil. Aşıqlar Birliyinin mövqeyini də tez-tez vurğulayırsan, onunla harada tanış olmaq olar, konkret olaraq prof. M.Qasımlı nə deyib? Əgər onun aşıq Fətulla ilə televiziyadakı verilişini nəzərdə tutursansa, mən də ona baxmışam və M.Qasımlı orada elə bir şey də söyləmədi, hər ikisi, xala xətrin qalmasın, dilucu bir neçə kəlmə söylədilər. Bir də hələ heç kim mənə nə tərs, nə də düz şillə vurmayıb. Əgər mənim irəli sürdüyüm yeni elmi faktların təkzibindən söhbət gedirsə, nə mən, nə də elmi ictimaiyyət hələ də belə bir təkzib görməyib. Mən onları hələ də gözləyirəm. Muxtar müəllimin adından da düzgün olmayan informasiya yayma, axı o da durur, sən də, mən də, görüşdə iştirak edən digər şəxslər də.

Tevekgul Cemilli: Nazir Əhmədli sən yalniz õz ağlinda olan adamlardan təşəkkūr ala bilərsən õz babasinin tarixini sizdən õyrənən adama mənim sõzūm yoxdu.

Murvet Yusifov: Hələ fikrində qalırsan?

Nazir Ahmedli: Fikrimi dəyişdirməyimi kim deyib ki?

Murvet Yusifov: Mən düşünürdüm ki, bu qədər qınaqlardan sonra səhvinizi anlamış olarsınız

Akif Emirov: sadece cox teessuf ediremki siz hele mualice almamisiz.Nazir ahmedli senin umumiyyetle GOYCE mahalindan danismaga menevi haqqin catmir. pisiyin eli ete catmayanda meseline oxsayir.get ozune basqa pese sec da basini qat vaxtin getsin

Murvet Yusifov: Xahiş edirəm təhqirə yol verməyək!

Nazir Ahmedli: Mən isə düşünürdüm ki, siz inadkarlığınızdan, lazımsız təəssübkeşliyinizdən əl çəkib nəhayət ki, elmi faktlarla barışacaqsınız. "Göyçə mahalının Kameral təsviri" kitabında bütün göyçəliləri öz əcdadlarının tarixinə qovuşdurmuşam və əksəriyyətindən təşəkkür almışam. Bunu şəxsən sizdən də gözləməyə haqqım var.

Vəlişan Qocayev: size bir sualim var siz nazir ehmedli men goycelinin ecdadini taniyirsiniz ?????

Nazir Ahmedli: vəlişan qocayev, mən sizin əcdadınızı tanımıram, mən sizin əcdadınızın adı olan və dövlət məmurları tərəfindən yazılmış sənədi tərcümə edib çap etmişəm.

Vəlişan Qocayev: Nazir Ahmedli siz sehv ve yalniş yoldasiniz yol yaxinken qayidin bu yoldan ucruma getmeyin. Nazir Ahmedli, o dovlet memuruda sehv yazib saxta yazilib hamisi duz yola gedin siz Hesen Mirze davamcisi olun xainlere destek olmayin

Araz Yaquboğlu: Mübahisəyə qarışmıram. Onu deyə bilərəm ki bu mövzuda Həsən Mirzə tərifə layiq deyil.

Vəlişan Qocayev: Nazir Ahmedli menim duşuncem dogrudu cunku men Prafessor Alim SEFIYAR MUSAYEV ocaginin yetirmesiyim ve onuda bilirem ki bir elin obanin tarixini ve dahi sexsiyyetderinin tarixini saxtalaşdirmagin ozu qorxaqliq rezillydi

Nazir Ahmedli: Vəlişan, mənim prof.Səfiyar Musayevə böyük hörmətim olub, həm Universitetdəki vidalaşma mərasimində, həm də həyətlərində verilən yas məclisində iştirak etmişəm. Sənin onun ocağına mənsub olmağın Səfiyar müəllimin ruhuna əzabdır. Çox hayıf!

Murvet Yusifov: Amma mən ilkin olaraq münasibətimi bildirmişəm.Üç beş nəfərlə şəxsi münasibətlərinizi göyçəlilər adından təqdim etməyin!

Nazir Ahmedli: Siz Kameral təsviri də qəbul etmirsiniz?

Murvet Yusifov: Mən, ümumiyyətlə sizə sənəd adı ilə ötürülmüş yazı toplumunu qəbul etmirəm. Etirazınız varsa şikayət

verin ya Ermənistan Prokurorluğuna, ya da Rusiya Prokurorluğuna.

Nazir Ahmedli: Mürvət Yusifov, özünüz də bilirsiniz ki, Xətai Ələsgərli Aşıq Ələsgər ocağına yaraşmayan necə bir hərəkət etdi. Kimliyi haqqındakı təkidli suallarıma cavab vermədən məni ən ağır küçə söyüşləri ilə söyüb öldürməyə gəldiyini dedi. Mən onun kimliyini bilmədən telefonuma düşən nömrəsinə görə ondan və sizdən prokurorluğa və DİN-ə açıq şəkildə, öz adımla şikayət yazdım, çünki onun səviyyəsinə enib söyüş söyməmişdim və təhdidlərini də ciddi qəbul etmişdim. Sizə gəlincə, təhrikçi olduğunuza görə adınızı yazmışdım və yenə də öz fikrimdə qalıram. ***Həmin şikayətdən xeyli əvvəl də sizə xəbərdarlıq etmişdim ki, təhrikçilik etməyəsiniz.*** Sizin hansısa fiziki cinayətə əl atmayacağınızı qəbul edirəm, amma hadisələri qızışdıranda hər cürə başıpozuq elementlər meydana çıxıb axmaq bir şey törədirlər, belə halda istəsəniz də, istəməsəniz də hadisənin məsuliyyəti sizin üzərinizə düşür. Amma mən sizin kimi DTX-ya donos yazmaq qədər alçalmadım, yeri gəlmişkən, həmin donosda sizin də adınızı görmədim. Həmin donosun mətninin Q.Zimistanoğlu tərəfindən yazıldığını görmək üçünsə, məncə dahi olmağa ehtiyac yoxdur. İsmayılov Eldar Ələsgər oğlunun və Niftalı Göyçəlinin adları orada idi....

Məsələni araşdıran 7-ci polis bölməsində fikrimi soruşanda isə rəisə dedim ki, bu şikayət ərizəsi ancaq profilaktika üçündür ki, bir daha belə hərəkətlərə yol verməsinlər. Həm də həmin ərizənin nəticəsində öyrəndim ki, məni söyən və öldürməklə hədələyən "qəhrəman" Xətai Ələsgərli imiş.... Çox təəssüf...

Murvet Yusifov: Əvvəla, mən Xətayi Ələsgərlinin sizə söyüş etməsinə inanmıram.Özünüz özünüzü təkzib edirsiniz. Sizi təhqir və təhdid etməyib, məsələnin qanun çərçivəsində həll edilməsi üçün dövlət orqanlarına müraciət edilib. Bunun da səbəbkarı sən özün olmusan. Belə ki, mənim təşkilatçılığımla keçirilən ziyalılar toplantısına gəlib məsələni çözmək əvəzinə sosial şəbəkələrdə aidiyyatı qurumların sənə dəstək olduğunu bəyan edirdin....

Siz səhvlərinizi etiraf etsəniz başqa məsələlər barədə düşünməyə dəyər.

Heyder Mammadov: Heç kimlə mübahisı etmək fikrim yoxdu. Bizim evdə Aşıq Ələsgərin həyat və yaradıcılığından və səfərlərindən, deyişmələrindən bəhs edən köhnə kitab var idi. Orada 1821-1926 yazılmışdı.

Murvet Yusifov: Bir məsələ də mənə maraqlıdı. Məni fb dostluğundan silmisiniz. Mənim paylaşımlarımı dostluğumdakı insanlardan siz tez görürsünüz?. Bu, kəşfiyyatçıların hesabınadı, ya özünüz ardıcıl izləyirsiniz?

Nazir Ahmedli: Hər şeyi tərsinə qələmə verirsiniz, mən sizi dostluqdan silməmişəm, hesab edirdim ki, siz silmisiniz. O cümlədən başqalarını da silməmişəm. Mən indiyə qədər yalnız 2 nəfərə necə deyərlər, fb sanksiyası tətbiq etmişəm-Mətanət Əmirli ilə Sahib Musayaevi blok etmişəm və şahidsiniz ki, onlar mənə nə qədər təhqirlər, söyüşlər yağdırırdılar. Statuslarınıza isə doğrudan da baxıram, sizdən başqa Niftalının da (o da məni dostluqdan çıxarıb), bəzi başqa adamların da. Bu casusluq deyil, dostluqda olmayanlar da bir-birinin statusuna baxa bilirlər. Özünüz də gördünüz ki, neçə aydır adımı çəkmədiyiniz zamanlarda da heç bir reaksiya vermədim. Özüm də statuslar yazmaq həvəskarı deyiləm, sonuncu dəfə nə vaxt yazdığım da yadımda deyil. Səhvləri etiraf etməyə gəlincə, əgər tədqiqatlarımı nəzərdə tutursunuzsa, heç bir səhv etməmişəm, yalnız və yalnız Azərbaycan elminə xidmət etmişəm və nə Ələsgərin, nə haqqında yazdığım digər 5 nəfərin böyüklüyünə xələl gətirməmişəm. Elmi mövqeyə, araşdırmaya, tarixi fakta belə aqressiv münasibətiniz mənim üçün son dərəcə anlaşılmazdır. Bir sirr də açım: Göyçənin digər tanınmış saz-söz ustadlarının da doğum tarixlərini dəqiqləşdirib yeni kitab yazmaq fikrim var (söhbət XIX əsrdə yaşayanlardan gedir). Məsələn, indiyə qədər yazırdılar ki, Şişqayalı Aydın 1825-ci ildə doğulub, halbuki onu nə 1831-ci, nə də 1842-ci ilin siyahılarında görmədim, deməli o da xeyli sonralar doğulub. Qəti əminəm ki, indi məni söyənlərdən fərqli olaraq gələcək nəsillər hər şeyə obyektiv qiymət verəcək və məni ehtiramla yad edəcəklər.

Murvet Yusifov: Qəribədi! Tez-tez məni şahid göstərirsiniz). Şahidliyim olub ki, aqressiyalı insanların iradlarına tab gətirməyib ilk söyüş söyən siz olmusunuz...Səhifəmi izləməyi isə heç kimə qadağa qoymuram. Məni dostluqdan çıxarıb məni izləməyinizə təəccüb edirəm. Məni dostluqdan sildiyinizi isə rəylərinizdən birində qeydinizi oxuyandan sonra bilmişdim.Sizin kitab dediyiniz çap məhsullarının məni narahat etməsinin əsas səbəbi gələcəkdə Azərbaycanı sevməyən qüvvələrin istinad nöqtəsi ola biləcəyidi! Elə buna görə də sonacan mübarizə aparmaqda qərarlıyam!

Şebnem Bunyadzade: Biz sizinleyik Mürvet bey

Nazir Ahmedli: Bizim mübahisəmiz yenə lazımsız yerə uzanır, sonu görünmür, siz mənimlə razı olmadığınız kimi, mən də sizinlə razı deyiləm. Allah bilən məsləhətdir, xeyirlisi nədirsə, onu da etsin!

Murvet Yusifov: Tək mən yox, minlərlə insan sizin mövqeyinizdən narahatdı...

Nazir Ahmedli: Allah hamısına kömək etsin!

Qurbetde Parlayan Qigilcim: Murvet Yusifov Haqqa doğru geden yolda biz de sizinleyik! Dualarımız her zaman sizinledi, Allah yardımçınız olsun!

Asime Eleskerova: Nazir Ehmedli...size yazigim gelir... Elesger ruhuna toxundugunuza gore cezaniz agir olacaq.

Aslan Azadaliyev: Hörmətli eloğluları, mən facebook səhifələrində ardıcıl olaraq sizin haqlı-haqsız mübahisələrinizin şahidi olub çox təəssüf edirəm. Məndən inciyib inciməyəcəyinizi nəzərə almadan, kəskinləşən münasibətlərinizə öz münasibətimi bildirmək məcburiyyətindəyəm. Axı siz nəyi bölüşə bilmirsiniz? Cürət edib dünya şöhrətli şəxsiyyət və dahi sənətkar haqqında bu cür çəkişmələrə girişən hər iki tərəf zəngin məlumata sahib olduğu anlaşılır. Əgər belədirsə, dahi el sənətkarına, onun ruhuna, zəngin yaradıcılığına və keçdiyi həyat yoluna hörmət, ehtiram əlaməti olaraq, sosial şəbəkədə deyil, ortaq təşkil edəcəyiniz masada müzkirə edərək, doğru nəticə əldə etməyiniz daha məntiqli və hörmətli olmazmı? Bu və ya digər məsələlərin müzakirəsində

həlledici deyil, qızışdırıcı mövqe tutan yurddaşlarımızdan isə xahişim budur ki, ya irəli durub daha yaxşı bir iş görün, ya da geri çəkilin, imkan verin yaradıcı insanlar işləsin.

Azərnəşr Ardnş: Salam Nazir Ehmedli. Ne vaxtdır izleyirem oxuyuram amma dayanırdım.Yazmırdım.Menim anladığım tariximizi saxtalaşdırmısınız.Çünki menim de xeyli yaşım var babamın danışdığını eşitmişdim. Ve bizler o zaman ancaq Aşıq Elesgeri oxuyurduq.Bu tarixi bu qeder de saxtalaşdırmağınız ve bunun evezinden de hele bir Göyçelilerden teşekkür istemeniz çox ayıb oldu. Biz doğrudan da temiz Azerbaycan coğrafiyasındakı türklerikse ve tarixi saxtalaşdırırıqsa onda burada tamamile başqa bir fikir ve qurumlar var ki sizleri mecbur edibler buna.Ya da ki sizin tam milliyetiniz Azerbaycanlı deyil.İncimeyin men Azerbaycanlıyam ve Göyçeliyem. Heç birinizin de dartışmasına qarışmadım indiyene qeder.Amma sizin bu yorumunuz Göyçelilere ve Aşıq Elesger tarixine bir hörmetsizlikdir. İnsanın yanlışı ola biler.Amma tekidnen milletin üstüne gelib özünüze beraet qazandırıb bir teşekkür istemeniz menimde vicdanımı ağrıtdı. ***Ne olar siz Göyçeli deyilsiniz yanlış şeyleri neden ve kimin sifarişiyle yazdığınızı hamı bilir.*** Lakin bele etmeniz milleti üstünüze qaldırmağınız aranı qatmanız demekdir. Biz aciz deyilik ki, bir size yanlış yazdığınız tarix üçün üzürde isteyek.Aşıq Elesgerin tarixini bizler bilirik ve o kitabda kiminse gözünde tarixi kitabdırsa milletin gözünde heç nedir. Ele kitabıardan günde yüzü yazılır.Tarix pozulmur bilginiz olsun.Tarix yaşayır.Ve tarixi oradan gelenler yaxşı bilir.Menimse ilk ve son yorumumdu. milliyetinizden asili olmayaraq gelin önce vicdanimizin sesini dinleyek.

İslam Ələsgərin qız nəvəsi Sima xanım milli mənsubiyyətimi şübhə altına alan yuxarıdakı yorumun sahibinə təşəkkür edir və adının Sona olduğunu öyrənirik:

Qurbetde Parlayan Qigilcim: Ehsen size, eziz Sona xanım!!! Allah sizi var elesin!

Asif Israfilov: Azərnəşr ARDNŞ, əlində sənədi olanı yalançı çıxartmaq üçün sənəd göstərmək lazımdı.Sizlərdən isə bunu edən birini görmədim.Nazir bəy mənim heç nəyim deyil.Amma,ən azından sizi tərpətdiyi üçün təşəkkürə layiqdi.

P.S.Əsas fikrimi axırda şərh olaraq yazacam.

Asime Eleskerova: Var olun

Qurbetde Parlayan Qigilcim: N. Ehmedliye destek olanlar göresen öz ata-babalarını erm. milli arx. esasında tanıyıblar? Amma bizim buna eytiyacımız olmayıb... Çünki görünen dağa beledçi lazım olmur.

Asime Eleskerova:

Ocagin nuruna toz atan bir kes..

Ocagin oduna cox yanacaqdir.

Amir Gumbatov: Bu adamin yeri dostu Serkisyanin yanidir.Tarixi saxtalasdirmagda ikiside beraber mövgededirler.

Allah rehmet elesin Heyder Aliyeve, sag olsaydi derini bogazindan cixarardi.Bilirsen niye? Ona göre ki Asig Elesgerin 150 illiyinde rehmetlik ne geder eziyyet cekmisdi hem Basarkecerde Agkilse kendinde hemde Bakida bütün ziyalilarimiz istirak etdiler.

Azərnəşr Ardnş: Baxın düzmü yazmışdım ki tarixin sahibi ve sahibleri var.İki esirlik tarixi saxtalaşdırmaq olmaz...Sağolun Amir Gumbatov.Bu xemir hele çox su aparacaq.

"Keşiş Qapon" ləqəbi verdiyim Məhərrəm Hüseynli adlı əslən Tovuz rayonundan olan bir "aşıq, şair, folklorşünas" sonradan sildiyi bir yorumda müxtəlif məsələlərdən bəhs etmişdi. Verdiyim cavabdan onun nə yazdıqları da oxucuya məlum olur.

Nazir Ahmedli: Məhərrəm Hüseynli, əvvəla, dövlətin adı Azərbaycan dilində Rossiya deyil, Rusiya Federasiyasıdır, ikincisi, verdiyiniz məlumat həqiqətə uyğun deyil. Bu cür məlumatlarda mütləq qaynaq göstərməyə ehtiyac var. Arxivi yandırmazlar, yandırsalar belə, onun yerinə ayrı şey qoyulsa.

saxtalığı o dəqiqə üzə çıxar. Amma başqa bir məlumatınız məndə maraq doğurmuşdu, Növrəs İmanın 1976-cı ildə İranda vəfat etməsi ilə bağlı idi. İndi mənə hücum edənlərdən bir oğul istəyirəm. İrana gedib bu məsələni araşdırsın. Əgər bu məlumat doğru olsa, nə qədər gözəl bir iş olar, onun oradakı ailəsini, uşaqlarını da tanıyarıq, doğru olmasa da bilərik ki, doğru deyilmiş. Burada fb-də xeyli "qəhrəmanlar" var, qoy bu məlumatın izinə düşsünlər.

P.S.: Yeri gəlmişkən, deyəsən Növrəs İmanı xatırlatmağım ürəyinizdən olmadı. Həmin statusunuza yazdığınız yorumda demişdiniz ki, Növrəs İmanı cavan ölmüş qardaşı Qurbanın arvadını almağa məcbur ediblər, ona görə baş götürüb Ağkilsədən qaçıb. Həm də yazmışdınız ki, Növrəs İmanın həmin arvaddan bir oğlu da qalıb. Həmin sözlərinizin üstündə dursunuzmu?

Murvet Yusifov: Sizə dəstək olan qurumlarla əlaqə yaradın, maliyyə məsələsini həll etsinlər, əliboş qayıtmayacağıma əminəm.

Asif Israfilov: Status və burda olan reaksiya.... Nəsə ikili standart var ortada.(((

Asif Israfilov: Yayda Çıldır-Ağbaba Şörəyel aşıq məktəbi ilə maraqlanarkən Nazir bəylə tanış olub məlum kitabı götürmüşəm. Sizin qədrini bilmədiyiniz bu insan ailə büdcəsindən kəsib min bir əziyyətlə ələ gətirdiyi sənədlərin internetdə olduğunu biləndə şaşırdı. Amma bizləri Allah qarşılaşdırmîşdı. Qədirbilməzlərə qarşı Allah Nazir bəyi tək qoymaq istəməmişdi. Onun sənədlərinin doğruluğuna əminliyim olduğundan vətən, xalq, qeyrəti çəkib də bu yolda ailəsinin boğazından kəsib vəsait xərcləyən bir adamı tək qoymaq mənim üçün əclaflığa bərabər olardı. Bunu Fəqan Əmi də, Nazir bəy də təsdiq edə bilər.Bundan başqa cüzi araşdıfmalarîm Ələsgər irsinə hansı xəyanətlərin olduğunu da mənə göstərdi. Əlavə olaraq bəzi hörmətli folklorşunaslarîmızdan tələbəlik vaxtî bir çox göyçəlidən eşitdiyim talan və oğurluqların da təsdiqini eşitdim. Sizlər bəyəm bunları bilmirsiniz? Gözəl bilirsiniz. Hətta Nazir bəyin qəhrəmancasına bunları faş etməsinə bircə nəfər də etiraz

edəninizi görmədim. Hamınız yapışmısınız kameral təsvirin sadəcə tərcümə edib çatdırılmasına görə Nazir bəyi topa tutmağa. Niyə? Bəyəm XIX əsrdə Nazir bəy Şopenin yanında yavər işləyirdi? Sadəcə saxtalaşdırmaların faş olmasına cavab verəmməyib başlamısınız yalandan niyə erməni arxivindən istifadə etməyə. O da belə puç olur. Ortada onu təsdiq edən çar arxivi var.

Murvet Yusifov: Bir daha təkrar edirəm ki, boşuna müdafiə edirsiniz! Hansı səbəbdən etdiyiniz başqa məsələdi! Çar arxivi dediyiniz isə başqa cürdü! Əsl Çar Arxivi Haqq Divanında ortaya qoyulacaq! Sizin məsələni belə uzatmağınız isə yalnız və yalnız Nazir Əhmədlinin ziyanına ola bilər!

Asif Israfilov: Nazir Əhmədliyə qol zoruyla və ya hansısa bir vasitə ilə zərbə vurmanız mümkündür.Amma yazdığının qabağına çıxmaqsa mumkunsuzdu.Yalandan hay-həşirdən o yanası yoxdu.

Murvet Yusifov: Sizin söhbətiniz uşaq cığallığına bənzəyir. Bu da müzakirəni uduzmağınızdan xəbər verir...

Asif Israfilov: Lap qoltuğunda papqasından başqa heç nəyi olmayan Azərbaycanın bəzi partiyalarînın liderlərinin bəyanatına oxşadı "qələbə elanı"nız.Aranızda bir nəfər tarixçi tapsan soruş,gör tarix sənədə inanır ya nənə söhbətlərinə?((((

Murvet Yusifov: Asif İsrafilov, sərhəddi keçməyin!!!

Asif Israfilov: Mən haqqın midafiəsindəyəm.Nədə yersiz söz işlətdim?

Murvet Yusifov: Siz nəyi müdafiə etdiyinizi bilmirsiniz! Haqq nədi?1831-ci ildə Göyçə mahalında 1500 dığanın olması?1831-ci ildə Göyçə mahalında erməni yer yurd adlarının olması?Dədə Ələsgərin öz dilindən deyilmiş ifadələrin yalana çıxarılması? Siyahı uzundu. Ona görə yazdım ki, işinizlə məşğul olun!

Asif Israfilov: Dığanın hardan nə vaxt gəlməsi açıq göstərilib. Bunu o yazmasa da bilirdik. Dədə Ələsgərin öz dilindən deyilənləri də o üzə çıxardıb. Aşîğın nisyəsiylə kürdün ilqarının olmamasını qeyd edən Dədə Ələsgərə xəyanət edən

Nazir bəy yox, sizlərsiniz.Yaz siyahını. Nazir bəy sözünü kolluqda deməyib, kitabda yazîlı verib və yarım addîm da dala atmayıb.

Murvet Yusifov: Sən özün də nə danışdığının fərqində deyilsən. Sadəcə əsəbləri qıcıqlandırmaqla məşğulsan. Bu isə müdafiəsində durduğun adama zərərdi!!!!

Nazir Ahmedli: Mənə heç bir maliyyə qurumu dəstək olmayıb, nə etmişəmsə, ailə büdcəmdən kəsib eləmişəm. Sizə maliyyə dəstəyinə gəlincə. N.Göyçəlinin o cür keyfiyyətsiz. lazımsız ("kitab" deməyə dilim də gəlmir) çap məhsuluna gen-bol dəstək verənlər irəli dursalar yaxşı olardı, əməli bir işə dəstək olub savab qazanardılar. Mənə qarşı mübarizənizə davam etməyinizə də heç bir sözüm yoxdur. Ancaq hədəfinizi elan etsəydiniz yaxşı olardı: söhbət mənə pislik etməkdən gedir, yoxsa irəli sürdüyüm yenilikləri yeni sənədlərlə təkzib etməkdən?

Amir Gumbatov: Nazir müellim size müellim demeye adamin dili gelmir.Incime sizi tehgir etmek fikrinde deyilem.Nece nesil müellimler sifahi xalg edebiyyatindan ders deyibler, nece kitablar yazilib. ***Siz yazdiginiz bu kitabla bunlarin hamisinin üstünden gara cekirsiniz***.Size bir sualim var? Neye göre yazmiziz, kime göre yazmisiz maraglandirmir meni. Zehmet olmasa deyin vicdaniniz garsisinda özünüz özünüzü bagislaya bilirsinizmi bu yazdiginiz kitaba göre?

Murvet Yusifov: Əvvəldən bəyan etmişəm ki, Azərbaycanın ağır günündə əhəmiyyətli fəaliyyət göstərmiş mətbu orqanın-"Millət" qəzetinin redaktoru olmuş adamın belə mövqeyi məndə təəssüf hissi yaradır. Eyni zamanda özəl səhifənizdə yazdım, təklif etdim ki, milli maraqlarımızla daban-dabana ziddiyyət təşkil edən bu yazılardan imtina et..., amma sən adətin üzrə bu fikrimi də təhrif edib mətbuatda yayımladın...Bir daha bəyan edirəm ki, sizə heç bir şəxsi qərəzim yoxdu!Sizin düşmən dəyirmanına işləyən fikirlərinizə qarşıyam!

Nazir Əhmədli: Aşıq Ələsgərin və başqalarının hansı ildə doğulmasının düşmənə hansı xeyri və ya ziyanı ola bilər, şəxsən mənə aydın deyil. ***Xətai Ələsgərli belə bir gülməli "tezis" irəli***

sürmüşdü ki, Ələsgərin doğum tarixi dəyişəndə guya Göyçənin tarixi kiçilir. Bəyəm Göyçənin tarixi Ələsgərin doğum günü ilə başlayır ki, o sonrakı tarixə çəkiləndə Göyçənin də tarixi azalsın? Bu gülməli arqumenti kim onun beyninə salmışdı? Yoxsa siz də onunla həmfikirsiniz? Güman edirəm ki, yox. Düşməni maraqlandıran şey işğal etdiyi torpaqlarda möhkəmlənmək, yeni-yeni torpaqlar işğal etməkdir. Aşıq Ələsgərin doğum tarixinin, neçə il yaşamasının isə bu məsələlərə heç bir aidiyyatı yoxdur. Fikirlərimə qarşı olmağınıza da heç bir sözüm yoxdur, amma onları ancaq və ancaq yeni faktlarla təkzib edə bilərsiniz, dava-dalaşla yox.

Murvet Yusifov: Dədə Ələsgərin yaş məsələsi barədə bir neçə dəfə fikrimi bildirmişəm. Təkrar çox olanda söz dəyərini itirir. Eyni zamanda Göyçə mahalının tarixi haqqında da həmçinin. Düşmənin bir məqsədi də işğal etdiyi torpağın tarixini dəyişməkdi...Yeri gəlmişkən Göyçədə rus-erməni hərbi birləşmələrinə qarşı döyüşərək misilsiz şücaətlər göstərmiş ərənləri də o kameral siyahıda axtaraydın. Əgər milli təəssübkeşlik hissi keçirirdinsə.Aydın görünür ki, məqsəd ötürülmüş "sənəd"ə haqq donu geyindirmək olub....

Nazir Ahmedli: Mən həmin ərənlərin başında duran kişini-Nağı xanı sizlərə tanıtdım. O, Göyçə qarapaqlarından olan 1.000 nəfərlik süvari qoşunun komandanı olub, axıra qədər dövlətinə sadiq olub və İrəvan qalası alındıqdan sonra Sərdar Hüseynqulu xanla İrana gedib. Ruslar onun İrəvan şəhərindəki mülklərini, evini, bağını müsadirə edib. Hazırda çapa hazırladığım İrəvan şəhərinin kameral təsvirində onun evi 33 nömrəsi ilə qeyd edilib və İrana getdiyinə görə müsadirə edildiyi yazılıb. Hesab edirəm ki, bu şərəfli xanı Göyçəli həmyerlilərinə mən tanıdıram. Siz iddia edə bilərsinizmi ki, onu indiyə qədər tanıyırdınız? Amma onun oğlu Kazım ağa atasından fərqli olaraq ruslarla əməkdaşlıq edib, 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsində ruslar tərəfdən vuruşub və praporşik rütbəsi alıb. Mən "Göyçə mahalının kameral təsviri" kitabımda 1831-ci ildə Göyçədə yaşayan bəyləri, ağaları, Sultanları, mollaları, Göyçənin axundunu üzə çıxardıb sizlərə

tanıtmışam. bütün bunlar Göyçə və ümumən Qərbi Azərbaycan tarixinə xidmət deyilmi?? Sonrakı tədqiqatçılar bu kitabdan istifadə edib həmin şöhrətli və hörmətli adamların haqqında yeni-yeni əsərlər yazacaqlar, bu Göyçəyə xidmət deyilsə, bəs onu nə hesab edirsiniz??

Murvet Yusifov: Xətayi bəyin adı ilə təqdim etdiyiniz fikrin isə ilk müəllifi mənəm!

Nazir Ahmedli: Çox təəssüf edirəm ki, onun müəllifi sizsiniz!

M.Yusifov bəyan edir ki, Xətai Ələsgərlinin ortaya atdığı absurd - "N.Əhmədli Aşıq Ələsgərin yaşını kiçiltməklə Göyçənin tarixini kiçikdib" fikrinin müəllifi onun özü imiş. Buradakı dialoqumuzda bu fikri yenidən cidd-cəhdlə müdafiə etməsinə baxmayaraq, bu sözlərin məlum donosda yer almamasından belə qənaətə gələ bilərik ki, mənim yaydakı tənqidimdən sonra Mürvət, nəhayət ki, onun absurdluğunu başa düşüb və donosa saldırmayıb.

Murvet Yusifov: Dədə Ələsgər yaşadığı dövr üçün Göyçə mahalının pasportu olub. Tarixi şəxsiyyətin nəinki 31 ilini, hətta 5 ilini danmaq tarixə qəsddi!

Nazir Ahmedli: Beləliklə, dolayısı ilə deyirsiniz ki, Göyçə mahalının tarixi Ələsgərin doğum ili hesab etdiyiniz 1821-ci ildən başlanır! Doğum tarixini 31 il geriyə çəkəndə Göyçənin tarixi də 31 il qısalır!! Bu ki, N.Göyçəlinin məntiqinə oxşadı: deyirdilər ki, İ.Ələsgər elmlər doktoru olmayıb. deyirdi mən belə hesab edirəm, belə də yazıram, əcəb edirəm!!! Bu, elmi mövqe deyil.

Murvet Yusifov: Təhrifdən əl çəkin."Dədə Ələsgər yaşadığı dövr üçün Göyçənin pasportu olub" fikrimi başqa donda təqdim etməyin.Ümumiyyətlə tanıdığınız müddətdə mənim mövqe dəyişmədiyimi inkar edə bilməzsiniz.

Nazir Ahmedli: İnkar etmirəm və səhv olduğunu deməkdə də davam edirəm.

Murvet Yusifov: Onu deməsən özünün səhv olduğunu etiraf etmiş olursan. Məcburiyyətdən elə də deməlisən.

Nazir Ahmedli: Həmin məntiq sənə də aiddir

Murvet Yusifov: Əsla yox! Səhvimi etiraf edib, haqqına girmiş olduğum insanlardan üzr də istəyərdim.

Qurbetde Parlayan Qigilcim: Haqqı nahaqdan seçe bilmeyen, qelbi möhürlü, gözü bağlı bir insan eger Güneşin şefeqlerini görmekden mehrumdursa, ağı qara, Güneşi ise qayğanaq hesab edirse, ne demek olar, onsuz da dediyini deyecek.

"Qürbətdə Parlayan Qığılcım" təxəllüsü ilə yorumlar yazan bu xanımın əsil adı Sima xanımdır, özü də İslam Ələsgərovun nəvəsidir. Yazdıqları əsassız tənqidlər və təhqirlər olsa da, Günəşi qayğanağa oxşatması mənə maraqlı gəldi. Etiraf edim ki, bu cür bənzətməyə ilk dəfə rast gəlirdim.

Qurbetde Parlayan Qigilcim: Çox çalışdım rey yazmayım, amma haqsızlığa sessiz qalmaq menim üçün çox çetindi ve sual vermek menim bir "qığılcım"kimi borcumdu. O ocağın qığılcımı haqsızlığa göz yuma bilmez!Yazılan reyleri oxudum ve Nazir Ehmedliye suallarım yarandı. Deyesen bele getse, hamının tarixi saxtalaxdırılacaq, ona göre de susmaq lazım deyil. Dede Elesgerin tarixi saxtalaşdırıldı erm. milli arx. esasen , "sübuta yetirildi" ki biz öz ecdatlarımızı "tanımamışıq". Zehmet olmasa Nazir Ehmedli sualıma cavab versin, "Kameral tesvirde" hansı esasla rehmetlik İsmixan Diderginin soyadını Elesgerov kimi qeyq edib? İsmixan müellimin soyadı "Memmedov" olduğu halda neye göre Dede Elesgerin adı ile elaqelendirib?. Bu da Nazir Ehmedlinin Dede Elesgere olan "sonsuz sevgisinden" ireli gelib, yoxsa o ocağın bütün nümayendeleri soyadlarını deyişmelidiler?

Nazir Ahmedli: Mən sizlərdən fərqli olaraq, səhvlərimi etiraf etməyi bacarıram, rəhmətlik İsmixan Didərginin də soyadı Ələsgərov yox, Məmmədov olub. İndi suala cavab vermək növbəsi sizindir: rəhmətlik babanız İslam müəllim niyə İsmixan

Didərgini qısqanırdı? "Sazlı-sözlü Göyçə" almanaxına ən zəif, 5-ci, 6-cı dərəcəli adamları saldığı halda onu niyə salmayıb??

Murvet Yusifov: Rəhmətlik İsmixan müəllim ömrünün son günlərinədək çap olunmağına icazə verməyib. Ümumiyyətlə Dədə Ələsgər şəcərəsinin əksəriyyətində bu xarakter var. Onlar Dədə Ələsgərdən sonra özlərini ustad kimi təqdim etməkdən uzaqdılar.

Mürvət burada da aşkar yalan uydurur. 1994-cü ildə haqqın rəhmətinə qovuşan İsmixan Məmmədovun sağlığında nəinki şeirləri, hətta 1992-ci ildə "Ayırdılar qucağından Göyçənin" ("Yazıçı" nəşriyyatı) adlı kitabı nəşr olunub.

Nazir Ahmedli: Heç də elə deyil, Mürvət müəllim, mən İslam müəllimin İsmixan müəllimi sevmədiyini çox yaxşı bilirəm. Səbəi isə rəhmətlik İsmixanın çox istedadlı olması olub. İkincisi isə, səhv etmirəmsə, həmin almanax İsmixan müəllimin ölümündən sonra çıxıb və onun razılığına da ehtiyac yox idi.

İsmixan Didərgin 1994-də rəhmətə gedib, almanax isə 2002-də nəşr edilib.

Qurbetde Parlayan Qigilcim: Murvet Yusifov Beli, çox doğru vurğulamısız, bu bizde irsi kecmedi. Biz özümüzü öymürük, bize el qiymet verir. Nazir Ehmedlinin verdiyi sualı ise cavablandırmaq borcumdu.

Murvet Yusifov: İsmixan müəllim də, İslam müəllim də Dədə Ələsgərin yadigarlarıdı. Onlar qohumdular... Biz el məsələsi çözürük.

Nazir Ahmedli: Biz el məsələsi çözürük. Amma məni maraqlandıran çox ciddi bir sual da var: "Sazlı-sözlü Göyçə " (2002) kitabına Ələsgərin atası Alməmmədi şair edib salan İslam müəllim Göyçə aşıq məktəbinin yaradıcısı və qüdrətli nümayəndələrindən olan Ağ Aşıq Allahverdini niyə salmayıb?? Bu sualı kimə verim??

Deyirsiniz ki, bu nəslin nümayəndələri təvazökardır. Ələsgərdən sonra özlərini reklam etmək istəmirlər, əgər belədirsə, çox yaxşı. Bəs həmin kitaba qardaşı Haxverdi müəllim sağ ola-ola

salınmasına niyə etiraz etməyib? Halbuki Haxverdi müəllimi şair saymaq çox mübahisəli işdir. Bu sualın cavabı necə olacaq?

Murvet Yusifov: Elə ona görə də məsələni İslam müəllimin üstündə saxlamayaq. Dava ustadların həyatına və Göyçə mahalının tarixinə atılmış çamurla bağlıdı. Mövzudan yayınmayaq.

Nazir Ahmedli: Heç kim nə Göyçənin tarixinə, nə də Ustadlara çamur atmağa cürət edə bilməz. Mənim tədqiqatlarım da çamur atmaq deyil. Göyçənin tarixinə və Azərbaycan ədəbiyyatına xidmətdir.

Murvet Yusifov: Bəs onda bu qədər insan nəyin davasını edir???

Nazir Ahmedli: Sənin manipulyasiya etməyin sayəsində bəzi adamlar, xüsusən kitabı oxumayanlar səhv düşünürlər. Etiraf edirəm ki, bir qisim adama təsir göstərə bilib onların fikirlərini çaşdıra bilmisən. Amma tez-gec, hamı həqiqətin yanına qayıdacaq.

Murvet Yusifov: Əksinə, hələ çox insan ***mənim fəaliyyətimə arxayınlaşıb*** həqiqətin bərqərar olacağını gözləyir. Bu da aqressiyanı azaldır.

Qurbetde Parlayan Qigilcim: Verdiyiniz sual sizin ne qeder sağlam düşünceye sahib olduğunuzu gösterir. "Rehmetlik babanız İslam müellim niye İsmixan Didergini qısqanırdı?" Çox gülmeli sualdı... Nezerinize çatdırım ki rehmetlik İsmixan Didergin menim hem ata, hem ana terefden qohumumdu. Qaldı ki İsmixan Diderginin haqqında verdiyiniz suala, sizin sözlerinizi nezere alaraq cavablandırıram ki rehmetlik her zaman xalqın içinde olub, ***şeirleri diller ezberi olub, o kitabda adının yer almasına ehtiyac olmayıb***. İsmixan Diderginin "Ayırdılar qucağından Göyçenin" adlı 104 seh. kitabı 1992-ci ilde 8000 tirajla neşr olunub. "Öləsgər ocağı" (Yazıçı, Bakı 1991, İslam Elesger) kitabında 21 şeiri işıq üzü görüb. "Sazlı-sözlü Göyçe"de rehmetlik Aşıq Ağayar babanın da adı yoxdu. Sizce onudamı qısqanırdı? Yaxud, qızı anam Firuze xanımıdamı qısqanırdı? Onun da adı o kitabda yer almayıb.

İslam müəllimin nəvəsi Sima xanım da uydurmada Mürvətdən geri qalan deyilmiş. Sən demə, İsmixan Didərginin "Sazlı-sözlü Göyçə" almanaxına salınmaması onun şeirlərinin dillər əzbəri olması ilə bağlı imiş! Bu məntiqlə gərək Aşıq Ələsgərin və digər ustadların da şeirlərin bu cür almanaxlara salmasınlar ki, onların şeirləri onsuz da dillər əzbəridir!

Deyəsən biz absurd teatrındayıq!

Nazir Ahmedli: Məsələ burasındadır ki, hər kəsin öz həqiqəti var. Mənim həqiqət bildiyimi siz qəbul etmirsiniz, indiyə kimi həqiqət sayılanları isə sənədlər əsasında mən təkzib etdim. Əsil həqiqət, Mütləq Həqiqət Tanrıya, Haqqa, Xaliqə məlumdur, ondan doğur. Kitabımın da adını ona görə elə qoydum və o sözlər də Ustad Ələsgərin yaradıcılığından götürülüb:"Haqq-nahaqq seçilər Haqq divanında". Qoy elə də olsun. Mən Haqqın divanına rahat və təmiz vicdanla gedəcəm. Başqalarının bunu qəbul edib-etməməsindən asılı olmayaraq.

Murvet Yusifov: Dədə Ələsgərin bir sözü də var:

Haqq ilə nahaqqı axtaran hakim

Tapar qulaq ilə göz arasında!

***Qurbetde Parlayan Qigilcim*:** Murvet Yusifov meger siz görmürsünüzmü ki, bu insanın yazıları yalnız rehmetlik babama qarşı hazırlanmış sifarişli texribatdı? Bu işinde başında kimlerin durduğunu biz de bilirik, özü de. Eger ele deyilse, niye rehmetliyin sağlığında bu sualları işıqlandırmırdılar???

Nazir Ahmedli: Xanım, həmin məlumatları rəhmətlik İslam müəllimin sağlığında əldə etsəydim, mütləq yazardım. Baxmayaraq ki, sizin nəsillə, İsmixan müəllimlə, İslam müəllimlə, Haxverdi müəllimlə uzun illər dostluq edən rəhmətlik atam mütləq etiraz edəcəkdi ki, yazma. Mənim Ustad Ələsgərdən sonra ən itedadlı saydığım 2 adam var-biri Növrəs İmandır, o biri də İsmixan Didərgin. O biriləri Ələsgər ocağına mənsub olmaları ilə tanınıblar, amma adını çəkdiyim o 2 şəxs isə əsil istedad sahibləridir, heç kim onları şübhə altına ala bilməz.

Murvet Yusifov: Sima xanım, bu məsələnin ideoloqları düşünürdülər ki, göz şahidləri həyatda yoxdu. Bu qədər müqavimətlə rastlaşacaqlarını hesablamamışdılar.Amma vətənini, yurdunu sevənlərin çox olduğunun şahidi oldular. Haqqın qələbəsi mütləqdi!

Nazir Əhmədli, siz Növrəs İmanla İsmixan Didərginin davasını edirsiniz??Həmişəki kimi mətləbdən yayınma manevri edirsiniz?

Qurbetde Parlayan Qigilcim: Murvet Yusifov İnşallah, o gün çox yaxındadı, beli, Haqqın qelebesi!!!

Nazir Ahmedli: Davasını etmirəm, sadəcə göstərirəm ki, mən həmişə ədalətin, haqqın yanındayam. Ağa ağ, qaraya qara deməyi bacarıram. Bu yolda əzab-əziyyətə düçar olsam belə!

Murvet Yusifov: Canı yanan ya bir olar, ya iki)))Yaxşı məntiqiniz var...Növrəs İman da, İsmixan Didərgin də göyçəlilərin əzizlədiyi şəxsiyyətlərdi. Əgər siz özünüzü bu şəxslərin davasını edirmiş kimi göstərmək istəyirsinizsə onda o kitablarınızın səhv olduğunu özünüz elan edin.

Nazir Ahmedli: Mən onları səhv hesab etsəydim, dünyada heç bir qüvvə məni o kitabları yazmağa vadar edə bilməzdi. HEÇ BİR QÜVVƏ!!!

Qurbetde Parlayan Qigilcim: Men İslam müellimin nevesiyem**, İ**smixan müellimi bir müellim kimi, bir qohum kimi çox sevmişem, hemişe xatiresini eziz tutmuşam. Bütün meclislerimiz ata-baba ocağında onsuz keçmeyib.

Nazir Ahmedli: Allah bütün ölənlərə rəhmət eləsin! Çox təəssüf edirəm ki, onu canlı görə bilmədim. Atamın söhbətlərindən bilirəm ki, qeyri-adi dərəcədə istedadlı olub. Füzulinin "Leyli və Məcnun" poemasını əzbər bilirmiş. Bu haqda kitabımda da yazmışam.

Qurbetde Parlayan Qigilcim: Onda men dünyanın en xoşbext adamıyam ki, bir çox tanınmış istedadlı insanlarla ünsiyette olmuşam. Doğrudur, ali tehsil almaq mene nesib olmadı, amma Allah onun evezinde özünün layiq bildiyi derecede meni mükafatlandırdı. Bu gün heç de teessüflenmirem, çünki ali tehsil

almaq fitri istedada malik olmaq demek deyil! Şükürler olsun Uca Yaradana!

Nazir Ahmedli yaddan çıxarmaq lazım deyil ki, qeyri-adi derecede istedadlı olan insanların heyat ve yaradıcılığını işıqlandıran, Elesger ocağının yegane ziyalısı, eyni zamanda çox savadlı ve çox tevezökar alimi (kameral tesvirde sizin ön sözde yazdığınız sözlerden ferqli olaraq) İslam Elesger, o ocağın en istedadlı, en bacarıqlı nümayendesi idi...

Парвиз Юсифов: Son zamanlar Aşıq Ələsgər haqqında, onun doğum tarixi haqqında tez-tez müxtəlif fikirlər səslənir. Özüm Gəncədə anadan olsam da, atam,babam Göyçə mahalının Nərimanlı kəndindəndir. Rəhmətlik atam Suliddin müəllimi yəqin ki, Nərimanlilar tanıyarlar. Atamın anası isə Yusif və Qənbər müəllimin böyük bacısı Sənəmdir. Uşaqkən hər zaman onun Göyçə haqqında söhbətlərini maraqla dinləyirdim. Ələsgər haqqında rəhmətlik nənəmin dediyinə görə Aşıq Ələsgər onların evində olub. Bu təxminən 20-ci ilə təsadüf edir. Nənəm deyirdi ki, atam onu az qala kəndin ortasında qarşıladı. (Nənəmin atası rəhmətlik Əli Molla, mahalın sayılıb seçilən kişilərindən olub. Yusif və Qənbər Bayramovlarin atası) ***Aşıq Ələsgərin gəlişinin məqsədi isə oğlu Bəşirlə nənəmin əmisi Qurbanin arasında olan naraziliqin aradan qaldırmaq olub.*** Nənəm deyirdi ki, Aşıq Ələsgər uca boylu, yaşı yüzü haqlamiş xına saqqal, üzü nurlu kişiydi. Bu bir tarixdir. Mən o zaman Ələsgərin Azərbaycan ədəbiyyatında öz yeri olan xalq sənətkarı olduğunu, uşaq olsam da çox gözəl dərk edirdim. Buna görə də dəfələrlə nənəmdən həmin əhvalatı danişmaqi xahiş etmişdim. Hər dəfəsində yaşı yüzü haqlamiş sözünü eşitmişəm. Bunu mənə az qala 100 il qabaq Böyük Ustadı canlı görmüş rəhmətlik Sənəm nənəm söyləmişdi....

Asime Eleskerova: Tarixi saxtalashdirib..yeni tarix yazan kes bununla ne qazanacaqsan??

Asif Israfilov: Nazir bəyi qınayanlara.

SIZ ONA BORCLUSUNUZ!

Səbəblər.

1)Göyçəli olmasa belə, onun tarixini sənədlərlə ortaya çıxartdığına görə.Əlinizdə "erməni arxivi" faktını bayraq edib yalandan hay-küy qaldırdığınıza niyə gedib araşdırmırsınız? SƏBƏB SADƏDIR! Çarın Petroqradda (indi Sank Peterburq) olan arxivləri ilə tam uyğun gəlməsidir. Zəhmət çəkin araşdırın. Sizə bəhanə yeri qoymur. Illərlə sırınan yalanlar faş olur.Yəqin bilirəm ki, dəstəylə mənə qarşı olsanız da içinizdən bir nəfər də cürət edib bu işin araşdırılmasına girişməyəcək.

2)Sizlərərə görə zəhmət çəkib tarixinizi ortaya qoyduğu halda təşəkkür əvəzinə təhqir, söyüş, kin və aşağîlamalar edib yalançılıqda suçlamısınız. Hanı sizin dəliliniz?

Azərbaucanda hakimiyyətə yaxın region olaraq niyə özünüz araşdımadığınız bir şeyə görə kimusə qınayırsınız? Nə pislik edib? Hanı sizin tarixçiləriniz? Vətəni düşmən rapdağında olan göyçəlilərin rəhmətlik Ziyafət müəllimdən başqa niyə tarixçisi yoxdu? Onun da Göyçə barədə sanballı da olmasa elə bir araşdırması da oxucu kutləsinə məlum deyil. Ən azından 2000-ci ilə qədər olmayıb. Indi nə haqla belə edursiniz? Bəs deyilmi? Budurmu “çox sağ ol” unuz?

Saxtakara saxtakarlıq faktla subut olunur. Qarma-kürməylə yox. Əks faktınızı qoyun ortaya.

Yusif Mirzeyev: Asif İsrafilov, meseleni qelizleşdirmeyin. İşinizle meşğul olun

Murvet Yusifov: Yusif, müdaxilə etməyin!

Asif Israfilov: Yusif Mirzeyev, mən həmişə diskussiya tərəfdarı olmuşam. Lap tutaq ki, Nazir bəy səhv edib.Niyə bir nəfər savadlı çıxıb dəlilləri sənədlərlə ortaya qoymur? Bəlkə vaxtı deyil? Bəlkə lazımsızdî? Bəlkələr çoxdan da çoxdu. Amma bunun əvəzində nə oldu? Küçə şöyüşündən, ağır təhqirdən tutmuş hədə-qorxu və aşağılamalrdan ibarət qara piar!((((Bəyəm bu yaraşır? Bundan əlavə, söhbəti təzələyib də nə gəldi yazılırsa Nazirin haqlı mudafiəsi də labuddur. Məsələni qəlizləşdirənlər sənədli subut tapmayıb söhbəti təzələyənlərdi

Murvet Yusifov: Asif bəy, erməni redaktəsi sənəd deyil!! Sözlərinizin təhqir çəkili olduğunun fərqində olun!

Asif bəyin dəmir məntiqinin qarşısında söz tapmayan M.Yusifov son vasitə olaraq sevimli peşəsinə-şantaja keçir: "Sözlərinizin təhqir çəkili olduğunun fərqində olun!" Və Azərbaycan dilinə "təzə ifadə" gətirir: "təhqir çəkili". Amma həmin "təhqir çəkili" sözlərin nədən ibarət olduğunu demir.

Fəqan Əmi: Asif baş qoşma bunlara.

Murvet Yusifov: Əslində sizə baş qoşulmamalıdı və baş qoşmuram da Fəqan bəy! İlk gündən yorumlarda nə demək istədiyinizi özünüzdən başqa heç kəs, mən deyərdim ki, Nazir Əhmədli də başa düşmür...

Asif Israfilov: Yazın Murvet bəy, yazın. Amma sizi and verirəm Göyçənin suyuna, havasına və torpağına, bu səviyyəylə erməni qabağına çıxıb tarix filan söhbətləri etməyin. Orda sənədə inanırlar. Layklara, ürək şəkli paylaşmağa,"bəh bəh"lərə yer yoxdu. Indi isə işinizlə məşğul olun. Heç olnasa iş görənlərin ayağından dartmayın.

Murvet Yusifov: Yaxşı olar ki, o əriştəni özün üçün kəsəsən. Göyçə mahalı üçün tarix yazan oğlan öz kəndi üçün yazdığı tarixdə daş-qalaq olunmamalı idi! Məni məcbur etməyin bəzi məsələlri də açıqlayım. Onda Nazir Əhmədli üçün daha biabırçılıq olar.Göyçə mahalının tarixi sizi narahat etməsin. Bu tarix yazılıb, yazılır və yazılacaqdı.Nazir Əhmədlinin yazdığı isə erməni redaktəsindən ibarətdi!

Asif Israfilov: Lap Firdovsinin "Şahnamə"sini Mahmud Kaşğarinin "Divani Luğəti it Türk" sələnaməsindən üstün tutan və özlərini ari sayanların hərəkətinə oxşadı şərhiniz.

Murvet Yusifov: Bənzətmələriniz də tamamilə yersizdi!

Asif Israfilov: Yersizdirsə, sənədlə, dəlillə yazdığınız o tarixi göstərin. Əks halda hər şey yerindədi.

Murvet Yusifov: Asif sən getdin!!!!!

Murvet Yusifov: Yorumlarda iştirak edənlər yəqin ki, məni anlayarlar. Dünəndən bunun nazı ilə oynayıram.

Murvet Yusifov: Eyni halı Nazir Əhmədlini müdafiə adı altında cəfəng fikirlər səsləndirəcək digərinə də tətbiq edəcəyəm.

Fəqan Əmi: Rəyi niyə sildiniz. Bu qədər aciz qaldınız cavab qarşısında?

Murvet Yusifov: Fəqan bəy, sən aylardı cəfəngiyyatla məşğulsan. Müdafiə ilə yox!

Fəqan Əmi: Qərbi Azərbaycan deyəndə Göyçə varsa, digər mahallar da var. Qərbi Azərbaycanı bir mahalla özəlləşdirmək hec kimin həddi deyil.

Fəqan Əmi: Saxta profillə ozünü şah göstərmək həddinə çatmaq mümkünsüzdür. Sanal aləmdə özünü gizlədənin həyatda mənliyi bəlli olmaz.

Murvet Yusifov: Fəqan bəy, rəyləriniz acı gülüş doğurur. Biz etdiyimiz tək Göyçə yox Qərbi Azərbaycan davasıdı!

Fəqan Əmi: Murvet müəllim cəfəngiyyat dediyiniz o dəlilləri sizə təqdim etsəm həqiqətlə barışarsınızmı?

Murvet Yusifov Sən də getdin

Murvet Yusifov: Mən haqqı müdafiə edənləri susmağa məcbur etdiyim halda bunlar ara qatmaqla məşğuldular. Yadınızdadısa Nazir Əhmədlini müdafiə edən başqa bir-iki profil də vardı. Sonra müəmmalı şəkildə yoxa çıxdılar. Sifarişlə gəldikləri üçün mövzunun mahiyyətinə varmır, sadəcə əsəbləri tərpətməklə məşğul olurlar.

Uzun aylardan bəri, nəhayət M.Yusifovun dilindən özü də bilmədən bir doğru söz çıxır: "Mən haqqı müdafiə edənləri susmağa məcbur etdiyim halda". Və dediyini də edir-haqqı müdafiə edən Asif İsrafilovu və Fəqan Əmini bloka salır ki, buraya yorum yaza bilməsinlər.

Niko Göyçəli: Dogum tarixi deyende Asiq Elesger oz şeirində deyir də yasini 80-ni 90-nı keçibdir yasim burda nə çətin məsələ var ki

Nazir Ahmedli: Mürvət Yusifov, ayıbdır, ağ yalanlarla az məşğul ol. Mənim kəndimiz haqqında yazdığım 600 səhifəlik

"Gabud və gabudlular" kitabım internetdə də var və hesab edirəm ki, öz kəndimə, ululariıma övlad xidmətimi layiqincə yerinə yetirmişəm. Həmin kitaba görə niyə daş-qalaq olunmalıydım? Dünəndən bəri dilinin altında gəzdirdiyin şey budursa, deyib rahatlandınmı? Asif İsrafilovla Fəqan Əmiyə gəlincə, işinə yaramayanları, uydurduğun yalanlara ləbbeyk deməyənləri saxta profil adlandırıb şantajla məşğul olma. Mən onlarla yayda tanış oldum, kitablarımı bağışladım, hər ikisi çox yüksək intellekt sahibidir. İndi Moskvada yaşayan Asif bəy əslən türk yurdu olan Tovuz rayonundandır, Fəqan Əmi isə Amasiya türküdür, professor Ramiz Əskərin bacısı oğludur. Deməli kim sənin yalanlarına uymursa, dediklərinə ləbbeyk demirsə, hamısı düşməndir, və s. Bu necə məntiqdir?

Göyçəyə etdiyim xidməti də dünən saydım. Mənim "Göyçə mahalının kameral təsviri" kitabımı görmüsənmi, varaqlamısanmı? Dedim axı, sizin xanınız Nağı xanı, bəylərinizi, ağalarınızi, sultanlarınızı, mollalarınızı, axundunuzu üzə çıxarıb sizə tanıtmışam. ***Onların hər birindən bir əsər yazmaq olar!*** Və hamısı Göyçənin tarixinə xidmət olar!! Bəlkə deyəsən ki, onları məndən qabaq bilirdiniz? ***Göyçədən 40 kitab yazmağı ilə öyünən (hərçənd hamısı bir-birindən məzmunsuz olmaqla, ondan-bundan pul qoparmaq üçün yazılıb) yazıçınız qoy gedib tarixi şəxsiyyət, namuslu, igid Nağı xandan bir roman yazsın. Yazmaz, çünki, əvvəla onu tanımır, ikincisi də onun pul verəcək qohumu yoxdur.*** Bütün bu çəkişmələr, ixtilaflar da həmin adamdan qaynaqlanır, hesab edir ki, mən onun bostanına girmişəm, daha heç kim ona pul verib cizmaqaralar yazdırmayacaq. Sizləri də əlində alət edib. Yaydakı disskussiyalar zamanı Göyçə haqqında ona adi bir sual verdim: əvvəllər "Göyçə dağı" (Kitabi-Dədə Qorqudda adı çəkilən dağ) sizin vaxtınızda hansı adla tanınıb? Nə qədər oyan-buyan eləsə də, cavab verə bilmədi və Göyçə haqqında hansı biliklərə sahib olduğu da üzə çıxdı. Bəs deyilmi bu qədər mənasiz intriqanlığın?? Yadında saxla, dava-dalaşla, böhtan və şantajla həqiqətin ağzına daş basa bilməyəcəksiniz! Yazdıqlarımı ancaq və ancaq, sənədlərlə, elmlə, arxivlə təkzib edə

bilərsiniz və onu da bacarmayacaqsınız! Çünki mövcud olan sənədlərin hamısı mənim dediklərimi isbat edir, sizin şər-şamatanızı yox!!

Murvet Yusifov: Nazir Əhmədli, həqiqətən bu cür rəylərinlə özünü biabır edirsən...Bilirsənmi niyə belə olur?-Çünki sən əlinə verilmiş "sənəd"ə don geyindirməyə çalışırsan. Göyçə mahalını tanımadığın, bilmədiyin, Göyçə coğrafiyasına nabələd olduğun üçün...Müdafiəçilərinin haradan olduğu, kimin qardaşı olduğu məni maraqlandırmayıb. Müzakirə qabiliyyətləri olmadığı üçün blok etmişəm.

Nazir Ahmedli: özünü biabır eliyən sənsən ki, polemika aparmaqda, arqument tapmaqda aciz qalıb opponentlərini blok edirsən. Kim sənə ləbbeyk demirsə, onu düşmən çıxarırsan. Bu həm bizbırçılıqdır, həm də acizlik!

"Aşıq Ələsgər" (H.İsmayılov, Bakı, 2017) kitabı haqqında düşüncələr.. Və ya Aşıq Ələsgərə layiq olmayan "Aşıq Ələsgər" kitabı

Mürvət Yusifov Folklor İnstitunun direktoru akademik Muxtar İmanovun professor H.İsmayılovun "Aşıq Ələsgər" kitabının təqdimat mərasimində iştirak etməsini mənə "tərs şillə" kimi qiymətləndirmişdi. Kitabı gözdən keçirmək fikrinə düşdüm və açığı, kitab məndə dərin məyusluq yaratdı.

Kitabın redaktoru professor Sayalı Sadıqova "Ön sözdə" yazır: "Haqq aşiqi "məhəbbətini öz varlığından" yüksək tutur, onun naminə özünün bütün başqa istəklərini, ***namərdliklə*** unuda bilir" (səh.6). H.İsmayılovun fikirlərindən istifadə olunan bu cümlədə aydındır ki, "namərdliklə" deyil, "mərdliklə" olmadı idi.

Müəllifin başqa bir fikrindən istifadə edən Sayalı xanım bu dəfə onun özünün də səhv formulunu öz adından irəli sürür: "Ələsgər Allaha da şeytandan qorunmaq üçün alqış etmişdir, yəni

şeirin çoxqatlı işarələrindən biri də budur" (səh.7). Allahın şeytandan qorunması üçün alqış etmək? Bu qədər absurd bir fikrin iki professorun ağlına gəlməsinə ancaq təəssüf edirəm! Əvvəla, Kainatı və o cümlədən Şeytanı da yaradan Allah Mütlət İradədir, Onun qüdrətinin qarşısına çıxa biləcək güc yoxdur və Adəmlə Həvvanı aldadıb behiştdən qovulmalarına səbəb olduğuna görə Allah Şeytanı cəzalandırmış, Öz dərgahından qovmuşdur! Şeytan ancaq Adəm övladlarına pislik etməyə qadirdir və onları Şeytandan qorumağa ehtiyac var, İkincisi isə, baxaq görək, Ələsgər Allahı şeytandan "qorumaq" üçün necə "alqış" edib? Professorlar bu "alqış"ı aşağıdakı misralarda görürlər:

Xudam, mərdin işin salma müşgülə,
Əhli dili yetir sən əhli dilə!
Bülbülü gülə yaz, gülü bülbülə!
Qönçənin üstündə xar oynamasın.

Bu misralarda Allahın Şeytandan qorunması üçün edilən "alqış" nədən ibarətdir? Şəxsən mən bunu görmürəm. Amma kitabın professor müəllifi və professor redaktoru onu "görürlər": "Qönçə butanın, buta məşuqun, məşuq tanrının işarəsidir. Əslində "qönçə-xar" qarşıdurmasında "Allah-şeytan" əks cütlüyü simvollaşdırılmışdır. Bu mənada Ələsgər Allaha da şeytandan qorunmaq üçün alqış etmişdir, yəni şeirin çoxqatlı işarələrindən biri də budur" (səh.7) Hesab edirəm ki, bundan daha absurd fikir düşünmək mümkün deyildi!

Kitaba iki nəfər başqa professor da ön söz yazıb, onlardan biri Göyçə mahalının Kəsəmən kəndində doğulan və hazırda Moskvada yaşayan texnika elmləri doktoru, professor Ələddin Allahverdiyev, ikincisi isə Ağ Aşıq Allahverdinin nəslindən olduğunu deyən, hazırda İstanbul Texniki Universitetinin professoru Elbrus Cəfərovdur.

Prof.Ə.Allahverdiyev "Aşıq Ələsgər fenomeninin açılışına, möcüzəli yaradıcılığının təhlilinə düzgün baxış" adlı yazısında deyir: "SÖZ-yalnız hərflərin əmələ gətirdiyi kəlmə kimi deyil, ilahi varlığın verdiyi vəhylərin sirli bir kəlamı, anlamı kimi insanları kamilliyə, müdrikliyə çağıran bir hikmətdir... SÖZ –

deyənin, oxuyanın və duyanın qəlbinin dərinliyinin ən həssas nahiyəsindən süzülür...” (səh.10).

Professor elə hesab edir ki, sözü hərflər əmələ gətirir. Professor bilmir ki, sözü hərflər deyil, səslər əmələ gətirir, hərflər isə səslərin qrafiki işarəsidir, ifadəsidir. Hərflərin bir neçə min illik tarixi, sözün isə yüz min ilərlə ölçülən tarixi var. Hərflər olmayan dövrdə də SÖZ vardı!

Professorun “qəlbin dərinliyinin ən həssas nahiyəsi”ndən bəhs etməsi də maraqlıdır. Etiraf edirəm ki, bu da “yenilikdir!”

“Aşıq Ələsgər” kitabı haqqında prof. Ə.Allahverdiyevin yazdığı uzun bir cümlədə də dolaşıqlıq və səhvlər var: ”Hüseyn İsmayılovun “Aşıq Ələsgər” monoqrafiyasının qiymətli cəhətlərindən biri də ***ondadır*** ki, o özündən qabaqkı və müasir ədəbiyyatşünasların Ələsgər yaradıcılığı ilə bağlı elmi məqalələrinin, kitablarının xülasəsini verir, yazılarını təhlil edir, onlara öz fikrini bildirir, mübahisəli məqamlardan çəkinmir, onlarda buraxılmış ayrı-ayrı qüsurlara ***göz yumur***, tənqid etməkdən vaz keçmir” (səh.16).

Yəqin ki, professor “qiymətli cəhətlərindən biri də ondadır ki”, deyəndə “biri də odur ki” demək istəyib, amma fikrini dolaşıq ifadə edib, amma kitab müəllifinin “ayrı-ayrı qüsurlara göz yummasını” kitabın məziyyəti kimi təqdim etməsi anlaşılmazdır. Halbuki burada da “göz yummur” demək daha məntiqli olardı.

Professor yazısını “...bu kitabın Dədə Ələsgər yaradıcılığını sevən, onu dərindən mənimsəmək istəyənlər üçün maraqlı olacağını düşünərək, onu hörmətli oxuculara oxumağı tövsiyə edərdim” (səh.17) bitirir. Buradan belə anlaşılır ki, oxucuları hansısa auditoriyaya toplayıb kitabı bir nəfərə qiraət etdirməyi tövsiyə edir. Əgər oxucunun özünə bu kitabı oxumağı tövsiyə edirsə, onda “onu hörmətli oxuculara oxumağı tövsiyə edərdim” əvəzinə, “hörmətli oxuculara onu oxumağı tövsiyə edərdim”, -deməli idi. Hesab edək ki, bu da Moskvada yaşaması səbəbindən professorun Azərbaycan dilini unutduğunun göstəricisidir. Amma Türkiyədəki professora baxanda Ə.Allahverdiyevə şükür!

İstanbul Texniki Universitetinin professoru, özünü Ağ Aşıq Allahvedinin nəticəsi adlandıran Elbrus Cəfərov (yazısına Elbrus Mahmudoğlu imzasını qoyub) "İlahi aşkın terennümü: Dede Elesger yolu" adlı yazısını Mirzə Cəlilin "Şeir bülbülləri" hekayəsinin ruhunda, qəliz Osmanlı türkcəsində yazıb və qəlizliyi səbəbindən oxucuların onsuz da heç nə anlamayacağını düşünərək Böyük Füzulini təhrif etməkdən belə çəkinməyib. Ondan verdiyi sitatda

Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,

Eşq afəti can almağı məşhuri-cahandır , -yazır (səh.26). Halbuki,

"Eşq afəti-can olduğu məşhuri-cahandır",-olmalı idi.

Professor E.Cəfərov başqa bir yerdə olduqca qüsurlu bir cümlə yazır: "Ərəb sufizmindən fərqli olaraq, türk sufizmində, konkret olaraq Ələsgər poeziyasından görünən onun təriqət mənsubiyyəti Tanrıya Məhəmməddən (s.) yox, Həzrət Əlidən (ə.) qovuşur. Ələsgər Həzrət Əli (ə.) missiyasının davamçısı, Əli əleyhisəlam ruhunun daşıyıcısıdır" (səh.21-22).

Aşıq Ələsgərin Əli əleyhisəlam ruhunun daşıyıcısı olması ilə razılaşa bilərik, amma onun "Həzrəti Əli (ə) missiyasının davamçısı" adlandırmaq fantaziyadan başqa bir şey deyil. Hansısa aşığı,-o hətta Aşıq ələsgər olsa belə,-İslamın ən böyük xəlifəsi sayılan Əlinin (ə) missiyasının davamçısı adlandırmaq günahdır, savadsızlıqdır!

Prof. E.Mahmudoğlu (Cəfərov) burada Aşıq Ələsgərə aşkar böhtan da atır, onu ələvi, az qala "əliallahı" təriqətinə mənsub elan edir. Halbuki, Aşıq Ələsgərin cəfəri təriqətinə mənsub şiə müsəlman olduğunu indiyə kimi hələ heç kim şübhə altına almamışdı, E.Cəfərov buna da cəsarət edir!

Professorun yazdığı bütün səfsəfələrə cavab vermək çox vaxt aparardı, amma onun "Türkler yurdu Azerbaycan tarihən Çökçə"den başlıyor" (səh.24) kimi aşkar şişirtməsini qeyd etmədən keçmək olmaz.

Zənnimcə, üç professorun yazdıqları haqqında bununla kifayətlənib, dördüncü professora, onun yazdığı "Aşıq Ələsgər" kitabına keçməyin vaxtıdır.

"... peyğəmbərlərin sonuncusu Məhəmməd peyğəmbər, Peyğəmbər aşıqların sonuncusu isə Aşıq Ələsgərdir" (səh.32). Bunu da kitabın müəllifi prof.H.İsmaılov yazır. Mərhum İ.Ələsgər Aşıq Ələsgəri peyğəmbər adlandırdığına görə, "Haqq-nahaqq seçilər Haqq divanında" kitabımda bu ifadəsini tənqid etmişdim, H.İsmayılova baxanda İ.Ələsgərə şükr etməliyik, çünki o artıq "peyğəmbər" Ələsgərdən deyil, "Peyğəmbər aşıqlar"dan danışır! Professor adlanan şəxs bu qədər qeyri-ciddi ola bilərmi, peyğəmbər adını bu qədər ucuzlaşdırmaq olarmı?

H.İsmayılov daha hansı aşıqları "peyğəmbər" saydığını isə yazmayıb.

Müəllif yazır: "Ələsgər şeirinin sufi simvolikasında və "gözəl"in tərənnümündə ciddi qanunauyğunluqlardan biri də budur ki, o gözəlin tərənnümünü real həyatdan başlayır və bir şeirin mətni çərçivəsində Tanrı səviyyəsinə yüksəldir:

Axşam-sabah, çeşmə, sənin başına,
Bilirsənmi necə canlar dolanır?
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır...

...Adım Ələsgərdi, Göyçə mahalım,
Dolanım başına, qadanı alım.
Hüsnün şöləsinə xəstə xəyalım,
Pərvanədi, şəmistanlar dolanır". (səh.45).

Açığı, bu iki bənd şeirin hansı sətrində, hansı sözündə Ələsgərin gözəli Tanrı səviyyəsinə yüksəltməsi şəxsən bu sətirlərin müəllifinə aydın deyil, hörmətli oxuculura aydın olub-olmadığını isə onların öz öhdəsinə buraxıram.

Aşıq Ələsgərin "İncimərəm" şeirini bütöv şəkildə sitat gətirən H.İsmayılov onu özünəməxsus şəkildə şərh edir, öz təbiri ilə desək, "simvollaşdırır":

“İstər dara çəkdir, istər qul eylə,
Qoymuşam əmrinə qol, incimərəm.
Həsrətindən Məcnun oldum səhrada,
Alırsan canımı al, incimərəm.

Həstətindən saralıban, solanam,
İzn versən, yar, başına dolanam.
Əlli yol çapılam, yüz yol talanam,
Bir şey deyil dövləət-mal, incimərəm.

Ələsgərəm, yandım eşq ataşında,
Gözüm qaldı kirpiyində, qaşında.
Qazdır məzarımı çeşmə başında,
Sal sinəm üstündən yol, incimərəm.

Burada realla abstraktın, subyektlə substansiyanın elə orqanik vəhdəti təqdim olunur ki, nəticə etibarilə yenə də Tanrı ilə qovuşma ideyası semantik strukturun əsasını təşkil etmək imkanını saxlayır. “Ölüm və həyat”, “çeşmə və can”, “məzar-çeşmə” elementlərində simvollaşıb; məzar-ölümün, çeşmə isə həyatın simvolu olaraq insiasiya (ölüb-dirilmə) hadisəsini işarələyib” (səh.53).

Müəllif şeirin açıq-aşkar görünən motivlərini müəmmalı şəkildə sirr pərdəsinə, reallıqdan uzaq təfsirlərə bürüməyə çalışsa da, söylədikləri Aşıq Ələsgərin fikirlərini ancaq təhrif etməkdən başqa bir şey deyil.

Qazdır məzarımı çeşmə başında,
Sal sinəm üstündən yol, incimərəm,-

misraları ilə Aşiq öz sevgilisinə sadə və anlaşılıqlı dildə tamam ayrı şeylər deyir, onun uğrunda hər cür əzab-əziyyətə dözəcəyini, bu əzabların onun üçün xoş olacağını bəyan edir, hətta məzarını insanların ən çox gəlib-getdiyi çeşmə başında qazdıraraq tapdaq altında qoymasından da inciməyəcəyini bildirir. H.İsmayılov isə Aşıq Ələsgərin son dərəcə aydın və səmimi

sözlərini mistikləşdirməklə, daşıdığı məzmundan məhrum etməyə cəhd edir.

Professor H.İsmayılov "Tanrı ilə qovuşma ideyası semantik strukturun əsasını təşkil etmək imkanını saxlayır" kimi qəliz və mənasız söz yığını ilə nə isə orijinal bir fikir söylədiyini düşünür.

"...konkret olaraq Ələsgər poeziyasından görünən onun təriqət mənsubiyyəti Tanrıya Məhəmməddən (s.) yox, Həzrət Əlidən (ə.) qovuşur. Ələsgər Həzrət Əli (ə.) missiyasının davamçısı, Əli əleyhisəlam ruhunun daşıyıcısıdır" (səh.56) cümlələrinə prof .E.Cəfərovun yazısında rast gəldikdə münasibət bildirmişdim. Bir daha təkrar etməliyəm ki, bu cür baxış Aşıq Ələsgəri əlavi təriqətçisi kimi qələmə verməkdir, əgər söhbət aşıq poeziyasında tez-tez İmam Əlinin haqqında işlənən "Şahi Mərdan", "Şahlar şahı", yaxud "Mərdlər şahı" ifadələrindən gedirsə, bu onun Xilaskar obrazından, Xeybər qalasının alınmasında göstərdiyi böyük şücaətindən sonra yaranmış hər şeyə qadir güclü qəhrəman sayıldığına işarədir. Ələsgərdən ən azı 200 il əvvəl yaşamış Aşıq Abbas Tufarqaanlı deyirdi:

Abbas, ağlayırdın yardan ötəri,
Dur şahi Mərdanın ayağından öp.

Aşıq sevgilisi Gülgəzə qovuşmaq üçün Şah Abbasın ona yaratdığı maneələri aşmasında Şahi-Mərdanın, yəni Xilaskar, Ədalət obrazı olan Əlinin obrazını görür və yarına qovuşmasının əvəzində təşəkkür ifadəsi olaraq onun ayağından öpməyi gərəkli sayır.

Klassik aşıqlarımızda hətta Aşıq Abbasdan əvvəl yaşamış Qurbanidə də həmin ifadəyə tez-tez rast gəlinir, məsələn:

Böyüklərdən əta, kiçikdən xəta,
Mərd igid odur ki. dediyin tuta.
Şahlar şahı mənə veribdi buta,
Mətləbimdi, Pəri üçün gəlmişəm.

(Qurbani.Əsərləri. (Tərtib edən, ön söz, qeyd və izahların müəllifi Q.Kazımov). Bakı,2006. səh.54).

Başina döndüyüm şahların şahı,

Səni gördü gözüm, çəkmərəm ahı.
Qurbani der: budu sözün kütahı,
Müxtəsəri, yar almağa gəlmişəm.
(səh.55).

Yeri gəlmişkən, "sözün kütahı" ifadəsini Aşıq Ələsgər də şeirlərində işlətmişdir.

Bismillah eylədim, girdim meydana,
Ümidim bağladım Şahi-Mərdana.
Məcnun kimi məni qoyma divana,
Aman Allah, imdad eylə bu işə!
(yenə orada, səh.91).
Şair idim, şairliyim bilmirdim,
Ağlayırdım, göz yaşımı silmirdim.
İndiyədək ustadımı bilmirdim,
İndi bildim, Şahi-Mərdan Əlidi.
(səh.94).

Klassik aşıq poeziyasının nəhəng simalarından, Aşıq Ələsgərdən 150 il əvvəl yaşamış Xəstə Qasımın yaradıcılığında İmam Əlinin obrazı mükəmməl səviyyədə təsvir edilmişdir:

Şahi Mərdan qəzəb üstdə gələndə,
Kafərə çalardı Seyfullahını.
Açmasaydı Cəbrayıl şahpərini,
Zülfüqar doğrardı qavi-mahını.
(Xəstə Qasım, Bakı, 2010, səh.53).
Ey Qasım, mürşid bil Şahi-Mərdanı,
Ağ ələm dibində haqqın mizanı.
Yediminci göydə böldü almanı,
Yer üzünə töhfə gətirən Əli (ə).
(səh.55).
Əzəl başdan külli aləm yarandı,
Səda gəldi bu cahana kölgəsiz.
Fəth etdi Xeybəri ol Şahi-Mərdan,
Əhsən gəldi o məkana kölgəsiz.
(səh.56).

Qeyd etmək lazımdır ki, Şahi-mərdan Əli obrazı Aşıq Ələsgərdən əvvəl də, ondan sonrakı aşıqların yaradıcılığında da dəfələrlə işlədilmişdir.

Kitab müəllifi Aşıq Ələsgəri səhvən oğuz türklərinə aid etsə də (səh.74), müəyyən etdiyimizə görə, o qarapapaqların borçalı (bosçalı) tayfasıa mənsubdur.

Müəllifin mübahisəli fikirlərindən biri də "Ələsgər poeziyasından aydın şəkildə müşahidə olunur ki, ***Göyçədə sufi təkkələri, ata-baba və dədə ocaqları XIX əsrdə də mövcud olmuş, dini-ruhani funksiyalarını qoruyub saxlamışdır.*** Bunu Ələsgər şeirlərində ürfan sahiblərinə-arif məclisinə müraciətlər də təsdiqləyir" (səh.81) fikridir. Aşıq Ələsgərin "Eşidin məclisdə arif olanlar" misrasından (və buna oxşar başqa ifadələrindən) bu cür nəticəyə gəlmək qətiyyən düzgün deyil. Göyçədə hansısa təkkənin, dədə ocağının olması sənədlərlə sübut edilməlidir, həmin təkkənin və ya ocağın mürşidi kim idi? Ümumiyyətlə, Göyçədə və bütün qarapapaqlarda din amili elə də güclü olmayıb. Ən azı ona görə ki, Göyçə kəndlərinin əksəriyyətində məscid belə yox idi. Ələsgərin dinə, ürfana marağı, bu barədəki fikirləri şübhəsiz ki, Aşıq Alıdan, ona isə mükəmməl dini təhsil görmüş Ağ Aşıq Allahverdidən keçmişdi. Bu biliklər həm də sözsüz ki, Qurbaninin, Abbas Tufarqanlının, Xəstə Qasımın yaratdıqları aşıq poeziyası ilə dərinləşmişdir. ***Göyçədə hansısa təkkənin mövcudluğunu iddia etmək gülüncdür.***

Müəllifin həqiqətdən uzaq başqa bir fikrinə də toxunmalıyıq: "Bu gün də Ələsgər şeirini saxtalaşdırmaq və ya onu primitiv "realist" şeir səviyyəsində təqdim etmək elə Ələsgərə "şərü-böhtan" deməyə bərabərdir.

Qeyd edim ki, bəzi tədqiqatçıların mətni primitiv şəkildə, profan səviyyədə izahı qüsurludur. Məsələn, Ələsgərdə Tanrı gözəlliyi daha çox insan və təbiət gözəlliyinə, Tanrı sevgisi (İlahi eşq) insan məhəbbətinə köçürülmüş şəkildə (sakral-profan-binar oppozisiyası) və bu gözəllik və sevgini şiddətləndirən elementlərin iştirakı ilə verilməsinin diletatant təhlilçidə "cinsi münasibətlər" kimi anlaşılması da tamamilə yanlışdır. Çünki

Ələsgər poeziyasında "şəhvət" yoxdur. Ələsgər hətta konkret "adları bəlli" qadınları öyəndə belə Tanrı sevgisindən, haqq kəlamından, sakral mahiyyətdən çıxış edir və və bu mahiyyət və enerjini ruhda və ruh vasitəsilə konkret (və ümumiyyətlə) insanla əlaqələndirir; onu qutsal enerji ilə təmin edir. Başqa sözlə, Tanrı işarəsi altında verilmiş haqq kəlamı ilə bir növ "xeyir-dua" vermiş olur. Ələsgər poeziyasında insan və təbiət gözəlliyini işarələyən simvolların altında böyük sirrlər dayanır:

Təqdiri-qüdrətin gözəl nizamı,
Mənə dərdi verib, yara dərmanı." (səh.82).

Müəllifin bu uzun və dolaşıq cümlələrindən, adını çəkməsə belə, Aşıq Ələsgəri hürufilik və panteizmə aid etməsi anlaşılır, "Ələsgər hətta konkret "adları bəlli" qadınları öyəndə belə Tanrı sevgisindən, haqq kəlamından, sakral mahiyyətdən çıxış edir və bu mahiyyət və enerjini ruhda və ruh vasitəsilə konkret (və ümumiyyətlə) insanla əlaqələndir" fikri isə tamamilə uydurma və cəfəngiyyatdan başqa bir şey deyil. Prof.H.İsmayılova görə, Aşığın nəinki Telliyə, Güləndama, Bəyistana, Güllüyə, Gülpəriyə, Xurşuda həsr etdiyi gözəlləmələr, hətta Müşkünaza dediyi ***"Corabları yaxşı bəzə, Müşkünaz"*** müraciəti də Ələsgərin Tanrıya olan sevgisidir, "haqq kəlamından, sakral mahiyyətdən çıxış etməsidir"!

Bu cür əsassız fikirlərə getdikcə daha çox aludə olan müəllif onları absurd səviyyəsinə qaldırmış olur. Hərçənd onun bu fikirlərində orijinallıq da yoxdur. Bir müddət bundan əvvəl, daha doğrusu, ötən əsrin 90-cı illərində Azərbaycan ədəbiyyatşünaslığında Füzuliyə bu cür şərhlər yazmaq dəb halını almışdı, iddia olunurdu ki, Füzulidə ümumiyyətlə qadın məhəbbəti yoxdur, yazdıqlarının hamısı Allaha olan eşq və Allahın tərənnümüdür! Professor H.İsmayılov da Azərbaycan ədəbiyyatşünaslığındakı həmin absurd mövqeyi sadəcə olaraq folklorşünaslığa gətirməyə cəhd edmiş və onu daha gülünc səviyyədə təqdim etmişdir.

Kitabın ciddi qüsurlarından biri də müəllifin Aşıq Ələsgərdən gətirdiyi sitatlarda xeyli yanlışlığa yol verməsidir, məsələn:

“Kəpəz, Murov, Qonur-gör neçə dağ var...
Üstünə nur yağsın, ay dəli Qoşqar!
Yayın ortasında yağdırırsan qar,
Səf çəkib üstündə sərdarın, dağlar! (səh.116).

Halbuki, dördüncü misrada “sərdarın” əvəzinə “salların” olmalıdır (Aşıq Ələsgər. Bakı, 1999, səh.60). Məna təhrifi bir yana, əvvəlki bəndlərdəki “halların”, “güllərin”, “malların”, “yolların”, “pulların” və s. də göstərir ki, həmin bənddə verilən “sərdarın” ifadəsi onlarla həmqafiyə deyil.

Müəyyən etdim ki, H.İsmayılovun monoqrafiya adı ilə təqdim edilən “Aşıq Ələsgər” (2017) kitabı “H.İsmayılov. Göyçə aşıqları və el şairləri. (II cild)”. (Bakı, 2009) kitabında Aşıq Ələsgər haqqında yazdığı giriş mətni imiş (s.3-102). Onu olduğu kimi, hətta səhvlərini belə düzəltmədən təzə adla çap ediblər, yeni kitab kimi təqdim etməklə oxucunu aldadıblar. Bütün bunlar öz yerində, əgər nöqtəsinə-vergülünə toxunmadan, səhvlərini düzəltmədən təkrar çap edəcəkdilərsə, “Aşıq Ələsgər” kitabının redaktoru prof.S.Sadıqovanın, “kitabı çapa hazırlayanlar” A.Məmmədli və Q.Zimistanoğlunun “işi” nədən ibarət olub?

Q.Zimistanoğlu Aşıq Ələsgərin əsərlərini “tərtib edərək” 2014-cü ildə nəşr etdirmişdir. Aşığın nəvəsi İ.Ələsgər onu məhkəməyə verdiyi “Q.Zimistaoğlu. Aşıq Ələsgərin bütün əsərləri. Bakı, 2014” kitabında da həmin söz ***“sərdarın”*** kimi getmişdir. Müəlliflikdən əlavə həm də özünü redaktor kimi təqdim edən Q.Zimistanoğlu qeyri-təvazökarlıq etməkdən başqa, başqa bir “novatorluğa” da imza atmışdır: “müəllif, tərtib edən və redaktor!” Bərəkallah! Dünya kitabçılıq tarixində yəqin ki, bunu “Q.Zimistanoğlunun kəşfi” kimi patentləşdirməlidirlər! Halbuki, rəhmətlik İ.Ələsgər tərtib etdiyi “Aşıq Ələsgər” kitablarının heç birində özünü müəllif və redaktor kimi deyil, “toplayanı və tərtib edəni İ.Ələsgər” kimi təqdim etmişdir. Bu azmış kimi, Q.Zimistanoğlu haqqında söhbət gedən kitabın üz qabığına Aşıq Ələsgərin deyil, Aşıq Alının rəssamlar tərəfindən çəkilmiş portretini qoymuşdur.”Müəllif-tərtibçi-redaktor” adi şeyi görmür ki, qafiyə bir yana, həmin bənddəki əvvəlki 3 misra ilə dördüncü

misranın heç bir məzmun yaxınlığı, əlaqəsi yoxdur, qar yağmış dağlarda Sərdarın səf çəkməsi kimi absurd bir fikir olmaz, Aşıq Ələsgər belə şey deməz.

Yenidən öz mövzumuza qayıdaq.

Hətta Aşığın nəvəsi İ.Ələsgərin də yuxarıda istinad verdiyim kitaba salmadığı, Aşıq Ələsgərin qardaşı Şair Məhəmmədə aid olan şeiri prof.H.İsmayılov Ələsgərə aid edərək onu "təhlil edir": "..aşığın "Bu dağlar mənim" qoşması sanki onun insanla dünyanın vəhdəti halında poetik yaşantılarının bədii təcəssüm modelidir:

Yayda yaylağımdı, qışda oylağım,
Yazda seyrangahım, bu dağlar mənim.
Köçürüb elləri payız ayları.
Gözüm görüb, könlüm bu dağlar mənim" (səh.117).

Prof.H.ismayılov üstəlik şeirin son misrasını təhrif etmişdir. Həmin misra belə olmalıdır:

Güzüm görüb, könlüm, budu, ağlar mənim.

Əks halda həm cinas yaranmır, həm də misra heç bir məna ifadə etmir.

Yeri gəlmişkən, İstanbul Texniki Universitetinin professoru E.Cəfərovu Füzulidən gətirdiyi təıhrif olunmuş sitata görə qınamışdıq. Məlum olur ki, E.Cəfərov həmin təhrf olunmuş sitatı H.İsmayılovdan götürüb. Professor H.İsmayılov yazır: "O (***Aşıq Ələsgər-N.Ə.***) "qəm xirqəsini" könüllü geyənlərdən idi. Çünki bilirdi ki, iki yol var: eşqin yolu, cismin yolu. Eşqin yolu ilə gedənlər "qəm xirqəsini" geyməli idilər. Bu yolun necə bir yol olduğunu Ələsgərin Füzuli babası artıq bəyan etmişdi:

Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can almağı məşhuri cahanadır" (səh.130).

Əslində isə sonuncu misra

Eşq afəti-can olduğu məşhuri-cahandır,-olmalıdır.

Böyük Füzuli deyir ki, ***"eşqə can vermə, çünki, eşq can yanğısıdır. Eşqin canı yandıran atəş olduğu isə bütün dünyada məşhurdur, bütün dünyaya məlumdur. Başqa sözlə, eşqə düşsən, canın yanacaq".*** H.İsmayılovun təhrifi nəticəsində Füzuli

demiş olur ki, ***"eşqin canı yandıran atəşi alması dünyada məşhurdur"***. Göründüyü kimi, filoloq-professor Füzulinin gözəl kəlamını eybəcər və anlamsız hala salmışdır.

Prof.H.İsmayılov maraqlı bir məsələyə də toxunub: "Ələsgərin bütün dünyagörüşü, onun elmdə çatdığı məqam (səviyyə), hər elmdən hali olması, demək olar ki, sənətkarın bütün şeirlərində özünü müəyyən bədii səviyyədə büruzə verir. Ancaq elə şeirləri vardır ki, Ələsgər orada bütün dini-irfani bilikləri ilə açıq-aydın görünür. Məsələn sənətkarın "İrəvanlı Mir Məcid ağa ilə deyişmə"sinə diqqət edək. Bu deyişmə tam bir elmi sorğu-sualdır. Ələsgərin bir arif kimi dünyagörüşü burada qatbaqat açılmışdır. Mir Məcid ağa ona din-irfan elminin çox dərin qatlarından sual vermiş, o da həm məzmun, həm də bədii forma cəhətdən sərrast cavablar vermişdir. Mir Məcid ağa:

Xilafət mülkünün, şahənşahının
Üç yüz altmış altı qulamı vardı.
On iki köşkdü, qırx səkkiz hücrə,
Üç əzim şəhrində nizamı vardı.

Bu, tamamən irfan elmi ilə bağlı sualdır. Bu elmi bilmədən, onun dərinliklərinə bələd olmadan həmin suala cavab vermək mümkün deyildir. Ələsgər həmin sualın cavabını çox asanlıqla verir:

Bişeyi-nöbubət, nəsli-əlaya
Əysik qulun ərzi-salamı vardır.
Üç yüz altmış altı gündü, qırx səkkiz həftə,
On iki ayın üç əziz bayramı vardı.

Sual varlıq aləminin məkan-zaman strukturu ilə bağlıdır. Ələsgər öncə "rişeyi-nöbubət", yəni nübuvvətin-peyğəmbərliyin köklərinə salam verərək onu uca nəsil adlandırır. Özünü bu yolun günahkar qulu hesab edir. Bundan sonra məlum olur ki, Mir Məcid ağanın sualında:

366 qulam-366 gün;
12 köşk-12 ay;
48 hücrə-48 həftə;
3 əzim şəhr-3 əziz bayramdır.

Beləliklə, dünyanın zaman strukturu məkan elementlərində-məkan və zamanın vəhdətində təcəssüm olunur. Mir Məci ağa ilin günlərini, aylarını, həftələrini və bayramlarını müxtəlif təsvir kodları ilə verir:

Gün-qulam(insan);

Ay-köşk;

Həftə-hücrə;

Bayram-şəhr.

Bu, simvolik işarələrdən ibarət semiotik dildir. Ələsgər bu dilə, rümuzat elminə bələd olmasa idi, onu açа bilməzdi" (səh.141-142).

Müəllifdən bu cür uzun sitat gətirməyimiz səbəbsiz deyil.

Sual-bağlamanı verənin Mir Məcid ağa olduğunu nəzərə alsaq, aydındır ki, burada söhbət hicri-qəməri, yəni Məkkə şəhərində və müsəlman ölkələrinin əksəriyyətində istifadə olunan təqvimdən gedir. Bağlamanı verən də, onu açan Aşıq Ələsgər də hicri-qəməri ilinin 48 həftə və 366 gündən ibarət olduğunu deyirlər. Əslində necədir? Hicri-qəməri ili ayların 6-ı 29, qalan 6-ı isə 30 gün olmaqla cəmi 354 gündür ki, bu da ***50 həftə və 4 gün*** edir. Bəs Mir Məcid ağa və Aşıq Ələsgər niyə ilin 48 həftədən ibarət olduğunu söyləyirlər? Bəyəm onlar 48 həftənin 336 gün etdiyini bilmirdilərmi? Belə çıxır ki, bilmirdilər!

Fərz edək ki, sual hicri-şəmsi ilinə aid olub. İranda tətbiq olunan hicri-şəmsi təqvimində miladi təqvimdə olduğu kimi il 3 dəfə 365 gündən, 4-cü dəfə isə 366 gündən ibarət olur ki, bu da 365,25 gün deməkdir. Tutaq ki, onlar ili 366 gün hesab ediblər. Axı onda da il 52 həftə və 2 gündən ibarət olur. Bəyəm onlar 366 günün 48 həftə deyil, 52 həftə olduğunu bilmirdilər? Belə çıxır ki, bilmirdilər!

Bəs kitabın müəllifi, filologiya elmləri doktoru, professor Hüseyn İsmayılov da bunu bilmirmiş? Belə çıxır ki, bilmirmiş!

Bəs kitabın redaktoru və "Ön söz"ün müəllifi, filologiya elmləri doktoru, professor Sayalı Sadıqova da bunu bilmirmiş? Belə çıxır ki, bilmirmiş!

Yaxşı, kitab müəllifinin və redaktorun filoiloq olduqlarını, 48-i 7-yə vurmaqda və 366-nı 7-yə bölməkdə çətinlik çəkəcəklərini nəzərə alıb çox da üstlərinə getməyək. Çox güman ki, yanlarında kalkulyator da olmayıb ki, hesablasınlar.

Bəs kitabın əlyazmasını oxuyaraq ona rəy yazan digər professorlar necə olsun? Moskvada yaşayan professor Ələddin Allahverdiyev və İstanbul Texniki Universitetinin professoru Elbrus Cəfərov. Onların hər ikisi texnika elmkləri doktorlarıdır! Lap tutaq ki, Ə.Allahverdiyevi "Söz" haqqındakı yanlış bilgisinə, Elbrus Cəfərovu da Füzulidən gətirdiyi təhrif edilmiş sitata görə bağışladıq. Onlar da 48-i 7-yə vura və 366-nı 7-yə bölə bilmirlər? Belə çıxır ki, bilmirlər! Heç olmasa, "Sədərək" və "Binə" bazarlarının çoxsaylı satıcıları kimi bunu kalkulyatorla da edə bilmirdilər? Yəqin ağıllarına gəlməyib!

Biri Rusiyanı, o biri də Türkiyəni texniki cəhətdən "göylərə qaldıran" bu iki professor deyə bilməz ki, bizim xəbərimiz olmayıb, axı kitaba rəy yazanda aydındır ki, onu oxuyublar və hər ikisi də öz yazılarında kitabdan sitatlar gətiriblər!

Kitab müəllifinin sitatın əvvəlində yazdığı "Ələsgərin bütün dünyagörüşü, onun elmdə çatdığı məqam (səviyyə), hər elmdən hali olması, demək olar ki, sənətkarın bütün şeirlərində özünü müəyyən bədii səviyyədə büruzə verir. Ancaq elə şeirləri vardır ki, Ələsgər orada bütün dini-irfani bilikləri ilə açıq-aydın görünür. Məsələn sənətkarın "İrəvanlı Mir Məcid ağa ilə deyişmə"sinə diqqət edək. Bu deyişmə tam bir elmi sorğu-sualdır" fikrinə Ələsgərdən gətirdiyi sübut budursa, Ələsgərə acımağımız lazım gəlir.

Prof. H.İsmayılovun Ələsgərin həmin sualın cavabını "çox asanlıqla verməsi" haqqında "şahidlik" etməsi də təbəssüm doğurur-bəyəm Ələsgər həmin cavabı verəndə yanında idiniz ki, onun çətinliklə deyil, asanlıqla cavab verdiyini iddia edirsiniz?

Əslində mənim şəxsi qənaətim budur ki, Mir Məcid ağanın adından təqdim edilən bağlamaya verilən cavabın müəllifi Aşıq

Ələsgər deyil, bunu uydurublar. Çünki Ələsgər o cür səhvlər etməzdi.

Moskvadakı professor Ə.Allahverdiyevin kitaba yazdığı rəydəki "Bu əsər, son vaxtlar Göyçə tarixini, onun təkrarolunmaz görkəmli aşıq məktəbini, bu məktəbin saysız-hesabsız korifey simalarının həyat və yaradıcılığını təhrif və təftiş etmək iddialarına, cəhdlərinə tutarlı cavablardan biri kimi olduqca aktualdır",- cümləsi acı təbəssüm doğurur. Əgər Moskvadakı professor H.İsmayılovun bu kitabını mənə cavab kimi nəzərdə tutursa, göründüyü kimi, məyus olmağa tamamilə haqqı var!

Bu kitabı "cavablardan biri" adlandırdığına görə, çox güman ki, N.Göyçəlinin bundan da bərbad "Göyçə Ustadları" kitabını da başqa bir "cavab" sayır!

Niftalı Göyçəlini başa düşmək olar, axı BDU-nu kitabxanaçılıq fakültəsini qiyabi yolla bitirib və ondan daha səviyyəli kitab gözləməyə haqqımız yoxdur, "Aşıq Ələsgər" kitabında olduğu kimi, Qabil Zimistanoğlu onun kitabını nəşrə hazırlayanların arasında da yoxdur! Bəs bu kitabı ortaya çıxaran 4 professora nə deyək? Heç nə! Sadəcə olaraq deyək **"Laissez-fair!" (Azərbaycanca "Lese fer!").**

Bilirsinizmi bu nədir? Bunu söyüş kimi başa düşəcəklərindən ehtiyat etdiyimə görə, izahat vermək məcburiyyətindəyəm.

İqtisadiyyatın bir elm sahəsi olması istiqamətində əhəmiyyətli addımlar atılmasını təmin edən merkantilizm, düşüncə sisteminə də yol açmışdır. Bu keçid dövrünün ən öndə gələn simaları Con Lokk, Nikola Burbon, Devid Yum və başqalarıdır.

Fransada tətbiq edilən merkantilist sistem əsasən sənaye istehsalına önəm verdiyinə görə kənd təsərrüfatı ilə məşğul olanların ciddi müqaviməti ilə qarşılaşmışdı. Uzun illərin gətirdiyi sıxıntıların nəticəsi olaraq, xalq mövcud quruluşu aradan qaldırmaq istəyirdi. Bunun nəticəsində, liberalizmə gedən yolda ən əhəmiyyətli addım atılmış və ***"fiziokratiya"*** adlandırılan iqtidsadi düşüncə cərəyanı meydana çıxmışdır. Fransada bu

cərəyanın başında Fransua Qesnay dururdu, onlar təbii düzəni və təbii qanunları ön plana çəkmişdilər, ***hadisələri öz axarına buraxdıqda, hər şeyin öz yerini alacağı düşüncəsində idilər.*** Bu düşüncə cərəyanının banisi kimi Con Lokk göstərilir. Bütün dünyada məşhur olan ***"mane olmayın etsinlər", "mane olmayın keçsinlər"*** sözlərinin (fransızca "laissez fair", "laissez passe") deyiminin müəllifi də fiziokratlardır.

Hələlik isə fiziokratları bir kənara qoyub H.İsmayılova və bizim professorlara qayıdaq: "Mir Məcid ağanın növbəti sualında fikir daha da mürəkkəbləşir:

"Bir gülşəndə görüdüm beş qönçə xəndan,
On iki dəstə gül, on dördü reyhan.
Bir çeşməsin gördüm, nuridi əlan,
Yüz iyirmi dörd min sücumı vardı.

Aşıq Ələsgər bu sualı da çox asanlıqla açır:

Beş-pənci-ali-əbadi-əzimi-əziz,
On iki imam çarda məhsim düzbədüz.
Yüz iyirmi dörd min peyğəmbərimiz,
Hər birinin ayrı məqamı vardı.

Sual-cavabdan məlum olur:

5 qönçə xəndan-beş kimsədən ibarət ali-əba;

12 dəstə gül-12 imam;

124.000 sücam-124.000 peyğəmbər;

5 qönçə xəndan-5 nəfərdən ibarət ali-əba Məhəmməd peyğəmbərin (s.) əhli-beytidir" (səh.142-143)

Professor nədənsə "on dörd reyhan"ın üzərindən sükutla keçir. Oxucu düşünə bilər ki. Ustad Ələsgər bu məsələni bilmədiyinə görə cavabsız qoyub, amma belə deyil, H.İsmayılov bunu bilmədiyinə görə üstündən keçir, çünki Ələsgərə aid etdiyi cavabı da təhrif edib, ikinci misrada ***"çarda məhsim"*** kimi yazdığı mənasız sözlərin yerinə ***"çahardəh məsum",*** yəni on dörd məsum olmalı idi. On dördü bildirən ***"çahardəh"*** fars dilində

olduğuna görə prof.H.İsmayılovun bunu başa düşmədiyi göz qabağındadır (halbuki bilməli idi, bu ki, vurma və bölmə əməliyyatları deyil!) bəs "məsum" və ya "məsumə" sözünü niyə eybəcərləşdirib "məhsim" edib?

Cavab aydındır: kitabın müəllifi filoloq-professor H.İmayılov və kitabın redaktoru, filoloq-professor Sayalı Sadıqova bunları bilmir.

"Kitabı çapa hazırlayanlar" Arif Məmmədli və Q.Zimistanoğlu da bunları bilmir, əgər bilsəydilər, düzəldərdilər!

Açığı, prof.H.İsmayılovun "Aşıq Ələsgər" kitabında (onu monoqrafiya adlandırmaq doğru deyil, çünki yuxarıda qeyd etdiyim kimi 2009-cü ildə nəşr etdirdiyi "Göyçə aşıqları" kitabında Aşıq Ələsgər haqqında yazdığı ön sözü sadəcə olaraq indi "monoqrafiya" adı ilə nəşr etdirmişdir) daha artıq səhvlər, təhriflər, qeyri-elmi fikirlər tapmaq mümkündür. Amma bu darıxdırıcı iş o qədər də ürəyimcə olmadığından, kitab haqqındakı düşüncələrimi burada bitirmək istəyirəm.

Bədxahlarıma isə demək istəyirəm ki, Avropanın hələ 200 il bundan əvvəl keçdiyi yolu, düşüncə tərzini başa düşün və iş görənin əl-ayağına dolaşmayın, iş görənlərə mane ilmayın! ***Laissez-fair!***

QARAGURUHUN "YENI SILAHI"

Ostap Bender-Sabutay Hacıyev

Hələ ötən ilin yayında Sabutay Hacıyev adında bir şarlatan qaraguruhçuların "bayraqdarı" olan Mürvət Yusifovun rəhbərliyi altında məni guya "təkzib etmək" üçün miskin bir şey uydurmuşdu:

Murvet Yusifovun statusu

25 iyun 2017

Əziz dostlar, dəyərli vətən övladları!
Təəssübkeş eloğlumuz Sabutay Hacıyevin bu informasiyasını oxumadan keçmiyin. İki aydı sosial şəbəkədə baş-beynimizi tökən, insanlar arasında narazılıq yaradan "Haqq nahaq seçilər haqq divanında" kitabının müəllifi və onun havadarları Rusiya Dövlət arxivinə istinad etdiklərini iddia edirdilər. Oxuyun görün ki, o da yalanmış!

Sabutay Haciyevin statusu
25 iyun 2017

İrəvan quberniyası Rusiya İmperatoru Birinci Nikolay Pavloviçin əmri ilə 1849-cu ildə yaradılıb. İrəvan Quberniyası 1917-ci ilədək mövcud olmuşdur. Qubernatorlar;
Nazarov İvan İvanoviç-(General mayor)-1849-1859
Astafyev Mixail İvanoviç-(General mayor)-1860-1866
Roslavlev Mixail İvanoviç-(General mayor)-1867-1880
Şalikov Mixail Yakovleviç-(General-leytenant)-1880-1890
Freze Aleksandr Aleksandroviç (General leytenant)-1891-1895
Tisenqauzen Vladimir Fyodoroviç (Qraf) 1896-1916
Strelbitski Arkadi Yevgenyeviç (Xalq müşaviri) 1916-1917.
Rusiya İmperiyasında əhalinin ilk siyahıya alınması 1879-cu ildə İmperator İkinci Aleksandr Nikolayeviçin göstərişinə əsasən həyata keçirilmişdir. İrəvan quberniyasının qubernatoru Roslavlev Mixail İvanoviç tərəfindən icraata götürülən sərəncam əsasında işçi heyət yaradılaraq uyezdlərə göndərilmişdir. Göyçə Novo Bəyazid uyezdinin tərkibində idi. Odur ki Rusiya İmperiyasının arxivində Göyçə əhalisinin ilk siyahısı Novo Bəyazid uyezdinin əhalisi olaraq qeyd edilmişdir. Həmin siyahılar hal hazırda Rusiya Federasiyasının Mərkəzi Dövlət Arxivində saxlanılır. Moskva Ş. Bolşaya Piroqovskaya küç. 17 ünvanında. Həmin arxivdən rəsmi arayış almaq yalnız dövlət səviyyəsində mümkündür. Qeyri rəsmi

məlumat isə tərəfimdən arxiv əməkdaşlarının köməyi ilə əldə olunub. Siyahıda Novo Bəyazid uyezdinə bağlı Agkilsə kəndində Ələsgər Almәmməd oğlu 58 yaş, həyat yoldaşı Anaxanım 50 yaşında göstərilmişdir. Nəzərinizə çatdırıram ki, siyahıya alınma 1879-cu ildə aparılmışdır.

Yorumlar:

Aqşin Hacı Zadə: Bəli, doğrudan da "haqq nahaq seçilir haqq divanında". Ustada rəhmət. Onu sevənlərə eşq olsun, sevməyənlərə lənət olsun. Amin.

Ebulfet Adil Oglu: Göyçə mahalı Qərbi Azərbaycanda sıradan bir mahal deyil.Onun istənilən elm sahəsində xüsusi yeri olan ziyalıları var.Nahaqqı haqq yerinə yazanların cavabı verilir və veriləcək.

Şebnem Bunyadzade: Tariximizi qesden saxtalaşdıranlar layiqli cezasını almalı, bu ölkeden getmelidiler

Niftali Goyceli: Sabutay Hacıyev var olsun! Zəhmət çəkib elə bir təkzibolunmaz məlumatı bizə çatdırıb... Mən ilk gündən Nazir Əhmədliyə bildirmişdim ki, bu saxta erməni mənbələrindən ya bilərəkdən, ya da bilməyərəkdən istifadə etmisiz. Hələ araşdırıldıqca çox məkrlər üzə çıxacaq. Görəsən, kitaba ad seçəndə müəllif anlaya bilibmi ki, bəli, haqq-nahaqq haq divanında seçiləcək və Göyçə Ustadlarının Pirinə qara yaxmaq istəyənlərin üzləri qara boyanacaq...Allah haqqı nahaqqa, mərdi namərdə endirməsin!

Sahib Musayev: AMİN.

Nazir Ahmedli: İnşallah endirməz, Niftalı bəy

Sahib Musayev: Fikir verin Çar əmr verir Qubernator İŞÇİ QRUPU yaradır və bu qrup hər kəs ayrı--ayrı mahalda--cəmi 23 mahal--15+5+3--işləyir. Ancaq NERSESİN saxta ŞOPEN variantında bütün 23 mahalda tək ŞOPEN işləyir və baxmayaraq ki, Qərbi Azərbaycanın qışı sərt, çox qarlı, yolları keçilməz olur 3 ildən az vaxtda 10 mindən artıq yaşayış məntəqəsini təkbaşına

siyahıya alır, torpaqları ölçür, mal--qaranı sayır? Bu əsil erməni cəfəngiyatıdı.

Niftali Goyceli: Sahib bəy çox doğru qeyd etdi və bu da Nazir Əhmədlinin istinad etdiyi "Erm. Milli arxivi"nin digər yalanı. Sahib bəy, çox sağ ol ki, belə bir hesablama ilə saxtakarlığı təqdim etdin...

Aqşin Hacı Zadə: Sabutay Haciyevin qadası onların, o nadanlarınn, o satqınların, o xainiərİn ürəyinə olsun. Amin. Aşıq Ələsgərə ilişən hələ çox ziyan çəkəcək. Hələ bir neçə gün öncə mən bunu "ƏLƏSGƏR DƏDƏ" adlı şeirimdə də qeyd etmişəm.

Seyyare Memmedli: Mən sözügedən kitabı oxumamışam. Amma məlumatı dəyərli ziyalılarımızın fikirlərindən əldə etmişəm. Və görürəm ki, doğrudan da "Haqq, nahaq seçilir haqq divanında". Bu divandan HAQQın qalib çıxacağına inanıram.

Nazir Ahmedli: İnşallah, Səyyarə xanım!

Şebnem Bunyadzade: Haqqı ermeninin yanında axtarmaq en böyük şerefsizlikdi.

Şahlar Haciyev: Diqqətlə baxın. Çox dəyərli məlumatdır. Belə faktlarla Nazir Ahmedlinin cəmiyyətə "sırımaq" istədiyi məqsədli kitabını ifşa etmək lazımdır. Var ol "qaraguruhçu" (Nazir Əhmədli belə adlandırır bizi)

Sabutay Hacıyevin qohumu olan Şahlar Hacıyev vəcdə gəlir, qohumunu alqışlayır, Niftalı çərənləyir, Aqşin qoca arvadlar kimi qarğış tökür, Mürvətlə Sahib Musayev söyür, bəziləri sevinir, başqaları təsəlli tapır...

Niftali Goyceli: "Qaraguruh" yalançı erməni mənbəsini əsas tutub tariximizə kor baxanlardır...

Sahib Musayev: Niftali Goyceli o məxluq SİYASİ XƏYANƏTKARDI.

Murvet Yusifov: Həyasızlığın pik nöqtəsidi. Özü səviyyədə olanları yığıb başına səhifəsində təhqir yazdırır. Bu məxluq az qalan limitini də ziyanına xərcləyir.

Murvet Yusifov: Başına yığdıqlarına da fikrimizi təhrif edərək çatdırır. Yəqin yazılarımı xəlvəti olaraq oxuyurlar.

Aqşin Hacı Zadə: Rəy yazanları da təhqir edirdi.

Mən hələ o vaxtlar Mürvətə, N.Göyçəliyə və başqalarına yazıb başa saldım ki, bu uydurmalardan əl çəksinlər, özlərini gülünc vəziyyətə salmasınlar, çünki Sabutay Hacıyevin bu saxta uydurmalarında o qədər səhvlər var ki, onun bunu arxivdən almadığı göz qabağındadır.

Birincisi, Ələsgərlə Anaxanımın yaşından başlayaq. İ.Ələsgərov bütün kitablarında Ələsgərin 41 yaşında evləndiyini və o vaxt Anaxanımın 25 yaşında olduğunu yazıb, yəni İslam müəllimə görə onun rəhmətlik babası rəhmətlik nənəsindən Sabutayın yazdığı kimi 8 yox, 16 yaş böyük idi (əslində isə evlənəndə hər ikisi 25 yaşında idi).

İkincisi, birinci Ümumrusiya siyahıyaalmassı 1879-cu ildə deyil, 1897-ci ildə keçirilib. Özünü "elm dəryası" kimi göstərmək istəyən Sabutay Hacıyev internetdən götürdüyü məlumatda 7 ilə 9-un yerini dəyişik salan zırramadır.

Üçüncüsü, 1917-ci ilə qədər olan sənədlər Moskvadakı Rusiya Dövlət Arxivində deyil, Peterburqdakı Rusiya Dövlət Tarix Arxivində saxlanılır. Yalan uyduranda da gərək onların adından uyduraydınız və s.

Amma mənim arqumentlərim onları qane etməyibmiş. Arxiv işini, arxiv sənədlərini o qədər lağlağı, qeyri-ciddi, Loğman Məhəmmədoğlunun yazdığı kimi "bir neçə rus və fransız alkaqolikinin" tərtib etdiyi kağız, Azərbaycan oxucularını isə o qədər avam hesab edirmişlər ki, hər cür çirkinliyə gedib məni pis vəziyyətdə qoymaq istəyirmişlər.

Ona görə də xəbərdarlıqlarıma, dostcasına məsləhətlərimə qulaq asmayıb daha bir komediya törətdilər və rəzil oldular!

Nazir Ahmedli
5 fevral 2018

Dost-tanış deyirdi, deyəsən səsləri kəsilib, sən demə, latargeya yuxusuna gedib qüvvə toplayırmışlar.

İndi də Sabutay Hacıyev adlı bir nəfər qaraguruhçuların ilhamvericisi rolunda irəli çıxıb. Hələ ötən yay guya Rusiya Dövlət Arxivinə istinadən yazmışdı ki, 1879-cu ildə Rusiyada keçirilən ümumi siyahıyaalmaya görə müəyyən edib ki, həmin il Ələsgərin 58, arvadı Anaxanımın 50 yaşı olubmuş.

S.Hacıyevin həmin düzməcəsinə keçən dəfə izahlı cavab verməyi gərəksiz saydım, yenə də saymağa hazır idim, amma bir neçə dəqiqə bundan qabaq israrlı tələblərimə baxmayaraq bu dəstənin adını deməyən bir gədəsi 077-271-89-46 nömrəli telefonla zəng edib yenə məni söyüb təhqir etdi. Onu tapmaq çətin bir iş deyil, polisə şikayət etsəm, tapacaqlar. Necə ki, ötən yay belə bir hərəkəti Xətai Ələskərli adını demədən etmişdi və tapdılar. Onu tapıb tənbeh etməyi özünü Göyçəlilərin lideri sayan Mürvət Yusifovun ixtiyarına buraxıram.

Amma S.Hacıyevin təqdim etdiyi düzməcə "sənəd" haqqında aşağıdakıları bildirmək istəyirəm:

1.S.Hacıyev keçən dəfə yazmışdı ki, Rusiyada ilk siyahıyaalma 1879-cu ildə keçirilib. Sonradan hansısa məlumatlı adam ona başa salıb ki, həmin siyahıyaalma 1897-ci ildə keçirilib. İndi həmin səhvini etiraf etsə, Ələsgərlə Anaxanıma düzəltdiyi 58 və 50 rəqəmləri alt-üst olar, ona görə yenə həmin rəqəmi təkrar edir və düzəltdiyi "sənəd"də göstərir ki, siyahıyaalmanın nəticələri 1897-ci ildə çap edilib. S.Hacıyev bir şeyi nəzərə almır ki, ***İnternetdə*** 1 dəqiqə ərzində hər cür məlumatı dəqiqləşdirmək olur. Həqiqət isə budur ki, siyahıyaalma 1897-ci ildə keçirilib, onun nəticələri isə 1899-1905-ci illərdə çap olunub. Cəmi 89 cild və 119 kitab!

2.Arxiv işindən tamamilə bixəbər olan S.Hacıyev bilmir ki, 1917-ci il inqilabına qədər olan sənədlər Rusiya Dövlət

Arxivində yox, Rusiya Dövlət Tarix Arxivində saxlanılır. Rusiya Dövlət Arxivi – S.Hacıyevin guya müraciət etdiyi arxiv Moskva şəhərində, Rusiya Dövlət Tarix Arxivi isə S.Peterburq şəhərindədir və o da oraya müraciət etməli idi.

3.Aşığın nəvəsi və bioqrafı İ.Ələsgər dəfələrlə Aşıq Ələskərin 41 yaşında evləndiyini və Anaxanımın o vaxt 25 yaşında olduğunu yazıb, yəni İ.Ələsgərə görə Aşıq Ələsgər Anaxanımdan 16 yaş böyük idi. S.Hacıyev isə Ələsgəri Anaxanımdan cəmi 8 yaş böyük göstərməklə, İslam Ələsgəri yalanlayır.

4.1897-ci ilin siyahıyaalmasında adamların adı yoxdur, ancaq yaşayış məntəqələri üzrə sayı və başqa statistik göstəricilərdir və həmin sənədlərdə guya Ələsgərlə Anaxanımın adlarının olduğunu iddia etmək camaatı ələ salmaq və fırıldaqçılıqdır.

5.Savadlı adam hesab etdiyim, təəssüf ki, bu cür işlərdə mürtəce rol oynayan prof. Ə.Allahverdiyevdən soruşmaq lazımdır ki, hörmətli professor, özün Moskvada yaşadığın və çox güman ki, yaxşı əlaqələrin olduğu halda, nə əcəb həmin arxivə müraciət edib cavab almamısan və o cavabı paylaşmamısan? Bunu Bakıda yaşayan Sabutay Hacıyev yazışmalarla həll edib?

6.Bir şeyi başa düşmürəm ki, Ələsgərin 1852-ci ildə doğulduğunu həzm edə bilməyənlər niyə kədərlənirmiş və indi də S.Hacıyevin düzməcəsindən nəyə görə toy-bayram edirlər? Doğum tarixinin dəqiqləşdirilməsi məncə adi bir işdir və ağlamalı bir səbəbi yoxdur.

7.***Qaraguruh nəzərə alsın ki, onların bu cür məntiqsizliyi, təhqiramiz hərəkətləri beynimdə ideya şəklində mövcud olan başqa bir kitabımı yazmağa məni vadar edir. Həmin kitabın mövzusu indiyə qədərki polemikalar, qaraguruhun törətdikləri mənasiz hərəkətlər olacaq və bu cür əməllərlə özlərini daha da bataqlığa sürükləməsinlər.***

8.Əgər söhbət Aşıq Ələsgərin 2021-ci ildə keçirmək istədikləri 200 illik yubileyi ilə bağlıdırsa, bu məsələ məni qətiyyən maraqlandırmır, istəyirlər 300 illik yubiley keçirsinlər. Məni maraqlandıran şey həqiqəti üzə çıxarmaqdır.

9.Belə şeylərə ayırmağa vaxtım yoxdur, çünki, AMEA-nın Tarix İnstitutunda müəllifi olduğum 5 cildlik ***"İrəvan əyalətinin kameral təsviri",*** paralel olaraq ***"Qazax nahiyəsinin Kameral təsviri"*** kitablarım çapa hazırlanır. Qaraguruh mənə mane olmağı özünün başlıca məqsədi sayırsa, əmin olsunlar ki, istədikləri ürəklərində qalacaq. Necə ki, onların ideya rəhbəri Eldar İsmayılın da imzaladığı və DTX-ya göndərdikləri ***donos*** nəticəsiz qaldı.

10.Mən Dərələyəzli Aşıq Cəlilin də doğum tarixini müəyyənləşdirdim. Məlum oldu ki, o indiyə qədər yazıldığı kimi 1850-ci ildə yox, 1868-ci ildə doğulub, bu il 150 yaşı tamam olur və onun 150 illiyi də qeyd ediləcək. Başqa aşıqlar haqqındakı tədqiqatlarım da davam edir.

Yorumlar:

Əhməd Nəsibov: Biryolluq yazın ki, bizim eradan əvvəl doğulub, bu axmaqlardan canınız qurtarsın.

Şahlar Haciyev: Bu qədər cılız fikirli, tanımadığı insanları təhqir etmək sizin mədəniyyətinizi göstərir

Şahlar Hacıyev və onun kimilər Nazir Əhmədlini təhqir edə bilər, amma onların bütün təhqirlərinə, hoqqabazlıqlarına, ən iyrənc hərəkətlərinə yüngülcə cavab veriləndə də dözmürlər.

Ahmed Nasibov: Şahlar bəy, tərəflərin arqumentləri burada göstərilir. Biri tarixi sənədlərə, digəri saxtakar üsullara önəm verir. İndi saxtakarlığı özünə vərdiş edənə axmaq deməyəsən nə deyəsən? Yalanı görə-görə özünə həqiqət seçib, anonim yazılar yazdıran, təhqiramiz sözlərlə hədə-qorxu, telefon zənglər təşkil edənləri siz mədəniyyət təcəsümü kimi qəbul edirsiniz?

Şahlar Haciyev: Siz Nazir Əhmədli kimilərinə inanmaqda davam edib. Sizə cavab verməyə vaxt ayırmaq istəmirəm

Ahmed Nasibov: Şahlar bəy, vaxt aparmaq istəmirsiniz, özünüz bilərsiniz. Yalvarmayacağam ki?

Sənədli-subutlu fakt, arqumenti təqdim edin, biz də elliklə müzakirə edək. Yoxsa uşaq kimi başlamısınız, “mən sizinlə danışmıram” oynuna. Bəlkə rəhmətlik 500 il yaşayıb? Bəlkə 15 il yaşayıb? Buyurun subut edin.

Elisoy Eliyev: Yazıqlar olsun bu müzakirəni açanlara. Dərdimiz elə kaş Ələsgər dərdi olaydı.

Nazir Ahmedli: Tərlan bəy, mənim çapa hazırladığım 5 cildlik də elə Siz deyən məqsədə xidmət edir. Yəni türklərin o torpaqlardakı izlərini pasportlaşdırıram.

Tarlan Eyvazov: Bunu rus ve diger dillerde yaymaq lazim. Inan ki veziyyet cox kritikdir.

Nazir Ahmedli: Kitablarım Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunur, əgər lazım bilsələr, yəqin edərlər. Özlərinin 2010-cu ildə nəşr etdikləri və Dövlət mükafatına layiq görülən "İrəvan xanlığı" kitabı səhv etmirəmsə, 11 dildə nəşr edilib.

Nazim Nasraddinov: Nazir müəllim, salam, mən hiss edirəm ki, Aşıq Ələsgərin təvəllüdü haqqında Sizin dediyiniz düzdür. Siz düşünə bilən insanları faktlarla inandırmağa çalışırsınız. Bu, çox yaxşı üsuldur,qaydadır. Amma yaxşı sözlər seçin. Söz deyəndə, mümkünsə, əsəbləşməyin. Qoy kim inanmırsa, inanmasın. Onsuz da fakt faktlığında qalır. Maraqlıdır ki, son vaxtlar mübahisə zamanı bəzən işin mahiyyətini bilməyənlər və yaxud bilmək istəməyənlər qalib gəlir. Nə isə ...Biz hələ elmi mübahisədə düzgün yolu çox gec tapırıq.

P.S.Təəssüf ki,orta məktəb dərsliklərimizdə bəzi mövzular dalay-dalayla yazılır.

Nazir Ahmedli: Nazim müəllim, əgər qarşı tərəf təhqirə keçməsə, mən həmişə təmkinimi saxlayıram.

Nazim Nasraddinov: Başa düşdüm. Özünüzə fikir verin. Sizin kimi tədqiqatçılar həmişə yadda qalır.

Selcik Elli: Salam, Nazir müllim. Şuşa, Laçın, Qubadlı rayonlarına ne vaxt müraciet edeceksiz ? Sayqılar...

Nazir Ahmedli: İnşallah, onlara da növbə çatacaq

Maarif Piraliyev: Maraqlıdır, görəsən böyük Ələsgərin yubileyini tutaq ki,30 il sonra, yaxud əvvəl keçirsək Ustad bundan nəsə itirib - qazanacaqmı?(Olmazmı ki, tarixi həqiqəti qəbul edib yubileylərimizi də ona uyğunlaşdıraq.) Nazir bəyə isə araşdırmalarında uğurlar arzulayıram.

Tanriverdi Kasumov: Mene bir fakt maraqlidir. Evveller vergi vermemek ücün bizimkilerin qeydiyyata düshmemek ücün gizlendikklerini bilirlermi?

Nazir Ahmedli: O cür faktlar olub, Tanrıverdi müəllim, düzdür.

Ilhame Kazimova: Siz elelerine niye baş qoşursunuz? Siz öz araşdirdiginiz menbeye esaslanib yazirsiniz, onlar bele mukemmel biliye malikdilerse özleri nese yazib çap edeydilerde.

Selcik Elli: Nazir müllim belələriynen esebinizi korlamağa deymez. Qızıl kimi vaxdınızı belələrinə xərcləməsəz yaxşıdır.

Nazir Ahmedli: Doğru deyirsiniz, belələrinə vaxt ayırmağa dəyməz. “Fotoşop” proqramı ilə naxçıvanlılar demiş, "donqili" bir şey düzəldib gözə kül üfürməklə məşğul olurlar.

Selcik Elli: Ele bilirler goplamağınan neyese nail ola bilecekle. Nese yaratmak üçün bir elme söykenmek lazım. Elmi esas olmadan mümkün deyil.

Nazir Ahmedli: Fevralın 4-də Qərbi Azərbaycandan türklərin deportasiya olunmasının guya “30 illiyi ilə bağlı tədbir keçiririk” adı ilə insanları zooparkın yanındakı bir şadlıq sarayına yığıb bu şounu düzəldiblər. ***Hətta faciəmizi də öz məqsədlərinə alət edərək iyrənc bir hərəkətə imza atıblar!*** Bunun adını qoymağı Sizin kimi sağlam düşüncəli insanlara buraxıram!

Selcik Elli: Həm Qərbi Azərbaycan Türklərinin, həm Qarabağ Azərbaycan Türklərinin derportasıyasını unutdurmağa çalışırlar. Nazir müəllim, biz kimdən özümüzü müdafiyə edək. Heçdə gedib qıraqda düşmən axdarmak lazım deyil. Qərbi Azərbaycanın üstündən xət çəkdilər.

Fahrettin Gülmemmed: bir heqiqet var...o da Aşiq Ələsgərin bir düha olmasidir..."gelin bu daşi eteyinizden

tökün"...millet, xalq olaraq birleşib en böyük belamiz olan Qarabağ meselesini çözek !

“TƏNTƏNƏ”

Savalan Talıblının səhifəsi
5 fevral 2018

“Aşıq Ələsgərlə bağlı mühüm sənəd əldə edildi
http://analoq.az/medeniyyet/7117-ashiq-elesgerle-bagli-muhum-sened-elde-edildi.html

“Analoq.az xəbər verir ki, mətbuatda son vaxtlar Aşıq Ələsgərin yaşının azaldılmasıyla bağlı, bilərəkdən qeyri-peşakarlar tərəfindən kitablarda, mətbuatda səhv informasiyalar dərc olunub.Bununla bağlı Rusiya Federasiyasının arxivlərinə müraciət edən Sabutay Hacıyev Aşıq Ələsgərin yaşını göstərən sənəd əldə edib.

Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərli bu sənədlə bağlı Analoq.az-a bildirib ki, nəhayət babamla bağlı yayılan səhv məlumatlara bir son qoyuldu. Əlimdəki bu sənəd Aşıq Ələsgərin yaşının düzgün göstərilməsini əks etdirir.

Analoq.az Rusiya Federasiyasından əldə olunan sənədin fotosunu ***(və tərcüməsini)*** təqdim edir:

Hörmətli axtarıcı! Sizin sorğuya əsasən Rusiya imperiyasının İrəvan quberniyasının göstərdiyiniz dövrə aid olan vəziyyətinə görə tarixi sənədlərin araşdırılmasını aparıldı. Müvafiq fond tərkibli dəqiq (konkret) sənədlərin araşdırılması zamanı Aşıq Ələsgərin doğum tarixi və ili tapılmadı (müəyyən edilmədi) Ancaq bəzi tarixi təsdiqlənmış materialların məlumatlarına görə İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Ağkilsə kəndində yaşayan Aşıq Ələsgərin yaşı

göstərilmişdir(qeyd edilmişdir) Xüsusilə 1879-cu ildə imperator II Aleksandr Nikolayeviçin göstərişinə əsasən (bu dövdə (1873-1880) İrəvan quberniyasının qubernatoru Roslavlev Mixail İvanoviç idi) Rusiya imperiyasının əhalisinin ümumi siyahıya alınmasına başlanması faktlarına aid materiallarda Ələsgər Almәmməd oğlunun 58 yaşı və onun arvadı Anaxanımın 50 yaşı olması haqqında qeydlər var.Təssüf ki, naməlum səbəblərdən bu əlyazmalar rəsmi qaydada çap olunmamışdır. Rusiya imperiyasının əhalisinin ümumi siyahıya alınmasının statistik məlumatı kitab şəklində 1897-ci ildə rəsmi qaydada çap edilmişdir.Ancaq İrəvan quberniyasının əhalisinin siyahıya alınmasını təsdiq edən əlyazmalar saxlanılmamışdır".

Yorumlar:

Niftali Goyceli: Akademik Nizami Cəfərova, tədqiqatçı Nazir Əhmədova deyəndə ki, sizin istinad etdiyiniz "Er. Milli arxivi" saxtakarlıq yuvasıdır, ya inanmaq istəmirdilər, ya da açıqca söz güləşdirirdilər...İndi buyursunlar, cavab versinlər!.. Sabutay bəy kimi Göyçə alimlərinin də olduğunu dərk etsinlər...

Don Kixot soyadımı da öz bildiyi kimi yazır:"Əhmədov". Əgər irad tutsan, deyəcək mən belə hesab edirəm,vəssalam!

N.Göyçəli qürrələnir: "Sabutay bəy kimi Göyçə alimlərinin də olduğunu dərk etsinlər".

Niftalı Göyçəli, əgər "aliminiz" budursa, kef edin, sizə ayrı sözüm yoxdur! Bir "aliminiz" də dayın oğlu Loğman Məhəmmədoğlu idi...

Elxan Memmedli: Mən bu yeni sənədin üzə çıxmasında əməyi olan kim varsa hamısına təşəkkür edirəm.Ümümilikdə Ələsgər ocağını, Ələsgər irsini sevənləri, onu Böyük Övliya bilənləri ürəkdən təbrik edirəm. ***Nəhayət həqiqət Günəş kimii təcəlla elədi***. Buzları əritdi,ürəklərə hərarət gətirdi.

Savalan Talıblı: Var olun, Elxan müəllim

Mamedali Hesenov: Firma blankında möhür olmur, sizinkiler mektubu hazırlayanda onu yaddan cıxarıblar

Mayisə Əsədulla Əliyeva: Maraqlıdır.

Mübahisələrdən, dava-dalaşdan keçən 10 ay ərzində hələ soyadımı düzgün öyrənə bilməyən Niftalı Göyçəlinin, şəxsi tanışlığımız olmasa da, indiyə kimi ciddi folklorçu kimi tanıdığım filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədlinin mövqeyi məni heyrətləndirir. Sabutay adlı avantürüstə inanan E.Məmmədli vəcdə gəlir: "Nəhayət həqiqət Günəş kimii təcəlla elədi!"

Əgər N.Göyçəli, E.Məmmədli və S.Talıblı nə ilə qarşılaşacaqlarını bilsəydilər, yəqin ki, S.Hacıyevi vaxtından əvvəl qəhrəman elan etməzdilər!

Vaxtından tez sevinənlərin biri də Q.Zimistanoğludur:

6 fevral 2018.

Q.Zimistanoğlunun paylaşımı

(musavat.com saytındakı informasiyanı paylaşıb)

Nəşr edilib: 2018/02/06 7:32

"Rusiya Dövlət Arxivindən alınan sənəd

Aşıq Ələsgər haqda iddiaları darmadağın edir

Azərbaycanın tanınmış aşıqları Aşıq Ələsgər və digər ustadlar Ağ Aşıq, Aşıq Alı barədə "Haqq-nahaq seçilər haqq divanında" kitabındakı iddiaları darmadağın edən sənəd ortaya qoyulub. Söhbətin mövzusu olan kitab erməni mənbələrinə istinadən 2017-ci ilin iyununda nə qədər qəribə olsa da Bakıda çap olunub. Çap məhsulunda tanınmış aşıqların doğum tarixlərini saxtalaşdırmaqla aşıqlar bir neçə 10 il cavanlaşıdılır və bu

cavanlaşdırmanın üzərindən ümumilikdə Qərbi Azərbaycanda türklərin tarixinin elə də dərin olmadığı iddiası ortaya qoyulur. Eyni zamanda Qərbi Azərbaycanda qədim türk adlarının ermənilәşdirilməsinə yönəlik dırnaqarası faktlar ortaya atılır. Kitabda istinadların 90 faizi Ermənistan Milli Arxivində saxlanıldığı iddia olunan sənədlərədir. Ötən ilin yayında dərcindən sonra böyük qalmaqallara səbəb olan kitabın müəllifi Atatürk Mərkəzinin şöbə müdiri Nazir Əhmədli, elmi redaktoru Atatürk Mərkəzinin sədri, deputat, akademik Nizami Cəfərov, rəyçisi isə AMEA-nın Folklor İnstitutunun xarici əlaqələr departamentinin rəhbəri Əli Şamildir.

Kitabdakı saxtakarlıqları ifşa edən sənəd ötən gün Qərbi Azərbaycan kökənli ziyalıların düzənlədiyi, doğma yurdlarından deportasiya olunmalarının 30 illiyi ilə bağlı "Yurd həsrəti" adlı tədbirdə nümayiş olunub. ***Tədqiqatçı Sabutay Hacıyev Rusiya Federasiyasının Dövlət Arxivindən Aşıq Ələsgərlə bağlı əldə etdiyi sənədi təqdim edərək bildirib ki, sənədə əsasən Aşıq Ələsgər iddia edildiyi kimi 1852-ci ildə deyil, əvvəlki tədqiqatçıların da araşdırdığı kimi 1821-ci ildə dünyaya gəlib.***

Çıxış edənlər deyiblər ki, özlərini tarixçi, folklorşünas adlandıran bəzi müəlliflər bu sənəd yayımlanandan sonra Aşıq Ələsgərə və digər ustadlara – Ağ Aşıq, Aşıq Alı və digərlərinin həyatları ilə bağlı etdikləri saxtalaşdırmalara nəhayət son qoyacaqlarına ümid edirlər.

Xatırladaq ki, Nazir Əhmədli müəllifi olduğu kitabda Ermənistan Milli Arxivinə istinadən iddia edir ki, Aşıq Ələsgər 1852-ci ildə, onun ustadı Aşıq Alı 1834-cü ildə, onun ustadı Ağ Aşıq isə 1791-də anadan olub.

Amma aparılmış tədqiqat işləri, indi isə Rusiya Dövlət Arxivindən Sabutay Hacıyevin aldığı sənəd bir daha Aşıq Ələsgərin 1821-də, Aşıq Alının 1801-də, Ağ Aşığın isə 1754-cü ildə anadan olduğunu bir daha ortaya qoyur.

N.Əhmədli çap məhsulunda ortaya qoyduğu fikirləri illərdir ki, ermənilərin başabəla "tədqiqatçıları" da əllərində bayraq ediblər. Kitabda Qərbi Azərbaycanda bir çox Azərbaycan kəndlərinin olmadığı da iddia olunur. Kitab oxucuda belə bir fikrin formalşamasına xidmət edir ki, Qərbi Azərbaycana türklər guya gəlmədi, sonradan məskunlaşıb və xeyli kəndlər sonra yaranıb, guya burada onlar da gəlmə olduqları üçün gələcəkdə o torpaqlara iddia edə bilməzlər.

Tədbrin təşkilatçıları jurnalist Mürvət Yusifov və Aşıq Alı irsinin tədqiqatçşısı, jurnalist Qabil Zimistanoğlu olub.

Tədbirdə çıxış edənlər Rus imperiyasının dəstəyi ilə tarixi Azərbaycan torpaqlarının ərazisi üzərində Ermənistan dövlətini yaratmasından, ermənilərin zaman-zaman yerli türkləri sıxışdıraraq "Türksüz Ermənistan" yaratmaq arzularına nail olmasından, bu gün də Ermənistan adlanan bir dövlətdə nümunə kimi bir soydaşımızın belə qalmamasından, ermənilərin törətdikləri vəhşiliklərdən, soydaşlarımızın başına gətirilən faciələrdən və s. söhbət açıblar. Hələ sovetlər dönəmində yer-yurd adlarını necə dəyişərək ermənileşdirilməsindən, ermənilərin tarixi abidələrimizi özününkləşdirmələri, evləri, mədəniyyət nümunələrini, qəbiristanlıqları necə xarabazarlığa çevirmələri barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Tədbirdə Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyət abidələri və s. barədə müxtəlif sahələrin araşdırması ilə məşğul olan alimlərin hələ qabaqda çox iş görməli olduqları, bu barədə yazılmış dəyərli məqalələrin və əsərlərin əcnəbi dillərə tərcümə olunaraq nəşrindən və çap məhsullarının ölkə hüdudlarından kənar yayımlanmasının zəruriliyindən söhbət açılıb.

Tədbirdə yurd yerlərinə qayıdana kimi Qərbi Azərbaycanıların deportasiya olunduğu günü qeyd etmək üçün hər il fevralın 5-nin Anım Günü kimi qeyd edilməsi, dünya ictimaiyyətinə 310 min əhalinin səsinin çatdırılması məqsədilə Deporta-

siya Mərkəzinin təşkili, İrəvanın yenidən Azərbaycana qaytarılmasının zəruriliyi yarandığından dövlətimizin bu məsələyə yenidən baxması ilə bağlı müvafiq strukturlara müraciətin ünvanlanması fikirləri səsləndi. Yer-yurdlarımızda erməni vandallığını əks etdirən videoçarx nümayiş olunub.

Musavat.com"

Ötən yaydan mütəmadi şəkildə əleyhimə qaralama kampaniyası aparan "Yeni Müsavat" qəzeti və onun əməkdaşı, Q.Zimistanoğlunun əlıaltısı Elşad Məmmədəliyev görünür, saxtakarlığın üstünün açılacağından ehtiyat edərək, bu dəfə yazıya imzasını qoymayıb.

Yazı imzasız gedib.

Ötən il mənə qarşı apardığı qaralama kampaniyası zamanı R.Arifoğlunun telefonunu tapıb zəng etdim, haqqımda yazılanların yalan olduğunu bildirdim və təkzib verilməsini tələb etdim. Mənimlə kobud danışdı. Ona görə də "təkzibin də başına dəysin" qərarına gəlib qəzet üçün yazdığım geniş məqaləni də göndərmədim, "İt hürər, karvan keçər" prinsipini üstün tutdum.

Burada "Yeni Müsavat" qəzetinin baş redaktoru R.Arifoğlu ilə olan münasibətlərimizə toxunmağı gərəkli bilirəm.

R.Arifoğlu ilə şəxsi tanışlığımız olmasa da 1992-ci ildən bir-birimizi yaxşı tanıyırıq. Mən o vaxt "Millət" qəzetində işləyirdim, o isə "Yeni Müsavat" qəzetində. Bir neçə başqa qəzetə və jurnala rəhbərlik edirdi. O vaxt Milli Məclisin sədri olan İsa Qəmbər ona xüsusi şərait yaratmışdı. İ.Qəmbər Şimali Azərbaycan Demokratik Partiyası (ŞADP) adlı bir partiya yaratmışdı, Rauf Şenol adı ilə tanınan R.Arifoğlu isə Müsavat Partiyasını bərpa etdiyini elan edib "Yeni Müsavat" adda qəzet

yaratdı. Əslində partiya-filan yox idi, adı var idi. İdeya İ.Qəmbərin xoşuna gəldi, M.Ə.Rəsulzadənin siyasi irsinin varisliyini heç bir çəkisi olmayan bir adama buraxmaq olmazdı. Ona görə də Şenollla razılığa gəldilər. Rəhbəri olduğu partiyanın adını Müsavat Partiyası qoydu, R.Şenolu isə qanadı altına alıb ona dövlət resursları hesabına geniş imkanlar yaratdı. Biz o vaxt əks cəbhədə idik. Onun və havadarlarının cızmaqaralarına təkbaşına cavab verir, susdururdum. Ona görə də Milli Məclisin sədri İ.Qəmbər Müsavat Partiyasının Divan iclasında demişdi ki, mənim Nazir Əhmədli kimi müxbirim olsa, ona 5 qəzet açaram.

Sonralar R.Arifoğlu İ.Qəmbəri satdı. Hakimiyyət dairələrindən aldığı göstərişlə əvvəlcə Müsavat daxilində çəkişmələr, dava-dalaş yaradıb özü rəhbər olmaq iddiasına düşdü, bu əmələ gəlməyəndə isə partiyadan istefa verib aşkar antimüsavat xətti tutdu. R.Arifoğlu bir vaxtlar hakimiyyətin ən sərt tənqidçisi görüntüsü yaratmışdı, sonradan hakimiyyətə qulluq etdiyi üzə çıxdı, qəzetinin tirajı da əridi. Xidmətinin mükafatı olaraq hakimiyyətdən medal da aldı. Əsil sifəti üzə çıxdıqdan sonra xalqın nifrətini qazandı.

O vaxtlar facebook-da təxminən belə bir status paylaşmışdım: Rauf Arifoğlu hakimiyyətə qulluq etdiyinə görə deyil, indiyə qədər ictimaiyyəti aldadıb insanların gözünə kül üfürdüyünə görə onların qəzəbinə gəlib. İqtidar cəbhəsində o qədər jurnalist var ki, hamı onlara normal münasibət bəsləyir. Rauf Arifoğlu mənə eser Azefi xatırladır. Azef üzdə çar hakimiyyətinin ən barışmaz düşməni görüntüsünü yaratsa da, daldada çar polisinin xəfiyyələrindən pul alıb inqilabçı yoldaşlarını satır və polis onları həbs edirdi.

R.Arifoğlu haqqında bu gün də həmin fikrimdə qalıram.

Sabutayın təqdim etdiyi “sənəd”in rus dilində mətni belədir:

«Государственный Архив Российской Федерации

Уважаемый соискатель! По Вашему запросу было проведено обследование исторических документов, относящихся данному периоду состояния Эриванской Губернии Российской Империи. В ходе изучения составов соответствующих фондов конкретных документов, указывающих дату и год рождения Ашуга Алескера не обнаружено. Однако, по данным некоторых исторических подтвержденных материалов было отмечено возраст Ашуга Алескера, проживающего в селе Агкился (Белая церковь) Ново Баязетского Уезда Эриванской Губернии. В частности, в материалах, относящихся фактам начала Всеобщей Переписи население Российской Империи, который был начать в 1879-ом году по указанию Императора Александра II Николаевича, (Губернатором Эриванской Губернии на тот перид (1873-1880) был Рославлев Михаи Иванович) есть запись, где указывается возраст Алескера Алимамед оглы 58 лет и его жены Анаханум 50 лет. К сожалению по неизвестным причинам эти рукописи не были официально опубликованы. Официально опубликованы статистические данные в ***виде книги*** Первая Всеобщая перепись населения Российской Империи в 1897-ом году. Но рукописи, подтверждающие перепись населения Эриванской Губернии не сохранены.

Директор : Л.А.Роговая».

“Analoq.az” saytının şikəst tərcüməsi bir yana, rus dilini hətta zəif bilənlər də bu “məktub”un “orijinalında” xeyli səhvlər tapa bilərlər. Məsələn, “перепись”-“siyahıyaalma” sözü birinci dəfə böyük hərflə yazıldığı halda, ikinci dəfə kiçik hərflə yazılır, məsələyə aidiyyatı olmadığı halda o vaxt kimin İrəvan qubernatoru olduğu yazılır, birinci Ümumrusiya siyahıyaalması

1897-ci ildə keçirildiyi halda, onun 1879-cu ildə keçirilməsi yazılır, "məktub"un kimə ünvanlandığı göstərilmir, tarixi və qeydiyyat nömrəsi yoxdur, rəsmi blankda gerbli möhür qoyulmadığı halda burada qoyulubs və s.

M.Yusifov və komandasının 7 aya düzəltdiyi şeyə baxın! Orada ən azı 50 səhv tapmaq mümkündür!

Mən təbii ki, baxan kimi bütün bunları gördüm və qaraguruhçuların diqqətinə çatdırıb növbəti dəfə özlərini rüsvay etməmələrini tövsiyyə etdim. Amma çifayda!!!

Yorumlar:

Mürvət Yusifovun təntənə edir:

Murvet Yusifov: Qabil Zimistanoğlunun sayəsində 04 fevral tədbirimiz medianın diqqətindədi.

Araz Yaquboğlu: Mürvət bəy, 5 dekabr, yoxsa 5 fevral? Mən dekabr başa düşmüşdüm.

Qabil Zimistanoglu: Araz Yaquboğlu bəy, dekabrın 5-dir. Jurnalist səhvən fevralın 5-i kimi qeyd edib. İradımızı bildirdik, bir azdan həmin səhvi düzəldəcəklər.

Nazir Ahmedli: Sabutay Hacıyevin "Fotoşop"la düzəltdiyi o cür "donqili" kağıza doğrudan inanıb, başqalarını da inandırmağa çalışırsınız? Çox təəssüf! Gələcək kitabım üçün mənə mövzular verirsiniz!

Qabil Zimistanoglu: Naxçıvanlılar demişkən, "donqili" sənədlər ermənilərin hansısa formada sənə göndərdiyi informasiyalardır. ***Çox hörmətli Sabutay Hacıyevin*** əldə etdiyi sənəd Rusiya Federasiyasının Dövlət Arxivinin rəhbərliyi tərəfindən təsdiq olunmuş hüquqi sənəddir. Sən də heç olmasa, Ermənistan Milli Arxivinin rəhbərliyinin möhür və imzası ilə təsdiqlənmiş hər hansı sənəd ortaya qoy ki, onun "mötəbərliyinə" inanaq..

Nazir Ahmedli: Fevralın 4-də düzəltdiyiniz bu şou iyrənc bir işdir. Bir qrup Qərbi Azərbaycanlını deportasiya ilə bağlı toplayıb bu cür saxta kağızı ortaya qoyursunuz. Deportasiyanı da urvatsız etdiniz. Və cavabınızı da alacaqsınız! Günah məndən qalxdı!!

Qabil Zimistanoglu: Get, işinlə məşğul ol. Sən özün özünü çoxdan urvatsız etmisən!!!

Sənin heç zaman normal polemikalar aparmaq mədəniyyətin olmayıb və kimsəyə də hədə-qorxu gəlmə!!! Ortalığa sənəd qoyulub, bundan o yanası yoxdur ki!!! Tək o qalır, sənin etdiyin səhvləri etiraf etməyin!!!

Fazil Qurbanov: Allah ustad aşıqlarımıza rəhmət eləsin.

Murvet Yusifov: Nazir Əhmədli, ümummilli çalışmalarımıza qara yaxmaqla, 04 fevralda bütün mahalları əhatə edən toplantıya böhtan atmaqla şou düzəltməyə çalışma! ***Bunun bədəli daha ağır olacaq.***Yurdumuza laqeyd baxanları, biganə yanaşanları ictimai qınağa tuş gətirəcəy...

Nazir Ahmedli: Mürvət Yusifov, ***Qərbi Azərbaycan türklərinin faciəsindən öz iyrənc siyasi məqsədləriniz üçün istifadə etməyiniz tədbirin təşkilatçısı kimi səni töhmət altında buraxır.*** İstəməzdim ki, səni bəzi iyrənc adamların cərgəsində görüm. Buna ancaq təəssüflənirəm. ***Özünü tarixin qınağına məruz qoydun.*** S.Hacıyevin təqdim etdiyi saxta kağıza gəlincə, onun haqqında dünən 10 bənddən ibarət geniş status yazmış və saxtalığını sübut etmişəm. Tanış olmaq istəsən, oxu. Onları burada bir daha təkrar etməyə həvəsim yoxdur. Amma S.Hacıyevin əməlinin adi fırıldaqçılıq və saxtakarlıq olduğunu yəqin özün də çox gözəl bilirsən. İstəyirsən, lap özünü inandır, bu öz işindir.

Qabil Zimistanoglu: Mürvət bəy, saxtakar həmişə elə hesab edib ki, özü kimi hamı saxtakardır. Nazir də belələrindəndir. Erməni saxtakarlığını Azərbaycan ictimai şüuruna sırımaq istədi, alınmadı. Nəşr etdirdiyi çap məhsulu ilə erməni dəyirmanına su tökdü. Buna görə haqlı olaraq sosial şəbəkələrdə tənqidlər oldu, iradlar səsləndi. Özü özünü hansı bataqlığa saldığını yaxşı

bilir və bataqlıqda çabaladığının fərqindədir. O getsin indən sonra buraxdığı səhvləri düzəltməklə məşğul olsun!!!

Nazir Ahmedli: Mürvət Yusifov, dünən zəng edib məni söyən 077-271-89-46 nömrəli telefonun sahibini tapıb məzəmmət etdinmi? Bunu etməyə borclu deyilsən, amma bir halda ki, məlum tədbirin təşkilatçısısan, üstəlik belə başa düşdüm ki, təkcə Göyçəlilərin deyil, bütün Qərbi Azərbaycanlıların lideri roluna iddialısan, onda gərək şikayətimizi də sənə edək. Mən təkidlə adını soruşsam da, demədi.

Mürvətin bütün Qərbi Azərbaycanlıların lideri roluna iddialı olması haqqında mülahizələrim çox keçmədən özünü doğrultdu. Bu haqda bir qədər sonra...

Qabil Zimistanoglu: Mənə nəsə qaranlıq qaldı? Kimsə tədbir iştirakçısı söyüş söyüb? O, hansı axmaq olub, görəsən?Nə deyiblər ki? Zəng edən axmaq məgər bilmir ki, söyüşlə hansısa məsələni çözmək olmaz. Kim imişsə, yəqin istəyib aranı qatsın, təxribat törətsin. Keçən dəfəki kimi indi yenə də başlayacaqsan ki, bunu da Mürvət Yusifov təhrik edib?

Murvet Yusifov: Nazir Əhmədli, Mürvət Yusifovun yanında olanlar söyüşlə yox, sübutla danışırlar. Yazdığın nömrəni və sahibini tanımıram və əgər belə hal baş veribsə bunu pisləyirəm.

Nazir Ahmedli: Mən də hesab edirəm ki, sənin bu işdən xəbərin yoxdur, hər halda bunu edəcək adam olduğunu düşünmürəm. Amma yazdığım nömrəyə zəng vurub həmin adamın kimliyini öyrənə bilərsən və başa sala bilərsən ki, bu cür hərəkət yolverilməzdir.

Murvet Yusifov: Axı o adam sizə nə deyib ki? Hər halda həmin adam (əgər olubsa) vəziyyəti gərginləşdirməyə çalışır. Belə ki, diqqəti qalmaqala yönəldir.

Nazir Ahmedli: Xətai kimi o da söyüş söydü və nə qədər təkid etsəm də, adını deməyib telefonu söndürdü. Ondan əvvəl də öyündü ki, gördün televiziyada sənə cavab verdilər. Belə düşünürəm ki, o da S.Hacıyevin göstərdiyi kağızdan ilham alanlardandır.

Sizin tədbirdə iştirak edib-etmədiyini də bilmirəm. Sadəcə olaraq istəyirəm onun telefonuna zəng edib etdiyi hərəkətə görə məzəmmət edəsən. Adını mənə deməsən də olar, heç kimliyini öyrənmək də istəmirəm. Dediyim kimi, bunu etmək sənin borcun deyil, amma təşkilatçı, təşəbbüskar şəxs olduğun üçün sənə müraciət etdim. Polisə şikayət etmək də istəmirəm, aydındır ki, 2 dəqiqəyə taparlar. ***Bir sözlə, konflikt istəmirəm, elmi tədqiqatlarımla məşğul olmaq istəyirəm.*** Marağına səbəb olacağını hesab etdiyimə görə onu da diqqətinə çatdırım ki, Dərələyəzli Aşıq Cəlilin də doğum tarixini müəyyənləşdirdim (həm də şəcərəsini). Məlum oldu ki, indiyə qədər yazıldığı kimi 1850-ci ildə yox, 1868-ci ildə doğulub. Bu il 150 yaşı tamam olur və yubeleyi hansısa səviyyədə qeyd olunacaq. Aşıq yaradıcılığına olan marağını nəzərə alıb səni də dəvət edəcəyəm.

Şahlar Haciyev: Nazir bəy, Sizi əsəbləşdirib, təhqiredici sözlər yazmağa məcbur edən o sənədin saxta olduğunu niyə qəbul edib özünüzə bəraət qazandırmaq istəyirsiniz? Yazmaq, bu mövzunu yenə uzatmaq istəmirəm, amma məcbur edirsiniz. 80 il Göyçədə heç kimin yaşamadığını yazırsınız. Amma qəbul edin ki, 1501-ci ildə Şah İsmayıl Göyçəyə gələndə, Sarıyaqub kəndində sufi alim, filosof Miskin Abdal ilə görüşür və yazılı, möhürlü sənədlə ona "Seyidiyyə" titulu verir. O sənəd 1988-ci ilədək onun ocağında qorunub saxlanılırdı. Bəs sizin faktlar Göyçəni türksüz 80 illik tarixinin saxta olduğunu alt-üst etmirmi.O sənədi hələ də saxlayırlar onun nəslindən olan seyidlər.

Nazir Ahmedli: Şahlar Hacıyev, mən Şah İsmayılın 1501-ci ildə Miskin Abdala hansısa sənəd verib-vermədiyini nə təsdiq, nə də inkar etmirəm. Təxminən 1 ay bundan əvvəl Tarix İnstitutunda Sarıyaqubdan olan Bəxtiyar adlı tarixçi bir alimlə tanış oldum, o da həmin sənədlər barədə danışdı. Əgər tarixçilər o sənədləri ekspert olaraq qəbul edirsə, mən onları inkar edə bilmərəm, ən azı ona görə ki, həmin fərmanı mən oxuya bilmirəm. Amma səhv etmirəmsə, Şah İsmayıl 1501-ci ildə Göyçənin CƏNUBUNDAN keçib Ərzincana getmişdi, Sarıyaqub isə Göyçənin cənubunda yerləşmir. İkinci, daha mühüm fakt odur ki,

İsmayıl hələ o vaxt ŞAH DEYİLDİ. Ərzincandan 7 min qoşun toplayıb Naxçıvanda, Böyük Düzdə Əlvənd Mirzəni məğlub etdikdən sonra bir müddət Gülüstan qalasını da mühasirədə saxladı, sonra mühasirədən əl çəkərək Təbrizə gedib özünü şah elan etdi. Yalnız bu hadisədən sonra onun fərmanından danışmaq olar.

Şahlar Haciyev: Daha sizə sözüm yoxdur

Şahlar Hacıyev mənə minnət qoyur ki. "daha sizə sözüm yoxdur". Sanki mən hansısa qəbahətli söz, yaxud təhqiramiz bir ifadə işlətmişəm. Hələ o faktı da buraya əlavə etmək lazımdır ki, 1501-ci ildə Göyçədə Sarıyaqub adında kənd yox idi! Həmin kənd bəlkə də 1501-ci ildə mövcud olub, amma adı Sarıyaqub olmayıb! Bu kəndin "Sarıyaqub" adı 1842-ci ildə oranın kəndxudası olan Yaqub Yəqinəli oğlunun adından yaranıb. "Sarı" isə onun ləqəbi və ya ayamasıdır. Sonralar həmin iki sözü birləşdirib Sarıyaqub ediblər. Şahlar Hacıyev bütün bunları bilmir, bunlar mənim 2017-ci ildə nəşr etdirdiyim "Göyçə mahalının kameral təsvir" kitabımda var. Şahlar Hacıyev kitab oxumur və bu faktları bilmir, bilmədiyinə görə də hər şeyə görə əsəbləşir!

Nazir Ahmedli: Mən Göyçədə əsrlər boyunca türklərin yaşadığını inkar etmirəm, amma bəzi dövrlərdə oralar boş olub, o cümlədən də 1735-ci ildə Nadir oraları osmanlılardan alandan sonra Göyçə boş qalmışdı. Bunu Azərbaycan tarixşünaslığı da qəbul edir. Göyçə ilə müqayisədə Dərələyəz daha uzun müddət boş qalmışdır, bu məsələ bizim ziyanımıza deyil, xalqımızın müharibələrdən əzab-əziyyət çəkməsinin göstəricisidir.

Şah İsmayılın Miskin Abdal haqqında fərman verə biləcəyini inkar etmirəm. Demək istəyirəm ki, şah olduqdan sonra fərman veə bilərdi, şah olmamışdan qabaq yox.

Şahlar Haciyev: Yəqin ki, göyçəlilər Göyçəni boşaldıb gedəndə həmin o sənədi orada qoyub gediblər. Bu da saxta çıxdı... Bircə sizin Erməənistan Milli Arxivindən götürdüyünüz sənəd

saxta deyil. Mətləbdən uzaqlaşmayın. Söhbət o sənəddən fedir, Sənədin nə vaxt verildiyindən yox.

Ş.Hacıyev yenə mənə minnət qoyub "Söhbət o sənəddən gedir, sənədin nə vaxt verildiyindən yox",-deyir.

Əgər hansısa sənədin verilmə tarixi heç bir əhəmiyyət daşımırsa, həmin "tarixçiyə" bu dəfə mənim heç bir sözüm yosdur!

Nazir Ahmedli: İroniya lazım deyil. Bu sənəd kimdə idisə, özü ilə götürüb apara bilərdi. Göyçəyə qayıdan törəmələri də özü ilə gətirə bilərdi. Bu olduqca adi şeydir. Sənəd kağız parçasıdır, ağac deyil ki, onu apara bilməsinlər. Yazırsınız ki, 1988-ci ilə qədər onun ocağında qorunub saxlanırdı. Bəs oranı tərk edəndə həmin sənədləri özləri ilə aparmayıblar? İndi onlar haradadır?

Şahlar Haciyev: Söhbət 80 illik bir tarixdən gedir. Axı siz göyçəlilərin yerinə milliləri yerləşdirmişdiniz Nazir bəy, elə müqəddəs mövzular var ki, ona toxunmaq olmaz. Görürsünüz necə qıcıqlandırırsınız. Başqa mövzulardan yazın ..Məlumatınız çox, qələminiz itidir. Toxunmayın lütfən kövrək, incə Aşıq Ələsgər mövzusuna.

Nazir Ahmedli: Millilər Göyçədə az yaşayıb və 1834-1835-ci illərdə kütləvi surətdə oranı tərk edib Vediyə gediblər. Cəmi 17 ailə Göyçədə qalıb. 16 ailə yeni məskunlaşdırılan Qızılvənk kəndinə, 1 ailə-Ağ Aşıq Allahverdi isə yeni məskunlaşdırılan Kərkibaş kəndinə gedib. 1831-ci ildə Yarpızlıda siyahıya alınan və Qızılvənkə gedən Niftalı Şahəli oğlu da Aşıq Alının qayınatasıdır.

Şahlar Haciyev: Nə isə.. təkrarçılıq olmasın. Buraxın bu mövzunu. Təhqirlərə yol verməyin. Ayın 4-də yığışan insanların səmımıyyətinə şübhə etməyin.

İnsan nə qədər həyasız olmalıdır ki, mənim kimisə təhqir etməyimdən danışsın! Hardadır mənim "təhqirlərim?"

Nazir Ahmedli: Şahlar Hacıyev, təkcə Göyçə mahalı yox, bütün İrəvan xanlığı, bütün Qərbi Azərbaycan mənim mövzumdur. Hazırda Tarix İnstitutunda 5 cildliyim çapa hazırlanır. I cildi artıq hazırdır və "İrəvan şəhərinin kameral təsviri.1831-ci il" adlanır. Həmin 5 cildliyin 5-ci cildinə Göyçə və Dərəçiçək mahalları daxil ediləcək. Bundan başqa, Şərqşünaslıq İnstitutunda da "Qazax nahiyəsinin Kameral təsviri.1860-cı il" kitabım çapa hazırlanır.

Şahlar Haciyev: 80 ildən gedir söhbət. Axı siz çıxanların yerinə milliləri yerləşdirmişdiniz Nazir bəy, sizi çoxdan tanıyıram. Amma bəzi müqəddəs şeylər var ki onlara toxunmaq lazım deyil. Görürsünüz bu məsələ Göyçəlilərin yaralı və müqəddəs mövzusudur.

Nazir Ahmedli: Milliləri Göyçəyə mən gətirməmişəm. Onlar Göyçəyə sizin babalarınızdan sonra gəlib, sayca da qarapapaq türklərindən 2-3 dəfə azdırlar, Göyçədə də çox qısa bir müddət-5-10 il yaşayıb çıxıb gediblər. Göyçə mahalının 1842-ci ilə aid Kameral siyahısına baxmısınızsa, oradakı müsəlman kəndlərində yaşayan əhalinin demək olar ki, 99 %-i qarapapaq türkləridir, 10 yeni kənd məskunlaşdırılıb, 9-u qarapapaqdır. Bütün bunlar sənədlərdə təsbit olunub və heç kim onları nə bu tərəfə, nə də o tərəfə dəyişdirə bilməz. Axı Siz rəsmi sənədlərə necə etiraz edə bilirsiniz, açığı çox təəccüb edirəm. Mənim bütün yazdıqlarım da Tarix İnstitutunun süzgəcindən keçir, əgər mən nəyisə səhv yazsam, onlar buraxarmı? Əgər düz olsa belə, Azərbaycana ziyan gətirən şey olsa, yenə buraxmazlar.

Bu yaxınlarda prof.H.İsmayılovun Aşıq Ələskər haqqında yazdığı kitabla tanış olmaq fürsətim oldu. Orada ciddi səhvlər var və Ələsgər haqqında yazacağım növbəti kitabda, yaxud məqalədə onları işıqlandıracağam.

Şahlar Haciyev: Nazir bəy, təkrarlara çox vaxt ayırırıq. Bizim babalarımız Göyçəyə gəlmə deyillər. Mənim tədqiqat sahəm İslamaqədərki türk tarixidir. Hətta tarixi çox qədimlərə gedən Oğuz Xanın qəbrinin Göyçə gölü sahilində olduğu haqqında məlumat var (XIIIəsr. "Oğuznamə" Rəşidəddin) Hər il

yaz aylarında Oğuz Xanın Göyçədə öz qurultayını keçirərmiş ("Kitabi Diyarbəkiriyyə" XV əsr. Əl Tehrani əl İsfahanı). Belə faktlar çoxdur. Göyçə ən qədim Türk yurdudur desək yanılmarıq. Heç vaxt Göyçə türksüz olmayıb. 1988 ci ilədək.

Nazir Ahmedli: İnşallah. yenə qalmaz. Mən hesab edirəm ki, Göyçəsiz, Dərələyəzsiz, İrəvansız, Zəngəzursuz qalmağımız müvəqqətidir və o torpaqlar yeniudən bizim olacaq! Özü də 80 ildən daha tez!

Şahlar Haciyev: 80 il söhbətini unut getsin. Elə bir şey olmayıb.

Nazir Ahmedli: Mənim indi gördüyüm iş də həmin torpaqlarda türklərin izlərini pasportlaşdırıb gələcək mübarizəmizə ideoloji zəmin yaratmağa xidmət edir. Yəni dünya sənədlə-sübutla görsün ki, oraların sahibi biz olmuşuq!

Murvet Yusifov: Dəhşətdi. Rusiya qədim oğuz-türk yurdu Göyçə mahalını işğal edəndə o yerlərdə 599 erməni ailəsi, 227 kürd ailəsi olduğunu iddia edən yazarın türkə xidmət etdiyinə kimsə inanarmı?!

Nazir Ahmedli: Mürvət Yusifov, mənim yazdıqlarım durur axı, səndən başqa oxuyanlar da var. Mən yazmışam (sənədlərdə olduğu kimi) Rusiya qədim türk-oğuz yurdu Göyçəni işğal edəndə orada cəmi 15 erməni ailəsi vardı. "Göyçə mahalının kameral təsviri" kitabımı aç və yaxşı-yaxşı bax.

Murvet Yusifov: Mənim yazdıqlarım sənin sosial şəbəkələrdəki paylaşımlarındandı.Əgər dediyin kimidisə köhnə paylaşımlarında düzəliş et.

Nazir Ahmedli: Mən heç vaxt elə şey yazmamışam və yaza da bilməzdim. Sən 1830-cu ildə Türkiyədən Göyçənin cənubuna, sonradan Martuni və Kamo adlandırılan rayonlara köçürülən 1.485 erməni ailəsinin davasını eləyirdin. Halbuki o faktın yazılması da bizim xeyrimizədir ki, ermənilər buraya köçürüb etnik balansı pozublar. Bu fakt Tarix İnstitutunun nəşr etdiyi "İrəvan xanlığı" (2010) kitabında da var və həmin kitab dövlət mükafatına layiq görülüb.

Murvet Yusifov: Sənin paylaşımların və rəylərin buradadı

Nazir Ahmedli: Tapıb mənə göstərsən ki, mən işğaldan qabaq Göyçə mahalında 599 erməni ailəsinin yaşadığını yazmışam, səhvi etiraf etmək azdır, üzr istəməyə hazıram. Bunu da millətin qarşısında deyirəm. Dediyin düz çıxmasa, sən nə edəcəyinə söz verirsən?

Murvet Yusifov: Nazir Əhmədli, Göyçə mahalının tarixi barədə də, coğrafiyası barədə də bilgilərin səthidi. Bu, müzakirələrdə aydın görsəndi.Elə ona görə də əldə etdiyin "sənəd"in mahiyyətini müsbət qiymətləndirirsən.

Əlavə olaraq şər atma xüsusiyyətin də var. Bu xarakterin o zaman da, indi də çılpaqlığı ilə görsənir. O zaman əsassız olaraq məni polisə verdin. İndi də ***minbir əziyyətlə ərsəyə gətirdiyim tədbirə böhtan deyirsən.***

Amma bunlar məni nə qorxudası, nə də yolumdan döndərəsi deyil.

Nazir Ahmedli: Özün bilərsən, Allah günahlarından keçsin! Fevralın 4-də keçirdiyin tədbiri mən də müsbət qarşılamışdım, amma Sabutay Hacıyevin saxta işlərinə meydan verməklə həmin tədbirin mahiyyətini kiçiltdin, onu kimlərinsə cılız məqsədlərinə alət etdin və günah işlədin. ***Belə təəssürat yarandı ki, həmin tədbir Sabutay Hacıyevin saxta kağızını ictimaiyyətə çatdırmaq üçün bəhanə imiş.*** Həm də deportasiya gününü dekabrın 5-nə təyin edəcəkdinizsə, belə tələm-tələsiklik nəyə lazım idi? Ehtimal edirəm ki, 5 dekabr Göyçəlilərin Göyçədən kütləvi şəkildə çıxdıqları gündür, yəni anım günüdür. Daha məntiqli olardı ki, dekabrın 5-nə camaatı yığıb, orada da anım və ya deportasiya gününü elan edəydin.

Murvet Yusifov: Elə xarakterin burda da görsəndi. Tədbirdən öncə onlarla ziyalı ilə görüşüb məsləhətləşmişik. 5 dekabr mənim yox, ziyalıların məsləhəti olub. Tədbir isə ümum Qərbi Azərbaycanı əhatə edib. O cümlədən dərələyəzlilər də olub. Sənin nə deməyindən asılı olmayaraq qərbi azərbaycanlılar həm ölkə daxilində, həm ölkə xaricində alqışlayırlar.

Nazir Ahmedli: Anım və ya deportasiya gününü Göyçə ilə uzlaşdırmağın da közü öz qabağına çəkmək təşəbbüsüdür, amma

mən buna da etiraz etmirəm. Əslində daha yaxşı, məntiqli olardı ki, anım günü kimi sonuncu türkün Qərbi Azərbaycanı tərk etdiyi günü təyin edəydin. Bunun böyük rəmzi, siyasi və mənəvi əhəmiyyəti var. Çünki ***Qərbi Azərbaycanda 1 nəfər də türkün qaldığı günü oradakı milli varlığımızın hələ də mövcud olması, müqavimət göstərməsi kimi qəbul etməli və təqdim etməliyik.*** Bu barədə bu qədər. Mənim əvvəlki yorumda demək istədiyim bu olmasa da, onu da başqa səmtə yönəltməyə cəhd edirsən. Mən demək istəyirəm ki, əgər Anım Gününü 5 dekabra təyin edəcəkdinsə, yığıncağı ondan 10 ay əvvəl keçirməkdə nə yaman tələsiklik edirdin? Əgər Dağlıq Qarabağ ətrafında yaranan münaqişənin başlanmasına işarə edəcəksənsə, yenə alınmır! Münaqişə 1988-ci ilin 4 fevralında yox, fevralın sonuncu günlərində başladı. ***Yığıncağın tarixini heç olmasa fevralın 26-na təyin edib, Xocalı Soyqırımını da xatırlaya bilərdiniz!*** Mürvət Yusifov, cığallığın keçməz! Bir də yazırsan ki,"bunlar məni nə qorxudası, nə də yolumdan döndərəsi deyil." Bəyəm mən yolkəsənəm, adam öldürənəm, yoxsa kiməsə hədə gəlmişəm? Mənim QƏLƏMİM var!! O QƏLƏM 30 ildir ki, yalnız və yalnız ədalətə, Haqqa xidmət edib və mən yaşadıqca elə də olacaq! Bütün bu baş verənləri tarix üçün yazmaqdan başqa bir fikrim də yoxdur! Qoy TARİX aramızda ƏDALƏTLİ HAKİM olsun! Amin!

Murvet Yusifov: Hansı günün anım günü olması əsas deyil. Elə bir ay yoxdu ki, erməni vəhşiliyi, erməni hiyləsi, erməni tələsi ilə rastlaşmamış olaq. Əsas odur ki, bir günü tarixiləşdirib anım günü qəbul edək. Buna görə də ziyalıların fikrini qəbul edib 5 dekabrı müəyyən etdik. 3 ay idi gün məsələsini müzakirə edirdik. Qərardan sonra müzakirə açmaq qulp qoymaq deyilmi?

Nazir Ahmedli: Amma S.Hacıyevin əli ilə törətdiyiniz o hərəkət yazılarımda öz qiymətini alacaq.

Murvet Yusifov: Sabutay Hacıyevin indiki sənədi gətirəcəyini sənə 7 ay əvvəl söz vermişdik. Sən ironiya ilə qarşılamışdın. Sabutay bəyə tərəfimdən təşəkkür borcum var ki, bunu da tədbirə sürpriz etdi.

M.Yusifov "Sabutay Hacıyevin indiki sənədi gətirəcəyini sənə 7 ay əvvəl söz vermişdik" etirafı ilə həmin saxtakarlıqda iştirak etdiyini etiraf edir. "Söz vermişdik, indi də eləmişik!"

Nazir Ahmedli: S.Hacıyev sənin "sənəd" dediyin Fotoşop məhsulu ilə özünü biabır etdi. O adamın arxivlə bağlı iynənin ucu qədər məlumatı yoxdur! Əgər məlumatı olsaydı, bilərdi ki:

1.1917-ci ilə qədər olan sənədlər Moskvadakı Rusiya Dövlət Arxivində yox, S.Peterburqdakı Rusiya Dövlət TARİX Arxivində saxlanılır.

Murvet Yusifov: Nazir Əhmədli, hər halda sənin əlindəki "sənəd"dən qat-qat etibarlıdı.

Nazir Ahmedli:

2.Birinci Ümumrusiya siyahıya alması 1879-cu ildə yox, 1897-ci ildə keçirilib

3.Siyahıyaalmanın nəticələri 1897-ci ildə yox, 1899-1905-ci illərdə çap olunub!

4.Həmin siyahıyaalmada vətəndaşların adı yazılmayıb, yalnız sayı göstərilib.

5.İ.Ələsgəri də yalançı edib, çünki o Aşıq Ələskərin Anaxanımdan 8 yox, 16 il böyük olduğunu yazmışdı.

Murvet Yusifov: Burada əbəs yerə mübahisə aparırsan. O sənədə onlarla ziyalı baxdı. ...

Nazir Ahmedli:

6.Həmin "arayışı" niyə Moskvada yaşayan və yaxşı əlaqələri olan professor Ə.Allahverdiyev yox, S.Hacıyev alırdı ki? S.Hacıyevin 7 ay sərf etdiyi işi Ə.Allahverdiyev 3 günə həll edə bilərdi.

Yenə sayım, yoxsa bəsdir?

Murvet Yusifov: Say, onsuz da yuxun ərşə çəkilib)

Nazir Ahmedli: Məndən narahat olma, hər gün saat 2-də yatmağa vərdiş eləmişəm. Ehtiyatımda hələ 1 saat var! ::)))) Adamlarına denən, növbəti dəfə saxtakarlıq etməyə təşəbbüs etsələr, daha professional şəkildə etsinlər!!

Murvet Yusifov: Oğrunun bağırmağı doğrunun səsini batırmağına döndü vallah. Sənin saxtakarlığına qarşı çıxan bizik. Sən də bizi saxtakar adlandırırsan. Yeri gəlmişkən Nizami Cəfərov deyib ki, ön sözü Nazir özü yazıb mənim adımla. Bu barədə nə deyə bilərsən?

Nazir Ahmedli: Nizami Cəfərov o cür söz deməz, çünki özü yazıb. Onun üslubunu bilən mütəxəssislər bunu asanlıqla görə bilər. Sən özün də oxusan, bizim uslublarımızın kəskin şəkildə fərqləndiyini hiss edə bilərsən. İkincisi də kimin yanında deyib o sözü?

Murvet Yusifov: Mən ələmədiyim sözü işlətmirəm.Amma bunun zamanı var axı.

Nazir Ahmedli: Sözü işlətmisənsə, indi cavab vermək sırası sənindir. Kimin yanında deyib o sözü? N.Cəfərov hələ 1996-cı ildə çıxan ilk kitabım ***"Milli Məclisdən etüdlər"*** kitabıma da ön söz yazıb. Orada məni "dünyanın ən böyük siyasi jurnalistlərindən biri" adlandırmışdı. Açığı, mən bu sözdən utandım, Nizami müəllimə dedim ki, mənim qiymətimi şişirdib və həmin cümləni çıxartdım, amma Nizami müəllim təkidlə həmin cümləni bərpa etdirdi.

Əgər Nizami müəllimin kimin yanında o sözü dediyini deməsən, hamı görəcək ki, onu özündən uydurmaqla həm mənə, həm də ona şər atırsan, çirkin iftiraya yol verirsən.

Həm də atalar demiş, aşığın sözü qurtaranda "neynim, neynim" deyər! Əgər belə şeylərlə məni əsəbləşdirəcəyini düşünürsənsə, heç özünü yorma!

Murvet Yusifov: 1996-cı ildəki Nizami Cəfərovla 2017-ci ildəki Nizami Cəfərov fərqli adamlardı. Beləki, "qələti məşhurlar" ifadəsi ilə özü özünü də təkzib etdi.

Nazir Ahmedli: Mənim 11 kitabım çıxıb, hələ o ifadəni işlətməmişəm, leksikonumda olmayıb. Bu söz köhnə akademik mühitdən gəlmə sözdür və Nizami müəllim özü işlədib. Açığını desəm, o söz heç mənim ağlıma da gəlməzdi ki, yazam, ya da yazmayam. Amma sən hələ də sualıma cavab verməmisən. Belə dialoq olmur.

Murvet Yusifov: Nizami Cəfərov özü kimə dediyini yəqin ki, bilir.

Nazir Ahmedli: Aydındır!!!

Murvet Yusifovun statusu
6 fevral 2018

04 fevralda keçirdiyimiz Yurd Həsrəti adlı tədbirimiz bəzi ünsürləri bərk narahat edib. Odur ki, ciddi-cəhdlə əks təbliğata başlayıblar.

Bəziləri özlərini "ələsgərsevər" kimi göstərib tədbirin əhəmiyyətini məhdudlaşdıraraq yalnız Dədə Ələsgərin həyatına atılmış çamura cavab kimi məqsədli olaraq təbliğ edir, bəziləri isə özlərinə qarşı "hazırlanmış şou" hesab edir (Nazir Əhmədli).Qeyd edim ki, bu anda hər iki tərəfin mövqeyi bizlər üçün eyni qiymətləndirilir.Tədbirin gündəliyində duran və qərara alınan məsələlər aşağıdakılar olub.

1.Hər il 5 dekabr qanlı deportasiyanın anım günü kimi qeyd edilsin.

2.Anım mərkəzi üçün məkan ayrılması ölkə başçısından xahiş edilsin.

3.Məlum müqavilənin vaxtının bitdiyinə görə İrəvan məsələsinə yenidən baxılması üçün Azərbaycan hökümətinə müraciət edilsin.

Tədbirdə Sabutay Hacıyevin fakt əsasında çıxışı əhəmiyyətli hadisə olsa da tədbirin mahiyyəti demək deyil.

Mən, qərəzli təbliğatçılara səslənirəm. Cəsarətiniz olmadığı halda əngəl olmağa cəhd etməyin. ***Dayanmasanız adlarınızı və məqsədinizi açıqlamaqla mətbuatda geniş çıxış edib kimliyinizi ifşa edəcəm.***Çəkilin yolumuzdan!

Nazir Əhmədliyə isə bir daha bildirirəm ki, xarici qüvvələrin sifarişi ilə yazdığı çap məhsuluna Azərbaycan ictimaiyyətindən kifayət qədər sərt təpki aldı zamanında. Bunu bir daha təzələmək ona və havadarlarına xeyir gətirməyəcək.Şəxsi səhifəndə iki-üç adamı çaşdıraraq özünə bəraət qazanmaq cəhdin əbəsdi. Yetər!

Mürvət özünü o qədər "çoxbilmiş" hesab edir ki, bir güllə ilə ilə iki quş "vurduğunu" düşünür: Həm Sabutayın əli ilə mənə qarşı çirkin təxribat törədir, həm də kimlərisə, çox güman Rizvan Talıbovu qaralamaq istəyir. Guya R.Talıbov onun "tədbiri"nin əhəmiyyətini kiçiltmək üçün məni söydürüb. Belə yazır: "Mən, qərəzli təbliğatçılara səslənirəm. Cəsarətiniz olmadığı halda əngəl olmağa cəhd etməyin. Dayanmasanız adlarınızı və məqsədinizi açıqlamaqla mətbuatda geniş çıxış edib kimliyinizi ifşa edəcəm.Çəkilin yolumuzdan!"

Mürvət, sən özünü artistliyə qoyub belə primitiv oyunlar çıxartdın, Nazir Əhmədli də sənə inandı!

Yorumlar:

Aqşin Hacı Zadə: O yazıqcığzalar sizin haqlı iradınızın, və inadınızın qarşısında sınmış sayılırlar artıq. Sizi öpürəm Mürvət müəllim, sizə eşq olsun.

Cəlal Həsənov: Dədə Ələsgərin bir nəticəsi kimi deyirem: ona sataşmaq istiyənlər allah qarşısında cavab verməli olacaqlar !!!

Qurbetde Parlayan Qigilcim: Haqq Aşığına "sataşmağa" heç kim cüret ede bilmez! Onlar yalnız o zirveye baxıb, köks ötürenlerdi. Sadece olaraq babamızla gündeme gelib meşhurlaşmaq istediler, netice de göz qabağındadı...

Qabil Zimistanoglu: Fikr etmə, Murvet Yusifov bəy, ***tarixən həmişə böyük işlər görənlərin əl-ayağına dolaşanlar çox***

olur. Amma əksər hallarda alaq otlar, çör-çöp kimi ayaqlar altında qalıb məhv olurlar. Onlar da belələrindəndir!!!

Qabilin "pafosu" adamı "heyran qoyur!" Amma kimin ünvanıma yazsa da, özləri haqqında çox sərrast şeylər deyıb: "tarixən həmişə böyük işlər görənlərin əl-ayağına dolaşanlar çox olur. Amma əksər hallarda alaq otları, çör-çöp kimi ayaqlar altında qalıb məhv olurlar".

Çox haqlısan. Qabil Zimistanoğlu, mənsub olduğun qaraguruhçu dəstə haqqında bundan gözəl və dəqiq söz demək mümkün deyil!

Pervane Zengezurlu: Qardaş, siz belə şeylərə fikir verməyin. Vətən, yurd, el-oba dərdi, həsrəti çəkənlər 4 fevralda o tədbirdə iştirak etdilər və öz ürək ağrılarını bir daha bölüşdülər Mürvət müəllim sizə çox təşəkkür edirik o günkü tədbirə görə və arzu edirik ki, elə tədbirləri tez-tez keçirdək

Murvet Yusifov: Təşəkkür edirəm Pərvanə xanım. Narahat etmir, sadəcə münasibət bildirirəm ki, ölçü götürsünlər.

Nazir Ahmedli: Mürvət Yusifov, S.Hacıyevin adamlara göstərdiyi kağız necə adlanır? Arxivin cavab məktubudur, arayışdır, nədir axı? Kağızın ortasındakı mətndən başqa heç nə oxunmur. Onun surətini əldə edə bilərəmmi?? Onun nömrəsi, tarixi varmı? Kim onu imzalayıb və vəzifəsi nədir? Paylaşdığınız şəkildə heç nə görünmür. Bu göstəriciləri buraya yaza bilərsinizmi?

Murvet Yusifov: Nazir Əhmədli, heç narahat olma. Həmin sənəd televiziyalarda nümayiş etdirilib. Baxmamısansa xüsusi veriliş də gedəcək. Vaxtında xəbər paylaşaram baxarsan.

Nazir Ahmedli: Mürvət Yusifov, həmişəki kimi sualdan yayınma, bu kağızdakı tarixi, onun nömrəsini, kim tərəfindən imzalandığını və onun vəzifəsini göstər. Kimə ünvanlandığı da yoxdur. Belə sənəd olur? İctimaiyyətin gözünə kül üfürməklə məşğul olma! Buradakılar hamısı savadlı adamlardır.

Murvet Yusifov: Müstəntiq kimi davrandın. Sualı yetərincə cavablandırdım.

Nazir Ahmedli: Hər şey mənə lap əvvəldən aydın idi, güman edirəm ki, ictimaiyyətə də aydın oldu.

Murvet Yusifov: İctimaiyyətə aydın oldu. Amma sənə olan yox. Nazir Əhmədli, məsləhət edirəm sosial şəbəkələrdə şou yaratma. Bir tədbir də sən düzənlə. Mən orada iştirak edib sənin suallarını cavablandıracam. Halbuki suallar sənə ünvanlanmalıdı.

Cəlal Həsənov: Mürvət bəy salam. Dədə Ələsğər 1821-ci ildə, oglu Bəşir 1864-cü ildə, Bəşirin oglu Qədim 1905-ci uldə, Qədimin oğlu Seyfullah 1939 -cu ildə anadan olub.Hal -hazirda 79 yaşı var, özüdə cip udarə edir.

Nazir Ahmedli: Mürvət Yusifov, sən Sabutay Hacıyevə necə dərin quyu qazdığının fərqində deyilsən. İndi ***mən həmin arxivə sorğu göndərib kiməsə belə bisavad yazılmış mətn göndərib-göndərmədiklərini aydınlaşdıracağam.*** Sonra onlar adlarından istifadə edən şarlatanları məhkəməyə verəcək, çox güman ki, Azərbaycan hökumətinə də etiraz məktubu göndərsinlər! Onda S.Hacıyevi xilas edərsən.

Murvet Yusifov:))) Nazir Əhmədli, qazdığın quyuya özün düşəcəksən. Bu yöndə fəaliyyətin zərərinə olduğunu nə qədər tez anlasan sənin üçün bir o qədər yaxşı olar!

Qabil Zimistanoglu: Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Camaat bunu məhkəməyə verməkdən ki, o erməni mənbəyinə istinad etdiyin və mötəbər dövlət sənədi adlandırdığın informasiya toplusunun "mötəbərliyi"ni gəl sübut elə.Neçə vaxtdır aləmi bir-birinə qatıb. Hələ bir danışır da... Mahallarla bağlı etdiyi saxtakarlığın fərqində deyil...

Nazir Ahmedli: Aşıq Ələsgərin yaradıcılığını mənim qədər sevən və qiymət verən az adam tapılar. Onun yaradıcılığını ən çox təhrif edən və ziyan vuran isə rəhmətlik İslam Ələsgərovdur! Mən onun yaradıcılığını İslam müəllimin müdaxilələrindən, təhriflərindən təmizləyirəm!

Mahmud Memmedov: Nazir Ehmedlinin bi çıxış yolu var. Sehv etdiyini boynuna alıb üzr istesin.

Nazir Ahmedli: Rusiya Dövlət Arxivinə göndərəcəyim sorğu hazırdır. S.Hacıyevin və M.Yusifovun o saxta "sənəd"i təkzib etmələri üçün sabaha qədər yaxşı-yaxşı düşünüb təkzib verəcəklərini gözləyirəm. Sonra gec olacaq.

5 gündür yazıram, hələ də Rusiya Dövlət Arxivi (Moskvadakı) ilə Rusiya Dövlət Tarix Arxivini (S.Peterburqdakı) bir-birindən fərqləndirə bilmirsən, Mürvət Yusifov! Ziyanın yarısından qayıtmaq da xeyirlidir. Daşı ətəyindən tök!

Murvet Yusifov: Nazir Əhmədli, mənimlə ultimatumla, xoxla danışma!

Nazir Ahmedli: Mənim yazdıqlarımda heç bir ultimatum, xoxgəlmə yoxdur, sülhə çağırış var, amma sənin məncilliyin hamıya ziyan gətirir.

Murvet Yusifov: Sülh nəyə deyirsən?Mən bir ildi əməlimlə sülhə çağırış edirəm. Amma səni qane etmir.Bunun isə bildiyimə görə bir variantı var. Göyçə mahalının tarixi ilə bağlı yazdıqlarının səhv olduğunu etiraf edəsən. Buna iradən çatmırsa AMEA-ın Tarix İnstitutunun, Folklor İnstitutunun rəsmi münasibətini ortaya qoydur.

Nazir Ahmedli: Adını çəkdiyin qurumlar məndən yazılan donosa cavab olaraq DTX-nın sorğusuna cavab veriblər. Mənim elmi fəaliyyətimi davam etdirməyim, 5 cildliyimin isə Tarix İnstitunda çapa hazırlanması onların mövqeyini əks etdirmirmi? Donosdakı müraciət edilən ünvanlardan 5-cisi Tarix İnstituna idi, AMEA Rəyasət Heyətindən də Folklor İnstitutuna, Ədəbiyyat İnstitutuna, Əlyazmalar institutuna, Şərqşünaslıq İnstitutuna, Nizami adına Ədəbiyyat Muzeyinə, Aşıqlar Birliyinə müraciət edilib yazılı rəy istəmişdilər. Görürsən ki, sağ-salamatam. Sülh isə ona deyirəm ki, fevralın 4-dəki kimi provokasiyalar olmasın, hər kəs elmi tədqiqatla məşğul olub yeni-yeni kitablar yazsın. Məsələn, N.Göyçəlinin buraxdığı “kitab” və H.İsmayılovun "Aşıq Ələsgər" monoqrafiyası kimi. Mübahisəni, diskussiyanı elmi səviyyədə aparaq, siyasi, şəxsi düşmənçilik, dava-dalaş olmasın. Özün şahidsən ki, burada neçələri məni təhqir edir, heç birinə baş qoşmuram, ancaq sənlə fikir mübadiləsi edirəm. Mən sülh

deyəndə bunları nəzərdə tuturam. Siz isə S.Hacıyev olayı ilə, əliniz çatan bütün KİV-lərdə mənə böhtan, təhqir yağdırırsınız, yəni geniş cəbhə üzrə savaş aparırsınız.

Mürvət nə qədər riyakarlıq edib Sabutayın o saxtakarlığında özünün iştirakını inkar eləsə də, onun fevralın 4-nə təkidlə yığıncaq keçirmək istəyi məhz həmin saxtakarlığa start vermək istəməsi ilə bağlı idi. Rizvan Talıbov adlı bir nəfər isə hələ bir neçə il bundan əvvəl yaratdığı "Qərbi Azərbaycana Qayıdış Hərəkatı"nın yığıncağını keçirmək istəyirdi. Mürvət bərk əsəbləşmişdi-R.Talıbov bilməyərəkdən onun planlarına mane olurdu. Mürvət əvvəlcə ona hücuma keçib fevralın 4-də israrla yığıncağını keçirdi:

Murvet Yusifovun statusu
28 yanvar 2018

İndi də Rizvan Talıbov başlayıb.
04 fevral 2018 -ci il saat 18-00 da Gənclikdə zooparka yaxın Tural Mərasim Evində keçirəcəyimiz Yurd Həsrəti adlı tədbir adamı əməlli-başlı əndişələndirib.Artıq üç gündü gecəni gündüzə qatıb qarayaxmalarla, qırmızı böhtanla təxribat aparmaqla məşğuldu.

Erməni işğalında inləyən yurd yerlərimizi, o yerlərdə nigaran dolaşan ruhlarımızı ellikcə anmaq, ermənilərin başımıza gətirdiyi, işgəncələrlə kütləvi deportasiya edildiyimiz günü tarixiləşdirib, Anım Günü təyin etmək Rizvan Talıbovu niyə qarın ağrısına salıb? Bu sualın cavabını mən tapmışam. Amma...

Bəlkə başqa cür fikirləşənlər var?

Mürvət Yusifovun başçılıq etdiyi qaraguruhçuların geri çəkilmək fikrində olmadıqlarını gördükdən sonra Rusiya Dövlət Arxivinə müraciət etməkdən başqa yolum qalmadı. Onların 1 gün fikirləşmək və təkzib vermək fikrində olmadıqları da aydın oldu. Sabutay Hacıyevin qohumu olduğunu bildirən Şahlar

Hacıyevlə də söhbətimiz oldu. Ona təklif etdim ki, yaranmış vəziyyətdən ən yaxşı çıxış yolu Sabutay Hacıyevin zarafat etdiyini bəyan etməsi ola bilər. Beləliklə, nə şiş yanar, nə kabab. Amma heç bir nəticə hasil olmadığını gördükdən sonra qərarımı verdim.

"Директору Российского Государственного Архива

Роговой Ларисе Александровне

Многоуважаемая Лариса Александровна!

Я имею учёную степень кандидата наук и занимаюсь исследованием архивных документов Закавказского края 19-го века. В камеральных описаниях данного периода установил дату рождения, состав семьи, перемешение (переселение) и вид деятельности многих знаменитых личностей Азербайджана. Одним из них является и знаменитый поэт Ашуг Алескер, который родился в 1852-ом году в селе Агкилисе Новобаязитского уезда (на территории нынешней Республики Армения). До этого времене в наших научных кругах дату рождения поэта принимали за 1821-й год.

Собиравшие отметить 200-летие остались недовольны этим фактом. Даже нашлись обыкновенные черносотенцы, начали унижать меня в глазах общественности, обвиняя в непатриотизме. Я основывался на камеральные описания, которые содержатся в Национальном архиве Армении, уточнил даты рождения некоторых литературных знаменитостей. Из-за этого могут отложить юбилеи. Эти невежды предпочитают старые данные, а не архивные данные в Армении.

На днях, точнее 4 февраля 2018-го года один из них, по имени Сабутай Гаджиев, распространил в соцсетах, в СМИ

(например, musavat.com от 07.02.2018 и др.) от имени Вашего Архива такой нелепый текст, думая что как будто от вашего имени официально опровергал меня. Но эти люди настолько некомпетентны, безграмотны, что даже не знают дату первого Российского Всеобщего переписи населения и не думали уточнить эту дату с помошью интернета. В итоге получается что эти люди шарлатаны и вас выдают некомпотетным в глазах научных кругов, в общественной среде. В соцсетях я объясняю, что это не является документом хотя бы потому, что тут не указан адресат, нет номера и даты на ней, с трудом читается ваше имя и должность. Не вооруженным глазом видно, что это сделано с помощью компьютерных программ (фотошоп и т.д). А это обыкновенное жульничество, даже я сказал бы преступление.

Правда, этот человек превратил себя в обьект посмешища в глазах общественности, но нашлись и такие, которые поверили ему, тем самым пострадала моя и где-то ваша репутация.

Многоуважаемая Лариса Александровна!

Я уверен, вы не останетесь безучастной на этот фарс и примите меры для спасения моей и вашей репутации. Иначе я окажусь пострадавшим от имени Вашего учреждения. Думаю, следует обратиться в наше посольство в Москве и Посольство Российской Федерации в Баку. Что предпримите еще, вам виднее, но мне ясно одно - нельзя этот вопрос обойти стороной, чтобы в будущем всякие провокаторы не делали подобное.

Надеюсь, о предпринимаемых мерах осведомите и меня.

С глубоким уважением,

Назир Сурхай оглы Ахмедли.

Заведующий отделом по международным связям Центра Ататюрка.

г.Баку.

09.02.2018.

Прилагаю сфабрикованный "документ" Сабутая Гаджиева".

Müraciətin tərcüməsi:

"Rusiya Dövlət Arxivinin direktoru

Larisa Aleksandrovna Roqovayaya

Çox hörmətli Larisa Aleksandrovna!

Mənim elmlər namizədi alimlik dərəcəm var və Zaqafqaziyanın 19-cu əsrə aid arxiv sənədlərinin tədqiqi ilə məşğul oluram. Həmin dövrün kameral siyahılarında Azərbaycanın bir çox məşhur şəxslərinin doğum tarixini, ailə üzvlərinin adlarını, bir yerdən başqa yerə köçmələrini, məşğuliyyətlərini müəyyən etmişəm. Onlardan biri də 1852-ci ildə indiki Ermənistan Respublikasının ərazisində yerləşən Novobəyazid qəzasının Ağkilsə kəndində doğulan məşhur sənətkarımız Aşıq Ələsgərdir. Bizim elmi dairələrdə onun 1821-ci ildə doğulduğunu qəbul edirdilər.

Onun 200 illik yubileyini qeyd etməyə hazırlaşanlar bundan narazı qalmışlar. Hətta bir sıra qaraguruhçular məni qeyri-

vətənpərvərlikdə suçlayaraq ictimaiyyətin gözündə alçaltmağa çalışmışlar. Mən Ermənistan Milli Arxivindəki sənədlərə əsaslanaraq bir sıra ədəbiyyat nümayəndələrinin doğum tarixlərini dəqiqləşdirmişəm. Buna görə həmin ədəbi simaların yubileyləri təxirə salına bilər. Ona görə də bu nadanlar Ermənistan Arxivindəki məlumatlardansa, köhnə və səhv məlumatlara üstünlük verirlər.

Bu günlərdə, daha dəqiq desək, 4 fevral 2018-ci ildə onlardan biri, Sabutay Hacıyev adlı bir nəfər sosial şəbəkələrdə və KİV-lərdə (məsələn, **musavat.com** və başqaları) Sizin adınızdan sərsəm bir mətn yayaraq guya məni rəsmi şəkildə "təkzib etmişdir". Lakin bu insanlar o qədər avam və savadsızdır ki, birinci Ümumrusiya siyahıyaalmasının keçirildiyi tarixi bilmir və onu internet məlumatlarından dəqiqləşdirməyi ağıllarına gətirməmişlər. Nəticədə bu şarlatanlar Sizi də ictimaiyyətin nəzərində və elmi dairələrdə savadsız kimi qələmə vermişlər. Sosial şəbəkələrdə kimə ünvanlandığı, nömrə və tarixinin olmadığı, adınızın və vəzifənizin çox çətinliklə oxunduğuna görə bu kağızın sənəd olmadığını izah etmişəm. Adi gözlə də görmək mümkündür ki, bu saxtakarlıq **Fotoşop** və başqa kompüter proqramlarının vasitəsilə edilib. Bu isə adi fırıldaqçılıq, hətta deyərdim ki, cinayətdir.

Çox hörmətli Larisa Aleksandrovna!

Əminəm ki, Siz bu fırıldaqçılığa biganə qalmayacaq, mənim və özünüzün reputasiyanızı qorumaq üçün ölçü götürəcəksiniz. Başqa halda, mən Sizin müəssisənizin adı ilə zərər çəkmiş olacağam. Düşünürəm ki, bu barədə bizim Moskvadakı səfirliyimizə və Rusiyanın Azərbaycandakı səfirliyinə müraciət etməlisiniz. Hər hansı başqa tədbir görəcəyinizi də özünüz bilərsiniz. Lakin bir şey şübhəsizdir ki, bu məsələni kənara qoymaq olmaz ki, başqa provokatorlar da buna oxşar hadisələr törətməsinlər.

Ümid edirəm ki, həyata keçirdiyiniz tədbirlər haqqında mənə də məlumat verəcəksiniz.

Dərin hörmətlə,

Nazir Surxay oğlu Əhmədli.

Atatürk Mərkəzində beynəlxalq əlaqələr şöbəsinin müdiri.

Bakı şəhəri, 09.02.2018.

Sabutay Hacıyevin düzməcə "sənəd"ini əlavə edirəm".

Və Moskvadan gözlədiyim cavab 2018-ci il fevral ayının 21-də gəldi:

«ГОСУДАРСТВЕННЫЙ АРХИВ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ

Ул.Б.Пироговская, 17, Москва, 119435.

Тел.(495)580 88 41; факс (490)245 12 87

e-mail: garf@statearchive.ru

19 февраля 2018. №1385-Т

Назиру Сурхай оглы Ахмедли

Уважаемый господин Ахмедли!

В ответ на Ваш запрос сообщаем,что «документ», размещенный в сети Интернет по адресу: http://musavat.com/news/asiq-elesger-haqda-kitabdaki-saxtakarliqlara-qarsi-sened-ortaya-qoyuldu-fotofakt_503316.html, не является информационным письмом Государственного архива Российской Федерации.

Формуляр информационного письма ГА РФ включает в себя, в частности, номер запроса, фамилию и инициалы заявителя (в вышеуказанном «документа» эти элементы отсутствуют). При этом круглая печать архива с изображением Государственного герба Российской Федерации на информационные письма не ставится (в вышеуказвнном «документа» имеется изображение круглой печати архива). Оформление размещанного на вышеуказанном сайте «документа» не соответствует оформлению бланков архива. Изображения заимствованы составителем «документа» на официальном сайте ГА РФ.

Сведения, изложенные в «документ», не содержащем реквизитов, подтверждающих достоверность информации, и размещенном на информационном ресурсе физических или юридических лиц, никому из которых ГА РФ не давал права и не уполномочивал выражать официальную позицию архива по вопросам своей деятельности, не соответствует действительности.

Для сведения сообщаем, что на запрос президента общественной отганизации «Федеральная национальнл культурная автономия азербайджанцев России» М.Садыговой о наличии информации об Ашуге Алескере (Алескере Алмамеде оглы) в в документах ГА РФ был дан отрицательный ответ с рекомендацией для дальнейших поисков.

Приложение: копия информационного письма ГА РФ №9690-Т от 30 августа 2017 г.

С уважением,

Директор архива Л.А Роговая.»

«ГОСУДАРСТВЕННЫЙ АРХИВ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ

Ул.Б.Пироговская, 17, Москва, 119435.

Тел.(495)580 88 41; факс (490)245 12 87

e-mail: garf@statearchive.ru

30 август 2017. №9690-Т

На №94 от 21.08.2017 г.

Президенту общественной организации «Федеральная национально-культурная автономия азербайджанцев России» М.Садыговой

Красная Пресня ул..,24, Москва, 123022.

Уважаемая госпажа Садыгова!

В ответ на Ваш запрос сообщаем,что по электронной базе и научно-справочному аппарату Государственного архива Российской Федерации, в том числе по картотеке Департамента полиция Министерства внутренних дел Российской империи, сведений об Ашуга Алескере (Алескере Алмамеда оглы) не выявлено. Уведомляем, что документы об интересующей Вас переписи в Ново-Баязидском уезде Эри-

ванской губернии могли отложиться в фондах местных органов управления и организационных структур. Для выявления их местонахождения рекомендуем обратьться в Национальный архив Армении, расположенный по адресу: Республика Армения, 0033, г.Ереван, ул. Гр.Кочара 5/2 (e-mail: info@armarchives.am). Также сообщаем, что ваш представитель может вести исследовательскую деятельность в читальных залах архива и пользоваться информационно-поисковой системой, размещенной в Интернете (http://statearchive.ru|383).

С уважением,

Директор архива Л.А.Роговая»

Sənədlərin tərcüməsi (tərcümə mənimdir):

RUSİYA FEDERASİYASI DÖVLƏT ARXİVİ

19 fevral 2018. №1385-T

Nazir Surxay oğlu Əhmədliyə

Hörmətli cənab Əhmədli!

Sizin sorğunuza cavab olaraq bildiririk ki, İnternetdə http://musvat.com/news/asiq-elesger-haqda-kitabdaki-saxtakarliqlara-qarsi-sened-ortaya-qoyuldu-fotofakt_503316.html ünvanında yerləşdirilən "sənəd" Rusiya Federasiyası Dövlət Arxivinin məlumat məktubu deyil.

Rusiya Dövlət Arxivi məlumat məktublarının formulyarında sorğunun nömrəsi, sorğu verənin soyadı, adı və atasının adı göstərilir (yuxarıdakı "sənəddə" bu elementlər

yoxdur). Həm də məlumat xarakterli məktublarda Rusiya Federasiyasının gerbinin təsviri olan dairəvi möhür vurulmur. Göstərilən saytda yerləşdirilən "sənədin" o cür tərtib edilməsi arxivimizin blanklarının tərtibatına uyğun deyildir. "Sənədi" tərtib edənlər çox gümün ki, Rusiya Dövlət Arxivi direktorunun imzasının şəklini, eləcə də arxivin simvollarını Rusiya Federsiyası Dövlət Arxivinin rəsmi saytından götürmüşlər.

Rusiya Federasiyası Dövlət Arxivinin öz adından danışmaq səlahiyyəti və hüququ vermədiyi hər hansı fiziki və hüquqi şəxs tərəfindən informasiya vasitələrində yerləşdirilən və onların düzgünlüyünü təsdiq edən rekvizitlərin olmadığı "sənəd"də verilən məlumatlar həqiqətə uyğun deyildir.

Məlumat üçün bildiririk ki, "Rusiyada yaşayan azərbaycanlıların Milli-mədəniyyət Mərkəzi"nin prezidenti M.Sadıqovanın Aşıq Ələsgər (Ələsgər Almәmməd oğlu) haqqında hansısa məlumatın olub-olmaması haqqındakı sorğusuna axtarışlarını davam etdirmələrini tövsiyyə etməklə mənfi cavab verilmişdir.

Qoşma: Rusiya Federasiyası Dövlət Arxivinin 9690-T nömrəli, 30 avqust 2017-ci il tarixli məlumat məktubu.

Hörmətlə,

Arxivin direktoru L.A.Roqovaya».

«RUSİYA FEDERASİYASI DÖVLƏT ARXİVİ

30 avqust 2017. № 9690-T

Rusiyada yaşayan azərbaycanlıların

Milli-mədəniyyət Mərkəzinin prezidenti

M.Sadıqovaya

Hörmətli xanım Sadıqova!

Sizin sorğunuza cavab olaraq bildiririk ki, Rusiya Federasiysı Dövlət Arxivinin elektron bazasında və elmi-məlumatlar sorğu aparatında, o cümlədən Rusiya İmperiyası Daxili işlər Nazirliyi polis Departamentində Aşıq Ələsgər (Ələsgər Alməmməd oğlu) haqqında heç bir məlumat aşkar edilməmişdir. Bildiririk ki, İrəvan quberniyası Novobəyzid qəzası üzrə Sizi maraqlandıran siyahıyaalmalar haqqındakı sənədlər yerli idarəetmə orqanlarında və təşkilati strukturlarda qala bilər. Onların yerini aşkar etmək üçün Ermənistan Respublikası 0033, Yerevan şəhəri, Qr.Koçar 5/2 ünvanda yerləşən Ermənistan Milli Arxivinə müraciət etməyinizi tövsiyyə edirik. Həm də bildiririk ki, nümayəndəniz arxivimizin oxu zallarında tədqiqat apara və İnternetdə yerləşən məlumat-axtarış sistemindən istifadə edə bilərlər (http://statearchive.ru/383).

Hörmətlə,

Arxivin direktoru L.A.Roqovaya».

Rusiya Dövlət Arxivinin direktorundan aldığım cavab məktubu başqa mətləblərin də üstünü açdı. Məlum oldu ki, qaraguruhun Moskva nümayəndəsi prof. Ələddin Allahverdiyev hələ ötən ilin avqustunda həmin mötəbər instansiyaya müraciət etmiş və Rusiya Dövlət Arxivində Aşıq Ələsgər haqqında sənədlərin olmadığı barədə cavab almışlar. Amma buna baxmayaq, fitnə-fəsadlarından əl çəkməyərək, belə bir şarlatanlığa əl atmışlar.

Görünür, Aşıq Ələsgərin yubileyindən maddi gözləntiləri olanlar nəyin bahasına olur-olsun, bu yubileyi keçirmək istəyirdilər və mən də dəfələrlə onlara bildirmişdim ki, məni yubiley maraqlandırmır və onun keçirilməsinə də mane olmaq

fikrim yoxdur. Amma qaraguruhçuların canfəşanlığı ona gətirib çıxartdı ki, məndən ən yüksək instansiyalara, o cümlədən Dövlət Təhlükəsizlik Xidmətinə yazdıqları donosun, işverənliyin nəticəsində rəy alınması üçün kitabımın elmi idarələrə göndərilməsi nəticəsində Ələsgərin əsil doğum tarixinin 1821-ci il deyil, 1852-ci il olmasından bütün ölkə xəbər tutdu, Mürvət Yusifovla Qabil Zimistanoğlunun Sabutay Hacıyevin vasitəsilə törətdikləri fitnəkarlıq sayəsində isə beynəlxalq qurumlar da xəbərdar oldu.

Görəsən bu fitnə-fəsad törədənlər heç olmasa indi törətdikləri qəbahətlərin, Azərbaycanı beynəlxalq aləmdə rüsvay etmələrinin fərqindədirlərmi?

İnanmıram.

Mənə göndərilən cavab məktubunda musavat.com saytında yer alan məlumatın dəqiq elektron adresinin göstərilməsi **(**http://musvat.com/news/asiq-elesger-haqda-kitabdaki-saxtakarliqlara-qarsi-sened-ortaya-qoyuldu-fotofakt_503316.html**)** ***Rusiya Dövlət Arxivi əməkdaşlarının bu məsələ ilə ciddi məşğul olduğunu və həmin bədnam məqaləni də Sabutayın bədnam "sənədini" də gördüklərini və yazdıqlarımn doğruluğuna əmin olduqlarını göstərir.***

Rusiya Dövlət arxivindən M.Sadıqovaya göndərilən cavab məktubunda göstərilən ünvan: Moskva şəhəri, Krasnaya Presnaya küçəsi. 24 ünvaı isə Azərbaycan Respublikasinin Rusiya Federasiyasindaki səfirliyinin ünvanidir!

Beləliklə, məlum olur ki. bu üzdəniraq qaraguruhçu dəstə hətta Azərbaycan Respublikasının Rusiyadakı səfirliyini də bu məsələyə qoşmuşlar.

Səfirliyin köməyi ilə də istədiklərinə nail olmadıqda isə axırıncı varianta əl atıblar!

Moskvadan cavab aldıqdan sonra, elə həmin gün, ölkə ictimaiyyətini də məlumatlandırdım, bu barədə facebook sosial şəbəkəsində, ovqat.com, strateq.az saytalrında məlumat yaydım və çox keçmədən bu fırıldaqçıların üç üzü hamıya məlum oldu:

Nazir Ahmedli
21 fevral 2018, facebook

Atalar deyib, oğurluqla o biri şeyin ömrü 40 gün çəkər. Bunlarınkı cəmi 17 gün çəkdi.

İdeya müəllifləri Mürvət Yusifov, Qabil Zimistanoğlu və Füzuli Sabiroğlu, icraçısı Sabutay Hacıyev adlı müasir Ostap Bender olan primitiv kələyin üstünü açmağa müvəffəq oldum. Yazdığım məktuba Rusiya Dövlət Arxivinin direktorunun cavabı gəldi. Buyurun:

Arada M.Sadıqovanı da güdaza verdilər....

Yorumlar:

Nazir Ahmedli: Heç olmasa, ictimaiyyəti aldatmaq cəhdlərinə görə üzr istəsələr, burada məsələyə nöqtə qoyacam, əks halda məhkəməyə vermək niyyətindəyəm

Şahlar Haciyev: Nazir bəy heç nə oxunmur. Açıqla görək nə yazıblar

Nazir Ahmedli: Şahlar bəy, məncə hər şey oxunur. Yazıblar ki, bizim adımızdan verilən məktub saxtadır. Hələ avqust ayında Rusiya azərbaycnlılarının milli-mədəniyyət mərkəzinin prezidenti M.Sadıqova Aşıq Ələsgərlə bağlı bizə sorğu vermişdi və bildirdik ki, bizdə o barədə məlumat yoxdur. 3-cü şəkil də Arxivin M.Sadıqovaya göndərdiyi məktubdur.

Mamedali Hesenov: Atalar gözel deyib: “düze zaval yoxdur”. Nazir müellim, siz esil tedqiqatçı bacarığınızla bir daha sübut etdiniz ki, heqiqet her zaman qalib gelir. Sizden xahiş edirik ki, metbuat konfransı keçirib bu meseleni geniş ictimaiyyete çatdırasınız

Nazir Ahmedli: Yaxşı fikirdir, Məmmədəli müəllim, düz deyirsiniz

Sahil Humbetov: Eşq olsun Nazir muellim, men butun olan hadiseleri yaxından izleyirem siz çox duz is gorub sorgu

gonderdiniz, onlarin yalanlari uze cixdi. Ehsen size sizinlə fexr edirem.

Nazir Ahmedli: İndi məktubun mətnini də tərcümə edib yayacağam.

Sahil Humbetov: He, çox yaxşı olar, hamı da onları qinayir.

Metanet Saraclı: Aferin, Nazir müellim! Sizin mübarizliyiniz ve işgüzarlığınız qarşıdında baş eyirik. Bir institutun göre bileceyi işi bir neçe aya gördünüz. "Sağ ol" almaq evezine, qaragüruhun ağır ıttihamları ile üzleşdiniz. Sınmadınız, eyilmediniz, mübarize apara-apara işinizi davam etdirdiniz. Her zaman haqlı olduğunuzu sübut etmekle yanaşı, yeni bir eser ortaya qoydunuz. Münbit olmayan mühitde bu qeder işgüzarlıq ve telebkarlıq nümayiş etdirmek her tedqiqatçıya nesib olan keyfiyyet deyil. Son hadiseler bir daha sübut etdi ki, Siz doğru yoldasınız ve bu işıqlı yolda size uğurlar ve can sağlığı dileyirik!

Nazir Ahmedli: Çox sağ olun, hörmətli Mətanət xanım! Yaxşı ki, Sizin kimi savadlı. ayıq düşüncəli və mütərəqqi alimlərimiz, ziyalılarımız var!

Ali Shamil: Nazir bəy, ayıb deyilmi? Adamları niyə utandırırsınız! İndi qə qorxudursunuz ki, məhkəməyə verəcəksiniz. Sizi söyəndə nə olar ki? Qoy söysünlər də, məgər babanız Həsən bəy Zərdabini "Əkinçi" qəzetini çıxaranda söymədilərmi? Ölümlə hədələmədilərmi? Zərdabi rəhmətlik heç onları utandırdımı? Əksinə, Hadiyi Müzillinin ona yazdığı həcvi qəzetində çap etdi. Siz isə.. sizə yazılan həcvlərin birini heç FB nədir, saytda da paylaşmadınız. Kitaba da daxil etmirsiniz. Üzeyir bəy "Leyli-Məcnun" operasını yazanda onu nə qədər tənqid etdilər, nə qədər tənə yağdırdılar. Üzeyir bəy heç onlara gözün üstündə qaşın var demədi. Amma indi siz Moskvaya yazırsınız ki, bu məktub doğrudur ya yalan. Arxivdə azacıq işləmiş hər bir şəxs bilirdi ki, hansı cavab veriləcək. Nəticəsini əvvəlcədən bildiyiniz şey üçün niyə vaxt itirirsiniz? Deyirsən yenə yazım!

Əli müəllim ironiya ilə qaraguruhçu dəstəni utandırmamağımı tövsiyə edir. Halbuki, bu adamlarda utanan üzün olmadığı hələ 1 il əvvəldən məlumdur! Budur, onların "ideoloqlarından" olan Şahlar Hacıyev də necə deyərlər, ayıbına kor olmaqdansa, hələ Əli müəllimə hücuma keçir:

Şahlar Haciyev: Əli müəllim, yaşda məndən çox böyük olduğunuz üçün ədəb qaydalarını qorumağa məcburam. Yaşınıza uyğun olmayan tərzdə ironiya ilə yazırsınız. Özünüzü Həsən bəy Zərdabinin, Üzeyir Hacıbəyovun davamçıları kimi təqdim edirsiniz. Aşıq Ələsgərin haqq səsini müdafiə edənləri az qalsın vətən xainləri kimi, Əliheydər Qarayevin nəvələri kimi təqdim edirsiniz.Bu qədər fikir mübadiləsi oldi. Bir dəfə də olsun Göyçəli kimi fikrinizi bildirdinizmi. Məgər siz Aşıq Ələsgərin yaradıcılığı ilə tanış deyilsiniz? Bilmirsiniz ki, Aşıq Ələsgər neçə yaşında rəhmətı gedib, bilmirsiniz ki, Göyçədə qədimdən türklər fasiləsiz 1988-ci ilədək yaşayıb, bilmirsiniz ki, millilərin sayı üstünlük təşkil etməyib..Mən heç bir rus arxivindın gələn sənədlərə inanmıram. Mən gerçək tarixı, ağız ədəbiyyatına inanıram. Rəhmətlik nənəm 1870 ci ildə goğulub və 106 yaşında rəhmətə gedib. O deyirdi ki, bizim toyunuzu Aşıq Ələsgər eləyib. Onda orta yaşlı adam idi. ..55-60 yaşı olardı (1885 də)budur ağız ədəbiyyatı...Yaxanda xahiş edirəm ironiyanı kənara qoyun..

Şahlar Hacıyev üzrü günahından betər bir cümləsində yenə də nə qədər səhvlərə yol verir! Əvvəla, Əli Şamil həmin məsələlərə öz münasibətini "Haqq-nahaqq seçilər Haqq divanında" kitabına yazdığı irihəcmli ön sözdə ətraflı şəkildə bildirib. İkincisi isə rəsmi sənədləri hər vəchlə özündən kənara qovaraq, "Mən gerçək tarixi, ağız ədəbiyyatına inanıram" deməklə, elmdən çox uzaq adam olduğunu göstərir.

Ş.Hacıyev yorumlarının birində islamaqədərki türk tarixi üzrə araşdırmalar apardığını bildirir. Əgər üstündən heç 200 il də keçməmiş yaxın tariximizi bu cür "bilirsə", vay islamaqədərki türk tarixinin halına! Görəsən, Ş.Hacıyev həmin dövrü "tədqiq

edəndə" nəyə əsaslanacaq? İndiki nənələrin nağıllarına, "Əsli və Kərəm" dastanına, yoxsa ayrı bir şeyə?

İnşallah, nəyə əsaslandığını "əsərləri" çap olunanda öyrənərik!

Nazir Ahmedli: Əli müəllim, açığı məni rəncidə edən bu adamların saxtakarlığından daha çox, onlara inananların mövcudluğu idi. Dünyanın bu vaxtında, hamısı ali təhsil almış bəzi novruzəlilər doğrudan da həmin "sənəd"in doğruluğuna inanmışdılar. Məni dilxor edən cəmiyyətin cahilliyi idi. Cəmiyyətimiz hələ də Şeyx Nəsrullaları qəbul etməyə hazırdır. Min təəssüf!

Ahmed Nasibov: Bax belə yerdə deyerlər: "Yerə soxum boyunlarını".Yekə-yekə kişilərdirlər, görün necə saxtakarlıqla məşğuldurlar. İndi onlara sual vermək istəyirəm: Bu oyun sizə lazım idi?

Axı hər birinizin özünüzə görə adınız-sanınız var idi. İndi bu biyabırçılıqdan necə qurtulacaqsınız? Mən bu olayla əlaqədar, dəfələrlə münasibətimi bildirmişəm. Lap 100 il o yana və ya bu yana. Məgər Aşıq Ələsgərin bununla dəyəri dəyişilir? Nəyə lazım idi qaşınmayan yerdən qan çıxartmaq?

Elmar Hesenov: Savadsızlıq ve saxtakarlığın bariz nümunesi! Nazir bey, sebriniz ve savadınız saxtakarlar üzerinde şanlı qelebe elde etdi.

Refail Lachin: Nazir bəy indi siz elə bilirsiniz ki, bu Şeyx Nəsrullalara nəyisə sübut etmək mümkündür? Birazdan deyəcəklər o arxivin özü saxtadı, qərəzlidi-"Şopen kişi də, digərləri də gap eləyib" və bu əsassız iddiaları novruzəlilər sizin həqiqətdən tez və rahatlıqla qəbul edəcəklər.

Nazir Ahmedli: Tamamilə mümkündür, Rəfail müəllim. Mən onsuz da onlardan etiraf gözləmirəm. Daha çox fikirləşirəm ki, görəsən hansı növbəti fitnəkrlığı hazırlayırlar? Ən pis tərəfi isə o oldu ki, Qərbi Azərbaycanlıların doğma yurd-yuvalarından qovulması ilə bağlı guya Anım günü keçirib, bu fitnəkarlığı ortaya

atdılar, həmin insanların ruhunu, Vətən sevgisini təhqir edib ucuzlaşdırdılar. Çox təəssüf edirəm.

Bunlar üçün həyatda müqəddəs bir şey yoxmuş!

Eziz Elekberli: Nazir müəllim, bilirsiniz maraqlısı nədir? Maraqlısı odur ki, qılıncını sıyırıb üstünüzə düşənlərin heç biri burada görünmür. Eşq olsun sizə! Bir daha sizi alqışlayıram.

***Fəqan Əmi*:** Dəmircinin yanındadırlar. Qılınclarını itilədirlər.

Əli İbrahimov: Əsl biabırçılıqdır.Heç olmasa özlərində hünər tapıb Nazir bəydən və onu dəstəkləyənlərdən uzun müddətli təhqirlərinə görə rəsmi üzr istəsinlər.

Əziz müəllim elə zənn edirmiş ki, bu adamlar beynəlxalq səviyyədə rəzil olduqdan sonra heç olmasa indi utanıb-qızaracaqlar! Əgər belə olsaydı, heç Mürvət Mürvət olmazdı, Qabil Qabil olmazdı, Əziz müəllim!

Budur, Mürvət zühur edir...

***Murvet Yusifov*:** Bu adamlar əmin olsun ki, müdafiə etdikləri məsələyə görə bu millətdən üzr istəyəcəklər. Bir də bunlar fb qəhrəmanıdı. Ciddi olsaydılar keçirdiyimiz ziyalı toplantılarına qatılar, sözlərini deyərdilər.

Maarif Piraliyev: Hörmətli həmvətənlər, özünüzün də, başqalarının da vaxtını, zamanını dəyərləndirin. Əhəmiyyəti olmayacaq bir məsələ üzərində mübahisələrə, münaqişələrə son qoyun.

Agakisi Seferov: Nazir müəllim, əlinizi atdığınız hər iş bir tədqiqat əsəridir. Hər dəfə bu mübahisə təzələnəndə düşünürəm ki, görəsən bu insanlara nə lazımdır? Adam gözünün nurunu verib tariximizi araşdırır, təmənnasız olaraq illərini bu işə sərf edir-bu adama bir millət olaraq təşəkkür etmək əvəzinə bu cür saxtakarlıqla məşğul olur,özlərini gözdən salırlar.Sizə işlərinizdə bir daha uğurlar arzulayıram.

Nazir Ahmedli: Hamınıza təşəkkür edirəm, əziz dostlar! Heç də təsadüfi deyildi ki, kitabımın adını "Haqq-nahaqq seçilər

Haqq divanında" qoymuşdum. Atalar deyib ki, haqq nazilər, üzülməz. Bu həqiqət bu gün bir daha təsdiq olundu.

Murvet Yusifov: Mən bu şouya münasibət bildirənlərə səslənirəm. Təhqirlərdən çəkinin.Nazir Əhmədli bir ildən çoxdu ki, şou yaratmaqla məşğuldu. Bu günə kimi pərdəarxası dəstək verənləri bu gün yaman fəallaşıblar. Mürvət Yusifov olaraq "Şopenin kameral təsviri"nə iradlarımı açıq olaraq ortaya qoymuşam. Həm sosial şəbəkədə, həm də mətbuatda dəfələrlə münasibətimi bildirmişəm. Bu gün də fikrimdə qalıram.

Nazir Ahmedli: Mürvət Yusifov, inanmamaqda azadsan, amma şübhələrinin əsaslı olduğunu sübut etmək üçün sən də Moskvaya müraciət elə və soruş görüm Nazir Əhmədliyə bu cür məktub göndərmisinizmi?

Murvet Yusifov: Əli Şamilov, Əziz Ələkbərli indiyə qədər niyə üzə çıxmırdınız?

Heydər Əliyev Sovetlər dönəmində Ermənistan adlanan Qərbi Azərbaycanda Böyük Yubileyi təşkil edəndə harda idi sizin "Şopenin kameral təsviri"niz? Onlarla Azərbaycan alimini "qələti məşhur"adlandırmaq ideası kimindi?Ermənistan Milli Arxivinə istinad etmək səlahiyyətini kim verib sizə? Bu və siyahısı uzanacaq, başqa suallara hələ cavab verməmisiniz!

Eziz Elekberli: Mürvət Yusifov, adımı çəkdiyiniz üçün cavab verməyə məcburam. Bilirsiniz niyə susurdum? Birincisi ona görə ki, əvvəl də demişəm, ***mən kameral siyahıyaalmaları şübhə altına alacaq qədər tarixi düşüncədən məhrum biri deyiləm. O kameral siyahıyaalmalar çox böyük tarixi sənədlərdir və onları inkar edənlərlə mübahisə etməyə ehtiyac belə görmürəm.*** İkincisi, deyirsiniz, sovet dönəmində Aşıq Ələsgərin yubileyi keçiriləndə biz harada idik? Siz yaddan çıxarırsınız ki, 170-180 il bundan əvvəl tərtib etilmiş bu adbaad kameral təsvirlər Nazir Əhmədli tərəfindən ilk dəfədir üzə çıxarılıb. Üçüncüsü, yazırsınız ki, "Ermənistan Milli Arxivinə istinad etmək səlahiyyətini kim verib sizə?" Güldürməyin bizi, birincisi, tədqiqatçıya belə sual verməyə heç kəsin haqqı çatmır, tədqiqatçı özü bilər hansı mənbəyə istinad edir, ikincisi, ***Ermənistan arxivində bizim***

tariximizə, mədəniyyətimizə aid minlərlə mənbə gizlədilir, onları hansı yollarlasa çıxardıb gətirənlərə heykəl qoymaq lazımdır. Azərbaycan dövləti bu gün də milyonlarla dollar pul xərcləyir ki, dünya arxivlərindən Azərbaycana aid materiallar çıxarılıb gətirilsin. Bu yaxınlarda Tarix İnstitutu belə materialların böyük hissəsini respublikamıza gətirdi və tədqiqatçıların ixtiyarına verdi. Və nəhayət, siz hamınız yaddan çıxarırsınız ki, Aşıq Ələsgər tək göyçəlilərin babası deyil, o, bütün Azərbaycan xalqının və bütün Türk dünyasının babası və böyük sənətkarıdır. O dahi sənətkarın bu şəkildə "müdafiəsinə" qalxmaqla, onu Göyçə səviyyəsində lokallaşdırmaqla, onun haqqında öz ellilərinin müdafiəsinə möhtac sənətkar təsəvvürü yaratmaqla onu kiçiltməyin. Aşıq Ələsgər elə dahi sənətkardır ki, onun heç kəsin müdafiəsinə ehtiyacı yoxdur. Burada sadəcə elmi polemika aparmaq olar və tarixi faktlar və mənbələr danışa bilər. Facebook hamı üçün açıqdır və bu yazılanları hamı oxuyur. Biz ellilərə yaraşmır ki, aramızdakı mübahisələri bu şəkildə çözək. Bu qədər. Hamınıza hörmət və ehtiramla.

Nazir Ahmedli: Hörmətli Əziz müəllim, təşəkkür edirəm, çox gözəl izah etdiniz. yeri gəlmişkən, bir neçə gün bundan əvvəl Mürvət Yusifov anadan olduğu Nərimanlı kəndinin videosunu paylaşmışdı. İzahat da vermişdi ki, adının çəkilməsini istəməyən bir nəfər kənd sakini bir ermənіyə 300 dollar pul verib bunu çəkdirib. M.Yusifov da, 300 dolları verən şəxs də sağ olsunlar. Amma necə olur, bir kənddən çəkilən qısa bir süjeti bu cür əzizləyən şəxs mənim bütöv İrəvan xanlığına aid olan (o cümlədən Göyçə mahalına aid olan) o boyda zəhmətimi qaralamaqla məşğuldur? Başqa şey demirəm, İrəvan əyalətində 1831-ci ildə yaşayan 57 min müsəlman, üstəgəl Dərələyəz mahalının iki kameral təsvirində təxminən 10 min nəfər, Göyçə mahalının 1842-ci ilə aid kameral təsvirindəki təxminən 6 min nəfəri cəmləyin. Əlavə kəndlərin siyahısındakı 2 min nəfəri də üstünə gəlin. 75 min nəfər! Hələ bu da hamısı deyil. Bu 75 min nəfərin adını əvvəlcə kompüterin ekranına baxıb kağıza köçürmüşəm, sonra da kağızdan kompüterə köçürmüşəm! 150

min ad! Bu işin nə qədər darıxdırıcı bir məşğuluyyət olduğunu da buraya əlavə edin! Vedibasar mahalının 1842-ci ilə aid kameral siyahısını da əlavə etsək, 160 min! Təsəvvür edirsinizmi? Mürvət Yusifova deyəsən 5 min nəfərin adını bu kağızdan o kağıza köçür! Görüm səbri çatacaqmı?? Qəti inanmıram. Mən hələ həmin kameral təsvirlərdəki izahat yazılarını, kitablarıma ön söz yazmaq üçün nə qədər əlləşdiyimi demirəm!! Kənardan baxana qovğa asan gəlir! Allah onlara insaf versin, qəlblərinə iman doldursun! Bu arada Qazax və Şəmşəddil mahallarının 1860-cü ilə aid olan kameral siyahılarını da əlavə edin! Aşağı-yuxarı 200 min!! Daha heç nə deməyəcəyəm

Eziz Elekberli: Nazir müəllim, bunlar hamısı mənbələrlə, arxivlərlə işləmək səriştəsizliyindən, bu işin çətinliyi barədəki məlumatsızlıqdan irəli gəlir. Buna görə bəlkə heç kəsi qınamaq da lazım deyil, çünki hərənin öz sahəsi var, biri jurnalistdir, biri şairdir, biri iqtisadçıdır, biri maliyyəçidir. Ola bilər, hər biri öz sahəsinin böyük mütəxəssisidir. Amma aydındır ki, tədqiqatçı alim deyil.

Nazir Ahmedli :Tamamilə haqlısan, Əziz müəllim! Heç olmasa, vaxtımı alıb mane olmasınlar! Çəlləyə girib qızınan böyük filosof Diogenin yanına gələn İsgəndər soruşur ki. sənin üçün nə edim? Diogen deyir, heç bir şeyini istəmirəm, Günəşin qabağından çəkilib, qızınmağıma mane olmasan bəsimdir!!

Murvet Yusifov: Əziz bəy, məsələyə bu cür müdaxiləniz iki versiya ortaya qoyur.

1. Qərəzli yanaşırsınız.

2. Qərbi Azərbaycanın tarixini bilmirsiniz.

Əks halda bu mövqedə olmazdınız.Üstəlik Sov.İKP tarixi barədə də düşüncələrinizin yanlış olduğu qənaətindəyəm. Tarixən ermənilərin niyyətləri və KP-ın vasitəsi ilə niyyətlərini həyata keçirdiklərini bilmirsiniz?Bilirsinizsə o dövrdə pantürkist damğası təhlükəsini gözünün altına alaraq mövcud tariximizi yazmış tədqiqatçıların əməyini niyə şübhə altına alırsınız? Bu gün Nazirin "nadir tapıntısı" "şopenin kameral təsviri"ni ermənilərin görməməkləri, tapmamaqları mümkün idimi? Nə isə...***Əziz bəy, hələ***

sevinməyin! Sona saxladığım variantlar da var!Onlardan bura yazsam yenə rəylərinizi silib yoxa çıxacaqsınız.

Millət, dövlət, vətən naminə obyektiv olmağa çalışın!

Mürvət Yusifov "Əziz bəy, hələ sevinməyin! Sona saxladığım variantlar da var!" etirafı ilə növbəti dəfə özünü ifşa edir, bütün bu fitnəkarlıqların, şər əməllərin ilhamvericisi, təşəbbüskarı və iştirakçısı olduğunu boynuna alır!

Eziz Elekberli: Mürvət bəy, mən Qərbi Azərbaycanın tarixini bilmirəm)))))) Nolar, siz yazın, mən sizdən öyrənməyə hazıram. Qərbi Azərbaycanın tarixinə dair yazdığınız kitabların linklərini bura atın, mən oxuyaram.

Murvet Yusifov: Mənə elə gəlir ki, fikrimi çatdırdım.Ötən ilki vəziyyəti yenidən təkrarlayırsınız. Ortaya söz atmaqdansa suallarımı cavablandırın.

Eziz Elekberli: Nazir müəllim, sağ olun, sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzu edirəm.

Nazir Ahmedli: Əziz müəllim, təşəkkür edirəm. ***Mürvət Yusifovla mübahisə ruhun əzabıdır.*** Sizi bu əzaba düçar etdiyimə görə məni bağışlayın!

Eziz Elekberli: Özünüzü qoruyun, sizin bu gün gördüyünüz iş - tarixdir! Sağ olun.

Murvet Yusifov: Nazir Əhmədli, Əziz Ələkbərli, siz ruh əkizisiniz. Ruhunuza əzab verməmək üçün doğru yol seçməli idiniz!Burada sözünün çəkisini bilməyənlər, məsələ ilə bağlı iki dəfə ziyalıların toplantısı oldu. Niyə gəlib dostunuz Nazir Əhmədliyi təmizə çıxarmaq üçün iştirak etmirdiniz? Virtual aləmdi deyib ağlınıza gələni sərsəmləməyin! Mən borclu deyiləm ki, hər an Nazir Əhmədlinin şoularını izləyim.

Mürvət Yusifov bir daha özünü rüsvay edir, bildirir ki, məni müdafiə edənlər onlarla görüşüb virtual aləmdə dedikləri sözlərini desəydilər, onlar üçün məsələ yaxşı qurtarmazdı.

Nazir Ahmedli: Mürvət Yusifov, bütün arqumentləriniz tükənəndə H.Əliyevin yubiley keçirməsini gündəmə gətirib şantaja keçirsiniz. Mərhum Heydər Əliyev folklorşünas deyildi, siyasi rəhbər idi, o vaxtkı alimlər hamısı həmin tarixi irəli sürmüşdülər, o da inanmışdı. Əgər indi sağ olsaydı, mütləq əlavə arşdırma apartdırıb kimin mövqeyinin doğru olduğuna əmin olacaqdı. Üstəlik də dövlət başçısını aldadnlar cəzalandırılmalıdır, yoxsa həqiqəti üzə çıxaranlar?

Murvet Yusifov: Heydər Əliyev dursaydı, siz bu cəsarətdə bulunmazdınız. Bulunmuş olsaydınız, indi hamınız təkadamlıq-daydınız.

Mürvət Yusifov o qədər azğınlaşır ki, mərhum prezident Heydər Əliyevə böhtan atmağa da cəsarət edir. H.Əliyevin hansısa tədqiqatçı alimi həbs etdirməsi, təkadamlıq, yaxud ümumi kameraya saldırması şəxsən mənə məlum deyil. Əksinə, elm, mədəniyyət-incəsənət xadimlərinə daim qayğı və diqqət göstərmiş, onlara ev vermiş, mükafatlandırmışdır.

Hansı tədqiqatçını təkadamlıq kameraya saldırdığını qoy M.Yusifov zəhmət çəkib göstərsin!

Vurgun Eyyub: Nazir bəy, bir daha uğurlar diləyirəm. Amma kitablarınızı heç cür əldə edə bilməmişəm(((

Nazir Ahmedli: Vurğun bəy, çox təşəkkür edirəm. Onları Sizə çatdıraram. İctimaiyyətə gec məlumat verəcəkdim, amma istəyirəm Sizi çox böyük bir hadisə münasibəti ilə sevindirəm: Məsələ mənsub olduğunuz Şəmşədil mahalı ilə bağlıdır. Şəmşədil mahalının da 1860-cı ilə aid kamerl siyahısını əldə etmişəm və onu da çap edəcəyəm. Azərbaycan tarixşünaslığı üçün hamısı təzə məsələdir.

Vurgun Eyyub: Yorulmayasınız!

Ceyhun Nabi: Eşq olsun, minnətdarıq sizə.

Xaqani Safaroqlu: Nazir bəy, məktubdan belə anlaşılır ki, Qərbi Azərbaycanla bağlı bütün tarixi sənədlər Ermənistandakı arxivdə saxlanılır... Bu ciddi məsələdir. Azərbyacan YUNESKO-

ya müraciət edib buna etiraz etməlidir. O arxivlərdə bizim də tariximiz var. Sənədlərə çıxmaq hüququ almaq lazmdır...

Nazir Ahmedli: Çox mühüm və maraqlı mövzuya toxunursunuz, Xaqani bəy. Məncə müraciət etməlidirlər,

Ali Shamil: Murvet Yusifov, siz heç olmasa H.Rəhimoğlu (Silinməz adlar, sağalmaz yaralar. Bakı, 1997), Ə.Ələkbərli (Qərbi Azərbaycan, I cild, Vedibasar mahalı. Bakı, 2002; Qərbi Azərbaycan, II cild, Zəngibasar, Gərnibasar və Qırx¬bulaq mahalları. Bakı, 2002), İ.Bayramov (Qərbi Azərbaycanın türk mənşəli toponim¬ləri. Bakı, 2002); V.Arzumanlı, N.Mustafa (Tarixin qara səhifələri: deportasiya, soyqırım, qaç¬qınlıq. Bakı, 1998), B.Budaqov, Q.Qeybullayev (Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998) və b. kitablara baxsaydınız, görərdiniz ki, o alimlərin hamsı İ.Şopenin 1852-ci ildə Sankt-Peterburqda nəşr olunmuş 1231 səhifəlik "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə" kitabından istifadə edib və qaynaq kimi də göstəriblər. Mənim həvəsim yoxdur ki, vaxtımı boş şeylərə həsr edəm. Boş mübahisələrdənsə gedib bir gün arxivdə işləyərəm.

Murvet Yusifov: Əli Şamilov, sadaladığın əsərlərdə sonuncu deportasiya olunanların əzəli Göyçə sakinləri olmadığı yazılıb? Qeyd etdiyin əsərlərdə 1831-ci ildə erməni yer-yurd adları qeyd edilib? Ustadların yaşı təhrif edilib? Nə demək istədiyini bəlkə izah edəsən?

Burada söz uzatmağı özümə rəva bilmirəm. Kimin sözü varsa buyursun. Görüşməyə də hazıram!

Haqsızlığını görən və getdikcə azğınlaşan M.Yusifov bütün ədəb qaydalarını pozaraq atası yaşında olan alimə, tanınmış insana, hörmətli Əli Şamilə "sən" deyə müraciət edir (halbuki, Əli müəllim özündən 25 yaş kiçik olan Mürvətə "Siz" deyə müraciət edir), artıq insanları quldurvari şəkildə razborkaya çağırır: "Kimin sözü varsa buyursun. Görüşməyə də hazıram!"

Ali Shamil: Xaqani Safaroqlu, muxtəlif arxivlərdə fərqli sənədlər və onların surətləri saxlanılır. Elə sənədlər var, Gürcüstan arxivindədir, elə sənədlər var Dərbəndin arxivindədir, onların surəti heç Mahaçqalada da yoxdur. Ona görə də həmin sənədləri hansısa beynəlxalq təşkilat vasitəsilə almaq olmaz. Onları həmin arxivlərdə araşdırmaq və bəzilərinin surətini çıxarmaq olar. Sizə bir nümunə deyim. Keçmiş Ermənistan SSR Basarkeçər rayonundan İkinci Dünya savaşına onlarla adam gedib. O, sənədlər indi də Ermənistandadır. Amma onların müharibədə göstərdikləri hünərə görə orden-medal veriblərsə həmin sənədlər Ermənistanda deyil. Moskvadakı Hərbi Tarixi arxivindədir.

Ilhame Kazimova: Murvet muellim, meslehet görurem ki, heç vaxt "menem" sözunu işletmeyin, qalib gelmek isteyen hemişe qarşisindaki reqibin gucunu özunden ustun hesab etmelidir ki, ona qalib gele bilsin. Burda her kes medeni şekilde öz fikrini deye biler. Lakin etik normalardan kobud şəkildə kenara çixmamaq şertile. Her kesin fikrine hörmetle yanaşilmalidir .

Murvet Yusifov: İlhamə xanım, siz yaman narahatsınız. Siz proseslərdən ya xəbərsizsiniz, ya da qərəzlisiniz. Mən Qərbi Azərbaycanın kürdüstanlaşdırma kampaniyasının tərkib hissəsi olan məlum kitablara qarşı çıxıram. Sizin məqsədiniz nədi? Xahiş edirəm bilmədiyiniz məsələyə müdaxilə etməyin!

"Qərbi Azərbaycanın kürdüstanlaşdırma kampaniyasından" danışan bu adam deyəsən, doğrudan ağlını itirib!

Ilhame Kazimova: Men hec narahat deyilem, her şey göz qabagibdadir. Men burda geden prosesleri gozel gorurem.

Murvet Yusifov: Siz və sizin kimilər bu cür çıxışlarınızla Nazir Əhmədlini dalana dirəyirsiniz.

Ilhame Kazimova: Murvet bey xahiş edirem kimliyini bilmediyiniz adam, hele xanim haqqinda danişanda diqqetli olun, edeb gozleyin.

Nazir Ahmedli: İlhamə xanım, Siz M.Yusifovla mübahisə etməyin, adam haqsız olduğunu bildiyinə görə əsəbləşir və aqressivləşir, boş verin.

Murvet Yusifov: Nazir Əhmədli, sənin "zaşitnik"lərin zərərinə işləyir. Baxmayaraq folklorçu, tarixçi, yapçıdılar. Hər halda sənin bu qədər çətin durumda qaldığını istəmirəm.

Vurgun Eyyub: Nazir bəy, bu "atışmalara" sərf etdiyiniz enerji, əsəb və vaxta heyfiniz gəlmirmi?

Nazir Ahmedli: Haqlısınız, Vurğun bəy!

Ilhame Kazimova: Murvet bey men muşahide edirem bir muddetdir sizin burdaki dartişmanizi. Sizin qarşiniza faktla subut, delil qoyulur, yene öz yalan ve menasiz inadinizdan el çekmirsiniz. Kaş bu cur inadi Nazir mellime qarşi deyil, ermenilere qarşi serf edəydiniz.

Murvet Yusifov: Nazir Əhmədli bir neçə dəfə qeyd etdiyim kimi, manevr bacarığına malikdi. Üstəgəl şərləmə taktikasını da gözəl bilir. O, özünə sərf edən cavab almağa çalışır... Hardasa burada cavablandırmışam. ***Sabutay Hacıyev tanıdığım savadlı, dürüst ziyalıdı.*** Yəqin ki, məsələyə münasibətini də bildirəcək! ***Məni maraqlandıran 17 günə Nazir Əhmədlinin sorğu göndərib cavab almasıdı. Ölkə daxilində hansısa təşkilata məktub yazıb cavab almaq iki ay çəkir. Güman ki, Ermənistan arxivindəki dostlarının köməyi olub...***

M.Yusifov yazır ki. "Sabutay Hacıyev tanıdığım savadlı, dürüst ziyalıdı".

Hə, bir-birinizi yaxşı tapmısınız, M.Yusifov! Bu dünyada yalnız 2 nəfər "savadlı və dürüst ziyalı" var: onun biri Sabutaydırsa, mütləq ikincisi də sən olarsan!

Əli yerdən-göydən üzülən M.Yusifov nə yorulur, nə usanır, nə də utanır! İndi də yeni tezis irəli sürür-Moskvadan niyə tez cavab gəlib? Yəqin bu saxtakarlığa əl atanda həmin 2 ay məsələsini nəzərə alıbmış. Fikirləşirmiş ki, 2 aydan sonra cavab gələnə qədər burada kimlərisə aldada biləcək, nəyəsə nail ola biləcəklər!

Məlumat üçün deyim ki, Rusiya Dövlət Arxivi M.Sadıqovaya 9 gündən sonra, mənə isə 10 gündən sonra cavad verib, amma mənə 19 fevralda ünvanladığı məktubu elektron ünvanıma 2 gün sonra, fevralın 21-də göndərib.

Nə yaxşı M.Yusifov Moskvadan aldığım cavabı saxta adlandırmır? Düzü, təəccüblüdür!

Saxtakarlığın digər iştirakçısı və ilhamvericisi də zühur edir:

Qabil Zimistanoglu: Təpədən dırnağadək saxtakarlıq xəmiri ilə yoğrulmuş Nazir Əhmədli yenə də yalan informasiyaları ilə ictimaiyyəti çaşdırmaqda davam edir. Fevralın 4-də Qərbi Azərbaycandan soydaşlarımızın 30 il öncə deportasiya olunması ilə əlaqədar keçirdiyimiz tədbirin məqsəd və məramına kölgə salmaq istəyir. Guya tədbirin məqsədi Sabutay Hacıyevin tədbir iştirakçılarına Rusiya Federasiyasının Dövlət Arxivindən Aşıq Ələsgərin təvəllüdü ilə bağlı təqdim etdiyi sənədlə bağlı olub. Əsla. Tədbirin mahiyyəti və məramı barəsində mətbuatda belə geniş məlumat verilib, telekanallarda süjet təqdim olunub, tələblərimiz səsləndirilib. Tədbirdə 20-dən artıq şəxs çıxış edib. Onlardan da biri də Sabutay Hacıyev olub.

Göyçədə yaşayıb-yaradan sənətkarların həyatını, Göyçənin tarixini, coğrafiyasını saxtalaşdıran, bəzi ustadların milli kimliyini dəyişməyə cəhd edən N.Əhmədli oyun oynamaqla ictimaiyyətin fikrini yayındırmaq istəyir.

Çox maraqlıdır, N.Əhmədli sorğu göndərir, ayın 19-da Rusiya Arxivindən cavab verilir, ayın 21-də sosial şəbəkələrdə surətlər yerləşdirilir. Diqqət edirsinizmi, 3 gün çəkir. Bu adam 17 günə Rusiya Federasiyasının Dövlət Arxivindən cavab alıb.Hansı ki, hansısa Azərbaycanın rayonlarından birində yerləşən təşkilata göndərilən sorğu aşağısı bir ay çəkir. O da ola Moskvada yerləşən arxiv?!! Bu isə o deməkdir ki, N.Əhmədlini və onu himayə edən maraqlı qüvvələrin əli uzundur və istədikləri məsələ ilə bağlı hər şeyi etmək iqtidarındadırlar.

Digər bir maraqlı tərəf isə ondan ibarətdir ki, M.Sadıqovanın adına göndərilən məktubda qeyd olunur ki, Aşıq Ələsgər Alməmməd oğlu ilə bağlı məlumat arxivdə aşkar olunmayıb. Aşıq Ələsgərlə bağlı məlumatı əldə etmək üçün "Ermənistan Respublikası 0033, Yerevan şəhəri, Qr.Koçar 5/2 ünvanda yerləşən Ermənistan Milli Arxivinə müraciət etməyinizi tövsiyyə edirik" sözləri özünə yer alıb. Yəni bu o deməkdir ki, Rusiyada və ya hansısa qeyri bir dövlətdə yerləşən arxivə yox, məhz Ermənistan Milli Arxivinə müraciət edilsin. Əvvəldə soruşmuşam və bir daha soruşuram N.Əhmədli, Qərbi Azərbaycanla bağlı çap etdirdiyin kameral siyahıdakı informasiyanı ermənilərdən necə və hansı formada əldə etmisən? Çünki özün də açıq şəkildə Ermənistan Milli Arxivinə istinad etdiyini qeyd etmisən!!! Yoxsa yazışmalarla?!! Əsas məsələ budur. Bizim də davamız saxtakarlığın qarşısını almaqdı. Yoxsa sənin nə ədavətimniz var ki??? Ona görə də əsas məsələnin üzərində dayanın!!! Yoxsa ictimaiyyətin fikrini çaşdırmaqla, özünüzü "qəhrəman" kimi göstərməyin.

Nazir Ahmedli: Bu uzun yorumda hər şeydən danışılıb, bircə Sabutay Hacıyevin təqdim etdiyi şeyin saxta, yoxsa həqiqətən də düzgün bir sənəd olub-olmamasına münasibətdən başqa. Çox acınacaqlıdır..

Mürvət Yusifovun kölgəsi olaraq onun ardınca sürünən və aylardır zəhləmi tökən bu adama cavab verməsəm də, əl çəkmir və hər yerdə M.Yusifovu müdafiə etməyi özünün ali vəzifəsi sayır. Fevralın 4-də təşkil edilən həmin biabırçı və bədnam yığıncaqda da M.Yusifovun əl buyruqçusu rolunda çıxış edirdi.

Mürvətin qaraguruhçu dəstəsinin digər üzvləri də zühur edirlər...

Metanet Mikayil Qizi: Nazir bey, size bir sual verim. Sizin istinad etdiyiniz menbe (dediyinize göre Şopenin yazdiği kitab) bezi dostlarin dediyine göre AMEA da saxlanilir. Bu kitabi

ortaya qoymaq olarmi?! Oradaki faktlarla sizin Erm.milli arxivine istinaden yazdiğiniz kitabi müqayise etmek üçün. Eşitdiyime göre sizin kitab Şopenin yazisinin tercümesidir? Eks halda sizin kitabinizdaki melumatlari hardan elde etmeyiniz şübhe doğurur.Yaxud bu melumatlari Erm.milli arxivinden nece ve hansi yolla elde etmeyinizi deyin ictimaiyyete melum olsun.

Nazir Ahmedli: Mətanət Mikayıl qızı, Şopenin həmin kitabı AMEA-nın kitabxanasında da, Axundov adına kitbxanada da var. Mən onun surətini çıxartdırmışam. Üstəlik, internetdə elektron variantını da tapıb kompüterimə yazmışam. Adı belədir: "Исторический памятник Армянской области в эпоху ее присоединение к Российской империи". С.Петербург, 1852. Həcmi təxminən 1200 səhifədir. Qərbi Azərbaycan-Ermənistan adlandırılan ərazilərdən yazılan tarix əsərləri üçün ən qiymətli mənbə sayılır. Mən də öz kitablarımda ondan gen-bol istifadə etmişəm və tarixçilər də bunu çox bəyənir.

Bir vaxtlar qaraguruhçuların "yeni ümidi", "diplomat" Füzuli Sabiroğlu zühur edir:

KAPITULYASIYA

Füzuli Sabiroğlu: Mənə ilişmə. Mənim nə o sənədin alınma prosesindən xəbərim yoxdu, nə də sənin xıltına reaksiya verəcək həvəsim ...

Nazir Ahmedli: "Sənəd"in alınmasında və ya o farsda sənin iştirak etməyini yazmamışam, televiziya kanallarına onların çıxmasına yardımçı olduğunu düşünmüşdüm. Axı Lider tv-nin özündə də mənə qarşı bir təxribat törətmişdin. Kinin, küdurətin, hikkən sərhəd tanımır.

Füzuli Sabiroğlu: Bunun adını "təxribat", filan nə qoyursuz qoyun. Məni tanıyanlar bilir ki, mən kinlə, hikkəylə qərar qəbul edən adam deyiləm. O ki, qaldı tv-dəki verilişə, inşallah vaxtı çatanda yayımlanacaq. Sürprizi pozmaq istəmirəm başqa şeylər də olacaq. :)

Nazir Ahmedli: Nə istəyirsən, elə! Allah xeyirlisini etsin. Mənim "İrəvan əyalətinin kameral təsviri" 5 cildliyim də Tarix İnstitunun Elmi Şurasının qərarı ilə çap olunur. Elmi redaktoru da İnstitutun direktoru, akademik Yaqub Mahmudovdur. I cild İrəvan şəhərinin kameral təsviridir və artıq çapa hazırdır. Güman edirəm ki, televiziyaçılıq ənənəsinə sadiq qalaraq, həmin nəşr haqqında siz də məlumat yaymağa özünüzdə güc-qüvvə tapacaqsınız. Yeri gəlmişkən, nə əcəb məni blokdan çıxartmısan?

Füzuli Sabiroğlu: İnşallah. Bəli, Yaqub müəllimlə, Cəbi müəllimlə ötəri də olsa bu barədə söhbətimiz oldu.

Nazir Ahmedli: Onların fikri nə oldu və onların fikri ilə hesablaşırsınızmı? Axı bu barədə ən mötəbər instansiya kimi mən də onları qəbul edirəm.

Füzuli Sabiroğlu: Biz bunu müzakirə etmədik. Sadəcə söhbət əsnasında. Başqa məsələ ilə bağlı getmişdim.

Nazir Ahmedli: Mənimlə başqa alimlərin arasında bir fərq var. Şopen Naxçıvan və İrəvan əyalətlərində 1829-1832-ci illərdə tərtib etdiyi təxminən 30 kameral siyahının əsasında 1852-ci ildə bir kitab nəşr edib. "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə". Bizim alimlər həmin kitaba istinad edirlər, mən isə həm o kitaba, həm də Şopenin tərtib etdiyi həmin 30 kameral siyahıya. İrəvan əyalətinə aid olan 19 kameral siyahını isə Azərbaycan Tarixşünüslığına mən qazandırmışam. Həmin kameral siyahılar Azərbaycanda yoxdur. Bəlkə pis iş tutmuşam? Buraya Dərələyəz mahalının, Qazax və Şəmşədil mahallarının kameral siyahılarını da əlavə edin. Bunlar da Azərbaycanda yoxdur.

Tarix İnstitutu hökumətin dəstəyi ilə böyük bir layihə həyata keçirir. xarici dövlətlərdə Azərbaycana aid olan sənədlərin surətini gətirib çap edirlər. Mən isə dövlətdən 1 qəpik də almadan bu qədər iş görürəm, üstəlik kitablarımı da ailə büdcəmin hesabına çap etdirirəm. Bəlkə bunun qəbahətli tərəfini mənə izah edəsiniz?

Füzuli Sabiroğlu: bildiyimə görə mənim gətirdiyim bəzi sənədlərdən də bir kitab çap etmək fikrindədilər. Hətta dedilər ki, qərar da qəbul olunub. Etməsələr də, özüm bunu mütləq edəcəm.

Bu öz yerində. ***Məni konkret olaraq sizin yanaşmanız qane eləmir.*** Yanaşmanızda yanlışlıqlar var. Mən orada da bunu dedim.

Nazir Ahmedli: Konkret olaraq hansı yanaşmam sizi qane etmir? Mənim çap etdiyim sənədlərin doğruluğu şübhə yaratsa, sizcə, Yaqub müəllim oraya öz imzasını qoyar?

Füzuli Sabiroğlu: Hər şeyi yenidən başlayaq? :)

Göründüyü kimi qaraguruhçuların "son ümid yeri" F.Sabiroğlu sualdan yayınır.

Nazir Ahmedli: Axırıncı işim Şişqayalı Şair Aydındır. Təsəvvür edin ki, buna baxanda o birilərə min şükür. Onun yaşını 40 il böyüdüblər. İndi mən nə edim? Şişqaya kəndinin 1873-cü ilə aid kameral siyahısından 8 yaşlı Aydın Ramazan oğlunu silim?

Ondan qabaq isə Dərələyəzli Aşıq Cəlilin doğum tarixini, 250 illik şəcərəsini müəyyənləşdirdim. Məlum oldu ki, onun da yaşını 18 il böyüdüblər. Onun haqqındakı elmi məqaləm "Filologiya məsələləri" jurnalında çap olundu. Bu il 150 yaşı tamam olur və bəlkə yubileyini qeyd etdilər.

Füzuli Sabiroğlu:)))))))))))) Yenə yaş? Ay qardaş, o siyahıda mənim babalarımın da adı var və onların yaşının orada 30, 50 ya 15 göstərilməsinin mənim üçün heç bir əhəmiyyəti yoxdu. Söhbəti niyə yayındırırsan?

F.Sabiroğlunun sonuncu yorumundan məlum olur ki:

1."Göyçə mahalının kameral təsviri" (2017) kitabında babalarının adını tapıb, amma o qədər xəbis adamdır ki, bunu çox əhəmiyyətsiz sayır. Başqa sözlə, "Göyçənin yorulmaz təəssübkeşi" öz babalarına etinasızdır. Əgər bir şəxs öz əcdadına bu cür biganədirsə, el-oba təssübünü necə çəkə bilər?

2.Babalarının yaşının 30, 50 və ya 15 göstərilməsinin dediyi kimi bu adam üçün heç bir əhəmiyyəti yoxdursa, onda Ələsgərin yaşının davasını niyə edir?

3.Sonuncu cümləsi göstərir ki, bu adama dəqiqləşdirilmiş tarix lazım deyil və ortaya tamamilə başqa məqsədlər üçün atılıb.

4.Beləliklə, sonuncu cümləni qaraguruhun "son ümid yeri" olan Füzuli Sabiroğlunun tam kapitulyasiyası kimi qəbul etməliyik: "Yenə yaş? Ay qardaş, o siyahıda mənim babalarımın da adı var və onların yaşının orada 30, 50 ya 15 göstərilməsinin mənim üçün heç bir əhəmiyyəti yoxdu".

Nazir Ahmedli: Şair Məmmədhüseynin bütün həyat tarix-çəsini ayrınlaşdırdın.1816-da Qızılcıq kəndində doğulub, 1835-də Qanlı Allahverdi kəndinə köçüblər, 1856-cı ildə isə Daşkəndə gediblər. Bu həqiqətlərin üzə çıxarılmasını doğrudan ziyanlı bir iş hesab edirsiniz?

Söhbəti niyə yayındırıram axı? Vallah səmimi deyirəm, nədən narazısan, başa düşmürəm. Folklorşünas alimlər aşıqlara ağıllarına gələn doğum tarixi yazır, bu məsələlərə son qoyub dəqiq tarix yazılması ziyanlıdır?

Füzuli Sabiroğlu: Siz yenə də "yaş" deyirsiniz :)

Nazir Ahmedli ??? Doğrudan o lazımsızdır?? Birinci adamsınız ki, bu cür deyirsiniz. Yaşdan başqa yaradıcılıq məsələsi də var və mən də həmin aşıqların yaradıcılığına həmişə böyük qiymət vermişəm və verməkdə davam edirəm. Bəs narazı qaldığınız nədir axı?

Füzuli Sabioğlu son sualımı cavabsız buraxır...

Göründüyü kimi, aradan keçən aylar ərzində F.Sabiroğlunun mövqeyində müəyyən dəyişiklik yaranıb və təqdim etdiyim sənədlərin doğruluğuna artıq etiraz etmir. Görünür, bu işdə Tarix İnstitunun direktoru akademik Yaqub Mahmudov və direktorun elmi işlər üzrə müavini Cəbi Bəhramovla söhbətinin ciddi rolu olub. Amma qeyri-elmi mövqeyindən əl çəkmək istəməyərək, mənə təklif edir ki, məşhurlarımızın yaş məsələsini sadəcə olaraq açıb-ağartmayım.

Onun bu mövqeyi isə, aydındır ki, hadisələrin lap əvvəlində M.Yusifovun "sənədlərin üzərində işləmək" təklifi kimi bir şeydir.

Füzuli Sabiroğlu öz səhv və anti-elmi mövqeyinin naminə, mənsub olduğu qaraguruhçu dəstənin maraqları xatirinə hətta öz doğmalarının da doğum tarixlərindən imtina edir, babalarının doğum tarixinin onun üçün əhəmiyyətsiz olduğunu bəyan edir! Maraqlıdır, televiziya işçisi olaraq hazırladığı süjetlərdə də rəqəmlərə bu cür yanaşırsa…

Bu barədə düşünməyi və qiymət verməyi oxucuların öhdəsinə buraxıram.

Amma heç şübhəsiz ki, ondan gətirdiyim sonuncu sitat bir vaxtlar təkkəbbürlə mənə qarşı çıxan bu opponentimin imzaladığı Kapitulyasiya Aktıdır!

Telman Ali Qasimov: Vallah şərhləri oxuduqca xəcalət çəkirəm. Bir bölgənin ziyalıları siz yəni belə günə qaldınız ki, bu şəkildə bir birinizi düşmən kimi gördünüz biz axır belə deyildik nə oldu bizə ?

Murvet Yusifov: Telman bəy, "1988-ci ildə deportasiya edilənlər Göyçənin əzəli sakinləri deyil" kimi cəfəng iddialarda bulunan bu "millətçi"yə sağ olmu deməliyəm?

***Telman Ali Qasimov*:** Mürvət qardaş bütün hallarda bu formada müzakirələrin əleyhinəyəm. Elin ağsaqqaları var bir araya gəlib məsələyə aydınlıq gətirmək olardı. Gənc nəsil sizi izləyirlər və mənə sual verirlər nə üçün belə hərəkətlər edirlər, onların sualına cavab tapmıram. Sizin hər birinizdən xahiş edirəm son qoyun bu formada müzakirələrə. Görüşün və yaxud telefonla həl edin. Yetişən nəsilə travma verirsiz.

Murvet Yusifov: Biz tərəfdən yetərincə addım atılıb ki, adam səhvini etiraf etsin. Amma Nazir Əhmədli atını çapmaqdadı.

Nazir Ahmedli: Yenə blef edirsən? Qara məni basınca mən qaranı basım! 4 fevralda şəhidlərin ruhuna xəyanət etdiyinə, Sabutayın saxtakarlığının ideya müəllifi olduğuna görə camaat

səndən səmimi etiraf və üzrxahlıq gözlədiyi vaxtda millətin gözünə kül üfürürsən!

Murvet Yusifov: Nazir Əhmədli, 4 fevralda çoxlarının edə bilməyəcəyini etmişik bizlər.

Sən məcbur edirsən ki, növbəti tədbiri sənin fəaliyyətinlə bağlı təşkil edim.Amma bu tədbir əvvəlkilərdən fərqli olacaq!

Nazir Ahmedli: Sən o toplantını öz çirkin məqsədlərin üçün vasitəyə çevirdin və Anım gününü urvatsız etdin. Rizvan Talıbovu da şantaj etdin ki öz tədbirindən əl çəksin. Bütün bu oyunları Sabutayın saxta "sənədini" ortaya çıxarmaq üçün düşünmüşdün. Onu da oyuna çəkib xar elədin.

Murvet Yusifov: Sən heç də narahat olma Rizvan Talıbov tədbirlərini hər həftə keçirir. Mənim məqsədim sizlərdən fərqli olaraq şəffafdı. Sizin çirkli oyunlarınızı ifşa etməyim sizi əndişələndirir. Sizin təxribatlarınız məni yolumdan döndərə bilməyəcək!

Nazir Ahmedli: Şən səhv və günahkar yoldasan. Tövbə et və o yoldan qayıt. Allah böyük və mərhəmətlidir, bəlkə günahlarını bağışlayar.

İlyas Şahquliyev: Murvet bəy, bu gün Nazir müəllimin Bütöv Azəbaycan Ocaqlarinda (BAO) "İrəvan əyaləti kameral təsvirlərdə" mövzusunda məruzəsi var. Sizə şəxsi dəvətnamə göndərməyibsə də, hami dəvətlidir. Gedib iştirak edin və nə soruşacaqsiniz soruşun, nə eşidəcəksiniz, nə deyəcəksiniz orada deyin və eşidin, fürsəti əldən verməyin!!! Bu çəkişmələrə aydinliq gətirib birdəfəlik son noqtəni qoyun. Getsən, Qabili də özünlə apar. Qüsur axtarma, toplanti saat 15 00-da olacaq....Mənəm-mənəmlikdən bir şey hasil olmaz!

Murvet Yusifov: İlyas müəllim, qarşı tərəf kimi dəvət olunsaydıq məmnuniyyətlə iştirak edərdik. Dəvət edilməyən yerə ar bilən adamam. Dəvəti isə siz yox, Nazir Əhmədli və ya təşkilatçı edə bilərdi. Rəylərin birində isə qardaşınızın yazdığından belə başa düşdüm ki, orada münasibət bildirmək imkanımız olmayacaq.

Nazir Ahmedli: Mürvət Yusifov, mən fərdi şəkildə heç kimi dəvət etməmişdim. Orada tam demokratik bir mühit var. Məruzəçidən sonra istəyənlər ona sual verir, sonra isə çıxışçılara çöz verilir və onlar da məruzə ətrafında öz fikirlərini söyləyir. Əgər iştirak etsəydiniz, tənqidi fikirlərinizi tam sərbəst şəkildə iştirakçılara çatdıra bilərdiniz. Növbəti 6-cı günün mövzusunu və mühaziräçini bilmirəm, fb-dən izləyin, əgər diqqətinizi cəlb etsə və çıxış etmək həvəsiniz olsa, fürsəti qaçırmayın.

Telman Ali Qasimov: (Mürvət Yusifova) Mən izləmişəm, siz səhv buraxmısız, o formada lazım deyildi təşkil eləmək. Görüşü başqa cür etmək lazım idi. Aranın qızışmasına maraqlı tərəflər var ehtiyatlı olmaq lazımdır. Bizi bizimkilərin əliylə vurmaq projesi davam edir. Çox diqqətli olun. Məndən demək, gerisi sizdikdir.

Nazir Ahmedli: Telman bəy, yaxşı olar bu adama fikir verməyəsiniz. Kim onun dediyini təsdiq etmirsə, ona qarşı mənəvi terrora keçir.

Murvet Yusifov: Çox maraqlı yanaşmalar sərgilənir burada. Eyni ilə Qarabağ məsələsinin gününə düşmüşük....

Göründüyü kimi Mürvət Yusifovun bu fitnəkarlığı da baş tutmadı və nəticəsiz qaldı. Əl atdığı fitnəkarlıqlar boşa çıxdıqda isə daha da azğınlaşır, aqressivləşir, hikkəsindən az qalır ki, partlasın.

Növbədə daha hansı fitnəkarlıqlar, özünün dediyi kimi "sürprizlər" var? Allah bilir! O, artıq Şərin sinonimində çevrilib, ondan hər şey gözləmək olar!

Mənim statusum
25 fevral 2018

Aşıq Ələsgəri sevənlərə müjdəm var!

Axtarışlarım bəhrəsini verdi. Aşıq Ələsgərin ana tərəfdən şəcərəsini də müəyyənləşdirdim.

Məlum oldu ki. onun dayıları Cəlil 1834-cü, Molla Əhməd 1844-cü, Bayram (deyilənə görə o da Kərbəlayı olub) 1851-ci ildə doğulublar.

Ustadın 1821-ci ildə doğulduğunda hələ də israr edən cahillərə görə Ələsgər Cəlil dayısından 13, Əhməd dayısından 23, Bayram dayısından isə 30 il (!!) böyük imiş!Aşıq Ələsgərin anası Pərizad Zarzebil kəndindən Məşədi Abbasəlinin qızıdır.

Şəcərə üzərində tədqiqatlar davam edir.

Yorumlar:

Kirman Rustemli Allah ömür versin.

Murvet Yusifov: Sənə verilmiş "şopen" çox uzundu deyəsən?

Murvet Yusifov: Nazir Əhmədli, Zarzebil adlı Göyçədə kənd yoxdu!

Nazir Ahmedli: Narahat olma. Şopen 1831-ci ildə qaldı. Bunu yazan başqa məmurdur. Bu sənədi Novobəyazid qəzasının rəisi Ostaşev tərtib edib.

Nazir Ahmedli: Bəlkə Ələsgərin adı çəkilən qohumlarını da inkar etmək istəyirsən? Heç çəkinmə!!

Murvet Yusifov: Qohumları barədə Dədənin nəticələri və nəvəsi Haqverdi müəllim münasibət bildirər.Mən yazdığınız Zarzebil kəndi haqqında soruşdum

Ceyhun Nabi: Eşq olsun Nazir müəllim. Sizi maraqla izləyirik.

Mamedali Hesenov Nazir bey siz ne deyirsinizse, real fakta söykenirsinz.Esil elm ise fakt sevir. Teessüf ki, hele de reallığı qebıl etmeyenler var.

Sabutay Hacıyevlə birlikdə Rusiya Dövlət Arxivinin adından saxta sənəd ortaya çıxaran və rüsvayi-aləm olan M.Yusifovla onun əlaltısı Qabil həmin rüsvayçılıqdan utanıb-

qızarmaq əvəzinə, heç nə olmamış kimi, yenə də yuyulmamış qaşıq kimi ortaya atılıblar. Atalar demiş, utanmasan, oynamağa nə var ki?

Nazir Ahmedli: Mürvət Yusifov, təxəllüs verdiyin cızmaqaraçı şair kimi sən də Göyçə haqqında imtahandan kəsildin. O kəndin adının Zarzebil olub-olmadığını öyrənmək üçün ak.Z.Bünyadovun həmmüəllifi olduğu "İrəvan əyalətinin 1728-ci ilə aid icmal dəftər"inə baxa bilərsən. 1996-cı ildə nəşr olunan həmin kitab internetdə də var. Vaxtilə Göyçə mahalında Zar və Zebil olan 2 nahiyə olub və kəndin adı da oradan yaranıb. Qaldı ki, sizin işlətdiyiniz Zərzivil, yaxud onu dəyişdirərək Zərkənd etməyinizə, onlardan yaxşı xəbərim var. Həmin kənddən olan kimya elmləri namizədi Şahin Bayramovla 30 ildən artıqdır dostluq edirik. Güman edirəm, hər halda akademik Ziya Bünyadova da etitraz edəcək qədər reallıq hissini itirməmisən!

Eziz Elekberli: Hirslənmə, Nazir müəllim, mən də öz kitabımdan sitat gətirim ki ("Qədim Türk-Oğuz yurdu - "Ermənistan", Bakı, 1994, səh.56), Basarkeçərin Zərzibil kəndinin adı 3 yanvar 1935-ci il tarixdə dəyişdirilərək Zərkənd qoyulmuşdur. Bu kənd haqqında Tacir Səmimi və Qurban Göyçəli isə 2013-cü ildə 328 səhifəlik "Zərkənd" adlı bir kitab da nəşr etdirmişlər.

Nazir Ahmedli: Təşəkkür edirəm, Əziz müəllim!

Nazir Ahmedli: Haqverdi müəllimə müraciət etməyinizə də etirazım yoxdur, amma Molla Əhmədin oğul varisləri də yəqin ki, yaşayır, onlara da müraciət edin. Sizə isə 10 yaş böyük eloğlunuz olaraq bir tövsiyyəm var: paxılıığı özünüzdən kənara qovmağa cəhd edin, yoxsa qəlbinizi didib yeyəcək!

Murvet Yusifov Mənim 6-cı sinifdə yazdığım inşa sənin məqalələrindən əhatəli olubdu))). Bunu orta məktəb müəllimlərim təsdiq edərlər.

Nazir Ahmedli: Maşallah, göz dəyməsin!! Çox şad oldum!! 6-cı sinifdə oxuyan vaxtlar yəqin ***samizdat*** kitablar nəşr

edir, ***podpolnı*** qəzetlər də buraxırmışsan! "İskra", "Pravda" və başqa qəzetlər kimi! Gizli təşkilatın da vardımı?? 😊😊

Ramin Məmmədov: Sizə uğurlar arzulayıram, həqiqət uğrunda mübariz İnsan, hörmətli Nazir müəllim!

Nazir Ahmedli: Təşəkkür edirəm, Ramin müəllim

Firuz Mustafa: həqiqəti üzə çıxarmaq niyə qəbahət kimi qarşılanmalıdır?

Ali Kafkas: Xalq ağzında Zerzivil demək Zarzebil adını niyə şübhə altında qoymalıdır ki?) Qacar a da Qejer deyirlər. Dəyişək mi Qacar adını? Nazir müəllim həqiqətən idrak etmədiyim üçün sorusuram: Dede Elesgerin yaşı ve şəcərəsi ilə bağlı yeni iddialar irəli sürmək niyə bu qədər qarşı tərəfdən "anti milli" məsələ kimi qarşılanır? Aşiq Elesgerin yaşı ve şəcərəsi ilə bağlı deyilənlər onun dəyərini azaltır mi? Mesele nedir? ??

Nazir Ahmedli: Təşəkkür edirəm, Əli bəy. Həmin adamları qıcıqlandıran məsələ odur ki, guya Ələsgər 105 il deyil, 74 il yaşasa, onun dahiliyinə kölgə düşər. Əlbəttə, bu absurddur. İkinci məsələ odur ki, 2021-ci ildə 200 illik yubileyini keçirməzlər.

Ali Kafkas: Göyce qalü bəladan Türk torpağıdır. Bu absürd qarşı argumentlere həqiqətən təəssüf edirəm. Elm adamını infaz etme psixologiyası dir!

Nazir Ahmedli: Sizin kimi samballı elm adamından dəstək görməkdən çox mutluyam. Əli bəy, minnətdaram!

Ali Kafkas: Her zaman. Nazir müəllim! Mən sizi 25 ildən çoxdur tanıyıram. Durustluyunuze zaminem. Bizi Millət sevgimizdən vaz keçirəcək heç bir dəyər yoxdur!

Nazir Ahmedli: Çox sağ olun. Əli bəy, Allah yar və yardımçınız olsun!

Nazir Ahmedli: Təşəkkür edirəm, Firuz müəllim. Ələsgərin ana tərəfindən olan qohumlarının doğum tarixləri əvvəlki məlumatları bir daha təsdiqlədiyinə görə, həqiqəti görmək və eşitmək istəməyənlər daha da aqressivləşirlər.

Firuz Mustafa: ehkamçılıq.... bu da yalanın qardaşı kimi bir şeydir. təəssüf...

Murvet Yusifov: Bir ildi biz bu hazır gəlmişlərə deyirik ki, söhbət bir mahalın tarixindən gedir. Bir mahalın tarixinin saxtalaşdırılmasından gedir. Bunlar deyir bir çömçə də mənə verin. Qəribədi ki, Nazir Əhmədlini müdafiə edənlərin hamısı eyni prizmadan çıxış edir.

Mamedali Hesenov Mürvet Yusifov yazırsınız ki,Nazir Ahmedlini müdafie edenler hamısı eyni prizmadan çıxış edir.Ona göre ki, Aşıq Alesgerin yaşının mahalın tarixine ne aydıyatı var? Mahalın tarixi Aşıq Alesgerle bağlıdırmı? Özünüz de cox yaxşı bilirsiniz ki, Nazir Ahmedli ne yazırsa arxiv senedlerine asaslanıb yazır. Ona görede ağlı başında olan da bunları görür.

Qabil Zimistanoglu: Ümumiyyətlə, Şopeninn dövründə aparılan siyahıyaalmanın özü qərəzli olub. Çünki Şopen Rus İmperiyasının, ermənilərin maraqlarına uyğun olan adam idi. Bu da təsadüfən seçilməmişdi. Şopen əslən erməni olan Fransa ermənisidir. Bu barədə mənbələr var. Bu faktı təsdiq edən mənbələrlə bu yaxınlarda məqalələr dərc olunacaq.

Amma Q.Zimistanoğlunun bu vədi yalan çıxdı, məqalə çap olunmadı.

Murvet Yusifov: Qabil bəy, bunlar özlərini tarixçi kimi göstərməyə çalışsalar da bir-birini müdafiə etməyə cəhddə bulunurlar hələki. Əziz Ələkbərli bir az dərinə düşəndə rəylərini də silib gedəcəkdi.Bunlar hələ başa düşmürlər ki, bu cür sərsəmləmələrlə Ulu Öndərin fəaliyyətini təftiş etməyə risk edirlər.

Nazir Ahmedli: Mürvət Yusifov, sən Əziz Ələkbərlinin bu xalq, bu millət üçün etdiklərinin mində birini etsəydin, indi Azərbaycana sığışmırdın. Əl çək bu qarayaxmalarından, kim sənin dediyinə ləbbeyk demirsə onu şantaj edir, mənəvi terora keçirsən! Kifayət deyil? Bu millətə nə vermisən, ala bilmirsən?

Nazir Ahmedli: Amma səni başa düşmək olar. Bir tərəfdən işsiz-gücsüz adamsan, bu qarayaxmalarla başını qatırsan ki, vaxtın

keçsin, digər tərəfdən də mənə və digər hörmətli adamlara hücuma keçməklə özünü boyundan hündür göstərmək istəyirsən. Amma nəzərə almırsan ki, ***artıq Şərin simvoluna çevrilmisən!*** Məni məcbur edirsən ki, o biri işlərimi kənara qoyub qaraguruh-çulara həsr etdiyim **"Nadanlıq"** kitabının nəşrini qabağa salım.

Mürvətdən Sabutayın ortaya çıxartdığı "sənəd" haqqında münasibət bildirmək təşəbbüslərimin hamısı cavabsız qalır. Özünün də iştirakçısı olduğu dəlduzluğa Mürvət nə münasibət göstərəcəkdi ki? Onun sənəd olduğunu deyə bilmir. Saxta olduğunu da qorxudan etiraf etmir ki, Sabutay üzünə durar. Mürvət özünü çox çətinə salıb...

Mən dediyimə əməl etdim və bir həftədən sonra, martın 3-də qarşınızdakı "Nadanlıq" kitabını yazmağa başladım.

Eldeniz Şamlı Abbaslı: Uğurlar.

ELDAR İSMAYIL RUBIKONU KEÇDI

Qədim Romada ciddi bir qanun vardı: müharibədən qayıdan ən müzəffər ordu da Romaşəhərinə girə bilməzdi. Həmin ordunun komandanı başındakı kiçik dəstə ilə şəhərə girə bilərdi. Rubikon çayı sərhəd sayılırdı, ordunun Rubikonu keçməsi müharibə demək idi. Senata tabe olan qoşunlar Rubikonu keçən ordunu dayandırmalı idi. Rubikonu keçmək vətəndaş müharibəsinin başlanması demək idi!

Mən məşhur yazıçı Yakov Polonskinin tərcümeyi-halı ilə bağlı yazı hazırlayanda onun haqqında yazan müəllifdə maraqlı bir fikrə rast gəlmişdim. Müəllif belə bir türk atalar sözü yazmışdı: "Əgər hədəfə doğru gedərkən dayanıb sənə hürən itlərə daş atsan, heç vaxt mənzil başına çata bilməzsən".

Gözəl insan, tədqiqatçı alim Əli Şamil də belə işlərə vaxt ayırdığıma, qaraguruhçu dəstəyə cavab verdiyimə görə həmişə mənii danlayır ki, əsas işindən ayrılma, kameral siyahıları çapa hazırla, aşıqlarla bağlı araşdırmalarını davam etdir, vaxt itirirsən. Bütün bunlar doğrudur, bunu qaraguruhçuların bayraqdarı M.Yusifova da dəfələrlə yazmışam ki, mənə etdiyiniz ən böyük pislik (təkcə mənə də yox, Azərbaycan elminə, dövlətinə) məni işimdən ayırmağınızdır. Amma yenə də olmur, hər dəfə bir hoqqa çıxardıb sanki məni yoxlayırlar: görüm, Nazir Əhmədli bu "işin" öhdəsindən necə gələcək?

Amma bütün hallarda özləri uduzur və üzülürlər. Çünki, haqsızdırlar!

Məni hədəfdən yayındırmaq cəhdlərinin sonuncusu aprel ayının 1-də baş verdi. Xalq şairi adı almaq üçün imza toplatdıran, amma arzusu gözündə qalan, jurnalistlərə verilən evdən mənzil almaq üçün dəridən-qabıqdan çıxsa da, ev ala bilmədiyinə görə hikkəsindən xəstəxanaya düşən, hər iki arzusundan əli üzüləndən sonra da imza toplatdırıb "Böyüktürk" təxəllüsü götürən Eldar İsmayıl təxminən 1 aylıq sükutu pozub aprelin 1-də belə bir status paylaşdı:

Eldar Ismayil Böyüktürk
1 aprel 2018

Eldar İSMAYIL

ALİM OLMAQ İSTƏYİR

Bizim bu Məmmədnəsir
Beynində yellər əsir...
Qoltuqlara soxulub
Siçan tək cələ kəsir,
Alim olmaq istəyir.

Aləmi qarışdırıb,
Hər nə var çırpışdırıb..
Kirli dəftərçəsinə
Vərəqlər yapışdırıb
Alim olmaq istəyir.

Gəl dərdləşək, gəl görək,
Bu yalandı, ya gerçək?
Palan ilə yəhəri
Seçə bilmir bu eşşək,
Alim olmaq istəyir.

Səhərlər kərə qoyun,
Axşamlar kürə qoyun...
Anlamır belindəki
Pambıqdımı, yoxsa yun...
Alim olmaq istəyir

Kəndi çıxıb yadından,
Soruşur ondan-bundan...
Bilmir kağız- qələm nə,
Burun-qulaqlı heyvan...
Alim olmaq istəyir.

Vətənə sevgisi yox,
Yer- yurdla ilgisi yox...
Bu zırrama müdirin
Heç nədən bilgisi yox,
Alim olmaq istəyir.

Dağı arana qatıb,
Vəzifələrə çatıb.

Bu savadsız indi də
Namusu, arı satıb
Alim olmaq istəyir!

Onun bu səviyyəsiz söyüşlərinin kimə ünvanlandığı aydın idi, özü kimi səviyyəsiz qulbeçələri də ona züy tutur, daha da qızışdırırdılar.

Yorumlar:

Füzuli Sabiroğlu: Möhtəşəm!!!

Ismail Koçaslan: Selamlar

Eldar Ismayil Böyüktürk: Təşəkkür edirəm Füzuli bəy. var olun.

Tahire İsmayilova: Mükəmməl. Eldar müəllim. Ürəyinizə sağlıq

Füzuli Sabiroğlu: Var olun Eldar müəllim! Qanan (əgər qansa) payını götürəcək

Nesibe Manafova: es salamu eleykum,cox gozel,qizila beraber sozlerdir,lap xalqin yarali yerinden qeleme aldiz o qizil setirlerinize,var olun,xalqimizin agsaqqal şairimiz Eldar İsmayil Boyukturk, Allah sizi oz penahinda qoruyub,saxlasin ilahi amin.

Seyyare Memmedli: Nə çoxdur onun kimi "alimlər", Eldar müəllim! Bu şeirdən onlar da elə öz paylarını götürəcək, əgər götürsələr.

Cahan Quliyeva: Elə "alimciklər" şeir oxumurlar,Səyyarə xanım.Başları daha "böyük" işlərlə qarışıqdır.😒

Yahya Azeroglu: Var olun Eldar mellim yüreğine kalemine emeğine ellerine sağlık sizin şahsınızda tüm Türk dünyasına sonsuz selâm sevgi ve saygılarımı sunuyorum iyiki varsın

Akbar Mammadov: Var olun. Kaş o adam olmaq istəyəydi

Elbrus Caferov: Ondan adam olmaz.

Ebulfet Adil Oglu: Var olun Eldar müəllim.Bu dövran çoxunu elə alim elədi,amma adam eləyə bilmədi.

Abdülkadir Sağlam: Kalemine yüreğine sağlık ustadim

Arsimed Ehmedov: Elinize dilinize sagliq

Murvet Yusifov: Sırtıq gədələr çətin qanar

Hüseyin Ak: Abican Varol.Möhteşem....

Hayrettin Yazıcı: Tebrikler sevgili ağabeyim....

Bayram Mammadov: Sag olun, agsaqqalimiz, elaaa!!!!

Elbrus Caferov: Güzel alınmışdır, şimdi bu türler lap çoğalmış.

Qoltuqları qarpızlanan Eldar İsmayıl çox məmnundur:

Eldar Ismayil Böyüktürk: Bütün dostlara təşəkkür edirəm. Diqqətinizə görə sağ olun.

Eldar Ismayil Böyüktürk: Hörmətli professor, əziz Elbrus müəllim, alimlik diplomunu zırramalar cibinə sürücülük vəsiqəsi kimi qoyub gəzdirir.

Nazim Yaquboglu: SUPER !

Elnur Uğur Abdiyev: Böyük Türk!!

Təcnis Rəhim Qurbani: Var olun!

Ezize Agahuseynqizi: Ürəyimdən xəbər verdiniz Eldar müəllim, yazıqlar olsun belələrinə ..(əfsus ki cəmiyyətimuzdə belələri saysızdı...günah elələrini vəzifəyə qoyanlardadı ....

Ildirim Qehramanov: Şairimiz yəqin hədə "alimi -biəməl demək "istəyir! Ürəyinə salıq!

Gazanfar Masimoglu: Var olun, dəyərli şairimiz!

Ayten Abdullayeva: var olun, ustad ! üzür istiyirəm ifadəmə görə ! Qanmazı yüz başa salsan, yenə qanmaz kimidir !

Mahluga Qaramanli: Axır vaxtlar alimlik elə qələmə aldığınız kimi əldə edilir Elimin dəyərli oğlu. Əlinə sağlıq. Alim olan bir ixtira edər, ondan ölkəgə bir xeyir verər. Hanı? Hardan? Axı qafada bir şey yoxki.... indi alimdi deyənə artıq hamımız şübhə ilə baxırıq. Ortada bir iki zəhməti ilə qazananlardan başqa. Yəni qurunun oduna yaş da yanır.

Firudin Celilov: Eldar bəyin yazdığı kitablar çox dəyərli və gərəklidir.

Heç gözləmədiyim halda, qaraguruhçuların sıralarına qoşulan professor Firudin Cəlilov da "dostunu" ruhlandırır... Amma riyakarcasına bu cızmaqaranı yox, yazdığı kitabları tərifləyir. Guya "siyasət" və ya "ədəbi fənd" işlədir!

Belə yerdə deyirlər "ağlına keçə yamayım!"

Provokatorlar tezliklə hazır olub, ondan əleyhimə təzə sözlər qopartmaq istəyirlər, o isə E.İsmayılın "necə türkçü, ciddi və dəyərli yazar olduğunu" bir daha vurğulamaqla diplomatik fənd işlədib bu düşüklərdən yaxasını qurtarmağa çalışır:

Murvet Yusifov: Hörmətli Firudin müəllim, Azərbaycan-Türk tarixinin şah bilicisi kimi erməni arxivini bizə tarix kimi sırıyanlara, tariximizi təftiş edənlərə sanballı şapalağınızı çoxdan gözləyirik...

Qabil Zimistanoglu: Firudin müəllim, yatıb günortadan sonra "alim" olmaq istəyənlərə, xalqımızın tarixini saxtalaşdıranlara Eldar müəllim özünün bənzərsiz cavabını verib. Atalar gözəl deyib: "Zər qədrini zərgər bilər". Axı, nadan nə biləcək zərin qədrini. Eldar müəllimin əsərlərinə də yalnız sizin kimi peşəkarlar, sözün çəkisin və yükün bilən dəyərli alimlərimiz qiymət verə bilər. Xalqımızın tarixini sifarişlərlə saxtalaşdıran, təhrif edən nadürüstlərə, şarlatanlara sizin də obyektiv yanaşmağınızı, mövqeyinizi bildirməyinizi gözləyirik. Var olun!!!

Firudin Celilov: Bəylər, mən Eldar bəyin necə türkçü, ciddi və dəyərli yazar olduğunu onun Atatürkə aid yazdığı kitabına yazdığım ön sözdə demişəm.

Xanim Asadova: Oxxxaaayy! Ürəyinə sağlıq, Eldar müəllim! Paylarını götürmək qabiliyyətləri olsa, əla olar!

Eldar Ismayil Böyüktürk: Münasibət bildirən bütün dostları salamlayıram.

Eldar Ismayil Böyüktürk: Firudin müəllim, dəyərli sözləriniz üçün çox sağ olun.

Zeyneb Nesibli: Möhtəşəm ellim.

Yusif Zeynalov: Böyüktürk onsuz da indi alimlik dərəcəsi alanların coxu elə siz yazan alimlərdəndi.

Zəminə Rzayeva: Zekaniza ve ellerinize sagliq şair, Cox sag olun, Inanmiram ki insanliqdan başqa her şeyi bacaranlara ne ise cata

Aslan Qasa Pv: Alim Korolov Lomonosov Enşteyn ve diger mewhurlar Bizde hani o alimlerden?şor motolu Verib alim olublar.

Enver Qafarov: Var olun Eldar müəllim,sizə can sağlığı arzulayıram!100 yaşa!

Mirzahid Haciyev: Deyerli Oquz Turk elinin Boyuk Turk oqlu siz bu Milletin elimizin obamizin derdini ozunuze yuk elemisiniz bu yolda yorulmadan deyirsiniz yazirsiniz yaradirsiniz yaradiciliqinizdan menevi mesuliyyetimizi artiririq Tanri komeyiniz ve dayaqiniz olsun

Terane Ceferova: Eldar muellim Salam lap ureyimizden dediz bu deqiqe beleler lap artib alaq kimi allah sizi qorusun

Sahib Ibrahimov: Var olun,Eldar müəllim! Çox təəssüflər olsun ki,bu gün Azərbaycanımızda belə alimlər çoxdur.

Həə, Eldar İsmayıl!

Bura qədər idi! Sən həddini aşdın!

Küçə adamlarını, nadanları, qaraguruhçuları başına toplayıb düz bir il məni söydün, söydürdün, keçdim…

Məndən Dövlət Təhlükəsizlik Xidmətinə donos yazdın, keçdim…

Amma türklər demiş, qüsura baxma, daha bunu keçə bilməyəcəyəm. Məni açıq mətnlə ən tərbiyəsiz sözlərlə, küçə uşaqlarına da yaraşmayan sözlərlə söydün. Bəs Sərdar Əlibəylinin səhifəsində disskussiya apardığımız zaman yazmışdın ki, "söyünc söymək gədəlikdir?". Nə oldu, gədəliyini nəhayət ki, üzə çıxartdın!

Eldar İsmayıl, sən Rubikonu keçdin, yəni mənə müharibə elan etdin!

Füzuli Sabiroğlu, Mürvət Yusifov, Qabil Zimistanoğlu kimi düşük və sırtıq gədələr sənə züy tutanda xoşhallandın, sənin bu "şedevrini" tərifləyənlərə təşəkkür etməyi də unutmadın!

Eldar İsmayıl, indi sən oldun Aşıq Ələsgər, mən də oldum Şair Nağı? Mənə həcv yazırsan??

Bütün zəhərini tökdü üstümə,
Sərasər bir ildi Eldar İsmayıl.
Yaşına, başına hörmət eylədim,
Məni fağır bildi Eldar İsmayıl.

Eldar İsmayıl, ancaq sən bir şeyi nəzərə almadın! Aşıq Ələsgər qabağa düşüb Şair Nağıya həcv yazmamışdı, Şair Nağıya cavab vermişdi. Şair Nağının durumunda sən qaldın!

Eldar İsmayılı ruhlandıran düşük gədələrin kimin bostanına daş atdığını, söyləmək yəqin ki, artıqdır.

Professor Firudin Cəlilovu bu sırada görməksə, məni həm təəccübləndirdi, həm də üzdü…

Elə həmin gün, aprelin 1-də onun E.İsmayılın cavabını verdim:

1 Aprel 2018, saat 16:09 ·
Mənim statusum

NAZİR ƏHMƏDLİ

ŞAİR OLMAQ İSTƏYİR

Tanımır əcdadını,
Adam qoyub adını.

"Çapıb" axsaq atını,
Şair olmaq istəyir.

Yazdıqları yalandı,
Belindəki palandı.
Bir zəhərli ilandı,
Şair olmaq istəyir.

Səksən yaşlı donosbaz,
Ağıldan kəm, nataraz.
Qanmazın oğlu qanmaz
Şair olmaq istəyir.

Çox dedim kaftar itə,
Uyma şərə, qeybətə.
Söyüş söyüb millətə,
Şair olmaq istəyir.

Dərd-qəm çəkib, solubdur,
Canına qor dolubdur.
Böyük eşşək olubdur,
Şair olmaq istəyir!

Məni çəkir oyuna,
Lənət bunun soyuna.
Söz çatmır bu qoyuna –
Şair olmaq istəyir!

Dedim getməyək bədə,
Ağlın verdi mürtədə.
Boynuyoğun bir gədə
Şair olmaq istəyir!

Hücumları səngimir,
Top-tüfəng əsirgəmir.
Adam olmaq istəmir,
Şair olmaq istəyir!

Qərəzi canındadır,
Mərəzi qanındadır.

Şeytanın yanındadır,
Şair olmaq istəyir!

Quyruğunu bulayıb,
Axşam-səhər ulayıb
Mənə meydan sulayıb,
Şair olmaq istəyir.

Əbəs qeylü-qaldı bu.
Guya ağsaqqaldı bu.
Əslində çaqqaldı bu,
Şair olmaq istəyir.

Bezdiribdi çoxunu,
Söydürür var-yoxunu.
Yeyib alim po-nu
Şair olmaq istəyir!

Türkiyənin prezidenti Rəcəb Tayib Ərdoğan PKK terrorçularını yola gətirib ölkədə əmin-amanlıq yaratmaq üçün çox çalışdı, böyük güzəştlər etdi, amma onlar bunu Türkiyə Cümhuriyyətinin, Ərdoğanın zəifliyi kimi qiymətləndirib daha da azğınlaşdılar. Onda R.T.Ərdoğan tarixə düşən qanadlı bir ifadə işlətdi: "Onlarla anladıqları dildə danışacağıq". Ərdoğanla eyni vəziyyətdəyik. Bu mənəviyyat terrorçuları ilə anladıqları dildə danışmaqdan başqa yolum qalmadı.

Əminəm ki, oxucu da buna əmin oldu.

Mənəviyyat terrorçuları sabah nə hoqqa çıxaracaq? Bunu ancaq Allah bilir!

Amma Eldar İsmayıl artıq Rubikonu keçib, onu durdurmaqdan başqa ayrı yol yoxdur!

Eldar İsmayılın yeni status məni təəccübləndirmədi:

Eldar İsmayılın notası

27 may 2018
Eldar Ismayil Böyüktürk
BƏZİ "DOSTLARIN" DİQQƏTİNƏ

Mən xahiş edirəm mənim dostluğumda olub, mənim yazılarıma gözucu baxmayan, haqqımda yazan bəzi adamların yazısında adlarına rast gəldiyim "dostlar" mənim səhifəmi tərk etsinlər. Əgər etməsələr "dostluq"dan mən özüm siləcəyəm. Onu da qeyd edim ki, son vaxtlar bu xislət "dostların" 2 minini silmişəm.

Yorumlar:

Metin Öztürk: Buyuk üstadım ıyı yaparsınız

Çingiz Kürdəmirli: Düz edirsiniz, qardaşım, Əksər dostlar, ad günlərinin təbrikinə və Baş sağlığı verməyə yarayır

Kerim Israfilov: Eldar bey,men dusmenleri de dostlugumda saxlayiram ki,neler etdiklerini gorum.

Eldar Ismayil Böyüktürk: Kerim bəy, xəbisliər təmizlənməlidi. Öz səhifəmə hər kəsi mən qəbul etmişəm. Xoş gəliblər. Amma mənə dostluq göndərənləri qəbul edə bilmirəm. Belə "dostların" ucbatından. Dostluğu kiminlə tutur qoy getsin işlətsin... Mənim səhifəmdə ola- ola mənimlə deyil, başqaları ilə əlaqə qurursa buna necə baxmaq olar?

Aliyeva Aliyeva Məryəm: Haklısız şair,sizinle həmfikirəm

Ayten Abdullayeva: ALLAH SİZİ BİZƏ ÇOX GÖRMƏSİN, USTAD !!! VAR OLUN !

Hüseyin Ak: Abican ne yaşadın Eldar kimi Yaşadın.!Sizi gözleri götürmemelerinin ele sebebi budur..Canını sıkma ele küçük adamlara!

İlham Qazaxlı: Var olun, ustad.

Eldar İsmayıl sonuncu statusu ilə göstərir ki, ağlını tamam itirib. Yəqin gözləyirmiş ki, dostluğunda olanlar hamısı ona qoşulub üstümə gəlməli, onun səviyyəsiz hərəkətlərini müdafiə etməli imişlər. Adamda yekəxanalığa, eqoistliyə bax ki, birinci cümləsində dörd dəfə "mən" və "mənim" sözlərini işədib. Təkcə bu cümləsi ilə xarakterini ifşa edir. Təsadüfi deyil ki, onun bu sərsəmləməsinə cəmi 7 nəfər yorum yazıb, onlardan 3-ü Türkiyə vətəndaşıdır, Kərim İsrafilov isə kimlərisə dostluqdan çıxarmaq məsələsində onunla həmfikir deyil.

Doğrudan da, bezdiribdir çoxunu...

2018-ci ilin may ayı mənim üçün əlamətdar oldu.

"İrəvan əyalətinin Kameral təsviri" 5 cildliyimin I cildi-""İrəvan şəhərinin Kameral təsviri" kitabım onun elmi redaktoru, millət vəkili, Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudovun ön sözü ilə çapdan çıxdı. Kitabın əhəmiyyətini geniş şəkildə qeyd edən hörmətli akademik həmin əsəri Azərbaycan tarix elminə qazandırdığıma görə mənə minnətdarlığını bildirir. Bu, mənim zəhmətimə verilən ən yüksək qiymətdir və mən də hörmətli akademikimizə öz minnətdarlığımı bildirirəm.

İrəvan şəhərinin Kameral təsviri.1831-ci il" (2018) AMEA Tarix İnstitutu Elmi Şurasının qərarı, akademik Y.Mahmudovun elmi redaktorluğu ilə çıxması əslində qaraguruhçuların qəti məğlubiyyətinin göstəricisidir. Xatırlayırsınızsa, qaraguruhçuların E.İsmayılın təhriki və rəhbərliyi ilə prezidentə və DTX sədrinə yazdığı donosun surətini Tarix İnstitutuna da göndərmiş və onlardan "Haqq-nahaqq seçilər Haqq divanında" kitabıma münasibət bildirməyi, daha doğrusu, onu məhkum etmələrini istəyirdilər. Budur, mötəbər instansiya kimi müraciət etdikləri Tarix İnstitutu, Elmi Şuranın qərarı ilə kitabımı çap etməklə öz

münasibətini bildirdi. Güman edirsiniz ki, Əbu Süfyan, Əbu Ləhəb və Əbu Cəhllər sakitləşdimi? Yanılırsınız!

Səbəbi?? NADANLIQ!!

Bu kitabı bitirib, doğum tarixini müəyyənləşdirdiyim Dərələyəzli Aşıq Cəlilin 150 illik yubileyi ilə bağlı tərtib etdiyim kitabı nəşrə hazırlamalıyam ki, onun yubileyinə çatdıra bilək.

Qarşıda məni hələ çox işlər gözləyir.

Sağlıq olsun..

Kimi iş görür, kimlərsə də bu kitabda oxucuya tanıtdığım qaraguruhçular, gerizəkalılar, nadanlar kimi iş görənə mane olur...

FINAL. İFLAS

Sabutay Hacıyevin düzməcə "sənədi" ilə bağlı Rusiya Dövlət Arxivinə yazdığım məktubun cavabını gözlədiyim vaxtda qaraguruhçu dəstə yəqin məni məğlub etdiklərinə özlərini də inandırıb indi başqa bir "qlobal məsələ" ilə məşğul idilər. Eldar İsmayıl ona ünvanladığı məktubu paylaşmışdı:

Eldar Ismayilın statusu

20 fevral 2018

Tanınmış jurnalist Mürvət Yusifov mənə məktubla müraciət etmişdir. Həmin məktubun mətnini həmkarlara, qələm sahiblərinə və oxuculara təqdim edirəm. Ümidvaram ki, dostlar öz fikirlərini bildirəcəklər.

MÜRVƏT YUSİFOV

ELDAR İSMAYILA(Türk Dünyasının böyük oğlu, görkəmli
yazıçı-şair Eldar İsmayıla)

Dəyərli dostlar, iki il öncə Eldar İsmayıl-75 qrupunu yaradanda məqsədim çağdaş ədəbiyyatımızın görkəmli yazıçı-şairi Eldar İsmayılın 75 illik yubileyini möhtəşəm şəkildə qeyd etmək

və layiqli adının dövlətimiz tərəfindən təsdiqlənməsinə nail olmaq idi. Bizlər öhdəsindən gəlməyə borclu olduğumuz işin bir hissəsini yerinə yetirə bildik. Yazıçı-şairin 75 illik yubileyini möhtəşəm şəkildə qeyd edə bildik. Amma bəzi məmurların biganəliyi ucbatından layiqli adının rəsmiləşməsinə nail ola bilmədik. Bu müddətdə yazıçıların, şairlərin, elm adamlarının yazıçı-şairin yaradıcılığına münasibətləri bizə stimul verdi ki, Eldar İsmayılın yazdığı 50-ə yaxın kitabın, yüzlərlə publisistik məqalənin hər biri Bütöv Azərbaycan, Turan elləri ideasına xidmət edir."Türkün xilaskarı", "Səttaroğlu", "Göyçənin qisası qalır", "Məndən ötrü Ermənistan yoxdu, yox!" və s. kimi əsərlərinin hər biri bunun bariz nümunəsidi.Yazıçı-şairin yaradıcılığı qardaş Türkiyədə və digər şərq ölkələrində titul və ödüllərlə mükafatlandırılıbdı.Bütün yaradıcılığı ilə Türk Dünyasına xidmət etdiyini nəzərə alıb Eldar İsmayıl-75 qrupunun adını dəyişib Eldar İsmayıl Böyüktürk qoyduq.Bu qərarımız qələm adamları tərəfindən alqışlarla qarşılandı. Həm öıkədə, həm də ölkə hüdudları kənarında yaşayan çox saylı oxucuları bizim bu qərarımızı dəstəklədilər.Bu gün bizlər böyük yazıçı-şairimizə müraciət edirik! İmzanızı ELDAR İSMAYIL BÖYÜKTÜRK olaraq qeyd edin. Bu, on minlərlə oxucunuzun istəyidi!
Sizə turançılıq yolunda yeni uğurlar arzulayırıq!

***Və "təvazökarlıqdan əziyyət çəkən" Eldar İsmayıl qaraguruhçuları çox da intizarda qoymayıb elə ertəsi gün onların "istəyini" yerinə yetirir*:**

Eldar Ismayil Böyüktürk,
21 fevral 2018

MÜRVƏT YUSİFOVA

Hörmətli Mürvət bəy, Sizin təklifinizi qəbul edərək bu gündən etibarən adıma və soyadıma Böyüktürk təxəllüsünü əlavə edirəm. Sizə və sizin səsinizə səs verən yüzlərlə həmkarımıza,

eyni zamanda hörmətli Fəridə Qədimovaya, Hicran Baycana, Musa Erdenenerə, Nurida Misirə, Təvəkgül Cəmilliyə, Məmməd Qələndərliyə, Səyyarə Məmmədliyə, Sona İsmayılovaya, Qabil Zimistanoğluna, Süleyman Səmədoğluna, Şahlar acıyevə, Sevinc Məmmədovaya, Sona Rüstəmovaya, Bayram Məmmədova Yusif Zeynalova , Əbülfət Adiloğluna və başqalarına öz sevgi və sayqılarımı göndərirəm. Qeyd edim ki, mən təxəllüs götürsəydim indiyə kimi götürərdim.Əgər xalqımızın nümayəndələri mənə belə bir ad verməyi layiq bilirsə mən onu qəbul etməyə bilmərəm. Digər bir tərəfdən, doğrudan da mən bütün varlığımla türk və türkçü olduğuma əminəm! Güneyli, Quzeyli Azərbaycanımız və bütün türk- Turan elləri bir yanar şamdısa mən onun pərvanəsiyəm.

Eldar İSMAYIL

"Böyüktürk" ona müraciət edənlərə minnət qoymağı da unutmur: "mən təxəllüs götürsəydim indiyə kimi götürərdim. Əgər xalqımızın nümayəndələri mənə belə bir ad verməyi layiq bilirsə mən onu qəbul etməyə bilmərəm".

Çünki o, "bütün türk dünyasının pərvanəsidir": "Güneyli, Quzeyli Azərbaycanımız və bütün türk- Turan elləri bir yanar şamdısa mən onun pərvanəsiyəm".

Əgər pərvanəsənsə, "Pərvanə" təxəllüsünü götürmək daha yaxşı olmazdımı?

M.Yusifovun təşkil etdiyi "zəhmətkeşlərin müraciəti"nə M.Yusifovun dilincə desək, "hökumətimiz, dövlət məmurları "biganə" qalıb ona xalq şairi fəxri adı verməsələr də, "təvazökar" insan Eldar İsmayıl onların çağırışına biganə qala bilməz axı!

Eldar İsmayıl aldığı "Böyüktürk" təxəllüsündən son dərəcə məmnun olub yeni-yeni əsərlər yazmağa ruhlandığı zamanlarda onun kefinə soğan doğrayanlar da tapılır. Sən

demə, "zəhmətkeşlərin" hamısı heç də M.Yusifovla eyni fikirdə deyilmiş:

Eldar Ismayil Böyüktürkün statusu
4 aprel 2018

DOSTLARIN DİQQƏTİNƏ və NAZİM ƏLƏSGƏROVA

Bu günlərdə Nazim ƏLƏSGƏROV adlı ***birisi*** yazır ki, Eldar İsmayıl özünə BÖYÜKTÜRK təxəllüsü götürüb... Heç Atatürk özünə Böyüktürk deməyib. Sən demə bu təxəllüs Nazim bəyin və onun kimi bəzilərinin sancısına səbəb olubmuş.Nazim bəy bilmir ki, Atatürkə türkün atası adını vermişdilər. Böyüktürk sözü nə idi ki, onu Atatürk götürə idi?Bütün FB dostlarım bilir ki, iki ilə yaxındır ki, o adda bir qrup fəaliyyətdə idi. (Qrupun rəhbəri və yaradıcısı MÜRVƏT bəy YUSİFOVDUR) Mən o təxəllüsü götürmürdüm. Nəhayət qrupun rəhbəri və üzvlər mənə dedilər ki, BÖYÜKTÜRK sözünü siz qəbul edin, çünki xidmətiniz çoxdur. Mən qəbul elədim, Türkiyədən, Almaniyadan, İrandan belə bu ideyanı bəyəndilər.

Nazim bəy, ancaq bu təxəllüs mənə heç bir yenilik gətirmir. Sizin və dostlarınızın xətrinə bu təxəllüsü işlətməyə bilərəm.Onu da deyə bilərəm ki, mən Göyçənin min illik, 500 illik, 100 illik və son dövr tarixini işləmişəm. Təxəllüs sevsəydim GÖYÇƏLİ qoyardım. Amma siz və sizin kimilər bu zəhmətin önündə bir dəfə sağ ol deyə bilməyibsiniz! Çünki Siz nöqsan axtarmağa, nöqsan deməyə fürsət axtarırsınız!

E.İsmayılın bu statusuna yazılan yorumlardan onun pərəstişkarlarından olan Mətanət Əmirlinin yazısı diqqətimi cəlb etdi:

Mətanət Əmirli: Eldar müellim! Nazimcikler ve onun kimi yüzlerle cik - ciklerin deyil, minlerle oxucularin hörmetini qazanmiş birisiz. Siz Türk dünyasinin müdrik ağsaqqalisiz ve BÖYÜKTÜRK texellüsüne layiq birisiniz.

M.Əmirlinin yorumu bir çox baxımdan maraqlıdır: ”yüzlerle cik - ciklerin deyil, minlerle oxucularin hörmetini qazanmiş birisiz”. “Cik-cik” deyəndə M.Əmirli nəyi nəzərdə tutur? Bəlkə cücə demək istəyir? Amma Anadolu türkləri cücəyə “civ-civ” deyir. M.Əmirli bu sözü hansı dildən götürüb? Digər tərəfdən. M.Əmirli minlərlə oxucusu olması ilə yanaşı, Nazim kimi yüzlərlə cik-cikin Eldar İsmayılı qəbul etmədiyini bildirir. Burada haşiyə çıxmalıyıq. “Haqq-nahaqq seçilər Haqq divanında” kitabımın haqqında müzakirələrin təzə vaxtında Eldar İsmayıl mənə yazmışdı ki. əgər 2 adam hansısa kitabımı tənqid eləsə, nəticə çlxardaram, kitabımı yığışdıraram. Eldar İsmayıl, eşidirsənmi “pərəstişkarın” Mətanət Əmirli nə deyir? Deyir ki, sənin “Böyüktürk” təxəllüsünü götürməyindən Nazim kimi narazı qalan yüzlərlə cik-ciklər var! Səncə ölçü götürməyin üçün bu yüzlər kifayət deyilmi?

Mətanət Əmirli Eldar İsmayıla böyük dəstək verir: “Siz Türk dünyasinin müdrik ağsaqqalisiz”. Həmin statusdan Dədə Qorqud olmağa bircə addım qalır. Amma tərslikdən, araşdırmalarım üzə çıxartdı ki, Eldar İsmayıl Dədə Qorqud kimi oğuz mənşəli deyil, qıpçaq mənşəli qarapapaqdır. Sən demə, Eldar İsmayılın planlarına əməlli-başlı “pəl vurmuşammış”. Eldar İsmayılın mənimlə düşmənçilik etməsinin səbəbini M.Əmirlinin yorumundan anladım.

Qüsura baxma, Eldar İsmayıl!

E.İsmayılın özü isə statusunda nəinki N.Ələsgərovu aşağılayıb “Nazim Ələsgərov adlı birisi” yazır, hətta onu təhqir də edir: “Sən demə, bu təxəllüs Nazim bəyin və onun kimi bəzilərinin sancısına səbəb olubmuş”.

Eldar İsmayıl, sən nəinki tənqiddən nəticə çıxarmırsan, yüngül tənqidə görə admları təhqir etməkdən belə çəkinməyəcək qədər lovğa və özündən müştəbehin birisən!

Edar İsmayıl yazır ki, “Böyüktürk sözü nə idi ki, onu Atatürk götürə idi?”. Yəni bu təxəllüs Eldar İsmayıl üçün kiçik görünür! Yaxşı, Eldar İsmayıl, əgər “Böyüktürkü” kafi saymırsansa, qoy təxəllüsün “Zırpıtürk” olsun! Bəlkə razı qalasan!

“Bütün FB dostlarım bilir ki, iki ilə yaxındır ki, o adda bir qrup fəaliyyətdə idi. (Qrupun rəhbəri və yaradıcısı MÜRVƏT bəy YUSİFOVDUR) Mən o təxəllüsü götürmürdüm. Nəhayət qrupun rəhbəri və üzvlər mənə dedilər ki, BÖYÜKTÜRK sözünü siz qəbul edin, çünki xidmətiniz çoxdur”.

E.İsmayıl etiraf edir ki, ona verilən bu təxəllüsün təşəbbüskarı və təşkilatçısı M.Yusifovdur. Amma M.Yusifov bir müddət əvvəl yaradıcısı olduğu həmin qrupu ləğ edib. Çünki artıq E.İsmayılla araları dəyib, hətta sosial şəbəkədə bir-birlərinin ünvanına maraqlı sözlər deyirlər. O vaxtlar isə M.Yusifov E.İsmayıl üçün çox çalışdı, xalq şairi adı verdirə bilməsə də, 75 illik yubileyini təşkil elədi, “Böyüktürk” təxəllüsü üçün xeyli “zəhmətkeş imzaları” topladı. Amma daha olan olub, keçən keçib. İndi bir-birlərini danışdırmırlar. Səbəbi? Səbəbi daha çox M.Yusifovun ambisiyaları, hikkəsidir.

Məsələnin tarixçəsi belədir.

Sabutay Hacıyev məzhəkəsini düzüb-qoşduğu 2018-ci ilin 4 fevral yığıncağının keçirilməsi üstündə Qərbi Azərbaycana Qayıdış Birliyi (QAQB) adlı təşkilatın sədri Rizvan Talıbovla aralarında möhkəm çəkişmə oldu. R.Talıbov həmin gün rəhbəri olduğu təşkilatın yığıncağını keçirmək haqqında məlumat yaymışdı. Amma Mürvət bunu bilə-bilə, sanki R.Talıbovun gücünü sınamaq üçün o da tədbirini fevralın 4-ə təyin etdi. İlk baxışdan belə görünə bilərdi ki, burada elə bir ziddiyyət yoxdur, qoy hərə öz tədbirini keçirsin. Amma Mürvət R.Talıbovu sındırmaq istəyirdi! Facebook-da öz tərəfdarları ilə R.Talıbova qarşı elə şiddətli şantaj və təhqir kampaniyasına başladı ki, R.Talıbov geri çəkilməyə məcbur olub fevralın 4-ə təyin etdiyi tədbiri ləğv etdi.

4 fevral 2018-ci il M.Yusifov üçün ikiqat “təntənə” idi! Həm R.Talıbovdan tarixi almışdı, həm də S.Hacıyev məzhəkəsi ilə “Nazir Əhmədlinin təqdim etdiyi sənədlərin saxtalığını sübut etmişdi”! Sabutay Hacıyev əhvalatının necə qurtardığını oxucu artıq bilir. Düşünmək olardı ki, Mürvət bu rəzil əməllərinin faş

edilməsindən xəcalət çəkər, utanar! Amma yox! Əgər siz belə düşünürsünüzsə, Mürvəti heç tanımamısınız!

Necə deyərlər, "iştah diş altındadır"! Mürvət R.Talıbovdan nəinki yığıncağın tarixini, indi də təşkilatını almaq istəyirdi! Və günlərin birində belə bir status paylaşdı:

Murvet Yusifovun statusu
4 may 2018

Qərbi Azərbaycan kartından şəxsi məqsədləri üçün istifadə etmək istəyənlərə imkan verməyəcəyik!!

Qısa və aydın! Mürvət hesab edir ki, R.Talıbov Qərbi Azərbaycan kartından şəxsi məqsədləri üçün istifadə edir və R.Talıbova ultimatum verir: yerini xoşluqla mənə verməsən, 4 fevral kimi, onu zorla əlindən alacağam!

Amma R.Talıbov bu dəfə geri çəkilmək istəmədi və M.Yusifov ona qarşı soyuq müharibə elan etdi.

Murvet Yusifovun statusu
21 may 2018

Qəribə vəziyyət yaranıb cəmiyyətimizdə. Balaca bir şou düzəldib özlərini təbliğ edirlər.Məsələn: guya ermənіləri narahat ediblər))

Yorumlar:

Mahmud Memmedov: Mürvet müellimin statusu hemişe ümimiye hesablanır. Düzdü cemiyyetimizde bele xesteler var guyakı iş görürler

Mətanət Əmirli: Ictimaiyyetin fikrini cemleye bilmedi. Indi de bu hiyleye el atdi.Murdar ermeniler bele onun kimi ŞEREFSIZLERI - adina milletçi deyib bu ad altda maskalananlari adam yerine qoymur.

Mətanət Əmirlidən R.Talıbova "yağlı" ifadələr!

Məmməd Əmirşah Əliyev: kimdi o milletçi adıyla maskalanan? birini stat getirin!

Mətanət Əmirli: Bilenler bilir! Bilmeyenlere de tezlikle melum olacaq!

Məmməd Əmirşah Əliyev: Metanet Amirli açiq yazin mende bilim

Mətanət Əmirli: Lazim bilseydim, açiq yazardim!!!

M.Yusifovu göründüyü kimi, cəmi 2 nəfər müdafiə edir: Mahmud Məmmədov və Mətanət Əmirli. M.Yusifovun siyasi həssaslığı olsaydı, bu əlamətlərdən artıq uduzduğunu anlayar və başqa taktika seçərdi. Amma yox, o ancaq bir yol bilir-kəllələşmək!

Mürvət iyun ayının axırlarında başçılıq etdiyi təşkilatın II qurultayını keçirməyə hazırlaşan R.Talıbovu qabaqlamaq üçün mayın 25-də Beynəlxalq Mətbuat Mərkəzində, Eldar İsmayılı sağ yanında, Qabil Zimistanoğlunu da sol yanında oturdub 20 nəfərlə tələm-tələsik bir yığıncaq keçirib hər bölgə üzrə "nümayəndələr" təyin etməyə başladı. Məsələn, bizə yaxşı tanış olan Aqşin Hacızadəni Qarabağ üzrə, Pərvanə Zəngəzurlunu isə Zəngəzur üzrə "səlahiyyətli nümayəndə" təyin etmişdi. Kölgəsi olan Qabil isə, əlbəttə,onun müavini oldu. "Sağ qolu" Eldar İsmayıl onun müavini olmağı qəbul etmədi. Ona görə yox ki, onun heç bir vəzifədə gözü yox idi, ona görə ki, Mürvət siyasi səhvə yol vermişdi-E.İsmayılı sədr seçib ona müavin olmaq əvəzinə, E.İsmayılı özünə müavin etmək istəmişdi. "Böyüktürk"ün özünü! Başqaları Mürvətə etiraz etmədilər. Bir sözlə, yığıncağa gələnlərin , hərəsinə bir "vəzifə" çatdı. İş lağılağı xarakter almışdı.

Facebook-da paylaşılan şəkillərinə baxanda maraqlı bir nüans gözümdən yayınmadı: Mürvət də, Mətanət Əmirli də ağ köynək geyinmişdilər...

M.Yusifovun təşkil etdiyi yığıncaqda cəmi 20 nəfərin iştirak etməsi əslində onun iflası idi... Ağlı başında olan hər bir şəxs artıq onun bitdiyini gördüyünə görə, ondan məsafə saxlamağa üstünlük verdi. Eldar İsmayıl da belələrindən idi.

Mürvət işini görüb özünü qabağa salandan sonra R.Talıbovu məcbur etməyə başlamışdı ki, o öz qurultayından imtina edib Mürvətin bayrağının altına keçsin. Tərslikdən, R.Talıbov ayağını dirəyib onun bayrağının altına keçmirdi ki, keçmirdi. 20 günlük təzyiqdən, intriqalardan, üzbəüz oturub "məsələni çözmək" haqqında "ağsaqqalların" təkidlərindən sonra onlar görüşdülər:

Rizvan Talibovun statusu
16 iyun 2018

Bu gün QAİB-nin həmtəsisçisi Eloğlumuz Mürvət bəylə görüşüb, çay süfrəsi arxasında xeyli səmimi söhbətlər etdik!!Bu görüşümüz və səmimi söhbətimizlə bəzilərinin guya aramızda bir düşmən münasibəti olduğunu düşünmələrinə isə, sadəcə güldük!!! Eyni amal uğurunda mübarizə aparanlar arasında fikir müxtəlifliyi ola bilər, məsələlərə müxtəlif yanaşmalar ola bilər, rəqabət ola bilər, amma düşmən münasibəti əsla ola bilməz!!! Bu günkü səmimi görüşümüz və söhbətlərimiz də bunun sübutu oldu!!! El-Obamız uğurunda mübarizəmizə uğurlar!!!

Yorumlar:

Qeysar Asif Aliyev: Iki boyuk Şexs, iki Iqit (igid demək istəyir-N.Ə.)yan yana. Bax bundan sonra niyede Iravani almayaq?

Vəssalam! İrəvan artıq "alınıb", qalıb bu "qalibiyyəti" toplardan atılan atəşlə qeyd etmək!

Amma Mürvət İrəvanın türk torpağı olduğunu sübut edən Kameral təsvirləri və onun müəllifini də bir ildir topa tutur!

***Qeys Hesenov*:** Hər ikinizə uğurlar və möhkəm cansağlığı!!!.

Maarif Maqerrambeyli: Mən - təkcə mən yox - bütün Ellirərim - Bütün Qərbi Azərbaycanlılar belə bir görüşün baş tutmasını arzulayır və səbirsizliklə gözləyirdik ! İnanın ki - sevincimdən ağlayıram!

Elza Orucova: Gözəl təşəbbüsdür! Alqışa dəyər! Çox hörmətli Mürvət müəllim! Çox hörmətli Rizvan müəllim !

Vasil Bagirov: Güc birlikdədir !

Sona İsmayılova: Allah mehriban elesin hemişe el oğlanlarınl.Bele söz söhbetler normaldı.Esas can sağlığıdır

Qadimaliyev Məhəbbət Məhəbbət: Allah Məhəmməd ya Əli ....!

Koroğlu Qasımov: Halal olsun

Füzuli Sabiroğlu: Eşq olsun hər ikinizə! Var olun!

Bu görüş Maarif Məhərrəmbəylini ağlatdı, bizə əvvəldən yaxşı tanış olan daha 2 personajımızı-keçmiş polis işçisi Koroğlu Qasımovla "Lider TV"-ni əməkdaşı F.Sabiroğlunu mütəəssir etsə də nəticəsi olmadı, R.Talıbov elə həmin məkanda-Beynəlxalq Mətbuat Mərkəzinin konfrans zalında qurultayını keçirdi. 20 nəfərlə yığıncaq keçirən M.Yusifovdan fərqli olaraq,R.Talıbovun qurultayında daha çox adam gözə dəyirdi. Bu, Mürvəti açıq-aşkar pərt edirdi. Pərtliyinin əsas səbəbi "Böyüktürk" ünvanı qazandırdığı Eldar İsmayılın nankorluğu idi-R.Talıbovun qurultayına o da qatılmışdı!Onun qurultaya qatılması, üstəlik rəyasət heyətində oturması Mürvəti çox rəncidə etmişdi. Bu hadisə Mürvətə o qədər ağır təsir etmişdi ki, artıq "Böyüktürk"ün özünə belə savaş açmaqdan çəkinmədi. "Böyüktürk"ün əsəbləri dözmədi:

Eldar İsmayıl Böyüktürkün statusu
9 iyul 2018.

Mən bir şair kimi bədii yazılarla məşğulam,xahiş edirəm məni siyasi oyunlara qatmayın!

Yorumlar:
Sədiqə Xəyal: Ehsen şair
Gültəkin İlkay: Əlbəttə
Təbriz Əliyev: Şairin siyasəti şeirindədir.
Abdulla Cəfər: Eşq olsun
Besti Ismayilova: Üzün bizdən niyə döndü ..
Ələddin Allahverdiyev: Hörmətli dostlar! Xalqının, el-obasının taleyi ilə bir yaşayan böyük şair Eldar İsmayıl heç vaxt Vətəni ilə bağlı olan siyasətdən kənarda olmayıb və əsl şair kimi gələcəkdə də ola bilməz. Diqqət verin, Eldar müəllim siyasətdən yox, siyasi oyunlardan söhbət edir.
Araz Yaquboğlu Eldar müəllim, sizi siyasi oyunlara qatanı gec tanımısız. Sizin adınızdan lazımınca istifadə etdilər.
Pervane Zengezurlu: Araz Yaquboğlu, kim və harada nə məqsədlə istifadə edib ki Eldar müəllumin adından? Bir açıqlama versənizə biz də bilək.

Mürvətin "Zəngəzur üzrə səlahiyyətli nümayəndə" təyin etdiyi Pərvanə Zəngəzurlu və bizə yaxşı tanış olan Mətanət Əmirli Araz Yaquboğluna hücum edirlər:

Mətanət Əmirli: Nazire satilmiş Araz Yaquboğlu çaşma!!! Heç kim Böyüktürkün adindan istifade etmeyib. Eldar Ismayil vetenperver şairdir daha senin kimi tarixi saxtalaşdiran Nazire sitayiş eden Allahsiz yox!!! Ne üzle gelib burda rey yazmisan ?! Heç utanmadinmi Böyüktürkden?!

Araz Yaquboğlu: Qadınlığınızdan ayıb edin. Sözlərinizə diqqət edin. Mən Eldar Ismayilı tanıyanda sizlər hələ qruplaşmamışdız. Eldar müəllim artıq hamını lap yaxşı tanıdı. Yoxsa Eldar müəllimin statusuna rəy yazmaq üçün sizlərdən icazə almalıydıq? :)

Mətanət Əmirli: Menden icaze almağa ehtiyac yoxdur! Daşinizi öz bostaninizda saxlayin laziminiz olar! Kimsenin bostanina daş atmayin. Bilmediyiniz mövzuya da polemikaya girmeyin. Görün status kime ünvanlanib sonra çömçe kimi düşün ortaya.

Mürvətin ən qızğın 2 tərəfdarı varsa, Qabillə Mətanət Əmirlidir, yeri gəldi-gəlmədi küçə söyüşlərinə keçir, söyür və özünü söydürür. Sanki Mürvətə göstərir ki, bax,sənin üçün hər bir fədakarlığa, cəfakeşliyə hazıram. Onun yazdığı kimi cavab verirsən, adamı qınayırlar ki, qadındır, səni söysə də ona eyni cavabı vermə, cavab vermirsən, qalırsan qıvrıla-qıvrıla. Bir sözlə, Mətanət Əmirli tuği-lənət olub keçib boğazımıza! Araz Yaquboğlu da mümkün qədər yumşaq sözlərlə canını ondan qurtarmaq istəyir.

Mürvətin uduzması ilə "Zəngəzur üzrə səlahiyyətli nümayəndə" kimi "vəzifəsindən" məhrum olan Pərvanə Zəngəzurlu da aqressivlik göstərib Araz Yaquboğluna hücuma keçir:

Pervane Zengezurlu: Araz Yaquboğlu sizin məqsədiniz nədir, bilmək olarmı? Əgər cəsarətiniz varsa kimləri nəzərdə tutursunuz açıq yazın, bəlkə Eldar müəllimi kimsə öz şəxsi məsələsi üçün özünə alət edib biz bilmirik?

Araz Yaquboğlu: Pervane Zengezurlu, siz təmiz adamsız. Özünüzü bu işlərə bulaşdırmayın. Dediyim söz sahibinə çatıbdı. Narahat olmayın.

Mahmud Memmedov: Eldar müellimden ayıb edirem. Quyruq bulayanlara qınını göstererem.Araz bu qedermi qudurdun. Hardaydın bu güne qeder.

Mürvətin ən tərbiyəsiz havadarlarından biri də Mahmud Məmmədovdur və 1 il məni söyüb. İndi də Araz Yaquboğluna hücum çəkir.

Pervane Zengezurlu: Eldar müəllim bəli əziz eloğlum siyasi oyun yox lakin Vətən üçün canla başla çalışan kimdirsə onların yanında olmalısınız.vərəni naminə hər tənqidə tənəyə və s baxmayaraq ayaqüstdə duran,vətən naminə həqiqəti, deyən vətənun tarixi şəxsiyyətlərini təhrif edərək yazanlara qarşı sinə gərən mərd oğullarımıza eşq olsun

Eldar Ismayil Böyüktürk: Pervanə xanım, əziz elqızım, torpaqlarımıza sahib olmaq təşəbbüsü mənimdir. Əgər ağıllı başla iş görən olsaydı mən orda olardım. Tələsik ***hərə özünə bir Qərbi Azərbaycan qrupu, birliyi yaratdı. Biz elə burdaca, öz içimizdə böləndük, parçalandıq.*** Düşmənə də bizim bölünməmiz lazımdı! Qərbi Azərbaycan yalnız bir çatı altında birləşməlidi, ki, səsimiz bir yerdən çıxsın, gur çıxsın. Mahallara, kəndlərə bölündükcə bölünürük! Onsuz da bizi bölüblər! Sağlam düşüncə ilə, vətənpərvərlik hissi ilə bir birlik yaradılarsa mən can-başla orda iştirak etməliyəm!

Mürvətin qızğın tərəfdarlarından olan Q.Zimistanoğlu ilə Şəbnəm Bünyadzadə indi çətin vəziyyətdədirlər. Qorxularından Mürvətə qarşı gedə bilmirlər, Eldar İsmayıl onların hər ikisinə də şeir həsr etdiyinə görə ona qarşı da gedə bilmirlər. Nacə deyərlər, qalıblar odla su arasında! Ona görə də gözə dəymirlər.

Pərixanım Mikayıl Qızı Muradova: 👉👉👉👉👉

Şahlar Haciyev: Bu sözləri ancaq Eldar İsmayıl kimi sadə, təmiz qəlbli bir insan deyə bilər. Eşq olsun Böyük insan.

Bu yorumdan uzun müddət M.Yusifovu müdafiə edən Şahlar Hacıyevin də indi ona qarşı olduğu aydın olur. QAQB-ni sədri R.Talıbov yaxşı taktiki gediş edərək Mürvəti təkləyib, onun

dostları olan Sahib Musayevi, Şahlar Hacıyevi və onun yaxın qohumu Namiq Aslanovu yanına çəkərək hərəsinə bir "vəzifə" verib. N.Aslanovu özünə I müavin, S.Musayevi sədrin təşkilati məsələlər, Ş.Hacıyevi isə ideoloji məsələlər üzrə müavinləri təyin edib. Onların hər 3-ü Nərimanlı kəndindəndir, yəni Mürvətin həmkəndliləridir. Məsələnin bu tərəfi isə Mürvəti lap yandırır, qovurur və o da fb səhifələrindən qəzəb və kin püskürür:

Murvet Yusifovun statusu
1 iyul 2018

Bəhmıənəm, öldürün, söz demişəm mən
Günahım budu ki, düz demişəm mən.
Namərddən kişilik gözləmişəm mən,
Neçə nakişini kişi bilmişəm...

Şairə rəhmət.

Mətanət Əmirli: Kişilik insanin qanında, caninda olur. O da pulla deyil, alib - verəsən.

Təbii ki, M.Əmirli Mürvətə sədaqətini bildirən birinci adam olmağını göstərməlidir.

Яшар Аббасов: Mətanət xanim, mənə elə gəli ki, pul, tamah olan yerdə kişilik adli insan keyfiyyətinin olmasi mümkün deyil . Bəla orasindadir ki , son vaxtlar o keyfiyyət yox olmaq üzrədir və başlica səbəb isə insanlarin pula , tamaha uymasidir .

Яшар Аббасов: Min rəhmət ! Həqiqəti sözə çevirib və o sözləri qilincdan da iti edən , Vətən -yurd həsrətli Şəxsiyyət !

Yaz Yağmuru: Yerinde deyilmiw kelamlardir, ALLAH REHMET ELESIN,

Mahmud Memmedov: Nakişiler çoxalır ezizim zemane bed gelib

Qabil Zimistanoglu: Çox təssüf ki, indi sözün düzünü deyənləri çarmıxa çəkirlər!!!

Maarif Maqerrambeyli: Salam Hörmətli - Qabil bəy ! Belə də olmalıdır.... Başqa cür olası deyil ha.....

Murvet Yusifov: Maarif bəy, düz söz deyən çarmıxa çəkilməlidi???!

Şebnem Bunyadzade: Namertden kişilik gözlemeyin özü sefdi

Elbeniz Aliyeva: Namərddən kişi olmaz!

Pervane Zengezurlu: Allah şairə rəhmət eləsin.Ay qardaş elə bu dövr bu gün üçün deyib sanki

Sevinç Abdüllayeva: Esitmemisiniz duz sozü deyeni doqquz kendden qovurlar.

Qabillə Şəbnəm də hələlik buradadırlar, amma səsləri yavaş çıxır. Mürvətin Bəhmən Vətənoğludan gətirdiyi sitatla kimə müraciət etdiyi isə mənə məlum deyil. R.Talıbovun qurultayının səhərisi gün bu sözlərin Eldar İsmayıla ünvanlandığını düşünmürəm. Bəlkə də öz həmkəndlilərindən inciyib. Amma bir şey məlumdur ki, yanındakıların sıraları çox seyrəlib…

4 gün sonra Mürvət başqa bir söyüş və hədə paylaşır:

Murvet Yusifovun statusu
5 İyul 2018.

Arxadan zərbə gəda işidi! Özünüzü siyasətçi hesab edirsiniz? Nöqtə, vergülünəcən hesab soracam!

Təbii ki, Mətanət Əmirli öz yerində və ayıq-sayıqdır. Onun əsas işi Mürvətin dediyini dəstəkləyib, düşmənlərini söyməklə Mürvətə təsəlli verməkdir:

Mətanət Əmirli: Son bir ay erzinde bir çoxlari geda olduğunu nöqtesinedek tesdiqledi !!!

Яшар Аббасов: Axşaminiz xeyir! Adətən pisi yaxşıdan ayırmaq üçün işıq axtarilir, amma hərdən işığin olmamasi da buna kömək edirmiş. Yenə nə məsələdir ? .

Murvet Yusifov: Narahatlıq yoxdu eloğlu.

Яшар Аббасов: İnanıram, digər tərəfdən bir el məsəli var islanmişin yağişdan nə qorxusu . Çox vaxt arxa cəbhənin döyüşü, ön cəbhədən çətin olur. Başima gəlib hər ikisi . Nə isə.. Uğurlar !

Vahid Imanov: Saqolasan Bey keserli sozlerinize gore sonuna kimi yanindayiz sonu ne olursa olsun!!!!

Qvadalupa Huseynova: Sorsaniz da istədiyiniz cavabi ala bilməyəcəksiz, Çünki deyiləsi sözləri olmayacaq, Çünki almaq istədiyiniz cavablar onlarda çətin ki, tapilsin, Onlarin lüğətindəki sözlər tək özləri üçündü,

Кеклик Мамедова: deyiləsi sözləri olmadiği üçün yox, dediyiniz sözləri özlərinə aid hesab etmədikləri üçün dinməyəcəklər...

Кеклик Мамедова: kişi hesabi sorulacaq iş görməz!!! gədalardan hesab sorulmalidir ki, bir də elə gədaliq etməsinlər!!!

Murvet Yusifov: Narahat olmayın elqızı.

Mahmud Memmedov: Allah seni qorusun qardaş. Şerefsiz gedeler o qeder çoxduku

Yusif Zeynalov: Kişidən cavab almaq olar.Əgər arxadan iş cevirirsə demək namərddi. onunda cəzasını allah və zaman verəcək. Dərd etmə.

Dostları sanki Mürvətə başsağlığı verir.Köhnə patronu Eldar İsmayılın iyulun 9-dakı paylaşımı ilə eyni gündə, M.Yusifov köhnə "dostlarını" həm söyür, həm də hədələyir:

Murvet Yusifovun statusu
9 iyul 2018.

Şərəfsizlər, küncdə-bucaqda aslana dönməyin, üzümə çıxacağınızı düşünün.

Gulu Huseynova: Uze cixmaga kişilik gerek

Кеклик Мамедова: mürvət müəllim, belə əsəbləşməyin.... özünüz məsləhət görürdünüz mənə soyuqqanli olmağı....əsəbləşib onlarin qiymətini qaldimayin, onlari reklam eləməyin... belələrini görməzdən gəlmək onlara ən böyük zərbədir...

Yusif Zeynalov: İt hürər karvan kecər, yel qayadan nə aparar. iş orasindadir ki, itlərin sayi çoxalanda, karvana hücum edə bilərlər...

Yusif Zeynalov: Кеклик Мамедова bu itlər sadiq coban iti deyillər, onlar ancaq yala hürənlərdi.

Кеклик Мамедова: iş orasindadir ki, itlərin sayi çoxalanda, karvana hücum edə bilərlər...

Mürvət "şərəfsiz" sözü ilə kifayətlənmişdi, amma dostları köhnə dostlarını it adlandırır..

Pervane Zengezurlu: Yenə niyə əsəbiləşmisən ay qardaş elələrinə fikir vermə

Bu ara Sima Hüseynzadə adlı bir nəfər Mürvəti lap əsəbləşdirir:

Sima Huseynzade: Üzüm sezonu deyil,şəftəli sezonudu,
Murvet Yusifov: Şəftəli yox, şaftalı!
Sima Huseynzade: Murvet Yusifov mən şəftəli deyirəm,

Heç şəftəlinin yeridir. Sima Hüseynzadə?

Mehriban Namazova: Uze cixasi olsaydi niye danişirdiki?

Arif Meherremov: Men dushunurem ki ola bilir ki bir insan bir insanla yoldashlasha bilmirse, xasiyyet ve xususiyyeti tutmursa dava dalash olmadan ve dushmen movqe tutmadan

uzaqlashmalidir. Uzaqlashan zaman sher-bohtan ve qerezle onu gozden salmağa çalishmamalidir. Orgedilmish ve qerezle sifarish yerine yetirenler kash ozlerinin pis emel dashiyicisi oldugunu ya ozleri anlayardilar yada onlara anlayardilar. Murvet bey her kesin ozune mexsus aqide dostlari her zaman onun yaninda olacaq. El-Oba tesubkeshliyinde senin inkar olunmayan mubarizlik feailiyyetinide sene ugurlar dileyirem. Aciq beyan edirem Milli Vetenperverlik deyerlerimiz ve Qerbi Azerbaycanciliq tesubkeshliyinin qorunmasinda senin emeyin danilmazdir.

M.Yusifovun qanı o qədər qaradır ki. A.Məhərrəmovun təsəllisini də qulaqardına vurub cavabsız buraxır..

Mürvət Yusifovun səngimək bilməyən kini, küdurəti facebook səhifələrində aşıb-daşır:

Mürvət Yusifovun status
13 iyul 2018.

İtin biri qaraya hürməkdə davam edir,digəri isə daha böyük iddiada olduğunu biruzə verir. Bu itlərin sahibi çıxacaqmı?

Bu statusa cəmi 3 nəfər yorum yazıb, onlardan biri M.Yusifovun "Zəngəzur bölgəsi üzrə səlahiyyətli nümayəndə" "təyin etdiyi" Pərvanə Zəngəzurludur.

Pərvanə Zəngəzurlu: Sahibsiz itlər çox qorxaq olurlar.

Onun yorumunu 4 nəfər bəyənib: Mahmud Məmmədov, Şəbnəm Bünyadzadə, Mətanət Əmirli və Mürvətin özü. Mürvətin indiyə kimi ən qızğın tərəfdarları, yeri gəldi-gəlmədi onunla dialoq aparanlara qarşı hücum çəkən həmin 3 nəfərin heç biri yorum yazmayıb. Görünür, Mürvətin ulduzunun qürub etdiyini onlar da başa düşüb və ondan ayrılmağın daha sakit üsulları barədə düşünürlər…

Mürvət iyulun 19-da paylaşdığı statusda Aşıq Ələsgərdən gətirdiyi sitatla qüvvələrini yoxlamaq, təftiş etmək qərarına gəlir:

Çox güman ki. giley-güzarı da Eldar İsmayıla ünvanlanıb. Özünü E.İsmayılla köhnə dost, E.İsmayılla Rizvan Talıbovun münasibətlərini isə təzə aşnalıq sayır..

Murvet Yusifovun statusu
19 iyul 2018

Təzə aşnalığın, köhnə dostluğun
Fərqi var qış ilə yaz arasında!
(Dədə Ələsgər)
Dostlara salam olsun!

Yorumlar:
Яшар Аббасов: Salamlar !
Heqiqet Binnetova: Salam! Ələsgər dədəyə min rəhmət!
Dost dostdan inciyər, qəlbində dönməz,
Olar bir az ərki naz arasında.
Cahan Quliyeva: Əleykümsalam.Allah Dədəyə rəhmət eləsin.Bəli ,köhnə dostluqlar ömrün gənclik illərinə gedib çıxır,hansı ki, o mərhələdə insanlar daha dürüst ,daha saf,daha cəsarətli və daha səmimi olurlar. Yaşa dolduqca , insanları tanımağı: zahirdə bir ,batində başqa cür olduqlarını görməyi öyrənirik...😮
Xuraman Zakirqızı: Salam. Axşamınız xeyir olsun.
Şebnem Bunyadzade: Salam eloğlu.

Mürvətin düşərgəsində vəziyyət faciəlidir. "Qırılan" "qırılıb", qaçan qaçıb, itkin düşənlər var, çoxu isə düşmən tərəfə keçib. Mürvətin başında cəmi 5 nəfər qalıb, zəif səslə onun salamını alırlar. Qabillə Mətanəti isə yəqin kəşfiyyata göndərdiyinə görə, onlar da görünmür və Mürvət qəzəblənir, son gücünü toplayıb bu işlərdə ən çox baiskar hesab etdiyi Eldar

İsmayıla hücuma keçir. Eldar İsmayıl üçün elədiklərinə görə dərin peşmanlıq keçirir:

Mürvət Yusifovun statusu
24 iyul 2018.

Siyasətə qarışmıram deyənlərin bəziləri ən böyük oyunbazlardı!

Bu dəfə onun səsinə cəmi 2 nəfər səs verir, yeni fərarilər var:

Yorumlar:
Sevil Ibrahimqizi: Bəli, qardaşım, haqlısınız
Mehriban Azamatova: Mən siyasətə qarışmıram)

Bəs Mətanətlə Qabil haradadırlar? Yoxsa onlar da fərarilik ediblər? Mürvət Yusifovu kölgələri də tərk edib? Bu halda gərək ona bundan sonra "kölgəsiz adam" deyək.

Beləliklə, bu mənəviyyat terrorçusunun, şər və intriqa simvolunun mənə qarşı Eldar İsmayılla birlikdə təşkil etdiyi cəbhə dağıldı. Dağılma keçən ildən başlamışdı. "Göyçə ustadları" "ədəbi" almanaxını hazırlayanda iki dəstəyə bölündülər, "Göyçənin yeni ustadı", "yeni ümid yeri", "pənahı" Niftalı Göyçəlinin mənsub olduğu dəstə ondan qopdu, bu ilin yaz və yay aylarında isə Mürvət təkləndi, ortada qaldı.

Görəsən, Mürvət bütün bunlardan həyat dərsi alacaqmı? İnanmıram. Çünki şərin simvolu olan bu adamın sabah hansı çirkin işlər törədəciyini özündən başqa, əstəğfurullah, heç Allah da bilmir! Bilsə, bilsə, bəlkə Qabil Zimistanoğlu ilə Mətanət Əmirli bilələr...

Allah bizi, Azərbaycanı bu üçlüyün şərindən qorusun! Amin!

İyulun 30-da M.Yusifov sonuncu partonunu silahına qoyur:

Mürvət Yusifovun statusu
30 iyul 2018.

Bu gündən yaltaqlara qarşı daha sərt olacam.Hətta ağır ifadələr işlədəcəm. Təcili dostluğumu tərg etsinlər!!!

Görəsən M.Yusifov bu ifadəni işlədəndə Qabil Zimistanoğlunu nəzərdə tutur, yoxsa başqalarını?
Deyəsən, Mürvət də gerçəkliyi-uduzduğunu anlayıb və avqustun 13-də belə bir status paylaşıb:

Mürvət Yusifovun statusu
13 avqust 2018

Haqsızlıq o qədər çoxalıbdı ki,
Bəzən bu dünyadan getməyim gəlir!

Getmə, Mürvət Yusifov, qoy o dünyadakılar hələlik rahat yatsınlar. Gedib intriqalarınla o rəhmətlikləri də bir-birinə qatacaqsan, yeraltı dünyanın hakimi olmaq iddiasına düşəcəksən! Nə qədər gec getsən, o dünyadakılar üçün daha rahat olar.
Yunan mifologiyasında yeraltı dünyanın adı Tartar adlanır.
Bizim Tərtər rayonunda buna bir vəzifədən-zaddan versəydilər, azarını öldürüb o dünyaya rahat gedərdi... Yoxsa o dünyadakıların işi çətin olacaq..

Amma əvvəlcə yaşadığı Göygöl rayonunda eşitdiyimə görə Mürvətə balaca bir vəzifə veriblər və Mürvət ona çörək verən adamı peşman edib. İndiki kimi işsiz imiş, kəndin icra

nümayəndəliyinə hansısa işə götürüblər. Bir aydan sonra adam gəlir ki, qapısı bağlıdır. Mürvət irəli yeriyib deyir ki, səni kabinetinə buraxmayacağım, bundan sonra özüm bu vəzifədə işləyəcəyəm. Məsələnin nə ilə qurtardığını düşünmək elə də çətin bir iş deyil...

Təklifimi qəbul edib Tərtərdə ona iş təklif etsələr, bu epizodu mütləq nəzərə almaları lazımdır...

Eldar İsmayıl üstüörtülü şəkildə M.Yusifova yenidən mesaj göndərir:

Eldar İsmayıl Böyüktürkün statusu

29 avqust 2018.

Özünə hörmət edən adam başqasının adına qara yaxmaz.

Bunlar burada qalsın, sizə kimdən deyim, Niftalı Göyçəlidən...

Bir müddət kölgədə qaldı. Mürvət Yusifovun dəstəsi dağılandan sonra sanki basqıdan azad olub, atını sağa-sola səyirdir. Bir müddət bundan əvvəl "Palitra" qəzetinə müsahibə vermiş və Aşıq Ələsgərin arvadı Anaxanımın Aşıq Hüseyn Bozalqanlı illə yaxın qohum olduğunu demişdi. Özü də Anaxanıma çox istiqanlılıqla "Anaxanım nənə" demişdi. Bəs necə, Anaxanımla Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərlidən yarıyıb axı. Onun buraxdırdığı "Göyçə ustadları" almanaxına (özünün dediyi şəkildə qəbul etsək, antologiyasına) Şair Məmmədhüseynə yer ayırmasa da, 5 "şeirini" saldı, özünü Göyçənin sonuncu "ustadı" kimi "sənədləşdirdi". Hətta bu baxımdan Eldar İsmayıl Böyüktürkdən də qabağa keçdi.

X.Ələsgərlinin yaratdığı goyçə.az saytının rəhbəri də oldu, beləliklə 200 manat pensiyasından çox gileylənməyini arxada buraxdı.

Düşünürsünüz ki, Niftalı Göyçəli təkcə Anaxanım "nənəsini" Aşıq Hüseyn Bozalqanlı ilə qohum çıxartmaq kimi xırda işlərlə məşğuldur? Yanılırsınız!

Haqqında söhbət gedən kitabda N.Göyçəli Miskin Abdal üçün "maraqlı" bir "həyat hekayəsi" düzüb-qoşmuşdu. Onu 1430-cu ildə "dünyaya gətirmiş", Şah İsmayılın silahdaşı etmiş, Şah İsmayılın ölümündən sonra isə 94 yaşında(!!) onu Göyçə mahalının Sarıyaqub kəndinə "qaytarmışdı". Ki, Miskin Abdal gəlib burada məktəb açsın!

Amma deyəsən, fikrini dəyişib. Eşidib ki, Aşıq Şəmşirin Miskin Abdalla qohumluğu barədə söz-söhbət gəzir. Artıq Xətaini xırda adam hesab edən, ondan daha yararlana bilməyəcəyini düşünən Niftalı Göyçəli indi Aşıq Şəmşirin yüksək mənsəb sahibi olan nəvəsi ilə yaxınlaşmaq üçün variantlar axtarır. Bu variantlardan maraqlı birini deyim, siz də bilin.

Davam.az saytına bir "məqalə" yazan N.Göyçəli Miskin Abdalın Şah İsmayılın müəllimi, lələsi olmuş Lələ Hüseyn olduğunu yazır! İndiyə qədər qaraguruhçuların "ideoloqları" yazırdılar ki, (Şahlar Hacıyev və başqaları) Şah İsmayıl 1501-ci ildə Göyçədən keçəndə Miskin Abdalın yaşadığı Sarıyaqub kəndinə gələrək onun haqqında 2 fərman verib (şah olmamışdan əvvəl!!), ona 5 kənd bağışlayıb! Niftalı Göyçəli daha Miskin Abdalın həmin statusu ilə barışa bilmir, onu Şah İsmayılın "müəllimi", "tərbiyəçisi", "hökmdarlığa hazırlayan" bir statusa qaldırır. Aşıq Şəmşirin qohumlarına yaxınlaşmaq və nəsə qazanmaq istəyir.

Niftalı Göyçəlinin təkcə bununla kifayətləndiyini düşündünüzsə, yenə də yanıldınız!

Niftalı Göyçəli həm də iddia edir ki, ana tərəfim Miskin Abdalın nəslindəndir!!

Amma ən məzəlisi, hansı mənbələrə əsaslsnıb Miskin Abdalı Lələ Hüseynə çevirməsi haqqında şahlar hacıyevin sualına verdiyi cavab idi: mənbələri sonra açıqlayacağam!

N.Göyçəlini bir qədər əvvəl Azərbaycan tarixini və ədəbiyyatını şumlayan K-700 traktoruna bənzətmişdim.

Amma nağıllarda deyildiyi kimi, N.Göyçəli aylarla, illərlə yox, saatlarla, günlərlə böyüyür və yaxınlarda T-92 tankına çevriləcək! Əgər onun üzünü Qarabağa çevirə bilsək, hesab edin ki, Xankəndinə girmişik!

Ya "qohumluq" naminə, ya da Miskin Abdal barəsindəki "tədqiqatlarına" görə N.Göyçəli Aşıq Şəmşirin yüksək vəzifəli nəvəsindən nəsə qazanmaq istəyir! Bircə qalır bu mesajları həmin şəxsə çatdırmaq!

Qalanı Allahın əlindədir!

"Bizim Niftalı Göyçəli" çox uzağa gedən gedişlər edir...

Ona irad tutanlara isə 2 cavabı var:

1)Mən belə hesab edirəm, belə də yazıram,vəssalam!

2)Sanço, sən qəhrəman deyilsən, sənin gözünə elə görünür!

SON SÖZ YERINƏ...

2018-ci ilin mart ayının 3-də yazmağa başladığım bu kitabı həmin il sentyabrın 17-də tamamladım. Kitab çıxana qədər qaraguruhçu dəstənin daha hansı şər əməllər törədəcəyi məlum deyil. Mən isə kitabı nəhayət ki, bağlayıb mətbəəyə göndərməliyəm. Çünki məni qarşıda böyük işlər gözləyir. "Qazax nahiyəsinin Kameral təsviri.1860-cı il" (AMEA İctimai Elmlər bölməsinin qərarı ilə nəşr olunan həmin kitabın elmi redaktoru görkəmli Azərbaycan alimi. AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik Şahin Mustafayevdir) kitabım da mətbəədədir. O, nəşr etdirdiyim sayca dördüncü kameral təsvir olacaq. Sonra Aşıq Cəlillə bağlı tərtibçisi olduğum kitabı çapa verməliyəm, çünki onun doğum tarixi ilə bağlı üzə çıxartdığım 1868-ci il elmi dairələr, Folklor İnstitutu, Aşıqlar Birliyi və Mədəniyyət Nazirliyi səviyyəsində qəbul edildi və yaxın vaxtlarda onun anadan olmasının 150 illik yubileyi keçiriləcəkdir. İrəvan əyalətinin 5 cildlik Kameral təsvirindən I cild akademik Y.Mahmudovun elmi redaktorluğu və Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunub, qalan 4 cild məni gözləyir. Bu cildlərdə Vedibasar. Zəngibasar, Körpübasar, Dərəçiçək, Sürməli, Sərdarabad və keçmiş İrəvan xanlığına daxil olan digər mahallar yer alacaqdır. Planımda Zəngəzur, Şürəyel, Lori-Pəmbək, Şəmşəddil mahalının, başqa mahallarımızın kameral təsvirləri durur. Mənim bu kitaba əslində ayırmağa vaxtım yox idi, məni məcbur etdilər.

Oxucular bu kitabda mənə qarşı işlədilən söyüş, təhqir və şər kampaniyasını əlbəttə, görəcəklər. Nə gizlədim, xalq və Vətən üçün faydalı işlər görərkən bu cür təhqir olunmağıma görə əlbəttə, üzülürəm. Amma inanın ki, məni ondan da çox üzən şey cəmiyyətimizdə XXI əsrin insanına yaraşmayan şəkildə bu cür nadanların, cahillərin var olması, mənə badalaq gəlmək cəhdləridir.

Qaraguruhun mənə ən çox verdiyi "Ermənistan Milli Arxivindən bu sənədləri necə əldə etmisən?" sualı idi. Bəziləri isə deyirdi, yazdıqların mühüm şeylərdir, amma Ermənistan arxivinə istinad etməyin işi korlayır.

Onlara cavab verirəm.

Nəşr etdiyim Kameral təsvirlər qədim yurd yerlərmizin pasportudur. Siyasətçilərimiz də, qələm sahiblərimiz də, adi vətəndaşlarımız da haqlı olaraq həmin ərazilərin qədim türk torpağı olduğunu deyirlər. Amma bir var şifahi deyəsən, bir də var sənədlə sübut edəsən. Bu baxımdan, nəşr etdirdiyim Kameral təsvirlər həmin yurd yerlərimizin bir növ mülkiyyət kağızı, türklər dediyi kimi, tapu sənədidir. Siyasətçilərmizin əlində olan hüquqi sənəddir. Və bu hüquqi sənədlərin vasitəsilə biz həmin ərazilərə iddia edə bilərik.

Bu məsələnin çox mühüm tərəfi isə ondan ibarətdir ki, həmin ərazilərin bizə məxsus olması, Fransa, İtaliya, Almaniya, Gürcüstan və ya Rusiya arxivlərinin deyil, məhz Ermənistanda olan arxivin vasitəsi ilə sübut olunur. Bir növ, ermənilərin dilindən etiraf məktubu almış oluruq ki, bəli, o torpaqlar qədim türk torpaqlarıdır.

Beləliklə, təvazökarlıqdan uzaq olsa da, deməliyəm ki, bu Kameral təsvirlər Azərbaycan dövlətinə qazandırdığım kəsərli silahdır. Həm də həmin Kameral təsvirləri ailə büdcəmin hesabına nəşr etdirmişəm...

Bu, gördüyüm işlərin necə deyərlər, siyasi tərəfi.

Nəşr etdirdiyim kameral təsvir kitabları təkcə tarixçilər üçün deyil, həm də filoloqlar, etnoqraflar, sosioloqlar, dilçilər və başqa elm sahələrinin nümayəndələri üçün də olduqca qiymətli mənbədir. Əminəm ki, qədim torpaqlarımızın tarixini, coğrafi-

yasını, iqtisadiyyatını, etnoqrafiyasını və s. tədqiq edənlər üçün bu kitablar qiymətli mənbə rolunu oynayacaqdır.

Mübahisələrə, çəkişmələrə səbəb olan "Haqq-nahaqq seçilər Haqq divanında" kitabım da belə yarandı. Göyçə mahalının Kameral təsvirini nəşr edərkən bütün ustad sənətkarlarımızın, o cümlədən Aşıq Ələsgərin doğum tarixlərindəki uyğunsuzluqları gördüm və Azərbaycan filologiya elminə, folklorşünaslığımıza yardım etmək məqsədi ilə həmin kitabı yazdım. Güman edirəm ki, kameral təsvirlərə istinadən yazılmış bu cür yeni-yeni kitablar da meydana çıxacaq və Azərbaycan elminə xidmət edəscəkdir.

Bu da məsələnin elmi tərəfi.

Üçüncü mühüm cəhət ondan ibarətdir ki, minlərlə insan, öz şəcərəsini bu kitablardan dəqiqliklə müəyyənləşdirəcək, nəsil ağacını bərpa edəcək, kitablar yazacaqdır. O cümlədən, mənim özüm də 2016-cı ildə çapdan çıxan "Gabud və gabudlular" kitabımda öz əcdadlarımın da, doğulduğum Gabud kənd sakinlərinin də şəcərəsini üzə çıxartmış, ətraflı təsvir etmişəm. İnsanın öz əcdadlarını, soy-kökünü öyrənməkdən daha qiymətli nə ola bilər?

Burada başqa bir məsələyə də toxunmaq istərdim. Son dövrlərdə kimlərsə bir başqasını onun etnik mənsubiyyətini şübhə altına almaqla aşağılamağa, fəaliyyətinə kölgə salmağa cəhd edirlər. Əminəm ki, Kameral təsvirlər bu cür çirkin halların qarşısını almaqda da yardımçı olacaqdır.

Dördüncüsü, məsələnin mənəvi tərəfidir.

1988-ci ildə əzəli yurd yerlərindən deportasiya edildikdən sonra əcdadlarımızın, ulularımızın qəbri düşmən tapdağı altındadır, ruhları sızıldayır. Mən bu kameral siyahıları nəşr etməklə, belə hesab edirəm ki, onların qərib və qəmgin ruhlarını şad edirəm, qoy görsünlər ki, biz onları unutmamışıq, onlar

sahibsiz deyillər, biz onların Vətənə çevirdiyi yurd yerlərinə qayıtmaq əzmindəyik. Eramızdan əvvəl 586-cı ildə Babilistan dövləti Yəhuda dövlətini işğal edib bütün yəhudiləri oradan qovdular və onlar dünyaya səpələndilər. O vaxtdan dünyanın harasında olur-olsun, iki yəhudi bir-biri ilə görüşəndə bir cümlə işlədirdilər: "Yerusəlim, səni unutsam, sağ əlim qurusun!" Yəhudi xalqı bu mənəvi gücün hesabına 2.500 illik mübarizədən sonra həmin ərazilərə, Yerusəlimə (Qüdsə) qayıtmağı bacarıb, İsrail dövlətini qurdu!

Hesab edirəm ki, Qərbi Azərbaycan mahallarının nəşr etdirdiyim kameral təsvirləri də oxşar rol oynaya bilər, həmin torpaqları-İrəvanı, Dərələyəzi, Vedibasarı, Zəngəzuru, Zəngibasarı, Göyçəni unutmağa qoymayacaq! Yaxın gələcəkdə nail ola bilməsək də, gələcək nəsillərimiz o tarpaqları, tarixi Vətənimizi öz qanuni sahiblərinə qaytaracaqdır!

Onda bu sətirlərin müəllifinin ruhu da Vətən göylərindən baxıb təskinlik tapacaq və pıçıldayacaq ki, əməyim hədər getmədi...

1988-ci ildə minlərlə soydaşımız kimi doğma Vətənindən didərgin düşən atam Surxay Əhmədin (Şahquliyev) belə bir rübaisi var:

Durnam, yolun düşsə, Dərələyəzdən,

O doğma yerlərə salam de bizdən.

Denən yurd niskili, Vətən həsrəti

Ölüncə silinməz ürəyimizdən.

Atam 2013cü ilin noyabr ayının 6-da bu nisgillə dünyadan köçdü. Həmin rübaisi onun məzar daşına həkk olunub....

Nadanlara, bədxahlarıma, cəmiyyətin tör-töküntülərinə son sözümü şeirlə demək istəyirəm:

Dünya fani dünyadır, hamı köçüb gedəcək,

Ayrılıq şərbətini bir gün içib gedəcək.

Biri çiçək bəslədi, biri tikan böyütdü,

Nə əkibsə tarlada, onu biçib gedəcək!